Yönetim kurulunda temsil edilme hakkına sahip olabilecekler TTK m.360'da sınırlı sayıda düzenlenmiştir. Bunlar, pay grupları, azınlıklar ve özellikleri itibarıyla grup oluşturan paysahipleridir. Bu üç ilgili grubun ortak özelliği genel kurulda yönetim kuruluna üye seçtirebilecek oy hakkına ve potansiyeline sahip olmamasıdır. Bir başka deyişle, oy hakkı açısında, yönetime katılma hakkı açısından dezavantajlı konumda olmasıdır (Bilgili ve Demirkapı, 2013; Çınar, 2017). Yönetim kurulunda temsil edilme hakkı bu ilgililerin tamamına birlikte tanınabileceği gibi her bir ilgili gruba ayrı ayrı da tanınabilir. Yeter ki, imtiyazdan yararlanabilecek olan ilgililer, gruplar, paysahipleri ve imtiyazın kapsamı ve kullanım şekli tartışmaya mahal bırakmaksızın açıkça esas sözleşmede gösterilmiş olsun. Ancak altı çizilmelidir ki, sınırlı sayı ilkesi gereğince esas sözleşmeyle dahi olsa bu sayılan üç ilgili gruba ilaveten yeni ilgililer ve gruplar yönetim kurulunda temsil edilme hakkından yararlandırılamaz.

**Dezavantajlı Gruplar ve İlgililer İçin Yönetim Kurulunda Temsil Edilme Hakkının Tanınması**

Yönetim kurulunda temsil edilme hakkı şeklindeki imtiyazdan yararlanabilecekler arasında özellikleriyle belirli bir grup oluşturan paysahipleri yer almaktadır. Bu ihtimalde belirli bir grup içerisinde yer alan payların tamamı değil; özellikleri ile belirli bir grup oluşturan paysahipleri yönetim kurulunda temsil edilme hakkından yararlanabilmektedir. Pay gruplarına tanınan imtiyazdan farklı olarak, anonim şirkette belirli özelliklere sahip paysahiplerine yönetim kurulunda temsil edilme hakkının tanındığı görülmektedir. Anonim şirkette paysahibi olmaları koşuluyla işçiler, bayiler, tedarikçiler ya da belirli bir ailenin mensupları gibi aynı sıfatları, aynı özellikleri taşıyan paysahipleri yönetim kurulunda temsil edilme hakkından yararlanabilirler (Tekinalp, 2013). Grup oluşturacak paysahipleri belirlenirken ayırt edici özelliklerin objektif olması ve dürüstlük kuralına uygun şekilde tespit edilmesi son derece önemlidir. Aynı şekilde esas sözleşme ile belirlenen özelliklerin

sözleşme serbestisinin sınırlarını ihlal etmemesi de olmazsa olmaz bir gereklilikt ir (Kaya, 2016). Bu sebeple, kamu düzenine, kişilik haklarına, genel ahlaka aykırı bir koşul ya da kriter paysahiplerinden meydana gelen grup için belirleyici bir özellik olarak düzenlenemez. Bir siyasi partiye üyelik, bir etnik gruba aidiyet, bir dine ya da dini gruba bağlılık paysahiplerinden meydana gelen grup için belirleyici bir özellik olarak esas sözleşmede gösterilemez (Pulaşlı, 2014).

**Yönetim Kurulunda Temsil Edilme Hakkının Kullanılması**

Yönetim kurulunda temsil edilme hakkı iki farklı şekilde kullanılabilir. Bunlar, yönetim kurulu üyelerinin, yönetim kurulunda temsil edilme hakkına sahip olan belirli gruplar arasından seçilmesini sağlamak ve yönetim kurulunda temsil edilme hakkına sahip olan belirli gruplara yönetim kurulu üyeliği için aday önerme hakkı tanımak şeklinde kısaca açıklanabilir (Kendigelen, 1999). Buna karşın, hangi yöntemle yönetim kurulunda temsil edilme hakkı kullanılırsa kullanılsın genel kurulun üye seçme yetkisini tamamı ile ortadan kaldırmamaktadır (Eminoğlu, 2023). Zira, her iki ihtimalde de yönetim kuruluna üye seçimine ilişkin geçerli olan kararı son tahlilde genel kurul verebilecektir. Bu sebeple, TTK m.360, genel kurulun yönetim kuruluna üye seçme yetkisini kaldırmayan ancak kısıtlayan bir imtiyazı düzenlemektedir. Genel kurul bu kısıtlamaya uygun olarak TTK m.360'da düzenlenen imtiyazın ruhuna ve amacına uygun hareket etmek zorundadır. Şayet yönetim kurulunda temsil edilme hakkı yönetim kurulu üyelerinin belirli gruplar arasından seçilmesini sağlamak şeklinde ortaya çıkmışsa genel kurul her durumda, yönetim kuruluna üye seçerken söz konusu imtiyazlı gruplar arasından bir kişiyi seçmek zorunda kalacaktır. İmtiyaz sahibi belirli gruplar için ise yönetim kurulunda temsil edilme hakkından yararlanmak bir yetkinin konusunu oluşturmaktadır; zorunluluk olarak kabul edilemez. Bu sebeple, yönetim kurulunda temsil edilme hakkına sahip olmasına rağmen pay gruplarının, grup oluşturan paysahiplerinin ve azınlığın bu hakkını kullanmaktan imtina etmesi de ihtimal dahilindedir (Kendigelen, 1999; Üçışık / Çelik, 2013). Ancak, belirli grupların yönetim kurulunda temsil edilme hakkının, sahiplerine diledikleri şekilde, sınırsız olarak yönetim kurulunda üye olarak seçilmek ya da yönetim kuruluna gösterdikleri adayların seçilmesini dayatmak imkânı getirmediği de belirtilmelidir. Zira, genel kurul, özellikle belirli gruplar tarafından aday olarak gösterilen kişi ya da kişileri kanun ya da esas sözleşmede üyelik için aranan gerekli koşulların karşılanmaması başta olmak üzere haklı bir sebebin varlığı halinde yönetim kuruluna üye olarak seçmekten kaçınabilir, hatta kaçınmalıdır da (Ayhan, Çağlar ve Özdamar, 2021; Baltalı, 2019; Karasu, 2016; Kendigelen, 1999). Aday olarak belirli pay grupları tarafından gösterilen kişinin sağlık sorunları dolayısıyla yönetim kurulu üyeliğini layıkıyla yerine getiremeyecek olması, önerilen adayın anonim şirketin yapmakta olduğu bir işi kendisi veya başkası hesabına yaparak rekabet yasağının ihlaline yol açabilecek bir faaliyetinin bulunması veya anonim şirketin itibarını zedeleyecek tarzda kötü bir ününün ya da geçmişinin bulunması da genel kurul tarafından red kararının gerekçesi niteliğinde haklı bir sebep olarak kabul edilebilir. Benzer bir şekilde, yönetim kuruluna üyelerin belirli gruplar arasından seçilmesi şeklindeki imtiyazın kullanılması halinde, genel kurul yönetim kurulunda temsil edilme hakkına sahip imtiyazlı gruplar arasından yönetim kurulu üyesini seçerken kanun ve esas sözleşmede aranan koşulları taşıyan, seçilme engeli bulunmayan gerçek ya da tüzel kişiyi seçmeye özen

göstermek zorundadır. Aksi bir durumda, anonim şirketin, paysahiplerinin, üçüncü kişi alacaklılar ile yatırımcıların menfaatine aykırı, zarara yol açabilecek şekilde yönetim kurulunun teşkiline neden olunur ki, genel kurulun kanun ya da esas sözleşmede yer alan koşulları taşımayan adayları yönetim kuruluna seçmesine ilişkin bu kararının iptali gündeme gelebilir (Üçışık ve Çelik, 2013; Pulaşlı, 2014; 2012).

## SÜRDÜRÜLEBİLİR KALKINMA HEDEFİ İÇİN BELİRLİ GRUPLARIN YÖNETİM KURULUNDA TEMSİL EDİLME HAKKININ KATKI SAĞLAMASI

Anonim şirketler gibi küçük birikimlerin büyük yatırımlara dönüşmesini sağlayan bir ekonomik ve hukuki gerçeklikte karar mekanizması şirketin hukuki akıbeti ve kaderinin belirlenmesinde son derece önem arz etmektedir. Piyasaları belirleme gücüne sahip olan anonim şirketlerde yönetim mekanizmasında yer almak, yönetim kurulu üyesi olarak bulunmak sadece şirket tüzel kişiliği, şirketin organları ve şirketin paysahipleri için değil, kamu yararı ve toplum için de etkili sonuçlar meydana getirebilmektedir. Sürdürülebilir kalkınma için anonim şirketlere sadece kazanç elde etmek ve bu kazancı paysahipleri arasında paylaşmak şeklinde bir amaç yüklemek yetersizdir. Buna ilaveten ekonomik ve sosyal hayata doğrudan katkı sağlayabilme kabiliyetine sahip olan anonim şirketlerin toplumun paydaşlarının iradelerini ekonomik ve ticari hayata yansıtılabilmesi amacına da hizmet ettikleri inkar edilemez. Zira, sadece kâr elde etmek, kâr paylarını hissedarlara dağıtmak, bu amaçla istihdam da yaratmak sürdürülebilir olamaz. Bu bir anlamda orman kaynaklarının yok edilerek, yeni ağaçlandırma yapılmadan, ormanda yaşamlarını sürdürenlerin yaşam alanlarının korunması için önlemler alınmadan odun ve ağaç ürünlerinin üretimi ile iştigal eden bir ticari faaliyetin gerçekleştirilmesine benzemektedir. Bu şekilde bir ticari faaliyetin sadece kısa vadede ve sadece ticari faaliyetin aktörleri ile sınırlı olarak fayda sağlayabileceği, bunun dışında ormanın sağlayacağı ekolojik dengeye bağlı, temiz hava ve su kaynaklarından yararlanmaya ihtiyacı olan kesimler ile üretimin devamlılığı sayesinde gelecek nesillerin yararına olmayacağı açıktır. Bu sebeple sürdürülebilir kalkınma açısından ticari faaliyette ve anonim şirket ilişkilerinde ekonomik kazanç elde etmek ve paylaşmak anonim şirketlerde amaç unsuru açısından buzdağının sadece görünen kısmı ile eşdeğerdir.

TTK m.360 ile düzenlenen yönetim kurulunda temsil edilme hakkının yönetim mekanizmasının paydaşlarının artmasına, yaygınlaşmasına katkısı inkar edilemez. Toplumda handikaplı gruplar olarak ifade edebileceğimiz, işçiler, kadınlar ve engellilerin anonim şirketlerin yönetim kurullarında temsil edilme hakkından yararlanabilecek ilgililer arasında kabul edilmesi anonim şirketlerin sosyal yönünün öne çıkmasına yardımcı olacaktır. Belirli özellikleri ile grup oluşturan paysahipleri kategorisinde bu özellik kadın, engelli, işçi olmak ya da belirli bir yaşı geçmemek ya da geçmek şeklinde belirlenebilir. Bu sayede yönetim kurullarında ekonomik kazanç elde etmek ve paylaşmak şeklindeki amaç ile anonim şirketin topluma sağladığı dengeli, sürdürülebilir kalkınma hedefi arasında bir denge sağlanmış olur.

Ancak bu noktada sorgulanması gereken husus, TTK m.360'ın işaret ettiğimiz fonksiyonu yerine getirebilmesi açısından yeterli olup olmadığıdır. Öncelikle TTK m.360'a göre özellikleri ile bir grup oluşturan paysahiplerinin yönetim kurulunda temsil edilme hakkından yararlanabilmesi için bu imtiyaz niteliğindeki istisnai hakkın esas sözleşmede

gösterilmesi gerekmektedir. Dolayısıyla, ancak anonim şirket kurucularının iradesine bağlı olarak işaret ettiğimiz toplumdaki dezavantajlı grupların anonim şirketlerin yönetim kurulunda temsil edilebilmesi mümkün olmaktadır. Bu durum, sürdürülebilir kalkınma için TTK m.360'ın beklenen katkıyı sağlayabilmesi ile ilgili ciddi soru işaretlerine ve şüphelere yol açmaktadır. Olması gereken açısından kanaatimiz, TTK'ya emredici bir hüküm koyarak belirli ölçeklere uyan, işçi sayısı, sermaye miktarı, faaliyet konusu vb. belirli kriterleri karşılayan anonim şirketlerin yönetim kurullarında toplumsal açıdan dezavantajlı gruplara temsil edilme hakkının tanınmasına ilişkin bir düzenleme yapılmasıdır. Bu noktada karşımıza bir başka soru işareti daha çıkmaktadır. Yönetim kurulunda temsil edilme hakkından yararlanabilecek olanlar, özellikleri ile bir grup oluşturan paysahipleridir. Paysahipleri ancak kendi aralarından ya da dışardan bir yönetim kurulu üyesi seçerek temsil edilme hakkından yararlanabilecektir. Bir başka deyişle, temsil edilme hakkından ancak paysahipleri yararlanabilecektir. Bu çerçevede olması gereken açısından kanaatimiz işçiler, sendika üyeleri gibi ilgililere şirketin yönetim kurulunda üye olabilmeleri için doğrudan bir yetkiden tanınmasıdır. Bir başka deyişle, yönetim kurulunda temsil edilme hakkından yararlanabilmek için paysahibi olmak koşulunun aranmamasıdır. İşaret ettiğimiz olması gereken açısından değişiklikler olmaksızın ise TTK m.360'ın sürdürülebilir kalkınma hedefi için yeterli katkıyı sağlayamayacağı açıktır.

## SONUÇ VE DEĞERLENDİRME

Sadece ekonomik bir kazanç elde etmek ve elde edilen bu kazancı paysahipleri arasında paylaşmak, elde edilen gelir sayesinde vergi tahakkuku ile kamu maliyesi açısından bir kaynak oluşturmak anonim şirketlerden beklenen faydalardandır. Ancak işaret edilen bu fayda kalemleri toplumsal yönü, sürdürülebilir kalkınmaya sunabileceği potansiyel katkısı dikkate alındığında anonim şirketlerin görünen yüzüdür. Anonim şirketlerin halka açılabilmesi, çok paysahipli yapısı, kurumsal yönünün ağır basması anonim şirketlerden toplumsal fayda için beklentilerin ortaya çıkmasına neden olmaktadır. İşte bu beklentiyi karşılayabilmesi için anonim şirketlerin yönetim mekanizmasının profesyonellik ve sosyallik ile bir denge gözetilerek şekillendirilmesi gerekir. TTK'da bu gerekliliğe ilişkin yer alan düzenleme ise 360. maddedir. TTK m.360'ta azınlıklar, belirli pay gruplarının yanında belirli özellikleri ile grup oluşturan paysahiplerinin yönetim kurulunda temsil edilme hakkına sahip olabilecekleri düzenlenmiştir. Bu düzenlemede işaret edilen özellikler toplumda dezavantajlı konumda olanlar şeklinde belirlenebilir. Cinsiyet, mesleki kollar, yaş gibi objektif kriterler yönetim kurulunda temsil edilme hakkına sahip olabilmek için aranan özellikler arasında yer alabilir. Bu sayede toplumun dezavantajlı grupları anonim şirketlerin yönetim kurulunda yer alarak kendi kesimlerinin önceliklerini ve beklentilerini anonim şirketin iradesi olarak yansıtabilirler en azından seslerinin duyulmasını sağlayabilirler. Ancak, TTK m.360'a göre işaret edilen imtiyazın esas sözleşmede açıkça öngörülmesi kaydıyla geçerlik kazanabilmesi ve imtiyazdan yararlanabilecekler için paysahibi olmak ön koşulunun varlığı TTK m.360'ın sürdürülebilir kalkınmaya katkı sunabilmesi açısından ortaya çıkan handikaplardır. Bu handikapların ortadan kaldırılabilmesi için dezavantajlı grupların anonim şirketlerin yönetim kurulunda üye olabilmesini kurucuların iradesinden ve tercihlerinden soyutlamak, esas sözleşmeye hüküm konmasa dahi tespit edilecek objektif kriterleri karşılayan anonim şirketlerin

yönetim kurullarında dezavantajlı kesimlerin temsil edilmesini sağlayacak emredici bir hükme TTK'da yer vermek ve temsil edilme hakkından yararlanacakların paysahibi olmalarını bir önkoşul olmaktan çıkarmak olması gereken hukuk açısından önerilerimizdir. Ancak bu sayede TTK'nın yürürlüğe girişinde Gerekçede işaret edilen AB yatırım iklimine uygun ve AB mevzuatı ile örtüşen bir anonim şirketler hukuku ortaya çıkabilir.

**KAYNAKÇA**


Ayhan, R., Çağlar, H. ve Özdamar, M. (2021). Şirketler Hukuku Genel Esaslar, 3. Baskı, Yetkin Yayınevi, Ankara.

Baltalı, C. (2019). Anonim Şirketlerde Yönetim Kurulunda Temsil Edilme İmtiyazı, Oniki Levha Yayınevi, İstanbul.

Bilgili, F. ve Demirkapı, E. (2013). Şirketler Hukuku, 9. Baskı, Dora Yayınevi, Bursa.

Bora Çınar, S. (2017). Anonim Ortaklıklarda Belli Grupların Yönetim Kurulunda Temsil Edilmesi, Kocaeli Üniversitesi Hukuk Fakültesi Dergisi, Sayı 15, 61-86.

Böckli, P. (1996). Schwizer Altienrecht, 2. Auflage, Schulthess Verlag, Zürich.

Eminoğlu, C. (2023). Belirli Grupların Yönetim Kurulunda Temsili, TTK m.360, Şirketler Hukuku Şerhi, Cilt 2, (Editör: Kemal Şenocak), Seçkin Yayınevi, Ankara, 1665-1680.

Karaoğlan, N. İ. (2011). Yeni Türk Ticaret Kanunu'nda Anonim Şirket Yönetim Kurulu'nun Üyelerinin Durumu, Legal Hukuk Dergisi, Cilt 9, Sayı 105, 3471-3482.

Karasu, R. (2016). Anonim Şirket Yönetim Kurulunda Belirli Grupların Temsil Edilme Hakkı, Yıldırım Beyazıt Üniversitesi Hukuk Fakültesi Ticaret Hukuku ve Fikri Mülkiyet Hukuku Dergisi, Sayı 1, 31-40.

Kaya, İ. (2016). İmtiyazlı Pay Kavramı ve Kayıtlı Sermaye Sisteminde İmtiyazlı Paylar, Anadolu Üniversitesi Hukuk Fakültesi Dergisi, Cilt 2, Sayı 3, 225-245.

Kendigelen, A. (1999). Anonim Ortaklıkta Yönetime Katılma Haklarında İmtiyaz, Beta Yayınevi, İstanbul.

Kırca, İ., Şehirali Çelik, F. H. ve Manavgat, Ç. (2013). Anonim Şirketler Hukuku Cilt 1, Banka ve Ticaret Hukuku Araştırma Enstitüsü Yayınları, Ankara.

Kortunay, A. (2015). 6102 Sayılı Türk Ticaret Kanununa Göre Anonim Şirketlerde Yönetim Kurulu ve Üyelerin Bilgi Edinme Hakkı, Oniki Levha Yayınevi, İstanbul.

Moroğlu, E. (2012). 6102 Sayılı Türk Ticaret Kanunu Değerlendirme ve Öneriler, 7. Baskı, Oniki Levha Yayınevi, İstanbul.

Pulaşlı, H. (2014). Şirketler Hukuku Şerhi, Adalet Yayınevi, Ankara.

Tekinalp, Ü. (2013). Sermaye Ortaklıklarının Yeni Hukuku, 3. Baskı, Vedat Kitapçılık, İstanbul.

Uysal, E. (2018). Anonim Ortaklıklarda İmtiyazlı Paylar, Oniki Levha Yayınevi, İstanbul.

Üçışık, G. ve Çelik, A. (2013). Anonim Ortaklıklar Hukuku, 1. Cilt, Adalet Yayınevi, Ankara.

Von Steiger, W. ve von Greyerz, C. (1982). Schweizeriches Privatrecht, Handelsrecht, Helbing & Lichtenhahn Verlag AG, Basel.

**i.ü.f.d Əbdülrəhim Əbdülrəhman o. Dadaşov**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi**
ebdulrehimdadasov@gmail.com

**Xülasə**

Müasir dövrdə iqlim dəyişikliyi və ətraf mühit problemləri ilə mübarizədə yaşıl maliyyə vasitələri əsas rol oynamağa başlamış, müxtəlif maliyyə qurumları və hökumətlər ekoloji davamlılığı təmin etmək üçün xüsusi maliyyə strategiyalarını önə çəkməyə başlamışdır. Bu baxımdan qlobal iqtisadi sistemdə yaşıl maliyyələşmə trendləri xüsusilə son onillik dövr ərzində getdikcə daha böyük önəm qazanmışdır. Bu trendlər çərçivəsində karbon emissiyalarını azaltmağa yönəlik yaşıl istiqrazlar, davamlı inkişaf məqsədlərinə uyğun kreditlər və iqlim dəyişikliklərinə uyğunlaşmanı təşviq edən investisiya layihələri yer almaqdadır. Yaşıl maliyyələşmənin inkişafı ilə maliyyə bazarlarında yeni məhsul və xidmətlərin yaradılması stimullaşdırılmış və ənənəvi maliyyələşmə mexanizmlərinin yeni dövrün “yaşıl inkişaf” konsepsiyasının tələblərinə uyğun transformasiya etməyə yönəlmişdir. Belə ki, yaşıl maliyyələşmə trendləri nəticəsində ənənəvi maliyyə bazarlarında ekoloji məsuliyyətli yeni məhsullar yaradılmış və yaşıl texnologiyalara qoyulan investisiyalar artmışdır.

Məqalədə qlobal iqtisadi sistemlərdə müxtəlif ölkələrin təcrübəsi öyrənilmiş və onların Azərbaycana mümkün təsirləri, bu əsasda imkanlar və perspektivlər araşdırılmışdır. Tədqiqatın gedişatında yaşıl maliyyələşmə trendləri üzrə Məqalədə aparılmış tədqiqat göstərir ki, Azərbaycan yaşıl istiqrazlar, karbon bazarları və bərpa olunan enerji layihələrini təşviq etməklə qlobal yaşıl maliyyələşmə təcrübəsindən faydalana bilər. Bunun üçün institusional çərçivənin gücləndirilməsi və hüquqi əsasların inkişaf etdirilməsinin zəruri olduğu müəyyən edilmiş və müvafiq təkliflər əlavə edilmişdir.

**JEL code: G10, Q01, Q56, Q57**

**Açar sözlər:** Yaşıl, maliyyə, dayanıqlı, ekoloji, investisiya.

**Abstract**

In the rapidly globalizing world, the concept of green economy has emerged as a foundational trend in modern development, aiming to ensure sustainability in enhancing people's well-being and meeting demands across economic, and ecological aspects through a unified approach. Responding to contemporary calls for green development, the concept of "sustainable" development emphasizes the constant consideration of the unity of social, economic, and ecological interests, intending for production, investment, and financing to be aligned accordingly. In the context of green development, the phenomenon of green economy has notably entered a new developmental stage in the China, yielding commendable results.

This article explores the Chinese experience with green economy and examines the possibilities and prospects of its application to the economy of Azerbaijan. Through the course of the research, it has been revealed that certain aspects of the Chinese experience in green economy could be applicable in our country. Specifically, it has been noted that in China, there is precise legislation in the field of green economy, with established standards and criteria, recognition of the role of the "Belt and Road" Initiative in green development, the indispensable role of Global and National Important Agricultural Heritage Systems for

green economy, experiences in waste recycling, as well as suggestions regarding the use of other purposeful green economy tools and mechanisms, such as the production of recyclable and reusable goods.

The experience of different countries in the global economic systems was studied and their possible effects on Azerbaijan, opportunities and prospects were examined on this basis in this article. In the course of the study, the research conducted in the article on green financing trends shows that Azerbaijan can benefit from the global green financing experience by promoting green bonds, carbon markets and renewable energy projects. For this, it was determined that it is necessary to strengthen the institutional framework and develop the legal basis, and relevant proposals were added.

**Keywords:** Green, finance, sustainable, ecological, investment.

**Giriş**

İqtisadiyyat, cəmiyyət və ətraf mühit arasında tarazlığın pozulması perspektivi həm zəngin, həm də inkişaf etməkdə olan ölkələri qlobal miqyasda davamlı inkişafla bağlı ortaq siyasət yürütməyə sövq edir. “Yaşıl iqtisadiyyat” kimi tanınan yeni iqtisadi paradiqma daha ədalətli sosial strukturlar yaratmaq, ətraf mühitə dəyən zərərləri minimuma endirmək, karbon emissiyalarını azaltmaq və təbii ehtiyatlardan səmərəli istifadə etməyi hədəfləyir (Hümbətova, 2024, s.11). İqlim dəyişikliyinin qlobal xarakter daşıması, inkişaf etməkdə olan bazar ölkələrinin iqtisadiyyatlarının istehsal imkanlarının miqyası və onların sürətli artımı yaşıl iqtisadiyyatın həyata keçirilməsini zəruri edir. Lakin hazırda yaşıl iqtisadiyyatın məzmununun iqtisadi xüsusiyyətlərinin nəzərə alınması əsasən inkişaf etmiş ölkələrə yönəlmişdir. Yaşıl iqtisadiyyatın meyarları təbii və insan kapitalının yüksək keyfiyyəti, iqtisadiyyat sahələrinin elmi-texniki və innovativ potensialının yüksək inkişaf səviyyəsi, iqtisadi sektorların resurs intensivliyi və resurs səmərəliliyidir (Кононович, 2024, c.133). Qlobal səviyyədə yaşıl iqtisadiyyata yanaşmaları ümumiləşdirsək, kənd yerlərinin davamlı inkişafı və yaşıl iqtisadiyyatın yayılması kənd təsərrüfatında təbii və iqtisadi resursların kompleks idarə edilməsini və səmərəli istifadəsini tələb edir (Quliyev, 2024, s.93). Qeyd etmək lazımdır ki, “yaşıl iqtisadiyyat” termini hələ də iqtisadiyyat sahəsində tam formalaşmayıb və bir sıra iqtisadçı alimlər onun müxtəlif cəhətlərinə daha çox diqqət yetirmişlər (Hümbətova, 2024, s.11). Lakin bununla belə, “yaşıl iqtisadiyyat”ın nəzəri və təcrübi aspektlərinin öyrənilməsi təşəbbüslərinin artması ilə yanaşı, alimlər onun tərkib hissələrini də hazırda ayrıca tədqiqat obyektlərinə çevriliblər.

Məlumdur ki, yaşıl iqtisadiyyat öz özlüyündə bir çox elementdən və ya komponentlərdən təşkil olunub. Yaşıl iqtisadiyyatın komponentləri bir-birindən asılır və bir-biri ilə sıx bağlıdır. Cəmiyyət və ətraf mühit üçün daha yaxşı gələcək qurmaq üçün iqtisadi və ekoloji artım tandemdə sürətləndirildikdə yaşıl inkişaf və yaşıl iqtisadiyyat arasında əlaqə formalaşır. Bu komponentlərdən biri də məhz “yaşıl maliyyə”dir. İstər məhsul və ya xidmət olsun, ətraf mühitin yaxşılaşdırılması məqsədi daşıyan istənilən strukturlaşdırılmış maliyyə fəaliyyətinə “yaşıl maliyyə” deyilir. Bu, ekoloji cəhətdən təmiz təşəbbüslərin inkişaf etdirilməsini təşviq etmək və ya daha ənənəvi bizneslərin ətraf mühitə təsirini azaltmaq üçün nəzərdə tutulmuş müxtəlif kreditləri, maliyyə alətlərini və investisiyaları əhatə edir (Dadaşov, 2024, s.207).

Ümumiyyətlə, qlobal miqyasda davam edən böhranlar və böyüyən yaşıl iqtisadiyyat öz-özlüyündə yeni dinamik trendləri də öz ardınca dəyişməyə gətirib çıxarır. Ayrı-ayrı inkişaf

etmiş ölkələrdə başlayan bu trendlər, artıq digər inkişafda olan ölkələrə də öz təsirini göstərməkdədir, nəticədə qlobal miqyasda düşünülmüş strategiyaların formalaşmasını da sövq edir. Sözsüz ki, bu dinamika və trendlər də Azərbaycana təsirsiz ötüşmür.

**“Yaşıl” və “dayanıqlı” maliyyə yeni iqtisadi kateqoriyalar kimi**

Dayanıqlı maliyyə və yaşıl maliyyə, iqtisadiyyatın ekoloji davamlılığı və sosial məsuliyyətlilik prinsiplərini əsas alan, yeni iqtisadi kateqoriya kimi nəzərdən keçirilir. Dayanıqlı maliyyə, iqtisadi artımı təmin edərkən eyni zamanda ətraf mühitin qorunması və sosial bərabərliyi hədəfləyən uzunmüddətli maliyyə strategiyalarını əhatə edir. Yaşıl maliyyə isə ekoloji dost və karbon emissiyalarını azaltmağa yönəlmiş maliyyə fəaliyyətləri ilə sıx bağlıdır. Bu iki konsepsiya bir araya gəldikdə, iqtisadi və ekoloji məqsədlərin sintezi olaraq dayanıqlı iqtisadiyyatın yeni bir alt sahəsi yaranır, bu da yalnız maliyyə sabitliyini deyil, eyni zamanda ətraf mühitin qorunmasını və cəmiyyətin rifahını da prioritet olaraq qəbul edir.

Dayanıqlı maliyyə sistemi inklüziv və ekoloji cəhətdən dayanıqlı iqtisadiyyatın uzunmüddətli ehtiyaclarına xidmət etmək üçün real sərvəti formalaşdırmaq üçün maliyyə aktivlərini yaradan, qiymətləndirən və icra edən sistemdir. Dayanıqlı investisiya kateqoriyaları bir-birini istisna etməsə də, əlaqəli təriflərin xəritəsi “dayanıqlı”, “yaşıl” və “iqlim” maliyyəsi arasındakı fərqlərdə geniş uyğunluq tapmışdır. “Dayanıqlı maliyyə” sosial, ekoloji və iqtisadi aspektləri əhatə edən ən əhatəli termin kimi tanınır (GGKP, 2024). “Yaşıl maliyyə” daha sonra, aşağı karbonlu, davamlı və inklüziv yollara doğru yaşıl iqtisadi transformasiyanı təşviq etmək məqsədi ilə gəlirləri ekoloji cəhətdən davamlı layihələr və təşəbbüslər, ekoloji məhsullar və siyasətlər üçün istifadə olunan hər hansı maliyyə alətlərinə aiddir. Yaşıl maliyyənin iki əsas məqsədi ətraf mühitin xarici təsirlərini daxililəşdirmək və risk qavrayışlarını azaltmaqdır. Yaşıl maliyyənin geniş və iqtisadi cəhətdən məqsədəuyğun miqyasda təşviqi qeyri-davamlı böyümə modellərini davam etdirən adi biznes investisiyaları üzərində yaşıl investisiyaların prioritetləşdirilməsini təmin edir. Yaşıl maliyyə şəffaflığı və ekoloji məqsədlərə daxil olan investisiyaların uzunmüddətli düşünməsini təşviq edir və BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (SDG və ya DİM) tərəfindən müəyyən edilmiş bütün davamlı inkişaf meyarlarını əhatə edir (GGKP, 2024).

Yaşıl maliyyə öz-özlüyündə həm fiskal, həm monetar alətləri özündə ehtiva edir. Fiskal sistemin yaşıl maliyyə perspektivlərinin qiymətləndirilməsində iştirakı mürəkkəbdir və vergi güzəştləri, karbon qiymətləri sxemləri və ən müasir maliyyə məhsullarını əhatə edir. Bu cür alətlər təkcə ekoloji cəhətdən şüurlu davranışı təşviq etmir, həm də ümumi dayanıqlı iqtisadiyyata keçidə kömək edir. Ölkələr ətraf mühitin deqradasiyası və iqlim dəyişikliyi ilə mübarizə aparարkən, yaxşı tərtib edilmiş maliyyə sistemi gələcək nəsillər üçün yaşıl maliyyəni təşviq etmək və müsbət dəyişikliklərə nail olmaq üçün çox vacib ola bilər (Abbaszadə və Satıcı, 2023, s.30)

Yaşıl maliyyə fiskal sistemin alətləri ilə yanaşı, monetar alətləri də özündə əks etdirir. Belə ki, investisiya, bank və sığorta məhsullarına bölünə bilən geniş çeşidli maliyyə məhsulları və xidmətlərini əhatə edir. Yaşıl maliyyədə üstünlük təşkil edən maliyyə alətləri borc və kapitaldır. Artan tələbatı ödəmək üçün yaşıl banklar və yaşıl fondlar kimi yeni maliyyə institutları ilə yanaşı, yaşıl istiqrazlar və karbon bazarı alətləri kimi yeni maliyyə

alətləri yaradılmışdır. Bərpa olunan enerji investisiyaları , davamlı infrastruktur maliyyəsi və yaşıl istiqrazlar yaşıl maliyyələşdirmə fəaliyyətləri çərçivəsində ən çox maraq doğuran sahələr olaraq qalır (GGKP, 2024).

**Beynəlxalq təcrübədə yaşıl maliyyələşdirmə və qlobal trendlər**

Yaşıl maliyyə biomüxtəlifliyin qorunması və bərpası, iqlim dəyişikliyinin azaldılması, təbii ehtiyatlardan davamlı istifadə, çirklənmənin qarşısının alınması, eləcə də karbon emissiyalarının azaldılmasını əhatə edir. Əvvəllər ətraf mühitin qorunmasına könüllü töhfə olan şey indi qanuna çevrilir. Məsələn, Avropa İttifaqı (Aİ) 2019-cu ildə yaşıl sövdələşmənin qəbulundan sonra Aİ taksonomiya tənzimləməsini və Dayanıqlı Maliyyə Açıqlama Qaydasını (SFDR) qəbul etdi. Aİ-dəki digər siyasət qaydalarına TNFD, ISSB və digərləri daxildir. Bu sənədlər 2050-ci ilə qədər Aİ-də iqlimə qarşı neytral iqtisadiyyat hədəfinə çatmağı hədəfləyir və 2022-ci ildə fəaliyyətə başlayan şirkətlərə şamil edilir (Zozulia, 2023).

Yaşıl maliyyə bazarı üzrə formaşalan müasir qlobal trendə əsasən, bu bazarın ümumi dövriyyəsi yüksəlişə doğru dəyişməkdədir. Emissiya artıq ən yüksək həddə olmasa da, dayanıqlılıq və xalis sıfır emissiyaya davamlı korporativ öhdəliyin maliyyə aləti kimi davamlı borc tələb etdiyini nəzərə alsaq, o, hələ də irəlidə layiqli səviyyədə saxlanıla bilər (Zhang and Garvey, 2024. p.1). “Yaşıl iqtisadiyyat”ın maliyyələşdirilməsində davamlı gələcək üçün yeni maliyyə bazarlarının və alətlərinin yaradılması ətraf mühit məqsədlərinə çatmaqda yardımçı olduğunu göstərir (Qasımlı və d., 2022. s.121).

İnkişaf etməkdə olan iqtisadiyyatlar yaşıl maliyyə siyasətinin formalaşmasında getdikcə fəallaşır. Onlar 2023-cü ildə yeni siyasət tədbirlərinin 60 faizini təşkil ediblər. Bu, ümumilikdə rekord yüksək göstəricidir. Bu artım onların dayanıqlı inkişaf üçün dayanıqlı maliyyə vəsaitlərindən istifadə etmək üçün sistemli təşəbbüslərini nümayiş etdirir. 2023-cü ildə yeddi ölkə - Argentina, Braziliya, Çin, Hindistan, Meksika, Türkiyə və Birləşmiş Ərəb Əmirlikləri ASEAN-a üzv dövlətlərlə birlikdə dayanıqlı və yaşıl maliyyə üzrə milli strategiyalar və ya çərçivələr hazırlayıb. Bu milli strategiyaların əksəriyyəti Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi və Paris Sazişi çərçivəsində milli məqsədlərə uyğunlaşaraq ümumi milli inkişaf gündəliyi tərtib etmişlər. Bu cür strategiyalar dayanıqlı maliyyənin artımını dəstəkləmək üçün rəhbərlik və milli səyləri stimullaşdırmaq üçün siyasət məqsədlərini, prioritetləri və fəaliyyətlər üçün əsas sahələri müəyyən etməyə kömək edir. Bu tendensiya ölkələr arasında dayanıqlı və yaşıl maliyyə ilə bağlı siyasətin formalaşmasına sistemli yanaşmanın mənimsənilməsi üzrə artan öhdəliyi bir daha vurğulayır (UNCTAD, 2024, p.105).

Beynəlxalq ekspertlərin apardığı hesablamalara əsasən, 2050-ci ilə qədər qlobal enerji sisteminin təchizatı üçün hər il 1.6-3.8 trilyon dollardan çox yeni iqlim investisiyası tələb olunduğu məlum olmuşdur. Bu hədəfə çatmaq üçün cari investisiya meylləri əhəmiyyətli dərəcədə aşağı emissiyalara malik olmalı və karbon davamlı inkişafa doğru dəyişməlidir (GGKP, 2024).

Digər bir yaşıl maliyyə aləti olan yaşıl istiqraz satışlarının dünya üzrə 2023-cü ilin dördüncü rübündə 108,24 milyard dollara yüksəlməsi ilə populyar investisiyalardan birinə çevrildi. Sektor ABŞ, Avropa İttifaqı və Çində bir çox institusional və pərakəndə

investorları cəlb etdi, çünki o, hökumət əməliyyatlarından tutmuş istehsala qədər bir çox sektorda bir çox istifadə halları təklif edir (Zozulia, 2023).

Yaşıl istiqrazlar xüsusi olaraq bərpa olunan enerji və ya çirklənmənin qarşısının alınması kimi ekoloji faydaları olan layihələr üçün vəsait toplayır və emitentlər gəlirlərin necə istifadə edildiyinə dair şəffaflığı təmin edir. Bu istiqrazlar adətən aktivlərlə əlaqələndirilir və emitentin balans hesabatı ilə dəstəklənir (UNCTAD, 2024, p.106)

Yaşıl maliyyələşdirmə alətlərindən bir digəri olan karbon kreditləri müəssisə və dövlətlərin atmosferə buraxdığı karbon emissiyalarını azaltmaq üçün yaratdığı maliyyə alətləridir. Bu kreditlər müəssisələrin və ölkələrin ekoloji təsirlərini azaltmaq və iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün istifadə olunur. Karbon bazarları karbon kreditlərinin alqı-satqısını təmin edən bir mexanizmdir və son illərdə karbon bazarları dünyada böyük marağa səbəb olub. Xüsusilə Avropa Birliyi karbon bazarını genişləndirərək müəssisələri öz karbon izlərini azaltmağa təşviq edir. ABŞ-da da bu istiqamətdə irəliləyişlər müşahidə olunur, baxmayaraq ki, qanunvericilik müxtəlif ştatlarda fərqlidir. Bu bazarın inkişafı iqlim dəyişikliyi ilə mübarizə üçün qlobal səyləri gücləndirir və yaşıl maliyyələşmə sahəsində mühüm trendə çevrilib (Zozulia, 2023).

ESG investisiyaları (Environmental, Social, Governance) müəssisələrin yalnız maliyyə gəlirlərini deyil, həm də sosial və ekoloji məsuliyyətlərini nəzərə alır. Bu yanaşma investorlar arasında getdikcə populyarlaşır, çünki ekoloji və sosial meyarları qarşılayan şirkətlər uzunmüddətli perspektivdə daha davamlı və uğurlu olur. ESG göstəricilərini yüksək səviyyədə təmin edən şirkətlərə yönəlmiş kapital axını artır. Məsələn, bir çox pensiya fondları və investisiya şirkətləri ESG standartlarına uyğun gəlməyən şirkətlərdən investisiyalarını geri çəkir və ətraf mühitə dost olan, sosial məsuliyyətli və yaxşı idarəetmə prinsiplərinə sahib olan şirkətlərə kapital yatırır. Bu trend qlobal maliyyə bazarlarında dəyişikliklərə səbəb olmaqla yanaşı, şirkətlərin öz əməliyyatlarında daha şəffaf və məsuliyyətli olmalarını da təmin edir.

Yaşıl bankçılıq ənənəvi bankçılıq məhsullarından fərqli olaraq, əsasən ekoloji və sosial məsuliyyətli layihələrə maliyyə dəstəyi verir. Banklar yaşıl kreditlər təqdim edir, yəni bərpa olunan enerji, tullantıların idarə olunması və digər ekoloji layihələrin maliyyələşdirilməsi üçün xüsusi kredit proqramları həyata keçirirlər. Ənənəvi kreditlərdən fərqli olaraq, yaşıl kreditlər adətən daha sərfəli şərtlərlə təqdim edilir və ətraf mühitin qorunması üçün xüsusi olaraq nəzərdə tutulur. Həmçinin, bu kreditlər investorlar üçün aşağı karbon izinə malik layihələrə investisiya qoymağı mümkün edir, bu da yaşıl iqtisadiyyatın inkişafını dəstəkləyir (Zozulia, 2023).

Yaşıl maliyyələşmə sahəsində hibrid maliyyələşmə modelləri də inkişaf edir. Bu modellər dövlət və özəl sektorun resurslarını birləşdirərək böyük miqyaslı layihələrin maliyyələşdirilməsini mümkün edir. Məsələn, dövlət-özəl sektor tərəfdaşlığı (Public-Private Partnership, PPP) vasitəsilə yaşıl enerji layihələrinin həyata keçirilməsi daha effektiv və sürətli olur. Belə layihələrdə dövlət investisiyaları özəl sektorun marağını artırır və layihələrin dayanıqlılığını təmin edir.

Böyük Britaniya hökuməti əsasən Yaşıl Maliyyə Strategiyası vasitəsilə dayanıqlı maliyyəni fəal şəkildə təşviq edir ki, bu da ekoloji mülahizələrin maliyyə qərarlarının qəbuluna inteqrasiyası üçün yol xəritəsini müəyyən edən hərtərəfli çərçivədir. Strategiya, emissiyaların şəffaf şəkildə açıqlanması ilə birlikdə ciddi hesabat tələblərinə və davamlı

investisiya qərarlarının qəbulunu inkişaf etdirmək və təşviq etmək üçün uyğunlaşma metriklərinin və təlimatların hazırlanmasında sənaye tərəfdaşları ilə əməkdaşlıq öhdəliyinə diqqət yetirir. Böyük Britaniyanın Yaşıl Maliyyə Strategiyası dayanıqlı və ekoloji cəhətdən təmiz maliyyə təcrübələrini təşviq etməyə yönəlmiş hökumət təşəbbüsüdür. Yaşıl Maliyyə Strategiyasına ekoloji cəhətdən davamlı iqtisadi fəaliyyətlərin təsnifatı üçün çərçivə yaradan Böyük Britaniyanın Yaşıl Taksonomiyasına yenilənmiş yanaşma daxildir. Taksonomiyanın məqsədi nəyin "yaşıl" və ya ekoloji cəhətdən davamlı hesab oluna biləcəyinə aydınlıq gətirmək, investorlara, bizneslərə və siyasətçilərə fəaliyyətlərinin ətraf mühitə təsiri ilə bağlı əsaslandırılmış qərarlar qəbul etməyə kömək etməkdir (Mitchell, 2024).

Yuxarıda qeyd edilənləri ümumiləşdirsək, yaşıl maliyyələşmə trendləri qlobal miqyasda iqlim dəyişikliyi və ekoloji problemlərlə mübarizədə əsas alətlərdən birinə çevrilib. Bu trendlər yalnız maliyyə dünyasında deyil, həm də sosial və ekoloji sahələrdə əhəmiyyətli dəyişikliklərə səbəb olur. Yaşıl maliyyələşmənin sürətlə inkişaf etməsi həm investisiya imkanlarını genişləndirir, həm də dünya ölkələrini daha dayanıqlı və ekoloji cəhətdən məsuliyyətli iqtisadi sistemlər qurmağa təşviq edir.

**Azərbaycan Respublikasında qlobal çağırışlara hədəflənən yaşıl inkişaf strategiyası və yaşıl maliyyəşdirmənin mövcud təcrübəsi**

Azərbaycan üçün hazırda yaşıl inkişafla və yaşıl iqtisadiyyata keçidlə bağlı strateji məqsədlər gündəm olan məsələlərdən biridir. Ölkə başçısının 02.02.2021-ci il tarixli müvafiq Sərəncamla təsdiqlənmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə beşinci prioritet məhz "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanıb və bu prioritet çərçivəsində düşünülmüş tədbirlərin icrası həyata keçirilməkdədir (AR Prezidentinin Sərəncamı, 2021).

Bu sənəd əsasında qəbul edilmiş müşayiətedici digər sənəd 22.07.2022-ci il tarixli Sərəncamla təsdiqlənmiş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda yaşıl texnologiyalardan istifadənin genişləndirilməsi haqqında bir sıra tədbirlər də müəyyən edilib (AR Prezidentinin Sərəncamı, 2022). Bu Strategiya fonunda Prezidentimiz cənab İlham Əliyevin 25.12.2023-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunmuşdu (AR Prezidentinin Sərəncamı, 2023). Qeyd edilənlərə davam olaraq, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 (Conference of Parties) adlı təqdirəlayiq beynəlxalq tədbir də 11-24 noyabr 2024-cü il müddətlərində Azərbaycanda müvəffəqiyyətlə baş tutmuşdur.

Ölkəmizin inkişafının "yaşıl inkişaf" istiqamətinə yönəldilməsi yuxarıda qeyd olunan tədbirlərdən daha çox təbbirləri də özündə ehtiva edir. Belə ki, Qarabağda tikinti layihələrini istiqamətləndirmək üçün yaşıl inkişaf prinsiplərindən istifadə edilir, işğal altında qalmış regionda vurulmuş ekoloji zərərin aradan qaldırılmasına cəhdlər edilir. Bu sahədə tədqiqat aparmış tədqiqatçıların fikrinə həmfikir olaraq söyləmək olar ki, Qarabağda ağıllı kənd və şəhər layihələrinin həyata keçirilməsi yaşıl iqtisadiyyata əsaslanan inkişafa daha çox töhfə verəcək və bu, bir tərəfdən xalqımızı layiqli həyat səviyyəsi ilə təmin edəcək, digər tərəfdən isə davamlı inkişafa və ətraf mühitin qorunmasına kömək edəcək (Xeyirxəbərli, 2023, s.86).

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Azərbaycan Statistik İnformasiya Xidməti" adlı məlumat portalının "Yaşıl iqtisadiyyat" adlı bölməsində əks olunan mövcud məlumatlara əsasən, Azərbaycanda ətraf mühitin (atmosfer və su) çirkləndirilməsinə və tullantıların yerləşdirilməsinə görə ödənişlərin həcmi son on beş ildə təqribən 35.6% artaraq 3.2 milyon manat olmuşdur. Bu göstərici ən yüksək həddinə 2019-cu ildə 10.7 milyon manat həcmdə çatmışdır, oxşar göstəriciyə növbəti 2020-ci ildə də nail olunmuşdu. Bu da 2019-cu il və sonrakı dövrlərdə ətraf mühitin mühafizəsinə dair qanunvericilik və nəzarət tədbirlərinin gücləndirilməsi, əsasən yeni Dövlət Proqramlarının icrası və qanunvericilik aktlarının qüvvəyə minməsi nəticəsində görülən tədbirlərdən irəli gəlir. Eyni zamanda, ölkədə ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə üçün əsas kapitala yönəldilmiş investisiyaların ümumi investisiyalarda payı göstəricisi son on beş il ərzində 1.8 faiz bəndi artaraq 2023-cü ildə 2.8% olub. Xüsusilə 2021-ci ildə 0.4 faiz bəndindən 2023-cü ildəki 2.8%-ə çatması yaşıl iqtisadiyyatın da payına təsirini göstərməkdədir (Qrafik 1):

**Qrafik 1: Azərbaycanda ekoloji ödənişlər və ekoloji investisiyaların payına dair məlumat**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.azstat.gov.az/portal/tblInfo/TblInfoList.do#994_029 (30.10.2024)

Yaşıl iqtisadiyyata keçidin və iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin dəstəklənməsində Azərbaycanın rolu yaşıllaşdırma və karbonsuzlaşdırma istiqamətində qlobal tendensiyaları nəzərə alaraq xüsusi əhəmiyyət kəsb edir. Bununla belə, potensial imkanlarla yanaşı, fiziki və keçid riskləri də nəzərə alınmalıdır. Ekstremal hava hadisələri və aşağı karbonlu iqtisadiyyata keçid nəzərə alınmalı risklərdir. Bu əsasda Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına istinadən, iqlimlə bağlı iqtisadi risklər bank sektorunun kredit portfelinin təxminən 55%-ni təşkil edir. Bu baxımdan da Azərbaycanda yaşıl maliyyə üzrə məhsulların inkişaf etdirilməsinə, qlobal təsirlərin ölçülməsi və ona adekvat tədbirlərin görülməsinə ciddi ehtiyac vardır.

**Nəticə**

Dünya miqyasında yaşıl maliyyələşdirmə iqlim dəyişikliyi və ekoloji problemlərin həllində mühüm vasitəyə çevrilərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə dayanıqlı iqtisadiyyatların qurulmasını təşviq edir.

Aparılmış tədqiqatın nəticələrinə əsasən, Azərbaycanda yaşıl maliyyələşdirmə sahəsində müəyyən irəliləyişlər olsa da, hələ tam inkişaf etmiş bir sistem yoxdur. Aşağıda qeyd edilən səbəblərə görə, yaşıl maliyyələşdirmə sahəsində potensialın geniş olmasına baxmayaraq, Azərbaycanda bu maliyyə modelinin tətbiqi üçün ciddi islahatlar və resurslar tələb olunur:

Bazar məlumatlılığın artırılması, potensialın artırılması və tənzimləyici çərçivələrin inkişaf etdirilməsi üçün səylər tələb edən yeni inkişaf mərhələsindədir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, yaşıl iqtisadiyyat termini və anlayışı bir fenomen olaraq hələ yeni-yeni yayılmağa başladığı üçün ölkəmizdə də bununla bağlı mövcud statistika məhduddur. Yaşıl maliyyə ilə bağlı statistik məlumatlar nümunəsində isə demək olar ki, baza formalaşmamışdır. Bu da tədqiqatın məhdudiyyətlərindən biri olmuşdur. Bununla yanaşı, yaşıl maliyyələşdirmə ilə bağlı beynəlxalq təcrübə və standartların öyrənilməsi, bu sahədə siyasət və mexanizmlərin uyğunlaşdırılması prosesindədir. Lakin hələlik institusional və hüquqi çərçivənin inkişafı tam təmin olunmayıb.

Azərbaycan hökuməti külək və günəş enerjisi layihələrinə diqqət ayırır və xüsusilə bərpa olunan enerji potensialını inkişaf etdirmək üçün müəyyən addımlar atır. Ancaq bu sahədə maliyyə axınları hələlik məhdud olaraq qalır və layihələr əsasən dövlət dəstəyi ilə həyata keçirilməkdədir. Bununla yanaşı, ölkədə yaşıl istiqrazlar və digər yaşıl maliyyələşdirmə alətlərinin istifadəsi hələ geniş yayılmayıb. Bu alətlər üzrə bilik və təcrübənin məhdud olması səbəbindən yerli maliyyə bazarlarında aktiv şəkildə tətbiq edilmir. Eyni zamanda əhali və biznes strukturlarında yaşıl maliyyələşdirmənin faydaları və məqsədləri barədə məlumatlılıq səviyyəsi nisbətən aşağıdır. Ekoloji maliyyələşdirmə haqqında ictimaiyyətin məlumatlandırılması üçün əlavə təşviqedici tədbirlərə ehtiyac var.

Azərbaycan bəzi ekoloji və iqlim layihələrini maliyyələşdirmək üçün beynəlxalq donor və tərəfdaşlardan yardım alır. Lakin bu maliyyə mənbələri əsasən kiçik miqyaslı layihələr üçündür və yaşıl maliyyələşdirmə üzrə genişmiqyaslı yerli resurs səfərbərliyi hələ baş tutmayıb. Şirkətlər və müəssisələr yaşıl texnologiyalar və təmiz istehsal proseslərinə keçid edərək ekoloji təsirləri azaltmağa çalışır. Lakin bu keçid prosesi hələlik yavaş gedir və milli iqtisadiyyat üzərində tam əks olunmayıb.

Azərbaycan üçün qlobal yaşıl maliyyələşdirmə təcrübəsi ilə inteqrasiya vacibdir, çünki bu, ölkəyə bərpa olunan enerji, ekoloji infrastruktur, karbon bazarları və ESG standartlarına əsaslanan layihələrdə irəliləyişlər üçün əlverişli şərait yaradır. Beynəlxalq yaşıl maliyyə alətlərinin, xüsusilə yaşıl istiqrazların və karbon kreditlərinin tətbiqi, həmçinin dövlət-özəl sektor tərəfdaşlığı (PPP) modellərinin təşviqi ilə Azərbaycan dayanıqlı inkişaf və ətraf mühitin qorunması məqsədlərinə uyğun addımlar ata bilər. Bu istiqamətdə hüquqi çərçivənin və institusional mexanizmlərin gücləndirilməsi ölkədə yaşıl maliyyələşmənin potensialını artıracaq, eyni zamanda Azərbaycan iqtisadiyyatının beynəlxalq ekoloji tələblərə uyğun transformasiyasını təmin edəcəkdir.

**ƏDƏBİYYATLAR**


1. AR Prezidentinin Sərəncamı, (2021). “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”, AR Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. URL: https://e-qanun.az/framework/46813, İstinad tarixi: 10.10.2024.

2. AR Prezidentinin Sərəncamı, (2022). “2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, AR Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir, URL: https://e-qanun.az/framework/50013, İstinad tarixi: 10.10.2024.

3. AR Prezidentinin Sərəncamı, (2023). Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi, AR Prezidentinin 2023-cü il 25 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir, URL: https://president.az/az/articles/view/62737, İstinad tarixi: 10.10.2024.

4. Abbaszadə, F., Satıcı, A. (2023). “Yaşıl iqtisadiyyat perspektivləri: struktur yanaşmaların və fiskal siyasətin təhlili. “İqtisadi islahatlar” elmi-analitik jurnalı, № 3(8), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Bakı, s. 25-32. URL: https://ereforms.gov.az/az/publication/21, İstinad tarixi: 18.10.2024.

5. Dadaşov, Ə.Ə. (2024). Yaşıl iqtisadiyyat sahəsində Çin təcrübəsi: Azərbaycanda tətbiqi imkanları. “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində VI İqtisadiyyat və İdarəetmə Sahəsində Tədqiqatçıların Beynəlxalq Elmi Konfransı ilə əlaqədar nəşr olunan “Yaşıl İqtisadiyyat və Dayanıqlı İnkişaf” adlı məqalələr toplusu, Bakı, səh. 197-216. URL: https://iscemr.com/uploads/file/cdce4-dayaniqli-inkisaf-v-yasil-iqtisadiyyat-compressed.pdf, İstinad tarixi: 23.10.2024.

6. Dövlət Statistika Komitəsi (DSK), (2024). “Yaşıl iqtisadiyyat” üzrə statistik məlumatlar. DSK-nın “Azərbaycan Statistik İnformasiya Xidməti” adlı məlumat portalı. Bakı. URL: https://www.azstat.gov.az/portal/tblInfo/TblInfoList.do#994_029, İstinad tarixi: 30.10.2024.

7. Hümbətova, S.R. (2024). Yaşıl iqtisadiyyatın modelləşdirilməsi (Azərbaycan timsalında). İ.ü.f.d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, İdarəetmə Sistemləri İnstitutu, Bakı, 36 səh. URL: https://aak.gov.az/upload/dissertasion/_qtisad_elml_ri/AZE2.pdf, İstinad tarixi: 12.10.2024.

8. Qasımlı, V.Ə., Hüseyn R.Z., Hüseynov R.F. və digərləri. (2022). Yaşıl iqtisadiyyat, Bakı, Azprint nəşriyyatı, 280 səh. URL: https://ereforms.gov.az/files/publications/pdf/az/b87cb7433650a8abbc72f0324cc1fd71.pdf, İstinad tarixi: 15.10.2024.

9. Quliyev, E.Ə. (2024). “Azərbaycanda yaşıl kənd təsərrüfatına keçidin sürətləndirilməsi imkanları”. “Kənd təsərrüfatının iqtisadiyyatı” elmi-praktik jurnalı, Aqrar Tədqiqatlar Mərkəzi, Bakı, №1(45), s.90-105. URL: https://agroeconomics.az/pdf/articles/jurnal-n1-cop29-2024-p-91-106682.pdf, İstinad tarixi: 28.10.2024.

10. Xeyirxəbərli, M. (2023). “Yaşıl iqtisadiyyat” davamlı inkişafın təmin olunması vasitəsi kimi. “İqtisadi islahatlar” elmi-analitik jurnalı, № 4(9), İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Bakı, s. 78-88. URL: https://ereforms.gov.az/az/publication/27, İstinad tarixi: 16.10.2024.

11. Özçağ , M., Hotunluoğ lu, H. (2015). Kalkınma Anlayışında Yeni Bir Boyut: Yeşil Ekonomi. CBU sosyal Bilimler Dergisi, 13(2), s.303-324. URL: https://dergipark.org.tr/tr/download/article-file/46159, Referans tarihi: 18.10.2024.

12. The Green Growth Knowledge Partnership (GGKP). (2024). Explore Green & Sustainable Finance, The Green Finance Platform (GFP) URL: https://www.greenfinanceplatform.org/page/explore-green-finance, Retrieved date from: 25.10.2024.
13. UN trade & development (UNCTAD), (2024). World Investment Report 2024: Chapter III - Sustainable finance trends, Investment facilitation and digital government, pages 77-106. URL: https://unctad.org/system/files/official-document/wir2024_ch03_en.pdf, Retrieved date from: 14.10.2024.
14. Zhang, C., Garvey, P. (2024). Global sustainable finance market: changing for the better. THINK economic and financial analysis, ING Bank N.V., 14 pages. URL: https://think.ing.com/downloads/pdf/article/global-sustainable-finance-market-changing-for-the-better, Retrieved date from: 14.10.2024.
15. Zozulia, D. (2023). Top 6 trends that shaped sustainable finance in 2024, 4IRE Swedish-Ukrainian software development outsourcing provider Group, URL: https://4irelabs.com/articles/green-finance-trends/, Retrieved date from: 14.10.2024.
16. Mitchell, E. (2024). Sustainable Finance – Key Trends in 2024, Corporate Finance, Deal Advisory, Gerald Edelman LLP, URL: https://www.geraldedelman.com/insights/sustainable-finance-key-trends-in-2024/, Retrieved date from: 24.10.2024.
17. Кононович, И.В. (2024). Становление зеленой экономики в странах с формирующимся рынком, диссертация на соискание ученой степени к.э.н., Финансовый университет при Правительстве Российской Федерации, Москва, 179 стр.

## 17. The Green Economy as a Model for Sustainable Development

**PhD in Economics, Assoc. Prof. Shahla Rzayeva M.**
**Azerbaijan State University of Economics, Azerbaijan**
**shahla.rzayeva@unec.edu.az**
**PhD in Economics, Assoc. Prof. Leyla Aliyeva Z.**
**Azerbaijan State University of Economics, Azerbaijan**
**aliyeva.l@unec.edu.az**

Abstract

The article is dedicated to the exploration of the concepts of sustainable development, “Green Economy,” “Smart Village,” “Smart City,” and Azerbaijan’s international cooperation in the energy sector. The authors present three primary issues underlying the concept of sustainable development in a thesis format. The article interprets the model of the “Green Economy” from a socio-economic perspective as a pathway to sustainable development, analyzing the prospects for transitioning to a green economy within the country. A notable focus is the examination of the term “Green Economy” as a theory that defines sustainable development through preventing environmental damage, protecting the environment, and ensuring the efficient use of energy and natural resources. The potential

application of the “Smart Village” and “Smart City” concepts—already implemented in various countries within Azerbaijan’s liberated territories is also of scientific interest. Concrete plans for the restoration of these liberated areas, exemplified by the Karabakh and East Zangezur economic regions, are highlighted, representing an indicator of sustainable development potential in these regions. The official announcement of the establishment of a “net-zero emissions” zone in the liberated territories further underscores this commitment.

**Keywords:** Sustainable Development, “Green Economy,” “Green Energy,” “Smart Village,” “Smart City.”

**Jel codes:Q01, Q20, Q42, Q56**

**Introduction.**

İnnovasiya İndeksində ön sıralara kecməyimiz təmin olunacaqdır. Ona görə də məqsədin reallaşdırılması üçün cəlb olunmuş daxil və xarici investisiyanın səmərəliliyi diqqət mərkəzində saxlanılmalıdır. İnvestisiya daha çox innovativ sahələrin inkişafına istiqamətlənmişdir. Qarabağa innovativ investisiya qoyuluşlarının həyata keçirilməsi üçün əsas səbəblərdən biri, bölgənin inkişaf potensialı və perspektivlərinin yüksək olmasıdır. İşğaldan azad edilmiş bu ərazi, zəngin tarixi və mədəni irs, gözəl təbiəti və strateji coğrafi mövqeyi ilə diqqət çəkir. Bu, regionun turizm, tarım, energetika, infrastruktur, texnologiya və digər sahələrdə inkişaf etməsi üçün müəyyən imkanlar yaradır.(Əliyev, 2022)

İkinci səbəb, bu bölgədə innovativ investisiyaları sərfəli olacağı və yüksək geri dönüşlərə səbəb ola biləcəyi iqtisadiyyatın diversifikasiyasıdır. İnnovativ texnologiyaların, mədəni irsin qorunması, turizm infrastrukturunun inkişafı, enerji sahəsində yeniliklər və digər sahələrdə istifadəsi, iqtisadiyyatın inkişafını dəstəkləyəcək və ərazinin ictimaiyyətinin rifahını artıracaqdır.

Üçüncü səbəb, bu investisiyaların regional əməkdaşlığı gücləndirəcəyi və bölgədə sülh və sabitliyin inkişafına yardım edəcəyi inancıdır. İnnovativ investisiyalar, ərazilər arasında əlaqələrin inkişafına, ticarət və sənaye əməkdaşlığına, digər sahələrdə iş birliyinə zəmin yaradacaq və regionun ümumi stabilliyini artıracaqdır. Bu səbəblər innovativ investisiyaların Qarabağda həyata keçirilməsini təşviq edir və əraziyə daxil olan investisiyaların inkişafını dəstəkləyir.

Qarabağa təklif etmək istədiyiniz innovativ investisiya proqramları və layihələri həyata keçirmək üçün müxtəlif yollar mövcuddur.

1. Yerli və xarici investorlarla əlaqələr: Bölgədə yatırım potensialı olan yerli və xarici investorlarla əlaqə saxlamaq və onları Qarabağa investisiya qoyulmaları üçün cəlb etmək. Bu, iqtisadiyyatın inkişafına və sahələrin diversifikasiyasına dəstək olacaq.

2. İnvestisiya forumları və tədbirlər: Qarabağda keçiriləcək investisiya forumları, konfranslar və tədbirlər vasitəsilə bölgədəki investisiya imkanları və perspektivləri təqdim etmək. Bu, potensial investorlara bölgəyə investisiya qoymaqları üçün motivasiya verəcəkdir.

3. İnkubasiya və innovasiya mərkəzləri: İşğaldan azad edilmiş ərazilərdə inkubasiya və innovasiya mərkəzləri yaradılması. Bu mərkəzlər, innovativ fikirlər və layihələr üçün məkan, təminat və dəstəyi təmin edəcəkdir.

4. Təhsil və texniki məktəblər: Təhsil və texniki məktəblərin açılması və inkişafı. Bu, yerli mütəxəssislərin yetişdirilməsi və innovativ fikirlərin inkişaf etdirilməsi üçün əhəmiyyətli bir addım olacaq.

5. Səyyar investisiya yerləri və təşviqatlar: Bölgədə səyyar investisiya yerləri yaradılması və investisiya təşviqatlarının təşkil edilməsi. Bu, potensial investorların bölgədə investisiya etməyə maraqlarını artıracaq. Bu təkliflər və layihələr, Qarabağın iqtisadi inkişafına dəstək olacaq və bölgənin sosial və iqtisadi sahələrində perspektivləri artıracaqdır.

**Nəticə**

Azərbaycan Respublikası iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizədə missiyasını yetərincə yerinə yetirir. Qarabağ, Şərqi Zəngəzur, o cümlədən, Naxçıvan Muxtar Respublikası yaşıl iqtisadiyyat çərçivəsində yaşıl enerji zonası kimi seçilmişdir. Hazırda ölkəmizdə prioritet istiqamətlər sırasında yaşıl enerji növlərinin yaradılmasını qeyd etmək olar. İstər yaşıl iqtisadiyyat, istərsə də iqtisadi potensialın baxımından Qarabağın perspektiv rolunu qeyd etməmək mümkün deyildir. Ancaq bir amilə diqqət yetirmək lazımdır. Qarabağ torpaqlarının bu mövcud ehtiyatlarından istifadə hər zaman nəzarət

altında olmalıdır. Bu baxımdan hazırda dövlət siyasətində Qarabağ torpaqlarının zəngin ehtiyatlarından istifadəyə nəzarətin təmin edilməsi məsələsi olduqca aktualdır. Təbii ki, buraya investisiyaların cəlb edilməsini də aid etmək olar. Zəngilan, Füzuli, Ağdam kimi ərazilərdə ağıllı komplekslərin salınması, ağıllı infrastruktura malik şəhər və kəndlərin tamamilə yenidən qurulması qloballaşma dövründə olduqca böyük əhəmiyyət kəsb edir və bir çox problemlərin aradan qaldırılmasından həll yolu kimi çıxış edir.

Həyata keçirilən tədbirlər nəticəsində rəqabətqabiliyyətli mühitdə mövcud problemlərin geniş müzakirəsinin aparılması və maraqların birgə həllinin təmin edilməsi, maliyyə imkanlarının artırılması məqsədilə Qarabağın və ümumilikdə Azərbaycanın ixrac potensialının inkişafı, innovativ xarakterli layihələrin irəli sürülməsində və reallaşdırılmasında dövlət və özəl sektorun əməkdaşlığı, İstehsal prosesində və maddi-texniki təchizatda qənaət prinsipinin tətbiqi kimi uğurların əldə edilməsi mümkündür.

**İstifadə edilmiş ədəbiyyat**


1. Ağayev A. Yuxarı Qarabağ iqtisadi rayonu və kiçik biznesin inkişaf meyllərinin nəzəri-metodoloji əsasları. (2022). ISCEMR. s. 50, 52
2. Ağalarova N. Main directions of effective reintagement of the nationl economy of Azerbaijan in the released regions. ISCEMR. 2022. p. 723
3. Əhmədzadə F. İşğaldan azad olunmuş ərazilərdə təbii ehtiyatlardan istifadənin səmərəliliyininin artırılması yolları və ərazilərin dirçəldilməsinin iqtisadi aspektləri. ISCEMR. s. 372
4. Əliyev Ş. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarinin sosial-iqtisadi inkişafinin strateji aspektləri. Qərbi Kaspi Universiteti. Bakı. 2022. s. 117
5. Quliyev E. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu. Monoqrafiya. Kooperasiya nəşriyyatı, Bakı, 2023. s. 320


## 27. BİYOÇEŞİTLİLİK İZLEME SİSTEMİ


**Nermin Ekberova**
**Gazi Üniversitesi,Fen Bilimleri Enstitüsü,**
**Çevre Bilimleri bölümü , Yüksek lisans (Türkiye,Ankara)**
narmin.akbar03@gmail.com



**Özet**

Makalede çevresel değişikliklerin biyolojik çeşitlilik üzerindeki etkilerinden bahsediliyor.Doğal süreçlerin ve çevrenin durumunun izlenmesi sorunu 1975'ten beri aktif olarak geliştirilmektedir. İzlemenin doğrudan doğal nesnelerin envanteriyle ilgili olması oldukça doğaldır. İzlemenin amaç ve hedeflerini belirlemeye yönelik faaliyetler iki aşamada gerçekleştirilir. İlk aşamada - bilgilendirme aşaması - belirli göstergelerdeki değişikliklerin gerçeği belirlenir, bunların ölçeği ve hızı belirlenir. İkinci aşama, gözlemlenen değişikliklerin nedenlerinin analiz edilmesi ve bunların

çevresel ve ekonomik sonuçlarının belirlenmesi açısından önemlidir. İzleme sırasında elde edilen bilgiler, çevresel tahminin hazırlanmasında önemli bir rol oynamaktadır.

Çevresel izleme, çevresel değişikliklerin etkisi altında ekosistemlerde, popülasyonlarda ve organizmalarda (insanlar dahil) meydana gelen süreçlerin izlenmesine yönelik bir sistemdir. Arka plan ve yerel izleme arasında bir fark vardır. İlk durumda, gözlemin amacı bir bütün olarak biyosfer ve onun büyük alt bölümleri olan biyomlardır. İkincisinde - belirli nesnelerde (ekosistemlerde) antropojenik değişiklikler. Özel bir izleme türü biyolojiktir. Bitki ve hayvan türlerinin ve tüm ekosistemlerin sağlığını değerlendirir ve insan faaliyetlerinin etkisini değerlendirmek için bu "canlı araçların" sağlığını kullanır. Ekosistemlerin durumunun uçak veya uzay aracından elde edilen görüntüler kullanılarak değerlendirildiği havacılık izleme yaygınlaştı.

**JEL kodu: Q57**

**Anahtar kelimeler:** çevresel izleme, çevresel değişiklikler, biyolojik sistemler.

**Summary**

The article discusses the effects of environmental changes on biodiversity. The problem of monitoring natural processes and the state of the environment has been actively developed since 1975. It is quite natural that monitoring is directly related to the inventory of natural objects. Activities aimed at determining the goals and objectives of monitoring are carried out in two stages. At the first stage - the information stage - the reality of changes in certain indicators is established, their scale and speed are determined. The second stage is important in terms of analyzing the causes of observed changes and determining their environmental and economic consequences. The information obtained during monitoring plays an important role in the preparation of environmental forecasts.

Environmental monitoring is a system for monitoring processes occurring in ecosystems, populations and organisms (including humans) under the influence of environmental changes. There is a difference between background and local monitoring. In the first case, the object of observation is the biosphere as a whole and its large subdivisions - biomes. In the second - anthropogenic changes in specific objects (ecosystems). A special type of monitoring is biological. It assesses the health of plant and animal species and entire ecosystems, using the health of these "living tools" to assess the impact of human activities. Aviation monitoring, where the state of ecosystems is assessed using images obtained from aircraft or spacecraft, has become widespread.

**Keywords:** environmental monitoring, environmental changes, biological systems.

### *1. Çevresel Değişim İzleme.*

Çevresel izleme, çevrenin durumunun değerlendirilmesine izin veren belirli düzenleyici özelliklerin varlığını gerektirir. Şu anda çevre düzenlemesi uygulamalı ekolojinin gelişmiş bir alanıdır. Tüm çevrenin (atmosfer, su, toprak) durumunu, popülasyonlar ve ekosistemler üzerinde izin verilen maksimum yükleri, gıda ürünlerinde ve doğrudan insan dokularında izin verilen maksimum toksik madde miktarlarını değerlendirmek için standart sistemleri geliştirilmiştir.

Çevresel izleme verilerine dayanarak, gözlemlenen işaretlerde daha fazla değişiklik yapılmasına yönelik tahminler hazırlanmakta ve ekonomik tesislerin çevreye olan etkisi azaltılarak çevresel durumun iyileştirilmesine yönelik kararlar alınmaktadır.

Biyolojik çeşitliliğin ve orman örtüsünün izlenmesi, korunan alanların etkili yönetiminin merkezinde yer alır. İzleme programları, korunan alan yöneticilerine ormansızlaşma tehditlerinin yanı

sıra yaban hayatı popülasyonları ve orman örtüsündeki uzun vadeli eğilimler hakkında güncel bilgiler sağlamalıdır.

İzleme sistemleri, korunan alan yöneticilerine gerçek zamanlı bilgi sağlamalı ve tehditlere yanıt olarak hızlı harekete geçmelerine olanak sağlamalıdır.

**2. *Biyolojik çeşitliliğin korunmasında izleme yöntemleri.***

İzleme yaklaşımları mevcut kaynaklara bağlıdır. Programlar, sınırlı bir finansman süresi içinde, korunan alanın yaban hayatı popülasyonları ve tehditlerin yoğunluğu ve mekansal dağılımı hakkında önemli bilgiler elde edebileceği şekilde tasarlanmalıdır.

Kapsamlı bir orman örtüsü ve ormansızlaşma değerlendirme programı, hem kısa hem de uzun vadeli zaman çerçevelerini ve yaklaşımları içermelidir.

Orman biyolojik çeşitliliği izleme programları, daha sürdürülebilir yönetim sistemleri geliştirmenin önemli bir bileşenidir; mevcut yönetim rejimlerinin etkililiğinin değerlendirilmesine ve uygulamaların iyileştirilmesine yönelik fırsatların belirlenmesine yardımcı olur. Bununla birlikte, pahalı izleme çabalarının çoğu, bilime olan güveni çoğu zaman baltalayan ve sağlam ve pragmatik bir çerçevenin temel unsurlarını belirlemeyi amaçlayan kutu işaretleme egzersizlerinden biraz daha fazlasıdır (Fennici,2000).

Anlamlı olması için, izleme programlarının hedefli olması ve net hedeflere dayanması, yönetim faaliyetleri ile orman biyolojik çeşitliliğindeki değişiklikler arasındaki ilişkilerin güvenilir bir değerlendirmesini sağlamak amacıyla gerçekçi finansal, lojistik ve sosyal kısıtlamalar dahilinde etkili ve gerçekçi olması gerekir. Bilim, bu hedeflere ulaşmada önemli bir katkı sağlayabilir ancak başarının temel bileşenlerinden biri, halihazırda araştırmacılar, yöneticiler ve bürokratlar arasında mevcut olan kurumsal siloların aşılmasında yatmaktadır. Orman Biyolojik Çeşitliliğinin İzlenmesi'nin ilk bölümü, sorumlu yönetime ulaşmak için biyolojik çeşitliliğin izlenmesinin önemini vurgulamakta ve anlamlı izleme programlarını orman yönetim sistemlerine entegre etme girişimlerini şimdiye kadar engelleyen ana engelleri ve zorlukları vurgulamaktadır. İkinci bölüm, gelişmiş orman biyolojik çeşitliliği izleme sistemlerinin geliştirilmesine yönelik operasyonel bir çerçeve sunmaktadır. Bu teklifler, program amaç ve hedeflerinin tanımlanması, gösterge seçim süreci ve veri toplama, analiz ve yorumlama dahil olmak üzere orman biyolojik çeşitliliği izleme programının kapsamının belirlenmesi, tasarlanması ve uygulanmasıyla ilgili temel konuları ele almaktadır (Toby Gardner,2012).

**3. *Biyolojik çeşitlilik izleme sisteminin sonuçları.***

Orman Biyoçeşitliliği İzlemenin amacı, teknik konularda pratik rehberlik sağlamak değil, daha ziyade başarılı izleme programlarının geliştirilmesine özellikle vurgu yaparak, etkili bir izleme programının amacı ve genel yapısının daha geniş bir şekilde anlaşılmasını teşvik etmektir. gerçek sorunlar ve kısıtlamalar bağlamında. Orman biyolojik çeşitliliğinin izlenmesi, biyolojik çeşitlilik verilerinin büyük resme nasıl entegre edileceğine ve çok kullanımlı ormanlardaki ödünleşimlerin nasıl belirlenip değerlendirileceğine ilişkin bir bölümle sona ermektedir.

Tarım, ormancılık, balıkçılık, avcılık, devlet sıhhi ve epidemiyolojik hizmetleri, arazi yönetim hizmetleri, su yönetimi ve özel olarak korunan doğal alanlar sistemi alanlarında kullanılan biyolojik kaynakların durumu hakkında bilgi toplamak için sektörel sistemler bulunmaktadır. Ancak endüstri temelli biyolojik kaynak muhasebe sistemleri biyoçeşitliliği tam olarak kapsamamaktadır, parçalıdır ve farklı parametreler ve veri toplama yöntemleri kullanmaktadır. Birçoğunun etkinliği son yıllarda önemli ölçüde azaldı.

İzleme, devlet kurumlarına, bilimsel ve kamu kuruluşlarına, ticari yapılara ve nüfusa biyolojik çeşitliliğin durumu ve değişim eğilimleri hakkında bilgi sağlamalıdır. Belirli görevler, bir izleme sisteminin oluşturulması ve bakımı ve sonuçlarının kullanımı, izleme nesnesine ve uygulama koşullarına bağlı olarak belirlenir. Biyoçeşitliliğin durumuna ilişkin modern bilgiler, hem doğrudan biyolojik sistemlere hem de onları etkileyen sosyo-ekonomik süreçlere yönelik kontrol önlemlerinin zamanında ayarlanmasına olanak sağlamalıdır. Biyoçeşitliliğe ilişkin en genel bilgiler çevrenin ulusal durumu raporuna dahil edilmelidir.

İzleme, hem doğal hem de antropojenik biyolojik eğilimlerin belirlenmesinin yanı sıra, biyolojik çeşitliliğin korunmasına yönelik alınan önlemlerin etkinliğinin ölçülmesinde de etkili bir araçtır.

Çevresel izleme, bir ekosistemdeki abiyotik (yani havanın, suyun, toprağın vb. kimyasal parametreleri) ve biyotik değişikliklerin (yani kompozisyon, bolluk, türlerin ve toplulukların dağılımı) değerlendirilmesine olanak tanır.

Biyolojik çeşitliliğin yerel, bölgesel, ulusal ve küresel düzeyde izlenmesi, sistemler ve çevresel altyapı, ekonomik destek ve insan kaynakları gerektirir.

Ayrıca Biyolojik Çeşitlilik Sözleşmesine taraf olan ülkelerin, doğal kaynakların hem korunması hem de sürdürülebilir kullanımı için biyolojik çeşitliliği incelemesi ve izlemesi gerekmektedir. Şimdiye kadar ekonomik açıdan en gelişmiş ve zengin ülkeler bile, bu görevin karmaşıklığı ve yeterli bir izleme programının bulunmaması nedeniyle kendi bölgelerinin biyotasını tam olarak anlayamıyor.

Biyolojik çeşitliliğin durumunu ve dinamiklerini değerlendirmenin bilimsel temeli, biyolojik sistemlerin homeostazisi kavramıdır. Biyolojik sistemler, kural olarak, çeşitli düzeyde yapısal ve işlevsel organizasyona (hücreler ve dokular, organlar, organ sistemleri ve organizmalar, biyosinozlar ve ekosistemler, bir bütün olarak biyosfere kadar) sahip, değişen karmaşıklığa sahip biyolojik nesnelerdir. Birbirine bağlı ve etkileşimli öğelerin bir koleksiyonu olan biyolojik sistemler, bütünlük (bir sistemin özellikleri, öğelerinin özelliklerinin toplamına indirgenemez), göreceli stabilite ve uyum sağlama yeteneğine sahiptir.

Herhangi bir biyolojik sistem dinamiktir; içinde sıklıkla zaman içinde değişen birçok süreç meydana gelir. Biyolojik sistemler aynı zamanda açık sistemlerdir; varlıklarının koşulu, sistemin parçaları (veya alt sistemleri) ve çevre ile enerji, madde ve bilgi alışverişidir. Biyolojik sistemin en önemli özelliği, bu tür bir değişimin, genetik bilginin ve iç kontrolün uygulanmasına yönelik özel mekanizmaların kontrolü altında gerçekleştirilmesidir; bu, kişinin dış ortamdan alınan enerjiyi kullanarak "termodinamik ölümden" kaçınmasına olanak tanır. Biyolojik sistemlerin durağan durumlarının stabilitesi (iç özelliklerin istikrarsız veya değişen bir dış ortamın arka planına karşı stabilitesinin korunması) ve ayrıca bir durumdan diğerine geçiş yetenekleri (biyolojik sistemlerin durağan durumlarının dengesizlik özelliği). çeşitli öz-düzenleme mekanizmaları tarafından sağlanır (Allard, Carina, Keskitalo, Brown,2023).

Biyolojik sistemlerin kendi kendini düzenlemesi, negatif veya pozitif geri bildirim ilkesine dayanır. Bu nedenle, negatif geri beslemeli bir kontrol şemasında, belirli bir değerin belirli bir seviyeden sapması hakkındaki bilgi, bu değerin orijinal seviyeye geri dönmesi nedeniyle kontrol edilen nesne üzerindeki etki mekanizmasını harekete geçirir (değişimin işareti zıttır). ). Biyolojik sistemlerin durağan durumdan geçişi, pozitif geri besleme mekanizmalarına dayanır (düzenlenen bir nesne

üzerindeki etki, düzenlenen miktarın ilk sapmasına denk gelen bir değişikliğe neden olur, bunun sonucunda sistem belirli bir durağan durumdan ayrılır). . Bunun sonucunda biyolojik sistemlerde doğal değişiklikler meydana gelir; değişen dış koşullara, biyolojik sistemlerin hareket ve diğer çeşitli işlevlerine uyum sağlamaları ve evrimleri sağlanır (Zeydanlı, Özüt,2019).

Biyoçeşitliliğin korunması, ekosistemlerin sağlığı ve insan sağlığı ve refahı açısından kritik öneme sahiptir. İklim değişikliği, insan müdahalesi ve endüstriyel gelişmeden kaynaklanan tehditlerin artmasıyla birlikte, çevremizin sağlığını izlemek için uzun vadeli biyolojik çeşitlilik izleme programlarına ihtiyaç duyulmaktadır.

Bu, yaban hayatı popülasyonlarındaki ve davranışlardaki değişiklikleri daha iyi anlamamızı sağlayacak ve böylece biyoçeşitliliğimizi daha iyi yönetebileceğiz.

**Edebiyat**

1. Annales Zoologici Fennici.Biodiversity monitoring for decision-making. Helsinki, 2000.

2. **Anna Allard**, **E. Carina H. Keskitalo**, **Alan Brown**. Monitoring BiodiversityCombining Environmental and Social Data. 2023.

3. Toby Gardner.Monitoring Forest Biodiversity. 2012.

4. Aynur Demir. Biyolojik çeşitlilik ekonomisi. 2022.

5. Kunming-Montreal Küresel Biyoçeşitlilik Çerçevesi. 2022

6. Zeydanlı, U., Özüt, D. Biyolojik Çeşitliliğin Ormancılığa Entegrasyonu. 2019.

7. Mehmet Emin Aydın Nüket Sivri. Biyoçeşitlilik ve ekosistemler. 2023.

8. Richard B.Primack Koruma biyolojisi. (Beşinci Basımdan Çeviri).2012.

9. Fethiye-Göcek.Biyolojik Çeşitliliğin Tespiti Projesi.2012.

10. **https://dergipark.org.tr/en/download/article-file/195578**

## 28. Yaşıl Dünya ilə Həmrəylik: Yaşıl Maliyyə və Təbii Resurslardan Səmərəli İstifadə Məsələləri

**Aqil Məhiyəddin oğlu Əsədov**
İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri, iqtisad elmləri doktoru
aqil.asadov@ereforms.gov.az
**Bəhruz Yaqub oğlu Səmədov**
Azərbaycan Dövlət İqtisad Universiteti,
"Riyaziyyat və Statistika" kafedrasının
baş müəllimi,
bahruz.samadov@unec.edu.az
**Anar Rəsul oğlu Mehdiyev**
Azərbaycan Kooperasiya Universitetinin doktoranı,
amehdiyev358@gmail.com
**Mədinə Elnur qızı Hüseynli**
Azərbaycan Dövlət İqtisad Universiteti, II kurs tələbəsi
madinaquseynli@gmail.com

**Xülasə**

Ekoloji problemlər onilliklərdir ki, bəşəriyyəti narahat edir. insanlar daha çox ağac əkməyə, quruları, dənizləri və okeanları təmizləməyə çalışırlar, lakin böyük səylərə baxmayaraq problemlər aradan qalxmır. Bu problemlərin kökünü kəsmək üçün dünya dövlətləri nəinki mübarizə aparmağa, həm də çirklənmənin səbəblərini kökündən aradan qaldırmağa kömək edəcək sistemləri birləşdirmiş və inkişaf etdirmişlər. Bu məqalədə yeni metodların, xüsusən də "Yaşıl Maliyyə"nin faydaları və effektivliyi haqqında, ölkəmiz və bütün bəşəriyyət üçün oynadığı rol haqqında danışılacaq. Eyni zamanda, iqlim dəyişikliklərinin mənfi təsirlərini azaltmaq məqsədilə resurslardan səmərəli istifadə mühüm əhəmiyyət kəsb edir. Məqalədə bu məsələyə də yer ayrılmışdır. Müəlliflər qeyd edir ki, son dövrlər artan təbiət hadisələri, yaşıllıqların azalması, su ehtiyatlarının tükənməsi kimi məsələlər resurslardan daha qənaətlə istifadəni zəruri edir. Məqalədə BMT-nin İqlim dəyişiklikləri ilə bağlı komissiyasının yaradılması, dayanıqlı inkişaf konsepsiyası və məqsədlərinin qəbulu dinamikasına da nəzər salınır. Bildirilir ki, ətraf mühit məsələləri, resurslardan qənaətlə istifadə məsələləri dayanıqlı inkişaf konsepsiyasından irəli gəlir. Məqalədə, eyni zamanda, müxtəlif ölkələrdə karbon emissiyasının azladılması istiqamətində həyata keçirilən tədbirlər də təhlil olunur.

**Açar sözlər:** *yaşıl maliyyə, yaşıl iqtisadiyyat, iqlim, təbii resurslar, karbon emissiyası, dayanıqlı inkişaf və s.*

**Jel kod:** F18, F47, F64, F65.

**Summary**

Environmental issues have been troubling humanity for decades. People are increasingly trying to plant trees and clean land, seas, and oceans, but despite significant efforts, problems persist. To address the root causes of these issues, countries around the world have developed and integrated systems that not only combat pollution but also tackle its underlying causes. This article discusses the benefits and effectiveness of new methods, particularly "Green Finance," and its role for our country and all of humanity. At the same time, efficient resource use is crucial in mitigating the negative impacts of climate change, which is also addressed in the article. The authors note that recent increases in natural disasters, the reduction of green spaces, and the depletion of water resources necessitate more prudent resource use. The article also reviews the dynamics of the establishment of the UN Climate Change Commission and the adoption of sustainable development concepts and goals. It states that environmental issues and efficient resource use arise from the sustainable development concept. Additionally, the article analyzes measures taken in various countries to reduce carbon emissions.

Keywords: **green finance, green economy, climate, natural resources, carbon emissions, sustainable development etc.**

**Резюме**

Экологические проблемы беспокоят человечество на протяжении десятилетий. Люди все больше стремятся сажать деревья и очищать земли, моря и океаны, однако, несмотря на значительные усилия, проблемы не исчезают. Для того чтобы устранить коренные причины этих проблем, государства мира разработали и интегрировали системы, которые не только борются с загрязнением, но и помогают устранять его первопричины. В данной статье обсуждаются преимущества и эффективность новых методов, особенно "Зеленых Финансов", а также их роль для нашей страны и всего человечества. В то же время эффективное использование ресурсов

имеет важное значение для смягчения негативных последствий изменения климата, и эта тема также рассматривается в статье. Авторы отмечают, что в последнее время рост природных явлений, сокращение зеленых насаждений и истощение водных ресурсов делают необходимым более экономное использование ресурсов. В статье также рассматривается динамика создания Комиссии ООН по изменениям климата и принятия концепции и целей устойчивого развития. Указывается, что экологические вопросы и вопросы экономного использования ресурсов исходят из концепции устойчивого развития. Также анализируются меры, предпринимаемые в разных странах по снижению углеродных эмиссий.

**Ключевые слова:** зеленые финансы, зеленая экономика, климат, природные ресурсы, углеродные эмиссии, устойчивое развитие и др.

**Giriş**

Son onilliklərdə təbii sərvətlərin istehlakının artması, istehlakın və istehsal tullantılarının artması, eləcə də atmosferə və suya müxtəlif tullantıların atılması ilə əlaqədar ətraf mühitə təsir təbii fəlakətlərin sayının artmasına, habelə ciddi fəlakətlərə, xəstəliklərə və vaxtından əvvəl ölümə səbəb olmuşdur. Neqativ proseslərin ciddiliyi dünya ictimaiyyətini belə qənaətə gətirib ki, dünya inkişafının mövcud modelinə köklü şəkildə yenidən baxılmasına ehtiyac var. Həm də ona görə ki, BMT-nin himayəsi altında ekoloji təhlükəsizliyin sosial və iqtisadi məqsədlərə nail olmaq üçün əsas hesab edildiyi davamlı inkişaf konsepsiyasına keçid təşviq edilir.

1987-ci ildə BMT Ətraf Mühit və İnkişaf üzrə Beynəlxalq Komissiyanın "Ümumi gələcəyimiz" hesabatını nəzərdən keçirdi və ilk dəfə olaraq davamlı inkişafa keçidin zəruriliyindən danışıldı: "Bu, müasir insanların ehtiyaclarını təmin etməklə gələcək nəsillərə öz ehtiyaclarını ödəmək imkanı verir".

1992-ci ildə Rio-de-Janeyroda keçirilən konfransda birgə hazırlanmış sənəd, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (BMT FCCC) qəbul edildi. Bu, milli hökumətlər tərəfindən qlobal davamlı inkişaf və təhlükəsiz gələcək konsepsiyasının həyata keçirilməsinə yönəlmiş fəaliyyət proqramıdır. Çərçivə Konvensiyası 1994-cü il martın 21-də qüvvəyə minib və bu gün 197 ölkə konvensiyanın iştirakçısıdır.

2012-ci ildə Rio-de-Janeyroda BMT-nin "Rio 20" Davamlı İnkişaf Konfransı keçirilib. Konfransda iki əsas mövzu müzakirə edilib: davamlı inkişafa nail olmaq və insanları yoxsulluqdan çıxarmaq üçün "yaşıl" iqtisadiyyatın necə yaradılması və davamlı inkişafın beynəlxalq koordinasiyasının təkmilləşdirilməsi [19; 20].

İnkişaf tarixi son nəticədə ona gətirib çıxardı ki, nəzərdən keçirilən proses çərçivəsində dünya iqtisadiyyatında iki yeni sahə formalaşır. Birinci sahə "yaşıl" maliyyə sektorunda yerləşir. İkinci sahə isə iqtisadiyyatın real sektorunda, sözdə "yaşıl" iqtisadiyyatdır.

Hazırda ekologiya və iqlim probleminin həlli beynəlxalq miqyasda xüsusi əhəmiyyət kəsb edir. Bu problemləri həll etmək üçün bir çox dövlətlər, o cümlədən Azərbaycan Respublikası onların həlli yollarını müzakirə etmək və dünyada ətraf mühitin yaxşılaşdırılmasına töhfə vermək üçün əməkdaşlıq edir və Azərbaycan Respublikası beynəlxalq aləmin etibarlı və məsuliyyətli üzvü olaraq iqlim dəyişikliklərinin nəticələri ilə mübarizəyə öz qatqısını təmin edir. Bunun bariz nümunəsidir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında Sərəncam imzalayıb [12].

"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir", - deyə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sənəddə vurğulayıb. Bu sərəncam Azərbaycanın qlobal təşəbbüslərə ilk qoşulan ölkələrin sırasında olduğunu bir daha sübut edir [12].

**İqlim dəyişikliklərinin birbaşa və dolayı təsirləri**

Hazırda iqlim dəyişiklikləri dünyanı narahat edən ən ciddi qlobal problemlərdən biridir. Məlumdur ki, XVIII əsrdə başlayan sənayeləşmə dövründən, xüsusən də XX əsrin ortalarından etibarən, Yer kürəsinin iqlim sisteminə ciddi mənfi təsirlər edilmiş, atmosferdə digər tullantılarla yanaşı, istixana effekti yaradan qazların sürətlə artması müşahidə olunmuşdur. Bu emissiyalar və iqlim dəyişiklikləri bütün bəşəriyyət üçün fəlakətli nəticələrə səbəb ola bilər. Ekosistemin məhv edilməsinin qarşısını almaq və onu sabitləşdirmək üçün dünya dövlətləri bir araya gələrək iqtisadiyyatın "yaşıllaşdırılması" ilə birbaşa əlaqəli olan dünyanın yaşıllaşdırılması planını işləyib hazırlamaq və həyata keçirmək qərarına gəliblər.

Bu məqsədlərə nail olmaq üçün əlavə vasitələrin hazırlanması ehtiyacının aktuallaşması planetin resurslara münasibətdə paradiqmanın dəyişməsi fonunda baş verdi. Bu, ilk növbədə, antropogen fəaliyyətin təhlili ilə əlaqədardır ki, insanın aktiv fəaliyyəti, resursların istehlakı sənayeləşmənin başlanğıcından yalnız 200 il ərzində təbii ehtiyatların tükənməsinə və iqlim dəyişikliyinə səbəb olub.

Yer səthinin orta temperaturu hazırda 1800-cü illərin sonlarında (sənaye inqilabından əvvəl) olduğundan təxminən 1,2°C artıb və son 100 ilin istənilən vaxtından daha istidir. Son onillik (2011-2020-ci illər) tarixdə ən isti olub və son dörd onilliyin hər biri 1850-ci ildən bəri hər hansı əvvəlki onillikdən daha isti olub. Son 100 ildə Azərbaycan ərazisində orta illik temperaturlar 0,4-1,3$^{0}$C-yə qədər artmışdır [Qasıml V.Ə. və b., 13; 14; 19].

Bir çox insanlar iqlim dəyişikliyinin əsasən daha isti temperatur olduğunu fikirləşirlər, əslində isə temperaturun yüksəlməsi daha qlobal problemlərin yalnız başlanğıcıdır. Yer hər şeyin bir-birinə bağlı olduğu bir sistem olduğu üçün bir sahədəki dəyişikliklər daha genişmiqyaslı təsirə malikdir.

Bu dəyişikliklərdən biri də güclənən fırtınalar sayılır. Bir çox bölgələrdə dağıdıcı fırtınaların intensivliyində və tezliyində artım müşahidə olunub. Temperatur yüksəldikcə daha çox rütubət buxarlanır, yağışlar və daşqınlar artır və daha təhlükəli tufanlara səbəb olur.

İqlimdəki dəyişikliklər və ekstremal hava hadisələrinin artması həm də aclığın və pis qidalanmanın qlobal artımının səbəblərindən biridir. Balıqçılıq, əkinçilik və heyvandarlıq məhv ola bilər və ya məhsuldarlığı azala bilər. Okeanın daha turş sulu olması ilə milyardlarla insanı qidalandıran dəniz resursları risk altındadır.

Quraqlığın güclənməsi də iqlim dəyişikliklərin nəticəsidir. İqlim dəyişikliyi suyun əlçatanlığını dəyişir və onu getdikcə artan sayda regionlarda daha az resurs edir. Qlobal istiləşmə onsuz da sudan əziyyət çəkən bölgələrdə su qıtlığını artırır və əkinlərə təsir edən kənd təsərrüfatı quraqlıqları riskini artırır. Quraqlıqlar həmçinin dağıdıcı qum və toz fırtınalarına səbəb ola bilər ki, bu da milyardlarla ton qumu qitələr arasında hərəkət etdirə bilər. Səhralar genişlənir, qida bitkilərinin becərilməsi üçün

mövcud olan torpaqların miqdarını azaldır. Bu gün bir çox insanlar daim su qıtlığı təhlükəsi ilə üzləşirlər [10; 13; 14 ].

İqlim dəyişikliyi insan sağlamlığı üçün ən böyük təhlükələrdən biridir. Onun təsirləri artıq havanın çirklənməsi, xəstəliklərin yayılması, ekstremal hava hadisələri, məcburi köçkünlük, psixi sağlamlıq stressi, eləcə də insanların ərzaq məhsulları yetişdirə bilmədiyi və ya kifayət qədər ərzaq məhsullarının mövcudluğunu təmin edə bilmədiyi yerlərdə pisləşən aclıq və qida çatışmazlığı ilə sağlamlığa ziyan vurur. Ətraf mühit faktorları hər il təxminən 13 milyon insanı öldürür. Dəyişən hava şəraiti xəstəliyin yayılmasına səbəb olur və ekstremal hava hadisələri ölüm hallarını artırır və sağlamlıq sistemlərini gərginləşdirir.

Son iyirmi il ərzində okeanın istiləşmə sürəti bütün dərinliklərdə kəskin şəkildə artmışdır. Okean isindikcə onun həcmi artır, çünki su qızdıqca genişlənir. Əriyən buz təbəqələri də dəniz səviyyəsinin qalxmasına səbəb olur ki, bu da sahilyanı və ada icmalarını təhdid edir [9].

Siyahıya bəşəriyyətin hər gün qarşılaşdığı daha çox məqamları və qlobal problemləri əlavə etmək olar. Bütün bu problemlər əsrlərlə insaniyyəti narahat edirdi, lakin son onilliklərdə onların miqyası dəfələrlə artıb. Bəşəriyyət bütün dünyada insanların daha yaxşı həyat keyfiyyətini təmin etmək və iqlim dəyişikliyinin səbəb ola biləcəyi fəlakətlərin qarşısını almaq üçün mühüm addımlar atmaqdadr.

İqlim dəyişikliyinin yaratdığı problemlər qlobaldır və Azərbaycanın ekosisteminə də təsir edir. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun məlumatlarına görə son zamanlar Aran rayonlarında səhralaşma prosesləri, torpaq eroziyası güclənir: “Ölkədə su ehtiyat-larının azalması problemi də var. Bunlar Azərbaycanda müşahidə edilən iqlim dəyişikliyinin əsas nəticələridir”. İnstitutun məlumatlarına görə 30-50 ildən sonra bəzi fəsillərin yox ola bilər, yəni qış və yay ani temperatur dəyişiklikləri nəticəsində yarana bilər. Təbii ki, bu da təbiət və ümumilikdə canlı aləm üçün ciddi mənfi təsirlərlə xarakterizə olunur [13; 15; 24].

### Yaşıl maliyyə - iqlim dəyişikliklərinə qarşı etibarlı vasitə

“Yaşıl” maliyyənin mənşəyi yaşıl iqtisadiyyat anlayışına qədər uzana bilər. “Yaşıl iqtisadiyyat” termini ilk dəfə 1980-ci illərin sonlarında “The Blueprint of Green Economy” adlı hesabatda müzakirə edilmişdir. Konsepsiya sürətli sənayeləşmənin ətraf mühitə və iqlim şəraitinə təsirinin ilk şahidi olan Qərb ölkələrində yaranmışdır.

Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) yaşıl iqtisadiyyatı “insan rifahının və sosial bərabərliyin yaxşılaşdırılması ilə nəticələnən, eyni zamanda ekoloji riskləri və ekoloji çatışmazlıqları əhəmiyyətli dərəcədə azaldan iqtisadiyyat kimi müəyyən etmişdir. Ən sadə ifadə ilə yaşıl iqtisadiyyat aşağı karbonlu, resursdan səmərəli istifadə edən və sosial baxımdan inklüziv olan bir iqtisadiyyat kimi düşünülə bilər. Yaşıl iqtisadiyyat geniş miqyaslı siyasət gündəlik və iqtisadi məqsədlərin sosial və ekoloji hədəflərə uyğunlaşdırılmasını vurğulamaqla davamlı inkişafa nail olmağı dəstəkləmək üçün bir vasitədir [Qasımlı V. və b., Hacıyev F, Asadov A., Алимовна А.А., Еремин В.В., Бауэр В.П.].

“Yaşıl iqtisadiyyat” termini insan rifahını və sosial ədaləti təmin edən və eyni zamanda, ətraf mühit risklərini kəskin azaldan iqtisadiyyat kimi müəyyən edilir. Bu mənada, yaşıl biznesin əsas təşəbbüsü xidmət və istehsal prosesi zamanı meydana gələn zərərli kimyəvi maddələrin, material və tullantıların təsirini aradan qaldırmaqdır. Öz növbəsində, yaşıl maliyyə iqtisadiyyatın bir çox cəhətlərini əhatə edir,

buna görə də fərqli yanaşmalarla izah edilir. Ümumi qəbul ediləni isə odur ki, yaşıl maliyyə ətraf mühitin mühafizəsi və yaxşılaşdırılması, istixana qazlarının emissiyalarının azaldılması, resurslardan qənaətlə istifadə və s. istiqamətlərə yönəlmiş layihələrin həyata keçiril-məsinə kömək edən maliyyə məhsulları və xidmətləri məcmusudur. Yaşıl maliyyə, ekosistemlərə zərər vermədən iqtisadi artımın təşviq edilməsinə yönəlir. Daha sadə sözlərlə, yaşıl maliyyələşdirmə ekoloji cəhətdən təmiz xammal, əmtəə və xidmətlərin alınması və ya ətraf mühitə uyğun infra-strukturun qurulması kimi ekoloji cəhətdən təmiz fəaliyyətə dəstək verən kredit və ya investisiyadır [Qasımlı V. və b., Jacobs M. Zhironkin S.].

Ətraf mühitin mühafizəsi, iqlim dəyişikliyinin təsirlərinin azaldılması və uyğunlaşması ilə bağlı artan qlobal narahatlıq akademik tədqiqatçıların və siyasətçilərin də diqqətini maliyyə sistemlərində innovativ və davamlı keçid üçün iqtisadiyyatların təşəbbüsü olan yaşıl maliyyəyə yönəltdi.Beləliklə, yaşıl maliyyə maliyyə sənayesi, ətraf mühitin mühafizəsi və iqtisadi inkişafın kəsişmə nöqtəsi kimi qəbul edilir.

Azərbaycanda yaşıl iqtisadiyyata keçid iqtisadiyyatın diversifikasiya məsələlərini gündəmə gətirir. Bu baxımdan, qeyri-neft sektorunun müasir tələblərə uyğun inkişafının təmin edilməsi daha da aktuallaşır. Müasir texnologiyaların tətbiqi və artırılması yaşıl iqtisadiyyatın formalaşmasında, qeyri-neft sektorunun inkişafında, innovativ fəaliyyətdə mühüm rol oynayır. Dünya bazarına etibarlı karbohidrogen tədarükçüsü olan, büdcəsinin böyük hissəsini neft və qaz satışından əldə olunan gəlirlərdən təşkil edən Azərbaycan Respublikası iqtisadiyyatın neft-qaz ixracından asılılığını azaltmağı qarşısına məqsəd qoymuşdur [Qasımlı V. və b., Мамедов Я., 15].

**Yaşıl maliyyələşdirmə alətləri**

Yaşıl maliyyələşdirmənin əsas alətləri yaşıl istiqrazlar, karbon vahidləri, güzəştli yaşıl kreditləşdirmə, yaşıl ipoteka və şirkətin fəaliyyətinə əlavə maliyyə cəlb etməyə kömək edən subsidiyalardır.

Yaşıl istiqrazlar geri qaytarılmalı əsaslarla təqdim edilən və əldə edilən gəlirləri ətraf mühitin mühafizəsi layihələrinə ayrılan borc qiymətli kağızlarıdır. Karbon vahidi, karbon krediti istixana qazı (İXQ) emissiyalarının azaldılması üçün maliyyə alətidir. Mahiyyət etibarilə, onlar şirkətin satmaq hüququna malik olduğu bir növ valyuta ilə ifadə edilən İXQ emissiyalarının azaldılmasının təsdiqidir. Alınmış karbon vahidlərinin sahibləri müəyyən edilmiş standartlardan artıq istixana qazı emissi-yalarına görə güzəşt almaq hüququna malikdirlər. O cümlədən, güzəştli yaşıl kreditləşmə "yaşıl" layihələr üçün güzəştli şərtlərlə kredit almaq, yaşıl ipoteka isə "yaşıl bina" meyarlarına cavab verən daşınmaz əmlakın tikintisi və alınması üçün banklar tərəfindən verilən ipoteka kreditləridir. Bir qayda olaraq, belə ipoteka güzəştli şərtləri nəzərdə tutur ki, bu da həm tərtibatçılar, həm də sonrakı alıcılar üçün cəlbedici amildir [A., Алимовна А.А., Еремин В.В., Бауэр В.П.; 18; 21].

Yaşıl layihələr üçün subsidiyalar yaşıl maliyyə alətləri bazarının inkişafını stimullaşdırmaq üçün vergi tədbiridir. Bunlar yaşıl istiqrazlar üzrə kupon ödənişləri və yaşıl kreditlər üzrə faizlərin bir hissəsinin geri qaytarılması üçün verilən dövlət subsidiyalarıdır [2; 19; 25].

Yuxarıdakılardan anladığımız kimi, yaşıl maliyyə bir çox şirkətlər üçün karbonların və zərərli maddələrin istehsalını azaltmaq üçün böyük stimul ola bilər. Yaşıl iqtisadiyyatlarını fəal şəkildə inkişaf

etdirən bəzi ölkələr artıq iqlim dəyişikliyinin və ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün mühüm nəticələr əldə ediblər.

**Yaşıl maliyyənin tətbiqinə dair beynəlxalq təcrübə**

Dünyada yaşıl maliyyənin tətbiqi nümunələrini bir neçə ölkələrdə müşahidə edə bilərik. Məsələn, Çin yaxşı nümunə göstərərək, yaşıl obligasiyaların buraxılmasında dünya lideridir və bərpa olunan enerji, nəqliyyat infrastrukturu və ekoloji layihələri maliyyələşdirir. 2022-ci ildə Çində yaşıl obligasiyaların həcmi rekord səviyyələrə çatıb. Çin, günəş panellərinin istehsalında da dünya lideri olub və 2022-ci ildə ölkə qlobal günəş enerjisi quraşdırmalarının 30%-dən çoxunu təmin edibdir. Eləcə də, Cənubi Koreyada karbon emissiyalarını azaltmaq üçün layihələri maliyyələşdirmək məqsədilə Yaşıl İqlim Texnologiyaları Fondu yaradılıb ki, bu fondun da vəsaitləri karbon tutma texnologiyaları və elektrikli nəqliyyatının inkişafına sərf edilir [A., Алимовна А.А., Еремин В.В., Бауэр В.П.; Filho W.L., Jacobs M.; 2; 18; 19; 21].

Avropa İttifaqı tərəfindən yaşıl yeni kurs proqramı çərçivəsində ekologiyaya dost texnologiyalar və layihələri maliyyələşdirmək üçün bank məhsulları hazırlanır. Buraya enerji səmərəli binalar və bərpa olunan enerji daxildir.

Ümumiyyətlə, dünya ölkələri yaşıl maliyyə və yaşıl iqtisadiyyatdan faydalanaraq əhəmiyyətli nəticələrə şahid olmaqdadırlar. Bu ölkələrdən biri də Danimarkadır. Danimarka külək enerjisini aktiv şəkildə inkişaf etdirir və 2022-ci ildə ölkənin elektrik istehsalının 47%-i külək turbinlərindən əldə olunub. İsveç 2045-ci ilə qədər sıfır karbon səviyyəsini hədəfləyir və 2021-ci ildə ölkənin elektrik enerjisinin 60%-dən çoxu bərpa olunan mənbələrdən əldə edilib. Yeni Zelandiya isə 2035-ci ilədək elektrik tələbatını 100% bərpa olunan mənbələrdən təmin etməyi planlaşdırır və 2021-ci ildə elektrik enerjisinin 80%-dən çoxu su və geotermal mənbələrdən əldə olunubdur. Kaliforniya 2045-ci ilə qədər 100% bərpa olunan enerji mənbələrinə keçməyi planlaşdırır ki, bu ölkədə də 2022-ci ildə artıq elektrik enerjisinin 30%-dən çoxu günəş və külək mənbələrindən alınıbdır [A., Алимовна А.А., Filho W.L., Jacobs M.; 2; 18; 19; 20; 21].

Bütün bunlarla yanaşı, yaşıl iqtisadiyyata keçid yalnız iqlim dəyişikliyi ilə mübarizə aparmağa kömək etmir, həm də yeni iş yerləri və iqtisadi imkanlar yaradır. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, davamlı inkişaf mümkündür, real nəticələr verir və həm də zəruridir.

Digər sahələrdə olduğu kimi, bu proseslərdə də Azərbaycan kənarda qalmayaraq yeni yaşıl üsulları uğurla tətbiq edir. Ölkəmizin işğaldan azad edilmiş zonaları yaşıl enerji zonası elan edilib, bu sahəyə irihəcmli yerli və xarici investisiyalar qoyulur. Eyni zamanda, ölkəmizdə bərpa olunan enerji və davamlı inkişaf layihələrini maliyyələşdirmək üçün yaşıl obligasiyaların buraxılması da nəzərdə tutulur. Bu, ekoloji cəhətdən təmiz texnologiyalara investisiyaların cəlb edilməsinə imkan verəcək. Həmçinin ölkədə günəş və külək elektrik stansiyalarının tikintisi həyata keçirilir və bunlar qismən yaşıl maliyyə alətləri ilə maliyyələşdirilir. Azərbaycan iqlim dəyişikliyi ilə mübarizə üzrə beynəlxalq proqramlarda fəal iştirak edir və Yaşıl Ekoloji Fonddan (GEF) yaşıl təşəbbüslərin həyata keçirilməsi üçün maliyyə alır [A., Алимовна А.А., Jacobs M.; 19; 20; 21].

**Nəticə**

Yaşıl iqtisadiyyat, yaşıl maliyyə, resurslardan səmərəli istifadə və dayanıqlı inkişafın əhəmiyyəti nəinki daha yaxşı gələcəyin formalaşdırılmasında və iqlim dəyişikliyi ilə mübarizədə mühüm rol oynayır, həm də dövlətləri birləşdirmək və onlar arasında yeni iqtisadi əlaqələr yaratmaq üslubuna çevrilib. Bu qlobal problemlərlə bağlı müzakirələrin kifayət qədər uzun müddətdir davam etməsinə baxmayaraq, mühüm tədbirlər və nəticələr yalnız son illərdə özünü göstərməyə başlayıb. Bu isə onu deməyə əsas verir ki, bəşəriyyət düzgün yoldadır və zaman keçdikcə biz birlikdə çalışaraq yüksək səviyyələrə və gələcək nəsillər üçün daha yaxşı həyat şəraitinə nail olmağa bacaracayıq. Gələcək nəsillərin vəziyyəti Yerin vəziyyətindən asılıdır. İndiki və gələcək nəsli daha yaxşı həyatla təmin etmək və iqlim dəyişikliyindən mənfi təsirlənənlərin həyatını yaxşılaşdırmaq üçün biz iqtisadiyyatı yenidən qurmalı və ətraf mühit üçün minimum zərərli olan yaşıl sənayelərə sərmayə qoymalıyıq ki, bunun üçün də əla fürsət yaşıl maliyyədir. Ətraf mühit aləti kimi yaşıl maliyyə, yaşıl iqtisadiyyatın formalaşması, təbii-iqtisadi resurslardan qənaətlə istifadə artıq bir çox ölkələrin gözləntilərini doğrultmuşdur ki, bu da etibarlı təcrübə deməkdir.

**İstifadə edilmiş mənbələr**


1. Qasımlı V.Ə., Hüseyn R.Z. və b. “Yaşıl iqtisadiyyat”. Bakı, Azprint nəşriyyatı, 2022, 280 səh.
2. “Türk dövlətləri iqtisadiyyatı”. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, kol.mon., 2023, Nobel nəşriyyatı, 437 səh.;
3. Əsədov A.M. “Azərbaycan Respublikasında “Yaşıl nəqliyyat” sisteminin formalaşdırılması istiqamətləri”. Bakı, AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, 2013, №4, səh. 330-338;
4. Вахабов А.В., Ш.Х.Хажибакиев «Необходимость и приоритетные направления перехода к «зеленой экономике» в Узбекстане». Тезисы докладов международной конференции, 20 апрел 2021, стр.37-43;
5. Алимовна А.А. «Понятие и сущность «зеленых» финансов». “Word in science”, 2022, №3, с.12-20;
6. Еремин В.В., Бауэр В.П. «Зеленое» финансирование как триггер позитивных климатических преобразование. М.:, «Экономика и Управление», 2021, №4, стр. 63-75;
7. Мамедов Я.ФА. «Основы развития зеленой экономики в азербайджане». Гомель, «Экономики и правовые перспективы развития общества, государства и потребительской кооперации» Сборник научных статей IV международной научно-практической интернет-конференции, 2023, стр.128-136;
8. Filho W.L., D.M. Pociovalisteanu and etc. “Sustainable economic development: green economy and green growth”. Springer, 2022, pp.382;
9. Hacıyev F.Sh., Asadov A.M. “Analysis and evaluation of sustainable socio-economic development of Azerbaijan”. Life Science Journal, 2023, №20(12), p.34-38;
10. M.Jacobs “The green economy: environment, sustainable, development and the politics of the future paperback”. Pluto Press, 2022, pp.336;
11. S.Zhironkin, M. Cehlar “Green economy and sustainable development”. MDPİ, Energies, 2022, pp.360;
12. https://president.az/az/articles/view/62737

13. https://eco.gov.az/az/hidrometeorologiya/iqlim-deyismeleri
14. https://apa.az/sosial/i%CC%87qlim-deyisikliyi-azerbaycanda-biomuxteliflik-ve-su-ehtiyatlari-azalir-orta-illik-temperatur-artir-arasdirma-554867
15. https://azertag.az/xeber/yasil_iqtisadiyyat_nedir-2333990
16. https://www.researchgate.net/publication/375075111_Osnovy_razvitia_zelenoj_ekonomiki_v_Azerbajdzane
17. https://cyberleninka.ru/article/n/ponyatie-i-suschnost-zelenyh-finansov/viewer
18. https://hpb-s.com/news/chto-takoe-zelenoe-finansirovanie/
19. https://www.un.org/en/climatechange/what-is-climate-change
20. https://www.un.org/en/climatechange/science/causes-effects-climate-change
21. https://www.bdo.az/en-gb/insights/insights/tax-and-net-zero-how-do-green-tax-policies-in-individual-countries-compare
22. https://hpb-s.com/news/chto-takoe-zelenoe-finansirovanie/
23. https://russian.korea.net/NewsFocus/Policies/view?articleId=238691;
24. https://azertag.az/ru/xeber/pochti_polovina_elektroenergii_v_danii_proizvoditsya_za_schet_vetryanyh_elektrostancii-1380850
25. https://caliber.az/post/zelenoe-finansirovanie-v-azerbajdzhane-oboznachili-prioritety

## Green Management in the Transport Sector.

**Fatima Mustafazade**
**University of Economics and Human Sciences, Management, Master's degree**
**Polsha, Warsaw**
**18emzdh@gmail.com**

**Summary**

The article discusses the proper management of sustainable green development in the transport sector. Through the development of a sustainable transportation system, the needs of people, businesses, and society for reliable and affordable transportation are met while minimizing harm to human health and ecosystems. Ideally, such a transport system is based on the use of energy from renewable sources (for example, hydroelectric power, solar energy, etc.).

The long-term development strategies of countries are based on the principles of humanism, environmental sustainability and security. In this context, transport infrastructure plays a key role. In global practice, the development of transport is carried out in order to achieve a high level of comfort, to ensure environmental safety and public welfare, which are factors determining future sustainable development.

The environmental impact of transport includes not only air pollution and the depletion of non-renewable resources, but also the disposal and processing of hazardous waste such as tires and batteries.

**JEL code: O 32**

**Keywords:** Green Management, carbon footprints

### *1.* Transport Sector And Green Management.

The transition to green governance in the transportation sector is a significant change. Cities' transition to green transportation policies that include greater use of modes of transportation such as public transportation, cycling, and walking will not only combat climate change, but also significantly improve the health and quality of life of city residents. , will also create new jobs.

The transport sector is a significant contributor to climate change, as it is responsible for 23% of all global carbon dioxide emissions from burning fossil fuels. 75% of these emissions come from road transport, and this figure continues to grow. Over 95% of road transport depends on oil, which accounts for 60% of total oil consumption. This puts increasing pressure on governments to find policies that not only reduce car emissions, but also create new jobs, especially during a financial crisis.

The development of green transport is an important basis for building a green economy. This requires policies, mechanisms, resource mobilization, innovative economic tools, market access to respond to climate change, resource management and environmental protection ( Fahimnia, Bell, Hensher, Sarkis, 2015).

***2. Implementation of green transport goals.***

The prime minister decided on July 2, 2022, to fulfill Vietnam's commitments at the 26th Conference of the Parties to the UN Framework Convention on Climate Change (COP26). The transition to green energy is to reduce carbon and methane emissions in the transport sector and ensure the sustainable development of green transport with the aim of achieving net zero emissions by 2050.

The main idea of sustainable development is to meet the needs of modern consumers so that future generations have the opportunity to meet their own needs. Planet Earth can be considered a closed system. If something came to one place, it went to another. The only input from outside this system is solar energy. It is necessary to meet the needs by following the basic principles of sustainable development logistics:

- efficient use of energy resources;
- efficient use of raw materials and material resources;
- minimizing the losses of raw materials, materials, products and energy related to the production, distribution and management of various flows after the consumption of products;
- effective planning and creation of logistics system potential;
- timely modernization of the capabilities of the existing logistics system;
- to minimize the impact of the environment on the environment.

The main goals of organizing green management in the transport sector

- increase the number of electric buses, trolleybuses, and trams
- convert public transport to clean fuel
- sharing cars, scooters, bikes
- using hydrogen and gas powered vehicles

***3. Factors***

The main source of pollution in cities is traffic, and its impact is constantly increasing. A number of factors affect the level of pollution:




In today's world, environmental sustainability is vital for many sectors as well as the transport sector. Issues such as global warming and environmental pollution are driving individuals, institutions, businesses and governments to seek more environmentally friendly solutions. In this context, the transport sector has entered a significant transformation process by adopting green practices. Innovations such as electric vehicles, the use of renewable energy and advanced logistics systems are leading to radical changes in the industry.

**3. Reducing carbon footprints.**

əməkdaşlıqla əlaqədar müzakirələr aparılıb. Əlavə olaraq, Bakı və Ankara 2022-ci ildə "Türkiyə-Azərbaycan Rəqəmsal Transformasiya Forumu"nun təsis edilməsi haqqında qərar qəbul edib. İşçi qrupunun yaradılması barədə razılıq isə, müvafiq qurumlar arasında 18 fevral 2021-ci il tarixində Ankara şəhərində keçirilmiş görüş zamanı əldə olunmuşdur. (Interfax.az, 2022)

2022-ci ilin dekabrında Azərbaycanla Avropa İttifaqı arasında nəqliyyat, rəqəmsal transformasiya, o cümlədən İKT və kibertəhlükəsizlik üzrə əməkdaşlıq haqqında fikir mübadiləsi aparılıb. Ölkəmizdə həyata keçirilən rəqəmsal transformasiya layihələrinə və sahə üzrə mütəxəssislərin hazırlanmasına Avropa İttifaqı tərəfindən dəstək göstərilməsi məsələləri müzakirə olunub. (AZƏRTAC, 2022) 2023-cü ildə Dünya Bankı tərəfindən Azərbaycanın rəqəmsal inkişafının dəstəklənməsi məqsədilə Azərbaycan üçün rəqəmsal inkişaf strategiyası hazırlanmağa başlanılıb. Bu məqsədlə Dünya Bankının və bu prosesdə onları dəstəkləyən "Roland Berger" şirkətinin nümayəndələri bir neçə dəfə Azərbaycana səfər ediblər. Onların qarşısında duran əsas vəzifələrdən biri, "Rəqəmsal transformasiya üçün əsaslandırmanın müqayisəli təhlili və işlənib hazırlanması" mövzusu olmuşdur. (e-gov.az, 2023)

2022-ci ilin dekabrında rəqəmsal iqtisadiyyat strategiyasının hazırlanması üzrə işçi qrupu Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişaf istiqamətlərini müəyyən edəcək vahid milli strategiyanın hazırlanması üzərində işə başlayıb.

2023-cü ilin iyulunda İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) ilə Alman-Azərbaycan Xarici Ticarət Palatasının (AHK) Rəqəmsal Transformasiya İşçi Qrupu arasında görüş keçirilib. Dövlət-özəl sektor tərəfdaşlığının gücləndirilməsi istiqamətində keçirilən görüşdə ölkədə rəqəmsal iqtisadiyyat və 4Sİ texnologiyalarının tətbiqi mövzusunda müzakirələr aparılıb.

2023-cü ilin sentyabrında Prezident İlham Əliyev Mərkəzi Asiya dövlət başçılarının Tacikistanda keçirilən 5-ci Məşvərət Görüşündə çıxışı zamanı ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsinin fiber-optik infrastrukturun yaradılması üzrə "Rəqəmsal İpək Yolu" layihəsi olduğunu bildirib. (AZƏRTAC, 2023)

2023-cü ilin noyabrında "Rəqəmsal İpək Yolu" layihəsi Bakıda keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclasında təqdim olundu. Tədbirdə çıxış edən AzerTelecom şirkətinin Əməliyyatlar üzrə baş direktoru Sergey Nazarenko ölkəmiz və region üçün prioritet layihələrdən biri olan "Rəqəmsal İpək Yolu" layihəsinin strateji əhəmiyyəti, əsas komponentləri barədə tədbir iştirakçılarına məlumat verib. "Rəqəmsal İpək Yolu" layihəsi çərçivəsində ölkə daxilidə, eləcə də Azərbaycanla Orta Asiya ölkələri arasında Xəzərin dibi ilə qurulacaq rəqəmsal infrastrukturun Avropa ilə Asiya arasında yeni rəqəmsal telekommunikasiya dəhlizini formalaşdıracağını qeyd edib. (neqsolholding.com, 2022)

1998-ci ildə Birləşmiş Millətlər Təşkilatının Mərkəzi Asiya İqtisadiyyatları üzrə Xüsusi Proqramının (SPECA) yaradılmasından sonra ilk dəfə olaraq 2023-cü ilin noyabrında SPECA-nın iştirakçısı olan ölkələrin dövlət və hökumət başçıları "Bakı Bəyannaməsi"ni qəbul etdilər. Bəyannamə Transxəzər Nəqliyyat Dəhlizi boyunca multimodal məlumatların və sənəd mübadiləsinin rəqəmsallaşdırılması üçün yol xəritəsini təsdiq edir və xüsusi SPECA Çox Tərəfdaşlı Etimad Fondunun yaradılması planlarını alqışlayır. Sammitdə təsdiq edilmiş Transxəzər Nəqliyyat Dəhlizi boyunca Multimodal Məlumat və Sənəd Mübadiləsinin Rəqəmsallaşdırılmasına dair Yol Xəritəsi SPECA-da iştirak edən dövlətlər üçün 2027-ci ilə qədər BMT-nin rəqəmsal standartları və hüquqi alətlərindən istifadə etməklə

təchizat zəncirləri arasında problemsiz, real vaxt rejimində məlumat mübadiləsini təmin etməyə və nəqliyyatın səmərəliliyini artırmağa kömək edəcək. (unece.org, 2023)

6 dekabr 2023-cü ildə Bakıda, ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" forumunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rəqəmsal İpək Yolu" barəsində fikirlər səsləndirmiş, infrastrukturun əhəmiyyətini vurğulamış və Azərbaycanın bu məsələdə coğrafi əhəmiyyətini qeyd etmişdir. (president.az, 2023)

2024-cü ilin yanvarında Azərbaycanla ABŞ-ın "McKinsey & Company" şirkəti arasında iqtisadiyyatda rəqəmsal transformasiya müzakirə edilib. İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında, "Davos İqtisadi Forumu (World Economic Forum) çərçivəsində "McKinsey & Company" şirkətinin regional idarəedici tərəfdaşı Özgür Tanrıkulu ilə Azərbaycanda keçiriləcək COP29 tədbiri çərçivəsində potensial tərəfdaşlıqlar, biznes mühitinin və insan kapitalının innovativ əsaslarla inkişafı istiqamətində şirkətlə əməkdaşlıq və iqtisadiyyatda rəqəmsal transformasiyanın perspektivləri barədə danışdıq", - deyə qeyd edib. (Report, 2024) 2024-cü ilin aprelində isə Azərbaycan ilə Qırğız Respublikası arasında rəqəmsal transformasiya istiqamətində əməkdaşlıq müzakirə edilib. (AZƏRTAC, 2024)

Hökumət rəqəmsal iqtisadiyyatı fəal şəkildə təşviq edir, texnologiya startaplarına və İT şirkətlərinə stimullar təklif edir. Ölkə iqtisadiyyatını ənənəvi sektorlardan kənara çıxararaq, innovasiya və sahibkarlığa yol açır. Gələcəkdə çox güman ki, Azərbaycan Qafqazda texnoloji startaplar üçün mərkəz kimi ortaya çıxacaq, innovasiya mədəniyyətini inkişaf etdirəcək və yeni iqtisadi imkanlar yaradacaq. Bu, prosesdə qonşu Gürcüstan və Qazaxıstanın təcrübələri öyrənilməli və ortaq işlər həyata keçirilməlidir. Hökumətin e-idarəçiliyə, rəqəmsal infrastruktura, ağıllı şəhərlərə və inkişaf edən rəqəmsal iqtisadiyyata sadiqliyi ölkənin rəqəmsal dövrün təqdim etdiyi çətinliklər və imkanları idarə etmək əzmini vurğulayır.

## Elektron Hökumət və Yaşıl İqtisadi Transformasiyanın Təşviqi və İdarə edilməsində Onun Rolu

### Elektron hökumətin yaşıl iqtisadi transformasiyaya təsiri

Rəqəmsal texnologiyanın yaranması hökumətlərin vətəndaşlar, bizneslər və digər maraqlı tərəflərlə qarşılıqlı əlaqəsində inqilab etdi. Dövlət xidmətlərini təmin etmək, hökumət proseslərini sadələşdirmək və vətəndaş iştirakını artırmaq üçün rəqəmsal alətlər və sistemlərdən istifadə kimi müəyyən edilən e-hökumət yaşıl iqtisadi transformasiyanın inkişafında mühüm rol oynayır. Bu transformasiya ətraf mühitə nəzarəti, iqtisadi səmərəliliyi və sosial bərabərliyi təşviq edən davamlı təcrübələrə keçidi əhatə edir. Elektron hökumət təşəbbüslərindən istifadə etməklə, siyasətçilər daha yaşıl iqtisadiyyata keçidi effektiv şəkildə idarə edə, resursları daha səmərəli idarə edə və innovasiyaları təşviq edə bilərlər. Yaşıl iqtisadi transformasiyada elektron hökumətin rolu aşağıdakı kimi təsnifləşdirilə bilər:

- **İqtisadi rifahın və davamlı inkişafın asanlaşdırılması**: Elektron hökumət səmərəli dövlət xidmətləri göstərməklə və hökumətlə ictimaiyyət arasında interaktiv əməkdaşlığı inkişaf etdirməklə iqtisadi rifah və davamlı inkişaf üçün əsas alət rolunu oynayır. Bu qarşılıqlı əlaqə yaşıl iqtisadi transformasiyanı dəstəkləyən siyasətlərin həyata keçirilməsi üçün çox vacibdir.
- **Yaşıl texnoloji innovasiyanın təşviqi**: Elektron hökumətin tərkib hissəsi olan rəqəmsal iqtisadiyyat yaşıl texnoloji innovasiyaları təşviq etməklə yaşıl ümumi faktor məhsuldarlığını (GTFP)

əhəmiyyətli dərəcədə artırır. Bu yenilik ənənəvi sənayeləri daha dayanıqlı sənayelərə çevirmək və bununla da yaşıl inkişafa töhfə vermək üçün çox vacibdir.

- **İctimai iştirakın artırılması**: Elektron hökumət platformaları e-iştirakı artırır, vətəndaşlara ətraf mühitlə bağlı qərarların qəbulu proseslərində daha fəal iştirak etməyə imkan verir. Bu məşğulluq siyasətlərin ictimai ehtiyaclara daha çox uyğunlaşdırılmasını təmin edir və davamlılıq məqsədlərinə doğru kollektiv fəaliyyətə təşviq edir.
- **Səmərəliliyin artırılması və korrupsiyanın azaldılması**: İnzibati prosesləri sadələşdirməklə e-hökumət səmərəliliyi artırır və korrupsiya imkanlarını azaldır. Bu səmərəlilik yaşıl siyasətlərin effektiv şəkildə həyata keçirilməsi və resursların davamlı layihələrə ayrılmasını təmin etmək üçün çox vacibdir.
- **Sənaye strukturunun təkmilləşdirilməsi və enerjiyə qənaətin dəstəklənməsi**: Elektron hökumət təşəbbüsləri sənaye strukturlarının təkmilləşdirilməsini və enerjiyə qənaət səylərini dəstəkləyir. Daha davamlı sənaye təcrübələrinə keçidi asanlaşdırmaqla, e-hökumət ətraf mühitə təsirləri azaltmağa kömək edir və uzunmüddətli iqtisadi həyat qabiliyyətini təşviq edir. (Goloshchapova, T., Yamashev, V., Skornichenko, N., & Strielkowski, W., 2023; Xiao, Y., Wu, S., Liu, Z. Q., & Lin, H. J., 2023)

Elektron hökumət yaşıl iqtisadi transformasiya üçün çoxsaylı üstünlüklər təqdim etsə də, bir sıra problemlər həll edilməlidir:

- **Rəqəmsal bölünmə**: Mövcud bərabərsizliklərin şiddətlənməsinin qarşısını almaq üçün e-dövlət xidmətlərinə bərabər çıxışın təmin edilməsi vacibdir. Rəqəmsal uçurumun aradan qaldırılması yaşıl təşəbbüslərdə inklüziv iştirak üçün çox vacibdir.
- **Məlumat məxfiliyi və təhlükəsizliyi**: Rəqəmsal platformalardan artan istifadə məlumatların məxfiliyi və təhlükəsizliyi ilə bağlı narahatlıqları artırır. Hökumətlər şəffaflığı təşviq edərkən həssas məlumatları qorumaq üçün möhkəm çərçivələr yaratmalıdırlar.
- **Yaşıl məhsuldarlıqla qeyri-xətti münasibət**: Rəqəmsal iqtisadiyyat və yaşıl ümumi amil məhsuldarlığı arasındakı əlaqə qeyri-xəttidir, bu, faydaları artırmaq üçün diqqətli idarəetmə və strateji planlaşdırmanın tələb olunduğunu göstərir. (Goloshchapova, T., Yamashev, V., Skornichenko, N., & Strielkowski, W., 2023; Xiao, Y., Wu, S., Liu, Z. Q., & Lin, H. J., 2023)

Elektron hökumət ictimai xidmətlərin göstərilməsini təkmilləşdirən, yaşıl innovasiyaları təşviq edən və davamlı inkişafı dəstəkləyən alətlər və platformalar təklif edərək yaşıl iqtisadi transformasiyanın güclü təkanvericisidir. Rəqəmsal uçurum və məlumat təhlükəsizliyi kimi problemləri həll etməklə hökumətlər davamlı gələcəyə yön vermək üçün elektron hökumətin bütün potensialından istifadə edə bilərlər. Ölkələr COVİD-dən sonrakı bərpa prosesinin mürəkkəbliklərində naviqasiya etməyə davam etdikcə, uzunmüddətli iqtisadi və ekoloji dayanıqlığa nail olmaq üçün e-hökumət strategiyalarının ekoloji mülahizələrlə inteqrasiyası vacib olacaq.

### Azərbaycanda elektron hökumətin təşkili və davamlı inkişaf addımları

Azərbaycan son illərdə rəqəmsal transformasiyanı fəal şəkildə qəbul edir, iqtisadi artıma təkan vermək, dövlət xidmətlərini artırmaq və vətəndaşlarının ümumi həyat keyfiyyətini yaxşılaşdırmaq potensialını dərk edir. Azərbaycanda rəqəmsal transformasiyanın mühüm aspektləri, “ASAN Xidmət” mərkəzləri başlayan Elektron Hökumət Xidmətləridir.

“E-hökumət” layihəsi “Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiyaya (2003–2012-ci illər)” əsasən işlənib hazırlanmışdır və “Elektron Azərbaycan” Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Layihə informasiya-kommunikasiya

texnologiyalarının (İKT) geniş tətbiqi ilə dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin və operativliyinin yüksəldilməsini, əhali, biznes qurumları, həmçinin öz aralarında əlaqələrin asanlaşdırılması və sərbəstləşdirilməsinə yönəldilmiş fəaliyyəti nəzərdə tutur, vətəndaş-məmur münasibətlərinin yeni müstəvidə qurulmasına, şəffaflığın təmin olunmasına və informasiya tələbatının dolğun ödənilməsinə şərait yaradır.

2013-cü il mayın 1-dən tətbiq olunan "ASAN İmza" Vergilər Nazirliyi (indiki Dövlət Vergi Xidməti) və ölkədə fəaliyyət göstərən mobil operator tərəfindən verilən, elektron xidmət istifadəçisinin identifikasiyasını, sənədin elektron imzalanmasını və imzalayan şəxsin şəxsiyyətinin müəyyən edilməsini təmin edən elektron xidmətdir. "ASAN İmza" mövcud e-xidmətlərin hər birindən istifadəni mümkün edir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC tərəfindən yaradılan SİMA bulud əsaslı yeni nəsil rəqəmsal imza, 11 fevral 2022-ci ildə ictimaiyyətə təqdim olunub. SİMA ölkəmizdə həyata keçirilən rəqəmsal transformasiya layihələri çərçivəsində ən öncüllərdən biridir. Belə ki, SİMA yeni nəsil rəqəmsal imza ölkəmizdə bir çox dövlət sisteminə inteqrasiyası olunub. Məsələn, həmin ilin iyulundan "Azərişıq" ASC-nin "Əhali abonentinin enerji təchizatı şəbəkəsinə qoşulması" xidmətinə müraciət edərkən sənədləri SİMA ilə daha rahat imzalaya bilirlər. 2018-ci ilin 14 martında "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqini dövlət siyasətinin prioritetlərindən bir kimi təsdiq etdi və bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülməsinin davam etdirilməsinə təkan verdi. (Azərişıq, 2022)

Azərbaycan hazırda ağıllı şəhər inqilabının şahidi olur. 2021-ci ilin 19 aprelində ""Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Azərbaycan Respublikasının şəhər və kəndlərində göstərilən xidmətlərin keyfiyyətinin, təhlükəsizliyinin, səmərəliliyinin artırılması, onların göstərilməsində informasiya texnologiyalarının tətbiqi, habelə həmin xidmətlər üzrə mövcud resursların effektiv istifadəsi və idarə olunmasının təmin edilməsi şəhər və kənd yerlərində dayanıqlı inkişafın əsas prioritetlərindən olduğunu vurğulayır.

Ağıllı işıqlandırma, tullantıların idarə edilməsi və ictimai nəqliyyat sistemləri kimi təşəbbüslər işğaldan azad edilmiş şəhərlərin səmərəliliyini və dayanıqlığını artırır. Şəhər əhalisi artdıqca texnologiyanın şəhərsalma prosesinə inteqrasiyası da artır. Ağıllı şəhərlər təkcə resursların idarə edilməsini optimallaşdırmayacaq, həm də ictimai xidmətlər, mobillik və ekoloji dayanıqlılıq sahəsində yeniliklər vasitəsilə sakinlərin həyat keyfiyyətini yaxşılaşdıracaq.

Dövlət Vergi Xidmətinin Rəqəmsal Ticarət Qovşağının rəhbəri Məsumə Talıbova 2022-ci ilin mayında AZƏRTAC-a müsahibəsində diqqətə çatdırıb ki, yerli icra hakimiyyəti orqanlarında elektronlaşma prosesi elektron bələdiyyə sistemi ilə başlanıb, 2021-ci ilin may ayından isə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Elektron Hökumətin İnkişafı Mərkəzi (EHİM) tərəfindən "Rəqəmsal icra hakimiyyəti" portalının ilkin versiyası ilə davam etdirilir. Talıbova əlavə edib ki, kağızsız ticarət prosedurlarının aparılması, Rəqəmsal Ticarət Qovşağının və Azərbaycan mənşəli məhsulların elektron satışını həyata keçirən "Azexport" portalının fəaliyyət istiqamətləri, "Sərbəst satış sertifikatı"nı və ixrac üçün tələb

olunan digər sertifikatları elektron formada əldə etmək imkanının yaradılması, gömrük bəyannamələrinin elektronlaşdırılması və s. bu kimi prosedurların rəqəmsal transformasiyası ölkədə ticarət sahəsinin də sürətlə rəqəmsallaşması qənaətinə gəlməyə əsas verir. (AZƏRTAC, 2022)

2023-cü ilin martında Azərbaycanda "ağıllı şəhər" və kəndlərin yaradılması üzrə rəqəmsal xəritə hazırlanacaq. AZƏRTAC-a danışan Aqrar Xidmətlər Agentliyinin sədr müavini Anar Əzimov deyib ki, Azərbaycanda "ağıllı" şəhər və kəndlərin yaradılması üzrə rəqəmsal xəritə hazırlanacaq. O daha sonra əlavə edib: "Azərbaycanda "ağıllı" şəhər və kəndlər konsepsiyasının "ağıllı" infrastruktur və xidmətlərin, sosial məşğulluğun, "ağıllı" menecment və digər vasitələrin işlənməsini əhatə edir." Əlavə olaraq demək olar ki, Azərbaycan hökumətinin Qarabağda reallaşdırılmasına başladığı bu konsepsiya Avropa İttifaqı tərəfindən maraqla izlənilir. (AZƏRTAC, 2023)

2023-cü ilin dekabrında "Inmerge İnnovasiya Sammiti" çərçivəsində çıxış edən İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) sədri İnarə Vəliyeva yeni "Digital.Azerbaijan" brendini təqdim edib. "Digital.Azerbaijan" İRİA-nın innovasiya və rəqəmsallaşma üzrə gördüyü işlərin mərkəzləşdirilərək bir çətir altında həyata keçirilməsini təmin edəcək brenddir. Belə ki, İRİA-nın rəqəmsal hökumət, rəqəmsal səriştələr və innovasiya ekosistemi üzrə təşəbbüsləri "Digital.Azerbaijan" brendi altında həyata keçiriləcək. Gələcəkdə "Digital.Azerbaijan" həm yerli, həm də qlobal miqyasda bütün təşəbbüslər üçün vahid sima rolunu oynayacaq. "Digital.Azerbaijan" brendi altında "Digital.Academy", "Digital.finance", "Mygov", "Digital.docs", "Digital.login" və digər məhsul və layihələr üzrə işlər həyata keçiriləcək. (idda.az, 2023)

2024-cü ilin mayında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi "digital.azerbaijan" brendi altında rəqəmsal xidmətlərə vahid giriş sistemi olan "digital.login" platformasının təkmilləşdirilmiş yeni versiyasını istifadəyə verib. "digital.login" vətəndaşların rahat istifadəsi üçün iki əsas funksionallığı təqdim edir. Vətəndaşlar ilk növbədə sistemə inteqrasiya edilmiş 140-dan çox portaldan vahid giriş vasitəsilə istifadə imkanı əldə edirlər. Digər mühüm funksionallıq isə vətəndaşın özü haqqında olan məlumatların qurumlar tərəfindən istifadəsinə razılıq vermə səlahiyyətini idarə edə bilməsidir. Bu funksionallıqlar dövlət-vətəndaş münasibətlərində səmərəlilik və məmnuniyyət baxımından yeni səhifə açır. Belə ki, "digital.login" vətəndaşların rəqəmsal xidmətlərdən istifadəsi üçün 5 mövcud autentifikasiya, yəni vətəndaşın kimliyinin tanınması üsullarını sadələşdirir və bu prosesi daha təhlükəsiz edir. Bu, vətəndaşın vaxtına qənaət edərək müxtəlif rəqəmsal xidmət portallarına girişi yüksək səviyyədə optimizasiya edir və vətəndaş məmnuniyyətini artırır. Bununla yanaşı, vətəndaş özü haqqında olan məlumatların etibarlı mühitdə saxlanıldığından da əmin olur, çünki "digital.login" gücləndirilmiş təhlükəsizliyi ilə bu imkanı yaradır. (Report, 2024)

**Nəticə**

Azərbaycanın rəqəmsal transformasiyası müxtəlif sektorlar üzrə innovativ texnologiyaların inteqrasiyasında dərin kök salan çoxşaxəli prosesdir. Bu məqalədə göstərildiyi kimi, Azərbaycanda rəqəmsal transformasiya konsepsiyası sadəcə texnoloji təkmilləşdirmə deyil, həm də səmərəliliyin, şəffaflığın və vətəndaşların iştirakının artırılması üçün idarəetmənin, iqtisadi strukturların və dövlət xidmətlərinin hərtərəfli yenidən nəzərdən keçirilməsidir. Bu transformasiyanın idarə olunmasında dövlət qurumlarının rolu mühümdür, strateji istiqamət verir, təşəbbüsləri əlaqələndirir və rəqəmsal alətlər və platformalardan səmərəli istifadə olunmasını təmin edir.

Qanunvericilik bazası bu transformasiyanın əsasını təşkil edir, innovasiyaları təşviq etmək, rəqəmsal hüquqları qorumaq və kibertəhlükəsizliyi təmin etmək üçün zəruri hüquqi və tənzimləyici şərtləri müəyyən edir. Azərbaycan rəqəmsal alətlərin və xidmətlərin tətbiqini istiqamətləndirən, rəqəmsal infrastruktura investisiyaları təşviq edən və özəl sektorun cəlb edilməsi üçün əlverişli mühit yaradan hərtərəfli qanun və qaydalar toplusu işləyib hazırlayıb.

Elektron hökumətin (e-government) təşviqi Azərbaycanın rəqəmsal transformasiya strategiyasının mərkəzi elementidir. Bu, dövlətin rəqəmsal innovasiyalara sadiqliyini əks etdirən daha əlçatan, səmərəli və istifadəçi dostu ictimai xidmətlərə doğru keçidi təmsil edir. Elektron hökumət təşəbbüsləri inzibati proseslərin sadələşdirilməsində, xidmətlərin göstərilməsinin təkmilləşdirilməsində, şəffaflığın və hesabatlılığın artırılmasında mühüm nailiyyətlər əldə etmişdir.

Bütövlükdə, Azərbaycanın rəqəmsal transformasiyaya doğru səyahəti dövlət institutları, qanunvericilik bazaları və texnoloji innovasiyaların axtarışı arasında dinamik qarşılıqlı əlaqə ilə formalaşır. Ölkə bu sahədə irəliləməyə davam etdikcə, qanunların, siyasətlərin və institusional rolların davamlı təkmilləşdirilməsi təcilin davam etdirilməsi və rəqəmsal transformasiyanın faydalarının cəmiyyətdə geniş şəkildə yayılmasının təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edəcək.

**Ədəbiyyat Siyahısı**


1. “2022-ci ildə Türkiyə-Azərbaycan Rəqəmsal Transformasiya Forumu təsis ediləcək”, interfax.az, 2022.
2. “Azərbaycanda Rəqəmsal Transformasiya və İnnovasiyalar” mövzusunda konfrans keçirilib, newscenter.az, 2019.
3. “Azərbaycanda “ağıllı” şəhər və kəndlərin yaradılması üzrə rəqəmsal xəritə hazırlanacaq”, azertag.az, 2023.
4. “Azərbaycanda “digital.login” platformasının yeni versiyası istifadəyə verilib”, report.az, 2024.
5. “Azərbaycan ABŞ şirkəti ilə rəqəmsal transformasiyanı müzakirə edib”, report.az, 2024.
6. “Azərbaycan və Qırğız Respublikası arasında rəqəmsal transformasiya istiqamətində əməkdaşlıq müzakirə edilib”, azertag.az, 2024.
7. "Azərişıq" ASC-dən rəqəmsal transformasiya ilə bağlı daha bir yenilik, azerishiq.az
8. “Dünya Bankı tərəfindən Azərbaycanın rəqəmsal inkişaf strategiyası üçün modullardan ibarət ilkin sənəd hazırlandı”, e-gov.az, 2023.
9. “Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi Alman-Azərbaycan Xarici Ticarət Palatasının üzv şirkətləri ilə görüşüb”, 4sim.gov.az, 2023.
10. “İRİA “Digital.Azerbaijan” brendini təqdim edib”, idda.az, 2023.
11. “İqtisadiyyatın rəqəmsal transformasiyası son illərdə ölkəmiz qarşısında duran prioritetlərdəndir”, azertag.az, 2022.
12. “İlham Əliyev “Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər” Forumunda iştirak edib”, president.az, 2023
13. Goloshchapova, T., Yamashev, V., Skornichenko, N., & Strielkowski, W. (2023). E-government as a key to the economic prosperity and sustainable development in the post-COVID era. Economies, 11(4), 112. https://doi.org/10.3390/economies11040112

14. “Rəqəmsal İpək Yolu” layihəsi Türk Dövlətləri Təşkilatının diqqət mərkəzində, neqsolholding.com, 2022
15. “Rəqəmsal transformasiya layihələrinə Aİ-nin dəstəyi müzakirə edilib”, azertag.az, 2022.
16. Xiao, Y., Wu, S., Liu, Z. Q., & Lin, H. J. (2023). Digital economy and green development: Empirical evidence from China’s cities. Frontiers in Environmental Science, 11, Article 1124680. https://doi.org/10.3389/fenvs.2023.1124680
17. Wolan. M: Digitale Innovation: Schneller. Wirtschaftlicher. Nachhaltiger. BusinessVillage, 2013.
18. 2023 SPECA Economic Forum, unece.org/speca
19. Umarov. A., Crang. M., Korosteleva. E., “GCRF Cluster “Fostering Adaptive Governance and Resilience in Local Communities of Central Eurasia:From fragmented pasts to connected futures?”, researchgate.com, 2022
20. GSMA. (2023). Преодоление цифрового разрыва в Центральной Азии и на Южном Кавказе. Retrieved from https://www.gsma.com/solutions-and-impact/connectivity-for-good/mobile-economy/wp-content/uploads/2023/06/Closing-the-Digital-Divide-in-Central-Asia-and-the-South-Caucasus-2023-RUSSIAN.pdf
21. “Президент Ильхам Алиев рассказал о новой сфере сотрудничества между Азербайджаном и странами Центральной Азии”, azertag.az, 2023.

## Yaşıl iqtisadiyyatın formalaşması və inkişafında maliyyə alətlərindən istifadə mexanizminin təkmilləşdirilməsi

**Gültəkin Qabil qızı Məmmədova**
**Gultakin_Mammadova@unec.edu.az**
**Şəhla Musa qızı Əlicanova**
**shahla.alijanova@unec.edu.az**

**Xülasə**

Məqalə yaşıl iqtisadiyyatın formalaşması və inkişafında maliyyə alətlərindən istifadə mexanizmi üzrə dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsininin araşdırılaraq sistemləşdirilməsinə və ölkəmizdə bu istiqamətdə yaşıl maliyyə alətlərinin tətbiqinin təkmilləşdirilməsinə həsr olunmuşdur.Tədqiqatın məqsədi Azərbaycanda yaşıl iqtisadiyyatın formalaşmasının maliyyə mexanizminin tədqiqi və onun təkmilləşdirilməsi üçün tövsiyələrin əsaslandırılmasıdır. Tədqiqat prosesində ümumi elmi və xüsusi tədqiqat metodlarından, o cümlədən monoqrafik, müqayisəli, statistik, cədvəl, təhlil, induksiya və deduksiya metodlarından metoddan istifadə edilmişdir.

Məqalədə əvvəlcə yaşıl iqtisadiyyatın formalaşdırılması və inkişafında maliyyə mexanizminin işlənib hazırlanması zəruriliyi əsaslandırılmış və ilkin şərtləri müəyyənləşdirilmiş, yaşıl iqtisadiyyatın formalaşması zamanı maliyyə mexanizminin həyata keçirilməsinin milli səviyyəsi və yaşıl iqtisadiyyatın inkişafına töhfə verən maliyyə alətləri və onların tətbiqi xüsusiyyətləri araşdırılmışdır. Tədqiqatın sonunda müəllif tərəfindən yaşıl iqtisadiyyatın inkişafının

stimullaşdırılmasında yaşıl tarif, investisiya və vergi amillərinin əhəmiyyəti vurğulanmış, mövzu ilə bağlı müvafiq təklif və tövsiyələr verilmişdir.

Elmi yenilik Azərbaycanda maliyyə alətləri bazarının tətbiqinin aktuallığının müəyyən edilməsi ilə yaşıl iqtisadiyyatın formalaşmasının maliyyə mexanizminə nəzəri yanaşmanın işlənib hazırlanmasından ibarətdir.

**Açar sözlər:** yaşıl iqtisadiyyat, yaşıl maliyyə, maliyyə alətləri, yaşıl tarif.

**JEL Codes: G20 G23 O44**

**Summary**

The article is dedicated to researching and systematizing the experience of the developed countries of the world on the mechanism of using financial instruments in the formation and development of the green economy and improving the application of green financial instruments in this direction in our country. The purpose of the study is to study the financial mechanism of the formation of the green economy in Azerbaijan and justify recommendations for its improvement.

General scientific and special research methods, including monographic, comparative, statistical, table, analysis, induction and deduction methods were used in the research process.

The article first justified the need to develop a financial mechanism in the formation and development of the green economy and determined the initial conditions, the national level of the implementation of the financial mechanism during the formation of the green economy, and the financial instruments contributing to the development of the green economy and their application characteristics were examined. At the end of the study, the author emphasized the importance of green tariff, investment and tax factors in stimulating the development of the green economy, and gave relevant suggestions and recommendations on the topic.

The scientific innovation consists in the development of a theoretical approach to the financial mechanism of the formation of the green economy by determining the relevance of the application of the market of financial instruments in Azerbaijan.

**Keywords:** green economy, green finance, financial instruments, green tariff.

## GİRİŞ

Yaşıl iqtisadiyyat iqtisadiyyatın sosial-ekoloji transformasiyası üçün böyük potensiala malikdir, ona görə də onun səmərəli maliyyə mexanizminin yaradılması və həyata keçirilməsi dövrümüzün mövcud vəzifəsidir. Bu, artıq bu gün iş yerlərinin mühərriki olan iqtisadiyyatımızın gələcəyinin təminatıdır: sənaye şirkətləri yaşıl texnologiyalar və xidmətlər vasitəsilə çoxlu yeni iş yerləri yaradır, eyni zamanda “çirkli” şirkətlərdə və karbon tutumlu sektorlarda iş yerləri ixtisar olunur. Binaların təmirinə yatırılan hər milyard avro tikinti, ticarət və sənaye sahələrində 10 min əlavə iş yeri yaradır. Bir çox sahibkarlar və ixtiraçılar həyatımızın keyfiyyətini resursların istehlakından getdikcə daha çox ayıran məhsul və xidmətlər inkişaf etdirirlər. Onlar yaşıl keçidin, yeni davamlı rifahın qabaqcıllarıdır. Sabah mövcud olacaq iş yerləri yaradırlar. Ətraf mühitin modernləşdirilməsinə layiqli iş şəraiti, ortaq qərarların qəbulu və kollektiv sövdələşmələrin mühafizəsi mütləqdir. Eyni zamanda, gələcəyə davamlı sosial təminat sistemlərinə, əhalinin

bütün təbəqələrini yoxsulluqdan qoruyan əsas təminata, iştirak imkanlarının, gəlirlərinin və aktivlərinin ədalətli bölüşdürülməsinə istək var. Çünki ekoloji modernləşmə ancaq hər şeyin hamı üçün ədalətli olduğu cəmiyyətdə işləyir. Beləliklə, real iqtisadiyyatın müxtəlif sahələrində dəyişikliklər böhrana davamlı və gələcəyə yönəlmiş maliyyə iqtisadiyyatı tələb edir, çünki yalnız sabit banklar və sığorta şirkətləri insanları və təbiəti həddən artıq istismar etmək əvəzinə təmiz biznes modellərini maliyyələşdirsələr, rifahımız davamlı olacaq. Maliyyə dönüşü olmasaydı, kənd təsərrüfatında, enerjidə və s.-də heç bir dəyişiklik olmazdı. Bu prosesi sürətləndirmək üçün dövlət sektoru, maliyyə sektoru, özəl sektor səviyyəsində onun formalaşmasına və inkişafına hər cür təkan verəcək ilkin şərtlər yaratmaq lazımdır. Azərbaycanda iqtisadi fəaliyyətin bu istiqaməti yenicə formalaşmağa başlamışdır və buna görə də bu gün bu fəaliyyət növünün özünümaliyyələşdirmə səviyyəsinə çatdığı dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsini təhlil etmək aktualdır.

**1.Yaşıl iqtisadiyyatın formalaşdırılması və inkişafında maliyyə mexanizminin işlənib hazırlanması zəruriliyi və ilkin şərtləri**

Yaşıl iqtisadiyyatın formalaşması üçün maliyyə mexanizminin əhəmiyyəti ətraf mühitə inteqrativ eko-dağıdıcı təsirin minimuma endirilməsindən, istehlakçılar üçün təkcə qısa müddətdə deyil, həm də uzunmüddətli perspektivdə cəmiyyətin ekoloji şüurunu formalaşdırmaq, ekoloji mal və xidmətlərin satışından gəlir əldə etmək üçün ekoloji cəhətdən ən əlverişli həyat şəraitinin yaradılmasından ibarətdir.

Xarici və yerli iqtisadi ədəbiyyatın təhlili göstərdi ki, maliyyə mexanizmi dedikdə, müxtəlif səviyyələrdə dövlət iqtisadiyyatının idarə edilməsi zamanı proseslərin və ya obyektlərin tənzimlənməsinə yönəldilmiş praktik fəaliyyətdə maliyyə rıçaqlarından istifadə sistemi başa düşülür (cədvəl 1).

Bu sistem real xarakter alır və dörd komponentin eyni vaxtda həyata keçirilməsi ilə reallaşa bilər:

1. Maliyyə üsulları (maliyyə və operativ idarəetmə, maliyyə planlaşdırması, maliyyə dəstəyi, maliyyə tənzimlənməsi və maliyyə nəzarəti vasitəsilə).
2. Maliyyə alətləri (mənfəət, gəlir, amortizasiya ayırmaları, qiymətlər və s.).
3. Tənzimləyici və informasiya təminatı (normativ, qanunvericilik və inzibati sənədlər sisteminə görə).
4. İqtisadi rıçaq (vergilərin, məcburi ödənişlərin, kreditlər üzrə faizlərin, maliyyələşdirmə normalarının və s. ödənilməsi nəticəsində).

**Cədvəl 1**

**"Maliyyə mexanizmi" Konsepsiyasına dair alimlərin fikirləri**

| Alimlər | Tərif |
|---|---|
| A. İ. Balabanov, İ. T. Balabanov | Maliyyə mexanizmi maliyyə resurslarından istifadənin təşkili, planlaşdırılması və stimullaşdırılmasında təzahür edən maliyyə rıçaqlarının fəaliyyət sistemidir. Maliyyə mexanizmi vasitəsilə istehsal və ticarət proseslərinin səmərəliliyinə maliyyənin təsiri həyata keçirilir |

| | |
|---|---|
| A. A. Voevodyn, A. N. Jilkina | Maliyyə mexanizmi maliyyənin, yəni maliyyə münasibətlərinin və pul vəsaitlərinin hərəkətinin idarə edilməsi sistemidir. Maliyyə mexanizmi və maliyyə idarəetməsi eyni anlayışlardır |
| H. G. Kireytsev, N. E. Zayets | Maliyyə mexanizmi maliyyə dəstəyi, maliyyə tənzimləmə sistemləri, alətlər, stimullar və rıçaqlar sistemidir. |
| O. P. Kirylenko | Maliyyə mexanizmi bölüşdürmə və yenidən bölüşdürmə münasibətlərinin, gəlirlərin, pul vəsaitlərinin yaradılmasının təmin edilməsinin xüsusi forma və üsullarının məcmusudur. |
| V. M. Oparin | Maliyyə mexanizmi cəmiyyətin sosial-iqtisadi inkişafına maliyyə üsullarının, formalarının, alətlərinin və təsir rıçaqlarının məcmusudur. |
| T.Məmmədzadə | Maliyyə mexanizmi quruluşca mürəkkəb struktura malik olub, bir neçə maliyyə vasitələrini özündə ehtiva edir. Məhz maliyyə münasibətlərinin kəmiyyətnin kfiayətt qədər çox olması maliyyə mexanizminin çoxlu sayda elementlərindən istifadəni zəruri edir. |

**Mənbə:** (Məmmədzadə T. 2023) və (Москаленко В. П. 2003 ) Cədvəl məlumat əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Yaşıl iqtisadiyyatın formalaşması üzrə maliyyə mexanizminin predmeti çərçivəsində aparılmış ilkin tədqiqatlar nəticəsində belə qənaətə gəldik ki, bu problem kifayət qədər tədqiq olunmur, daxili hüquqi aktlar təbiətdən istifadənin yalnız iqtisadi mexanizminin mahiyyətini və təbiəti mühafizə fəaliyyətləri açıqlayır. Təbiətdən istifadə və təbiəti mühafizə fəaliyyətinin iqtisadi mexanizmi altında onlar ətraf mühitin mühafizəsi və dövlətin bütün təsərrüfat subyektlərinin təbiətdən rasional istifadəsinin təmin edilməsinə aid olan iqtisadi tədbirlər kompleksini başa düşürlər. Bununla belə, biznes fəaliyyətinin yeni növü kimi dayanıqlı inkişaf konsepsiyasına və yaşıl iqtisadiyyata keçid təkcə ətraf mühitin mühafizəsi və resurslardan istifadə sahəsində dövlət və sahibkarlıq subyektləri arasında vəsaitlərin yenidən bölüşdürülməsi nisbətlərinin, həm də bütün növ vergilərin, ödənişlərin, icarənin, yaradılmış dəyərin, cəlb edilmiş resursların yenidən bölüşdürülməsinin bütün alətləri, metodları və üsulları kompleksini əsaslı şəkildə dəyişdirir ki, bu da yaşıl iqtisadiyyatın sabit gəlirliliyinin təmin edilməsinə hər cəhətdən töhfə verir və buna görə də yaşıl biznes nümayəndələrinin dəyişdirilməsini nəzərdə tutmamalıdır. Belə keçid vergi və ixrac-idxal siyasətində kəskin dəyişiklikləri, pul dövriyyəsinin normallaşdırılmasını, bank sistemində dəyişiklikləri və qiymətlərin dövlət tərəfindən tənzimlənməsini tələb edir.

Odur ki, bu gün yaşıl iqtisadiyyatın formalaşdırılması və inkişafı üçün maliyyə mexanizminin işlənib hazırlanmasına təcili ehtiyac var ki, bu da təbii və enerji resurslarından səmərəli istifadənin təmin edilməsinə, ətraf mühitin ekoloji keyfiyyətinin yaxşılaşdırılmasına, eyni zamanda sahibkarlıq subyektlərinin fəaliyyətində onların gəlirliliyinin təmin edilməsinə töhfə verəcəkdir. Hesab edirik ki, yaşıl iqtisadiyyatın formalaşdırılmasının maliyyə mexanizmi dedikdə, iqtisadi artım zamanı ətraf mühitə dəyən ziyanın azaldılmasına və ekoloji dayanıqlığın yaradılmasına və iqtisadiyyatın sektorlarının kapital maliyyələşdirilməsi ehtiyaclarını ödəyən maliyyə sisteminin, "yaşıllaşdırma" üçün əlverişli iqtisadiyyatın saxlanmasına yönəlmiş qarşılıqlı əlaqəli tədbirlər sistemi başa düşülməlidir.

**2. Yaşıl iqtisadiyyatın formalaşması zamanı maliyyə mexanizminin həyata keçirilməsi səviyyələri və maliyyə alətləri**

Yaşıl iqtisadiyyatın formalaşması üçün maliyyə mexanizminin həyata keçirilməsi beynəlxalq və milli səviyyədə həyata keçirilə bilər. Milli səviyyədə dövlət sektorunda, maliyyə sektorunda və özəl sektorda həyata keçirilə bilər ki, bu da bütövlükdə ölkədə yaşıl iqtisadiyyatın formalaşmasına və inkişafına töhfə verəcək. (Байбакова Е. 2002).

Dövlət sektoru səviyyəsində bu, yaşıl iqtisadiyyatın nizamlı tənzimlənməsi və təbii münitin qorunması yolu ilə özünü göstərə bilər; ekoloji və iqtisadi stimullar, rıçaqlar, alətlər; ətraf mühitin idarə edilməsinin və təbii münitin mühafizəsinin institusional təminatı. Maliyyə sektoru səviyyəsində yaşıl iqtisadiyyatın tətbiqi kredit və sığorta institutları, sosial məsuliyyət daşıyan investisiya fondları, habelə fond bazarının yaşıl alətləri tərəfindən təklif olunan yaşıl vergi güzəştlərinin təmin edilməsi yolu ilə həyata keçirilə bilər. Ekoloji əmtəə məhsullarının istehsalı prosesində müəssisələrdə istifadə olunan ekoloji yönümlü maliyyə metodlarının və rıçaqlarının tətbiqi və istehlakçıların ekoloji əmtəə məhsullarının alınmasına tələbatının və maliyyə imkanlarının artırılması özəl sektor səviyyəsində yaşıl iqtisadiyyatın tətbiqinin istiqamətləri ola bilər. Yaşıl iqtisadiyyatın inkişafı üçün milli səviyyədə maliyyə alətlərindən istifadə imkanları haqqında daha ətraflı məlumat cədvəl 2-də verilmişdir.

Ənənəvi maliyyədən fərqli olaraq yaşıl maliyyə və yaşıl iqtisadiyyatın formalaşması bu tip iqtisadiyyatın yüksək riskini və müəyyən qeyri-müəyyənliyini nəzərə alan yeni yanaşma tələb edir, nəzərə alsaq ki, əksər yaşıl sənayelər əsasən qeyri-maddi aktivlər hesabına formalaşır və gələcək artım potensialı uzunmüddətli perspektivə yönəlib. (Москаленко В. П. 2003)

Bundan əlavə, informasiya təminatının asimmetrik sapması əməliyyatların həcmində və kapital bazarında disbalans yaradır, yaşıl investisiya prosedurlarının şəffaflığının olmaması səbəbindən investorlar və yaşıl şirkətlər arasında anlaşılmazlıqlar yaranır. Bu baxımdan hesab edirik ki, yaşıl maliyyənin inkişafı strategiyası aşağıdakıları əhatə etməlidir: yaşıl maliyyələşdirmənin qanunvericilik bazasının, qayda və prosedurlarının təkmilləşdirilməsi; yaşıl maliyyənin institusional bazasının yaradılması (maliyyə institutları, təşkilatlar və s.); Yaşıl İqlim Fondunun istifadəsi; yeni yaşıl maliyyə alətlərinin inkişafı; qlobal yaşıl maliyyə sisteminə inteqrasiya və müvafiq infrastrukturun yaradılması (Лазор О.2002).

Cədvəldə qeyd olunan maliyyə alətləri ilə yanaşı, törəmə maliyyə alətləri və ya törəmə alətlər (fyuçers, opsionlar və s.) yaşıl iqtisadiyyatın formalaşmasında mühüm rol oynaya bilər, məsələn, risklərin hedcinq edilməsi məqsədi ilə, hava şəraitinin dəyişməsi ilə.

**Cədvəl 2**

**Yaşıl iqtisadiyyatın inkişafına töhfə verən maliyyə alətləri**

| Sfera | Maliyyə aləti | Maliyyə alətinin xüsusiyyətləri |
|---|---|---|
| Bank sektoru | Yaşıl ipoteka kreditləri | Banklar enerjiyə qənaət edən yeni evlər alan və/yaxud yeniləşdirməyə, enerjiyə qənaət edən tədbirlərə sərmayə qoyan pərakəndə müştərilərə aşağı faiz dərəcələri təklif edir. Banklar həmçinin bir evi ənənəvi enerjidən yaşıl enerjiyə çevirmək xərclərini əhatə edə bilər |

| | | |
|---|---|---|
| | Binaların enerji modernləşdirilməsi üçün kreditlər | Banklar müştərilərə daha aşağı tarif təklif edir ki, bu da ev təsərrüfatlarını bərpa olunan enerji mənbələrindən istifadə edən ən son enerjiyə qənaət edən texnologiyalar və sistemlər quraşdırmağa həvəsləndirir. Bunun üçün müxtəlif banklar bu cür texnologiyaların istehsalçıları və təchizatçıları, eləcə də ekoloji ictimai təşkilatlarla əməkdaşlıq edir |
| | Kommersiya tikintisi üçün yaşıl kreditlər | Prioritet kreditlər ənənəvi ilə müqayisədə daha az enerji sərf edən, daha az tullantı istehsal edən və daha az çirkləndirici evlər tikən şirkətlərə verilir. |
| | Yaşıl avtomobil kreditləri | Belə aşağı faizli kreditlər müştəriləri yüksək iqtisadi və ekoloji cəhətdən səmərəli avtomobil almağa sövq edir |
| | Yaşıl bank kredit kartları | Kredit kartı sahibləri hər alış, köçürmə və s.-nin təxminən 0,5%-ni ekoloji qeyri-hökumət təşkilatlarına bağışlamağa razılaşırlar. |
| Korporativ və investisiya bankçılığı | Yaşıl layihənin maliyyələşdirilməsi | Banklar irimiqyaslı bərpa olunan enerji layihələrini maliyyələşdirmək üçün xidmət bölmələri və ya hovuzlar yarada bilər |
| | Yaşıl sekuritizasiya | Təbiətdən istifadə sahəsində sekuritizasiyanın müxtəlif üsullarından istifadə olunur. Məsələn: meşə istiqrazları və s |
| | Yaşıl vençur kapitalı və özəl investisiya | İnvestisiya bankları ekoloji mal və xidmətlər təqdim edən şirkətlərə IPO ilə kömək edir. Banklar həmçinin ixtisaslaşmış özəl kapital bölmələri vasitəsilə ətraf mühit layihələri üçün investisiya bazası yarada bilərlər |
| | Yaşıl indekslər | Banklar gələcək ekoloji imkanları və təhlükələri nəzərə alan indekslər hazırlayırlar. Məsələn: Merrill Lynch yalnız enerjiyə qənaətə diqqət yetirən enerji səmərəliliyi indeksini işləyib hazırlayıb. |
| | Karbon məhsulları | Aİ Emissiyaların Ticarət Sxemi (EU ETS) sayəsində 12.000-dən çox Avropa sənaye obyekti karbon limiti altına düşüb. |
| Aktivlərin idarə edilməsi | Yaşıl fiskal fondlar | Hollandiya bankları 1995-ci ildə başlanmış təşəbbüsdən faydalanır: "yaşıl" fondun səhmlərini almaqla və ya "yaşıl" banka sərmayə qoymaqla vətəndaşlar kapital artımı vergisini ödəməkdən azad edilir və gəlir vergisi üzrə endirim alırlar. Nəticədə, əmanətçilər investisiyaları üçün daha aşağı faiz dərəcəsini qəbul edirlər və banklar investisiyalarına daha aşağı faizlə yaşıl kreditlər təklif edə bilərlər. |
| | Yaşıl investisiya fondları | İnvestisiya fondları investisiya resurslarını toplayır və öz vəsaitlərini yaşıl layihələrin və şirkətlərin maliyyələşdirilməsinə yönəldir |
| | Karbon fondları | Karbon Fondu, mövcud layihələrdən CO2 emissiyasının azaldılması kreditləri almaq və ya CO2 emissiyasının azaldılması kreditləri axını yaradan yeni layihələrə investisiya etmək üçün |

| | | |
|---|---|---|
| | | investorlardan pul alır. |
| Sığorta | Yaşıl sığorta | Bu sığorta növü iki sahəni əhatə edir: 1. Sığorta haqlarını ətraf mühitin xüsusiyyətlərinə görə fərqləndirən sığorta məhsulları. 2. Təmiz texnologiya və emissiya növləri nəzərə alınmaqla sığorta. Nümunə: enerjiyə qənaət edən binalar üçün cəlbedici tarifləri təmin edən isti ev sığortası |
| | Karbon sığortası | Bu sığorta emissiyaların azaldılması əməliyyatları, aşağı karbon layihələrinin qiymətləndirilməsi riskini azaltmaq və karbon kredit qiymətlərinin dəyişməsini idarə etmək məqsədi daşıyır |

Mənbə: (http://saee.gov.ua/documents/ green-tariff.pdf ) Cədvəl mənbənin məlumatı əsasında müəllif tərəfindən tərtib edilmişdir

**3. Yaşıl iqtisadiyyatın inkişafının stimullaşdırılmasında yaşıl tarif, investisiya və vergi amilləri**

Avropa ölkələrində yaşıl iqtisadiyyatın inkişafını stimullaşdırmaq üçün hökumətlər "yaşıl" tariflər, CO2 vergisi, ekoloji vergilər, "yaşıl" istiqrazlar və s. kimi büdcə və vergi alətlərindən geniş istifadə edirlər. Azərbaycanda bərpa olunan elektrik enerjisinin istehsalı üçün stimullaşdırıcı amillər arasında: "yaşıl" tarif; vergi güzəştləri; elektrik şəbəkəsinə qoşulmanın güzəştli rejimini qeyd etmək olar. (Məmmədzadə T.2023 və http://saee.gov.ua/documents/ green-tariff.pdf)

Bu günə kimi ölkəmizin iqtisadiyyatına iri həcmdə "yaşıl" investisiya cəlb edilib ki, bu da ölkədə bu sahələrdə yaşıl layihələrə tələbatın və uğurun göstəricisidir. Bu, iqtisadi proseslərin aktivləşməsinə əhəmiyyətli təkan verir.

Ölkədə elektrik enerjisi istehsalının stimullaşdırılması üçün "yaşıl" tarif (bərpa olunan enerji mənbələrindən - su elektrik stansiyaları, günəş, külək və ya biostansiyalardan istehsal olunan enerjinin alınması ilə bağlı xüsusi qiymət) 2030-cu il tarixinədək müəyyən edilib və qüvvədə olduğu müddət ərzində istifadəyə verilmiş elektrik stansiyalarında bərpa olunan enerji mənbələrindən elektrik enerjisi istehsal edən təsərrüfat subyektlərinə şamil edilib. Eyni zamanda, Azərbaycanda təmiz enerjinin artımı dünyada ən yüksək "yaşıl" tariflərdən biri, eləcə də kütləvi istehsal hesabına əhəmiyyətli dərəcədə azalan yeni texnologiyaların qiymətləri arasında uyğunsuzluqla müşayiət olunur. Bu uyğunsuzluq real maya dəyəri ilə tarif arasında fərqə gətirib çıxarır, nəticədə özəl şirkətlər dövlət tərəfindən ödənilən artıq mənfəət əldə edir.

"Yaşıl" hərracların tətbiqini nəzərdə tutan Alternativ Enerji Mənbələrinin praktiki tətbiqi aşağıdakı kimidir: qiymət mexanizminin təkmilləşdirilməsi, xüsusən də "təmiz" elektrik enerjisinə daha ədalətli (bazar) qiymətin müəyyən edilməsi; son istifadəçilər üçün "yaşıl" elektrik enerjisinin dəyərinin aşağı salınması; bazar iştirakçıları arasında rəqabətin formalaşması; büdcə planlaşdırılmasının tənzimlənməsi; reallaşdırılması ilə bağlı investorlara zəmanət verilməsi layihələr və s. (Məmmədzadə E., Seyfullayev İ. 2024).

Bu gün cəlb edilmiş vəsaitlər yalnız ekoloji layihənin və ya onun ayrıca mərhələsinin maliyyələşdirilməsi üçün istifadə olunan "yaşıl" istiqrazlar - qiymətli kağızlar institutunun tətbiqi daxili maliyyə bazarı və yaşıl iqtisadiyyatın inkişafı üçün aktualdır. Bu maliyyə alətinin üstünlükləri aşağıdakılardır: "yaşıl" layihələr üçün daha ucuz maliyyə resursları; müxtəlif

səviyyələrdə və bir çox subyektlər (hökumət, bələdiyyələr, banklar, beynəlxalq maliyyə təşkilatları, ixtisaslaşmış fondlar, müəssisələr, maliyyə institutları və s.) yaşıl investisiyaların cəlb edilməsi imkanları; Yaşıl İqlim Fondu daxil olmaqla iqlim maliyyəsi bazarına çıxış imkanı; ölkənin investisiya cəlbediciliyinin, biznes mühitinin və rəqabət qabiliyyətinin yaxşılaşdırılması; dünyada dövlətin müsbət imicinin formalaşması. (Əliyeva N., Hüseynli N. 2024)

Hesab edirik ki, "yaşıl" istiqraz bazarının işə salınması Azərbaycana yaxın gələcəkdə xeyli vəsait cəlb etməyə imkan verə bilər.

Azərbaycanda "yaşıl" yolda mühüm addım stasionar mənbələrdən karbon qazı (CO2) emissiyalarına görə ekoloji vergi dərəcəsinin keçən müddət ərzində tədricən artırılması olub. Ölkənin vergi siyasətində belə bir yenilik ətraf mühitin çirklənməsini azaltmaq və istixana qazı emissiyaları üzrə Avropa tariflərinə yaxınlaşmaq üçün çirkləndirici müəssisələri stimullaşdırmaq məqsədi daşıyır. Proqnozlaşdırılır ki, bu mexanizm, məsələn, dövlət büdcəsinin ayrıca maddəsinin tətbiqi yolu ilə iqtisadiyyatın sahələrinin yaşıllaşdırılması ehtiyacları üçün maliyyə vəsaitlərinin toplanmasında səmərəli alətə çevrilə bilər.

## NƏTİCƏ

Ətraf mühitin mühafizəsi alətlərinin həyata keçirilməsi, onların tətbiqi müddəti və inkişaf etmiş ölkələrin davamlı inkişafa nail olmaq imkanları böyük ölçüdə bu cür vasitələrin hazırlanmasına ehtiyac duyulan və investisiya edilə bilən mövcud maliyyə resurslarından asılıdır. Məhz buna görə də həmin ölkələrdə ətraf mühitin mühafizəsinin təşviqi üçün regional fondlar yaradılır, onların büdcələrindən yaşıllığın yaradılması və inkişafı üçün maliyyə mexanizmi alətlərinin hazırlanmasına yönəldilmiş müvafiq vəsaitlər ayrılır. Axı dayanıqlı inkişafın əsas məqsədinə nail olmaq yalnız yaşıl biznesin özünü təmin edən fəaliyyət növünə çevrilməsindən sonra əldə olunacaqdır. Beləliklə, inkişaf etmiş ölkələrdə dövlət səviyyəsində davamlı investisiyaların və yaşıl biznesin inkişafının stimullaşdırılmasının güclü sistemi yaradılmışdır ki, bu da aşağıdakı elementlərin qarşılıqlı əlaqəsini nəzərdə tutur: ətraf mühitin mühafizəsi və yaşıl biznes fəaliyyətinin normativ-hüquqi tənzimlənməsi; ekoloji və iqtisadi alətlər, rıçaqlar və stimullar; ekoloji idarəetmənin və ətraf mühitin mühafizəsinin institusional təminatı. Avropa xalqının ekoloji şüurunun artması isə istehsalı kifayət qədər yüksək rentabelliyə malik olan və milli iqtisadiyyatların inkişafına mühüm töhfə verən Aİ-yə üzv ölkələrdə ekoloji mal və xidmətlərə tələbatın artmasına səbəb olur.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Azərbaycanda yaşıl iqtisadiyyatın inkişafı üçün qarşıya ilkin şərtlər qoyulub. Ölkədə yaşıl iqtisadiyyatın gələcək inkişafı üçün maliyyə resurslarının cəlb edilməsi ölkə iqtisadiyyatının əsas sektorlarına investisiyaların cəlb edilməsinə çıxış imkanlarını açacaq səmərəli maliyyə mexanizminin yaradılmasını, ölkənin enerji müstəqilliyinin möhkəmləndirilməsini və s. nəzərdə tutur.

**İstifadə olunmuş ədəbiyyat**

1. Abdinov O.T., Dayanıqlı inkişaf məqsədlərinin maliyyə təminatının təkmilləşdirilməsi istiqamətləri. Elm və İnnovativ Texnologiyalar Jurnalı, 19, 2021, səh.61-74.
2. Əliyeva N., Hüseynli N. Dayanıqlı Maliyyənin Təşviq Edilməsində Yaşıl İstiqrazların Rolu. Yaşıl iqtisadiyyat və dayanıqlı inkişaf. Məqalələr toplusu. s. 157-169. UNEC, Bakı, 2024. – 243 s.

3. Həsənova A., Məmmədova G. Yaşıl Maliyyənin Tətbiqi Problemləri və Mövcud Vəziyyətinin Təhlili. Yaşıl iqtisadiyyat və dayanıqlı inkişaf. Məqalələr toplusu. s. 71-83. UNEC, Bakı, 2024. – 243 s.
4. Məmmədzadə E., Seyfullayev İ. Bərpa Olunan Enerji Mənbələrindən İstifadənin Yaşıl Maliyyə Mexanizmi. Yaşıl iqtisadiyyat və dayanıqlı inkişaf. Məqalələr toplusu. s. 105-119. UNEC, Bakı, 2024. – 243 s.
5. Məmmədzadə T. Maliyyə mexanizmi və onun dayanıqlı iqtisadi inkişafın təmin edilməsindəki rolu // İPƏK YOLU, No.1, 2023, səh.108-114.
6. Байбакова Е. Современное состояние и перспективы развития экологического страхования в России. *Экологический консалтинг.* 2002. № 4(8). С. 12-21.
7. Лазор О. Фінансово-економічні важелі реалізації екологічної політики / Збірник наукових праць Української академії державного управління. К.: УАДУ, 2002. Вип. 2. С. 188-195.
8. Москаленко В. П. Розвиток фінансово-економічного механізму на підприємстві: курс лекцій / Москаленко В.П., Шипунова О.В. Суми: ВТД «Мрія-1» ЛТД, УАБС, 2003. 106 с.
9. Стимулювання відновлюваної енергетики в Україні за допомогою "зеленого" тарифу. URL: http://saee.gov.ua/documents/ green-tariff.pdf

## Qlobal Ətraf Mühit Çağırışları və Azərbaycan: Yaşıl İdarəetmə və Sosial Rifahın Davamlı İnkişaf Yolu

**Fətullayeva Sədaqət**
**Senior Teacher in the Chair of Philosophy, Sociology and Politology**
**Sumgayit State University**
**sedaqet.fatullayeva@sdu.edu.az**

Xülasə

Qlobal ekoloji problemlər gücləndikcə, dünya ölkələri ekoloji mühafizə ilə iqtisadi inkişaf arasında tarazlığı qorumaq üçün siyasət həyata keçirirlər. Təbii resurslarla zəngin olan Azərbaycan da davamlı inkişafa doğru irəliləyən dövlət siyasətində yaşıl idarəetmə və sosial rifahı birləşdirmək istiqamətində addımlar atmaqdadır. Yaşıl idarəetmə davamlı ətraf mühit təcrübələrini təşviq edən sistemləri, siyasətləri və institutları ifadə edir. Digər tərəfdən, sosial rifah vətəndaşların təhsil, səhiyyə və iqtisadi sabitlik vasitəsilə həyat keyfiyyətinin artırılmasına yönəlib. Azərbaycanda bu iki konsepsiya daha çox qarşılıqlı əlaqədədir, çünki Azərbaycan hökuməti daha ədalətli və ekoloji cəhətdən həssas bir cəmiyyət yaratmağa çalışır. Bu məqalədə, Azərbaycanda yaşıl idarəetmə vasitəsilə davamlı inkişafın təşviqi səyləri və ətraf mühitin davamlılığı ilə sosial rifahın qarşılıqlı əlaqəsi araşdırılır. Tədqiqatda keyfiyyət və kəmiyyət metodlarından istifadə edilərək son illərdə dövlət siyasətinin hədəflədiyi məqsədə nə dərəcədə nail olduğu təsvir olunmuş, illər üzrə müqayisəli təhlil aparılmışdır. Yoxsulluğun azaldılması və sosial rifah göstəriciləri, iş yerlərinin yaradılmasına yaşıl texnologiyaların iqtisadi təsiri

və iqlim dəyişikliyi ilə əlaqədar İctimai Sağlamlıq Göstəriciləri barədə dəqiq statistik rəqəmlər göstərilmişdir.
Açar sözlər: yaşıl idarəetmə, sosial rifah, dayanıqlı inkişaf, bərpaolunan enerji, ətraf mühit
Abstract

In the study, the goals of sustainable tourism, differences between the theory and practice of sustainable tourism were noted. In addition, it was analyzed the number of foreigners and stateless persons who visited Azerbaijan for tourism purposes according to the level of satisfaction with the services provided to them in the study. Interest rates are mentioned passenger transportation by bus, passenger transportation by subway, taxi services, accommodation services, public catering services, travel agent services (tour operators) relevant to the categories according to the degree of satisfaction of the services provided to foreigners and stateless persons who visited Azerbaijan for tourism purposes in the period of January-August 2024.

Taking all this into account, we can note that it is clear that the topic of the study is quite important.

**Keywords:** sustainable tourism, tourism development, development problems.

## GİRİŞ

Turizmin inkişafının müsbət və mənfi təsirləri olmaqla yanaşı, eyni zamanada bir çox ölkələr üçün mühüm iqtisadi gəlir mənbəyidir. Bu səbəbdən turizm sektoru bu gün iqtisadi fəaliyyətin getdikcə daha vacib sahəsini təşkil edir. Turizm sektoru iqtisadi artımı və davamlı inkişafı təmin edən ən mühüm sektorlardan birinə çevrilmişdir. Bundan əlavə, beynəlxalq turistlərin sayının, ətraf mühit və iqtisadi təsirlərin artması ilə birlikdə dayanıqlı turizmin əhəmiyyəti artmağa başlayıb.

Turizm sisteminin inkişafı, turizmin potensial sosial-iqtisadi funksiyası, ondan istifadənin səmərəliliyi Azərbaycanda turizmin potensialının və inkişaf perspektivlərinin göstəriciləridir. Turizm potensialı dedikdə, turizm sənayesinin ehtiyaclarına cavab verən şəkildə tətbiq oluna bilən maliyyə resursları, infrastruktur, əmək qüvvəsi və təşkilati-idarəetmə təcrübəsinin mövcudluğu nəzərdə tutulur. Hər hansı bir sahədə ölkənin potensialını araşdırarkən müvafiq komponentləri qiymətləndirmək və əsas inkişaf istiqamətini müəyyən etmək üçün proqnozlardan istifadə etmək lazımdır.

### Davamlı turizm

Turizmdə davamlılıq anlayışı, bir tərəfdən, məhsul və xidmətlər təqdim etməklə iqtisadi gəlir əldə etməyi nəzərdə tutursa, digər tərəfdən məhsul və xidmətlər təqdim edərkən ətraf mühitin və mədəni bütövlüyün qorunmasına maksimum diqqət yetirməyi vurğulayır (Jayawardena vd., 2008). Əslində Sezgin və Kalaman dayanıqlı turizmin mahiyyətcə idarəetmə prosesi olduğunu və bu idarəetmənin həm istirahət edənlərin, həm də yerli əhalinin mədəni bütövlüyü, ekologiya, biomüxtəliflik və həyati vacib işlərə olan ehtiyaclarını qarşıladığını bildirir (Sezgin və Kalaman, 2008). Bu yolla həm turist məmnunluğunu təmin etmək, həm də uzunmüddətli perspektivdə turizm fəaliyyətlərindən əldə edilən gəliri qorumaq hədəflənir (Sheldon & Abenoja, 2001). Bu səbəbdən dayanıqlı turizm həm də destinasiyaya gələn turistlərin gözlənti və ehtiyaclarının ödənilməsinə, destinasiyada yaşayan yerli əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasına və turizmin ehtiyac duyduğu resursların düzgün idarə olunmasına yönəlmiş fəaliyyətlər məcmusu kimi də şərh edilə bilər. (Wan & Li, 2013).

Üstəlik, turizm sənaye olmaqla yanaşı, müştərilərə, maraqlı tərəflərə, personala, idarəetməyə və bütün bəşəriyyətə qarşı məsuliyyətlərə malikdir. Yılmaz, Ünal və Çakır öz araşdırmalarında davamlı turizmin hədəflərini aşağıdakı kimi ümumiləşdirirlər (Yılmaz, Ünal və Çakır, 2015):

• Turizm məkanlarını və müəssisələri qorumaqla rəqabət mühitinin və turistik fəaliyyətlərin uzunmüddətli davamlılığını təmin etmək.

• Turizm ehtiyatlarının yerləşdiyi bölgələrdə yerli əhalinin rifahını maksimum dərəcədə artırmaq.

• Turizmin yaratdığı məşğulluq imkanlarından heç bir ayrı-seçkilik etmədən keyfiyyət və kəmiyyət baxımından ən yüksək səviyyədə faydalanmaq.

• Turizmdən əldə edilən sosial və iqtisadi faydaları xidmət və gəlir axını baxımından ədalətli şəkildə bölüşdürmək.

• Turistlərə etnik mənşə, cins, inanc, dil, fiziki qüsur və s. ayrı-seçkilik olmadan təhlükəsiz və məmnunedici təcrübə təmin etmək.

• Turizmin inkişafı proseslərində turist resurslarının yerləşdiyi bölgələrdə yerli əhali ilə qərar qəbul etmə və planlaşdırma proseslərində iştirakını təmin etmək.

• Mədəni deqradasiya olmadan yerli icmanın həyat səviyyəsini yüksəltmək.

• Mədəniyyətə, tarixə və adət-ənənələrə hörmət etməklə onların yerli xalqın nümayəndələri kimi inkişafına dəstək vermək.

• Şəhər və ya kənd landşaftının standartlarını yüksəltməklə yanaşı ətraf mühitin deqradasiyasının qarşısını almaq.

• Canlı və cansız varlıqları qorumaqla təbii mühiti dəstəkləmək və turizm fəaliyyətləri nəticəsində yarana biləcək zərərləri minimuma endirmək.

• Turizm biznesinin inkişafı üçün lazımlı olan bərpa olunmayan mənbələrdən istifadənin minimuma endirilməsi.

Turizm fəaliyyətinin səbəb olduğu torpaq, su və hava çirklənməsinin, turistlərin və turizm şirkətlərinin yaratdığı tullantıların ən aşağı səviyyəyə endirilməsi.

**Nəzəriyyə-təcrübə uyğunsuzluğu**

Davamlı turizmin nəzəriyyəsi ilə praktikası arasında böyük fərq olduğu tez-tez xatırlanan bir məsələdir. Turizmin səkkiz əsas reallığı var. Bu səkkiz reallıq (McKercher, 1993):

1. Böyük və qlobal fəaliyyət kimi turizm resursları istehlak edir, tullantılar yaradır və intensiv infrastruktur investisiyaları tələb edir.

2. Turizmin inkişafı resursların həddindən artıq istehlakı ilə nəticələnir.

3. Böyümək və yaşamaq üçün sənaye məhdud resurslar üçün mübarizə aparmalıdır.

4. Turizm sənayesi qısamüddətli mənfəətin maksimumlaşdırılmasına yönəlmiş kiçik özəl müəssisələrdən ibarətdir.

5. Qlobal və çoxsahəli sənaye kimi turizmə nəzarət etmək mümkün deyil.

6. Turistlər antropoloq deyil, istehlakçılardır. Çox vaxt hedonist, məsuliyyətli olmayan davranışlar nümayiş etdirirlər.

7. Turistlərin əksəriyyəti istirahət, əyləncə və qaçış axtarır və turist olmağa "cəhd etmək" istəmir.

8. İxrac olsa da, turizm "bölgədə" istehsal olunan və istehlak edilən bir təcrübədir.

Sharpley (2009: 68) bildirir ki, McKercherin qiymətləndirmələrindən illər keçməsinə baxmayaraq, turizmlə bağlı reallıqlar çox dəyişməyib. Sharpley dayanıqlı turizmin üç əsas məsələsinin, yəni davamlı istehsal, davamlı istehlak və ədalətli paylamanın bu səkkiz reallıqla birbaşa əlaqəli olduğunu bildirir və üç əsas tənqid məsələsinin olduğunu bildirir (Sharpley, 2009):

- Tez-tez deyilənlərin əksinə olaraq, turizm tüstüsüz sənaye deyil.
- Davamlı turizm davamlı istehlakdan asılıdır. Ancaq turistlər istirahət məkanı kimi təbii və çirklənməmiş ərazilərə üstünlük versələr də, onların davamlılıq prinsiplərinə uyğun davrandıqlarına dair heç bir sübut yoxdur.
- Sektorun miqyası, strukturu və özünəməxsus güc münasibətləri turizm resurslarına çıxış və sahiblənmədə ədalətin təmin olunmasına təsir göstərir.

Sharpley nəzəriyyə və təcrübə arasındakı fərqlər haqqında da bəzi qiymətləndirmələr etdi. Bu qiymətləndirmələri aşağıdakı kimi sıralamaq olar (Sharpley, 2009):

- Turizmin dayanıqlı turizm prinsipləri çərçivəsində inkişafı arzulanan, lakin əsaslı idealist və praktiki olmayan məqsəddir.
- Ədəbiyyatda uzun müddətdir öyrənilən davamlı turizmlə bağlı ümumi fikir ondan ibarətdir ki, turizmlə davamlı inkişaf arasında əlaqə yaratmaq mümkün deyil.
- Hər bir təyinat unikaldır. Əsas prinsiplər çox real deyil.
- Dünyada bəzi dayanıqlılıq xüsusiyyətlərinə malik olan bəzi destinasiyalar olsa da, vahid perspektivdən baxdıqda, davamlı istehsal, istehlak və ədalətli bölgüyə nail olmaq mümkün deyil.

- Turizmdən əldə edilən gəlirin ədalətli bölüşdürülməsi mümkün görünməyən bir vəziyyətdir.

- Turistlər öz üstünlüklərində dayanıqlı destinasiyalara önəm verirlər, lakin onların fəaliyyətlərində eyni həssaslıq nümayiş etdirdiyinə dair çox az nümunə və ya sübut var.

- Davamlı inkişaf baxımından turizmi digər yerdəyişmələrdən fərqləndirmək mümkündür mü?

**Azərbaycanda turizm sənayesi**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən əldə olunan məlumatlar nəticəsində araşdırmada 2024-cü il yanvar-avqust aylarında turizm məqsədilə Azərbaycana səfər etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin onlara göstərilmiş xidmətlərdən məmnunluq dərəcəsinə görə sayı ilə əlaqədar təhlil aparılmışdır.

**Cədvəl 1: 2024-cü il yanvar-avqust aylarında turizm məqsədilə Azərbaycana səfər etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin onlara göstərilmiş xidmətlərdən məmnunluq dərəcəsinə görə sayı,** nəfər

| Cəmi | Bütün xidmətləri qənaətbəxş hesab edənlər | Göstərilmiş xidmətlər qənaətbəxş hesab etməyənlər | o cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | avtobusla sərnişin daşıma | metro ilə sərnişin daşıma | taksi xidmətləri | yerləşmə xidmətləri | ictimai iaşə xidmətləri | turagentlərin (turoperatorların) xidmətləri | bələdçi xidmətləri | digər xidmətlər |
| 124 6805 | 1099 009 | 147 796 | 32 429 | 9 270 | 19 310 | 13 334 | 28 568 | 5 579 | 16 683 | 22 623 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən əldə edilən məlumatlara əsasən müəlliflər tərəfindən hazırlanmışdır.

Cədvəl 1-də qeyd olunan məlumatları nəzərə alaraq qeyd edə bilərik ki, 2024-cü il yanvar-avqust aylarında turizm məqsədilə Azərbaycana səfər etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin onlara göstərilmiş xidmətlərdən məmnunluq dərəcəsinə görə kateqoriyalara uyğun olaraq faiz nisbətləri təxminən avtobusla sərnişin daşıma üzrə 21.9%, metro ilə sərnişin daşıma üzrə 6.3%, taksi xidmətləri üzrə 13.1%, yerləşmə xidmətləri üzrə 9%, ictimai iaşə xidmətləri üzrə 19.3%, turagentlərin (turoperatorların) xidmətləri üzrə 3.8%, bələdçi xidmətləri üzrə 11.3%, digər xidmətlər 15.3% təşkil edir. Göstərilmiş xidmətləri qənaətbəxş hesab etməyənlər arasında ən çox faiz nisbəti avtobusla sərnişin daşımada olmuşdur.

Göstərilmiş xidmətləri qənaətbəxş hesab etməyənlər arasında ən yüksək faiz nisbəti avtobusla sərnişin daşıma üzrə olmuşdur. Ümumiyyətlə, həm yerli vətəndaşlara, həm də əcnəbi və vətəndaşlığı olmayan şəxslərə turizm ilə əlaqədar göstərilmiş xidmətlər ilə əlaqədar məmnunluq dərəcəsinin ən yüksək səviyyəyə çatdırılması turizmin inkişafı ilə əlaqədar mühüm məsələlərdəndir.

Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsində strateji məqsədlər qeyd olunmuşdur (Strateji Yol Xəritəsi, 2016).

- Bakı şəhərinin turizm potensialından tam istifadə üzrə səmərəli idarəetmə sisteminin yaradılması, marketinq və brendinq səylərinin gücləndirilməsi, turizm məkanları barədə məlumatlılığın artırılması və turizm infrastrukturunun təkmilləşdirilməsi yolu ilə uzunmüddətli dövrdə Bakı şəhərinə getdikcə daha çox xarici turistlərin cəlb edilməsinə nail olmaq;

- ölkə üzrə əlverişli mühitin yaradılması üçün ölkəyə giriş-çıxışın sadələşdirilməsi, əlaqə vasitələrinin təkmilləşdirilməsi, turizm sektorunun ayrı-ayrı iştirakçıları arasında koordinasiyalı fəaliyyətin qurulması və turizm və rekreasiya zonalarının yaradılması kimi dəstəkverici mexanizmlərin tətbiqi ilə uzunmüddətli inkişafa nail olmaq;
- sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi turizm növlərini əsas götürərək, regional turizmi daha da inkişaf etdirməklə, Azərbaycanın turizm sektoru üzrə təkliflərini diversifikasiya etmək və uzunmüddətli dövrdə ölkəyə daha çox turistin cəlb edilməsinə nail olmaq;
- turizm sektorunda göstərilən xidmətlərin keyfiyyət və kəmiyyət göstəriciləri baxımından təkmilləşdirilməsi məqsədilə turizm keyfiyyət sisteminin yaradılması ilə turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq.

**Nəticə**

Qloballaşma prosesində yaşanan dəyişikliklərlə əlaqədar olaraq inkişafın və ətraf mühitin davamlılığını təmin etmək və ekoloji resursları davamlı şəkildə idarə etmək üçün beynəlxalq, milli, regional və yerli daxil olmaqla bütün səviyyələrdə qaydalara və sistemlərə ehtiyac var.

Qeyd etmək lazımdır ki, davamlı turizmin nəzəriyyəsi ilə praktikası arasındakı fərqləri minimuma endirmək, yəni, nəzəriyyədə yaradılan yenilikləri tətbiq etmək bütövlükdə davamlı inkişafa əlverişli mühit yaradacaqdır. Ümumiyyətlə, araşdırma zamanı aparılan təhlilə əsasən turistlərin məmnuniyyət səviyyəsinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir.

**Ədəbiyyat siyahısı**

1. Jayawardena, C., Patterson, D. J., Choi, C., & Brain, R. (2008). Sustainable tourism development in Niagara: Discussions, theories, projects and insights. International Journal of Contemporary Hospitality Management, 20(3), 258-277.
2. Sezgin, M., & Karaman, A. (2008). Turistik destinasyon çerçevesinde sürdürülebilir turizm yönetimi; ve pazarlaması. Selçuk University Social Sciences Institute Journal, 19, 431-440.
3. Sheldon, P. J., & Abenoja, T. (2001). Resident attitudes in a mature destination: The case of Waikiki. Tourism Management, 22(5), 435-443.
4. Wan, Y. K. P., & Li, X. (2013). Sustainability of tourism development in Macao, China. International Journal of Tourism Research, 15(1), 52-65.
5. Yılmaz, İ. A., Ünal, A. & Çakır, G. (2015). Sürdürülebilir turizm literatürü üzerine bir değerlendirme: Türkiye bağlamı. Mesleki Bilimler Dergisi, 4(2), 55–83.
6. McKercher, B. (1993). Some fundamental truths about tourism: Understanding tourism's social and economic impacts. Journal of Sustainable Tourism, 1(1), 6-16.
7. Sharpley, R. (2009). Tourism development and the environment: Beyond sustainablity. London: Cromwell Press Group.
8. https://www.stat.gov.az/source/tourism/
9. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair "Strateji Yol Xəritəsi", 2016.

# İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişaf etdirilməsi istiqamətlərinin təhlili

**Magistrant: Babaşov Fərid İsa oğlu**
Elmi rəhbər: i.f.d., Z.Ş.Paşayev
**Azərbaycan Universiteti,**
ferid.babashov2002@mail.ru

**XÜLASƏ**

İşğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın fəaliyyətinin bərpası və inkişafı qarşıda duran əsas piroritetlərdəndir. Müharibələrin iqtisadiyyata təsiri və postkonflikt ərazilərdə sahibkarlığın inkişafı ilə əlaqədar işlərin görülməsi günümüzün tələbinə çevrilmişdir. Bu səbəbdəndə Ölkəmizin işğaldan azad olunmuş ərazilərində sahibkarlığın inkişafı istiqamətlərinin müəyyən olunması və düzgün istiqamətlərin seçilməsi nəticəsində gözlənilən inkişaf göstəricilərinin proqnozlaşdırılması mövzunun aktuallığını dahada artırır. Tədqiqat işinin yazılmasının əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq sektorunun formalaşması və inkişafı, bu konteksdə vergilərin tətbiq xüsusiyyətlərinin öyrənilməsi, həmçinin, beynəlxalq təcrübədə bu istiqaməti və perspektivlərin təhlil edilərək nəticələrin əldə edilməsidir.Dəyişikliyin əsas məqsədi işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılması, sığortaedənlərin xərclərinin minimum səviyyəyə endirilməsidir.Subsidiyalaşdırma dövlət və neft-qaz sahəsində, həmçinin qeyri-dövlət sektorunda maliyyə və avtonəqliyyat vasitələri ilə yükdaşıma fəaliyyəti göstərən, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına malları (işləri və xidmətləri) təqdim edən podratçılara şamil edilmir. Subsidiya "Sosial sığorta haqqında" Qanunda nəzərdə tutulan hesabatın təqdim edilmə dövrü bitdiyi tarixdən, habelə sabit qəbz və "Fərqlənmə nişanı" əldə etməklə fərdi qaydada fəaliyyət göstərən fiziki şəxslər üzrə rüb başa çatdıqdan sonra 30 gün müddətində dövlət büdcəsinin vəsaiti hesabına həyata keçiriləcək.Məqalənin hazırlanmasında müqayisəli-analitik təhlil, nəzəri-təhlil, analiz, induksiya, deduksiya, statistik təhlil və digər metodlardan istifadə olunmuşdur.

**Jel Code: D25, H2**
Açar sözlər: İnvestisiya, Sahibkarlıq, İnduksiya,Vergi potensialı, ÜDM, Böyük qayıdış

**SUMMARY**

The restoration and development of the economy in the liberated territories are among the main priorities ahead. The impact of wars on the economy and the implementation of work related to the development of entrepreneurship in post-conflict areas have become a requirement of today. Therefore, determining the directions of entrepreneurship development in the liberated territories of our country and predicting the expected development indicators as a result of choosing the right directions further increases the relevance of the topic. The main purpose of writing the research paper is to study the formation and development of the entrepreneurial sector in the liberated territories, study the features of tax application in this context, as well as analyze this direction and prospects in international practice and obtain results. The main purpose of the amendment is to create favorable conditions for improving

the entrepreneurial environment in the liberated territories, and reduce the costs of insurers to a minimum level. Subsidies do not apply to contractors engaged in financial and motor vehicle transportation activities in the state and oil and gas sectors, as well as in the non-state sector, as well as providing goods (works and services) at the expense of the state budget. The subsidy will be implemented from the state budget funds within 30 days from the end of the reporting period stipulated in the Law "On Social Insurance", as well as after the end of the quarter for individuals operating individually by obtaining a fixed receipt and a "Distinction Badge". Comparative-analytical analysis, theoretical analysis, analysis, induction, deduction, statistical analysis and other methods were used in the preparation of the article.

Keywords: Investment, Entrepreneurship, Induction, Tax potential, GDP, Big return

**Giriş**

**Mövzunun aktuallığı.** Dünya ölkələri işğaldan azad edilmiş post-konflikt zonaların inkişafı, iqtisadiyyatın bərpası məsələlərinə xüsusi maraq göstərirlər. Sözügedən işlərə bu münasibət təhlükəsizliyin, sülhün və inkişafın daim olmasına, sahibkarlığın inkişafı, investisiya və partnyorluq mühitlərinin genişləndirilməsinəhədəflənmişdir.

Vergi tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi sahibkarlıq sektorunda nailiyyətlərə səbəb olmaqda, davamlı inkişaf ilə nəticələnməkdə və vacib töhfələr verməkdədir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycanda işğaldan azad olunmuş ərazilərdə sahibkarlıq sektorunda vergitutmanın tənzimlənməsi investisiyaların cəlbi, müvafiq məsələ üzrə dünya təcrübəsinin araşdırılması, vergi siyasəti ilə iqtisadi inkişafın əlaqəsinin təkmilləşdirilməsini analitik təhlilə cəlb etmək, müsbət və mənfi cəhətlərin analizi, müsbət cəhətlərdən nümunə götürərək faydalanmaq, mənfi cəhətləri təhlil edərək neqativ təsirlərdən qorunmağı öyrənmək kimi məqsəd və vəzifələri mövcuddur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat obyekti özündə işğaldan azad olunan ərazilərdə vergitutmanın təkmilləşdirilməsi konsepsiyasının reallaşdırılmasının istiqamətlərini ehtiva edir. Tədqiqatın predmeti işğaldan azad olunmuş ərazilərdə təkmilləşdirmə, tənzimləmə, və güzəşt mexanizmləri əsasında sahibkarlığın inkişafı proseduruna əsaslı təsirin formalaşma xüsusiyyətləridir.

**Tədqiqat metodları.** Məqalənin yazılmasında analiz, müqayisəli-analitik təhlil, nəzəri təhlil, deduksiya, induksiya, statistik təhlil kimi metodlardan istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Məqalədə işğaldan azad edilmiş ərazilərin bərpası, sahibkarların və investorların məmnuniyyətinin təmin edilməsi məqsədilə verilən məlumatlar əsasında dünyanın ayrı ayrı ölkələrindən olan alimlərin, fikirlərini təsdiqləmiş iqtisadçıların və tədqiqatçıların əsərləri, həmçinin, elmi-analitik və statistik təhlili, Dövlət Statistika Komitəsi Dövlət Vergi Xidməti, və digər müvafiq dövlət orqanlarının hesabatları, müxtəlif dillərdə internet resursları və elmi məqalələrdən əldə edilən statistik məlumatlar təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Tədqiqat işinin məhdudiyyəti tədqiqat işində göstərilən işğaldan azad edilən ərazilərin yeni bərpası, həmin regionda vergi tənzimlənməsi mexanizimin informasiya bazasının məhdud olması və ölkə təcrübəsində bundan öncə yaxın miqyasda oxşar təcrübənin olmaması kəsb edir.

**Tədqiqatın elmi yeniliyi.** İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın inkişafında vergitutmanın təkmilləşdirilməsi istiqamətlərinin araşdırılıb öyrənilməsi bu regionun iqtisad bərpasını və yenidən qurulmasını operativ şəkildə təşkil etməyi, sahibkarlığın yüksək inkişafına nail ola bilməyi özündə ehtiva edir.

Dövlətin kompleks fəaliyyət planlarının hazırlanması ilə işğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış"-ın təmin edilməsi məqsədli əməkdaşlıqlara başlanılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci ilin sonlarında keçirilmiş bir müşavirədə öz nitqində ölkənin geniş miqyaslı planlarının olması, müharibənin sonlanmasının cəmi bir neçə ay olmasına baxmayaraq kifayət qədər böyük həcmdə işlərin görülməsi və bərpa prosesinin sürətli şəkildə davam edəcəyi haqqında fikirlər səsləndirmişdir.

Sözügedən işlər ərazinin yenidən məskunlaşdırılmasına və inkişafına imkan verəcəkdir. Bu infrastruktur tədbirləri bölgənin sosial və iqtisadi inkişafına dəstək olacaq, yeni fürsətlər yaradacaq və yaşayış məkanlarının bərpası və yenidənqurma prosesini sürətləndirəcəkdir. Atılan addımlar işğaldan azad edilmiş ərazilərin sosial və iqtisadi bərpa prosesinin müvəffəqiyyətlə həyata keçirilməsinə kömək edəcəkdir.

S.B.Teodosijevic özünün "Armed Conflicts and Food Security" adlı əsərində müharibə və münaqişə dövrlərində kənd infrastrukturunun məhv olması, məhsulun və meşələrin tələf edilməsi, minaların geniş istifadəsi və əhalinin yerini dəyişməsinin ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli problemlərə səbəb olması ilə nəticələndiyini bildirir. Problemin həlli məqsədilə ərazidəki minaların və digər partlayıcıların zərərsizləşdirilərək təmizlənməsi, təhlükəsiz yol xəttlərinin bərpası və yeni suvarma sistemlərinin quraşdırılması lazımdır.( Müzəffərli N., İsmayılov E. Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar, "Qafqaz" nəşriyyatı, Bakı, 2010).

1947-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilən "Marşal planı", İkinci Dünya Müharibəsi sonrasında Qərbi Almaniyanın, xüsusilə də kənd təsərrüfatının çətin iqtisadi vəziyyətinin inkişafını hədəfləyirdi. Plan üzrə istehsalın bərpa edilməsi və yaxşılaşdırılması ilə bağlı aşağıdakı məsələlər əhəmiyyət daşıyırdı:

- Əkin sahələri və otlaqların məhsuldarlığının effektiv artırılması;
- Südçülük sahəsində istehsalatın intensiv inkişafı;
- Texnoloji üsullarla heyvandarlıqda effektiv yemlənmənin təmin edilməsi;
- Təsərrüfatda avtomatlaşdırmanın intensiv istifadəsi.

*Beynəlxalq tədqiqatlar və hesabatlar əsasında belə nəticəyə gəlinir ki, b*u tədbirlər nəticəsində Qərbi Almaniyada sənaye sahəsinə nisbətən daha az olsa da, kənd təsərrüfatı sahəsində istehsal gücü artmışdır. Bu artım ekstensiv üsulla deyil, daimi və düzgün istiqamətləndirilmiş istehsal proseslərinin tətbiqi sayəsində əldə edilmişdir.

Qeyd edilən istiqamətlər əkin sahələrinin bərpa edilməsi, məhsuldarlığın artırılması, məhsul keyfiyyətinin yaxşılaşdırılması və təsərrüfatlarda avtomatlaşdırmanın tətbiqi kimi amillərə diqqət yetirir. Bu, Azərbaycanın də işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatının inkişafını və daha sürətli bərpa edilməsini təmin edəcək bir yol olaraq görülə bilər.

İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının bərpası üçün dünya təcrübəsinə əsaslanan xüsusi müddəaları nəzərə almaq mütləqdir. Ermənistan Respublikası tərəfindən həyata keçirilmiş işğal və yaşanan təcavüzkar müharibə beynəlxalq hüquq norma və prinsiplərinə zidd olaraq, həm də bir növ terror aktı kimi qiymətləndirilir. İşğal olunan ərazilərdə yaşayan yerli əhali tamamilə məcburi

köçkünlük yaşayaraq bu ərazilərdən sürgün edilmişdir. Ərazidəki bütün infrastrukturlar qabaqcadan planlanmış formada dərhal və məqsədəuyğun şəkildə tamamilə məhv edilmişdir. İşğaldan sonra bu ərazilərdə kənd təsərrüfatı torpaqları istismar məqsədilə istifadə edilməkdən keçilməmişdir (Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə qanunsuz şəkildə məskunlaşdırılan erməni əsilli vətəndaşlar, həmçinin separatçı və kriminal qruplar tərəfindən, əkin sahələrinin işlənilməsi və kənd təsərrüfatı heyvanlarının yemlənməsi məqsədləri ilə istifadə edilmişdir).

Torpaq və su resurslarının effektiv istifadəsi üzrə planlamanın təşkil edilməsi, inkişaf tədbirlərinin həyata keçirilməsi və torpaq islahatının aparılması ərazilər üçün çox vacibdir. Proqnozlaşdırılır ki, regionda təsərrüfatın bərpasından sonra təxminən 9 000 hektarlıq hissəsini həyətyanı sahələr təşkil edən 200 000 hektardan çox torpaq sahəsi əkin üçün istifadə ediləcək. Beləliklə, işğaldan azad edilmiş ərazilərdə daşınmaz əmlakların dəqiq uçotu aparılmalı və vahid kadastr formalaşdırılmalıdır. Beləliklə, potensial əkin və otlaq sahələrinin ölçüləri haqqında dəqiq məlumatların olması aqrar sahədə istehsalın effektiv şəkildə planlaşdırılmasına və dəqiq proqnoz göstəricilərinin təqdim olunmasına, həmçinin torpaq islahatının aparılması üçün zəruri informasiya bazasının təmin edilməsinə şərait yaradacaq.( https://president.az)

1996-cı ildə Azərbaycanda MDB məkanında həyata keçirilən ilk torpaq islahatı təcrübəsi mövcuddur və uğurla nəticələnmişdir. Cari vəziyyətdə bu təcrübədən baza kimi istifadə oluna bilər. Torpaqlar bərpa edildikdən sonra növbəti mərhələdə heyvandarlıq fermalarının bərpası və heyvanlarla təminatın sağlanması istiqamətində tədbirlər həyata keçirilməlidir. Bu, kənd təsərrüfatının hərtərəfli olaraq işləyən və effektiv ola bilən bir struktur ilə yenidən qurulmasına kömək edəcəkdir.

Regionda aqro-emal müəssisələrinin yaradılması da əhəmiyyətli tədbirlərdən biridir. Burada südçülük, üzümçülük və meyvəçilik sahələrinin inkişaf potensialı göz önündə tutulur və müvafiq sahələrdə emal müəssisələrinin inkişafı xüsusi önəm kəsb edir.

İşğaldan azad edilmiş ərazilər üzrə spesifik düzəlişlərə ehtiyacın olduğu göz önünə gətirilərək kənd təsərrüfatı sahəsində investisiya təşviqi və xüsusi dövlət dəstəyi mexanizminin yaradılması gərəkdir. Bu ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalı və ticarətinin bərpası ölkədəki dəstək və təşviq siyasəti ilə əhatə olunur.

1980-ci illərin statistikasına əsasən, işğaldan azad edilmiş ərazilər perspektiv müddət ərzində 232 805 hektar əkin sahəsinə sahib olacaq şəkildə planlaşdırılır. Ərazilərin əsas hissəsini taxıl və yem bitkilərinin əkinləri təşkil edəcəkdir.( https://stat.gov.az/)

Rəsmi statistik göstəricilər işarə edir ki, işğaldan azad olunmuş regionlarda əkinə yararlı torpaq sahələrinin ölçüsü ilə bağlı planlar hazırlanmışdır. Buralarda əkinçiliyə paralel olaraq heyvandarlığın yem bazası olan yem bitkiləri sahəsinin inkişaf etməsi də mütləqdir. Məhsullar üzrə ixtisaslaşmanın regional pay bölgüsü cədvəl 1-də göstərilmişdir:

**Cədvəl 1. Perspektiv əkin ərazilərinin proqnoz strukturu, %.**

| | Taxıl | Pambıq | Tütün | Kartof tərəvəz bostan | Yem bitkiləri | Meyvə və giləmeyvə | Üzüm | Cəmi sahə |
|---|---|---|---|---|---|---|---|---|
| **Qarabağ** | 32% | - | - | 14% | 1% | 13% | 37% | 24% |
| **Ağdam** | 19% | 78% | - | 65% | 41% | 19% | 8% | 27% |
| **Cəbrayıl** | 7% | - | - | 2% | 18% | 6% | 19% | 9% |
| **Füzuli** | 34% | 22% | - | 12% | 30% | 20% | 12% | 30% |
| **Kəlbəcər** | 1% | - | 22% | 1% | - | 4% | - | 1% |
| **Qubadlı** | 4% | - | 44% | 3% | 2% | 19% | 6% | 5% |
| **Laçın** | 2% | - | - | 1% | 2% | 4% | - | 2% |
| **Zəngilan** | 1% | - | 33% | 2% | 6% | 16% | 16% | 4% |
| **Cəmi** | 100% | 100% | 100% | 100% | 100% | 100% | 100% | 100% |

**Mənbə**: Aqrar Tədqiqatlar Mərkəzi saytından əldə edilən məlumatlar əsasında müəllif tərəfindən hazırlanmışdır.

Ölkədəki taxılçılıq və üzümçülüyün faktiki inkişafının dinamikası göz önündə tutularaq, bu regionda taxıl və üzüm istehsalının təxminən eyni olacağı gözlənilir. Ümumi proqnoz istehsal gücü 1,397 mln ton olaraq proqnoz edilməkdədir. Kartof, tərəvəz və digər bitkilərin əkinləri böyük inkişaf potensialına malikdir. Bu bitkilər, yerli istehlakçı tələbatının qarşılanması, yüksək əlavə dəyər yaranması və emal sənayesinə təminat imkanları cəhətdən də önəmli rol oynayır. Beləliklə, bu bölgədə meyvəçiliyin inkişafına da xüsusi diqqət yetiriləcək və mövcud imkanlar əsasında bu sahədə potensial artım gözləniləcəkdir. Bununla birlikdə, inkişaf proseslərinin optimal nəticələrə çatması üçün kənd təsərrüfatı sahələrinin məhsuldarlıqlarının artırılması, mədəni bitkilərin keyfiyyətinin yüksəldilməsi, effektiv texnologiyaların tətbiqi, sənaye infrastrukturunun inkişafı və investisiyaların cəlb edilməsi kimi addımların atılması da əhəmiyyətli olacaq. Bütün bu faktorlar bir araya gəldikdə, bölgədə kənd təsərrüfatının inkişafının artırılması və iqtisadi inkişaf potensialının yüksəlməsi mümkün olacaq.

Ərazidə heyvandarlıq sahəsinin önəmini artıran bir çox faktorlar da var. İşğaldan azad edilən ərazilərin təbii şəraitinin, torpaq və iqlim xüsusiyyətlərinin heyvandarlığa uyğun olması da səbəblərdən biridir. Otlaq və yaylaqların geniş yer tutması, bölgədəki mədəniyyət və təsərrüfatçılıq ənənələri də heyvandarlığın inkişafı üçün əhəmiyyətlidir.

Hökumətin işğaldan azad edilmiş ərazilərdə iqtisadiyyatın yenidən qurulması və inkişafına cəlb etmək üçün yeni təşviq siyasəti reallaşdırması mühüm bir addımdır. Bu siyasət sahibkarları həvəsləndirmək və onların prosesə daha sıx qoşulmasını təmin etmək məqsədini daşıyır. Hökumət tərəfindən atılan həvəsləndirici addımlar Qarabağın iqtisadiyyatında sahibkarların rol payını artırmaq və onlara maliyyə dəstəyi göstərmək üçün nəzərdə tutulmuşdur. Bu addımlar sahibkarlara uzun

müddətə vergi və rüsumlardan azad edilmək kimi konkret təşviqləri əks etdirir. Bu, sahibkarların yeni yanaşmanın bir hissəsi olması və iqtisadiyyatın canlanmasına dəstək olması məqsədilə tətbiq edilən bir tədbirdir. Bu yeni təşviq siyasətinin davamlı və uzunmüddətli olması, sahibkarların inkişaf və iş fəaliyyətləri üçün daha çox təminat və motivasiya verməyi hədəfləyir. Bu cür dəstəklər işğaldan azad edilmiş rayonlarda yeni sahibkarlıq fəaliyyətinin canlanmasını, iqtisadiyyatın bərpa edilməsini və sürətləndirilməsini təmin etməkdə kömək edir.

2021-ci il 10 dekabr tarixində qüvvəyə minən Azərbaycan Respublikası Prezidentinin Sərəncamı işğaldan azad edilmiş ərazilərdə resursların səlis şəkildə idarə edilməsi emal və xidmət strukturunun yaradılmasına yönəldilmiş tədbirlər haqqında düzgün istiqamətlər verir. Sərəncamın icrası ilə bağlı bir çox addımlar atılmış və tədbirlər görülmüşdür. Bu tədbirlər işğaldan azad edilmiş ərazilərdə yatırım cəlbediciliyinin artırılması, sahibkarlıq atmosferinin yaxşılaşdırılması və iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə hazırlanmış stimullaşdırıcı mexanizmlərdir.

İstehsalın hər mərhələsində ölkələr enerjiyə ehtiyac duyurlar. Enerjinin daha asan və ucuza əldə edilməsi bu baxımdan önəmlidir. Xüsusilə də getdikcə tükənən enerji mənbələri hesabına əldə edilən elektrik enerjisi ilə birlikdə bərpa olunan enerji mənbələrinə daha çox diqqət ayrılması yaşıl enerji istehsalını stimullaşdırır. Təkcə sənayedə deyil elektrik enerjisinin, həyatın demək olar ki hər sahəsində istifadə edildiyini görürük. Yaşıl enerjiyə maraq dünyada getdikcə artmaqdadır. Bir çox tükənən enerji istehsalçı şirkətləri paralel olaraq yaşıl enerji istehsalına da investisiyalar yönləndirməkdə, yaşıl enerji istehsalını artırmaqdadır. Azərbaycanda enerji mənbələrinin zənginliyi müxtəlif enerji mənbələrinə əsaslanan istehsalın olmasına şərait yaradır. Ümummilli Lider Heydər Əliyev Azərbaycanın enerji potensialını qiymətləndirərkən bu potensialın bütün dünyada iqtisadi sıçrayış üçün təsirli stimul ola biləcəyini bildirmişdir.

Azərbaycan Respublikasının Prezidenti işğaldan azad edilmiş bölgələrdə iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə 10 dekabr 2021-ci il tarixində normativ-hüquqi akt imzalamışdır. Belə ki, müvafiq ərazilər üzrə iqtisadi inkişafının təmin olunması məqsədilə gömrük rüsumları və vergilərə güzəşt mexanizmlərinin tətbiq edilməsi və investisiya təşviqi sənədinin alınması prosesinin sadələşdirilməsi istiqamətində addımların atılması məqsədəuyğun hesab edilmişdir. (https://president.az/) 27 noyabr 2001-ci il tarixində kənd təsərrüfatı məhsullarının istehsalçılarının torpaq vergisindən azad edilməsi məsələsi qanunla tənzimlənmişdir. Həqiqətən də, aqrar sahədə mövcud olan potensial imkanların effektiv şəkildə istifadə edilməsi və kənd təsərrüfatı təyinatlı təbii-iqtisadi resurs ehtiyatlarının optimal şəkildə istifadə edilməsi son dövrlərdə böyük əhəmiyyət daşıyır. Torpaq vergisi digər vergilərdən fərqlənir. Belə ki, həmin vergi təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq sabit şəkildə ödənilir.(Azərbaycan Respublikasının Vergi Məcəlləsi).

2023-cü ilin yanvar ayından etibarən post-konflikt ərazilərin rezidentləri mənfəət və gəlir vergisindən 10 il müddətinə azad edilib. Əlavə olaraq, azadolmalar torpaq, əmlak vergisi və sadələşdirilmiş vergiyə də aid edilir. Bundan başqa, həmin ərazilərdə ƏDV ödəyicisi olan rezidentlər eyni müddətdə mal nomenklaturalarına daxil olan texnika, avadanlıq və xammalın idxalı üzrə əlavə dəyər vergisindən də azaddır. ƏDV-dən azad hesab edilən fəaliyyətlərin və mal nomenklaturasının təsdiqli siyahılandırılması planlanır. Eyni zaman müddətində ərazilərin rezidenti olan müəssisələrin təsisçiləri dividend vergisindən azad edilir. Bu ərazilər üzərində iqtisadi fəaliyyətin canlandırılması məqsədilə əlavə təşviqlər də reallaşdırılmaqdadır. İşğaldan azad edilmiş ərazilər turizm potensialına sahib olduğundan, turizm sektorunda nəzərdə tutulan geniş güzəştlərə əlavə olaraq, mehmanxana

ödənişləri üzrə tutulan ƏDV-nin nağdsız hissəsinin 30%-i, nağd hissənin isə 5%-i də geri qaytarılacaq. Bu məsələ həmin ərazidəki iş adamları ilə birlikdə vətəndaşların da marağını artıracaqdır. .(Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2023).

Azadolmaların bəzi sahələrə şamil edilməyəcəyinin nəzərə çatdırılması mühümdür. Bunlara maliyyə, avtomobillə yükdaşıma və dövlət büdcəsi hesabına podratçıların mal və xidmətləri təqdim etməsi kimi fəaliyyətlər aiddir. İşğaldan azad edilmiş ərazidə istehsal fəaliyyəti həyata keçirən rezident podratçılar isə istisna hesab edilir. Ümumilikdə, Vergi Məcəlləsində edilmiş dəyişikliklər işğaldan azad edilmiş ərazilərdə ticarət, xidmət, istehsal, tikinti sektorları, hasilat sənayesi və digər subyektləri əhatə edən reallaşan bütün sahələrə vergi güzəştləri tətbiq edilməsinə imkan verir. .(Azərbaycan Respublikasının Vergi Məcəlləsi 2024).

## NƏTİCƏ

Azərbaycanda işğaldan azad edilmiş ərazilərdə sahibkarlığın inkişafı üzrə vergi siyasətinin təkmilləşdirilməsi üzrə aşağıdakı nəticə və təkliflər məqbul hesab edilir:

- Kiçik və orta biznes strukturlarının sayının artırılması üçün vergi güzəştlərinin verilməsi.
- Vergi tənzimlənməsi xüsusi investorların sayını artırar ki, bu da iqtisadi sabitliyin təminatçısı olan bir təbəqə formalaşdıra bilər;
- Vergi orqanları və vergi ödəyiciləri olmaqla, maraqlı tərəflər arasında əməkdaşlığın inkişaf etdirilməsi vergitutma ilə bağlı problemləri həll etməyə kömək edə bilər;
- Qoyulan vəsaitin daha tez qaytarılması, və rəqabət mühitinin daha da yaxşılaşdırılması məsələləri nəzərə alınaraq güzəşt və dəstək tədbirləri diqqətlə izlənməlidir;

## ƏDƏBİYYATLAR


1. Azərbaycan Respublikasının Konstitutsiyası
2. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (2024). Bakı
3. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı” Dövlət Proqramı
4. Müzəffərli N., İsmayılov E. (2010). Azərbaycanın post-konflikt ərazilərinin bərpası: Konseptual əsaslar, “Qafqaz” nəşriyyatı, Bakı.
5. “Azərbaycanın vergi jurnalı”-nın 2011-2013-cü illər üzrə nömrələrinin materialları
6. Musayev A. F. (2004). Vergi siyasətinin iqtisadi problemləri. Bakı: Elm, 792 s.
7. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. (2002). İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı: “Nasi”, 447 s.
8. Azərbaycan Respublikası Vergilər Nazirliyi. “Vergi orqanlarında kommersiya qurumlarının dövlət qeydiyyatının aparılmasına dair” Metodiki Göstəriş”
9. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2012). Azərbaycanın Statistik Göstəriciləri. Statistik məcmuə Bakı.
10. AR Dövlət Statistika Komitəsi (2020). Azərbaycanın regionları. Statistik məcmuə. Bakı, 828 s.
11. https://president.az
12. https://www.taxes.gov.az
13. http://www.science.gov.az/news/open/15789
14. https://stat.gov.az/

**Qarabağ regionunda turizmin dayanıqlı inkişafı problemləri**

**i.f.d., dos. Elşən Məmmədov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**E-mail: memmedov.elshan@mail.ru**
**Magistr: Nərimanov Etibar Nəriman oğlu**
**Azərbaycan Universiteti**
**E-mail: etibargdu9@gmail.com**

**Xülasə**

Məqalədə Qarabağ regionunda turizmin dayanıqlı inkişafının təmin olunması yolları araşdırılır. Bunun üçün Qarabağ regionunun resurs potensialı və turizm imkanları dəyərləndirilir. Belə ki, Azərbaycanın dilbər guşəsi olan Qarabağda təkcə metallurgiya, dağ-mədən sənayesi mövcud deyil, həm də ora zəngin tarixi və mədəni əhəmiyyət daşıyan böyük potensiala malik olan turizm-rekreasiya zonasıdır. Ermənistanın Azərbaycana elan olunmamış müharibəsi nəticəsində Qarabağda digər sahələrdə olduğu kimi turizm iqtisadiyyatına da böyük ziyan dəymiş, işğal edilmiş ərazilərin infrastrukturu ya tamamilə məhv edilmiş, yaxud da mənfur qonşularımız tarixi saxtalaşdırılmağa çalışaraq yerli tarixi və mədəni abidələrimizi erməni abidələri kimi təqdim etmişlər. Qarabağ regionunda turizmin dayanıqlı inkişafı, müharibə sonrası bərpa və bölgənin potensialından daha səmərəli istifadə edilməsi məqsədini güdür. Məhz bu proses hazırki dövrdə regionun turizm potensialını yenidən qiymətləndirərək turizm sənayesinin inkişaf etdirilməsinə yeni imkanlar yaradır. Bu prosesin önündə bir sıra problemlər mövcuddur. İlk növbədə, bölgənin təbii və mədəni irsinin qorunması, turizmin inkişafı ilə eyni anda həyata keçirilməlidir. İkinci mühüm problem infrastrukturun qeyri-kafiliyi və turizm xidmətləri çeşidinin az olmasıdır. Bu baxımdan məqalədə Qarabağın turizm potensialı araşdırılır və bu potensialın turizmə cəlb edilməsi perspektivləri dəyərləndirilir.

**JEL kodu: Z32**

**Açar sözlər:** dayanıqlı inkişaf, Qarabağ regionu, turizm növləri, turizm potensialı.

**Summary**

The article examines ways to ensure the sustainable development of tourism in the Karabakh region. For this, the resource potential and tourism opportunities of the Karabakh region are evaluated. Thus, in Karabakh, which is the charming corner of Azerbaijan, there is not only metallurgical and mining industry, but also it is a tourism-recreational zone with great potential carrying rich historical and cultural significance. As a result of Armenia's undeclared war against Azerbaijan, the tourism economy in Karabakh, as well as in other areas, suffered great damage, the infrastructure of the occupied territories was either completely destroyed, or our hated neighbors tried to falsify history and presented our local historical and cultural monuments as Armenian monuments. It pursues the goal of sustainable development of tourism in the Karabakh region, post-war recovery and more effective use of the region's potential. It is this process that re-evaluates the tourism potential of the region and creates new opportunities for the development of the tourism industry. There are a number of problems in front of this process. First of all, the protection of the natural and cultural heritage of the region should be carried out simultaneously with the development of tourism. The second important problem is the inadequacy of the infrastructure and the small range of tourism services. From this point of view, the

article examines the tourism potential of Karabakh and evaluates the prospects of attracting this potential to tourism.

**Key words:** sustainable development, Karabakh region, types of tourism, tourism potential.

**Giriş**

Turizmin dayanıqlı inkişafı, yalnız iqtisadi artımın deyil, həm də ekoloji, sosial və mədəni tərəqqinin təmin edilməsini nəzərdə tutur. Bu məqsədlə, Qarabağda turizmin inkişafı, müvafiq ekoloji tələblərə və yerli əhalinin sosial rifahına zərər vermədən həyata keçirilməlidir. Lakin, regionda turizm sektorunun qarşısında bir sıra əngəllər mövcuddur. Müharibə nəticəsində infrastrukturun zədələnməsi, mədəni və təbii irsin dağıdılması, dayanıqlı turizmin əsas hədəfi olan ekoloji tarazlığın pozulması kimi problemlər bu əngəllərin əsasını təşkil edir. Eyni zamanda, turizm sahəsində peşəkar kadr hazırlığı, yerli əhalinin bu sahədə maarifləndirilməsi və investisiyaların cəlb edilməsi də turizmin dayanıqlı inkişafı üçün vacib məsələlərdəndir. Bu çətinliklərə baxmayaraq, Qarabağın turizm potensialı böyükdür və regionda dayanıqlı turizmin inkişafı, həm iqtisadiyyatın dirçəlməsi, həm də yerli əhalinin rifahının yaxşılaşdırılması baxımından əhəmiyyət kəsb edir. Qeyd edək ki, regionun inkişafı, onun təbii resurslarından səmərəli və bazar seqmentlərinə uyğun istehsal və istehlak məqsədi ilə istifadə edilməsindən asılıdır (Məmmədov, 2013).

**Qarabağ regionunda turizmin inkişaf istiqamətləri**

Turizmin inkişafına nail olmaq üçün turizm növlərinə xüsusi diqqət yetirməklə, tələb və təklifin məqsədyönlü şəkildə uzlaşmasını təmin etmək tələb olunur (https://president.az/az/articles/view/22134).

***Mədəni və tarixi turizm.*** Qarabağın qədim tarixi, mədəni abidələri və arxeoloji əhəmiyyətə malik olan ərazilər turistlər üçün cazbədar ola bilər. Şuşa, Ağdam və digər şəhərlərə tarix və mədəniyyət sevərləri cəlb etmək olar. Məsələn mədəniyyət paytaxtımız olan Şuşa şəhəri musiqi, memarlıq və arxitekturası ilə məşhurdur. Azərbaycanın Qarabağ bölgəsi dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Xocavənd rayonunda yerləşən Azıx mağarasının 2 milyon ildən artıq yaşı vardır ki, bu mağara haqqında turistlərə məlumat verməklə onların Azərbaycana olan marağını daha da artırmaq olar. Bundan başqa Kəlbəcərin Vəng kəndində yerləşən Xudavəng monastrı Qafqaz Albaniyasına məxsus xüsusi əhəmiyyət kəsb edən tarixi abidələrdəndir. Bu abidə ölkəmizdə tolerantlığın və mədəniyyətlərarası dialoqun mövcud olduğunun göstəricisidir. Qarabağ regionunda turizmin əksər növlərinin inkişafı üçün resurs potensialı mövcuddur.

***Qış turizmi.*** Qarabağ regionunun, zəngin tarixi, möhtəşəm təbiəti və coğrafi yerləşməsi ilə qış turizmi üçün böyük potensiala malikdir. Qarabağın dağlıq ərazilərində qış idman növlərinin inkişafı üçün əlverişli iqlim şəraiti və infrastrukturu qurmaq üçün geniş imkanlar mövcuddur. Şuşa, Laçın, Kəlbəcər kimi şəhərlər həm möhtəşəm dağ mənzərələri, həm də zəngin mədəni irs ilə turistlər üçün cəlbedici məkanlardır. Qarabağda qış turizmi infrastrukturunun inkişafı, regiona daha çox investisiya cəlb edilməsini də təşviq edə bilər. Dağlıq ərazilərdə keyfiyyətli yolların, mehmanxana və turist komplekslərinin tikilməsi ilə həm yerli sakinlər, həm də xarici investorlar üçün cazibə mərkəzi yaranacaq. Bu, həmçinin yerli kiçik və orta sahibkarlığın inkişafına dəstək olacaq. Məsələn, xizək mərkəzləri, kanat yolları, dağ gəzintiləri üçün xidmətlər, yerli suvenirlər və əl işləri təklif edən kiçik bizneslər regionun iqtisadiyyatına müsbət təsir göstərə bilər. Eyni zamanda, qış turizminin inkişafı Qarabağ regionunun beynəlxalq turizm bazarlarında tanıdılması üçün geniş marketinq imkanları açır.

Şuşa və Kəlbəcər kimi tarixi məkanlar, həmçinin dağlıq ərazilərdə keçiriləcək qış festivalları, sərgilər və idman yarışları regionun beynəlxalq səviyyədə tanınmasına töhfə verə bilər. Bu tədbirlər vasitəsilə Qarabağın qış turizmi potensialı qlobal auditoriyaya təqdim edilə bilər.

***Macəra turizmi.*** Qarabağ regionu, dağlıq əraziləri, geniş meşələri, çayları və gölləri ilə məşhurdur. Bu təbii gözəlliklər, macəra turizmi üçün ideal şərait yaradır. Dağlar, yüksək zirvələri, dərin vadiləri, çətin keçilən əraziləri və geniş düzənlikləri bu bölgənin macəra turizmi üçün də əlverişli olduğunu müəyyən etməyə imkan verir. *Dağçılıq, dağ yürüşü, Raftinq, Kamp, Macəra oyunları, at sürmə, paraşütlə tullanma, və velosiped* turizmi üçün uyğun cığırlar və yolların mövcudluğu, Kəlbəcər, Laçın, Şuşa rayonlarında turizmin bu növünündə inkişafı üçün əlverişli imkanlar yaradır. Müasir infrastrukturun yaradılması, marketinq strategiyalarının tətbiqi, ətraf mühitin qorunması və yerli icmaların cəlb edilməsi ilə Qarabağ, macəra turizmi sahəsində lider mərkəzlərdən birinə çevrilə bilər.

Macəra turizmi yerli sakinlər üçün yeni iş imkanları yaradacaq. Tur bələdçiləri, xizək instruktorları, rafting operatorları və otel işçiləri kimi peşələr, işsizliyin azaldılmasına kömək edəcək.

Qarabağda macəra turizmi üçün bir çox fərqli fəaliyyətlər həyata keçirilə bilər. Bu fəaliyyətlər regionun təbii və mədəni irsini də tanıtma imkanını yaradır.

***Səhiyyə və Spa turizmi.*** Qarabağ regionunda səhiyyə və spa turizminin tarixi qədim dövrlərə, mineral suların və müalicəvi bitkilərdən istifadə olunduğu zamanlara qədər uzanır. Tarixi dövrlərdə insanlar, mineral suların, təbii bitkilərlərin xüsusiyyətlərindən müalicə üçün istifadə edirdilər. Bu gün, Qarabağda, xüsusilə Kəlbəcər və Laçın bölgələrinin mineral su bulaqları, zəngin müalicəvi florası müasir spa və sağlamlıq mərkəzlərinin yaradılması üçün əlverişli imkanlar yaradır.

Qeyd edək ki, müalicə-sağlamlıq turizmi daha çox gəlir gətirir (Məmmədov, 2013). Qarabağda, təbii müalicə metodlarının tətbiqi, turistlər üçün əlavə bir cazibə yaradır. Təbii bitkilərdən, mineral suların istifadəsindən və təbiətin təqdim etdiyi digər müalicəvi vasitələrdən istifadə edərək, turistlər, həm bədənlərini, həm də ruhlarını bərpa edə bilərlər. Bu yanaşma, insanları təbiətə yaxınlaşdırır və sağlam həyat tərzini təşviq edir.

İşğaldan əvvəl Kəlbəcər rayonunda fəaliyyə göstərən "İstisu" sanatoriyası hələ sovetlər dönəmində məhşurluğu ilə diqqət çəkmişdir. Sovet dövründə hər il burada təxminən 50,000 insanın müalicə olunduğuna dair "Respublika" qəzetində məlumat dərc edilmişdir (https://respublika-news.az/news/1624684922). 2020-ci ildə Kəlbəcərin işğaldan azad edilməsi ilə birlikdə, İstisu sanatoriyasının bərpası üçün işlər görülməyə başlanılmışdır. Belə ki, sanatoriyanın infrastrukturu yenidən qurulur, əvvəlki şöhrətinin bərpası  və turistlərin cəlb edilməsi üçün imkanlar artırılır.

İstisuyun sənaye üsuli ilə qablaşdırılması üçün 27 iyun 2022-ci il tarixində Prezident İlham Əliyev tərəfindən zavodun təməli qoyulmuş və 02 sentyabr 2024-cü ildə zavodun açılışı olmuşdur. Orada qablaşdırılan mineral suyun daxili bazar ilə yanaşı xarici bazara da ixracı nəzərdə tutulmuşdur ki, bu da regionun dayanıqlı inkşafını və işsizlik probleminin azaldılmasının təmin ediləcəyi barədə müsbət proqnozlar verməyə əsas verir.

Qarabağda müasir avadanlıqlarla təchiz olunmuş "SPA" mərkəzlərinin yaradılması, regionun turizm potensialını artırmaqla yanaşı, sağlamlıq turizmi sahəsində də irəliləyişlərə səbəb olacaq. Bu mərkəzlərdə massaj, aromaterapiya, akupunktur və digər müalicə metodlarının tətbiqi, turistlərin sağlamlığına diqqət yetirərək, onlara rahatlama və bərpa etmə imkanı yaradır.

Son dövrlərdə İstisuya olan tələbat artmaqdadır, lakin bununla bağlı turist statistikası hələ də tam dəqiqliklə təqdim olunmayıb. Bu, bərpa işlərinin tamamlanmaması ilə əlaqədardır, lakin perspektivdə turist axınının artacağı gözlənilir.

***Kənd turizmi.*** Təbii gözəlliklər, mədəni irs və tarixi abidələr, kənd turizminin inkişafında əsas amillərdir. Bu turizm növü, şəhər həyatından uzaqlaşaraq təbiət ilə iç-içə olmaq, yerli mədəniyyət və ənənələri tanımaq məqsədini güdür. Qarabağ regionu, zəngin təbii gözəllikləri, mədəni irsi və tarixi abidələri ilə kənd turizmi üçün zəngin imkanlar təqdim edir. Yerli sakinlər, qədim milli adət-ənənələrini qorumaqla yanaşı, milli mətbəxi, milli folkloru turistlərə bu mədəniyyəti tanıtma imkanına malikdirlər.

Kənd turizmi çərçivəsində, turistlər yerli yeməklər hazırlamaq, əl işləri ilə məşğul olmaq və ənənəvi musiqi dinləmək imkanın qazanmış olurlar.

Qarabağ tarixi abidələrlə zəngindir. Regionun qədim yaşayış məskənlərindən olması və orada yerləşən Şuşa, Laçın, Kəlbəcər, Xocavənd və Füzuli rayonları həm tarixi əhəmiyyətə malikdir, həm də turistlər üçün cəlbedici məkanlardır. Tarixi-dini abidələrin, ziyarətgahların, tarixi memarlıq abidələrinin bərpası və onların turizm məqsədilə istifadəsi, kənd turizminin inkişafına töhfə verə bilər. Bu şərait eyni zamanda yerli icmanın iqtisadi inkişafına da müsbət təsir edir.

Bu fəaliyyətlərə yerli bələdçilər, kənd qonaq evləri və digər turizm xidmətləri də daxil ola bilər. Belə xidmətlər həm də Qarabağ bölgəsində kənd təsərrüfatı və əl işlərinin daha geniş bazarda tanınmasına kömək edə bilər. Lakin, infrastruktur problemləri, təhlükəsizlik məsələləri bu sahənin inkişafını əngəlləyir. Dövlət dəstəyi, beynəlxalq əməkdaşlıq və davamlı layihələrin tətbiqi, Qarabağın kənd turizminin inkişafına müsbət təsir göstərə bilər.

***Ekoturizm***. Ekoturizm, təbii ərazilərə minimal təsirlə turistlərin maraq və zövqlərini təmin edərək, təbiətin qorunmasını və yerli əhalinin iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədi güdür. Qarabağda tətbiqi isə bu ərazilərin zəngin biomüxtəlifliyini qorumağa, tarixi və mədəniyyətin tanıdılmasına, regionun iqtisadi inkişafına töhfə verə bilər.

Qarabağın, dağlıq əraziləri, xüsusən Füzuli, Xocavənd, Kəlbəcər, Laçın, Qubadlı rayonlarının nadir flora və fauna növləri, mineral su bulaqları, qədim abidələri və daha çoxu ilə unikal ekoturizm məkanıdır. Qarabağın endemik nadir bitki və heyvan növləri, biomüxtəlifliyi, bu regionda olan yırtıcı quşlar, dağ keçiləri, vəhşi təbiət sevərlərin diqqətini cəlb edə biləcək maraqlı məqamlar arasındadır. Dağ çayları və kiçik göllər həm yerli əhali, həm də xarici turistlər üçün balıqçılıq, çay yürüşləri və təbiət müşahidəsi imkanları yaradır.

Ekoturizm həm Qarabağın təbiətini qorumağa kömək edə bilər, həm də yerli əhalinin iqtisadi rifahını yüksəldə bilər. Lakin ətraf mühitin çirklənməsi, infrastrukturun zəif olması Qarabağda ekoturizmin inkişafını ləngidə bilər. Ekoturizm fəaliyyəti nəticəsində Qarabağ bölgəsində ətraf mühitin çirklənməsi riskinin aşağı salınması üçün ekoloji tədbirlər görülməlidir. Ekoloji monitorinq və zibil idarəetməsi sistemlərinin tətbiqi, biomüxtəliflik qoruma tədbirləri, xüsusi qorunan təbiət zonalarının genişləndirilməsi kimi tədbirlər həyata keçirilməlidir. Bunlar bölgədə davamlı turizmin inkişafı üçün əhəmiyyət kəsb edir.

Turizm obyektləri və yolların yenilənməsi, ekoloji nəqliyyat vasitələrinin istifadəsi infrastruktur problemlərinin həllinə kömək edə bilər.

Ekoturizmin dayanıqlı formada inkişafı üçün Qarabağda bu mövzuya xüsusi diqqət yetirilməlidir. Ekoturizmlə bağlı təhsil proqramlarının genişləndirilməsi, ekoloji maarifləndirmə tədbirlərinin

keçirilməsi, təbiətin qorunmasına dair biliklərin artırılması regionun təbii ehtiyatlarını gələcək nəsillərə çatdırmaq üçün önəmlidir.

***Qastronomiya turizmi.*** Qastronomiya turizmi turistlərin bir regionun mətbəxi və yemək mədəniyyətini kəşf etməklə mədəni təcrübələr əldə etmələrini təmin edir. Bu turizm növü yeməklərlə yanaşı, qida istehsalı, bazarlar və kənd təsərrüfatı ilə bağlı təcrübələri də əhatə edir.

Qarabağda hazırlanan yeməklər, bu bölgənin tarixindəki müxtəlif mədəniyyətlərin təsirini özündə əks etdirir. Qarabağın yemək reseptləri və qida məhsulları ərazinin coğrafi xüsusiyyətlərinə və təbiət şəraitinə uyğun olaraq formalaşıb. Qarabağ mətbəxi Azərbaycan mətbəxinin unikal qolu kimi qəbul edilir. Onun bənzərsiz yemək növləri turistlərə fərqli bir təcrübə təqdim edir. Regionda ən məşhur olan yeməklərə dolma, dovğa, qutab, mərciməkli aş və pitini misal göstərmək olar. Qastranomiya turizminin inkişaf etdirilməsi üçün Şuşa və ətrafı, Kəlbəcər, Laçın rayonlarında əlverişli imkanlar mövcuddur.

Şuşada ənənəvi mətbəxi təbliğ edən restoran və yemək festivalları təşkil etmək üçün əlverişli imkanlar var. Şuşa həm də tarixi bir mədəniyyət mərkəzi olduğu üçün, turistlər burada həm mədəniyyət, həm də qastronomiya təcrübəsi əldə edə bilərlər.

Kəlbəcər mineral su bulaqları ilə daha çox tanınır. Bu bölgədə xüsusi olaraq hazırlanan qida məhsulları və mineral su ilə zəngin müalicəvi yeməklər turistlər üçün unikal bir təcrübədir. Ekoloji cəhətdən təmiz yemək növləri və qida məhsulları burada dayanıqlı qastronomiya turizminə imkan yaradır.

Laçın bölgəsində kənd təsərrüfatı məhsulları və təbii qida məhsulları ilə zəngin yemək təcrübələri turistlərə təqdim edilə bilər. Bu bölgədə ənənəvi üsullarla hazırlanan pendir, şor və bal kimi məhsullar turistlərə regionun unikal dadlarını tanımaq imkanı yaradır.

Qastronomiya turizminin qarşısında duran əsas problemlərdən biri regionda infrastrukturların yenilənməsi ehtiyacıdır. Bundan əlavə, turist sayının artması ilə ətraf mühitin çirklənmə riski də artır. Bu sahənin inkişafı üçün turizm qaydalarının müəyyənləşdirilməsi və regionun biomüxtəlifliyinin qorunması əsasdır.

## Qarabağda turizmin inkişafı problemləri və perspektivlər

Azərbaycanın turizm sektoru son illərdə inkişaf edərək ölkə iqtisadiyyatında əhəmiyyətli rol oynamağa başlamışdır. Turizm gəlirləri, həmçinin beynəlxalq sərgilərdə iştirak, yeni turist marşrutlarının yaradılması və xarici investorların cəlb edilməsi ilə artır. Ötən dövr ərzində ölkəyə gələn xarici qonaqların 2016-2023-cü illər üzrə inkişaf dinamikası aşağıdakı kimi olmuşdur.

**Cədvəl 1: Ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 2016-2023-cü illər üzrə dəyişmə dinamikası**

| S/N | İllər | Qəbul edilmiş turist sayı *milyon nəfər* | 2016-cı ilə nisbətən artma və ya azalma, %-lə |
|---|---|---|---|
| **1** | 2016 | 2 248,8 | - |
| **2** | 2017 | 2 696,7 | +19,9% |
| **3** | 2018 | 2 849,6 | +26,7% |
| **4** | 2019 | 3 170,4 | +40,9% |
| **5** | 2020 | 795,7 | -64,7% |
| **6** | 2021 | 791,8 | -64,8% |
| **7** | 2022 | 1602,3 | -29% |

| | | | |
|---|---|---|---|
| **8** | 2023 | 2085,8 | -7,2% |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.*

Cədvəl 1-dən göründüyü kimi Pandemiya dövründə Azərbaycana gələn xarici vətəndaşların sayında 2016-cı ilə nisbətən 65%-ə yaxın azalma baş vermişdir. Ən yüksək göstərici isə 2019-cu ildə qeydə alınmışdır. Son iki ilin artım dinamikası nikbinliyə əsas verir.

**Cədvəl 2: Ölkəyə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 2016-2023-cü illər üzrə xərclər dinamikası**

| **S/N** | **İllər** | **Ölkəyə gələn xarici qonaqların xərcləri, *milyon manat*** | **Əvvəlki ilə nisbətən artma və ya azalma, %-lə və ya dəfə** |
|---|---|---|---|
| **1** | 2016 | 1 411,3 | - |
| **2** | 2017 | 2 285,3 | +61,9% |
| **3** | 2018 | 2 661,6 | +16,5% |
| **4** | 2019 | 2 971,4 | +11,6% |
| **5** | 2020 | 414,7 | - 86,1% və ya 7,2 dəfə |
| **6** | 2021 | 492,6 | +18,8% |
| **7** | 2022 | 1 340,2 | +172,1% və ya 1,7 dəfə |
| **8** | 2023 | 2 439,2 | +82% |

***Mənbə:*** *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin statistik məlumatları əsasında müəlliflər tərəfindən tərtib edilmişdir.*

Cədvəl 2-də verilənlər onu göstərir ki, 2020 və 2021-ci illər bütün dünyada olduğu kimi Azərbaycanda da COVID-19 Pandemiyası ilə əlaqədar sərhədlərin bağlanması beynəlxalq səviyyədə gediş-gəlişin kəskin aşağı düşməsinə səbəb olmuş və nəticədə xərcləmələr də kəskin azalmışdır. Bununla yanaşı son iki ildə xərcləmələrdə müsbət dinamika müşahidə olunmuşdur.

Qarabağ regionunun turizm potensialının turizm dövrüyyəsinə cəlb edilməsi ilə yeni turizm marşurutları yaranacaq ki, bu da turizmin inkişaf dinamikasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərəcəkdir. Lakin, turizm potensialının mövcudluğu onun inkişafı üçün kifayət etmir, turizm potensialının turizm məhsuluna çevrilməsi üçün bir sıra strateji addımlar atılmalıdır.

Qarabağda turizmin inkişafı yolunda dayanıqlı inkişafı əngəlləyən bir çox problemlər mövcuddur. Bu problemlərin bəziləri aşağıdakılardır və elmi əsasda təhlil olunmalıdır:

- ✓ ***İnfrastruktur problemləri***. Qarabağda müasir turizm infrastrukturunun olmaması, regiona gələn turistlər üçün ciddi bir əngəl yaradır. Yollar, mehmanxanalar, istirahət mərkəzləri və digər turizm obyektlərinin inkişaf etdirilməsi üçün böyük investisiyalar tələb olunur (Əlirzayev, 2010).
- ✓ ***Ətraf mühitin çirklənməsi***. Regionda bərpa prosesi ilə paralel olaraq ətraf mühitin qorunması vacibdir. Turizmin inkişafı ilə ətraf mühitin çirklənməsi riski artır, buna görə də xüsusi ekoloji qaydalar tətbiq olunmalıdır.
- ✓ ***Təhlükəsizlik məsələləri***. Qarabağda sülh və təhlükəsizlik vəziyyətinin sabitləşdirilməsi turizmin inkişafı üçün çox önəmlidir. Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə

qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir (https://president.az/az/articles/view/50474).

✓ ***Yerli icmanın turizmə integrasiyası***. Qarabağda dayanıqlı turizmin inkişafı üçün yerli icmaların turizm sahəsinə cəlb edilməsi vacibdir. Onların turizm prosesinə aktiv dəstəyi və iştirakçılığı olmadan dayanıqlı inkişaf mümkün deyil.

Qarabağda dayanıqlı turizmin inkişafı üçün aşağıdakı istiqamətlərdə infrastrukturun qurulmasını təklif edirik:

- Nəqliyyat şəbəkəsinin yaxşılaşdırılması Qarabağ regionuna giriş üçün mövcud yolların genişləndirilməsi və yenilərinin inşası mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Şuşa və Kəlbəcər kimi ərazilərə daha rahat və təhlükəsiz nəqliyyat imkanlarının yaradılması turist axınını artıracaqdır.
- Xarici turistlər üçün müasir avtobus xidmətləri, qatar və ya sürətli nəqliyyat vasitələrinin təmin edilməsi Qarabağ regionunun turizm cəlbediciliyini artıracaqdır.
- Qarabağda turizm üçün otel və qonaq evləri çatışmazlığı problem olaraq qalır. Xüsusilə yüksək tələbat dövrlərində müasir tələblərə cavab verən otellərin sayı artırılmalıdır.
- Qarabağın təbii zənginliklərini daha dərindən yaşamaq üçün kamp sahələrinin və ekoloji dostluq təmin edən qonaqlama məkanlarının qurulması vacibdir. Ekoturizmin inkişafı üçün belə məkanlar böyük əhəmiyyət daşıyır.
- Qarabağda turistləri məlumatlandırmaq, onların ehtiyaclarını qarşılamaq və ziyarətçilərə bələdçilik etmək üçün informasiya mərkəzləri qurulmalıdır. Bu mərkəzlərdə regionun turistik məkanları, abidələri və xidmətləri barədə məlumat verilməli, xəritələr, broşürlər və bələdçilər təqdim edilməlidir.
- Rəqəmsal infrastruktura investisiya qoyularaq, Qarabağda turizm üçün mobil tətbiqlər, internet xidmətləri, və onlayn bələdçilər təmin edilməlidir. Bu həm yerli turistlərin, həm də xarici ziyarətçilərin rahat hərəkət etməsini asanlaşdıracaq.

**Nəticə**

Qarabağ regionunda dayanıqlı turizmin inkişafı üçün zəngin potensial mövcuddur. Turizm potensialını turizm resursuna çevirmək üçün, müasir infrastrukturun qurulması**,** müasir marketinq strategiyalarının tətbiq edilməsi, turizm sahəsində ixtisaslı kadrların hazırlanması üçün təhsilin İnkişafı, regionlararası əməkdaşlıq, bu sahədə qarşıya çıxan problemlərin həlli üçün dövlət dəstəyi, özəl sektorun iştirakı və yerli icmaların inteqrasiyası vacibdir.

Qarabağ regionunda turizmin dayanıqlı inkişafı, bölgənin müharibədən sonrakı bərpası və iqtisadi inkişafı üçün əhəmiyyətli bir sahədir. Lakin bu sahədə qarşıya çıxan infrastruktur problemləri, mədəni və təbii irsin zədələnməsi, ekoloji təsirlər və yerli əhalinin turizm sektorunda maarifləndirilməsi kimi məsələlər turizmin inkişafını əngəlləyir. Bu problemlərin həlli üçün kompleks yanaşmalar tətbiq edilməli, həmçinin turizmin dayanıqlı inkişafı prinsipləri nəzərə alınmalıdır. Bu məqalədə təklif olunan strategiyalar və həll yolları, Qarabağda dayanıqlı turizmin inkişafını təmin etmək üçün istifadə edilə bilər.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi 2016-cı il 6 dekabr. https://president.az/az/articles/view/22134 (12.11.2024).

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. 2021-ci il 2 fevral. https://president.az/az/articles/view/50474 (12.11.2024).

3. Əlirzayev Ə.Q. (2010) "Turizm iqtisadiyyatı və idarə edilməsi", İqtisad Universiteti nəşriyyatı, Bakı. 494 s.

4. Məmmədov E.Q., (2013). "Azərbaycanda turizm bazarının formalaşması və idarə olunmasının regional xüsusiyyətləri". Monoqrafiya. Gənclik nəşriyyatı, Bakı. 172 səh.

5. https://www.stat.gov.az/source/tourism/

6. https://respublika-news.az/news/1624684922-kelbecerin-istisu-kompleksi-sefa-menbeyidir

## Qida Sənayesində Dayanıqlı Metodların İstifadəsi Və Bu Üsulların Yaşıl İqtisadiyyata Verdiyi Töhfələr

**Fəqan Vidadi oğlu Abbaszadə**
**Bakı Dövlət Universitetinin doktorantı**
**feqan.abbaszade@mail.ru**

**Xülasə**

Qida sənayesi dünyanın ən mühüm sahələrindən biri olmaqla yanaşı, həm də ətraf mühitə ən çox təsir edən sahələrdən biridir. Qida istehsalı prosesi torpaqların eroziyası, meşələrin qırılması, su ehtiyatlarının tükənməsi, istixana qazlarının emissiyası və biyoçeşidliyin itirilməsi kimi ciddi ekoloji problemlərə səbəb ola bilər. Buna görə də qida sənayesində dayanıqlı metodların istifadəsi yaşıl iqtisadiyyatın inkişafında böyük rol oynayır. Dayanıqlı metodlar, resursların davamlı istifadəsini təmin etməklə, ekoloji tarazlığı qorumağa və qlobal iqlim dəyişikliklərinin təsirlərini azaltmağa yönəlmişdir. Qida sənayesi, insanların həyati ehtiyaclarından biri olan qidanı təmin edən əsas sahələrdən biridir. Ancaq bu sektor eyni zamanda ətraf mühitə böyük təsir göstərir və qlobal iqlim dəyişikliklərinə səbəb ola biləcək emissiyaların yaranmasına da töhfə verir. Bu baxımdan, yaşıl iqtisadiyyat və dayanıqlı inkişaf anlayışları çərçivəsində qida sənayesinin transformasiyası vacibdir. Yaşıl iqtisadiyyat, ekoloji cəhətdən davamlı iqtisadi fəaliyyəti təşviq etməklə təbii resursların səmərəli istifadə edilməsinə yönəldilmişdir və qida sənayesinin də bu çərçivədə verdiyi töhfələr son dərəcə önəmlidir. Bu yazıda qida sənayesində dayanıqlı metodların istifadəsinin əsas aspektlərinə və bu metodların yaşıl iqtisadiyyata verdiyi töhfələrə geniş şəkildə nəzər salacağıq.

**JEL Codes L6,L66**

**Açar sözlər:** Qida sənayesi, ətraf mühit, ekoloji problemlər

**Summary**

The food industry is one of the most important sectors in the world, but it is also one of the sectors with the greatest impact on the environment. The process of food production can cause serious environmental problems such as soil erosion, deforestation, depletion of water resources, emission of greenhouse gases and loss of biodiversity. Therefore, the use of sustainable methods in the food industry plays a major role in the development of the green economy. Sustainable methods are aimed at

maintaining the ecological balance and reducing the effects of global climate changes by ensuring the sustainable use of resources. However, this sector also has a huge impact on the environment and contributes to emissions that can cause global climate change. In this regard, it is important to transform the food industry within the framework of green economy and sustainable development concepts. The green economy is focused on the efficient use of natural resources by promoting ecologically sustainable economic activity, and the contributions of the food industry in this context are extremely important. In this article, we will take a broad look at the main aspects of the use of sustainable methods in the food industry and the contribution of these methods to the green economy.

**Keywords:** Food industry, environment, ecological problems

**Giriş**

Tədqiqatın mövzusunun aktuallığı bundan ibarətdir ki, qida sənayesində dayanıqlı metodların istifadəsi və bu üsulların yaşıl iqtisadiyyata verdiyi töhfələr geniş bir mövzu olub, həm ekoloji, həm də iqtisadi baxımdan əhəmiyyətli bir məsələdir. Yaşıl iqtisadiyyat, iqtisadi inkişafın ekoloji məhdudiyyətlərə uyğun şəkildə davam etdirilməsini nəzərdə tutur və burada qida sənayesinin rolu böyükdür. Qida sənayesinin əsasını kənd təsərrüfatı təşkil edir. Dayanıqlı kənd təsərrüfatı metodlarının tətbiqi, ekosistemlərin qorunması, torpaq məhsuldarlığının artırılması və təbii resursların qorunması məqsədini güdür.

Tədqiqatın əsas məqsədi qida sənayesində dayanıqlı istehsal metodlarının tətbiqini araşdırmaq və bu metodların yaşıl iqtisadiyyatın inkişafına necə töhfə verdiyini müəyyən etməkdir. Tədqiqatın vəzifələri:

- Müxtəlif dayanıqlı istehsal texnologiyalarının, o cümlədən, ekoloji təmiz texnologiyaların və təkrar emal proseslərinin öyrənilməsi. Tullantıların mənbədən istifadəsini minimuma endirən və təkrar emal üçün imkan yaradan yanaşmaların təhlili.
- Qida sənayesində dayanıqlı metodların tətbiqinin iqtisadi səmərəliliyi artırmaq və yeni iş yerlərinin yaranması kimi yaşıl iqtisadiyyata verə biləcəyi potensial töhfələri müəyyən etmək.

Tədqiqatın metodologiyası isə qida sənayesində çalışan mütəxəssislər və ekoloji təsir sahəsində ekspertlərlə müsahibələr aparılmışdır. Bu müsahibələrdə sənayenin mövcud problemləri, dayanıqlılıq tədbirləri və yaşıl iqtisadiyyata təsiri müzakirə edilmişdir.

Tədqiqat zamanı dayanıqlı metodların qida sənayesində tətbiqi və onların yaşıl iqtisadiyyata verdiyi töhfələr araşdırılarkən müəyyən məhdudiyyətlər yarana bilər. Dayanıqlı metodların effektivliyini və yaşıl iqtisadiyyata təsirini dəqiq ölçmək üçün lazımi məlumatların toplanması çətin ola bilər. Xüsusilə, qlobal və regional məlumatların müxtəlifliyi, mənbələrin məhdud olması və məlumatların dəqiq olmaması tədqiqatın nəticələrini təsirləndirə bilər. Bu tədqiqat müəyyən bir bölgə və ya ölkə səviyyəsində məhdudlaşa bilər.

Qida sənayesi, dünya əhalisinin artan qida tələbatını ödəmək və eyni zamanda təbii resursların qorunmasını təmin etmək baxımından böyük əhəmiyyət kəsb edir. Bununla belə, qida sənayesinin ətraf mühitə təsiri artdıqca, dayanıqlı metodlar və texnologiyaların tətbiqi daha vacib hala gəlir. Dayanıqlı qida istehsalı yalnız ekoloji tarazlığı qorumaqla qalmır, həm də yaşıl iqtisadiyyatın inkişafına böyük töhfələr verir.

**Dayanıqlı qida istehsalının tərifi və onun qlobal ekoloji problemlərin həllinə töhfəsi**

İnsan əhalisinin artması və həyat tərzinin dəyişməsi ilə əlaqədar olaraq qida tələbatı da artmaqdadır. Bu, kənd təsərrüfatı və qida istehsalı ilə əlaqəli olan ekoloji problemləri dərinləşdirir. Ancaq bu artan tələbatın ekosistemə daha az ziyan vuran yollarla təmin edilməsi qaçılmazdır. Bu nöqtədə "dayanıqlı qida istehsalı" anlayışı ön plana çıxır. Dayanıqlı qida istehsalı, ekosistemlərin və təbii resursların uzunmüddətli qorunmasını təmin edən və eyni zamanda qida təhlükəsizliyini təmin edən bir yanaşmadır. Yəni, gələcək nəsillərin öz ehtiyaclarını ödəyə bilmələri üçün indiki istehsal metodlarının təbii resursları tükətmədən, ətraf mühiti çirkləndirmədən və sosial bərabərliyi pozmadan inkişaf etdirilməsi əsas prioritetlərdəndir. (Nəsimi Kamalov, 2011)

Dayanıqlı qida istehsalı, həm ekoloji, həm də sosial və iqtisadi baxımdan dayanıqlı olan qida istehsalı metodları ilə xarakterizə edilir. Bu, torpaq, su, hava kimi təbii resursların qorunması, bərpaedilməsi və səmərəli istifadəsini əhatə edir. Bununla yanaşı, dayanıqlı qida istehsalı sağlam qida məhsullarının ədalətli və bərabər şəkildə təmin edilməsi, kənd yerlərinin inkişafı və fermerlərin iqtisadi vəziyyətinin yaxşılaşdırılması kimi sosial və iqtisadi məqsədləri də nəzərdə tutur.

Dayanıqlı qida istehsalı təkcə kənd təsərrüfatı məhsuldarlığını artırmaq deyil, həm də qlobal ekoloji problemlərin həllinə böyük töhfə verməklə ekosistemlərin uzunmüddətli qorunmasını təmin edir. Bu yanaşma, təbii resursların səmərəli istifadəsi, biomüxtəlifliyin qorunması və qida təhlükəsizliyinin təmin edilməsi kimi əsas aspektlərdə tarazlıq yaratmağa çalışır. Yalnız belə bir sistem, həm cari nəsillərin ehtiyaclarını qarşılaya bilər, həm də gələcək nəsillərin qida təhlükəsizliyini və təbii mühitini təmin edə bilər. Bu səbəbdən dayanıqlı qida istehsalı qlobal ekoloji problemlərin həllində əsas strategiyalardan biri olaraq qalır.

**Qida sənayesində dayanıqlı metodların istifadəsi**

Dayanıqlı qida istehsalının əsasında torpaq resurslarının qorunması dayanır. Regenerativ kənd təsərrüfatı metodları, torpaq səthini qoruyaraq, torpağın məhsuldarlığını artırmaq və karbon qazını torpağa geri qaytarmaq məqsədi daşıyır. Regenerativ kənd təsərrüfatı (ingiliscə: Regenerative Agriculture) torpağın sağlamlığını bərpa etməyi və təbii ekosistemləri gücləndirməyi hədəfləyən kənd təsərrüfatı metodlarının toplusudur. Bu yanaşma ənənəvi kənd təsərrüfatından fərqli olaraq, sadəcə məhsul əldə etməyə fokuslanmır, həm də torpağın məhsuldarlığını bərpa etmək, ekosistemlərin davamlılığını təmin etmək və ətraf mühitə ziyan vermədən əkinçilik etmək məqsədi daşıyır. Bu metodlar arasında şumsuz əkinçilik sistemi (“sıfır becərmə”), örtük bitkilərinin istifadəsi və əkin rotasiyası kimi üsullar yer alır. Şumsuz əkinçilik sistemi torpağın işlənməsini minimuma endirərək eroziyanı və karbon emissiyalarını azaldır. Örtük bitkiləri isə torpağın üzvi maddələrlə zənginləşdirilməsi və eroziyaya qarşı qorunmasını təmin edir.

Regenerativ kənd təsərrüfatı qlobal ərzaq istehsalını artırmaqla yanaşı, iqlim dəyişikliyinin qarşısını almaqda da əhəmiyyətli rol oynayır. Çünki bu metodlar torpaqda karbonun saxlanılmasına kömək edir və bu da istixana qazlarının miqdarını azaldır. (ARDSK, 2003)

Qida sənayesində su resurslarının səmərəli istifadəsi vacib bir məsələdir, çünki su qıtlığı bir çox bölgələrdə artıq ciddi bir problem halına gəlib. Dayanıqlı metodlar suyun israf edilməsinin qarşısını almaq və daha az su ilə yüksək məhsul əldə etmək üçün müxtəlif texnologiyaları təklif edir. Damcı suvarma kimi suvarma sistemləri bu istiqamətdə ən səmərəli həll yollarından biridir. Bu texnologiya ilə bitkilər suyu birbaşa köklərə alır və bu da həm su israfını, həm də suyun buxarlanmasını azaldır.

Bundan əlavə, suyun təkrar istifadəsi və yağış sularının toplanması kimi üsullar da qida istehsalında su ehtiyatlarının idarə edilməsində mühüm rol oynayır. Bu üsullar, xüsusilə də quraq bölgələrdə suyun daha effektiv istifadəsini təmin edir və kənd təsərrüfatının davamlılığını artırır.

Qida sənayesində enerji səmərəliliyi həm iqtisadi, həm də ekoloji baxımdan böyük əhəmiyyət kəsb edir. Fosil yanacaqların istifadəsi nəticəsində yaranan karbon emissiyaları iqlim dəyişikliyinin əsas səbəblərindən biridir. Buna görə də, qida istehsalında alternativ enerji mənbələrindən istifadənin artırılması vacibdir. Günəş enerjisi, külək enerjisi və bioenerji kimi təmiz enerji mənbələri qida sənayesində geniş tətbiq olunmağa başlayıb.

Məsələn, bəzi qida istehsalçısı şirkətlər öz istehsalat proseslərində günəş enerjisi panellərindən istifadə etməklə enerji səmərəliliyini artırmağa çalışır. Bundan başqa, qida tullantılarından bioenerji istehsalı həm tullantıların azalmasına, həm də enerji ehtiyaclarının ödənilməsinə kömək edir.

Qida tullantıları qlobal səviyyədə ciddi bir problem təşkil edir. Birləşmiş Millətlər Təşkilatının məlumatlarına görə, istehsal olunan bütün ərzağın təxminən üçdə biri ya israf edilir, ya da zərərli tullantı olaraq itirilir. Bu tullantılar həm qida təhlükəsizliyi üçün təhdid yaradır, həm də ətraf mühitə mənfi təsir edir. Tullantıların parçalanması nəticəsində böyük miqdarda metan qazı atmosferə yayılır ki, bu da iqlim dəyişikliyinin əsas faktorlarından biridir.

Qida sənayesində dayanıqlı metodların tətbiqi istixana qazlarının emissiyasını azaldaraq iqlim dəyişikliyinin qarşısını almaqda mühüm rol oynayır. Torpağın qorunması, su ehtiyatlarının səmərəli istifadəsi və alternativ enerji mənbələrinə keçid bu istiqamətdə əhəmiyyətli addımlardır. Bu, qlobal səviyyədə karbon izinin azalmasına və davamlı bir ekosistemin formalaşmasına kömək edir.

Dayanıqlı metodların əsas üstünlüyü resursların uzun müddətli istifadəsini təmin etməklə iqtisadi sabitliyi qorumaqdır. Torpağın məhsuldarlığını artırmaq, su resurslarını səmərəli istifadə etmək və təbii ehtiyatlardan daha az istifadə etməklə, istehsalçılar daha az sərmayə ilə daha çox məhsul əldə edə bilirlər. Bu, həm qida təchizatının davamlılığını təmin edir, həm də iqtisadi riskləri azaldır. Bu isə yoxsulluğun azalmasına və kənd təsərrüfatı icmalarının güclənməsinə kömək edir.

Dayanıqlı qida istehsalı kiçik fermerlərin və kənd təsərrüfatı icmalarının iqtisadi gücünü artırmaqla sosial ədaləti dəstəkləyir. Müştərilərin ekoloji təmiz məhsullara olan marağı artdıqca, dayanıqlı metodlarla istehsal olunan məhsulların bazar payı da genişlənir. Bu isə yaşıl iqtisadiyyatın inkişafını daha da sürətləndirir. Eyni zamanda, dayanıqlı istehsal metodlarına keçid edən şirkətlər həm öz maliyyə vəziyyətlərini yaxşılaşdırır, həm də istehlakçıların artan tələbatına cavab verirlər. (Pərviz Hacı Məmmədov, 2013)

Qida sənayesində dayanıqlı metodların tətbiqi, həm ətraf mühitin qorunmasına, həm də yaşıl iqtisadiyyatın inkişafına böyük töhfələr verir. Torpağın qorunması, su ehtiyatlarının səmərəli istifadəsi, enerji effektivliyi, qida tullantılarının azaldılması və ekoloji təmiz istehsal kimi metodlar qlobal ərzaq təchizatının davamlılığını təmin etməklə yanaşı, iqlim dəyişikliyinin qarşısının alınmasına da kömək edir. Yaşıl iqtisadiyyatın inkişafı və ekoloji dayanıqlığın təmin edilməsi üçün bu metodların geniş tətbiqi vacibdir. Beləliklə, qida sənayesi daha ekoloji və sosial ədalətli bir gələcəyə doğru addım ata bilər.

Qida sənayesinin əsasını kənd təsərrüfatı təşkil edir. Kənd təsərrüfatı fəaliyyəti torpaq, su və enerji resurslarına böyük yük gətirir. Lakin yaşıl iqtisadiyyata uyğunlaşdırılmış dayanıqlı kənd təsərrüfatı metodları ilə bu resursların israfının qarşısı alına bilər. Məsələn, orqanik kənd təsərrüfatı, genetik modifikasiya olunmamış məhsulların yetişdirilməsi, suyun səmərəli istifadəsi və ekoloji dost

gübrələrdən istifadə kimi praktikalardan ibarətdir. Bu metodlar təbii ekosistemləri qoruyur, torpağın münbitliyini saxlayır və kimyəvi tullantıların miqdarını azaldır.

Dayanıqlı kənd təsərrüfatının geniş yayılması qida sənayesinin karbon izini azaldır. Ənənəvi kənd təsərrüfatında istifadə edilən kimyəvi maddələr həm torpağa, həm də su mənbələrinə zərər verir və uzunmüddətli dövrdə qida təhlükəsizliyini təhdid edir. Dayanıqlı kənd təsərrüfatı isə bu mənfi təsirləri minimuma endirərək ekosistemlərin bərpasını təmin edir.

Qida tullantıları qlobal ekoloji problemlərdən biridir. Hər il milyonlarla ton qida məhv edilir və bunun nəticəsində həm resurslar israf olunur, həm də tullantılar ekoloji təsirlərə səbəb olur. Yaşıl iqtisadiyyatın əsas prinsiplərindən biri olan resurs səmərəliliyi, qida tullantılarının azaldılması və ya yenidən istifadəsini dəstəkləyir. Bu prosesdə qida sənayesi əsas rol oynayır, çünki bu sahədə təkmilləşdirilmiş logistika, anbar sistemləri və məhsul idarəetmə təcrübələri ilə tullantıların miqdarını əhəmiyyətli dərəcədə azaltmaq mümkündür.

Qida sənayesində fəaliyyət göstərən müəssisələr qida tullantılarının minimuma endirilməsi üçün müxtəlif yanaşmalar tətbiq edir. Məsələn, qida məhsullarının artıq hissələrinin kompost olaraq istifadəsi, bioyanacaq istehsalında istifadə edilməsi və ya sosial proqramlar vasitəsilə ehtiyacı olanlara paylanması kimi tədbirlər həyata keçirilir. Bu cür yanaşmalar həm tullantıların qarşısını alır, həm də ətraf mühitə müsbət təsir edir.

Qida sənayesində karbon izinin azaldılması yaşıl iqtisadiyyata mühüm töhfələr verir. Sənaye proseslərində karbon emissiyalarının azaldılması, nəqliyyat və logistika sistemlərində daha ekoloji cəhətdən təmiz variantların seçilməsi bu sahədə irəliləyişlərə səbəb olur.

Qida sənayesində enerji istehlakı əhəmiyyətli dərəcədədir və ənənəvi enerji mənbələrinin istifadəsi ətraf mühitə zərər verir. Yaşıl iqtisadiyyatın təşviqi ilə bir çox qida istehsalçıları bərpa olunan enerji mənbələrinə, xüsusilə günəş və külək enerjisinə yönəlirlər. Bu enerjilərdən istifadə edilməsi karbon emissiyalarını azaldır və qlobal iqlim dəyişikliyinə qarşı mübarizədə mühüm addım olur. (Nəsimi Kamalov, 2011)

Məsələn, günəş panelləri vasitəsilə qida fabrikləri öz elektrik enerjisi tələbatını ödəyə bilir və enerji asılılığını azaldırlar. Bundan əlavə, bəzi müəssisələr tullantılardan bioloji enerji əldə edərək enerji dövriyyəsini qapalı bir sistemə çevirirlər. Bu yanaşma, enerji və resursların səmərəli istifadəsini təmin edir və iqtisadi cəhətdən də faydalıdır.

Yaşıl iqtisadiyyatın əsas məqsədlərindən biri sıfır karbon izinə nail olmaqdır. Bu məqsədə nail olmaq üçün qida sənayesi müxtəlif səviyyələrdə fəaliyyət göstərir. Xüsusilə dairəvi iqtisadiyyat yanaşması çərçivəsində resursların yenidən istifadəsi və məhsulların həyat dövriyyəsinin uzadılması əsas rol oynayır. Dairəvi iqtisadiyyat modelində istehsal prosesi zamanı yaranan artıq resurslar və materiallar yenidən istifadəyə verilərək tullantıların həcmi azaldılır.

Qida istehsalında tətbiq olunan bu model eyni zamanda istehlakçıların da qida israfına qarşı daha şüurlu yanaşmalarını təşviq edir. Məsələn, qida məhsullarının qablaşdırılmasında təkrar emal olunan materialların istifadəsi, plastik istifadəni azaldır və ətraf mühitə daha az yük gətirir. Bununla yanaşı, sıfır karbonlu nəqliyyat sistemləri vasitəsilə məhsulların daşınması, ekoloji yükün azaldılmasına kömək edir.

Qida sənayesinin yaşıllaşdırılması həm də bioloji müxtəlifliyin qorunmasına yönəlik tədbirləri əhatə edir. Sənaye fəaliyyətləri çox vaxt ekosistemlərin məhvinə səbəb ola bilər, lakin dayanıqlı istehsal metodları ilə bu təsirlər minimuma endirilə bilər. Ekoloji dost üsullarla həyata keçirilən kənd təsərrüfatı

praktikaları torpaq eroziyasının qarşısını alır, təbii mühitləri qoruyur və nadir bitki və heyvan növlərinin yaşamaq şansını artırır. (Pushpam Kumar, 2018)

Sertifikatlı ekoloji məhsullar istehsal edən qida şirkətləri bu istiqamətdə önəmli addımlar atır. Orqanik və ekoloji sertifikatlar həm istehlakçılar arasında dayanıqlı məhsul istehlakını təşviq edir, həm də qida istehsalçılarının təbiətə olan öhdəliklərini gücləndirir. Bu sertifikatların yayılması ilə qida sənayesində təmiz, ekoloji cəhətdən təhlükəsiz və bioloji müxtəlifliyi qoruyan praktikalar artır.

Yaşıl iqtisadiyyatın inkişafında ictimaiyyətin dəstəyi çox vacibdir. Qida sənayesində fəaliyyət göstərən şirkətlər və təşkilatlar insanları dayanıqlı istehlak və istehsal prinsipləri barədə məlumatlandırmaq üçün müxtəlif kampaniyalar həyata keçirir. Bu kampaniyalar vasitəsilə insanlar daha ekoloji və etik istehlak seçimləri etməyə təşviq edilir.

Qida sənayesinin ekoloji təsirləri barədə maarifləndirmə, həmçinin istehlakçıları qida israfına qarşı həssas olmağa çağırır. Məsələn, bəzi supermarketlər artıq qalan qidaları daha aşağı qiymətlərlə təklif edərək qida israfını azaldırlar. Digər tərəfdən, qida sənayesinin müxtəlif aktorları tərəfindən həyata keçirilən şüurlandırma kampaniyaları həm də gənclər arasında davamlılıq mədəniyyətinin inkişafına kömək edir.

Qida sənayesindəki müəssisələr mütəmadi olaraq marketinq strategiyalarını nəzərdən keçirməli və istehlakçılarla effektiv şəkildə əlaqə saxlamalıdırlar. Bundan əlavə, məhsul innovasiyası və yeni bazar strategiyalarına genişlənmə də rəqabət üstünlüyü təmin edə bilər.

Qida sektorunda investisiyaların və səmərəlilik strategiyalarının kompleks şəkildə həll edilməsi bizneslərə daha davamlı rəqabət üstünlüyü təmin edə bilər. Bu strategiyalar təkcə qısamüddətli qazancların deyil, həm də uzunmüddətli uğurun və sənaye liderliyinin əsasını qoya bilər.

Qlobal ərzaq məhsullarının artmasına səbəb olan bu cür son hadisələr qiymətlərin görünməmiş həddə çatması "ərzaq böhranı" məsələsini gündəmə gətirdi. Dünya Bankı, BVF, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) bir-birinin ardınca verdiyi ərzaq böhranı xəbərdarlığı və builki Davos sammitinin əsas gündəm maddəsi kimi "ərzaq böhranının qarşısının alınması" başlığı, qida böhranı ilə bağlı artan narahatlığı beynəlxalq miqyasda açıq şəkildə ortaya qoyur. (Dusselier, M., Van de Voorde, M., 2020)

"2022 Qlobal Ərzaq Böhranı" adlı hesabata görə, 53 ölkədə təxminən 193 milyon insan regional münaqişələr, ekstremal hava şəraiti və Covid-19 epidemiyasının iqtisadi təsirləri səbəbindən 2021-ci ildə böhran və ya daha pis səviyyədə kəskin qida çatışmazlığı ilə üzləşib. Təəssüf ki, bu vəziyyətin iqlim böhranının təsirləri ilə növbəti illərdə daha da pisləşməsi gözlənilir. IPCC, qlobal istiləşmə səbəbindən qida sektorunda məhsuldarlığın normal səviyyədən 21% aşağı olduğunu müəyyən etdi.

Ümumi ərazinin az olmasına və kənd təsərrüfatında məşğul olanların sayının az olmasına baxmayaraq, təkcə daxili tələbatı deyil, digər ölkələrin də öz regionlarında tələbatını ödəyən ölkələrin uğur hekayələri diqqətimizi cəlb etmişdir. Mərmərə bölgəsinin demək olar ki, yarısına sahib olan Hollandiya və Belçika kimi ölkələr illik 95 milyard dollar və 44 milyard dollarlıq kənd təsərrüfatı ixracatında dünyanın ilk 10 ölkəsi arasındadır. (ARDSK, 2010)

Bununla belə kənd təsərrüfatı məhsuldarlığı baxımından böyük coğrafi çatışmazlıqlara malik olan İsrail, Sinqapur və İsveç kimi ölkələrin xaricdən ərzaq asılılığını azaltmaq üçün son illərdə böyük addımlar atdıqlarını görürük. Bu beş ölkə əkin sahələri və bu sektorda çalışan insanların sayı baxımından məhdud resurslara malik olsalar da, ərzaq istehsalını kifayət qədər səmərəli edə biliblər.

Məhsuldarlığın bu artımının açarı bu ölkələrin inkişaf etmiş sahibkarlıq ekosistemləridir ki, bu da yeni innovasiyaların həyata keçirilməsinə və genişlənməsinə imkan verir. O qədər ki, Qlobal Sahibkarlıq Şəbəkəsinin "AgTech" (Kənd təsərrüfatı texnologiyaları) sahəsində dünyanın startap ekosistemlərini müqayisə edən araşdırmasında Sinqapur, Stokholm, Amsterdam və Tel-Əviv kimi nisbətən kiçik şəhərlərin hər biri ilk sıralarda yer tapıb. Ərzaq böhranı dövründə aşağı kapitalla fəaliyyətə başlayan startapların, xüsusən də İsrail, Hollandiya və Sinqapur kimi ölkələrdə ümumi məhsuldarlığa verdiyi töhfənin görünməsi, bu sahədə çalışan startaplara verilən təşviq və maliyyənin sürətlə artmasına səbəb olmuşdur.

Qida sənayesinin yaşıl iqtisadiyyata verdiyi töhfələr, təkcə ətraf mühitin qorunması ilə məhdudlaşmır. Bu proses həm də qlobal miqyasda sosial və iqtisadi inkişafı dəstəkləyir. Dayanıqlı kənd təsərrüfatı, tullantıların azaldılması, bərpa olunan enerjinin istifadəsi və dairəvi iqtisadiyyat kimi yanaşmalar qida istehsalı və istehlakında inqilabi dəyişikliklər yaradır. Qida sənayesinin bu istiqamətdə davamlı inkişafı, ekoloji problemlərin həllində və iqlim dəyişikliyinə qarşı mübarizədə vacib rol oynayır.

**Qida sənayesinin "yaşıl iqtisadiyyat" modellərində rolu və əhəmiyyəti**

İqlim dəyişikliyi, təbii ehtiyatların tükənməsi və ekosistemlərin məhvi dünya miqyasında əhəmiyyətli narahatlıqlar doğurur. Bu problemlərin öhdəsindən gəlmək üçün dünya iqtisadiyyatları yaşıl iqtisadiyyat modellərinə keçid etmək məcburiyyətindədirlər. Yaşıl iqtisadiyyat modeli, ekoloji davamlılığı iqtisadi inkişafa inteqrasiya etməyi hədəfləyir və bərpa olunan enerjilərdən istifadəni, ekoloji cəhətdən təmiz istehsal proseslərini təşviq edir. Bu modellərdə qida sənayesinin rolu xüsusilə mühüm əhəmiyyət daşıyır, çünki qida istehsalı və istehlakı təbiətə təsir göstərən əsas faktorlardan biridir.

Qida sənayesi dünya iqtisadiyyatında əhəmiyyətli yer tutur və birbaşa ətraf mühitə təsir edir. Qida istehsalı prosesi torpaq, su və enerji kimi təbii ehtiyatların geniş şəkildə istifadə olunmasını tələb edir. Kənd təsərrüfatı sektoru istixana qazlarının ən böyük mənbələrindən biridir və torpaq istifadəsi, suyun çirklənməsi, meşələrin qırılması kimi ekoloji problemlərə səbəb ola bilər.

Qida sənayesində ən böyük problemlərdən biri istixana qazı emissiyalarıdır. Heyvandarlıq sənayesi, xüsusilə maldarlıq, yüksək səviyyədə metan emissiyası ilə bağlıdır. Bu da iqlim dəyişikliyinə birbaşa təsir edir. Eyni zamanda, torpaq istifadəsi ilə bağlı dəyişikliklər, məsələn, kənd təsərrüfatı üçün meşələrin qırılması, karbon qazının atmosferə buraxılmasına səbəb olur.

Bundan əlavə, qida istehsalında su istifadəsi də əhəmiyyətlidir. Kənd təsərrüfatında istifadə olunan su ehtiyatlarının 70%-ə qədəri suvarma məqsədilə istifadə olunur və bu da su qıtlığı kimi problemlərin yaranmasına səbəb olur. Kimyəvi gübrə və pestisidlərdən istifadə isə torpaq və su ekosistemlərini çirkləndirir. (Dusselier, M., Van de Voorde, M., 2020)

Yaşıl iqtisadiyyat modellərində davamlı qida istehsalı və istehlak prinsipləri əsas yer tutur. Bu modellər, qida sənayesində ətraf mühitə təsirləri azaltmaq və resursların daha səmərəli istifadə edilməsini təşviq etməyi hədəfləyir.

Davamlı qida istehsalı, torpaq, su və enerjidən daha səmərəli istifadə etməklə təbiətə zərəri minimuma endirməyi nəzərdə tutur. Buraya həmçinin bərpa olunan kənd təsərrüfatı texnologiyalarının tətbiqi, suvarma sistemlərinin təkmilləşdirilməsi və ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi

daxildir. Bununla yanaşı, heyvandarlıq sənayesində daha az ekoloji yükə malik istehsal üsulları, məsələn, alternativ zülal mənbələrinin təşviqi (bitki mənşəli zülal istehsalı və ya həşəratlardan istifadə) nəzərdə tutulur.

Eyni zamanda, qida istehlakı da davamlı olmalıdır. Məsələn, yerli və mövsümi məhsullardan istifadə, qida zəncirində enerji və nəqliyyatın miqdarını azaltmaqla ekoloji təsirləri azalda bilər. Qida israfının qarşısının alınması da mühüm bir addımdır, çünki qida tullantıları həm təbii resursların israfına, həm də tullantıların çürüməsi nəticəsində istixana qazlarının artmasına səbəb olur.

Qida tullantıları qlobal miqyasda ciddi problemlərdən biridir. Hər il dünya miqyasında istehsal edilən qidanın təxminən üçdə biri tullantıya çevrilir. Bu, təkcə iqtisadi itkilərlə deyil, həm də ətraf mühitə böyük təsirlərlə əlaqəlidir. Tullantıya çevrilən qida istehsalında istifadə olunan su, torpaq və enerji kimi resurslar boşa gedir, həmçinin qida tullantıları çürüdükcə atmosferə metan qazı buraxılır ki, bu da iqlim dəyişikliyini sürətləndirir.

Yaşıl iqtisadiyyat modelində qida tullantılarının azaldılması mühüm prioritetlərdən biridir. Bunun üçün əsas yanaşmalardan biri qida zəncirinin müxtəlif mərhələlərində (istehsal, paylama və istehlak) israfın qarşısını almaqdır. Məsələn, istehsal mərhələsində məhsul itkisini azaltmaq üçün texnologiyaların təkmilləşdirilməsi, saxlama şəraitinin yaxşılaşdırılması və məhsulun optimal şəkildə istifadəsi üçün təkrar emal texnologiyalarının tətbiqi vacibdir.

İstehlak səviyyəsində isə daha səmərəli istehlak mədəniyyəti formalaşdırmaq vacibdir. İnsanlar qida tullantılarının ətraf mühitə və iqtisadiyyata təsirləri barədə məlumatlandırılmalı və qida israfının qarşısını almağa təşviq olunmalıdırlar. Məsələn, supermarketlərdə məhsulların son istifadə tarixini keçirməmək üçün "ağıllı" təkliflər və ya yerli qida paylama proqramları tətbiq oluna bilər. (Dusselier, M., Van de Voorde, M., 2020)

Qida sənayesində yaşıl iqtisadiyyat modellərinin tətbiqi üçün bərpa olunan enerji mənbələrinə keçid vacibdir. Ənənəvi qida istehsalı metodları adətən yüksək enerji tələbatına malikdir və bu enerji ehtiyacları adətən fosil yanacaqlarla qarşılanır. Lakin bərpa olunan enerji mənbələri, məsələn, günəş, külək və bioenerji, qida sənayesində enerji ehtiyaclarını daha ekoloji cəhətdən təmiz şəkildə təmin edə bilər.

Qida sənayesinin yaşıl iqtisadiyyat modelinə keçidində dövlətlərin və beynəlxalq təşkilatların rolu mühüm əhəmiyyət kəsb edir. Qanunvericilik və politika alətləri vasitəsilə davamlı qida istehsalı və istehlakı təşviq edilə bilər. Dövlətlər qida sənayesində ekoloji standartların tətbiqini gücləndirərək, tullantıların idarə olunması, enerji səmərəliliyi və resursların qorunması kimi sahələrdə tədbirlər görə bilərlər.

Hökumətlər həmçinin yaşıl texnologiyalara və davamlı kənd təsərrüfatına investisiyaları təşviq etmək üçün vergi güzəştləri, subsidiyalar və digər maliyyə alətlərindən istifadə edə bilərlər. Beynəlxalq səviyyədə isə BMT və digər beynəlxalq qurumların yaşıl iqtisadiyyatın inkişafını dəstəkləyən proqramları mühüm rol oynayır. (Dusselier, M., Van de Voorde, M., 2020)

Qida sənayesinin yaşıl iqtisadiyyat modellərində rolu olduqca vacibdir, çünki bu sektor təbiətə və iqlimə ən çox təsir göstərən sahələrdən biridir. Davamlı istehsal və istehlak prinsipləri, qida tullantılarının azaldılması və bərpa olunan enerji mənbələrinin tətbiqi kimi yanaşmalar qida sənayesində ətraf mühitin qorunmasını təmin edə bilər. Bu yolla, qida sənayesi iqtisadi inkişafın və ekoloji davamlılığın harmonik şəkildə bir araya gəldiyi yaşıl iqtisadiyyat modelinin əsas oyunçularından biri ola bilər. Hökumətlər, beynəlxalq təşkilatlar və özəl sektor bu istiqamətdə

əməkdaşlıq etməli və qida istehsalının daha ekoloji və sosial cəhətdən ədalətli modellərə keçidini təmin etməlidirlər.

**Nəticə**

Dayanıqlı metodlar həm qida istehsalçılarının uzunmüddətli fəaliyyətini təmin edir, həm də ətraf mühitin qorunmasına və insanların daha təmiz, təhlükəsiz qidalarla təmin edilməsinə kömək edir. Bu, yaşıl iqtisadiyyata böyük töhfələr verir, çünki qida istehsalı və istehlakı qlobal karbon emissiyalarının əhəmiyyətli bir hissəsini təşkil edir.

Qida sənayesində dayanıqlı metodların geniş tətbiqi həmçinin iqtisadiyyatda innovasiyaları təşviq edir, yeni iş yerlərinin yaranmasına səbəb olur və iqtisadi inkişafın dayanıqlılığını təmin edir.

Dayanıqlı metodlar qida sənayesində ətraf mühitə mənfi təsirləri azaltmaqla yanaşı, resursların daha səmərəli istifadəsinə və daha sağlam iqtisadi inkişaf modellərinə səbəb olur. Bu üsulların geniş yayılması yaşıl iqtisadiyyatın inkişafında vacib addımlardan biridir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, “Azərbaycan Rəqəmlərdə 2003”.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, “Azərbaycanın Statistik Göstəriciləri 2010”.
3. Dusselier, M., Van de Voorde, M., "The Circular Economy in the Food Industry: A Focus on the Transformation of Organic Waste into Bio-based Products", 2020, s.49-53
4. Nəsimi Kamalov, “Azərbaycan Respublikasında Yeyinti Məhulları Bazarında Market inqin Təşkilinin Təkmilləşdirilməsi İstiqamətləri”, Doktora tezi, Bakü, 2011, s.109-120
5. Pərviz Hacı Məmmədov, “Azərbaycanın Yeyinti Sənayesində Çeşid Siyasətinin İdarə Edilməsinin Təkmilləşdirilməsi. Türkiyə-Azərbaycan Müştərək Müəssisələri Timsalında” Yüksek Lisans tezi, Bakü 2013, s.75-80
6. Pushpam Kumar, "The Economics of Ecosystems and Biodiversity in Agriculture and Food", 2018, s.29-35


## Sosial yönümlü iqtisadiyyatın dayanıqlı inkişaf strategiyasının formalaşdırılmasına konseptual-metodoloji yanaşma


**dosent Əlirza İsrafil oğlu Məmmədov**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),**
**alirza.mammadov@unec.edu.az,**
**doktorant, Cavid Əlirza oğlu Məmmədov**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),**
**jamammadov@deloitte.az**



**Xülasə**

Tədqiqat probleminin seçilməsi, onun məqsəd və vəzifələrinin müəyyən edilməsi dayanıqlı inkişaf paradiqmasının konseptual və metodoloji əsaslarının daha da təkmilləşdirilməsi, real təhlükələrin və

perspektivli imkanların öyrənilməsi və onun həyata keçirilməsi, eləcə də dayanıqlı inkişafın modelləşdirilməsinin mütərəqqi üsul və vasitələrinin arsenalından kompleks istifadə, xüsusən də Azərbaycan Respublikasında sistemli təhlili ehtiyacı ilə diktə olunur. Odur ki, tədqiqatın məqsədi olaraq müasir dövrdə ölkəmizin sosial yönümlü iqtisadiyyatında dayanıqlı inkişaf strategiyasının formalaşdırılması üçün konseptual-metodoloji əsasların dəqiqləşdirilməsi, real təhlükələrin və perspektivli imkanların öyrənilməsi, habelə dayanıqlı inkişaf modelinin qurulmasında mütərəqqi üsul və vasitələrdən səmərəli istifadə yollarının üzə çıxarılaraq əsaslandırılması müəyyən olunmuşdur. Tədqiqatın metodu kimi konseptual və metodoloji yanaşmalardan, müqayisə və məntiqi ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

Məqalədə dayanıqlı inkişaf paradiqmasında ekoloji imperativlə iqtisadi imperativin qarşılıqlı funksional əlaqəsi sübut olunmuş, Beynəlxalq Minilliyin İnkişaf Məqsədləri və beynəlxalq indekslər toplusu elmi-nəzəri baxımdan şərh olunmuş və Azərbaycan Respublikanın dayanıqlı inkişaf strategiyasının formalaşdırılması istiqamətləri müəyyən edilərək əsaslandırılmışdır.

Azərbaycan Respublikasının dayanıqlı inkişaf strategiyasının formalaşmasına və onun idarə edilməsinə baxılan inteqral yanaşmanın konseptual müddəalarının səmərəli həyata keçirilməsi onun sosial, iqtisadi və ekoloji komponentlərinin sintezini nəzərdə tutur. Təklif olunan strategiyanın tətbiqi üzrə praktiki tövsiyələr son nəticədə Respublikanın investisiya cəlbediciliyinin artırılmasına, həyat keyfiyyətinin yaxşılaşdırılmasına, indiki və gələcək nəsillər üçün rahat həyat şəraitinin təmin edilməsinə yönəlmişdir.

**Açar sözlər:** dayanıqlı inkişaf strategiyası, sosial yönümlü iqtisadiyyat, ekoloji imperativ, iqtisadi imperativ.

**Summary**

Selection of the research problem, determination of its goals and objectives, further improvement of the conceptual and methodological foundations of the sustainable development paradigm, study of real threats and prospective opportunities and its implementation, as well as comprehensive use of the arsenal of progressive methods and tools of sustainable development modeling, especially in the Republic of Azerbaijan dictated by the need for analysis. Therefore, the purpose of the research is to specify the conceptual and methodological bases for the formation of a sustainable development strategy in the socially oriented economy of our country in the modern era, to study the real threats and prospective opportunities, as well as to reveal and substantiate the ways of effective use of progressive methods and tools in the establishment of a sustainable development model. Conceptual and methodological approaches, comparison and logical generalization methods were used as research methods.

In the article, the mutual functional relationship between the ecological imperative and the economic imperative in the paradigm of sustainable development is proven, the International Millennium Development Goals and a set of international indices are interpreted from a scientific-theoretical point of view, and the directions for the formation of the sustainable development strategy of the Republic of Azerbaijan are determined and substantiated.

The effective implementation of the conceptual provisions of the integrated approach to the formation of the sustainable development strategy of the Republic of Azerbaijan and its management involves the synthesis of its social, economic and ecological components. Practical recommendations on the implementation of the proposed strategy are ultimately aimed at increasing the investment

attractiveness of the Republic, improving the quality of life, and providing comfortable living conditions for current and future generations.

**Keywords:** sustainable development strategy, socially oriented economy, ecological imperative, economic imperative.

**Giriş**

Müasir dövr bir çox yeni amillərin, makroiqtisadi çağırışların və risklərin mövcudluğu ilə xarakterizə olunur ki, bu da qeyri-sabit dünya nizamına daxil olan milli iqtisadiyyatların gözlənilməz və qeyri-tarazlıq vəziyyətinə gətirib çıxarır. Bu şəraitdə iqtisadiyyatın keyfiyyətcə yüksəlişi və modernləşdirilməsi problemləri ilə bağlı bəşəriyyətin, ayrı-ayrı ölkələrin, ərazilərin və regionların gələcək inkişafı məsələləri xüsusi əhəmiyyət kəsb edir. Qloballaşma və regionalizmin mürəkkəb paralel prosesləri var ki, onlar tez-tez antaqonist formalar alır, dövlətlərin siyasi qərarlarında konsensusa nail olmaq, böhranlı iqtisadi hadisələrin neytrallaşdırılması istiqamətində onların səmərəli əlaqələndirilmiş fəaliyyəti, ölkədaxili problemlərin təsirinin azaldılması və ayrı-ayrı milli iqtisadiyyatlar üzrə beynəlxalq xarakter daşıyan iqtisadi problemlərə təsirinin azaldılması vəzifəsini qoyur. Onların həyata keçirilməsi XXI əsrdə bəşəriyyətin dayanıqlı inkişafının qlobal paradiqmasının əsasını təşkil edən iqtisadiyyatın inkişafı üzrə uzunmüddətli strategiyanın hazırlanmasının tərkib hissəsi kimi dərin elmi təhlil, planlaşdırma və proqnozlaşdırma ehtiyacını nəzərdə tutur.

Dayanıqlı inkişaf paradiqmasını haqlı olaraq XX-XXI əsrlərin ən aktual, üzvi və populyar konsepsiyası hesab etmək olar. Bu konsepsiyanın elmi və praktik əsaslarının aparıcı tədqiqatçıları onun fundamental yanaşmalarını, prinsiplərini və postulatlarını belə qiymətləndirirlər. Akademik A.D. Ursul Akademiyanın müxbir üzvü N.S. Qasımov ilə həmrəydir. "...nə təbii, nə də sosial elmlərdə bəlkə də heç bir başqa elmi fikir əvvəllər belə geniş ictimai rezonansa malik olmamışdır" (Касимов, 2006; Урсул, 2013 ).

Məlum olduğu kimi, dayanıqlı inkişaf paradiqması iki aparıcı sahə - inkişaf və ekologiya arasında əlaqənin tədqiqi ərəfəsində yaranıb və onun həyata keçirilməsində məqsəd müasir sivilizasiyanın formalaşması zamanı biosferə dağıdıcı antropogen təsirin qarşısını almaq olub. Gələcəkdə aydın oldu ki, V.V.Malyagin (Малягин, 2015) konsepsiyası elmi dövriyyəyə, sosial-iqtisadi-ekoloji dayanıqlı inkişaf probleminin kompleks formalaşdırılması kontekstində əsaslandırılmışdır ki, bu da fikrimizcə, müasir fənlərarası tədqiqatlar aparatından istifadə etməklə uğurla həll edilə bilər.

**Dayanıqlı inkişaf paradiqmasında ekoloji imperativlə iqtisadi imperativin qarşılıqlı funksional asılılığı**

Yaşıllaşdırma iqtisadiyyatın modernləşdirilməsi və innovativ, sosial yönümlü inkişafa keçid vektorlarından biridir. Xüsusilə, S.R. Hümbətova təklif edir ki, dayanıqlı inkişaf dedikdə "bəşəriyyətin elə inkişafı" başa düşülməlidir ki, orada bu inkişafın təbii əsasları məhv edilmir, yəni. insanın yaşaması üçün əlverişli mühit çoxalır, kifayət qədər resurs bazası saxlanılır və insan genomu qorunur" (Hümbətova, 2024). Ekoloji imperativin mütləqləşdirilməsi iqtisadi inkişafdan və ya "sıfır artım" strategiyasından tamamilə imtina demək olardı. Praktikada ekoloji imperativ iqtisadi imperativdən ayrılmazdır ki, bu da səmərəli və təhlükəsiz təsərrüfat fəaliyyəti vasitəsilə müəyyən səviyyədə maddi tələbatların ödənilməsini nəzərdə tutur.

Ekoloji imperativin dayanıqlı inkişaf paradiqmasına daxil edilməsi insan və təbiətin birgə təkamülünün yalnız başlanğıcıdır - bu proses məhsuldar qüvvələrin səviyyəsinə, təbiətinə və dəyişmə sürətinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Bununla belə, məhsuldar qüvvələr ictimai istehsalın ən mühüm substansiyası kimi onun maddi və maddi məzmununu təşkil edir və inkişaf vektorunu müəyyən edir, buna görə də dayanıqlılıq paradiqmasında sosial, ekoloji və iqtisadi komponentlərin ardıcıl səbəb-məntiqi əlaqə: sosial-iqtisadi və ekoloji inkişaf klassik üçlüyü inkişaf etdirilməlidir. Dayanıqlı inkişaf konsepsiyası təkcə hədəf əsas komponentlər toplusunun kompleks əlaqəsini deyil, həm də onların siyasi, ideoloji, institusional, humanitar, mədəni, dini, mental və digər aspektləri nəzərə almaqla ictimai təsərrüfat orqanizminin həyat fəaliyyətinin sistem-situasiyaya uyğunlaşmasını təmin etmək üçün nəzərdə tutulmuşdur. Müasir alimlər dayanıqlı inkişaf ideyasının praktikada həyata keçirilməsinin V.I. Vernadskinin noosferik konsepsiyası çərçivəsində həyata keçirilə biləcəyi fikrini bölüşürlər. Vernadski, post-qeyri-klassik elmin qanuni davamıdır. Vernadski yazırdı: "Biosferin bu yeni vəziyyəti noosfer adlanırdı, yəni. elə bir biosferdir ki, burada insan şüurunun (şüurunun) və onun idarə etdiyi insan əməyinin rolu XIX-XX əsrlərə qədər bəşəriyyətin dərkində əvvəllər olmayan güclü və daim artan geoloji qüvvə kimi təzahür edir. (Рубанов, 2016).

**Beynəlxalq Minilliyin İnkişaf Məqsədləri və beynəlxalq indekslər toplusu**

XX əsrin sonlarından elmi ictimaiyyət bu sahədə strateji hədəflər və həll yolları sahəsinin formalaşmasında mühüm irəliləyişlər əldə etmiş və bir sıra qabaqcıl ölkə və regionlarda dayanıqlı inkişaf strategiyasının praktiki həyata keçirilməsində müəyyən uğurlar əldə etmişdir. BMT-nin 2000-2015-ci illər üçün Minilliyin Bəyannaməsində 193 BMT-yə üzv dövlət və ən azı 23 beynəlxalq təşkilat tərəfindən irəli sürülən səkkiz beynəlxalq Minilliyin İnkişaf Məqsədi elan edilmişdir. Bəyannamənin məqsədlərinə ifrat yoxsulluğun miqyasının azaldılması, uşaq ölümünün azaldılması, QİÇS kimi epidemik xəstəliklərlə mübarizə, eləcə də inkişaf məqsədilə qlobal əməkdaşlığın genişləndirilməsi daxildir və bəşəriyyət onlara nail olmaq üçün ilk addımlar atmışdır (Qasımlı, vd., 2022).

Bununla belə, sistemli iqtisadi və siyasi böhranın dağıdıcı potensialının sürətlə güclənməsi fonunda bu yolda əldə olunan ayrı-ayrı uğurların və nailiyyətlərin cüzi olduğu, bunun nəticəsində dayanıqlı inkişafın məqsədlərinə nail olunması faktını nəzərdən qaçırmaq mümkün deyil. minilliyin 2016-2030-cu illərinə uzadıldı.

Bunlar BMT Baş Assambleyasının 2015-ci il sentyabrın 25-də baş tutan 70-ci sessiyasının işinin nəticəsi idi və növbəti on beş ildə - 2030-cu ilə qədər dayanıqlı inkişafın gündəliyini müəyyən edəcək. Ayrı-ayrı dövlətlərin və regionların dayanıqlı inkişafının müəyyən dərəcədə kifayət qədər ağlabatan müqayisəli qiymətləndirilməsi ola bilən və bir qayda olaraq, hər il nüfuzlu Qərb təşkilatları tərəfindən hesablanan beynəlxalq indekslər toplusu mövcuddur. Bunlar Dünya İqtisadi Forumuna əsasən hesablanmış Qlobal Rəqabətlilik İndeksi; Dayanıqlı Cəmiyyət Fondunun birləşmiş göstəricisi olan Dayanıqlı Cəmiyyət İndeksi; Yale Ətraf Mühit Hüququ və Siyasəti Mərkəzi tərəfindən Kolumbiya Universiteti və Dünya İqtisadi Forumu ilə birgə müəyyən edilən Ətraf Mühit Performansı İndeksi; BMT və bir sıra başqaları tərəfindən 1990-cı ildə təklif olunan insan potensialının inkişafı indeksi (HDHP). (Талалушкина, 2013).

Dayanıqlı sosial-iqtisadi-ekoloji inkişaf paradiqması kontekstində dünyanın müxtəlif ölkələrində cəmiyyətin rifahını və ətraf mühitin vəziyyətini əks etdirən beynəlxalq xoşbəxtlik indeksinin göstəricisi də maraq doğurur. Ənənəvi olaraq, adambaşına düşən ÜDM dəyərləri, eləcə də insan potensialının inkişafı indeksi müxtəlif ölkələrdə insanların həyat səviyyəsini müqayisə etmək üçün istifadə olunur,

lakin onlar həmişə işlərin real vəziyyətini obyektiv şəkildə əks etdirə bilmirlər. Xüsusilə, ayrı-ayrı iqtisadiyyatların ÜDM səviyyələrinin müqayisəsi xoşbəxtlik indeksini təyin edərkən kifayət qədər informativ göstərici hesab olunur, çünki insanların əksəriyyəti zəngin deyil, xoşbəxt və sağlam olmağa çalışır. Bununla əlaqədar olaraq, xoşbəxtlik indeksi əsasında reytinq tərtib edilərkən təkcə adambaşına düşən ÜDM-in səviyyəsi kimi hesablanan rifah göstəriciləri, İnsan İnkişafı İndeksinə daxil edilən gözlənilən ömür uzunluğu deyil, həm də iqtisadi azadlıq indeksində vətəndaş azadlıqlarının göstəriciləri, o cümlədən təhlükəsizlik və gələcəyə inam hissi, ailə sabitliyi, məşğulluq təminatı, korrupsiyanın səviyyəsi, cəmiyyətə inam, böyük ürəkli və səxavətli insan kimi göstəriciləri qabaqcadan götürülür. Beynəlxalq xoşbəxtlik indeksinin hesablanmasının əsasını insanların həyatından subyektiv məmnunluq, gözlənilən ömür uzunluğu və "ekoloji iz" adlanan üç göstərici təşkil edir.

Bütün yuxarıda qeyd olunan göstəricilər əsasında "Dayanıqlı İnkişaf Həlləri Şəbəkəsi" (UN Sustainable Development Solutions Network) beynəlxalq layihəsinin analitikləri 2012-2023-cü illərdə əhalinin xoşbəxtlik səviyyəsinə görə dünya ölkələrinin reytinqini təqdim ediblər. (http://gtmarket.ru/news/2023).

Bütün illər ərzində ilk onluqda Skandinaviya və digər Qərbi Avropa ölkələri, Kanada, Yeni Zelandiya və Avstraliya yer alıb. Bu hesabatlarda ölkələr xoşbəxtlik dərəcəsinə görə ən yüksəkdən ən aşağıya doğru verilib. (http://gtmarket.ru/news/2023).

Azərbaycanın bu illər ərzindəki sıralamada ən yüksək göstəriciyə 2015-ci ildə nail olub. Belə ki, ölkəmiz 2015-ci ilin hesabatına əsasən, 158 ölkə arasında 80-ci yerı yüksılib. Lakin, 2015-ci ildən sonra ölkəmiz bu göstəriciyə görə geriyə doğru enib. 2022-ci ildəki hesabata görə, Azərbaycan 146 ölkə arasında 92-ci yerdə qərarlaşıb. Onu da qeyd edək ki, Azərbaycan 2023-cü ilin hesabatında iştirak etməyib. (http://gtmarket.ru/news/2023).

## Azərbaycan Respublikanın dayanıqlı inkişaf strategiyasının formalaşdırılması istiqamətləri

Diqqəti Azərbaycan Respublikasında mürəkkəb və qeyri-müəyyən iqtisadi formalaşma prosesinə yönəldərək qeyd etmək lazımdır ki, uzunmüddətli strateji planlaşdırma nöqteyi-nəzərindən və onun hazırda istifadə olunmayan iqtisadi potensialı nəzərə alınmaqla qarşıya qoyulan məqsədlərdən bir qədər yüksək məqsədlər qoyulmalıdır və cari dövrdə buna nail olmaq olar. Gələcək inkişafın ssenari planlaşdırılmasında, onun aparıcı alternativlərindən biri çərçivəsində, həyata keçirilə biləcək digər alternativləri də nəzərdən qaçırmamaqla, müharibə və iqtisadi blokada şəraiti ilə bağlı inkişafa qoyulan məhdudiyyətləri aradan qaldırmaq lazımdır. Söhbət üç əsas proqnozlaşdırıcı inkişaf ssenarisindən gedir: mütərəqqi, inertial və reqressiv. Respublikanın dayanıqlı inkişaf mexanizminin üzvi komponentləri olan 2030-cu ilə qədər müvafiq vəzifə və göstəricilərlə milli prioritetlərə uyğunlaşdırılmış Dayanıqlı İnkişaf Strategiyası və Dayanıqlı İnkişaf Məqsədləri ən ümumi formada təqdim olunan iki əsas sənədin işlənib hazırlanması və qəbul edilməsi məqsədəuyğundur. Bu strukturda növbəti iyerarxik səviyyə Respublikanın dayanıqlı inkişafının göstəriciləri və onların kəmiyyət qiymətləndirilməsi olmalıdır (Xeyirxəbərli, 2023; Польша: «Drukarnia i Studio Graficzne Omnidium», 2014; Мочалова, 2013 ).

Bu gün XX əsrin ikinci yarısı və XXI əsrin əvvəllərində formalaşması əhəmiyyətli təkan almış həyat keyfiyyətinə dair geniş beynəlxalq statistika mövcuddur və daxili iqtisadiyyatın qiymətləndirilməsi üçün oxşar "daxili" inteqrasiya edilmiş göstəricilər sisteminin yaradılması baxımından maraq doğurur.

Eyni zamanda, tanınmış xarici indekslərin hesablanması və istifadəsinin təcrübəsini, üstünlüklərini və mənfi cəhətlərini nəzərə almaq lazımdır. Məsələn, HDHP-nin üstünlüyü ondan ibarətdir ki, o, bir sıra digər indekslərin müəyyən edilməsində geniş istifadə olunan subyektiv ekspert qiymətləndirmələrinə deyil, rəsmi mənbələrdən əldə edilən real statistik göstəricilərə əsaslanır ki, bu da göstəricinin obyektivlik dərəcəsini və məlumatların yoxlanılması imkanını yaradır.

Göstəricinin daha da təkmilləşdirilməsi ona daxil olan alt indekslərin cəminin diferensiallaşdırılması kontekstində məqsədəuyğundur. Məsələn, dayanıqlı inkişafın innovasiya-investisiya modelinin tərkib hissəsi kimi insan kapitalının innovasiya fəallığının alt indeksini nəzərə almaq lazımdır. Bununla belə, əgər yalnız bir və ya bir neçə göstəricinin yaxşılaşdırılması ilə məhdudlaşırsa, daxili iqtisadiyyatın xüsusiyyətlərini və tarixi inkişafının xüsusiyyətlərini nəzərə almaq üçün hər bir ayrıca göstərici üzərində işləmək, eləcə də bu göstəricinin həyat keyfiyyətinin "köhnə" və "yeni" qiymətləndirmə göstəricilərini sintez etməklə müəyyənləşdirilməsinə cəhd etmək lazımdır.

Uğur əldə etmək üçün uzunmüddətli dayanıqlı inkişaf strategiyasına uyğun olaraq elmi proqnozlaşdırma və ümumi fəaliyyət proqramının işlənib hazırlanması məsələləri son dərəcə vacib hesab olunur. Təkcə respublikanın həyat şəraitinə deyil, həm də onun dayanıqlı inkişaf mexanizminə uyğun gələn amillərin və göstəricilərin qruplarının müəyyən edilməsinə xüsusi diqqət yetirilməlidir.

Dayanıqlı inkişaf konsepsiyasına daxil edilmiş iqtisadiyyat modeli iqtisadi artımın və onun ənənəvi makroiqtisadi göstəricilərinin mütləqləşdirilməsini rədd edir və adekvat inkişaf göstəriciləri ailəsinin formalaşmasını tələb edir (Старикова, 2017; Полтерович, 2017). İlk növbədə, kompleks yanaşma və “məqsədlər ağacı” prinsipi üzrə dayanıqlı sosial-iqtisadi-ekoloji inkişaf meyarlarının çoxsəviyyəli strukturunun işlənib hazırlanması və klaster göstəricilərinin “kollarının” yaradılması zəruridir ki, bu da həyat keyfiyyətinin sosial-mədəni, institusional, etik, əxlaqi, mənəvi və digər sosial-humanitar aspektlərini də hərtərəfli əhatə edir.

Dayanıqlı inkişaf problemi klassik şüarın çərçivəsini aşdı: “Ölkənin daha çox neft, qaz və kömürə ehtiyacı var”. Mənasını itirməyən bu tezis prinsipial olaraq yeni strateji yanaşma arasında həyat tapır: “Ölkənin indiki və gələcək nəsillərə zərər verməyən əhalinin rifahının dayanıqlı artımına ehtiyacı var, bunda aparıcı yer noosferik intellektə verilir”. Bu isə artıq sosial-iqtisadi və ekoloji inkişafın əsaslı şəkildə fərqli tendensiyasıdır.

Dayanıqlı İnkişaf Strategiyasının məqsədləri əsasında yaradılmalı, strateji planlaşdırma metodologiyası əsasında həyata keçirilməli və ətraf mühitin ekzogen və endogen amillərinin təsirini nəzərə alan göstəricilər ailəsinin formalaşdırılması tələb olunur.

**Nəticə**

“Yeni” makroiqtisadi göstəricilər adlandırılan qlobal rəqabətqabiliyyətlilik indeksi, iqtisadi azadlıq, insan inkişafı, qlobal innovasiya indeksi və s. kimi milli iqtisadiyyatın dayanıqlı vəziyyətinin beynəlxalq göstəriciləri daxili iqtisadiyyatın formalaşması üçün tanınmış müqayisəli yanaşma kontekstində məqsədəuyğun olaraq beynəlxalq qiymətləndirmə sistemlərinə daxil edilmiş dayanıqlı iqtisadi inkişafın göstərici modellərinin başlanğıc nöqtəsi ola bilər.

Bu yanaşmanın konstruktivliyi ondan ibarətdir ki, o, yalnız klassik makroiqtisadi göstəricilərdən istifadə etməklə deyil, daha geniş spektrli tədqiqatlar aparmağa imkan verir, dayanıqlı sosial-iqtisadi və ekoloji inkişafın xarici və daxili amillərinin kompleks diaqnostikasını aparır, Azərbaycan Respublikasının strateji məqsədləri və onlara nail olmaq üçün tədbirlər hazırlayır. Bir tərəfdən daxili iqtisadiyyatın formalaşmasında mürəkkəb, qeyri-müəyyən dönüş yaranır, digər tərəfdən isə bu,

makroiqtisadi göstəricilərin və indekslərin yeni, kifayət qədər və vahid statistik bazasının formalaşdırılması üçün ilkin şərtlər yaradır ki, bu da öz növbəsində ölkə iqtisadiyyatının inkişafını, uzunmüddətli inkişaf meyllərinin proqnozlarının qurulmasını, mümkün bifurkasiya nöqtələrinin müəyyən edilməsini, sabitlik və tarazlıq trayektoriyaları daxilində dalğalanma təhlükələrinin bərabərləşdirilməsi üçün möhkəm əsasa çevrilən sosial-iqtisadi-ekoloji sistemin vəziyyətini təmin edir.

Gələcəkdə fərdi indekslərdən, göstəricilərdən və onların klasterlərindən ənənəvi və evristik metod və modelləri birləşdirən dayanıqlı inkişafın inteqral indeksinin hesablanması üçün kombinativ cəmlənmiş meyarlara və üsullara keçid üçün çevik alqoritmin yaradılması məqsədəuyğundur. "Yeni" göstəricilər sisteminin tətbiqi, əgər onların inkişafının özəyini strateji planlaşdırma, əsas istiqaməti isə keyfiyyət artımı təşkil edərsə, real iqtisadi nəticələr verə bilər.

**İstifadə olunmuş ədəbiyyatın siyahısı**


1. Hümbətova S.R., (2024) Yaşıl iqtisadiyyatın modelləşdirilməsi. (Azərbaycan timsalında). İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 36 s.
2. Xeyirxəbərli M., (2023) "Yaşıl iqtisadiyyat dayanıqlı inkişafın təmin olunması vasitəsi kimi// "Iqtisadi islahatlar" elmi-analitik jurnal № 4(9). S.78-88.
3. Qasımlı, V., Huseyn, R., Huseynov, R., Həsənov, R., Cəfərov, C. və Bayramova, A. (2022). Yaşıl Iqtisadiyyat. "Azprint" nəşriyyatı, 280 səh. https://ereforms.gov.az/az/publication/8
4. Институт земли: рейтинг стран мира по уровню счастья населения в 2017 году [Электронный ресурс]. – URL: http://gtmarket.ru/news/2017/03/20/7316.
5. Касимов, Н.С. (2006) От экологического образования к образованию для устойчивого развития / Н.С.Касимов // Экология и жизнь. – № 9. – С. 30–34.
6. Малягин, В.В. (2015) Экологический норматив как условие для дальнейшего развития человечества [Электронный ресурс] / В.В. Малягин // Известия Туль- ского университета. Гуманитарные науки. С. 157 – 162. – URL: https:// cyberleninka.ru/article/n/ekologicheskiy-im perativ-kak-uslovie-dlya-dalneyshego-razvi tiya-chelovechestva.
7. Мочалова, Л.А. (2013) Концепция устойчивого развития и переход к новой социально-экономической парадигме / Л.А. Мочалова // Известия Уральского государственного экономического факультета. – № 2. – С. 1–6.
8. Урсул, А.Д.( 2013) Грядущее человечества: гибель или бессмертие? [Электрон- ный ресурс] / А.Д. Урсул, Т.А. Урсул // Проблемы общества и политики. –№ 3. – URL: http://e-notabene.ru/ pr/article_478.html.
9. Устойчивое развитие предприятия, региона, общества: инновационные подходы к обеспечению: монография / под общ. ред. О.В. Прокопенко. – Польша: «Drukarnia i Studio Graficzne Omnidium», 2014. – 474 с.
10. Полтерович, В.М. (2017) Современные подходы к формированию стратегии устойчивого экономического развития Российской Федерации / В.М. Полтерович // Аналитический вестник. – № 5. – С. 23–32.

11. Рубанов, В.Г. (2016) Основные положения ноосферной концепции В.И. Вер- надского / В.Г. Рубанов, Е.В. Рубанова // Вестник Томского государственного университета. Философия. Социология. Политология. – № 3 (35). – С. 54–64.

12. Старикова, Е.А. (2017)Современные подходы к трактовке концепции устойчивого развития / Е.А. Старикова // Вестник РУДН. Серия: Экономика. –Т. 25. – № 1. – С. 7–17.

13. Талалушкина, Ю.Н. (2013) Опыт ООН в исследовании качества жизни населения [Электронный ресурс] / Ю.Н. Талалушкина // Экономика и экономические науки. – С. 46-53. – URL:https://cyberleninka.ru/article/v/opyt-oon-v- issledovanii-kachestva-zhizni-naseleniya.

## Yaşıl iqtisadiyyatın Azərbaycan Respublikasının iqtisadiyyatında təzahür forması və yaşıl dünya naminə görülən işlərin praqmatik nümunəsi

**müəllim Anar Dəmirzadə**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**demirzade.anar@mail.ru**

**Xülasə**

Müasir texnologiyanın və davamlı artan tendensiyalı iqtisadiyyatın hakim olduğu bir dövrdə bu gedişata paralel olaraq hökm sürən texnoloji və inqilabi yeniliklərin gətirdiyi ekoloji çətinliyin, ətraf mühitin, təbiətin bu çətinlikdən gördüyü təsirin minimuma endirilməsi ölkələrin hazırki başlıca, prioritet məqsədlərindən biridir. Bu çətinliyin qarşısının alınması gedişatında, eyni zamanda artan ekoloji çirklənmə fonunda yaşıl iqtisadiyyat anlayışı öz aktuallığını və vacibliyini bir daha ortaya qoyur. Müasir dövrün trendləri arasında yaşıl iqtisadiyyat mühüm yer tutur. Yaşıl iqtisadiyyat, ətraf mühitin qorunması, resursların səmərəli istifadəsi və sosial ədalətin təmin edilməsi prinsiplərinə əsaslanır. Yaşıl iqtisadiyyat, müasir dövrdə iqtisadi inkişafın ekoloji və sosial tərəflərini bir araya gətirərək daha dayanıqlı bir gələcək təmin etməyə çalışır. Bu sahədəki yeniliklər həm dövlət, həm də özəl sektorda geniş müzakirə olunur. Yaşıl iqtisadiyyat modeli bərpa olunan enerji mənbələrinin artırılması, tullantıların təkrar emalı, kənd təsərrüfatı sahəsində ekoloji təmiz məhsuldarlıq, əkinçilik və maldarlıq təsərrüfatından istifadə olunması, karbon dioksid emissiyalarının azaldılması üçün müxtəlif strategiyaların tətbiqi, istehsalat proseslərinin avtomatlaşdırılması və ekoloji cəhətdən dost texnologiyaların tətbiqini və buna bənzər sahələri əhatə edir.

**Açar sözlər:** Ekologiya, yaşıl iqtisadiyyat, bərpa olunan enerji mənbələri

**JEL kod: A1, A100**

**Abstract**

At a time when modern technology and a growing trend economy are dominated by technological and revolutionary innovations, minimizing the environmental challenge, the environment, and the impact of nature on this challenge is one of the country's top priorities. In the course of preventing this challenge, but also in the growing ecological pollution fund, the concept of a green economy once again highlights its currentity and importance. Among the trends of modern times, the green economy is an important part. It is based on principles of green economics, environmental protection, efficient use of resources and social justice. The green economy is trying to bring together the ecological and social

aspects of economic growth in modern times to provide a more stable future. Innovation in this area is widely discussed in both the public and private sectors. The green economy model covers increased renewable energy sources, recycling of waste, ecologically clean productivity in agriculture, the use of agriculture and livestock, the implementation of various strategies for reducing carbon dioxide emissions, the automation of manufacturing processes, and the application of ecologically friendly technologies and similar fields.

**Keywords**: Ecology, green economy, renewable energy sources

**JEL code: A1, A100**

**Giriş**

Dünyada ətraf mühitin ekoloji cəhətdən çirklənməsi, təbii ehtiyatların azalması və tələbatın artması fonunda dayanıqlı inkişafa nail olmaq üçün yaşıl iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Bu minvalla Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin sərəncamı xüsusi yer tutur. (https://president.az/az/pages/view/azerbaijan/cop29)

Sözügedən sərəncamda öz əksini tapan məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli "hərəkətverici qüvvələri"nin möhkəmləndirilməsini – insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir.

Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir (https://e-qanun.az/framework/46813).

**Əsas hissə**

Girişdə də qeyd edildiyi kimi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlərdə" 5-ci prioritet "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi adlandırılması təsadüfi deyil. Qeyd edək ki, Azərbaycanda yaradılan emal prosesi "yaşıl iqtisadiyyat"ın inkişafına, rəqabətqabiliyyətli sənaye istehsalının genişlənməsinə və ekoloji vəziyyətin yaxşılaşdırılmasına öz töhfəsini verir. Müasir iqtisadiyyatda "emal" anlayışı mühüm əhəmiyyət kəsb edir. İstehlak prosesindən sonra tullantıların bir qismi yenidən istifadə oluna bilər. Təkrar emal - materialların dövri olaraq daxil edilməsi. Təkrar istifadə oluna bilər. Əsas məqsəd tullantıların və təbii sərvətlərin ekoloji çirklənməsinin qarşısının alınması, habelə əlavə xammal bazasının yaradılmasıdır. Orijinal istehsaldan fərqli olaraq, emal asan və çəlddir, bu da enerjiyə qənaət etməyə imkan verir.

Balaxanı Sənaye Parkı dövlət başçısının 28 dekabr 2011-ci il tarixli sərəncamı ilə ölkəmizdə emal sənayesi sahəsində sahibkarlar və potensial investorlar üçün əlverişli şəraitin yaradılması məqsədilə yaradılıb. Sərəncamla “Təmiz Şəhər” ASC Balaxanı Sənaye Parkının idarəedici təşkilatı təyin edilib. Sənaye Parkında emal prosesi böyük əhəmiyyət kəsb edir. İkinci mərhələdə 7 hektar sahəni əhatə edən Sənaye Parkına maraq sayəsində genişləndirilərək 10,15 hektara çatdırılıb.

Balaxanı Sənaye Parkının yaradılması ölkədə yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye məhsullarının istehsalının artırılması, qeyri-neft sektorunun, o cümlədən "yaşıl" iqtisadiyyatın inkişaf etdirilməsi, əhalinin istehsal prosesində məşğulluğun artırılması, Bakı və ətraf qəsəbələrdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədi daşıyır. Balaxanı Sənaye Parkı emal biznesi qurmaq və innovativ texnologiyalardan istifadə etməklə "yaşıl" istehsalla məşğul olmaq istəyənlər üçün əlverişli məkandır. Sənaye Parkında 23 rezident qeydiyyata alınıb. Tullantılar təkrar emal edilib və genişləndirilərək "yaşıl" məhsulların istehsalı artıb. Balaxanı Sənaye Parkında rezident olaraq fəaliyyət göstərmək sahibkarlara bir neçə üstünlüklər qazandırır. Müasir texnologiyalardan istifadə etməklə davamlı inkişaf prinsiplərinə və ətraf mühitin mühafizəsi normalarına uyğun fəaliyyət göstərən rezidentlər 10 il müddətinə mənfəət, torpaq və əmlak vergilərindən azaddırlar. Eyni zamanda, istehsal məqsədləri üçün idxal olunan texnoloji avadanlıqlar 7 il müddətinə ƏDV və idxal rüsumundan azad edilir. Tullantılardan xammal kimi istifadə etməklə hazırlanan məhsullar Balaxanı Sənaye Parkının bir sıra ölkələrinə ixrac edilir.

Tullantıların idarə edilməsi və ətraf mühitə təsirinin azaldılması sahəsində aparılan səmərəli təcrübələrdən biri də onların yanma zərəri və bu prosesdən enerjinin alınmasıdır. Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə 2006-2010-cu illər üçün kompleks tədbirlər planı çərçivəsində yaradılmış və 2012-ci ildən fəaliyyətə başlayan Bakı Bərk Məişət Tullantılarının Yandırılması Zavodu gücünə görə Şərqi Avropa və MDB ölkələrində ən böyük belə müəssisə hesab olunur. Dördüncü nəsil (4G) texnologiyalarının tətbiqi ilə müəssisə Avropa İttifaqının ətraf mühitin mühafizəsi sahəsində ən sərt standartlarına tam uyğundur. İllik gücü 500 min ton ev təsərrüfatı və 10 min ton tibbi tullantı olan zavod 231,5 milyon KVt elektrik enerjisi istehsal edir. Bu zavod 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təchiz edə bilir.

2009-cu ilin oktyabr ayında Balaxanı Şəhər Tullantılarının Zərərsizləşdirilməsi Poliqonunda "Təmiz Şəhər" ASC-yə təhvil verilmişdir. Elektrik enerjisi burada müasir texniki avadanlıqlar vasitəsilə zərərsizləşdirilən tullantılardan ayrılan qazlardan əldə edilir. Ayrılan su isə ağacların suvarılmasında istifadə olunur. Su təmizlənərək ağacın köklərini suvarmaq üçün bütünlüklə filtirdən keçirilərək təmizlənir. Çeşidləmə tullantıların zərərsizləşdirilməsi sahəsində ən vacib fəaliyyət istiqamətlərindən biridir. 2012-ci ildən "Təmiz Şəhər" ASC-nin Bərk Məişət Tullantıları Zavodu bu istiqamətdə fəaliyyət göstərir. Məişət tullantılarının çeşidlənməsi və ölkədə emal biznesinin inkişaf etdirilməsi məqsədilə ildə 200 min ton tullantıların çeşidlənməsi hesabına ayrılan materiallar tullantıların ümumi həcmini azaldır və Balaxanı Sənaye Parkının ucuz xammal bazasını formalaşdırır. Bu da ölkədə emal sahəsinin inkişafına böyük təkan verir.

( http://www.economy.gov.az/az/page/yasil-iqtisadiyyat )

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 gün ərzində baş verən Qarabağ müharibəsi Azərbaycan Ordusunun şanlı qələbəsi ilə nəticələndi, torpaqlarımız düşmən işğalından azad edildi. İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı yenidənqurma və quraşdırma işləri, iqtisadi

reinteqrasiya işləri aparılır. Bu istiqamətdə strateji baxışlardan biri də bu ərazilərdə yaşıl enerji zonasının yaradılmasıdır. Yaşıl enerji zonası enerji tələbatının yaşıl enerji (bərpa olunan enerji mənbələri) ilə maksimal dərəcədə təmin olunduğu və enerji dəyəri zəncirində ekoloji cəhətdən təmiz və enerji səmərəli "yaşıl" texnologiyalarla istifadə olunan sahədir. (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, http://www.economy.gov.az/az/page/yasil-iqtisadiyyat)

2021-ci il fevralın 22-də Energetika Nazirliyi ilə bp şirkəti arasında iri həcmli karbonsuz, inteqrasiya olunmuş enerji və nəqliyyat sistemləri, eləcə də Azərbaycanın şəhər və rayonlarında bərpa olunan enerji layihələri üçün tələb olunan potensial və şərtlərlə əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memorandum Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi, rəqabətədavamlı enerji bazarının yaradılması, təmiz ətraf mühit və "yaşıl artım" ölkə prioritetləri üzrə tədbirlərin həyata keçirilməsi və bp şirkəti tərəfindən 2020-ci ildə "sıfır emissiya" hədəflərinin elan edilməsi kontekstində imzalanıb. Memorandumda təmiz enerji layihələri, az karbonlu nəqliyyat, "yaşıl" binalar, tullantıların idarə edilməsi, təmiz sənaye, təbii iqlimin həlli, inteqrasiya olunmuş əməkdaşlıqlar, inteqrasiya olunmuş və karbonsuz enerji və nəqliyyat sistemlərinin inkişafı üzrə əməkdaşlıq imkanlarının araşdırılması nəzərdə tutulur. Bütün bunlarla yanaşı, 3 iyun 2021-ci ildə Cəbrayıl və Zəngilanda 240 MVt həcmində günəş elektrik stansiyasının tikintisi üçün BP ilə icra müqaviləsi bağlanılmışdır. Sözügedən sənədə əsasən BP tərəfindən tikilməsi nəzərdə tutulan elektrik stansiyası layihəsi əsasında müvafiq iqtisadi və texniki analizlər, tədqiqatlar aparılacaq, yekun qərarlar qəbul olunacaqdır. 2022-ci ilin 4 iyun tarixində Şuşa şəhərində "Şəfəq" Günəş Elektrik Stansiyasının layihəsinin reallaşdırılması fonunda görülən tədbirlərin yekunlaşdırılması istiqamətində həmin müqaviləyə əlavə imzalanmışdır. "Virtual Enerji Ötürülməsi Mexanizmi" adlanan bu biznes modelinin reallaşdırılmasının planlaşdırılması həmin sənəddə öz əksini tapmışdır.

(Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, https://area.gov.az/az/page/layiheler/cari-layiheler/240-mvt-gunes-elektrik-stansiyasi )

Prezident İlham Əliyevin 2018-ci ilin dekabrında imzaladığı "Yol hərəkəti təhlükəsizliyi haqqında" Dövlət Proqramına əsasən, ölkədə yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi proqramı çərçivəsində ətraf mühitin yaxşılaşdırılması, avtomobillərdən ətraf mühitə yayılan zəhərli qazların miqdarının azaldılması və respublikanın tənzimlənməsi nəzərdə tutulur. Sənəddə avtomobil yollarında, küçə şəbəkəsində, ekoloji təmiz nəqliyyat vasitələrinin istismarının stimullaşdırılması ilə bağlı velosiped zolaqlarının və dayanacaqların yaradılması da nəzərdə tutulur. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) 2024-cü ilin əvvəlindən Bakı şəhərində velosiped yollarının tikintisi layihəsinə start verib. Layihənin birinci mərhələsi Bakı şəhərinin mərkəzi hissələrini - Azərbaycan, Bülbül prospektlərini, İstiqlaliyyət, Mirzəağa Əliyev, Fikrət Əmirov küçələrini və Bulvarı əhatə edir. Digər küçələrdə də buna bənzər velosipedlərin tikintisi planlaşdırılır. Artıq bir müddətdir ki, müvafiq nişanlanmaya start verilib. Növbəti mərhələdə yol nişanlarının da quraşdırılmasına başlanılıb. Belə ki, nəqliyyat vasitələri ilə bağlı yarana biləcək ziddiyyətli məqamların aradan qaldırılması üçün təhlükəsizlik sədləri quraşdırılmağa başlanılıb. Qeyd edək ki, 2027-ci ilədək 63 kilometrlik velosiped yolunun təşkili nəzərdə tutlur. ( http://www.xalqqazeti.az/az/sosial-heyat/176398-yasil-velosiped-yollari )

Azərbaycanda ekoloji təmiz ətraf mühit, oksigendə karbon və kimyəvi qazlarının sayının azaldılması, yaşıl artım ölkəsi olaraq irəliləmək siyasəti günü gündən öz effektini nümayiş etdirir. Statistik göstəricilərə nəzər salsaq, bu nəticələri təsvir olunan rəsmi sütunlu histoqramda da müşahidə

etmiş olarıq ( Ekoloji informasiyanın birgə sistemi (SEIS) , https://eni-seis.eionet.europa.eu/east/countries ) .

**Qrafik : İnqrediyentlər üzrə stasionar mənbələrdən ölkənin atmosfer havasına atılan çirkləndirici maddələr**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (göstəricilərin son yenilənmə tarixi 24.08.2024)

**Nəticə**

Bu sahələrdə dövlət tərəfindən atılan addımların müsbət nəticəsi olaraq heç də təsadüfi deyil ki, Azərbaycan, 2024-cü ilin 11-22 noyabr tarixləri arasında dövlətlərin yekdil qərarı ilə baş tutan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sesiyasına (COP29) ev sahibliyi etmək statusuna sahib olmuşdur. ( https://cop29.az/az/home)

**Ədəbiyyat siyahısı**


1) Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, https://area.gov.az/az/page/layiheler/cari-layiheler/240-mvt-gunes-elektrik-stansiyasi
2) Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az
3) Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, http://www.economy.gov.az/az/page/yasil-iqtisadiyyat
4) Ekoloji informasiyanın birgə sistemi (SEIS) , https://eni-seis.eionet.europa.eu/east/countries
5) https://president.az/az/pages/view/azerbaijan/cop29
6) https://cop29.az/az/home
7) https://e-qanun.az/framework/46813
8) http://www.xalqqazeti.az/az/sosial-heyat/176398-yasil-velosiped-yollari

# Yaşıl İqtisadiyyatın Sosial Rifaha Təsir İstiqamətləri

**Əliyeva Alina Məcid qızı**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**alinaaliyeva1953@gmail.com**

**Əliyev Tural Fərhad oğlu,**
**Global Trading and Logistics, Director**
**tural.f.a@gmail.com**

**Xülasə.**

Qlobal səviyyədə insanların sosial rifahının davamlı artırılması üçün ekoloji məsələlərin həllini nəzərə alan yaşıl iqtisadiyyat anlayışı dövrün tələblərindən irəli gəlmişdir. İndiki və gələcək nəsillərin sosial rifahının yaxşılaşdırılması – təbii resursların səmərəli istifadəsi, alternatıv və təmiz enerji, ekoloji təmiz texnologiyaların tətbiqi ilə tullantılatın təkrar emalı, çirklənmiş ərazilərin bərpası və artırılması, iqlim dəyişiklikləri ilə mübarizə, biomüxtəlifliyin qorunmasıi, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə və s.sahələrdə keçirilən tədbirlərdən asılıdır . Bütün bu iqtisadi, sosial və ekoloji problemlərinin həllini nəzərdə tutan Yaşıl inkişaf modeli yeni iş yerləri və xidmət növlərinin yaranması ilə iqtisadi bərabərsizliyi azaldır. Təbii ehtiyatlarının tükənməsi və onlardan səmərəsiz istifadənin ətraf mühitə mənfi təsirləri bütün dünyada olduğu kimi Azərbaycanda da yaşıl keçidə ehtiyacı artırmış , yaşıl iqtisadiyyat milli prioritet kimi qəbul olunmuşdur. Qəbul olunan Proqramlarda alternativ enerji mənbələrindən geniş istifadə edilməsi, enerji və xammal problemlərinin həll edilməsi üçün daha az xammal və enerji tələb edən sənaye sahələrinin yaradılması, təbii xammalların süni məhsullarla əvəz edilməsi, yeni xammal rayonlarının mənimsənilməsi əsas istiqamətlər kimi nəzərdə tutulmuşdur. Bunun üçün həmçinin ekoloji şüura və yüksək ekoloji biliyə malik olan insanlarla yaşıl və təbii gələcəyə sahib olmaq olar .

**Açar sözlər:** yaşıi iqtisadiyyat, yaşıl artım, sosial rifah, ekoloji bilik.

**Summary.** The concept of a Green Economy emerged as a response to contemporary needs, focusing on addressing environmental issues to continuously enhance global social welfare. Improving the social well-being of current and future generations depends on several critical actions. These include the efficient use of natural resources, the promotion of alternative and clean energy, the recycling of waste through environmentally friendly technologies, the restoration and enhancement of polluted areas, combating climate change, protecting biodiversity, and the efficient use of water resources and sustainable energy sources. The success of these efforts depends on the initiatives and events conducted in these fields. The Green Economy model, which aims to address these economic, social, and environmental issues, also helps reduce economic inequality by creating new jobs and services. The depletion of natural resources and the negative effects of their inefficient use on the environment have heightened the need for a green transition in Azerbaijan, as in the rest of the world. Consequently, the Green Economy has been accepted as a national priority. In the adopted programs, the main directions include the wide use of alternative energy sources, the creation of industries that require less raw materials and energy to address energy and raw material challenges, the replacement of natural raw materials with artificial products, and the exploration of new raw material regions. The social benefit of a Green Economy lies in the provision of a healthier environment and enhanced well-being for

people, achieved by reducing harmful effects on the environment. https//modrn.az> iqt.> A green and natural future is also possible with individuals who possess environmental awareness and a high level of environmental knowledge.

**Key words:** green economy, green growth, social welfare, ecological knowledge

**Giriş.** Tədqiqatın aktuallığı **:** Məlumdur ki, BMT-nin "Dünyanın transformasiyası: 2030-cu ilədək davamlı inkişaf sahəsində gündəlik"dən irəli gələn öhdəliklərdə hazırda və gələcəkdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə dəyən zərərlərin azaldılması üçün ekoloji problemlərin öyrənilməsi yeni bir inkişaf strategiyası tələb edirdi. Bu strategiya ilə təbiətlə cəmiyyət arasında tarazlığın pozulmasının insanların yaşayışına və sağlamlığına mənfi təsirlərinin azaldılmasını nəzərdə tutan "yaşıl iqtisadiyyat"ın yaradılması, onun iqtisadi aspektlərinin öyrənəniılməsi və dayanıdlı iqtisadiyyata nail olunmasında rolu akruallaşdı. Digər tərəfdən təbii kapitaldan səmərəsiz istifadənin qarşısının alınması üçün ekoloji xərclərin məhsulların maya dəyərinə daxil edilməsi yollarının müəyyən edilməsi də iqtisadiyyatın yaşıllaşdırılmasını tələb edir.

Tədqiqatın məqsəd və vəzifələri: Davamlı inkişaf konsepsiyasına aid çoxsaylı Proqramlarda qəbul edilən ətraf mühitin sağlamlaşdırılması və ekoloji təhlükələrin azaldılması üçün iqtisadi, sosial və ekoloji problemlərin kompleks həllini nəzərdə tutan Yaşıl iqtisadiyyatın insanların sosial rifah səviyyəsinə təsir istiqamətlərini təhlili tədqiqatın əsas məqsədidir. Beynəlxalq təşkilatların inklüziv inkişaf indeksinin qiymətləndirilməsində adambaşına düşən gəlirlər, gəlirlərdə qeyri-bərabərlik, yoxsulluğun azaldılması, sağlamlıq göstəriciləri, əhalinin məşğulluğu, demoqrafik vəziyyət ilə yanası təbii resurslardan qənaətlə istifadə, ətraf mühitih qorunması, ekoloji tarazlıq və s. göstəricilər yaşıl iqtisadiyyatın yaşayış keyfiyyəti ilə əlaqələndirilməsi hesabına əldə olunur. Bu vəzifələrin müəyyən eduilməsi üçün məlumatların toplanması, seçilərək əlaqələndirilməsi , müqayisəli təhlili, iqtisadi və statustik metodlardan istifadə olunmuşdur.

Tədqiqatın məhdudiyyəti Ölkədə əsas problem neft-qaz ehtiyatlarından asılılığın aradan qaldırılması və qeyri-neft sektorunun dayanıqlı inkişafı üçün bərpa oluna bilən yeni enerji mənbələrinin yaradılmasıdır ki, bu da iqtisadiyyatın şaxələndirilməsi və məşğulluğu artırmaqla sosial-iqtisadi problemləri azaldır.

Tədqiqatın informasiya bazası: Qlobal çağırışlara uyğun olaraq "AR-da ekoloji cəhətdən dayanıqlı sosial iqtisadi inkişafa dair Milli Proqramda" (2003) iqtisadi fəaliyyətdə yaranan ekoloji problemlərin aradan qaldıırılması və onların məhdudlaşdıırılması nəzərdə tutulmuşdur. "Gələcəyə baxış" (2012) Konsepsiyasında ətraf mühitin qorunması və ekologiya, Strateji Yol Xəritəsində(2016) enerji ehtiyatlarına qənaət, " Milli Prioritetlər"dəki(2021) ətraf mühitin qorunması və 2022-2026 inkişaf strategiyasında "yaşıl artım" ölkəsinə çevrilməsinin icrasının nəzərə alınması hədəf götürülərək Azərbaycan iqtisadiyyatında yaşıl enerji və yaşıl iqtisadiyyat əsas prioritetə çevrilmişdir. Tədqiqat zamanı Beynəlxalq sənədlərdən, yerli və xarici ədəbiyyatlardan, internet resurslarından da istifadə olunmuşdur.

**1. Yaşıl iqtisadiyyatın zəruriliyi və əhəmiyyəti.** Məlumdur ki, XX əsrin 11 yarısından istehsalda daha çox, səmərəsiz istifadə nəticəsində təbii ehtiyatların miqdarının məhdudlaşması enerji və xammal problemi yaratmış, texnologiyaların sürətli inkişafı ilə atmosferə atılan zəhərli maddələr ətraf mühiti həddən artıq çirkləndirdiyi üçün insanların sağlamlığına mənfi təsir etmişdir. Həmçinin iqlim dəyişiklikləri, içməli su və mineral xammal ehtiyatlarının çatışmazlığı, meşələrin seyrəlməsi, bəzi heyvan və bitki növlərinin yox olması və s. ekoloji böhrana gətirib çıxarmışdir ki, bu da bütövlükdə

bəşəriyyətin mövcudluğunu təhlükəyə salmışdır. Resurslardan intensiv istifadəyə əsaslanan iqtisadi artım ekoloji məsələləri nəzərə almadığından bərpa olunan resurslardan istifadəni əsas tutan yaşıl artım iqtisadi, sosial və ekoloji problemlərin həlli üçün zəruri vasitəyə çevrilmişdir. Azərbaycanın sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərdə də ölkənin təmiz ətraf mühit və yaşıl artım istiqamətində inkişafı nəzərdə tutulmuşdur.

Yaşıl iqtisadiyyat ətraf mühitin bərpasının bir neçə formasını əhatə edən irimiqyaslı kateqoriyadır (F.Eminov və Məhərrəmova X. 2021). O, ekoloji tarazlığı pozmadan hamı üçün daha yaxşı həyat keyfiyyətini təmin edən davamlı iqtisadiyyat kimi başa düşülür.(V.Qasımlı. səh.20.2021) OESD, UNEP kimi beynəlxalq təşkilatlar isə ekoloji təhlükəsizliyin təmin edilməsi üçün yaşıl inkişafa yatırılan investiisiyaların gəlirlərə və məşğulluğa təsirinin də nəzərə alınmasını vacib saymışlar (Maltus.T, Palqrave Macmillan . 1983) Sağlam yaşıl iqtisadiyyat həyat keyfiyyətini, rifahı, əhalinin sağlamlığını təmin etmək üçün ən mühüm imkanlardan biridir (Qurbanov S.səh.133 2023). Bu və digər yanaşmalardan belə çıxır ki, görə yaşıl iqtisadi artım, ətraf mühitin mühafizəsi və sosial rifahı birləşdirən və dayanıqlı inkişafın tərkib hissəsi olan yaşıl iqtisadiyyat insanların iqtisadi fəaliyyətində və sosial həyatında yeni bir keyfiyyətdir. İqtisadiyyatın ekologiyalaşdırılması həm təbiət , həm də insanların sosial rifahı, bütövlükdə isə bəşəriyyətin təhlükəsiz inkişafı üçün labüddür.

Ətraf mühitlə əlaqədə olan yaşıl iqtisadiyyat həmçinin insan potensialının davamlı inkişafına əsaslanan dayanıqlı iqtisadiyyatın tərkib hissəsi olmaqla onunla sıx əlaqəli olub bir-birini tamamlayır. O dayanıqlı inkişaf konsepsiyasının prinsiplərinin həyat keçirilməsinə vəsilə olur və iqlim dəyişikliklərinin təsirlərinin yumşaldılması istiqamətində fəaliyyət göstərir. Dayanıqlı İqtisadiyyat (BMT-1992) isə ekoloji təhlükəsizliyin təmini və ətraf mühitin davamlı inkişafını nəzərdə tutan yaşıl iqtisadiyyatın mənbəyiidir. Onun əsas istiqamətləri – təbii resursların səmərəli istifadəsi, alternatıv və təmiz enerji, ekoloji təmiz texnologiyaların tətbiqi, ilə əlavə xammal , tullantılatın təkrar emalı, çirklənmiş ərazilərin bərpası və artırılması, iqlim dəyişiklikləri ilə mübarizə, biomüxtəlifliyin qorunmasıi, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrinudən səmərəli istifadə və s.dir.

Azərbaycanda ərtaf mühit probleminin həlli istiqamətində ekoloji vəziyyətin yaxşılaşmasına yönəldilmiş dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir. (Həsənov R.S. 2018.) Belə ki, ətraf mühitə dəyən zərərin qiyməti dəyərə daxil edilə bilmədiyindən dövlətin hüquqi və institutsional vasitələrlə tənzimləmə (iqtisadi - Piqu vergiləri), (hüquqi-müvafiq qanunvericilik sənədləri, çirkləndirməyə görə cərimələr, subsiidiyalar vəs.) tədbirləri ilə təbii kapitalın və digər ekosistemlərin qorunması, bərpa oluna bilməyən resursların digərləri ilə əvəz edilməsi məsələlərinin həlli mümkündür. “Azərbaycan malik olduğu potensiala görə öz enerji tələbatını ödəyə, bərpa olunan enerji növlərindən istifadə etməklə, emissiyaları azaltmaqla ətraf mühiti qoruya bilər. (Alizada N.2022) Bərpa olunan enerji mənbələrinin texniki potensialı quruda 135, dənizdə 157 qqavat, onların iqtisadi potensialı 27 qqvt, o cümlədən külək enerjisi 3 min qqvt, günəş enerjisi 23 min mqvt, bioenerji üzrə 380 mqvt, dağ çaylarının potensialı 520 mqvt –dır. (https/: e-qanun.az/ Azərbaycanın yaşıl enerji siyasəti enerjiyə qənaət etmək üçün həmin miqdarda enerjini istehsal etməkdən daha cox onun bərpa olunan mənbələrdən alınması səmərəlidir. Alternativ enerji mənbələrindən istifadə ilə iqtisadiyyatın yaşıllaşdırılması və şaxələndirilməsi ölkədə məşğulluğun təmininə böyük şərait yaradır ki, bu da iqtisadi inkişafla sosial rifahın əlaqəsini artırır.

**2. Yaşıl iqtisadiyyatla sosial rifahın əlaqəsi.** Ekoloji tarazlığı pozmadan hamı üçün daha yaxşı həyat keyfiyyətinin təmin edilməsi iqtisadi, sosial və ekoloji davamlılıq arasında əlaqənin düzgün

müəyyən edilməsindən asılıdır. Müasir cəmiyyətlərdə gəlirlər arasındakı qeyri-bərabərlik, ətraf mühitin çirklənməsi ÜDM-in iqtisadi rifahın əsas göstəricisi olması fikrini boşa çıxarmışdır. İnsanlar inkişaf etdikcə onların sosial rifahı iqtisadi göstəricilərlə yanaşı cəmiyyətin inkişafındakı rolundan, siyasi və iqtisadi fəaliyyətindən , rahat və təhlükəsiz həyat tərzindən asili olmuşdur. Onlar sağlam və uzun ömür sürmək, biliklər əldə etmək, arzuladığı peşə və ixtisaslara yiyələnmək, övladlarını sağlam və firavan böyütmək və ailələrinin təhlükəsizliyinə əmin olmaq istəyirlər.

Yüksək həyat keyfiyyəti üçün ilkin şərt olan sosial rifah beynəlxalq hesabatlarda həyat keyfiyyəti indeksinə əsaslanır və sağlamlıq, təhsil səviyyəsi, ailə həyatı, maddi rifah, ictimai həyat, siyasi sabitlik və ekoloji təhlükəsizlik, siyasi azadlıq, gender bərabərliyi və s. göstəricilərə əsaslanır. İnsanların gəlir səviyyəsi, yığımları, ekoloji təmiz qidalanma, səhiyyə xidmətlərindən istifadə səviyyəsi, sağlam ömür və s. amillərlə əlaqəli olan həyat standartları isə sosial rifah səviyyəsini xarakterizə edir. “ Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə dayanıqlı, inklüziv və özəl təşəbbüslərə əsaslanan iqtisadi artımin sürətlənməsi yeni inkişaf magistralının ideoloji nüvəsini təskil edir.” (Milli Prioritetlər)

İnsanların rifahını, həyat keyfiyyətini və sağlamlığını təmin etmək üçün ən mühüm imkanlardan biri yaşıl iqtisadiyyatdır. Yaşıl iqtisadiyyat insan kapitalının yaşayış keyfiyyətinin artırılması və sağlamlılığının qorunması üçün yaşıl artıma nail olunmasına zəruri vasitə kimi baxır. Müasir cəmiyyətlərdə sosial rifah dövlətləriinin başlıca məqsədləri minimum yaşayış standartlarının təmini, gəlirlərin ədalətli bölgüsü, məhsul və xidmətlərin davamlılığının təmini, iqtisadiyyatın qeyri-sabitliyinin aradan qaldırılması, ekoloji təhlükəsizlik, maksimum seçim azadlığı, mənzil, səhiyyə, təhsil, səhiyyə və s. ictimai tələbatların təmin edilməsidir.

Beləliklə yaşıl iqtisadiyyatla sosial rifah arasında həm vəhdətlik, həm də qarşılıqlı asililiq mövcuddur. Dayanıqlı yaşıl inkişaf sosial problemlərin maddi təminidirsə, yaxşı həyat səviyyəsinə malik olan insanlar isə öz ölkəsinin iqtisadiyyatının yaşıllaşdırılmasında, davamlı və sürətli inkişafında bir vasitədir. İnsanların daha yaxşı qidalanması, təhsili və sağlamlığı, yüksək həyat şəraiti və s. sosial rifah səviyyəsini yaxşılaşdırmaqla onların iqtisadi fəallığını artırır və iqtisadi inkişafa səbəb olur . Yaşıl iqtisadiyyatın sosial faydası ətraf mühitə vurula biləcək zərərli təsirlərin azaldılması nəticəsində insanlar üçün daha sağlam ətraf mühit və daha yüksək rifahın təmin edilməsidir. https//modrn.az> iqt.> Ona görə də hər bir dövlətin ekoloji siyasəti həyata keçirmək üçün yüksək ekoloji düşüncəyə, mədəniyyətə və ekoloji biliyə malik olan insanlara ehtiyacı vardır.

Yaşıl təhsilə malik olan insanlar ətraf mühitə münasibətinə yenidən baxmağa və bilikləri təkmilləşdirməklə baxış və əqidələrini dəyişdirməklə ekoloji cəhətdən zərərli həyat tərzi və davranışdan imtina etməyə kömək etmək üçün əhəmiyyətli potensiala malikdir. Təbii sərvətlərin tükəndiyi və yararsız hala düşdüyü, iqlim böhranının təhlükəli olduğu bii vaxtda yaşıl iqtisadiyyatda uğur qazanmaq üçün ekoloji maarifləndirmə qlobal rifah üçün əsas rol oynayır.




https://cvyarat.app> yaşıl-iqtisadiyyat-karyerası

Bununla yanaşı insanların sağlamlılığının qorunması üçün səhiyyə sistemi nə qədər mükəmməl olarsa, əhalinin təbii artımı, əmək qabiliyyəti və əmək fəaliyyəti bir o qədər yüksək olar , ömür müddəti uzanar, sosial rifah yaxşılaşar. Dünya Səhiyyə Təşkilatının araşdırmalara əsasən çirklıi hava səəbəbindən baş verən ölüm hallarının iqtisadi xərci ÜDM-in 7,1% təşkil edir. Hazırda dünyada qəbul edilən sosial rifah göstəricilərindən biri olan sosial sağlamlıq indeksi ÜDM-in ölçə bilmədiyi 16 sosial-iqtisadi göstəricini nəzərdə tutur.

**3. İqtisadiyyatın yaşıllaşdırılmasının sosial rifaha təsir istiqamətləri.** Qlobal sosial-iqtisadi problemlər - işsizlik, müharibələr, ərzaq problemi ilə yanaşı təbii ehtiyatların azalması, ətraf mühitin çirklənməsi, təhlükəli iqlim dəyişiklikləri və s. problemlərin həlli "yaşıl iqtisadiyyat"ın artırılması sahəsində həyata keçirilən tədbirlərdən çox asılıdır. Təbii sərvətlərdən daha dolğun istifadə edilməsi üçün atmosferə atılan zərərli maddələrdən ətraf mühitin çirklənməsini minimuma endirən yaşıl enerji istehsalıdır.Yaşıl texnologiya vasitəsi ilə tükənməyən və bərpa olunan mənbələrdən istifadə edilməsi ilə enerji ehtiyatlarının şaxələndirilməsi ətraf mühitin zəərəsizləşdirilməsi ilə insanların sağlamlığını təmin edir.

Mütəxəssislərin fikrincə ölkənin su ehtiyatının 25%-nin ,7200 mqvt gücündə günəş enerjisinin, 2000 mqvt gücündə külək enejisinin Qarabağ bölgəsində yerləşməsi yaşıl iqtisadiyyatın inkişaf imkanlarını daha da genişləndirərək enerji təhlükəsizliyinin ekoloji təmiz texnologiyalar vasitəsilə təmininə şərait yaradacaqdır. Ona görə də bu sahələrə investisiya qoyuluşlarının həyata keçirilməsi, alternativ enerjinin ümumi istehlakda payının 2026-da 24%-dən 2030-dakı -30 % hədəfinə çatdırılması Azərbaycanda enerji transferi üşün münbit şərait yaradır. ( İnkişaf strategiyası. 2022)

İqtisadi inkişafın ekologiyalaşdırılmasının əsas istiqamətlərindən biri olan yaşıl texnologiyaların tətbiqi ilə tullantıların xammal kimi təkrar emalı və yenidən istifadəsi enerji qənaətinə imkan verməklə yanaşı təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısı alınır. (COP-29: Azərbaycanı yaşıl iqtisadiyyata keçid strategiyası. https:\\ x/q qəz. az/. 172592 ) Ətraf mühitin çirklənməsi sağlamlığa

mənfi təsirləri ilə yanaşı iqtisadi xərcləri əhəmiyyətli dərəcədə artırır. İnkişaf Strategiyasında tullantıların təkrar emalı prosesinin əhatə dairəsinin 2026-cı ilədək 20%, regionlarda isə 10% təşkil edilməsi nəzərdə tutulmusdur. Energetika sahəsində həyata keçirilən tədbirlər sayəsində bu sektor üzrə əvvəlki illərdə müqayisədə havaya atılan tullantılaar 2 dəfə azaldılmışdır.

Tullantıların idarə olunması və ətraf mühitə təsirini azaltmaq sahəsində səmərəli təcrübələrdən biri də onların yandırılaraq zərərsizləşdirilməsi və bu prosesdən enerji əldə olunmasıdır (S.Qurbanov 107-108) "Təmiz şəhər ASC" tərəfindən həyata keçirilən Balaxanı sənaye parkında Bakı və ətraf qəsəbələrdə müasir texnologiyaların tətbiqi ilə tullantıların təkrar emalı və bərk məişət tullantilarinin çeşidlənməsi və yandırılması zavodu ucuz xammal bazası yaradır ki, bu da təbii resurslardan davamlı və səmərəli istifadə olunması deməkdir. . Bu prosesdən enerji əldə olunması illik gücü 500 min ton məişət və10 min ton tibbi tullantıların yandırılması nəticəsində 231,5 mln.kvt.saat elektrik enerjisi istehsal olunur ki, bu da 100 min ev təsərrüfatını elektrik enerjisi ilə təmin etməyə imkan yaradır.( https:ekonomy.qov.az> paqe>yaşıl-iqtisadiyyat)

Qlobal iqlim dyişmələrindən yaranan problemlər İqlim dəyişmələri üzrə hökumətlər arası Ekspert qrupunun (İPCC) hesabatlarında əks olunur. Hesabata görə son 100 ildə yer kürəsində orta temperatur ən azı 0,8 % artmışdır və bu artım həddi 3%-i keçdikdə canlıların təqribən 20%-nin nəslinin kəsilməsi təhlükəsi yaranacaqdır. İqlim dəyişikliyinin ən cox zərər vurduğu iqtisadi sahələrdə ekoloji tarazlığn qorunması ətraf mühitə dəyən zərərlərin azaldılması ilə insanların sağlam yaşayışının təminidir. BMT-nin iqlim dəyismələri üzrə Çərçivə Konvensiyasında Azərbaycanın dördüncü milli hesabatında 1990-cı illə müqayisədə tullantıların 31,6% azalmasına nail olunmasına və 2050-ci qədər tullantılar nəticəsində cirklənmənin 40%-dək azaldılması, həmcinin Qarabağ üzrə sıfır emissiya zonasının yaradılması nəzərdə tutulmuşdur. Bu konvensiyanın Tərəflər konfransının 29-cu sessiyasının (COP 29) Azərbaycanda keçirilməsi bu ili Yaşıl dünya naminə həmrəylik ili adlandırılması qlobal məsələlərə çağırış kimi qiymətləndirilir.

Yaşıl dünya naminə həmrəylik ilində yaşıl artım ölkəsi kimi- ətraf mühitin sağıamıaşdırılması, yaşıllıqların bərpası və artırılması, dayanıqlı enerji mənbələrindən səəmərəli iqtifadə sahəsində işlər davam etdirilir. Məs. "Asan xidmət" və Ekologiya və təbii sərvətlər Nazirliyinin birgə reallaşdırdığı "Yeni nəsil" adlı ekoloji-sosial layihə (coğrafi və iqlim xüsusiyyətlərinə uyyğun olaraq ağac əkilməsi və onlara qulluq edilməsi), 21 Mart "Beynəlxalq meşələr günü"(yer kürəsinin ag ciyəri sayılan meşələrə,) 22 aprel "Beynəlxalq yer günü, 17 iyun Ümumdünya ətraf mühitin mühafizəsinə və sağlamlığına quraqlıq və səhralaşma günlərində https:///yaşıl gələcək.az./aksiyalar keçirilmişdir.

| PEŞƏLƏR | ÖHDƏLİKLƏR |
|---|---|
| Bərpa olunan enerji növləri üzrə mütəxəssislər | Bərpa olunan enerji növlərindən istifadənin ətraf mühitə təsirinin öyrənilməsi və təhlili |
| Ekoloji mühəndislər | Ekoloji təhlükələrin qarşısını almaq üçün mühəndisllik texnologiyalarının tətbiqi |

| MP | | |
|---|---|---|
| | Ekoloji iqtisadçı | Ətraf mühitlə iqtisadiyyat arasımdakı əlaqənin təhlili və yaşıl iqtisadiyyata təsirlərinin öyrənilməsi |
| | Yaşıl biznes məsləhətçisi | Biznes fəaliyyətinə kömək üçün ətraf mühitə zərər verməyən əməliyyatlar üzrə məsləhətlən tövsiyyə edilməsi |
| | Sahə mütəxəssisi | Ayrı-ayrı sahələr üzrə ətraf mühitdəki dəyişikliklərinin təhlil edir və təbii resursların qorunması üzrə tədqiqatları |
| | Təkrar emal və tullantıların idarə edilməsi üzrə mütəxəssislər | Sənaye və məişət tullantılarının təkrar emalı və idarə edilməsi üçün səmərəli üsulların hazırlanması |
| | Yaşıl kənd təsərrüfatı üzrə mütəxəssislər | Kənd təsərrüfatının sektorunda ekoloji təmiz məhsulların davamlı inkişafı üsullarının araşdırılması və tətbiqi |
| | İqlim dəişikliklərinin təhlilçisi | İqlim dəyişiklikləri üzrə məlumatlatın öyrənilməsi və təsirlərinin təhlili |
| | Yaşıl məhsul və xidmət meneceri | Davamlı istehsal üçün ekoloji təmiz məhsullsarın hazırlanması və bazara çıxarılması |
| | Ekoturizm mütəxəssisi | Ətraf mühitə və yerli əhalinin rifahına minimum təsir göstərən turizm xidmətlərinin təşkili və idarə edilməsi |

sənədinə əsasən hazırlanmış 2022-2026 illərdə sosial-iqtisadi inkişaf strategiyasında göstərildiyi kimi Azərbaycanda yerüstü su ehtiyatlarının 70% nin ölkə ərazisindən kənarda olması ölkənin keyfiyyətli suya olan tələbatının ödənilməsində problemlər yaradır. Su ehtiyatlarından səmərəli istifadə edilməsi ilə yanaşı yaşıllıqların bərpası və keyfiyyətli ekoloji mühitə nail olunması, ekoloji mühitin sağlamlaşdırılması üçün əhalinin işməli su ilə təminatı 70%-dən 85%ə, suvarma suyu ilə təminatı 80-90%-ə catdırılması nəzərdə tutulmuşdur.

Kənd təsərrüfatında təbii ehtiyatlara ən az zərər vurula biləcək kimyəvi gübrələrdən istifadə edilməsi (Abduramov M.2016) , iqlim dəyişmələrinə tab gətirmək üçün ətraf mühitin təsirlərinə davamlı olan yeni sort toxumlarının yaradılması( Qurbanov S. 2022) ilə ərzağa olan tələbatının ödənilməsi insanların maddı yaşayışını təmin edir. Təbii ehtiyatların düzgün istifadəni nəzərdə tutan yaşıl kəndin yaradılması üçün 2026-cı ilə qədər istifadəyə yararsız torpaq sahələrinin payının 25%-dən 15%-dək azalması, torpaqların 30%-də aqrokimyəvi analizlərin aparılması ilə təmin olunması nəzərdə tutulmuşdur. Bioloji müxtəlifliyin qorunması, meşə ilə örtülü ərazilərin və yaşıllıqların mühafizəsinin gücləndirilməsi məqsədi ilə ölkədə yaşıllıqların payı 12%-dən 12,3%-ə çatdırılması, meşə fondunun 65% inventarlaşdırılması da həyata keçiriləcəkdir. (Strategiya). Həmçinin Azərbaycanda geniş turizm potensialının olması ətraf mühitin resurslarından optimal istifadə edilməsi ilə alternativ yaşıl tiruzm sahəsində infrastrukturun genişlənməsinə böyük imkanlar yaradır. Ona görə də digər ölkələrin nümunələrindən öyrənməklə turizmdə yaranan problemlərin həlli ilə həm yerli əhalinin işlə təmini, həm də ölkəyə yüksək gəlir gətirilməsi baxımından çox zəruridir.

Yaşıl iqtisadiyyat həmçinin iqlim dəyişikliyi ilə mübarizəni nəzərdə tutan və həyata keçirən iş yerlərinin yaradılması ilə iqtisadi bərabərsizliyi aradan qaldırırır. Əhalinin işlə təminatı onun real gəlirlərini artırmaqla öz əməyi hesabına sosial problemlərinin həllinə imkan yaradır. Nə qədər çox əhali işlə təmin olunarsa aztəminatlılara, işsizlərə, pensiyaçılara, əlillərə yönəldilən məsrəflər azalar ki ,bu da dövlətin sosial yükünü azaldır.

Ətraf mühitin sağlamlaşdırılması üçün ekoloji problmləri həll etməyə yönəldilən müxtəlif iş imkanlarını aşağıdakı kimi qruplaşdırılır:

https:// app\iş axtarışı/ yaşıl iqtisadiyyat

**Nəticə.** Yaşıl iqtisadiyyata keçid təkcə təmiz texnologiyalar deyil, ölkə iqtisadiyyatının və əhalinin tələblərini nəzərə alan milli artım modelidir. Bu modelin qarşısında duran vəzifələrin həlli Azğbaycanın sosial-iqtisadi inkişaf Strategiyasında göstərildiyi kimi bütün sahələrdə alternativ və və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmalı və iqlim dəyişikliklərinə təsiri azaldılmalıdır. Eyni zamanda neft-qaz ehtiyatlarından asılılığın aradan qaldırılması, qeyri-neft sektorunun dayanıqlı inkişafı üçün bərpa oluna bilən yeni enerji mənbələrinin yaradılması, iqtidsadiyyatın şaxələndirilməsi ilə məşğulluğun artırılması sosial-iqtisadi problemləri azaldır. Yaşıl texnologiyaların tətbiqi ilə tullantıların xammal kimi təkrar emalı və təbii sərvətlərin israfının və ekoloji çirklənmənin qarşısının alınması isə insanların sağlam və uzunömürlü yaşamasının təminidir.

**Ədəbiyyat:**


1. Azərbaycan 2030: Soaial-iqtisadi inkişafa dair Milli Prioritetlər 2021

2. AR-nın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. 2022 səh.19

3.Abduramov M. Sürdürebilir Gəlişmə yaklaşımında Yeşil ekonominin önemi, Uluslararası yönetimi və Sosyal Araşdırmalar dergisi.səh.3.6) 29-39.2016

4. Alizada N. Yeni enerji bağlamında Karabağın enerji potensiyeli. Araşdırma makalesi. Avrasiya incələmələri dergisi.səh 2. 2022.

5.Babayev C. Azərbaycanın bərpa olunan enerji sahəsinin inkişafında investiisiyaların rolu . 174. 2022.

6. Eminov F.B. Məhərrəmova X. Ekoloji fəaliyyətin idarə olunması. Dərs vəsaiti 56 s.200. 2021.

7.Qurbanov S. Davamlı inkişaf kontekstində ekoloji siyasətin prioritet istiqamətləri və yaşıl iqtisadiyyat B,2023.

8. Həsənov R.S. Ətraf mühit iqtisadiyyatı. Dərslik. Bakı .İqtisad Universiteti Səh.425-440.

9. Qasımlı V., Ramil H., Hüseynov R., Həsənov F., Səfərov C., Bayramova A.Yaşıl iqtisadiyyat. 2022.

10. https/: e-qanun.az/

11. https:ekonomy.qov.az. paqe.yaşıl-iqtisadiyyat

12. https: /yaşıl gələcək.az./

13. https://cvyarat.app yaşıl-iqtisadiyyat-karyerası.

14. https:// app\iş axtarışı/ yaşıl iqtisadiyyat.

15. https//modrn.az. iqt.

# TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİNDƏ TƏCRÜBƏLƏRİN TƏDQİQİ

**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
Magistrant **Fatimə Rauf qızı Məmmədova**
memmedovafatime149@gmail.com

**Xülasə**

Təchizat Zəncirinin İdarə Edilməsi (SCM) xammaldan son müştərilərə qədər mal və xidmətlərin istehsalı və çatdırılması üçün tələb olunan fəaliyyətlərin əlaqələndirilməsini əhatə edir. Effektiv SCM təcrübələrinə tələbin proqnozlaşdırılması, inventarın idarə edilməsi, satınalma və paylama daxildir. Süni intellekt (AI), blokçeyn və Əşyaların İnterneti (IoT) kimi qabaqcıl texnologiyalar real vaxt rejimində məlumatların izlənilməsini təkmilləşdirmək, qərar qəbuletmə prosesini təkmilləşdirmək və təchizat zəncirinin şəffaflığını artırmaqla bu prosesləri optimallaşdırmaq üçün getdikcə daha çox istifadə olunur. Bundan əlavə, şirkətlərin karbon izlərini azaltmaq üçün ekoloji cəhətdən təmiz təcrübələri birləşdirməyə çalışmaları ilə davamlılıq ön plana çıxdı.

Təchizat zəncirinin düzgün işləməsi üçün təchizatçılar, istehsalçılar və distribyutorlar arasında əməkdaşlıq çox vacibdir. Təchizatçılarla əlaqələrin idarə edilməsi və vaxtında kommunikasiyanın təmin edilməsi gecikmələrin qarşısını almaq və riskləri minimuma endirmək üçün açardır. Proqnozlaşdırılan analitika kimi dataya əsaslanan yanaşmalar şirkətlərə tələbi qabaqcadan görməyə və əməliyyatları müvafiq qaydada tənzimləməyə kömək edir, risklərin idarə edilməsi strategiyaları isə təbii fəlakətlər, geosiyasi gərginliklər və ya təchizat çatışmazlığı kimi potensial pozuntuları azaltmaq üçün istifadə olunur.

COVID-19 pandemiyası qlobal təchizat zəncirlərindəki zəiflikləri vurğuladı və daha möhkəm və uyğunlaşa bilən sistemlər üçün təkanları sürətləndirdi. Qlobal bazarlar inkişaf etdikcə, müəssisələr tədarük zəncirinin çevikliyinə və sürətinə diqqəti artıraraq daha çevik və şaxələndirilmiş təchizat zənciri strategiyaları qəbul edirlər.

**Jel kod**: D35, E22, F12, F40

**Açar sözlər**: Logistika, mallar, məlumatlar, idarəetmə, təchizat zənciri, biznes.

**Resume**

Supply Chain Management (SCM) involves the coordination of activities required to produce and deliver goods and services, from raw materials to end customers. Effective SCM practices include demand forecasting, inventory management, procurement, and distribution. Advanced technologies, such as Artificial Intelligence (AI), blockchain, and Internet of Things (IoT), are increasingly used to optimize these processes by enhancing real-time data tracking, improving decision-making, and increasing supply chain transparency. Additionally, sustainability has gained prominence, with companies seeking to integrate environmentally friendly practices to reduce carbon footprints.

Collaboration among suppliers, manufacturers, and distributors is critical for the smooth functioning of the supply chain. Managing supplier relationships and ensuring timely communication are key to preventing delays and minimizing risks. Data-driven approaches, such as predictive analytics, help companies anticipate demand and adjust operations accordingly, while risk management strategies are

employed to mitigate potential disruptions like natural disasters, geopolitical tensions, or supply shortages.

The COVID-19 pandemic highlighted the vulnerabilities in global supply chains and accelerated the push for more resilient and adaptable systems. As global markets evolve, businesses are adopting more flexible and diversified supply chain strategies, increasing the emphasis on supply chain agility and speed.

**Keywords**: Logistics, goods, information, management, supply chain, business

**Giriş**

Təchizat zəncirinin idarə edilməsi (SCM) xüsusilə qlobal rəqabət və sürətli texnoloji tərəqqi mühitində müasir müəssisələrin uğurunun əsas amilidir. Səmərəli təchizat zəncirləri təkcə malların vaxtında çatdırılmasını təmin etmir, həm də xərcləri optimallaşdırır, riskləri minimuma endirir və dəyişən tələb qarşısında şirkətin çevikliyini artırır.

Təchizat zəncirinin idarə edilməsi təcrübələrinin öyrənilməsi prosesin bütün iştirakçıları - xammal tədarükçülərindən tutmuş son istehlakçılara qədər əlaqələndirmək üçün şirkətlər tərəfindən istifadə olunan ən yaxşı metod və texnologiyaları təhlil etmək məqsədi daşıyır. Bu tədqiqat ən yaxşı təcrübələrin təkmilləşdirilmiş əməliyyat səmərəliliyinə, biznesin davamlılığına və təkmilləşdirilmiş müştəri cəlb edilməsinə necə töhfə verdiyini müəyyən etməyə kömək edir. Bu mövzuya giriş müasir şirkətlərdə dəyər və rəqabət üstünlüyü yaratmaqda SCM-nin rolunu başa düşmək üçün vacibdir.

**1. Təchizat zəncirinin idarə edilməsində ən yaxşı təcrübələrin tətbiqi**

Malların tədarükçülərdən müştərilərə səmərəli axınının təmin edilməsi təchizat zəncirinin idarə edilməsində ən yaxşı təcrübələrin qəbul edilməsini tələb edir. Burada diqqət mərkəzində olan bəzi əsas məsələlər var ki, bunlardan da biri tələbin dəqiq proqnozlaşdırılmasıdır. Qabaqcıl analitikadan istifadə proqnozları əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər, beləliklə, artıq inventar azalda və ehtiyatların tükənməsi minimuma endirilir. Təbii ki, bu istiqamətdə vacib məsələlərdən biri də təchizatçılarla intensiv əməkdaşlıqdır. Təchizatçılarla güclü əməkdaşlıq daha yaxşı ünsiyyət, vaxtında çatdırılma və təkmilləşdirilmiş keyfiyyətə nəzarəti təşviq edir. Bu mənada, əsas təchi-zatçılarla uzunmüddətli əlaqələr qurmaq vacibdir.

Təchizat zəncirinin idarə edilməsində vacib elementlərdən biri də inventarlaşdırmadır. Tam zamanında (JIT) inventarlaşdırma təcrübələrinin tətbiqi saxlama xərclərini və tullantıları azalda bilər. Bununla belə, potensial kənaraçıxmaların qarşısını almaq üçün balans qorunmalıdır. Müasir dövrün tələblərinə uyğun olaraq, resursların düzgün və çevik planlaşdırılması (ERP) sistemləri, əşyaların interneti (IoT) və blokçeyn kimi texnologiyalardan istifadə logistik prosesləri sürətləndirə, uyğunluğu təmin edə bilər və məhsulları izləməyə imkan yaradar.

Araşdırmalar göstərir ki, təchizat zəncirində qabaqcıl təcrübələrin davamlı tətbiqi xərclərə qənaətə gətirib çıxara və korporativ sosial məsuliyyət məqsədləri ilə uyğunlaşa bilər. Burada karbon izlərinin azaldılması və resursdan istifadənin optimallaşdırılması daha çox diqqəti cəlb edir. Bütün proseslərdə olduğu kimi, təchizat zəncirinin idarə edilməsində də mühüm addımlardan biri risklərin təhlili, qiymətləndirilməsi və idarə olunmasıdır. Təchizat zəncirində risklərin proaktiv şəkildə müəyyən edilməsi və azaldılması həyati əhəmiyyət kəsb edir. Bu, təchizatçıların şaxələndirilməsini, etibarlı təhlükəsizlik ehtiyatlarının formalaşmasını və fövqəladə hallarla bağlı planların hazırlan-masını əhatə edə bilər.

Prosesin monitorinqi, aydın əsas performans göstəricilərinin (KPI) yaradılması davamlı moni-torinq və təkmilləşdirməyə imkan verir. Bu göstəricilərə sifariş dəqiqliyi, çatdırılma müddəti və müştəri məmnuniyyəti dərəcələri daxil ola bilər. Hansı ki, bütün bunlar da davamlı olaraq kadr heyətinin təkmilləşdirilməsini, ixtisasartırmanı tələb edir. Ona görə də, davamlı təlimlər zəruridir. Davamlı təlim proqramları işçilərin cari qabaqcıl təcrübə və texnologiyalarda təcrübəli olmasını təmin edir. Bu baxımdan işçilərin inkişafına sərmayə qoymaq uzunmüddətli əhəmiyyətli faydalar verə bilər.

Aydındır ki, logistik proseslərin əsas iştirakçılarından biri də müştərilərdir. Ona görə də müştəri rəylərinin aktiv şəkildə toplanması və təhlili istehlakçı ehtiyaclarını daha yaxşı ödəmək üçün təchi-zat zənciri proseslərinin təkmilləşdirilməsinə kömək edə bilər . O cümlədən, ideya rəhbərləri, liderlər ilə əlaqə saxlamaq və sənaye tendensiyalarından xəbərdar olmaq ən yaxşı təcrü-bələrin effektivliyini daha da artıra, bazarda rəqabət qabiliyyətini və inkişafı təmin edə bilər.

## 2. Müasir logistikada çətinliklər və onların aradan qaldırılması yolları

Müasir logistika sahəsində müəssisələr səmərəliliyə və gəlirliyə mane ola biləcək bir sıra mühüm problemlərlə üzləşirlər. Bu problemlərin müəyyən edilməsi və onların aradan qaldırılması üçün strategiyaların işlənib hazırlanması əməliyyatların optimallaşdırılması üçün çox vacibdir. Təcrübə göstərir ki, müasir çağırış və problemlər müxtəlif istiqamətlərdə, eləcə də fərqli formalarda təzahür edir. Bunları aşağıdakı kimi təsnifləşdirə bilərik:

- Təchizat zəncirinin pozulması: Təbii fəlakətlər, siyasi qeyri-sabitlik və pandemiyalar tədarük zəncirlərini poza bilər. Bu pozuntular çox vaxt gecikmələrə, xərclərin artmasına və müştəri məmnuniyyətinin azalmasına səbəb olur. Bunun üçün tək mənbədən asılılıqla bağlı riskləri azaltmaq üçün təchizatçıların diversifikasiyası, real vaxt rejimində monitorinq və fasilələrə sürətli reaksiya üçün texnologiyalara sərmayə qoyuluşu nəzərdən keçirilə bilər.
- İnventar idarəetmə: Səhmlərin düzgün balansını saxlamaq çətin və zəruridir. Anbarların həddindən artıq yığılması saxlama xərclərinin artmasına, azlıq isə anbarların tükənməsinə və satışların itirilməsinə səbəb ola bilər. Bu istiqamətdə avtomatlaşdırılmış və süni inventar idarəetmə sistemlərindən istifadə, tələbi dəqiq proqnozlaşdırmaq və ehtiyat səviyyələrini optimallaşdırmaq üçün məlumat analitikasının tətbiqi səmərəli ola bilər.
- Texnoloji inteqrasiya: Yeni texnologiyaların mövcud sistemlərlə inteqrasiyası mürəkkəb və bahalı ola bilər. Bütün hallarda isə bu proses zamanı məlumatların dəqiqliyini və təhlükəsizliyini təmin etmək vacibdir. Tədricən inteqrasiyaya imkan verən modul sistemlərin qəbulu, asan keçidləri təmin etmək üçün geniş sınaq və təlimlərin keçirilməsi vacibdir.
- Nəqliyyat xərcləri: Yanacağın qiymətlərinin artması və işçi qüvvəsi xərcləri nəqliyyat xərclərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Marşrut və nəqliyyat vasitələrinin düzgün serçilməməsi bu xərcləri daha da artırır. Ona görə də logistik proseslərdə vacib məsələlərdən biri də daşıma obyektinə (yükə) və şəraitinə uyğun olaraq daşıma vasitəsinin düzgün seçilməsidir . Bununla belə, yanacaq sərfiyyatını və səyahət vaxtını azaltmaq üçün marşrutun optimallaşdırılması proqramının tətbiqi, xərcləri azaltmaq üçün enerjiyə qənaət edən nəqliyyat vasitələrinə və alternativ nəqliyyat üsullarına investisiya qoyuluşu da diqqət mərkəzində saxlanılmalıdır. Bu problemlərin həllində proaktiv yanaşma bizneslərə etibarlı təchizat zəncirlərini və səmərəli logistik əməliyyatları saxlamağa imkan verir.

### 3. Uğurlu Təchizat Zəncirinin Optimizasiyası

Logistik proseslərin səmərəliliyində vacib elemenlərdən biri də təchizat zəncirinin optimallaşdırılmasıdır. Araşdırmalar göstərir ki, müxtəlif təsərrüfat subyektləri optimallaşdsırmaya fərqli yanaşır. Ayrı-ayrı şirkətlərin yanaşmasında oxşarlıqlar olmaqla yanaşı, prioritetlər fərqlidir. Aşağıda müxtəlif şirkətlərin optimallaşdırma strategiyası (addımları) təqdim edilir. Təqdim olunan məlumatlar ayrı-ayrı şirkətlər üzrə optimallaşdırmanın oxşar və fərqli cəhətlərini aydınlaşdırmağa kömək edir:

Walmart (Effektiv İnventar İdarəetmə) tədarük zəncirinin optimallaşdırılması pərakəndə satış sənayesində etalondur. Onlar aşağıdakı kimi qabaqcıl texnologiyalardan istifadə edərək yüksək səmərəli inventar idarəetmə sistemini tətbiq edirlər:

- Radio Tezlik İdentifikasiyası (RFID): İnventar izləməni və real vaxt məlumatlarının dəqiq-liyini artırır.
- Cross-Docking: Malları qəbul edərək birbaşa göndərmə doklarına köçürməklə inventar saxlama xərclərini minimuma endirir.
- Vendor tərəfindən idarə olunan inventar (VMI): Təchizatçılar öz məhsulları və ehtiyatlarını birbaşa idarə edir, vaxtında ehtiyatın yığılmasını və mövcudluğunu təmin edirlər.
- Yalın İstehsal: Davamlı təkmilləşdirmə yolu ilə tullantıları minimuma endirir və məhsuldarlığı artırır.
- Kanban Sistemi: İstehsalı başlamaq və lazım gəldikdə inventarları artırmaq üçün vizual siqnallardan istifadə edir.
- Təchizatçı Münasibətləri: Keyfiyyətli və vaxtında çatdırılmanı təmin etmək üçün təchizatçılarla uzunmüddətli əməkdaşlıq əlaqələri qurur.

Walmartdan fərqli olaraq, Amazon (İnteqrasiya edilmiş texnologiya) inteqrasiya olunmuş texnologiya və avtomatlaşdırma vasitəsilə təchizat zəncirini optimallaşdırır. Optimallaşdırma addımları (strategiyası) oxşar olduğu kimi, həm də ciddi fərqlər də mövcuddur:

- Anbarın avtomatlaşdırılması: Toplama, qablaşdırma və göndərmə proseslərini sadələşdirmək üçün robotlar və süni intellektdən istifadə edir.
- Nəqliyyat Şəbəkəsi: Daha sürətli çatdırılma müddətləri üçün çatdırılma maşınları parkı da daxil olmaqla qlobal daşıyıcı şəbəkəsindən istifadə edir.
- Data Analytics: Tələbi proqnozlaşdırmaq, marşrutları optimallaşdırmaq və xərcləri azaltmaq üçün qabaqcıl analitikadan istifadə edir.

DHL (Davamlı Logistika) səmərəliliyi qoruyarkən ətraf mühitə təsirini azaltmaq üçün davamlı logistik həllər tətbiq edir. Əsas təşəbbüslər bunlardır:

- Yaşıl Anbar: Enerjiyə qənaət edən işıqlandırma, bərpa olunan enerji mənbələri və davamlı tikinti materiallarından istifadə edir.
- Karbon Effektiv Nəqliyyat: Öz parkında alternativ yanacaq və elektrik nəqliyyat vasitələri tətbiq edir.
- Eko-dost qablaşdırma: Təkrar emal oluna bilən və bioloji parçalana bilən materiallar vasitəsilə tullantıları azaldır .

Dünyaca məşhir “Zara”nın ana şirkəti olan Inditex, sürətli moda modeli ilə moda sənayesində inqilab edir. Əsas strategiyalara aşağıdakılar daxildir:

- Şaquli İnteqrasiya: Təchizat zəncirinin dizayndan paylanmaya qədər bütün aspektlərinə nəzarət edir.
- Tez cavab: İstehsal dövrünü qısaldır, dəb tendensiyalarına sürətli uyğunlaşmaya imkan verir.
- Daxili İstehsal: Malların əhəmiyyətli bir hissəsini öz daxilində istehsal etməklə çeviklik və sürəti qoruyur [6, ].

P&G (Procter & Gamble; Birgə Planlaşdırma) - pərakəndə satıcılarla birgə planlaşdırma vasitəsilə təchizat zəncirini gücləndirir. Əsas elementlər bunlardır:

- Birgə Planlaşdırma, Proqnozlaşdırma və Doldurma (CPFR): Tələb və təklifi sinxronlaşdırmaq üçün pərakəndə satıcılarla tərəfdaşlıq edir.
- Birbaşa Mağazaya Çatdırılması (DSD): Səmərəli çatdırılmanı təmin edir və anbarda qalma hallarını minimuma endirir.
- Şəbəkə Optimizasiyası: Paylayıcı şəbəkələri optimallaşdırmaq və xərcləri azaltmaq üçün mürəkkəb alqoritmlərdən istifadə edir.

Yuxarıda qeyd olunan nümunə araşdırmaları sənaye liderlərinin uyğunlaşdırılmış təchizat zəncirinin optimallaşdırılması strategiyaları vasitəsilə diqqətəlayiq effektivliyə və rəqabətə necə nail olduqlarını nümunə göstərir. Oxşar yanaşmaları başa düşmək və həyata keçirməklə bütün ölçülü bizneslər öz əməliyyat performanslarını artıra və bazardakı mövqelərini gücləndirə bilərlər.

## 4. Təchizat zəncirinin idarə edilməsində məlumat analitikasının rolu

Data (məlumat) analitikası tədarük zəncirinin idarə edilməsində transformativ rol oynayır və bizneslərə geniş məlumat dəstlərindən təsirli fikirlər əldə etməyə imkan verir. Qabaqcıl analitikanın yaranması ilə təşkilatlar səmərəliliyi artırmaq, tələbi dəqiq proqnozlaşdırmaq və əməliyyat xərclərini azaltmaq üçün məlumatlardan istifadə edə bilərlər. Data analitikasından istifadə edərək, şirkətlər tarixi satış məlumatlarını, bazar tendensiyalarını və istehlakçı davranışını təhlil edərək bazar tələbini təxmin edə bilərlər. Tələbin dəqiq proqnozlaşdırılması, optimal inventar səviyyələrini təmin edərək, ehtiyatların tükənməsini və həddindən artıq stok vəziyyətlərini minimuma endirir.

Məlumat analitikası real vaxtda inventar izləmə və idarə etməyə kömək edir. Proqnozlaşdırılan analitikadan istifadə etməklə müəssisələr yenidən sifariş nöqtələrini müəyyən edə, ehtiyat səviyyələrini optimallaşdıra və daşınma xərclərini azalda bilər. O cümlədən, analitika marşrutlaş-dırma və çatdırılma cədvəllərini optimallaşdırmağa, yanacaq sərfiyyatını azaltmağa və çatdırılma müddətlərini yaxşılaşdırmağa kömək edir. Trafik nümunələrini, hava şəraitini və çatdırılma pəncərələrini təhlil etməklə şirkətlər logistik əməliyyatları təkmilləşdirə bilərlər.

Analitika vasitəsilə təşkilatlar çatdırılma müddətlərini, malların keyfiyyətini və şərtlərə uyğunluğu izləməklə təchizatçının fəaliyyətini qiymətləndirə bilərlər. Bu məlumat təchizat zəncirində güclü, etibarlı əlaqələri gücləndirərək daha yaxşı təchizatçı seçməyə imkan verir.

Analitika biznesləri riskləri proqnozlaşdırmaq və azaltmaq üçün alətlərlə təchiz edir. Təchizat zəncirində təbii fəlakətlər və ya geosiyasi hadisələr kimi potensial pozuntuları təhlil etməklə şirkətlər fövqəladə hallar planları hazırlaya və biznesin davamlılığını təmin edə bilərlər [4, 126].

Məlumat analitikasının təchizat zəncirinin idarə edilməsində inteqrasiyası müəssisələrin fəaliyyət tərzində özünü büruzə verir. Məlumat anlayışlarından istifadə etməklə şirkətlər səmərəli-liyi artıra, xərcləri azalda və daha çevik və həssas təchizat zənciri yarada bilərlər.

**Nəticə:**

Effektiv logistika idarəçiliyi biznesin səmərəliliyini artırmaq üçün təməl daşı kimi xidmət edir. Təchizat zənciri üzrə əməliyyatları sadələşdirərək, müəssisələr xərcləri minimuma endirə və resursları optimallaşdıra bilərlər. Logistika prosesində artan görünürlük daha dəqiq proqnozlaşdırma və inventar idarə etməyə imkan verir, ehtiyatların tükənməsi və ya həddindən artıq istehsal riskini azaldır.

Səmərəli marşrutlaşdırma və sərfəli nəqliyyat rejimləri göndərmə xərclərini və çatdırılma vaxtlarını azaldır. Sistematik saxlama və axtarış prosesləri icra sürətini yaxşılaşdırır və əlavə xərcləri azaldır. Optimal inventar səviyyələrinin saxlanması həddən artıq ehtiyatların və ehtiyatların tükənməsinin qarşısını alır, bununla da təklifi tələblə balanslaşdırır. Avtomatlaşdırılmış izləmə sistemləri və məlumat analitikası kimi texnologiyadan istifadə real vaxtda görünmə və qərar qəbul etməyə imkan verir. Təchizatçılarla güclü əlaqələr etibarlılıq və keyfiyyəti təmin edərək daha sabit təchizat zəncirinə gətirib çıxarır. Vaxtında və dəqiq çatdırılma müştəri təcrübəsini artırır, sədaqəti artırır və biznesi təkrarlayır.

Logistikanın səmərəliliyini artırmaq üçün bir neçə xüsusi strategiya vardır. Əməliyyatları sadələşdirmək üçün logistika prosesində tullantıların müəyyən edilməsi və aradan qaldırılması, inteqrasiya edilmiş logistik planlaşdırma və icra imkanları təklif edən platformalardan istifadə, yüksək əməliyyat standartlarını qorumaq üçün işçilərin ən son logistika təcrübələri və texnologiyalarında bacarıqlı olmasını təmin etmək, təkmilləşdirmə tələb edən sahələri müəyyən etmək üçün logistika performans göstəricilərinin müntəzəm olaraq qiymətləndirilməsi nəzərdə tutulur. Bu elementlərə və strategiyalara diqqət yetirməklə, müəssisələr ümumi əməliyyat səmərəliliyini dəstəkləyən möhkəm logistika çərçivəsi yaradırlar. Bu, öz növbəsində, bazar dəyişikliklərinə və müştəri tələblərinə daha çevik cavab verməyə imkan verir, sənaye daxilində rəqabət üstünlüyünü təmin edir.

**Ədəbiyyat**


1. Autry CW, Griffis SE (2008) Supply chain capital: the impact of structural and relational linkages on firm execution and innovation. J Bus Logistics 29 (1):157–173
2. Bowersox DJ, Closs DJ, Cooper MB (2007) Supply chain logistics management. McGraw-Hill, New York
3. Chapman RL, Corso M (2005) Introductory paper from continuous improvement to collaborative innovation: the next challenge in supply chain management. Prod Plan Con 16(4):339–344
4. Chen IJ, Paulraj A (2004) Towards a theory of supply chain management: the constructs and measurements. J Opera Manage 22(2):119–150
5. Flint DJ et al (2005) Logistics innovation: a customer value-oriented social process. J Bus Logistics 26(1):113–147

6. Jonsson P, Kjellsdotter L, Rudberg M (2007) Applying advanced planning systems for supply chain planning: three case studies. Int J Phys Distrib Logistics Manage 37(10):816–834
7. Narasimhan R, Talluri S (2009) Perspectives on risk management in supply chains. J Opera Manage 27(2):114–118
8. Srai JS, Gregory M (2008) A supply network configuration perspective on international supply chain development. Int J Ope Prod Manage 28(5):386–411

## Azərbaycanda və Norveçdə Alternativ Enerji Sektorunun Stimullaşdırılması Siyasəti: Müqayisəli Təhlil

**İlahə Hüseynli**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Email:** ilaha.huseynli@unec.edu.az

**Xülasə**

Dünyada alternativ enerji sektoruna artan tələbatı nəzərə alaraq qeyd etmək lazımdır ki, bir çox ölkələr enerji təhlükəsizliklərini artırmaq, eyni zamanda ekoloji dayanıqlılıqlarını təmin etmək məqsədilə artıq bu enerji növünə keçidi sürətləndirməyə başlayıblar. Azərbaycanda da bərpa olunan enerjiyə olan ehtiyacı nəzərə alaraq bu məqalədə ölkədəki vəziyyət təhlil edilmiş, mövcud qanunvericilik siyasəti ilə bağlı məlumatlara yer verilmişdir. Eyni zamanda dünyada alternativ enerji sektoru üzrə lider dövlətlərdən olan Norveç nümunəsində beynəlxalq təcrübə tədqiq edilmişdir. Bu ölkədə müvafiq enerji sektorunun inkişafı davamlı dövlət dəstəyi, hüquqi bazanın inkişafı, uzunmüddətli enerji strategiyaları, sahə üzrə investisiyaların cəlb edilməsi kimi faktorların hesabına baş verir. Azərbaycanda bərpa olunan enerji sahəsində müəyyən tədbirlər görülsə də bu cür strategiyaların tətbiqində müxtəlif çətinliklər mövcuddur. Norveçin qabaqcıl təcrübəsindən faydalanmaqla Azərbaycanda hüquqi təminatların gücləndirilməsi ilə investisiya qoyuluşlarının artırılması, dövlət dəstəyinin təmin edilməsi, bərpa olunan enerji sektorunda müasir texnologiyaların inkişaf etdirilməsi kimi amillərə toxunulmuş və bu yolla alternativ enerji sahəsində tərəqqiyə nail oluna biləcəyi qeyd edilmişdir. Bu yanaşmaların tətbiq edilməsi Azərbaycanda alternativ enerjinin davamlı inkişafına şərait yaratmaqla ekoloji dayanıqlılığın artırılmasına da kömək edə bilər.

**Açar sözlər:** Alternativ enerji, Qanunvericilik, Norveç təcrübəsi
**JEL Kodları:** Q42, Q48, O13

**Abstract**

Many nations have already started to speed up the switch to alternative energy in order to improve their energy security and simultaneously guarantee their environmental sustainability, which is noteworthy given the rising demand for this sector globally. This article examines the state of affairs in Azerbaijan and offers details on current legislative policy, taking into account the country's need for renewable energy. Norway, one of the most prominent countries in the alternative energy sector, was the subject of a study on international experience at the same period. A number of factors, including

ongoing state support, the creation of the legal framework, long-term energy strategies, and the attraction of investments in the sector, have contributed to the growth of the relevant energy industry in this nation. Despite Azerbaijan's implementation of some renewable energy-related programs, several challenges remain. It was stated that Norway's extensive experience in areas such as strengthening legal guarantees in Azerbaijan, increasing investments, providing state assistance, and developing innovative technology in the renewable energy sector might be applied to advance the field of alternative energy. Using these strategies can also contribute to environmental sustainability by encouraging the long-term growth of alternative energy in Azerbaijan.

**Keywords:** Alternative energy, Legislation, Norwegian experience

**JEL Codes:** Q42, Q48, O13

**Giriş**

Müasir dövrdə beynəlxalq səviyyədə bərpa olunan enerji mənbələrinə artan tələbat Azərbaycanda da bu sahədə irəliləyiş əldə edilməsi üçün müxtəlif işlərin görülməsini zəruri edir. İqlim dəyişikliyi ilə mübarizə, karbon emissiyalarının azaldılması kimi məsələlərdən irəli gələn səbəblərlə bərabər qlobal miqyasda enerji mənbələrinin dayanıqlılığının təmin edilməsi və daha təmiz enerji istifadəsinin hədəflənməsi Azərbaycanda da enerji sektorunda beynəxalq təcrübənin öyrənilməsi fonunda müvafiq işlərin reallaşdırılmasını labüd edir. Aparılan tədqiqat işində adıçəkilən məsələyə önəm verilməklə bu sahədəki liderlərdən olan Norveçin alternativ enerji siyasəti təhlil edilmiş, oxşar modellərin Azərbaycanda tətbiqi imkanları dəyərləndirilmişdir. Tədqiqatın əsas məqsədi Norveçin bərpa olunan enerji siyasətinin analizini etməklə Azərbaycanda oxşar sahədə hüquqi bazanın təkmilləşdirilməsi, yaşıl texnologiyaların tətbiqi, enerji sektoruna töhfə verə biləcək yanaşmaların irəli sürülməsidir.

Tədqiqatın metodologiyası və araşdırılan mənbələrlə bağlı qeyd etmək lazımdır ki, müqayisəli təhlil, ikincili məlumat mənbələrindən, statistik göstəricilərdən istifadə edilmişdir. Əsas yanaşma kimi müqayisəli təhlil metoundan istifadə edilmişdir ki, bu sayədə Norveçin alternativ enerji modeli tədqiq edilərək Azərbaycanla eyni sahədəki fərqliliklər qeyd edilmiş, müvafiq sahədəki hüquqi vəziyyət əlaqələndirilmişdir. İkincili məlumat mənbələri kimi dövlət sənədləri, alternativ enerji ilə əlaqəli statistik məlumatlar, müxtəlif beynəlxalq hesabatlardan faydalanmaqla birlikdə Azərbaycanda enerji sektoru üçün təkliflər verilmişdir.

Azərbaycanda bərpa olunan enerji ilə bağlı statistik məlumatların əldə edilməsində çətinliklər, xarici təcrübənin tətbiq edilməsi ilə əlaqədar ölkələr arasında fərqliliklər, maliyyə və iqtisadi cəhətdən uyğunluğun olmaması kimi məsələlər tədqiqatın məhdiyyətləri kimi qeyd edilə bilər.

**Azərbaycanın Bərpa Olunan Enerji Sektoru**

Azərbaycanın bərpa olunan enerji sektorunun əsas hissəsini formalaşdıran mənbələr günəş, külək və hidroenerjidir ki, qlobal miqyasda bu sektorun önəminin getdikcə artması ilə bərabər ölkədə də yaşıl enerji istehsalında dayanıqlılığın artırılması istiqamətində yeni mənbələrdən istifadəyə təşviq edilir. Ölkənin coğrafi mövqeyini nəzərə alaraq qeyd etmək olar ki, burada yüksək günəş işığı alan ərazilərdə günəş enerjisinin tətbiqi geniş yayılmışdır. Abşeron və Xızı kimi bir sıra bölgələrdə xüsusilə külək enerjisinin potensialı böyükdür. Hidroenerji sahəsində isə çaylar və su anbarları mühüm rol oynasa da bir sıra problemlər mövcuddur ki, maliyyə vəsaitlərinin cəlbində, müasir mexanizmlərdən istifadədə bunu müşahidə etmək mümkündür (https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade, 2022) .

Aşağıda təsvir olunan cədvəldə Azərbaycanda alternative enerji sektorunun SWOT analizi yer almışdır.

**Cədvəl 1: Azərbaycanda Bərpa Olunan Enerji Sektorunun SWOT Analizi**

| S (Güclü tərəflər) | W (Zəif tərəflər) |
|---|---|
| - Zəngin enerji resursları<br>- Dövlət dəstəyi<br>- Strateji coğrafi yerləşmə | - İnfrastruktur Problemləri<br>- Maliyyə Resurslarının Çatışmazlığı<br>- Kadr Biliklərinin Zəifliyi |
| **O (Fürsətlər)** | **T (Təhdidlər)** |
| - Qlobal İqlim Dəyişikliyi və Ekoloji Tələblər<br>- Texnologiyanın İnkişafı<br>- Regional İqtisadi Əməkdaşlıqlar | - Rəqabət Mühiti<br>- İqlim Dəyişikliklərinin Təsiri<br>- Qlobal İqtisadi vəziyyət |

**Mənbə: Araşdırmadan əldə olunan məlumatlar əsasında müəllif tərəfindən hazırlanıb**

Alternativ enerji üçün imkanlar yaradan zəngin enerji mənbələrinin mövcudluğu, bir sıra problemlərin olmasına baxmayaraq dövlət tərəfindən irəli sürülən strategiyalar və qanunvericiliklə bağlı atılan addımlar, ölkənin əlverişli geostrateji mövqeyi bu sektor üçün güclü sayıla biləcək amillərdəndir. Eyni zamanda qeyd olunan sahənin inkişafı üçün infrastrukturla bağlı problemlər, daxili və xarici investisiyaların stimullaşdırılmasında maliyyə dəstəyinin zəif olması, mütəxəssis azlığı zəifliklərə missal olaraq göstərilə bilər.

Bərpa olunan enerjinin inkişafının dəstəklənməsi cəhətdən qlobal çağırışların, müxtəlif beynəlxalq qurumlarla əməkdaşlıq imkanları, texnologiyanın inkişafının təmin edilməsi ilə əlaqəli addımların atılması bu sahədə yarana biləcək fürsətlərə aid edilə bilər. Bunlardan əlavə, iqlim dəyişikliklərinin əsasən hidroenerji resurslarına göstərə biləcəyi mənfi təsirlər, iqtisadi sahədə baş verə biləcək qeyri-müəyyənliklər, digər ölkələrdəki enerji istehsalında artan inkişafın Azərbaycanda bərpa olunan enerji sektorunun inkişafında əngəllər yarada bilməsi yarana biləcək təhdidlərə əsas nümunələrdəndir (Falkowski, K., 2018).

**Azərbaycanda Alternativ Enerji Siyasəti və Qanunvericiliyi**

Azərbaycanda alternativ enerjidən istifadənin təkmilləşdirilməsi sahəsində ən mühüm addımların bu sahədə müəyyən qanunvericilik aktlarının və bir sıra strateji layihələrin qəbul edilməsi olduğunu vurğulamaq lazımdır. Bu kimi təşəbbüslər mövcud sahədə müxtəlif güzəştləri və təşviqat tədbirlərini ehtiva edir. Heç də təsadüfi deyildir ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin müvafiq hissəsində ölkə ərazisində yaşıl enerjinin tətbiqi istiqamətində iqtisadiyyatın bütün sahələrində bərpa olunan enerjinin istifadəsinin stimullaşdırılması məsələləri öz əskini tapmışdır (https://president.az/az/articles/view/50474, 2021). "Təmiz ətraf mühit" və "Yaşıl artım ölkəsi" prioritetinin əsas hədəfləri gələcək dövrlərdə dünya üzrə alternativ enerji mənbələrindən istifadə edilməsinin geniş vüsət alacağını rəhbər tutaraq ölkəmizdə də bərpa olunan enerjidən istifadə

etməklə dayanıqlı enerji mənbələrinə keçidə önəm verilməsi məsələsini diqqətdə saxlamaqdır. Mövcud strategiyanın əsas hədəfləri kimi ölkədəki enerji təhlükəsizliyinin gücləndirilməsini, enerjidən asılılığın azaldılmasını, bərpa olunan enerji layihələrinin iqtisadi səmərəliliyini artırmaq üçün dövlət dəstəyinin göstərilməsini, iqlimlə bağlı dəyişikliklərlə mübarizənin aparılmasını və ekoloji təmiz enerjinin istehsalını artırmağı vurğulamaq lazımdır.

Milli Prioritet istiqamətləri üzrə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə müvafiq olaraq bir sıra qanunvericilik aktları da qəbul edilmişdir ki, ölkənin enerji sektoru da bu kimi aktlar üzrə həyata keçirilən tədbirlərdən kənarda qalmamışdır. Belə ki, 2021-ci il 31 may tarixində qəbul edilmiş "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq dairəsi son dövrlərdə adıçəkilən sahə üzrə həyata keçirilən işlərin davam etdirilməsi və alternativ enerjinin inkişafını əhatə edir. Qeyd edilən qanunun əsas məqsədləri kimi bərpa olunan enerji layihələri üçün hüquqi təminatın verilməsi, enerji satışı üçün müxtəlif tariflər və müqavilələrin bağlanması, elektrik enerjisi üzrə satış mexanizmlərinin tətbiqi kimi məsələləri misal göstərmək mümkündür. Qanun enerji sektorunda investorlar üçün əlverişli və uyğun şərait yaratmaq, müxtəlif sahələrə investisiya axınını təmin etmək üçün yerli və xarici investorlara hüquqi təminatlar vəd edir və buraya sərmayə edən şirkətlərin maraqlarının qorunması istiqamətində müxtəlif tədbirlərin həyata keçirilməsini müəyyən edir. Bu kimi tədbirlərə misal olaraq uzunmüddətli tarif güzəştlərini, eyni zamanda xüsusi icazə və müqavilə prosedurlarının asanlaşdırılmasını göstərmək olar. O cümlədən vurğulamaq lazımdır ki, qanunun icra olunması üzrə müəyyən olunan layihələrdə alternativ enerji istehsalçılarına dövlətin tətbiq etdiyi xüsusi tariflərin təklif olunması da nəzərdə tutulmuşdur. Bu güzəştlər vasitəsilə yaşıl enerji istehsalında çəkilən xərcləri azaltmaq və istehsalçılara maliyyə yardımları göstərmək hədəflənmişdir. Tarif Şurası tərəfindən bərpa olunan enerjinin dəyərini optimallaşdırmaq sahəsində müxtəlif tarif mexanizmləri və modelləri hazırlanır. Qanunun tətbiq dairəsi nəinki enerji istehsalçılarını, o cümlədən istehlakçıları da diqqətdə saxlamaqla bağlı işləri əhatə edir. Belə ki, bu sahədə bərpa olunan enerjinin aktiv istehlakçılarının rolu böyükdür və bunu diqqətə alaraq bu enerjidən istifadə edən müəssisə və fərdi əhali üzvlərinə dəstək göstərilir. Müxtəlif külək və günəş enerjisi sistemləri quraşdıraraq enerjiyə olan ehtiyaclarını qarşılayan istehlakçılar aktiv istehlakçılardır və onlara dövlət tərəfindən xüsusi təşviqat mexanizmləri təmin edilir ki, istifadə olunan enerjinin müəyyən hissəsi enerji şəbəkəsində satıla bilsin və bu yolla da həmin istehlakçılar bərpa olunan enerji texnologiyalarından istifadə sahəsində üstünlüklər qazana və istifadə dairəsini genişləndirə bilsinlər (https://e-qanun.az/framework/47842, 2021).

"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində prioritet istiqamətlərdən biri kimi "Təmiz ətraf mühit və yaşıl artım" üzrə tədbirlərin keçirilməsi planlanmışdır ki, bu da ölkədəki davamlı və dayanıqlı inkişafın dəstəklənməsi və ətraf mühitin qorunması üzrə müxtəlif işlərin reallaşdırılmasını rəhbər tutur. Strategiya üzrə önə çıxan əsas hədəflərdən biri də yaşıl enerjiyə keçidin sürətləndirilməsi və enerjinin səmərəliliyinin artırılmasıdır. Bu sahədə dövlətin maliyyə yükünün yüngülləşdirilməsi və tədricən subsidiyaların aradan qaldırılması üzrə işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Onu da qeyd etmək labüddür ki, 2026-cı ilə qədər elektrik enerjisi istehsalında alternativ enerji mənbələrinin payının 24%-ə çatdırılması hədəflənmiş, o cümlədən, 2030-cu ilə qədər bu göstəricinin 30%-ə çatdırılması planlanmışdır. Bu sahədə qeyd olunan əsas hədəf indikatorlarına əsasən 2021-ci il üzrə göstərici 17,3% təşkil etmişdir (https://e-qanun.az/framework/50013, 2022).

**Norveçin Alternativ Enerji Siyasəti**

Dünyada ən böyük yaşıl enerji istehsalçısı olan ölkələrdən biri Norveçdir. Burada istehsal olunan enerjinin 98,5%-i alternativ enerji mənbələrindən əldə edilir. Yaşıl enerji sektorunda dünya üzrə liderlərdən olan Norveç eyni zamanda, Avropada ən böyük hidroenerji istehsalçısı olaraq özünün enerji sisteminin əsasını bu enerji növü hesabına ödəyir. Ölkənin coğrafi mövqeyi burada su elektrik enerjisinin inkişaf etdirilməsi üçün əlverişli şərtlər təmin edir. Elektrik enerjisinin təqribən 90%-i su elektrik stansiyalarının hesabına əldə edilir. Həmçinin, bərpa olunan enerji sektorunda külək enerjisinin də rolu getdikcə artmaqdadır.

Qrafik 1-də illərə müvafiq olaraq Norveçdə istehlak olunan enerji üzrə bərpa olunan mənbələrin payı faiz göstəricisi ilə qeyd edilmişdir. Qrafikdən də göründüyü kimi keçən illər ərzində alternativ enerji mənbələrinin payı artaraq 2021-ci ildə 61%-ə çatmışdır.

**Qrafik 1: Enerji istehlakında müasir bərpa olunan mənbələrin payı, Norveç**




**Mənbə: SDG7-nin izlənməsi: Enerji Tərəqqi Hesabatı, iyun (2022), https://www.iea.org/reports/tracking-sdg7-the-energy-progress-report-2022**

Alternativ enerji mənbələrinin inkişafında zaman keçdikcə daha böyük irəliləyişlər əldə edən Norveçin enerji sektorunda külək və günəş enerjisi üzrə texnoloji və infrastruktur inkişafı təmin etmək məqsədilə bir sıra tədbirlər görülür ki, bu baxımdan onshore və offshore külək stansiyalarının quraşdırılmasını nümunə kimi göstərmək olar. Offshore külək enerjisi layihələrinin vasitəsilə Norveçin dəniz sahillərində mövcud olan güclü külək enerjisi potensialından yararlanmaqla daha yüksək səviyyədə enerji istehsalı əldə etmək mümkündür. Nümunə olaraq Hywind Tampen layihəsini göstərmək olar ki, bu, dünyanın ilk üzən külək enerjisi farmasıdır (https://cms.law/en/int/expert-guides/cms-expert-guide-to-renewable-energy/norway). Norveçin alternativ enerji sahəsindəki innovativ tətbiqlərdən biri olan bu layihənin quraşdırılma gücü təqribən 88 MW-dır ki, bu da 36000-ə yaxın evin enerji ehtiyacının qarşılanmasında kifayət edəcək qədər enerji deməkdir. Bu mexanizmin quraşdırılmasında üzən külək turbinlərindən istifadə edilir ki, beləliklə, külək enerjisinin istehsalını daha səmərəli şəkildə istifadə etmək imkanı tanıyır. Layihənin icrası ilə əlaqədar onu demək olar ki, həm karbon emissiyalarının azaldılması vasitəsilə ölkənin iqlimlə bağlı hədəflərinə nail olmaqda, həm də enerji sektoruna böyük həcmdə sərmayələrin qoyulmasında bərpa olunan enerji siyasəti ilə bağlı yeni təşəbbüsləri dəstəkləmək mümkün olur (Fry, R., & Tigerstedt, A., 2022).

Təkcə külək enerjisi sahəsində deyil, eyni zamanda günəş enerjisinin inkişafı istiqamətində də müəyyən addımlar atılmaqdadır. Xüsusilə qeyd edilməlidir ki, bu ölkədə günəş enerjisi ilə bağlı qanunvericilik mövcuddur və bu qanunvericilik aktlarına əsasən günəş enerjisi istehlak edən evlər üçün müəyyən subsidiyalar və vergi güzəştləri təmin edilir, bu yolla da şəxsi və eyni zamanda kommersiya

layihələrinin tərəqqisini stimullaşdırmaq mümkün olur (https://energytracker.asia/renewable-energy-market-jump/) .

Norveçin enerji sahəsində bir sıra araşdırma və innovativ işlər də həyata keçirilir ki, müasir texnoloji infrastrukturun inkişafında və tətbiqində bu proseslərin önəmini görmək mümkündür. Bir sıra universitetlər və tədqiqat institutları ilə əməkdaşlıqlar edilir ki, bunlardan Norveç Elm və Texnologiya Universitetinin (NTNU) apardığı tədqiqat işlərini misal olaraq göstərmək olar. Enerji sektorunda istehsalın optimallaşdırılması, enerji effektivliyinin və səmərəliliyinin artırılması, karbon emissiyalarının azaldılması kimi məsələlərin araşdırılmasını rəhbər tutan bu kimi universitetlərə dövlət və özəl sektor, o cümlədən innovasiya fondları tərəfindən maliyyə vəsaitləri ayrılır (https://www.ntnu.edu/energy). Bundan başqa, enerjinin daha səmərəli və dayanıqlı istifadəsini təmin etməyə imkan verən ENERGIX Proqramı da tətbiq edilir ki, bu da enerji sahəsində texniki tərəqqiyə dəstək vermək məqsədilə maliyyə vəsaitlərinin ayrılmasını nəzərdə tutur (https://www.regjeringen.no/en/topics/energy/energy-and-petroleum-research/energix-large-program-for-energy-research/id439229/, 2021). Su elektrik enerjisi üzrə liderliyini qoruyan Norveçdə ixtisaslaşmış araşdırmaları həyata keçirən HydroCen Layihəsi isə su elektrik stansiyalarının daha səmərəli işləməsi, suyun daha düzgün yollarla idarə olunması üzrə mexanizmlərin inkişaf etdirilməsinə öz töhfəsini verir.

Bir sıra digər sahələr kimi bərpa olunan enerji sektorunda da startap ekosisteminin yaradılması mövcud sahədə effektivliyin daha da artırılması baxımından əlverişli imkanlar təqdim edir. Norveç enerji sahəsində olan startaplar üçün də dəstək göstərir. Innovation Norway təşkilatı enerjidən düzgün istifadə edilməsi və yaşıl texnologiyaların tərəqqisi ilə bağlı işlər görən startaplara maddi vəsaitlər vasitəsilə dəstək göstərir. Bu təşviqat addımları həm yerli, həm də xarici bazarlarda enerji ilə bağlı fəaliyyət göstərən startapları uğur qazanmağa sövq edir. Nysno İqlim İnvestisiya fondunun maliyyə vəsaitləri ayırdığı startap proqramları əsasən karbon emissiyalarını azaltmaq və iqlim dəyişiklikləri ilə mübarizə sahələrində təkmilləşirlər. Ekoloji cəhətdən təmiz texnoloji mexanizmlərin tərəqqisinə töhfə verməklə Norveçin enerji keçidinin sürətləndirilməsi bu fondun əsas məqsədlərindən hesab olunur. Eyni zamanda qeyd etmək lazımdır ki, bu kimi startapların yalnız ölkə daxilində fəaliyyəti dəstəklənmir, o cümlədən inkubatorların və Nordic Innovation Hub kimi mərkəzlərin yaratdığı imkanlar vasitəsilə startapların beynəlxalq arenaya çıxması ilə bərabər xarici investorlarla və müvafiq qurumlarla əməkdaşlıq imkanları yaradılır.

Aparılan araşdırmalar, görülən işlər üzrə mütəmadi olaraq məlumatlandırma proqramları təşkil edilir ki, bu yolla bu işlərin sosial təsirlərini artırmaq mümkün olur. Dövlət tərəfindən səmərəli enerji istifadəsi, ekoloji dayanıqlılığın təmin edilməsi ilə bağlı olaraq məlumatlandıma işləri görülür və beləliklə də yaşıl enerji texnologiyalarının daha geniş istifadəsinə və tətbiq edilməsinə şərait yaradılır. Müxtəlif tədqiqat mərkəzləri və bu kimi digər subyektlərin apardığı araşdırmalarla bağlı məlumatlar açıq məlumat sistemlərində yerləşdirilir ki, bununla da başqa ölkələrin bu məlumatlardan istifadə etməklə müvafiq bilik və bacarıqlardan faydalanmalarına şərait yaradılır. Keçmiş və cari işlərlə bağlı Norveç hökuməti eynilə uzunmüddətli enerji strategiyaları da hazırlayır ki, bununla əlaqədar 2050-ci ilə qədər sıfır emissiya hədəfi və 2030-cu ilə qədər iddialı reduksiya planları kimi layihələrin reallaşdırılması müəyyən edilmişdir. Gələcək perspektivdə ölkədə karbon emissiyalarının 55% - dən daha çox azaldılması ilə bağlı işlər həyata keçirilir. Eyni zamanda bu kimi digər prosedurların reallaşdırılması hədəflənir.

Heç də təsadüfi deyildir ki, görülən işlər öz nəticəsini müxtəlif göstəricilərin təhlilində göstərir. Avropa üzrə enerji istehlakında müasir bərpa olunan mənbələrin payı ilə əlaqədar göstəricilərə baxdıqda bunun şahidi olmaq mümkündür. Cədvəl 2-də bu məlumatlara yer verilmişdir.

**Cədvəl 2: Enerji istehlakında müasir bərpa olunan mənbələrin payı, regional reytinq, 2021**

| Sıra | Ölkə/Region | % |
|---|---|---|
| **-** | Avropa | 19.28 |
| **1** | İslandiya | 82.43 |
| **2** | Norveç | 61.36 |
| **3** | İsveç | 57.9 |
| **4** | Finlandiya | 50.22 |
| **5** | Latviya | 43.99 |

**Mənbə: SDG7-nin izlənməsi: Enerji Tərəqqi Hesabatı, iyun (2022), https://www.iea.org/reports/tracking-sdg7-the-energy-progress-report-2022**

Yuxarıdakı cədvəldən də göründüyü kimi Norveç Avropa ölkələri arasında istifadə olunan enerji üzrə müasir bərpa olunan mənbələrin payına görə 82,43% göstərici ilə İslandiyadan sonra ikinci yerdə qərarlaşır. Bu da alternativ enerji sektorunda yürüdülən siyasətin və görülən işlərin başlıca nəticələrindən irəli gəlir.

**Alternativ Enerji Sektorunda Azərbaycanda Mövcud Olan Çatışmazlıqlar və İnkişafa Ehtiyacı Olan Sahələr**

Norveç nümunəsində alternativ enerji siyasətinin təhlili ölkəmizdə müvafiq sahə ilə bağlı vəziyyətə daha real baxmağa kömək edir. Azərbaycanda bərpa olunan enerji sahəsində müəyyən zəif tərəflərin və çatışmazlıqların mövcudluğu Norveçin yaşıl enerji modeli ilə müqayisəli təhlilini apararkən görünür. İlk növbədə vurğulamaq lazımdır ki, bərpa olunan enerji sahəsində əsas təşviqat tədbirlərinin həyata keçirilməsi müvafiq qanunvericilik aktları ilə tənzimlənir ki, bu sahədə ölkəmizdə hüquqi bazanın mövcud olmasına baxmayaraq bir sıra boşluqlar da vardır. Bu sahəyə investorların cəlbini artırmaq üçün uzunmüddətli hüquqi zəmanətlərin təmin edilməməsi məsələsini vurğulamaq olar ki, Norveç təcrübəsində bu problemin güclü hüquqi bazanın yaradılması ilə həll edilməsi alternativ enerji layihələrinin davamlı və dayanıqlı halda reallaşdırılması üçün əsas faktorlardan biridir. Dövlət tərəfindən göstərilən maliyyə dəstəyinin alternativ enerji sektoruna da ayrılması bu sahəyə investisiya qoyanlar üçün bir sıra güzəştlər və stimullar təqdim edir. Təkcə xarici investorların yox, eləcə də yerli iş insanlarının da həvəsləndirilməsi baxımından bu kimi təşviq məsələləri xüsusi önəm daşıyır. Azərbaycanda isə bu istiqamətdə sərmayədarların iqtisadi motivasiyalarının və hüquqi təminatlarının zəif olması ilə əlaqədar çətinliklər mövcuddur.

Ölkəmizdə texnologiya və infrastruktur sahəsində də müəyyən zəifliklər və çatışmazlıqlar vardır ki, müqayisə edilən ölkənin təcrübəsinin tətbiqi haqqında düşünmək olar. İlk növbədə ölkəmizdə yaşıl enerji sahəsində tədqiqat və inkişaf mərkəzlərinin inkişafının zəifliyi müvafiq sektorun inkişafını ləngidən amillərdəndir (Aliyev, Gulaliyev, Purhani, Mehdiyeva Mustafayev, 2024).

Norveçdə bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi istiqamətində qəbul olunan strategiyalar bu sahənin tərəqqisini dəstəkləyir və enerji keçidi məsələsini əsas prioritetlərindən biri kimi nəzərdə tutur. Dövlət strategiyalarının ölkəmizdə də adıçəkilən sahəyə dəstəyini qeyd etmək olsa da hələ də bu tədbirlərin real nəticələri əks olunmur. Norveçin strateji planlarında potensialın yüksək olduğu sahələrin, xüsusilə, hidroenerji resurslarının maksimum istifadə edilməsi, nisbətən az potensiallı sahələrin isə inkişaf etdirilməsi üçün konkret məsələlərin reallaşdırılması müəyyən edilir ki, ölkəmizdə bu kimi strateji enerji layihələrinin həyata keçirilməsi baxımından qanunvericilik sənədlərinin praktiki tətbiqində zəiflik müşahidə edilir.

**Nəticə və Təkliflər**

Aparılan tədqiqat işində Azərbaycanın alternativ enerji sektoru üzrə mövcud imkanlar, bu sahədəki qanunvericilik sistemi və yürüdülən siyasət əhatəli şəkildə araşdırılmışdır. Edilən SWOT analizi nümunəsində ölkənin malik olduğu üstünlüklər, çatışmazlıqlar, irəliləyən dönəmdə yarana biləcək fürsətlər, meydana çıxa biləcək təhdidlər göstərilmişdir. Yaşıl enerji infrastrukturunun yaxşılaşdırılması istiqamətində qəbul edilən qanunvericilik layihələri haqqında məlumat verilmişdir ki, bununla ölkənin hüquqi bazası haqqında fikir sahibi olmaq mümkündür. Dünyada alternativ enerji sektorunda liderlərdən olan Norveç nümunəsinin tədqiqi gələcək perspektivdə hansı işlərin görülə biləcəyi baxımından fikir sahibi olmağa imkan verir. Ölkədə müvafiq sektorda qeydə alınan çatışmazlıqlar incələnmişdir. Tədqiqatdan əldə olunan nəticələr əsasında bir sıra təkliflər irəli sürülə bilər ki, bunlar aşağıda qeyd edilmişdir:

- Alternativ enerji sektorunda fəaliyyətdə olan investorlar üçün dəstək göstərilməsi baxımından hüquqi bazanın formalaşdırılması ilə hüquqi çərçivənin gücləndirilməsi bu subyektlər üçün stimullaşdırıcı ola bilər;
- Dövlət dəstəyinin daha da gücləndirilməsi fonunda mövcud sahəyə investisiyaların cəlb edilməsi məqsədilə vergi güzəştlərinin, subsidiyaların, güzəştli kreditlərin təmin edilməsi inkişafa töhfə verə bilər;
- Yaşıl texnologiyaların inkişafı baxımından kadr potensialının gücləndirilməsi, bu sahədə yerli mütəxəssislərin yetişdirilməsi sektorun tərəqqisində nəzərəçarpacaq dərəcədə rol oynaya bilər;
- Norveçin təcrübəsi kimi xarici modelləri göz önündə saxlayaraq elmi tədqiqat mərkəzlərinin yaradılması və aparılan tədqiqatların dəstəklənməsi faydalı ola bilər;
- Sahə ilə əlaqəli startap ekosisteminin yaradılması ilə bu layihələrə vəsait ayrılması və onların təkmilləşdirilməsi bərabərində əməkdaşlıq imkanlarının yaradılması yeniliklərin stimullaşdırılması baxımından önəmlidir;
- Alternativ enerji sahəsində yeni texnologiyaların ölkədə tətbiqi, eləcə də mövcud fürsətlərin genişləndirilməsi nöqteyi-nəzərindən regional, o cümlədən beynəlxalq əməkdaşlıq imkanlarının mütəmadi olaraq dəyərləndirilməsi, ölkəyə xarici sərmayələrin cəlbi, təcrübə mübadiləsinin təmin edilməsi bu sahədə irəliləyişin sürətlənməsinə öz töhfəsini verə bilər.

**Ədəbiyyat Siyahısı**


1. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı https://president.az/az/articles/view/50474

2. “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://e-qanun.az/framework/50013
3. “Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında” Azərbaycan Respublikasının Qanunu https://e-qanun.az/framework/47842
4. Azərbaycan Respublikasının Alternativ və Bərpaolunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin rəsmi internet saytı https://area.gov.az/az
5. Aliyev, S., Gulaliyev, M., Purhani, S., Mehdiyeva, G., & Mustafayev, E. (2024). Comparative assessment of energy security level: The case of the South Caucasus Countries. International Journal of Energy Economics and Policy
6. Bekkari A. (2023). Azerbaycan Enerji Güvenliği ve Avrupa Birliği İlişkileri, Uluslararası Ekonomik Araştırmalar Dergisi
7. Falkowski, K. (2018). The importance of energy resources for Azerbaijan’s international competitiveness. Journal of International Studies
8. Fry, R., & Tigerstedt, A. (2022). Nordic spot power hits record high average in 2022.
9. Kirikkaleli, D., & Adebayo, T. S. (2021). Do renewable energy consumption and financial development matter for environmental sustainability? New global evidence. Sustainable Development.
10. https://alj.com/en/perspective/nordics-navigate-to-a-renewable-future/
11. https://cms.law/en/int/expert-guides/cms-expert-guide-to-renewable-energy/norway
12. https://energytracker.asia/renewable-energy-market-jump/
13. https://www.iea.org/countries/norway/renewables
14. https://www.nordicstatistics.org/news/49-percent-of-gross-energy-consumption-from-renewable-sources-in-2021/
15. https://www.ntnu.edu/energy
16. https://www.regjeringen.no/en/topics/energy/energy-and-petroleum-research/energix-large-program-for-energy-research/id439229/

## Azərbaycanda Yaşıl Rifahın Tərkib Hissələrindən Olan Yaşıl İqtisadiyyatın Erqonomik Prinsiplə Əlaqəsi, Enerji Siyasəti və COP29-un mahiyyəti

**Hüseynov Sənan Elçin oğlu**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**huseynsenani123@gmail.com**

**Xülasə:**
Şübhəsizdir ki, müasir və müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdığı ilk günlərdən etibarən ölkəmizdə bir çox əsaslı işlər Ulu öndər Heydər Əliyevin müdrik siyasəti ilə görülmüşdür. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə iqtisadi, mədəni, elmi, siyasi məsələlər həmin dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilmişdir. Məhz həmin illərdə isə çox az ölkələrin tətbiq etdiyi işlərdən olan ətraf

mühitin qorunması, onun tərkibi hissələrinin tərəqqəsi, əlaxsus yaşıl rifah cəmiyyətinin formalaşması kimi məsələlər fenomenal şəxsiyyətin uzaqgörənliyi ilə yüksək səviyyədə təşkil olunmuşdur. Elmi tədqiqatlardan da görürük ki, ağaçlıqların və təbiət qoruqlarının salınması, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsis edilməsi, "Ekoloji Pasport" adlanan Qanun layihəsinin icrası Heydər Əliyevin əsasını qoyduğu yaşıl konsepsiyanın bariz nüumənisidir. Bu gün bu siyasət onun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla icra olunur. Cənab İlham Əliyevin müdrik siyasəti ilə ətraf mühitin qorunması nəzərə alınmaqla iri miqyaslı sənaye müəssiələri açılıb (Balaxanı Sənaye Parkı, Bakı Bərk Məişətləri Tullantılarının Yandırılması Zavodu və s.), yaşıl iqtisadiyyat-ətraf mühit-yaşıl düşüncə prinsipi formalaşıb, ağaçəkmə aksiyalarının təşkili ildən-ilə artıb və s. işlər görülüb. Qələmə almış olduğum tədqiqatda ölkə rəhbərliyinin gördüyü işlər, tarixi faktlar, sübutlar və bu sahələrin adını çox az eşitdiyimiz erqonomika ilə ikitərəfli və çoxtərəfli əlaqələri tam aydın şəkildə sizlərə təqdim olunub.

**Açar sözlər:** yaşıl, iqtisadiyyat, ətraf mühit, Heydər Əliyev, çoxtərəfli, sənaye

**JEL:** H11, L00, N01, N40, P43, P49, Y90

**Summary:** There is no doubt that since the first days of the formation of the modern and independent statehood of Azerbaijan, many fundamental works have been done in our country with the wise policy of the great leader Heydar Aliyev. Under the leadership of our national leader Heydar Aliyev, economic, cultural, scientific and political issues were developed in accordance with the requirements of that period. It was in those years that issues such as environmental protection, the development of its components, especially the formation of a green welfare society, which are practiced by very few countries, were organized at a high level with the foresight of a phenomenal personality. We also see from scientific studies that the establishment of forests and nature reserves, the establishment of the Ministry of Ecology and Natural Resources, and the implementation of the draft Law called "Ecological Passport" are clear examples of the green concept founded by Heydar Aliyev. Today, this policy is successfully implemented by his worthy follower, Mr. Ilham Aliyev. With the wise policy of Mr. Ilham Aliyev, large-scale industrial enterprises were opened taking into account the protection of the environment (Balakhani Industrial Park, Baku Solid Household Waste Incineration Plant, etc.), the principle of green economy-environment-green thinking was formed, and the organization of tree planting actions increased year by year. etc. work has been done. In the research I have written, the work done by the country's leadership, historical facts, evidence, and the bilateral and multilateral relations with ergonomics, the name of which we rarely hear, have been presented to you.

**Keywords:** green, economy, environment, Heydar Aliyev, multilateral, industry

**JEL:** H11, L00, N01, N40, P43, P49, Y90

**Giriş.**

Tarix 1993-cü ilə təsadüf etdiyində ölkəmiz xaosun hökümranlıq etdiyi bir dövlətə çevrilmiş, lakin xalqımızın Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyev hakimiyyətə gəldikdən dərhal sonra Azərbaycan ən yeni inkişaf dövrünə qədəm qoymuş və elm, təhsil, səhiyyə, mədəniyyət kimi sahələrdə əldə olunan nəticələr təbii ki, göz qamaşdırmışdır. Şəksiz ki, o dövürdə (1993-2003) uğurlu nailiyyətlərdən biri isə yaşıl rifahın tərkib hissələrindən olan ətraf mühitin mühafizəsinin, bu sahənin inkişafını nəzərdə tutan əsaslı iqtisadiyyatın formalaşması konsepsiyalaşmış şəkildə təşkil olunmuşdur. Ulu öndərin şəxsi təşəbbüsü ilə müstəqil Azərbaycanda hər şənbə günləri iməcliklər təşkil olunurdu.

Bununlada Azərbaycanın yaşıllıq zollaqları gündən-günə artmışdır. Beləliklə Azərbaycan Respublikasında yaşıl rifahın sağlam təməlləri böyük müdrikliklə qoyumuşdur.

Yaşıl rifahın fikirimcə ən əsas növlərindən **yaşıl iqtisadiyyat və onun erqonomik əlaqələri** və **yaşıl enerji** siyasətlərindən ibarət olduğunu düşünürəm. Belə ki, Azərbaycan hökuməti 2000-ci illərin ortalarında neftdən asılılığını azaltmaq və şaxələndirilmiş və dayanıqlı iqtisadiyyata keçmək üçün strateji siyasət həyata keçirməyə başladı. Bu dəyişiklik bir sıra mühüm təşəbbüslərlə dəstəkləndi. 1999-cu ildə Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) yaradılması ilə mühüm inkişaf baş verdi. Onun məqsədi neft gəlirlərini ehtiyatla idarə etmək və investisiya etməklə makroiqtisadi sabitliyi təşviq etmək və gələcəyi təmin etmək idi. Bu günə baxdığımızda Azərbaycanda iqtisadiyyatın tərkibində formalaşan (mikro və makroiqtisadiyyat, investisiya təşkil edən iqtisadiyyat və.s) çoxsaylı aparıcı sahələrə ayrılan dövlət dəstəyi və proqramlar bu parametrlərdə səciyyəvi xarakteri ilə xüsusi yer tutur. Bütün aspektlər bir daha sübüu edir ki, cənab İlham Əliyev uzaqgörənliyi iqtisadiyyat tam strukturlaşdırılmış şəkildə davam edir. Dünya hesablama palatasının apardığı beynalxalq sorğu anketinə görə Azərbaycan hal-hazırda iqtisadiyyatın təşkili, təhlili, inkişafı və qabaqcıl siyasət ilə icra olunması məsələsində şərq ölkələri arasında 1-ci, Avropa ölkələri ilə müqayisədə 11-ci yerdə qərarlaşaraq güclü bir profil şəkli qazanıb. Düşünürəm ki, cənab Prezidentimizin bu sahədəki təcrübəsi dünya iqtisadiyyat sektoruna nümunədir. Son illər Azərbaycan **yaşıl iqtisadiyyat** prinsiplərini qəbul edib. Bu il Azərbaycan rəsmi olaraq onu "Yaşıl Dünya üçün Həmrəylik İli" elan edib. Bundan əlavə, noyabrda Bakıda COP29 konfransı keçiriləcək. Bu ilin gündəliyinə bərpa olunan və təmiz enerji potensialının genişləndirilməsi və "yaşıl enerji" infrastrukturunun inkişafı daxildir. Qeyd etdiyim kimi Azərbaycan Respublikasında iqtisadiyyatın digər növlərindən biri olan və bu günün əsas maraq dairəsində olan "Yaşıl İqtisadiyyat" sahəsinə ayrılan diqqət dünya arenasının və nüfuzun ayırdığı diqqətdən əsaslı çoxluq təşkil edir.

Bəs "Yaşıl İqtisadiyyat" nədir və mühəndis sistemində ən əsas faktorlardan biri olan erqonomika ilə ikitərəfli əlaqəsini bir-biri ilə nə birləşdirir ona baxaq?!

### 1.1 Yaşıl İqtisadiyyatın Mahiyyəti, Konsepsiyası, Tarixi

Elmi tədqiqatları nümunə gətirərək bildirməliyik ki, yaşıl iqtisadiyyatın mahiyyəti cəmiyyət tərəfindən iqtisadi perspektivinin ətraf mühitə mənfi təsirinin azaldılması üçün minimum risqlər qrupunun qarşısının alınması yolunda atılan addımdır. "Yaşıl iqtisadiyyat" konsepsiyası insan rifahını və sosial ədaləti təmin edən və eyni zamanda, ətraf mühit risklərini kəskin azaldan iqtisadiyyat kimi müəyyən edilir. Onun əsas komponentlərindən olan "Yaşıl müəssisələri" qlobal və yerli səviyyədə ətraf mühitə, cəmiyyətə, icmalara və iqtisadiyyata zərərli təsir etməyən, iqtisadi inkişafı, sosial tərəqqini və ətraf mühitin mühafizəsini təmin edən müəssisələrdir. Qeyd edim ki, Yaşıl İqtisadiyyat konsepsiyası iqtisadiyyatla bağlı dövlət siyasətinin müəyyən qədər dəyişdirilməsini tələb edir. Belə ki, hələ A.Smit dövlətin iqtisadiyyata müdaxilə etməsini zərərli hesab edirdi. O belə hesab edirdi ki, "iqtisadiyyat bazardakı rəqabət əsasında özü-özünü tənzimləyəcək. Lakin istehlakın durmadan artması istehsalı da stimullaşdırdı və yeni texnologiyaların tətbiqi, əksər hallarda, ətraf mühitə ciddi ziyan vurdu". Azərbaycanda yaşıl iqtisadiyyatın müasir vəziyyətininin bəzi komponentləri üzrə qiymətləndirmələr göstərir ki, Azərbaycanda son 10 ildə yaşıl iqtisadiyyat istiqamətində həyata keçirilən siyasət öz nəticəsini vermişdir və yaşıl iqtisadiyyata keçidin "Artımın parametrləri və sosialiqtisadi mahiyyəti" göstəricisi pozitiv istiqamətlidir. Elmi işlərdə bildirilir ki, yaşıl iqtisadiyyat ətraf mühit və ekologiya iqtisadiyyatları ilə də çox sıx əlaqələndirilir və bu iki sahə ilə birgə layihələndirilərək icra edilir. Belə ki, "yaşıl iqtisadiyyat" konsepsiyası ekoloji təhlükəni azaltmaqla iqtisadi fəaliyyətin mahiyyətcə

yenilənməsini və əsas diqqətin cəmiyyətdə iqtisadi ədalətin təmin edilməsinə və sosial təminatın yaxşılaşdırılmasına yönəldilməsini nəzərdə tutur.

**1.1.2 Yaşıl İqtisadiyyatın Erqonomik Əlaqəsi Və Yaxud Yaşıl Erqonomika**

Erqonomika nədir? Erqonomika müasir cəmiyyətin ən sadə tərkibli istehsalat güclərini, insan–maşın sistemlərinin növlərini və biotexniki kompleksləri ətraflı tədqiq edir. İnsan–maşın–mühit sistemlərini kompleksi öyrənmək üçün erqonomika müasir gigiyena, fiziologiya, psixologiya antroologiya və s. elmlərin ideya və nailiyyətlərini sintez edir. Erqonomika insanın konkret fəaliyyətini müəyyənləşdirən xassəsinin, imkanının, bacarığının, bir–birinə uyğunluğuna əsaslanaraq görülən işin quruluş və tərkibini, texnikanın və onu əhatə edən mühitin xassələrini aydınlaşdırır. İnsan–maşın–mühit sistemlərinin uyğunluğu erqonomik xüsusiyyət, komponentlərin tərkibi, texnikanın növü, fəaliyyətinin daxili və xarici mühiti, iş yerinin quruluşu, keyfiyyəti, forması, idarəetmə vasitələrinin ölçüsünü göstərir. Erqonomika= insan+maşın+mühit. Bütün bu sadalananları nəzərə alsaq görə bilərik ki, yaşıl iqtisadiyyatın canlanması və perspektivlərinin müəyyinləşməsində sanki gözə görünməyən bir erqonomik sferadan istifadə edilir.

**Yaşıl iqtisadiyyatda erqonomikanın insan sistemi ilə əlaqəsi:** Yəni bu gün yaşıl iqtisadiyyatı formalaşdırmaq üçün bir yaşıl düşüncə prizmasına ehtiyac var. Erqonomikanın əsas süxurlarından biri də insan amilinin daha ön plana çəkilməsidir.

**Yaşıl iqtisadiyyatda erqonomikanın maşın sistemi ilə əlaqəsi:** Ətraf mühitin qorunması, yaşıllıqların genişləndirilməsi, tüstülərin cəmiyyətə ziyanının qarşısının alınması və yaşıl iqtisadiyyatla əlaqələrin tənzimlənməsi üçün maşın, avadnalıq və bu kimi qurğulara böyük ehtiyac var.

**Yaşıl iqtisadiyyatda erqonomikanın mühit sistemi ilə əlaqəsi:** Bu günümüzün mühitində düşünmə prinsipi, imkanı həm yaşıl iqtisadiyyata və onun mərhələlərinin quruluşuna öz təsirini göstərir. Bilavasitə onu qeyd edim ki, mühiti biz yaşıl düşüncə prioriteti ilə də konsepsiyalaşdırmaq olar.

**2.1 Yaşıl Enerji Mənbələrinin İnkişaf Siyasəti**

2005-ci ildən başlayaraq Azərbaycan Respublikası bərpa olunan enerji mənbələrinin inkişafına üstünlük verməyə başladı. Hökumətimiz alternativ enerji mənbələrinin, o cümlədən külək, günəş və su elektrik enerjisinin qəbulunu təşviq etmək üçün tədbirlər həyata keçirmişdir. Bu müddət ərzində mühüm hadisələrə 2009-cu ildə Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması və beynəlxalq təşkilatlarla birgə ekoloji cəhətdən təmiz enerji layihələrinin başlanması daxildir. 2010-cu ildən 2020-ci ilə qədər olan onillik Azərbaycanın davamlılığa doğru keçidində diqqətəlayiq bir dövr olmuşdur. Bu müddət ərzində hökumət enerji səmərəliliyi və davamlılıq təcrübələrini təşviq etmək və dəstəkləmək üçün əhəmiyyətli səylər göstərmişdir. Davamlı inkişafı dəstəkləməyə yönəlmiş qanunvericilik islahatları ilə yanaşı, yaşıl texnologiyalara sərmayələrə diqqət yetirilib. Kənd təsərrüfatı, turizm və informasiya texnologiyaları kimi sahələrdə inkişafı təşviq etməklə iqtisadiyyatın genişlənməsi daha da gücləndirildi. Həmçinin Azərbaycanın ÜDM-i ardıcıl yüksəliş trayektoriyası nümayiş etdirərək 2022-ci ildə 78,7 milyard dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 4,6 faiz artımı əks etdirir. 2022-ci ildə neft və qaz hasilatı ölkənin ÜDM-nin təxminən 47,8 faizini və ixrac gəlirinin 92,5 faizini təşkil edib. Beynəlxalq Ticarət Administrasiyası 2021-2022-ci illər arasında qeyri-neft ÜDM-də 9,1 faiz artım və neft ÜDM-də 2,7 faiz azalma olduğunu bildirir. Hökumət ardıcıl olaraq Azərbaycanın bərpa olunan enerji sənayesini inkişaf etdirməyə və neftdən asılılığını azaltmağa çalışır. O, yaşıl enerjini təşviq etmək və elektrik enerjisi istehsalında bərpa olunan enerjinin payını 30

faiz artırmaq üçün 2030-cu ilə qədər 1500 MVt bərpa olunan enerji tutumunun quraşdırılması hədəfinə nail olmağı hədəfləyir və əldə olunması regiondakı nüfuzumuza bir daha təsir edəcək.

**3.1 Yaşıl Dünya Naminə Həmrəylik Və COP29-un Regiona Təsiri**

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 25 dekabr 2023-cü ildə imzalanan Sərəncamla 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması və Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mütərrəqi tədbirin ölkəmizdə keçirilməyi qərara alınıb. İlham Əliyev demişdir: "Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi". COP29 qlobal iqlim dəyişikliyi müzakirəsi üçün həyati əhəmiyyət kəsb edir və Azərbaycan üçün ətraf mühitin mühafizəsinə sadiqliyini nümayiş etdirmək və dayanıqlı iqtisadiyyata keçidi sürətləndirmək üçün dəyərli fürsət təqdim edir. COP29-a ev sahibliyi etməklə Azərbaycan qlobal ekoloji məqsədlərə sadiqliyini bir daha təsdiqləyir və Xəzər regionunda bərpa olunan enerjinin təşviqində qabaqcıl tərəf kimi özünü təsdiq edir. Bu qərar beynəlxalq investisiyaların cəlb edilməsi və onun iqtisadiyyatının neft sənayesindən kənarda genişlənməsi üçün vacibdir. Digər bir tərəfdən bu tədbirin siyasi prioritetlərinə nəzər salaq. Ümumi aparılan tədqiqat işlərinə görə bu tədbirə 70.000-80.000 arası dövlət və ictimai xadimlərin iştirakı nəzərdə tutulur. Bu təbii ki, böyük bir dövlət büdcəsi tələb edir. Və Azərbaycan şəksiz ki, buna qadirdir. Burada ən əsas məsələ ölkəmizin Qarabağdakı yaşıl iqtisadiyyat, enerji və ətraf mühitin mühafizəsi yolunda atılan addımları bütün ictimaiyyətə təqdim etməkdir. Sadəcə Qarabağın deyil ümumiyyətlə Azərbaycanda bu sahələrə ayrılan diqqətin təzahürünü bütün ictimaiyyətə təbliğ etmək COP29 tədbirinin necədə böyük bir səs gətirəcəyinin əyani sübutudur.

**Nəticə**. Xülasə, Azərbaycanda konstruktiv, təmiz ekoloji mühiti təmin etmək və mənbələrindən düzgün yararlanmaq lazımdır. Bu sahəyə hal-hazırda böyük maliyyə resursları ayrılır, dövlət proqramalarının qəbul edilir, eləcə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasətində əsas diqqət mərkəzi kimi qorunub, saxlanılır. Elmi müəssiələrinin apardığı tədqiqatlarda görə bilərik ki, yaşıl iqtisadiyyatın yaşıl enerji məkanındakı təsiri alternativ və bərpa olunan enerji resurslarında, ekoloji təmiz nəqliyyat vasitələrində atmosfer havasının keyfiyyətinə böyük artırmını göstərməkdə davam edir. Əlaxsus heç şübhə etmirəm ki, erqonomika kimi az tədqiq olunan bir sahənin yaşıl iqtisadiyyatla sintezi gələcək illərdə bu elm dərgahının araşdırmasına əsaslı zəmin yaradacaq.

**Ədəbiyyat**.


**1.** Aydın Mirzəzadə (2004). Demokratiya plyus. "Azərbaycan" nəşriyyatı, 24, 380-382.

**2.** İradə Nuriyeva (2024). Azərbaycan Tarixi. Elm və Təhsil Nəşriyyatı, 34, 400-409.

**3.** İradə Nuriyeva (2022). Azərbaycan Tarixi. Elm və Təhsil Nəşriyyatı, 23, 210-234.

**4.** Sənan Hüseynov (2023). Gəncliyə Örnək Olan Həyat. ADNSU mətəbəə, 28, 43-48.

**5.** M.C.Atakişiyev, H.M.Abbasov, N.H.Abbasova (2010). Mikro və Makroiqtisadiyyat. ADNSU mətbəə, 42, 230-239.

**6.** M.C.Atakişiyev, R.N.Nurəliyeva, N.H.Abbasova (2012). İnvestisiya Fəaliyyətinin Təşkili. ADNSU mətbəə, 21, 100-117.

**7.** Andriyanov V.İ., Mirələmov H.F (2007). İlham Əliyev. Molodaya qvardiya nəşriyyatı, 18, 99-113

**8.** 3-cü İƏT Beyin Mərkəzləri Forumunun materialı (2024). ESRİ nəşriyyatı, 35 308-309

# СТАТИСТИЧЕСКОЕ ОБРАЗОВАНИЕ В КЫРГЫЗСКОЙ РЕСПУБЛИКЕ: ВЫЗОВЫ И ПЕРСПЕКТИВЫ

**Aizhamal Bekturganova, Erkinbubyu Imankulova**
**Kyrgyz State Technical University named after I. Razzakov**
**Bishkek, Kyrgyz Republic**

*b.aijamal@kstu.kg*, *e.imankulova@kstu.kg*

**АННОТАЦИЯ**

Статья посвящена проблемам статистического образования в Кыргызской Республике и его значению для формирования статистической грамотности общества. В ней рассматриваются основные трудности, с которыми сталкиваются образовательные учреждения, включая недостаток часов, отведенных на изучение статистики, низкий интерес студентов к предмету и отсутствие квалифицированных преподавателей. Подчеркивается важность интеграции статистики в образовательные программы на всех уровнях и необходимость использования современных технологий для повышения интереса к дисциплине. Статья подводит итоги о необходимости комплексного подхода к повышению статистической грамотности в обществе и предлагает рекомендации для улучшения качества статистического образования.

**Ключевые слова**: статистическая грамотность, статистическое образование, междисциплинарные программы, экономическая статистика, социология, экологическая статистика, цифровая грамотность, образовательные технологии.

***ABSTRACT***

The article is devoted to the problems of statistical education in the Kyrgyz Republic and its importance for the formation of statistical literacy of society. It examines the main difficulties faced by educational institutions, including the lack of hours allocated for studying statistics, low student interest in the subject and the lack of qualified teachers. The importance of integrating statistics into educational programs at all levels and the need to use modern technologies to increase interest in the discipline are emphasized. The article summarizes the need for an integrated approach to improving statistical literacy in society and offers recommendations for improving the quality of statistical education.

***Keywords:*** statistical literacy, statistical education, interdisciplinary programs, economic statistics, sociology, biostatistics, environmental statistics, digital literacy, educational technologies.

## Введение

В Национальной программе развития Кыргызской Республики до 2026 года, принятой 14 октября 2021 года отмечено, что ключевой задачей государства на среднесрочную перспективу

будет формирование среды, необходимой и достаточной для реализации потенциала каждого человека ( Национальная программа развития Кыргызской Республики до 2026 года).

На сегодня, осуществление процессов преобразования статистики требует расширения профессиональной подготовки специалистов Национального статистического комитета Кыргызской Республики (Нацстатком КР) и формирования культуры высокой эффективности и качества. Это требует продуманной стратегии и активной программы в области развития карьеры, образования, а также непрерывной профессиональной подготовки и переподготовки в целях получения различных специалистов, обладающих необходимой квалификацией.

Данное исследование проводится с целью оценки текущего состояния образования в области статистики в Кыргызской Республике, выявления основных проблемно-тематических аспектов, с которым сталкиваются образовательные учреждения и определения важности статистической грамотности для формирования информированного общества. Ожидается, что исследование покажет актуальность интеграции статистики в образовательные программы всех уровней, применение современных технологий в обучении и разработка междисциплинарных программ, обеспечивающих мотивацию студентов к изучению статистики и повышение качества подготовки специалистов.

**1. Важность статистической грамотности в современном обществе**

Статистика является способом не только структурирования окружающего информационного пространства, но и наукой, объясняющей общие закономерности и логику работы в информационном мегапотоке любого содержания, а также науки, предлагающей арсеналы инструментов анализа данных различному набору целевых пользователей.

Статистика является одной из самых важных наук и применяется повсеместно – от наук и бизнеса до политики и социологии. С ее помощью можно получить объективное представление о случившихся процессах, провести анализ данных, выявить главные логические выводы. Одним из основных направлений статистики является экономика. Систематизированные данные позволяют анализировать рынок во всех его проявлениях.

Однако существует и другие области применения статистики (табл. 1).

**Таблица 1: Сферы применения статистики**

| Сфера | Примеры применения статистики |
|---|---|
| **Государственное управление** | На основе статистических данных формируются бюджеты, разрабатываются социальные программы, оценивается уровень жизни населения |
| **Медицина** | Анализ заболеваемости, прогнозирование распространения эпидемий, изучение эффективности лекарственных препаратов |
| **Социология** | Опросы населения, изучение общественного мнения, анализ социальных процессов |
| **Наука и исследования** | Эксперименты, анализ полученных данных, проверка гипотез |
| **Образование** | Оценка учебных достижений, изучение эффективности образовательных программ |

**Источник:** Сейдахматова С.З. Проблемы и перспективы статистического образования в Кыргызской Республике. https://eec.eaeunion.org/upload/medialibrary/dab/lcqlz6m0xhsychb3k8yojb7ksfkobdpp/Seydakhmatova-S.Z..pdf (15-16 мая 2024 г.)

Как видим, статистика является важнейшим звеном для понимания и анализа мира вокруг нас. Это способствует тому, что мы можем принимать обоснованно решения, используя факты и числа, а не субъективные оценки и предположения. И, в связи с этим, статистическая грамотность становится сегодня столь же необходимыми для людей, как умение читать и писать. В этом контексте основой статистического просвещения, грамотности является формирование навыков, позволяющих в любой предметной области представлять логическую последовательность работы с информацией от сбора и накопления её первичных единиц до построения и анализа агрегированных показателей, моделей, отражающих сущность и закономерности функционирования различных систем. Эти навыки должны стать ключевыми компетенциями специалистов нового поколения во всех областях профессиональной деятельности. Только информированное и грамотное, в том числе статистически грамотное общество, может контролировать деятельность органов власти – осуществлять мониторинг, анализировать и оценивать ход и результаты выполнения социальных программ, то есть быть гражданским обществом.

Статистическая грамотность современного общества представляет собой способность понимать, интерпретировать и использовать статистическую информацию для принятия обоснованных решений. Это понятие охватывает как базовые навыки работы с данными, так и более сложные аналитические способности, необходимые в условиях информационного общества.

Основной проблемой статистической грамотности на сегодняшний день является недостаток навыков у значительной части населения, что затрудняет правильное восприятие и использование статистических данных. Часто встречаются случаи неправильной интерпретации информации, что может привести к ошибочным выводам и решениям. В условиях цифровизации и распространения фейковых новостей умение критически оценивать источники данных становится особенно актуальным.

**2. Проблемы статистического образования в Кыргызской Республике**

В Кыргызской Республике с 1993 г. по 2013 г. подготовка специалистов по статистике осуществлялась в Кыргызском национальном университете (КНУ) им. Ж. Баласагына по соглашению с Национальным статистическим комитетом КР. В это время председателем Нацстаткома КР был д.э.н., проф. Жумакадыр Асанкулович Акенеев. С 1995 года он также занимал пост председателя Совета руководителей статистических ведомств стран СНГ.

С 2013 г. в связи с окончанием договора КНУ им. Ж. Баласагына и Нацстаткомом КР набора на данную специальность не было.

Статистическое образование в Кыргызстане столкнулось с рядом проблем. Попытки адаптировать учебные планы для преподавателей и студентов оказались неэффективными, и статистика стала второстепенной в экономических науках.

Отсутствие подготовки статистиков в высших учебных заведениях страны свидетельствует о том, что спрос на них, кроме как от Национальной статистической системы Кыргызстана,

несформирован. Название специальности вызывает стандартные или даже неверные ассоциации. Это ведет к тому, что студенты теряют интерес к этой дисциплине, так как считают, что учебные знания не будут полезны на практике.

Кроме того, существует проблема доступности качественного статистического образования. Многие образовательные программы не уделяют достаточного внимания статистике, что приводит к дефициту знаний у выпускников, независимо от их профессиональной сферы. Это создает дополнительные трудности в профессиональной деятельности, где статистика играет ключевую роль, например, в экономике, журналистике и социальных науках.

В вузах Кыргызстана дисциплина «Статистика» хоть и является обязательным предметом, однако существуют проблемы, касающиеся объема часов, отведенных на ее изучение. Согласно данным, представленных в учебных планах, курс статистики включает в себя в среднем 3-4 кредита, из которых только 40-50% приходится на аудиторные занятия, что может быть недостаточным для глубокого освоения статистических методов и навыков. Это также влияет на качество усвоения знаний, поскольку студенты не имеют достаточного времени для практических занятий (Жигляева А.В., 2020).

Существующая тенденция к сокращению часов аудиторных занятий негативно сказывается на качестве преподавания статистики и, как следствие, на уровне статистической грамотности студентов (Садовникова Н.А.).

Это создает препятствия для формирования необходимых навыков обработки и анализа данных, особенно в условиях современного информационного общества, где такие навыки становятся все более востребованными.

Следующая проблема низкого качества статистического образования слабый интерес студентов к предмету. Студенты часто воспринимают статистику как абстрактную науку, что мешает им осознать практическое значение изучаемого материала. Это приводит к недостаточному интересу к предмету и снижению мотивации к обучению (Жигляева А.В., 2020). Также студенты часто приходят к выводу, что те знания, которые даются в университете, не востребованы на практике. Данный подход также снижает интерес к преподаваемой дисциплине, в частности, к статистике. Почему такое происходит? Практика уходит вперед, а ее теория отстает. Появляются пакеты прикладных программ, которые базируются в основном на «западном» понятии статистики, как науки. «Западная» статистика – это определенная смесь из математики, теории вероятностей и общей теории статистики (в нашем отечественном понимании). Статистика, преподаваемая в наших вузах, состоит совсем из других компонент: общая теория статистики, экономическая статистика, представляющая собой скорее макро и микро экономику, социальная статистика и система национальных счетов. Как видим, наполненность статистики, преподаваемой в вузах, совсем различна. К сожалению, не существует отечественных пакетов прикладных программ, которые широко использовались бы на практике. В этих случаях применяются «западные» разработки, наиболее известны среди них пакеты STATISTICA и SPSS. Проблема состоит в том, что заложенные в этих пакетах методы обработки информации в большинстве своем вообще не соответствуют той статистической теории, которая преподается в нашей стране.

Следующая проблема – отсутствие специалистов по статистике. Мы провели небольшое исследование и собрали данные о наличии кафедр статистики в наших ведущих вузах страны.

Из топ-10 по рейтингу МОиН КР (Спутник Кыргызстана, 2024), во всех этих вузах нет кафедр статистики. Статистика как «падчерица» ютится на кафедрах информатики, менеджмента, бухгалтерского учета, математики и др. и как следствие статистическим дисциплинам студентов и магистрантов учат преподаватели, не имеющие статистического образования и/или имеющие только самое общее представление о статистике, ее методах и роли в современном обществе. О каком качестве преподавания можно вести речь? Какие бы компетенции не были прописаны в новых стандартах, реализовать их должны подготовленные преподаватели, дефицит которых очевиден.

Таким образом, повышение статистической грамотности является серьезным вопросом для современного общества, и для решения данного вопроса необходим подход, основанный на построении соответствующих образовательных программ и популяризации статистических знаний.

**3. Пути повышения статистической грамотности**

Для повышения статистической грамотности в обществе необходимо начать с нескольких ключевых шагов.

Первым шагом является интеграция статистики в образовательные программы сразу на всех уровнях, начиная с начальной школы и заканчивая университетами. Это обеспечит студентов базовыми навыками работы с данными и понимание статистики как полезного инструмента для анализа данных.

Вторым шагом является использование современных технологий и ресурсов в обучении, чтобы сделать обучение более интересным и увлекательным. В практических заданиях стоит ссылаться на жизненные случаи и ситуации, чтобы дать возможность студентам увидеть практическое применение статистики и таким образом повысить их интерес.

Третьим шагом является увеличение количества учебных часов по данному предмету. Это позволит студентам лучше подготовиться к профессиональной деятельности и повысить общий уровень статистической грамотности в обществе. Кроме того, необходимо организовывать научно-исследовательские проекты и практические занятия, где студенты смогут самостоятельно работать с большими массивами данных и применять полученные знания на практике. Это не только укрепит их навыки, но и даст возможность сформировать критическое мышление при анализе статистической информации.

Другое важное условие для подготовки специалистов – интеграция статистики с другими дисциплинами и разработка междисциплинарных программ, что поможет студентам осваивать статистику в контексте их основной специальности. Например, можно предложить такую междисциплинарную программу как «Менеджмент и статистика», где идет сочетание основных концепций управления и анализа, уделяя внимание больше на том, как статистика и анализ данных могут привести к более успешному управлению процессами, более эффективной организации и меньшей рискованности.

Четвертым шагом является повышение квалификации преподавателей. Они должны быть подготовлены к современным методам обучения статистике и обладать актуальными знаниями в этой области. Внедрение программ повышения квалификации для учителей и преподавателей поможет обеспечить высокое качество обучения.

И пятым шагом, для повышения статистической грамотности необходимо проводить мероприятия по популяризации статистики среди широкой аудитории, включая семинары, конференции и мастер-классы. Это поможет создать общественное понимание важности статистических знаний в повседневной жизни и профессиональной деятельности.

Несмотря на существующие проблемы в статистическом образовании, важным шагом к улучшению ситуации является активное участие государственных структур. В частности, Нацстаткома КР и его подведомственной организации Института статистических исследований и повышения квалификации (ИСИПК), которые играют ключевую роль в решении этих проблем.

Нацстатком КР, как центральный орган, ответственный за официальную статистику в стране, инициирует различные программы и проекты, направленные на повышение качества статистического образования. На сегодняшний день под инициативой Нацстаткома КР в Кыргызском государственном техническом университете им. И. Раззакова была открыта бакалаврская программа по направлению «Бизнес-аналитика и статистика». А также некоторые высшие учебные заведения внедрили курс «Статистическая грамотность и методы анализа данных» в программы обучения студентов экономических направлений. Этот курс направлен на развитие навыков интерпретации статистических данных и применения аналитических методов, что является необходимым для подготовки специалистов, способных работать с большими объемами информации и делать выводы на основе анализа данных. В целях популяризации Статистики ежегодно Нацстатком КР проводит День открытых дверей на тему «Население и развитие». Кроме этого, проводятся гостевые лекции, семинары для студентов.

ИСИПК, в свою очередь, обеспечивает методическую поддержку и профессиональную подготовку специалистов в области статистики. Он активно работает над повышением квалификации работников системы национальной статистики через обучение и переподготовку, что является необходимым для формирования высококвалифицированных кадров. Для повышения квалификации вновь принятых сотрудников в систему Нацстаткома КР, при поддержке проекта «Модернизация налогового администрирования и статистической системы», финансируемого Всемирным банком, совместно с Институтом статистических исследований и повышения квалификации разработан онлайн курс «Введение в систему официальной статистики Кыргызской Республики» (Сейдахматова С.З., 2024).

В онлайн курсе представлены темы, которые раскрывают понимание и работу системы Нацстаткома, описаны основные понятия, используемые в производстве статистических показателей, процесс формирования статистической отчетности, международные стандарты и формат распространения данных. Онлайн курс доступен в открытом режиме для всех желающих повысить свои знания в области официальной статистики.

Таким образом, взаимодействие Нацстаткома КР и ИСИПК с образовательными учреждениями способствует не только улучшению качества подготовки специалистов, но и повышению общей статистической культуры в обществе. Эти усилия направлены на создание более эффективной системы статистического образования, которая отвечает современным требованиям рынка труда и потребностям общества.

## 4. Заключение

В заключении хотелось бы отметить, что статистическое образование играет ключевую роль в подготовке специалистов не только профильных, но и непрофильных направлений. Оно способствует развитию аналитических навыков и критического мышления, что является необходимым в условиях современного рынка труда. Умение работать с данными и делать обоснованные выводы становится важным не только для экономистов или статистиков, но и для специалистов в различных областях, таких как маркетинг, управление, здравоохранение и другие.

**Список литературы**


1. Жигляева А.В. (2020) Статистическая грамотность как конкурентное преимущество в профессиональной среде. [Текст]//Вопросы студенческой науки. Выпуск №8.
2. Концепция развития образования в Кыргызской Республике на 2021-2030 гг. [Электронный ресурс]. Режим доступа: https://edu.gov.kg/media/files/118d4b79-d6ea-4648-9c1c-56280444e7fd.pdf
3. Национальная программа развития Кыргызской Республики до 2026 года. [Электронный ресурс]. Режим доступа: https://www.gov.kg/ru/programs/16
4. Минобрнауки объявило лидеров рейтинга вузов КР — список. (2024). Спутник Кыргызстана. Дата публикации: 11.06.2024.
5. Сейдахматова, С.З. (2024). Проблемы и перспективы статистического образования в Кыргызской Республике. [Электронный ресурс]. Режим доступа: https://eec.eaeunion.org/upload/medialibrary/dab/lcqlz6m0xhsychb3k8yojb7ksfkobdpp/Seydakhmatova-SZ.pdf
6. Садовникова Н.А. Статистический показатель грамотности как качество высшего образования. [Электронный ресурс]. Режим доступа: https://rosstat.gov.ru/publish/conf0918/sadov.pdf


## “Yaşıl” İqtisadiyyat və “Yaşıl” Şəhər Konsepsiyalarının Bakı Aqlomerasiyası Səviyyəsində Reallaşdırılması Məsələləri


**Fərid Mehdiyev,**

**Mehdiyev.Farid.Azar.2022@unec.edu.az**



**Xülasə**

Bakı şəhərinin 2040-cı ilədək olan dövr üçün təsdiq edilmiş Baş planında şəhərin “yaşıl” şəhər və “ağıllı” şəhər konsepsiyaları əsasında inkişaf etdirilməsi nəzərdə tutulur. Bu tədqiqatın məqsədi Bakı şəhər aqlomerasiyasında “yaşıl” iqtisadiyyat və “yaşıl” şəhər prinsiplərinin tətbiqi xüsusiyyətlərini və müasir vəziyyətini araşdırmaq, prosesdə meydana çıxan problemləri aşkarlamaqdır. Tədqiqatda “yaşıl” iqtisadiyyat və “yaşıl” şəhər konsepsiyalarının mahiyyəti və prinsipləri, dayanıqlı inkişaf məqsədləri ilə bağlılığı, habelə dünya ölkələrinin təcrübəsi əsasında “yaşıl” şəhər prinsiplərinin tətbiqi xüsusiyyətləri araşdırılmış, Azərbaycanda həm bütövlükdə ölkə səviyyəsində, həm də xüsusilə Bakı

şəhərində "yaşıl" iqtisadiyyat prinsiplərinə keçid istiqamətində hökumətin həyata keçirdiyi siyasət sistemli şəkildə öyrənilmişdir. Dayanıqlı və "yaşıl" inkişaf baxımından hazırda Bakı şəhərinin üzləşdiyi problemlərin həm keçmiş sovet mirasına, həm də şəhərin son onilliklərdə plansız və sistemsiz böyüməsi ilə əlaqəli olması aşkar edilmişdir. Müəllifin fikrincə, hazırda Bakı şəhərinin inkişaf problemləri Xırdalan və Sumqayıt şəhərlərini də özünün təsir dairəsinə aldığından, "yaşıl" şəhər prinsiplərinin bu üç şəhəri əhatə edən Böyük Bakı aqlomerasiyası çərçivəsində əlaqəli şəkildə tətbiqi daha uğurlu nəticələrə gətirib çıxara bilər. Buna görə də tədqiqatda Azərbaycanda aqlomerasiyaların formalaşdırılması və inkişafının hüquqi bazasının formalaşdırılması təklif olunur.

**Açar sözlər:** "yaşıl" iqtisadiyyat, "yaşıl" şəhər konsepsiyası, dayanıqlı inkişaf, "dekaplinq" effekti, şəhər aqlomersiyası

**Summary**

The Master Plan approved by the Government of Azerbaijan for the period up to 2040 envisions the development of Baku as a "green" and "smart" city based on the principles of these concepts. The aim of this research is to examine the features and current status of applying the "green" economy and "green" city principles in the Baku urban agglomeration, as well as to identify the challenges arising in this process. The study explores the essence and principles of the "green" economy and "green" city concepts, their relevance to sustainable development goals, and the implementation characteristics of "green" city principles based on the experiences of other countries. Furthermore, the government policies aimed at transitioning to "green" economy principles at the national level, and particularly in Baku, have been systematically analyzed. It was revealed that the current challenges faced by Baku in terms of sustainable and "green" development are rooted both in the legacy of the Soviet era and in the unplanned and disorganized urban growth over the past decades. The author argues that since Baku's development issues now extend to the surrounding cities of Khirdalan and Sumgait, applying "green" city principles within the framework of the Greater Baku agglomeration, encompassing these three cities, would be more appropriate. Thus, the study proposes the establishment of a legal framework for the formation and development of urban agglomerations in Azerbaijan.

**Keywords:** Green economy, green city concept, sustainable development, decoupling effect, urban agglomeration

**JEL:** Q11, Q56, R11, R12

**Giriş**

Bütün planetin gələcəyini təhdid edən bqlobal ekoloji təhlükələrin getdikcə dərinləşdiyi müasir dövrdə "yaşıl" iqtisadiyyat, "yaşıl" artım və "yaşıl" şəhərlər kimi konsepsiyalarının reallaşdırılması planetin gələcək taleyini həll edən məsələlərdən biri kimi meydana çıxmışdır. Azərbaycan 2016-cı ilin oktyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası ilə bağlı Tərəflərin 21-ci Konfransında qəbul olunmuş Paris Sazişi təsdiq edilmiş, 2030-cu ilədək istilik effekti yaradan qazların emissiyalarının 35%, 2050-ci ilə qədər isə 40% azaldılmasını və işğaldan azad edilmiş ərazilərdə "netto sıfır emissiya" zonasının yaradılması üzrə öhdəlik götürmüşdür. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ində təsbit olunmuş 5 prioritetdən biri "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Bu prioritet çərçivəsində 2030-cu ilədək ölkədə yüksək keyfiyyətli ekoloji mühitin və yaşıl enerji məkanının təmin edilməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2023-cü il tarixli 504 nömrəli qərarı ilə təsdiq edilmiş "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nda Bakı şəhərinin "yaşıl" şəhər və "ağıllı" şəhər konsepsiyalarına

uyğun inkişaf etdirilməsi nəzərdə tutulmuşdur. Dünya təcrübəsi göstərir ki, hər bir ölkədə ekoloji problemləri əsas ağırlıq yükü məhz iri şəhərlərin üzərinə düşür. Azərbaycanda ekoloji problemlərin əsas yükü Bakı şəhəri və ona bitişik Xırdalan və Sumqayıt şəhərləridir.

Bu tədqiqatın məqsədi Bakı şəhər aqlomerasiyasında "yaşıl" iqtisadiyyat və "yaşıl" şəhər prinsiplərinin tətbiqi xüsusiyyətlərini və müasir vəziyyətini araşdırmaq, prosesdə meydana çıxan problemləri aşkarlamaqdır. Bu məqsədə nail olmaq üçün tədqiqatda "yaşıl" iqtisadiyyat və "yaşıl" şəhər konsepsiyalarının mahiyyəti, prinsipləri və tətbiqi xüsusiyyaətləri öyrənilir, ölkəmizdə və Bakı şəhərində "yaşıl" iqtisadiyyat prinsiplərinin tətbiqi sahəsində hökumətin həyata keçirdiyi siyasət araşdırılır, Bakı şəhəri və ətraf ərazilərin müvafiq problemləri araşdırılır, Bakı aqlomerasiyasında "yaşıl" şəhər konsepsiyasının tətbiqi xüsusisyyətləri tədqiq olunur.

Tədqiqat zamanı "yaşıl" iqtisadiyyat və "yaşıl" şəhər konsepsiyaları ilə bağlı yerli və xarici tədqiqatçılrın elmi əsərləri və tanınmış beynəlxalq qurumların praktik siyasət sənədləri, habelə xarici ölkə təcrübələri öyrənilmiş, Azərbaycanda "yaşıl" iqtisadiyyatın tətbiqinin hüquqi-normativ və institutsional bazası və praktik siyasət addımları araşdırılmış, ümumiləşdirmə və məntiqi metodlarla elmi və praktik əhəmiyyətli nəticələr əldə edilmişdir.

**"Yaşıl" İqtisadiyyat və "Yaşıl" Şəhər Konsepsiyalarının Mahiyyəti və Şəhər Aqlomerasiyası Səviyyəsində Tətbiqi Xüsusiyyətləri**

Hazırda müvafiq elmi və praktik ədəbiyyatda, habelə beynəlxalq təşkilatların sənədlərində, mövzuya yanaşma konsepsiyalarından asılı olaraq, "yaşıl" iqtisadiyyat və "yaşıl" artım terminlərinin çox sayda müəyyənlikləri mövcuddur (Qasımlı vd., 2022; OECD, 2022; UNEP, 2011; Green Economy Coalition, 2012). Bununla belə həmin müəyyənliklərin hamısında ümumi olan bir şey "dekapling" (*decoupling*) effektidir: belə iqtisadiyyatda resursların istehlakı və ətraf mühitə təsirlərin artım tempi əhalinin rifahının artım tempindən daha aşağı olmalıdır. "Dekapling" effekti sənaye istehsalında karbon resurslarından istifadənin və ətraf mühitin çirkləndirilməsinin azaldılmasını nəzərdə tutur. "Yaşıl" iqtisadiyyat konsepsiyasıplanetin resurslarının səmərəli istifadə edilməsini, təbii sərvətlərin faydasının artırılmasını, ətraf mühitin çirklənməsinin azaldılmasını, biomütəlifliyin qorunmasını, əhalinin həyat keyfiyyətinin yüksəldilməsini nəzərdə tutur (ANPED, 2011).

Bərpa olunan Enerji üzrə Beynəlxalq Agentliyinin (IRENA) fikrincə, 2050-ci ilədək qarşıya qoyulmuş qlobal hədəflərə nail olmaq üçün 6 fərqli istiqamətdə böyük sərmayə tələb edən fəaliyyətlər həyata keçirilməlidir: 1) bərpaolunan enerji (külək, günəş, biokütlə enerjisinin alınması və s.); 2) enerji səmərəliliyini və qənaətini artıran texnologiyaların tətbiqi; 3) elektrikləşdirmənin genişləndirilməsi; 4) nəqliyyat və isitlik sistemində təmiz enerjidən istifadənin payının artırılması; 5) hidrogendən istifadə potensialının genişləndirilməsi; 6) ənənəvi yanacaqla çalışan sənaye sahələrində havaya atılan karbon qazının zərərsizləşdirmə texnologiyaların təkmilləşdirilməsi və s. (IRENA, 2024).

Şəhərlər, xüsusilə iri aqlomerasiyalar "yaşıl" iqtisadiyyat və "yaşıl" artım kimi mövzularla bağlı həm elmi, həm də praktik siyasi müzakirələrdə mərkəzi yerlərdən birini tutur. Çünki hər bir ölkədə məskunlaşma və iqtisadi fəallığın əsas təmərküzləşmə mərkəzləri olan iri şəhərlər çox böyük həcmlərdə enerjinin istehlak olunduğu, istixana qazları və müxtəlif növ tullantıların yarandığı ərazilərdir. BMT-nin məlumatına görə, hazırda şəhərlər yer səthinin yalnız 3%-ni təşkil etsə də, dünya üzrə yaradılan ümumi daxili məhsulun (ÜDM) 80 faizi, istixana qazları və karbon emissiyalarının 75 faizi, enerji istehlakının isə 70 faizi məhz şəhərlərin payına düşür (UN-Habitat, 2023). Buna görə də dayanıqlı

inkişaf və “yaşıl” iqtisadiyyat uğrunda beynəlxalq səylərin taleyi ilk növbədə məhz iri şəhərlərdə həll olunur.

Beynəlxalq qurumlar səviyyəsində bunun anlaşılmasının nəticəsidir ki, “yaşıl” iqtisadiyyat konsepsiyası ilə yanaşı həm də “yaşıl” şəhər, “ağıllı” şəhər konsepsiyaları meydana çıxdı və sürətlə populyarlaşmağa başladı. “Yaşıl şəhər” konsepsiyası təmiz və bərpa olunan enerji qaynaqlarından istifadə (“enerji keçidi”) və sağlam ekoloji mühitin (“sıfır” karbon) yaradılması sayəsində şəhərlərin yaşanılabilən və dayanıqlı vəziyyətə gətirilməsini nəzərdə tutur (Hammer, S. et al., 2011). Avropa Yenidənqurma və İnkişaf Bankının müəyyənliyinə görə, “yaşıl” şəhər dedikdə - *i*) ekoloji aktivlərin (hava, su, torpaq və biomüxtəliflik) keyfiyyəti, *ii*) resursların (su, enerji, torpaq və materialların) istifadəsi səmərəliliyi və *iii*) iqlim dəyişiklikləri ilə bağlı risklərin yumşaldılması və belə risklərə uyğunlaşma baxımından - müəyyən edilmiş meyarlarla müqayisədə yüksək ekoloji göstəricilər nümayiş etdirən, habelə şəhər konteksti (əhali sayı, sosial-iqtisadi strukturu, coğrafi və iqlim xüsusiyyətləri) nəzərə alınmaqla fəaliyyətlərin iqtisadi və sosial faydalarını maksimumlaşdıran şəhər başa düşülür (ЕБРР, 2016).

“Ağıllı” və “yaşıl” şəhər konsepsiyasının ortaq cəhəti budur ki, hər iki konsepsiyada şəhərlərdə havanın çirklənmə səviyyəsi və mobillik durumu əhalinin sağlamlığını təhdid edən amillər kimi qəbul edilir, nəqliyyat sisteminin şəhər daxilində asan və rahat hərəkəti təmin edəcək şəkildə dizayn edilməsi, eləcə də elektriklə işləyən nəqliyyat vasitələrinin genişmiqyaslı istifadəsi hədəflənir (Yan Z., Sun Z., Shi R. and Zhao M., 2023).

Müasir rəqəmsal innovasiyalar şəhərlərin “sıfır” karbon və “enerji keçidi” hədəflərinə nail olunmasına çox böyük imkanlar təqdim etməklə, “ağıllı” şəhər və “yaşıl” şəhər standartlaırnın uyğunlaşdırılmasına imkan verir. Son on ildə bəzi ölkələrdə “ağıllı şəhər” konspepsiyası ilə yeni qurulan şəhərlər həm də “yaşıl şəhər” standarlarına da cavab verir (Future Cities Advisory Outlook - 2023).

Həm ölkə, həm də ayrı-ayrı regionlar və şəhərlər səviyyəsində “yaşıl” iqtisadiyyat prinsiplərinə keçidin reallaşdırılması əsasən və birbaşa dövlətə bağlı olan məsələdir, çünki həll olunmalı məsələlərin əksəriyyəti məhz mərkəzi hökumət səviyyəsindəki səlahiyyətlərə və imkanlara aidir. Bununla yanaşı ayrı-ayrı ölkə təcrübələri əsasında aparılan araşdırmalar göstərir ki, xüsusilə böyük aqlomerasiya ərazilərində bu konsepsiyalarının reallaşdırılması zamanı aqlomerasiyaya daxil olan və yanaşı ərazilərdəki bütün idarəetmə orqanlarının birgə əməkdaşlığına əsaslanan “mərkzi hökumət – şəhər hökumət(lər)i – bələdiyyələr” kimi strategiyalar, müxtəlif idarəetmə səviyyələrinin maraq və fəaliyyətlərinin uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir (OECD, 2022; Yan Z., Sun Z., Shi R. and Zhao M., 2023; Вукович Н.А., Ларионова В.А. и Бирюлина В.В., 2018;).

Davamlı memarlıqda innovativ materiallar və texnologiyalar təkcə enerji səmərəliliyini artırmaqla yanaşı, funksionallığı gözəlliklə birləşdirən estetik həllərə də diqqət yetirir. İnnovativ materiallar və texnologiyalar, xüsusilə enerji səmərəliliyini artıran estetik həllər vasitəsilə davamlı arxitekturanın inkişafında əsas rol oynayır. Bu sahədə ən təsirli inkişaflardan biri günəş panellərinin, o cümlədən

binaya inteqrasiya olunmuş fotovoltaiklərin (BIPV) inteqrasiyasıdır. Bu qabaqcıl günəş texnologiyaları binaların memarlığı ilə ahəngdar şəkildə birləşmək, adi dam örtüklərini və fasadları funksional enerji istehsal edən səthlərə çevirmək üçün nəzərdə tutulmuşdur. BIPV sistemləri xüsusilə diqqətəlayiqdir, çünki onlar nəinki təmiz enerji istehsalına xidmət edir, həm də strukturun estetik cəlbediciliyinə töhfə verir. Məsələn, günəş panelləri rəng, forma və dizayna görə fərdiləşdirilə bilər ki, bu da memarlara enerji səmərəliliyindən ödün verməyən vizual olaraq diqqəti çəkən binalar yaratmağa imkan verir (Hall, 2022). Bundan əlavə, günəş texnologiyasının dizayna parlaq inteqrasiyası vizual qarışıqlığı minimuma endirir və ümumi memarlıq uyğunluğunu artırır. Bu yanaşma binalara günəş enerjisindən səmərəli istifadə etməklə öz unikal xarakterini və üslubunu qoruyub saxlamağa imkan verir. Memarlar və dizaynerlər funksionallıqla yanaşı estetik mülahizələrə üstünlük verməklə tikilmiş mühitdə bərpa olunan enerji həllərinin daha geniş şəkildə qəbulunu təşviq edə bilərlər. Bununla onlar həm gözəlliyə, həm də ekoloji məsuliyyətə dəyər verən davamlı gələcəyə töhfə verir, nəticədə şəhər mənzərələrimizi necə qavradığımızı və onlarla qarşılıqlı əlaqəmizi yenidən müəyyənləşdirir.

Şəffaf izolyasiya panelləri təbii işıqlandırma və istilik səmərəliliyinin ikili faydasını təklif edərək davamlı arxitekturada əhəmiyyətli irəliləyişi təmsil edir. Polikarbonat və ya xüsusi şüşə kimi materiallardan hazırlanmış bu panellər istilik izolyasiyasını effektiv şəkildə qoruyarkən günəş işığının nüfuz etməsinə imkan vermək üçün nəzərdə tutulmuşdur. Bu innovativ həll məkanları dəyişdirir, onları təbii işıqla doldurur və parlaq, cəlbedici mühitlər yaradır. Şəffaf izolyasiya panellərinin estetik cəlbediciliyi diqqəti çəkir; onlar memarlara açıq və açıq havaya bağlı olan strukturları dizayn etməyə imkan verir, ümumi vizual təcrübəni artırır (Hall, 2022). Bu panellərdən fasadlarda və ya tavan pəncərələrində istifadə etməklə, binalar estetik gözəllik və funksional enerji səmərəliliyi arasında harmonik tarazlığa nail ola bilər. Materialların şəffaflığı gün ərzində süni işıqlandırma ehtiyacını minimuma endirir və bununla da enerji istehlakını azaldır və kommunal xərcləri azaldır.

Eyni zamanda, bu panellər istilik itkisini minimuma endirməyə kömək edir, daxili temperaturun istilik sistemlərinə həddindən artıq etibar etmədən rahat qalmasını təmin edir. Estetik və performansın birgə fəaliyyəti davamlı dizayn prinsiplərinə uyğundur, burada məqsəd təkcə ekoloji cəhətdən təmiz deyil, həm də vizual olaraq cəlbedici məkanlar yaratmaqdır. Şəffaf izolyasiya panellərini daxil etməklə, memarlar həm innovasiyaları, həm də davamlılığı qeyd edən gələcəyə yol açaraq, müasir memarlığı yenidən müəyyənləşdirə bilərlər.

Şaquli bağları və yaşıl divarları özündə əks etdirən canlı fasadlar həm estetik cəlbediciliyi, həm də enerji səmərəliliyini artıran davamlı memarlığın transformativ elementidir. Bu innovativ dizaynlar müxtəlif bitkiləri binanın eksteryerinə birləşdirir, şəhər mühitinin vizual mənzərəsini əhəmiyyətli dərəcədə yaxşılaşdıran sulu, canlı səthlər yaradır (Bergman, 2023). Yaşayış fasadları öz gözəlliklərindən əlavə istilik izolyasiyasında həlledici rol oynayır, istilik və soyutma üçün lazım olan enerjini azaldır. Yarpaqların təbəqələri istilik itkisinə qarşı təbii maneə yaradır, il boyu rahat daxili temperaturu saxlamağa kömək edir. Bundan əlavə, bitkilər günəş işığını udur və istilik adasının təsirini azaldır, bu da binaları daha enerjiyə qənaət edir. Bundan əlavə, canlı fasadlar çirkləndiriciləri süzərək və oksigen istehsal edərək, sakinlər üçün daha sağlam mühit yaradaraq havanın keyfiyyətinin yaxşılaşdırılmasına töhfə verir. Şəhər memarlığı daxilində biomüxtəlifliyin bu cür inteqrasiyası ekoloji davamlılığı təşviq edərək təbiət və tikilmiş ətraf mühit arasında daha güclü əlaqə yaradır. Yaşayan fasadların estetik faydalarını nəzərdən qaçırmaq olmaz; onlar əhalinin sıx məskunlaşdığı ərazilərə yaşıllıq gətirir, həm sakinlərin, həm də yoldan keçənlərin həyat keyfiyyətini artırır. Həm funksionallığa,

həm də gözəlliyə üstünlük verərək, canlı fasadlar innovativ materiallar və texnologiyaların dayanıqlı arxitekturanı necə yenidən müəyyənləşdirə biləcəyini, təkcə enerjiyə qənaət edən deyil, həm də vizual və ekoloji cəhətdən zənginləşdirən məkanlar yarada biləcəyini nümunə göstərir.

Ağıllı pəncərələr estetik cəlbedicilik və enerji səmərəliliyinin qüsursuzluğunu təklif edərək davamlı memarlıqda yenilikdir. Bu qabaqcıl pəncərələr günəş işığının dəyişməsinə cavab olaraq rəngini və ya şəffaflığını dinamik şəkildə dəyişmək üçün nəzərdə tutulmuşdur və bununla da daxili temperaturun effektiv şəkildə tənzimlənməsinə kömək edir. Məkana daxil olan təbii işığın miqdarını tənzimləməklə, ağıllı pəncərələr süni isitmə və soyutma sistemlərindən asılılığı azaldır və bu, əhəmiyyətli enerji qənaətinə gətirib çıxarır (Yeang, 2020). Ağıllı pəncərələrin zərif və müasir dizaynı binanın ümumi estetikasını artırır və onları vizual cəhətdən təəccüblü strukturlar yaratmağı hədəfləyən memar və dizaynerlər üçün arzuolunan xüsusiyyətə çevirir. Onların uyğunlaşma qabiliyyəti təkcə sakinlər üçün rahatlığı yaxşılaşdırmır, həm də binanın enerji performansına töhfə verir və onu uzunmüddətli perspektivdə daha davamlı edir. Temperaturun tənzimlənməsinə əlavə olaraq, ağıllı pəncərələr parlaqlığı azalda və təbii işığın keyfiyyətini yaxşılaşdıraraq cəlbedici və xoş qapalı mühitlər yarada bilər. Bu texnologiya təbiət və memarlıq arasında harmonik əlaqəni dəstəkləyir, çünki enerji səmərəliliyindən ödün vermədən maksimum gün işığına imkan verir. Ağıllı pəncərələri dizaynlarına daxil etməklə, memarlar davamlılığı inkişaf etdirərək, innovativ materiallar və texnologiyaların müasir yaşayış sahələrini daha yaxşıya doğru necə müəyyənləşdirə biləcəyini nümayiş etdirərək mükəmməl görünüş əldə edə bilərlər.

**Nəticə**

Davamlı memarlıqda innovativ materiallar və texnologiyalar enerji səmərəliliyi üçün vacib, estetik həllər təklif edir, nəinki funksional, həm də vizual olaraq valehedici və ekoloji cəhətdən şüurlu binalar yaradır. Material elmindəki irəliləyişlər bio-əsaslı və təkrar emal edilə bilən materiallar, şəffaf günəş panelləri və hər biri davamlılığı memarlıq estetikası ilə birləşdirə bilən ağıllı şüşə kimi enerjiyə qənaət edən variantları ortaya çıxardı. Bu materiallar ətraf mühitdəki dəyişikliklərə cavab verən, istilik udulmasını azaldan və təbii işığı təşviq edən dinamik fasadlar yaratmağa imkan verir, beləliklə, süni işıqlandırma və HVAC (havalandırma,isitmə,soyutma) sistemlərindən asılılığı minimuma endirir. Bundan əlavə, izolyasiyanı və hava axınını optimallaşdıran passiv dizayn strategiyaları və günəş plitələri və külək yığan fasadlar kimi bərpa olunan enerji inteqrasiyaları kimi texnologiyaya əsaslanan həllər binanın özünü təmin etməsinə kömək edir. Məsələn, passiv evlər daxili iqlimin komfortunu qorumaq üçün təkmil izolyasiyadan və istilik enerjisi saxlama sistemindən istifadə edir, enerji istehlakını azaldır, eyni zamanda ətrafa mükəmməl qarışır. Rəqəmsal olaraq hazırlanmış materiallar və modul tikinti üsulları, həmçinin dizaynda dəqiqliyə və tullantıların azaldılmasına imkan verməklə davamlılığı və estetikanı artırır. Məsələn, 3D çap memarlara ekoloji məqsədlərə zərər vermədən dizaynda çeviklik təklif edərək, minimal tullantı ilə unikal formalar yaratmağa imkan verir. Bundan əlavə, prefabrik komponentləri əhatə edən modul sistemlər, həm estetik, həm də ekoloji təmizliyi artıraraq, yerində səmərəli montaj və memarlıq formalarına uyğunlaşma imkanı verir. Davamlı memarlıqda innovativ materiallar və texnologiya həm funksionallıq, həm də gözəllik təmin edir, dayanıqlı binaların qavrayışını sırf utilitardan ruhlandırıcı memarlıq şah əsərlərinə dəyişir. Bu texnologiyalar inkişaf etdikcə, vizual cəlbediciliyi itirmədən planeti prioritetləşdirən gələcək memarlıq həlləri üçün yol açır. Bu cür materialların və texnologiyaların inteqrasiyası arxitekturada inqilab etmək potensialına malikdir, enerjiyə qənaət, estetik baxımdan xoş görünən binaları nəinki mümkün, həm də

şəhər mənzərələrində yeni standart edir. Bu yeniliklər dizayn və funksionallığın həm insan ehtiyaclarına, həm də ətraf mühitə xidmət etmək üçün birləşdiyi daha davamlı gələcəyə töhfə verir.

Teksturalı və naxışlı fasadlar estetik cəlbediciliyi gücləndirilmiş enerji səmərəliliyi ilə birləşdirərək davamlı memarlıqda qabaqcıl yanaşmanı təmsil edir. Teksturalı keramik plitələr və ya perforasiya edilmiş metal kimi innovativ üzlük materiallarından istifadə edərək, memarlar binanın dizaynını əhəmiyyətli dərəcədə yüksəldən vizual cəlbedici xarici görünüşlər yarada bilərlər. Bu materiallar müxtəlif tekstura və naxışlara imkan verir, ətraf mühitin xarakterini əks etdirən unikal bədii ifadələrə imkan verir. Vizual təsirindən əlavə, toxumalı fasadlar izolyasiya və havalandırmanın yaxşılaşdırılmasında həlledici rol oynayır. Mürəkkəb dizaynlar hava axını asanlaşdırır, istilik yığılmasını azaldır və binanın ümumi istilik performansını yaxşılaşdırır. İsti aylarda istilik qazancını minimuma endirməklə, bu fasadlar soyutma sistemlərinə olan tələbatı azaltmağa kömək edir və enerji istehlakı və xərclərin azalmasına səbəb olur. Üstəlik, bu fasadlarda davamlı materialların istifadəsi çox vaxt binanın uzunömürlülüyünə kömək edir, zamanla minimum təmir və tullantıları təmin edir. Beləliklə, teksturalı və naxışlı fasadlar forma və funksiya arasındakı ahəngdar tarazlığı nümayiş etdirir və enerjiyə qənaət edən həllərin də heyrətamiz dərəcədə gözəl ola biləcəyini sübut edir. Bu innovativ yanaşma təkcə şəhər məkanlarının vizual mənzərəsini yaxşılaşdırmır, həm də davamlı inkişaf məqsədlərinə uyğunlaşır və dizaynın ətraf mühitə müsbət töhfə vermək potensialını nümayiş etdirir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Bergman, D. (2023). Sustainable Design: A Critical Guide. New York, Princeton Architectural Press, 492.
2. Hall, K. (2022). The Green Building Bible: Essential Information to Help You Make Your Home and Buildings Less Harmful to the Environment. Norwich, Green Building Press, 315.
3. Kibert, C. (2021). Sustainable Construction: Green Building Design and Delivery. Hoboken, Wiley, 478.
4. Schittich, C. (2020). Solar Architecture: Strategies, Visions, Concepts. Munich, Birkhäuser Architecture, 330.
5. Stevenson, F. (2021). Design for Adaptability in Sustainable Architecture. Abingdon, Routledge, 365.
6. Yeang, K. (2020). Ecodesign: A Manual for Ecological Design. Hoboken, Wiley, 350.

## Davamlı İnsan İnkişafının Demoqrafik Aspektləri

**İlqar Osman oğlu Osmanov**
**Sumqayıt Dövlət Universiteti, Mühasibat və iqtisadiyyat kafedrasının baş müəllimi**
*ilqarosmanov1975@mail.ru*

**Xülasə**

Son onilliklərdə davaml insan inkişafının demoqrafik aspektlərinin öyrənilməsi böyük önəm daşıyır. Davamlı insan inkişafı təkcə fərdin və bütövlükdə əhalinin malik olduğu biliklərinin, təhsil və peşə xüsusiyyətlərinin inkişafı deyil, habelə onlara xas olan mənəvi, psixofiziki və demoqrafik keyfiyyətlərinin yaxşılaşdırılması kimi qəbul edilir. Sonuncu xüsusiyyətləri təkmilləşdirmədən davamlı insan inkişafını təsəvvür etmək mümkün deyil. Davamlı insan inkişafı cəmiyyətdəki demoqrafik proseslərdən asılıdır. Demoqrafik proses doğuş, ölüm, miqrasiya prosesləri, habelə cəmiyyətin sosial-mədəni xüsusiyyətləri və dövlət siyasəti ilə müəyyən edilən əhali artımını və sayında və tərkibində dəyişiklikləri təmin edən sosial proses növüdür. Demoqrafik proseslərin qeyri-sabitliyi sosial problemlərin artmasına, əmək bazarında və məşğulluqda struktur disbalansına, sosial bərabərsizliyin yayılmasına, əhalinin keyfiyyət tərkibinin dəyişməsinə səbəb olur. Odur ki, davamlı insan inkişafı baxımından demoqrafik proseslərin sabitliyinin təmin edilməsi yollarının araşdırılması əsas priritetlərdən biridir. Bu baxımdan hazırlanmış məqalənin mövzusu aktuallığı ilə seçilir. Məqalədə davamlı insan inkişafının zəruriliyi əsaslandırılmış, ona təsir göstərən demoqrafik aspektlər tədqiq edilmişdir. Azərbaycanda davamlı insan inkişafının aspektlərindən biri kimi onun təkrar istehsalının mövcud vəziyyəti təhlil edilmiş, demoqrafik şəraitin yaxşılaşdırılması tövsiyə xarakterli təkliflər irəli sürülmüşdür. Məqalədə qruplaşdırma, ümumiləşdirmə, amillər üzrə təhlil, müqayisəli təhlil, iqtisadi-statistik təhlil və s. kimi tədqiqat üsullarından istifadə olunmuşdur.

**Açar sözlər:** davamlı insan inkişafı, demoqrafik vəziyyət, əhali, təhsil, miqrasiya

JEL: E24; J11; O15; Q01; R23

**Summary**

In recent decades, the study of demographic aspects of sustainable human development is of great importance. Sustainable human development is not only the development of the knowledge, educational and professional characteristics of an individual and the population as a whole, but also the improvement of their moral, psychophysical and demographic qualities. It is impossible to imagine sustainable human development without improving the latter characteristics. Sustainable human development depends on demographic processes in society. Demographic process is a type of social process that ensures population growth and changes in number and composition determined by birth, death, migration processes, as well as socio-cultural characteristics of society and state policy. The instability of demographic processes leads to the increase of social problems, structural imbalance in the labor market and employment, the spread of social inequality, and changes in the quality of the population. Therefore, researching ways to ensure the stability of demographic processes in terms of sustainable human development is one of the main priorities. From this point of view, the topic of the prepared article is distinguished by its relevance. In the article, the need for sustainable human development is justified, and the demographic aspects affecting it are studied. As one of the aspects of sustainable human development in Azerbaijan, the current situation of its reproduction has been analyzed, recommendations for improving demographic conditions have been put forward. The article includes grouping, generalization, factor analysis, comparative analysis, economic-statistical analysis, etc. such research methods were used.

**Key words:** sustainable human development, demographic situation, population, education, migration

**Giriş**

Təbii fəlakətlərin sayının və miqyasının artması, təbii sərvətlərin hasilinin getdikcə çətinləşməsi, sosial gərginliyin artması inandırıcı şəkildə göstərir ki, davamlı inkişaf sivilizasiyanın inkişafının yeganə yoludur. Bu günə qədər davamlı inkişafın nəzəriyyəsi və praktikası artıq müəyyən təkamül yolu keçmişdir. Davamlı inkişaf insan amili, yəni cəmiyyətin vəziyyəti nəzərə alınmaqla təmin edilməlidir. Davamlı inkişaf üçün insannın özünün inkişafı, yəni davamlı insan inkişafı təmin edilməlidir. Davamlı insan inkişafının əsas məqsədləri adətən aşağıdakılardır: gəlirlərin artırılması, təhsilin, qidalanmanın və səhiyyənin yaxşılaşdırılması, yoxsulluğun azaldılması, ətraf mühitin yaxşılaşdırılması, bərabər imkanların yaradılması, şəxsi azadlığın genişləndirilməsi, mədəni həyatın zənginləşdirilməsi. Davamlı insan inkişafı məqsədlərinə uyğun olaraq bu meyarları ölçən göstəricilər sistemi qurulur. Dəyərlər və inkişaf məqsədləri iyerarxiyasında region və ölkələr arasında müəyyən fərqlərin olmasına baxmayaraq, beynəlxalq təşkilatlar bəzi göstəricilərə görə onların inkişaf dərəcəsini qiymətləndirirlər. Demoqrafik proseslər vasitəsilə müşahidə edilən dəyişikliklər davamlı insan inkişafının demoqrafik göstəricilərinə təsirində özünü biruzə verir. Demoqrafik göstəricilər cəmiyyətdə baş verən prosesləri öyrənmək üçün statistik məlumatlar sistemidir. Bu göstəricilərə əsasən müəyyən ərazidə yaşayan əhalinin sayı və strukturu haqqında nəticə çıxara bilərik. Demoqrafik göstəricilər sosial-iqtisadi sahədə münasibətləri müəyyən edən nisbətlər və mütləq dəyərlərdir. Əhalinin kəmiyyət və ya keyfiyyətcə dəyişməsi prosesi, məsələn, əhalisinin sayının artması, miqrasiya sürətinin azalması və s. ölkənin demoqrafik inkişafına təsir edir. Hazırda davamlı insan inkişafı göstəricilərinin yaxşılaşdırılması əsas prioritet vəzifələrdən biridir və bu da ölkədəki demoqrafik vəziyyətdən xeyli asılıdır.

## Davamlı İnsan İnkişafında Demoqrafik Amillərin Rolu

Davamlı insan inkişafı istənilən cəmiyyətin demoqrafik vəziyyəti ilə sıx bağlıdır. Demoqrafik vəziyyət davamlı inkişafda önəmli rol oynayan sosial amillərdən biridir və cəmiyyətin inkişaf vəziyyətindən asılıdır. İnkişafın davamlılığının təmin edilməsində önəmli addım demoqrafik siyasətin reallaşdırılmasıdır ki, bu da müxtəlif proqramlara, o cümlədən əhali sağlamlığı, gender bərabərliyi, qadınların təhsili və yoxsul insanların güzəranın yaxşılaşdırılmasına təsir bazasının genişləndirilməsinə inteqrasiya olunmalıdır (Davamli inkişafin sosial və fəlsəfi problemləri. Kollektiv monoqrafiya., 2019).

Davamlı insan inkişafında önəmli rol oynayan təhsil və səhiyyə sisteminin dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə uyğunlaşdırılması, özəl sektorun bu sahələrdə inkişafının intensivləşdirilməsi, bilik iqtisadiyyatının möhkəmləndirilməsi istiqamətində daha səmərəli mexanizmlər reallaşdırılmalıdır (Abdullayev L.İ., 2019). Lakin bütün bunlarla yanaşı demoqrafik aspektlərə də diqqət artırılmalıdır.

Çünki, davamlı insan inkişafı müxtəlif səviyyədə bir sıra amillərdən, o cümlədən demoqrafik amillərdən asılıdır. Davamlı insan inkişafına əhalinin sağlamlığı və təhsili, ölkədə sosial infrastruktur obyektlərinin sayı və sosial xidmətlərin keyfiyyəti, əhalinin gəlirləri və məşğulluğu, habelə ölkənin sosial-iqtisadi təminat səviyyəsi və s. kimi amillər önəmli təsir göstərir.

Davamlı insan inkişafına nail olmağın əsas şərti insan kapitalının toplanması və qorunub saxlanılması, insanları ömür boyu öyrənmə və təlim vasitəsilə öz bacarıqlarını bütün həyatı boyu təkmilləşdirməyə təşviq edən strategiyaların reallaşdırılmasıdır. Ölkənin inkişafının davamlılığı iqtisadi inkişafın əsaslarını təşkil edən təhsil, səhiyyə, mədəniyyət, iqtisadi və sosial infrastruktur kimi sahələrin maliyyələşdirilməsini və işçi qüvvəsinin keyfiyyəti artırmaqla mümkündür. İnsanın maddi, intellektual və mənəvi imkanlarının inkişafı, insan kapitalının toplanması dövlətin önəmli vəzifəsinə çevrilir

(Бабаджанов, Р. М., 2021). Hazırda davamlı insan inkişafı üçün əsas meyar əhalinin həyat keyfiyyətinin yüksəldilməsidir. Həyat keyfiyyəti, adətən, insanın mövcudluğunun şərtləri kimi başa düşülür. Bunlar maddi nemətlərlə (yemək, geyim, mənzil) təminat, təhlükəsizlik, tibbi xidmətin mövcudluğu, təhsil və qabiliyyətlərin inkişafı imkanları, təbii mühitin vəziyyəti, sosial cəmiyyətdəki münasibətlər, o cümlədən ifadə azadlığı və vətəndaşların siyasi münasibətlərə təsiri və digərləridir.

Davamlı insan inkişafının möhkəm əsası keyfiyyətin daim yüksəldilməsidir. İnsan davamlı inkişafın mərkəzinə çevrilir ki, bu da onun müvafiq qərarların qəbulu proseslərində iştirakını nəzərdə tutur. Bunun üçün müvafiq təhsil lazımdır. Dünya iqtisadiyyatının qloballaşdığı müasir şəraitdə təhsil sosial inkişafı stimullaşdırmaq və müsbət sosial-iqtisadi dəyişiklikləri təmin etmək məqsədi daşıyır. Bu gün Azərbaycanda təhsil həll edilməli olan ciddi problemlərlə üzləşir: təhsilin əlçatanlığı, verilən təhsilin keyfiyyəti, əmək bazarında müəyyən mütəxəssislərə tələbat, xarici universitetlərlə əlaqələrin qurulması və nəhayət, ali təhsilin gələcək inkişafı üçün ümumi əsasların formalaşdırılması. Cəmiyyətdə təhsilin səviyyəsi nə qədər yüksək olarsa, onun keyfiyyətə, yəni daimi yeniliyə ehtiyacı da bir o qədər artır, bunun sayəsində keyfiyyət yüksəlir.

Davamlı insan inkişafına demoqrafik aspektlər xeyli dərəcədə təsir göstərir. Demoqrafik aspekt insan kapitalının demoqrafik proseslər vasitəsilə reallaşan tərkib hissəsidir. Doğuş, ölüm və miqrasiyanın miqyası və intensivliyi əhalinin ümumi sayındakı dalğalanmaları müəyyən edir ki, bu da ölkədə və ayrı-ayrı regionlarda demoqrafik vəziyyətin ən ümumi xarakteristikasıdır (Чистякова, Н. Е., 2021).

Demoqrafik aspektə aşağıdakı səbəblərə görə xüsusi əhəmiyyət verilir:

1) Bu göstərici kifayət qədər obyektiv xarakter daşıyır, cəmiyyətin həyat və inkişafının əsaslarında özünü göstərir, dövlət statistika orqanları tərəfindən sistemli şəkildə nəzarətdə saxlanılır;

2) Cəmiyyətin bütün münasibətlərinin institusional transformasiyalarını nəzərdə tutur. Bundan əlavə, insan potensialının qorunması və inkişafı ərazinin uzunmüddətli inkişaf proqramının əsas məqsədidir ( Коковин, П. А., 2017).

Demoqrafik proseslər dövlət demoqrafik siyasətinin diqqətindən kənarda qala bilməz, çünki bu proseslər, əhalinin xüsusiyyətlərində məkan, sosial və keyfiyyət dəyişiklikləri ölkənin milli təhlükəsizliyinin parametrlərinə təsir göstərir. Demoqrafik proseslərə müəyyən dərəcədə urbanizasiya və gəlir səviyyələri, qadınların cəmiyyətdəki rolunun dəyişməsi təsir göstərir.

Demoqrafik proseslər insan kapitalının inkişafına kompleks şəkildə təsir edir. İnsan kapitalı sağlamlıq, motivasiya və əldə edilmiş təcrübə komponentləri ilə tamamlandıqda, sosial təkrar istehsal prosesində həyata keçirilə bilən və bununla da öz fəaliyyəti üçün gəlir yarada bilən ümumi və xüsusi biliklərin, peşə bacarıqlarının, səriştələrinin yığılmış məcmusu kimi müəyyən edilir. Demoqrafik aspekt demoqrafik proseslər (məhsuldarlıq, ölüm, miqrasiya) vasitəsilə reallaşan insan kapitalının tərkib hissəsidir. Mövcud yaş strukturunun və demoqrafik proseslərin intensivliyinin birgə təsiri yaş və cins qruplarının nisbətini dəyişir və son nəticədə ölkənin insan kapitalını tənzimləyir (Чистякова, Н. Е., 2019).

Demoqrafik vəziyyəti 3 qrup elementdən istifadə etməklə xarakterizə etmək olar:

- əhalinin sayının, mövcud yaş-cins strukturunun və onun çoxalma parametrlərinin statik qiymətləndirilməsi;
- əhalinin sayı və strukturunu formalaşdıran demoqrafik proseslərin dinamikasının təhlili;

- tendensiyaların proqnozlaşdırılması və onların demoqrafik nəticələrinin qiymətləndirilməsi. Elementlərin hər bir qrupu göstəricilər sistemi ilə təsvir edilə bilər. Demoqrafik vəziyyəti səciyyələndirmək üçün müxtəlif demoqrafik göstəricilər toplusundan istifadə oluna bilər ki, bu da işlərin vəziyyətini və demoqrafik dəyişikliklərdə mövcud tendensiyaları müxtəlif dərəcədə əks etdirə bilər; Məsələn, əmək qabiliyyətli yaşda olan əhalinin nisbəti kimi bir göstəricini, təhsilin keyfiyyətini və kadr hazırlığının xüsusiyyətlərini nəzərə alsaq, ölkənin əmək ehtiyatlarının potensialı haqqında nəticə çıxara bilərik.

**Azərbaycanda Davamlı İnsan İnkişafında Əsas Demoqrafik aspektlər**

Bu gün ölkədə davamlı insan inkişafının aspektlərindən biri onun təkrar istehsalının təmin edilməsidir. Ölkədə əhalinin təkrar istehsalının əsasını təbii artımı təşkil edir, onun keyfiyyət və kəmiyyət göstəriciləri əsasən davamlı insan inkişaf konsepsiyası çərçivəsində ərazinin gələcək inkişafını müəyyən edir. Azərbaycanda müxtəlif illər üzrə təbii artım şəkil 1-də əks olunub.

**Şəkil 1. Azərbaycanda əhalinin təbii artımı**




***Mənbə:*** *(https://www.stat.gov.az/source/demoqraphy)*

Şəkil 1-dən görünür ki, Azərbaycanda əhalinin təbii artımı tədqiq etdiyimiz dövrlər ərzində ən çox 2015-ci ildə, ən az isə 2021-ci ildə olmuşdur. 2015-ci ildə təbii artım 2021-ci ilə görə 80107 nəfər və ya 3,2 dəfə çoxdur. 2023-cü ildə isə təbii artım 2021-ci ilə görə 17064 nəfər və ya 48,2% çox olduğu halda, 2022-ci ilə görə 9566 nəfər və ya 15,4% az olmuşdur.

Azərbaycan zəngin təbii-iqlim və resurs potensialına, əlverişli ekoloji şəraitinə, iqtisadi və sosial inkişaf səviyyəsinə görə həyat və sağlamlıq üçün cəlbedicidir. Azərbaycanın strateji sənədlərində gələcək gəlir mənbəyi kimi insan kapitalının rolu, onun formalaşması və inkişafının sağlamlıq vəziyyətindən birbaşa asılı olduğu qeyd olunur. Əhalinin təbii artımına doğulanların ölənlərin sayı arasındakı fərq təşkil edir. Məsələn, 2023-cü ildə ölkədə doğulanların sayı 112620 nəfər, ölənlərin sayı 60150 nəfər olduğundan təbii artım 52470 nəfər təşkil edib. Digər illər üzrə də həmin fərqi görmək üçün şəkil 2-yə diqqət yetirək.

**Şəkil 2. Azərbaycanda doğulan və ölənlərin sayı**




***Mənbə:*** *(https://www.stat.gov.az/source/demoqraphy)*

Şəkil 2-dən görünür ki, 2020 və 2021-ci illərdə Azərbaycanda ölənlərin sayında digər illərə nisbətdə xeyli artım müşahidə edilib. Bunun əsas səbəblərindən 44 günlik Vətən Müharibəsində şəhid olanların və COVİD-19 pandemiyası səbəbindən ölənlərin sayının artması olmuşdur. Doğum səviyyəsinin azalması da təbii artıma mənfi təsir göstərmişdir.

Davamlı insan inkişafına birbaşa təsir göstərən vacib demoqrafik proses miqrasiyadır ki, o da geniş miqyaslı amillərdən asılıdır. İstənilən ölkədə davamlı insan inkişafına təsir edən amillərdən biri əhalinin təbii artımı ilə yanaşı, onun miqrasiyasıdır. Miqrasiya prosesi müəyyən ərazi və ölkələrdə təkcə əhalinin və onun tərkib hissələrindən biri olan əmək ehtiaytlarının artıb-azalmalarına deyil, habelə onların peşə və ixtisas strukturuna, yaşına, cinsinə, etnik tərkibinə, məşğulluğun səviyyəsinə və s. təsir göstərir (Muradov R.Ş., 2015). Əhalinin təkrar istehsalı ilə müəyyən ərazidə iqtisadi artım imkanları arasındakı ziddiyyətlər daxili miqrasiyanın intensivləşməsinə səbəb olur.

Miqrasiya iqtisadi cəhətdən aktiv əhalinin bölüşdürülməsi və yenidən bölüşdürülməsi üçün effektiv mexanizm rolunu oynayır, bu da insan kapitalının təsirinin müəyyənləşdirilməsini asanlaşdırır, xarici miqrasiya isə əks nəticələrlə xarakterizə olunur. Kifayət qədər yüksək təhsil səviyyəsinə malik olanların miqrasiyası ölkənin sosial-iqtisadi və demoqrafik inkişaf perspektivlərinə son dərəcə mənfi təsir göstərən amildir. Zəif təhsilli insanların isə xaricdə iş tapmaq şansları aşağıdır və buna görə daxili əmək bazarında öz xidmətlərini təklif edir və bununla da onun təhsil və ixtisas strukturunu pisləşdirir.

Şəkil 3 məlumatları Azərbaycana yaşamaq üçün gələnlərin sayının tədqiq edilən bütün dövrlər ərzində üstünlük təşkil etdiyini göstərir. Ölkəyə daimi yaşamaq üçün ən çox gələnlər 3638 nəfər olmaqla 2023-cü ildə, ən az isə 1669 nəfər olmaqla 2020-ci ildə olmuşdur. Daimi yaşamaq üçün ölkədən gedənlərin sayı ən çox 2483 nəfər olmaqla 2023-cü ildə, ən azı isə 568 nəfər olmaqla 2020-ci ildə olmuşdur. 2020-ci ildə daimi yaşayış üçün ölkəyə gələnlərin və ölkədən gedənlərin sayının

azalmasının əsas səbəbi hamıya məlum olan COVİD-19 pandemiyasının yayılması və bunun nəticəsində sərhədlərin bağlanması olmuşdur.

**Şəkil 3. Azərbaycanda miqrasiya səviyyəsi**




***Mənbə:** (https://www.stat.gov.az/source/demoqraphy)*

Davamlı insan inkişafının ən vacib demoqrafik aspektlərindən biri əhali sağlamlığıdır. Sağlamlıq cəmiyyətin inkişaf səviyyəsini, ümumilikdə həyat keyfiyyətini və milli təhlükəsizliyini müəyyən edən ən vacib amildir. Hal hazırda sağlamlığın qorunması və təbliği sosial yönümlü bazar iqtisadiyyatı olan ölkələrin dövlət siyasətində prioritet hala gəlmişdir. Müxtəlif idarəetmə səviyyələrində sağlamlığın yeri və rolunun düzgün qiymətləndirilməməsi mənfi nəticələrə səbəb olur. Bunlara ümumi ömrün azalması, doğuş faizi, xəstələnmənin artması, xəsarət almaq və s. Bütün bunlar əhalinin yaşayış səviyyəsi və keyfiyyətinin aşağı düşməsinə, bütövlükdə cəmiyyətin inkişaf tempinin azalmasına səbəb olur.

Sağlamlığın dəyəri təkcə xəstəliyin əlamətlərinin olub-olmamasından deyil, habelə psixoloji rifahdan - insanın öz imkan və keyfiyyətlərini, həyat perspektivlərini, cəmiyyətdəki yerini dərk etməsindən asılıdır. İnsanlar öz sağlamlıqlarını sosial funksiyaları yerinə yetirmək qabiliyyəti baxımından qiymətləndirməyə meyillidirlər (Шаяхметова, Р. Р., 2017).

Qidalanmanın keyfiyyəti, fiziki aktivliyin olmaması və bir sıra digər amillər insanların sağlamlığına mənfi təsir göstərə bilər. Odur ki, xəstəliyin azaldılmasına və əhalinin ümumi sağlamlığının yaxşılaşdırılmasına yönəlmiş müxtəlif proqramlar üzrə fəal iş aparılmalıdır. Hökumət həyat keyfiyyətinin və təhsilin yaxşılaşdırılmasına, sağlam həyat tərzinin fəal şəkildə təbliğinə çalışmalıdır, çünki bu, davamlı insan inkişafı baxımından vacibdir (Зокирова, Н. К., Шакаров З. Г. 2023).

Əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi prosesində ÜDM-in bir hissəsi xərclənir. Habelə, sağlamlığın özü də sosial-iqtisadi inkişafın səmərəliliyini müəyyənləşdirən xüsusi iqtisadi mənbədir. Sağlamlığın təşviqi və təbliği əhalinin həyat səviyyəsini və keyfiyyətini artırır. Həyat keyfiyyəti yalnız səhiyyə üçün deyil, müasir cəmiyyətdə həyatın bütün sahələri üçün vacib bir anlayışdır. Çünki cəmiyyətin bütün institutlarının fəaliyyətinin əsas məqsədi insanın rifahıdır.

Sosial, iqtisadi, siyasi problemləri həll etmək üçün bütün əhalinin sağlamlığının keyfiyyətini nəzərə almaq lazımdır. Əhali sağlamlığının keyfiyyəti onlarla göstəricidən istifadə olunmaqla qiymətləndirilə bilər. Ən vacib olanlar ömür uzunluğu, ölüm dərəcələri (bütün səbəblərə görə və ayrı səbəblərə görə), körpə ölümü və ümumi xəstələnmədir. Bu göstəricilərin təhlili əhalinin sağlamlıq səviyyəsini dəqiq qiymətləndirməyə və bu əsasda fərqli bölgələri öz aralarında müqayisə etməyə imkan verir. Sağlamlıq səviyyəsi bir bölgədə və ya ölkədə sosial-iqtisadi vəziyyət haqqında bir fikir əldə etmək imkanı verir.

Sağlamlıq göstəricilərinin şəkil 4-də göstərilən sosial-iqtisadi və ekoloji amillərlə qarşılıqlı əlaqəsini görmək mümkündür.

**Şəkil 4. Sağlamlıq göstəricilərinin sosial-iqtisadi və ekoloji amillərlə əlaqələndirmə sxemi**




***Mənbə:*** *müəllif yanaşması*

Əhalinin sağlamlığının ən vacib xarakteristikası ömür uzunluğunun göstəricisi hesab edilə bilər. Səhiyyə xidmətinin səmərəliliyinin yüksəldilməsinin aktual problemləri, elmi nailiyyətlərin səviyyəsi və onlardan istifadəsi, əhalinin sağlamlığının monitorinq göstəriciləri kimi xidmət edə bilən, həyatın sosial-iqtisadi vəziyyətini və ölkənin genetik fondunun vəziyyətini əks etdirən ölüm və ömür uzunluğunda (ömür müddəti) açıq şəkildə öz əksini tapmışdır.

Şəkil 5-dən göründüyü kimi, Azərbaycanda bütün əhali qrupları üzrə, o cümlədən, kişilər və qadınlar arasında orta ömür uzunluğu illər qeyri-bərabər artmışdır. Belə ki, 2015-cı ildə orta ömür müddəti bütün əhali qrupu üzrə 75,6, kişilər üzrə 73,4, qadınlar üzrə 77,9 il təşkil etdiyi halda, 2020-ci ildə orta ömür müddəti bütün əhali qrupu üzrə 72,7, kişilər üzrə 69,5, qadınlar üzrə 75,4, 2018-ci ildə orta ömür müddəti bütün əhali qrupu üzrə 76,0, kişilər üzrə 73,6, qadınlar üzrə 78,4 il təşkil etmişdir.

**Şəkil 5. Azərbaycanda əhalinin ömür uzunluğunun artım tempi**




***Mənbə:*** *(https://www.stat.gov.az/source/demoqraphy)*

Gözlənilən ömür uzunluğu, bir tərəfdən ölüm nisbətini xarakterizə edərsə, digər tərəfdən istənilən bölgələr arasında ölüm nisbətlərini adekvat şəkildə müqayisə etməyə imkan verir. Gözləmə müddəti əhalinin sosial-iqtisadi rifahının əsas göstəricilərindən biri hesab olunur.

Ömür uzunluğunu artırmaq üçün konkret sosial-iqtisadi tədbirlər hazırlayarkən ölüm strukturunun dinamikası qanunlarını bilmək, xəstəlik və ölüm sahəsindəki mövcud vəziyyətin təsirini keyfiyyətcə və kəmiyyətcə qiymətləndirmək, yüksək etibarlılıq səviyyəsində xəstəlik və ölüm parametrlərindəki meylləri proqnozlaşdırmaq lazımdır. Habelə, maksimum səmərəliliyə nail olmaq üçün iqtisadi, iqlim və coğrafi amillərlə sıx əlaqəli, habelə iş şəraitinin ərazi xüsusiyyətlərini, yaşayış şəraiti, dini və mentaliteti, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətini nəzərə alaraq sosial-iqtisadi və demoqrafik xarakterli tədbirlər toplusu hazırlanmalıdır.

Bazar münasibətləri insanların iqtisadi, sosial, demoqrafik, mənəvi və etik vəziyyətlərini kökündən dəyişdirir. Bu baxımdan, ölümün inkişaf tendensiyalarını, yeni şəraitdəki xüsusiyyətlərini, fərdi amillərin təsirini müəyyənləşdirmək, ölümün dəyişmə perspektivlərini qiymətləndirmək son dərəcə vacibdir. Ümumiyyətlə, sosial-iqtisadi inkişaf səviyyəsi daha çox dərəcədə əhalinin ömrünə təsir göstərir. Ayrıca yaş qruplarında, kişilər və qadınlar arasında, şəhər və kənd yerlərində, ayrı-ayrı bölgələr kontekstində, sosial-iqtisadi inkişaf üçün ümumi və regional proqramlar hazırlamaq və xəstələnmə və ölüm səviyyəsini azaltma yollarını müəyyənləşdirmək məqsədilə ölüm xüsusiyyətlərini bilmək lazımdır.

## Nəticə

Beləliklə, apardığımız araşdırmanın nəticələrini yekunlaşdıraraq deyə bilərik ki, Azərbaycanda demək olar ki, sabit demoqrafik vəziyyət mövcuddur. Demoqrafik proseslər davamlı insan inkişafına, xüsusən də iqtisadiyyatın inkişafına birbaşa təsir göstərir. İstənilən ölkənin və qlobal iqtisadiyyatın inkişafı çox dərəcədə demoqrafik proseslərdən asılıdır. Ayrı-ayrı ölkələrdə və bölgələrdə inkişaf edən demoqrafik vəziyyət, əməyin istifadəsi ilə bağlı vəziyyət bir çox mənada onların iqtisadi və sosial inkişafının vəziyyətinə və perspektivlərinə, regional və qlobal miqyasda siyasi qüvvələrə təsir göstərir.

Ümumiyyətlə, dövlət demoqrafik problemə böyük diqqət yetirir və demoqrafik vəziyyətin sabitləşdirilməsi üçün tədbirlər görür.

Birincisi, yol təhlükəsizliyinin yaxşılaşdırılması, alkoqolizm və siqaret çəkmə ilə mübarizə, səhiyyə sisteminin inkişafı və insan ömrünün artması daha fəal iş tələb olunan sahələrdir.

İkincisi, doğumu daha intensiv şəkildə stimullaşdırmaq lazımdır. Demoqrafik vəziyyətin yalnız ölüm səviyyəsini azaltmaqla sabitləşməsi kifayət deyil. Sözsüz ki, dövlət çoxuşaqlı ailələrin stimullaşdırılması üçün əlavə tədbirlər görməlidir.

Ümumiyyətlə, iqtisadi cəhətdən fəal əhalinin sağlamlığının qorunması və möhkəmləndirilməsi problemini dövlət siyasətinin prioritetləri sırasına qaldırmaq üçün hazırlanan və əhali arasında risk faktorları ilə mübarizə və sağlam həyat tərzi keçirmək üçün davamlı motivasiya yaratmağa yönəldilmiş maarifləndirmə proqramlarının hazırlanmasına və reallaşdırılmasına ehtiyac xüsusi önəm daşıyır. Bu tip proqramlar isə son nöticədə ölkədə davamlı insan inkişafına önəmli təsir göstərər.

Beləliklə, demoqrafiya sahəsində dövlət tərəfindən effektiv mexanizm olmadan davamlı insan inkişafında müsbət dəyişikliklər mümkün deyil.

**Ədəbiyyat siyahısı**


1. Abdullayev L.İ. (2019). İnsan kapitalının formalaşması və inkişafı proseslərinin idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi yolları. Audit № 3, Cild 25, s.139-152.

2. Davamli inkişafin sosial və fəlsəfi problemləri. Kollektiv monoqrafiya. Bakı: Elm və təhsil, 2019, 312 s.

3. Muradov R.Ş. (2015). Azərbaycan Respublikasında əmək potensialının formalaşması və istifadəsinin sosial-iqtisadi və demoqrafik problemləri. İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin avtoreferatı. Bakı, 62 s.

4. Бабаджанов, Р. М. (2021). Воздействие демографических процессов на формирование человеческого капитала / Р. М. Бабаджанов // Экономика Таджикистана. – № 3. – С. 27-34

5. Зокирова, Н. К. (2023). Демографические аспекты в истории развития человеческого капитала / Н. К. Зокирова, З. Г. Шакаров // Стратегия развития Нового Узбекистана в обеспечении качественного образования и заботы о человеке : Сборник научных трудов, Ташкент, 01 декабря 2023. – С. 107-110

6. Коковин, П. А. (2017). Демографический фактор на пути к устойчивому развитию территории / П. А. Коковин // Аграрный вестник Урала. – № 3(157). – С. 67-74

7. Шаяхметова, Р. Р. (2017). Охрана здоровья населения как одно из приоритетных направлений в демографии / Р. Р. Шаяхметова // Приоритетные направления развития науки и образования: Монография / Под общей редакцией Г.Ю. Гуляева. – Пенза : "Наука и Просвещение" (ИП Гуляев Г.Ю.). – С. 206-214

8. Чистякова, Н. Е. (2021). Демографическая компонента формирования человеческого капитала для устойчивого развития регионов / Н. Е. Чистякова // Экономика Северо-Запада: проблемы и перспективы развития. – № 4(67). – С. 103-111

9. Чистякова, Н. Е. (2019). Проблемы развития демографической компоненты человеческого капитала региона / Н. Е. Чистякова // Региональная экономика и развитие территорий : Сборник научных статей. Том 1 (13). – Санкт-Петербург : Санкт-Петербургский государственный университет аэрокосмического приборостроения. – С. 114-117

10. https://www.stat.gov.az/source/demoqraphy/ARDSK

# ESG informasiyasının açıqlanmasının yeni beynəlxalq standartları və yaşıl iqtisadiyyatın inkişafı.

**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC)**
**“Riyaziyyat və statistika” kafedrasının müəllimi i.ü.f.d. Abdullayeva Samirə İntiqam qızı**
samira_abdullayeva@unec.edu.az

**XÜLASƏ**

Son on illərdə dayanıqlı inkişaf və iqlim dəyişikliklərinə qarşı mübarizə ilə bağlı məsələlər maraq əhəmiyyətli dərəcədə artmışdır. Bununla yanaşı müasir biznes modelləri ekoloji, idarəetmə və sosial problemlərin şəxsi fəaliyyətlərinə təsirini lazımi dərəcədə nəzərə almır. Əsasən iştirakçılar bu problemlər şirkətin gəlirliliyinə mənfi təsir göstərməyə başlayanda ESG (Environmental,Sosial,Governance) yəni ekologiya, sosial, idarəetmə haqqında düşünürlər, halbuki yaranan risklər qısamüddətli xarakter daşıdığı üçün çox vaxt diqqətdən kənarda qalır.

Eyni zamanda ESG göstəricilərinin ölçülməsi metodikası məsələsi də açıq qalır. Bu gün iştirakçılar özlərinin qeyri-maliyyə göstəriciləri haqqında hesabatlılıq üçün konkret strukturdan isttifadə etməyə məcbur deyillər. Nəticədə təqdim edilən informasiyanın həcmində və keyfiyyətində nəzərəçarpacaq kənarlaşmalar müşahidə olunur ki, bu da informasiyanın qiymətləndirilməsini həyata keçirməyə və digər təşkilatların göstəriciləri ilə müqayisə etməyə imkan vermir.

Məqalədə ESG sferasında informasiyanın açıqlanmasının beynəlxalq standartlarının işlənib hazırlanması və tətbiqi istiqamətində ən uğurli qlobal təşəbbüs araşdırılır. Tədqiqat prosesində məsuliyyətli istehsalın ekoloji, sosial və idarəetmə aspektlərinin şirkətə təsiri haqında hesabatların hazırlanması qaydasını, həcmini və prinsiplərini özündə əks etdirən yeni standartların məqsədi, məzmunu və təyinatı təhlil edilir.

Standartlaşdırılmış vahid hesabatlılıq mexanizminin yaradılması ətraf mühitin vəziyyətinin pisləşməsi, sosial və digər ziddiyyətlərlə bağlı risklərin identifikasiyası və aradan qaldırılması prosesini sadələşdirməyə və şirkətlərin dayaıqlı inkişaf məqsədlərinə nail olma baxımından verdiyi töhvələrin şəffaflığını artıra bilər.

Acar sözlər: dayanıqlı inkişaf, informasiyanın açıqlanması, qeyri-maliyyə informasiyası, ESG, Maliyyə Hesabatının Beynəlxalq Standartları.

**ABSTRACT**

Interest in issues related to sustainable development and climate change has increased significantly in recent decades. Most participants think about ESG when these issues begin to negatively affect the company's profitability, but the risks that arise are often overlooked because they are short-term.

The question of the methodology for measuring ESG indicators remains open. As a result, there are significant deviations in the volume and quality of information provided, which makes it impossible to evaluate the information and compare it with the indicators of other organizations.

Disclosure of ESG information refers to non-financial information, which in practice is observed with a number of problems. The article considers the most successful global initiative to develop and

implement international standards for disclosure of information in the field of ESG. The study analyzes the purpose, content and purpose of the new standards, which include the order, volume and principles of preparing reports on the impact of environmental.

The creation of a standardized unified accountability mechanism can simplify the process of identifying and eliminating risks associated with environmental degradation, social and other conflicts, as well as increase the transparency of companies' contribution to achieving sustainable development goals.

**Keywords:** Sustainable Development, Disclosure, non-financial information, ESG, International Financial Reporting Standards.

JEL-classification: C01, C22, C51.

**Giriş**

Dayanıqlı inkişaf və ESG konsepsiyası son illərdə iri şirkətləri əhatə edən müasir beynəlxalq meyllərdir. Bu mövzuya diqqət dövlət sektorunu, istehsalçıları, marketoloqları, investorları və istehlakçıları cəlb etməklə sürətlə artır. Cəmiyyətin yaşaması, keyfiyyətli mövcudluğu və inkişafı dünyanın daha dayanıqlı olması üçün şəraitin təmin edilməsindən asılıdır.

Müasir anlamda ESG prinsipləri nəhəng beynəlxalq şirkətlərin CEO-nın (Chief Executive Officer), yəni şirkətdə baş verən bütün proseslərə cavabdeh olan şəxslərin çağırışları əsasında ortaya çıxmışdır [https://integrator.nota.media/blog/articles/]. Bu çağırışın əsas ideyası ilk növbədə iqlim dəyişiklikləri ilə mübarizə üçün özlərinin fəaliyyət strategiyasında ekoloji, sosial və idaretmə aspektlərini özündə əks etdirən üçlük konsepsiyasının nəzər almalarıdır.

“ESG” anlayışı 2005-ci ildə BMT tərəfindən dəstəklənən “Məsuliyyətli İnvestisiya Prinsipləri” (PRI-(Principles of Responsible Investment,) təşəbbüsü nəticəsində geniş yayılmışdır. PRI-ni qəbul edən investorlar ekoloji, sosial və idarəetmə amillərinin daha çox nəzərə alınmasının investisiya bazarlarının dayanıqlığını gücləndirməyə və möhkəmləndirməyə, həmçinin cəmiyyətin dayanıqlı inkişafına töhfə verəcəyini dərk edərək investisiya fəaliyyəti həyata keçirərkən ESG prinsiplərini nəzərə almağı öhdələrinə götürürlər [https://journal. ecostandard. ru/esg]. Belə məsuliyyətli investorların sayı ildən - ilə sürətlə artır.

Dayanıqlı İnvestisiyaların Qlobal Alyansının (Global Sustainable Investment Alliance) qiymətləndirmələrinə görə dünya üzrə təxminən 40 trln.dollar ESG aktivlərində cəmlənmişdir [https://www.gsi-alliance.org/].

Maliyyə məlumatları, işgüzarlıq, informasiya və analitika sahəsində dünya lideri Bloomberg Intelligence 2025-ci ildə qlobal investisiyaların ümumi həcminin 3-də bir hissəsinin, yəni 53 trln. dollarını ESG aktivləri təşkil edəcəyini [https:// www. bloomberg. com/].

Onu da qeyd edək ki, ESG - i ölçmək mümkündür, buna baxmayaraq indiyə qədər bunun üçün vahid metodologiya hələ də işlənib hazırlanmamışdır. Qiymətləndirmədə ətraf mühitə ziyan vurmamaq, sosial ədaləti dəstəkləmək və təhlükəsiz istehsalı təşkil etmək üçün şirkətlərin aktivlərinə, resurslarına və innovasiyalara sərəncam vermək bacarığını göstərən reytinqlərdən və qeyri-maliyyə hesabatlarından istifadə edilir.

Son bir neçə ildə dayanıqlılıq məsələləri üzrə hesabat kiçik və orta müəssisələr da daxil olmaqla bütün dünya üzrə şirkətlərin hesabatlarının əsas elementlərindən birinə çevrilmişdir.

**I Hissə. ESG sferasında əsas standartlar**

İqlim riskinin qiymətləndirilməsinin ilk vasitələrindən biri şirkətlərin, ilk növbədə maliyyə sektorunun stress testidir. Dayanıqlı inkişaf sferasında hesabatlılıq tələbləri sistemi aşağıdakı əsas komponentlərdən ibarətdir:

1) 2014-cü ildə qəbul edilmiş “Qeyri -maliyyə hesabatları üzrə direktiv” (Non-Financial Reporting Directive, NFRD),

2) 2021-ci ildə nəşr olunmuş “Dayanıqlı inkişaf sahəsində korporativ hesabatlar üzrə direktiv” (Corporate Sustainability Reporting Directive, CSRD),

3) 2019-cu ildə qəbul edilmiş “Maliyyə təşkilatlarının dayanıqlı inkişafı haqqında informasiyanın açıqlanması qaydası” (Sustainability Finance Disclosure Regulation, SDFR).

“Qeyri -maliyyə hesabatları üzrə direktiv” (NFRD) 2018-ci ildə fəaliyyətə başlamışdır. Kompaniyalar özlərinin illik hesabatlarında fəaliyyətlərinin dayanıqlı inkişafın minimum məsələlər dairəsinə (ətraf mühit, sosial məsuliyyət, işçilərə müraciət, insan hüquqlarına riayət etmək, korrupsiya ilə mübarizə) necə təsir etdiyi haqqında informasiyanı təqdim etməyi borcludur. Bu informasiyaya biznes modelinin qısa təsviri, kompaniyanın siyasətinin təsviri, bu siyasətin nəticələri, dayanıqlı inkişaf məsələləri ilə bağlı əsas risklər, səmərəliliyin mühüm göstəriciləri kimi elementlər də daxil edilməlidir.

“Dayanıqlı inkişaf sahəsində korporativ hesabatlar üzrə direktiv” (CSRD), bütün iri kompaniyalar üçün qeyri-maliyyə informasiyasının açıqlanması üzrə məcburi qaydaları müəyyən edir. CSRD-də uyğun olaraq açıqlanan informasiyanın tərkibinə aid edilir: biznes modelinin və kompaniyanın strategiyasının, dayanıqlı inkişaf sahəsində kompaniyanı uğurlu edən məqsədli göstəricilərin, dayanıqlı inkişaf məqsədlərinə nail olmağa nəzarət edən orqanların və idarəetmənin rolunun təsvir etmək və s. CSRD-in təsirinə ümumi dövriyyəsi biznes bazarının 75%-ni təşkil edən 49 min kompaniya məruz qalır. Direktiv 01.01.2024-cü ildə fəaliyyətə başlamışdır. CSRD həmçinin hesabatın SDFR qaydalarına və Aİ-nın yaşıl taksonomiyasına uyğun gəlməsini nəzərdə tutur [К. И. Головщинского. 2022].

01.01.2022-ci ildən “Maliyyə təşkilatlarının dayanıqlı inkişafı haqqında informasiyanın açıqlanması qaydası” fəaliyyətə başlamışdır. Maliyyə bazrının və maliyyə məsləhətçiləri iştirakçılarına tələblərə aid edilir: dayanıqlı inkişaf üçün risklərin uçotu üzrə siyasətin, ümumtəşkilati səviyyədə dayanıqlı inkişafa təsir edən qeyri-əlverişli sahələrin, dayanıqlı inkişaf risklərinin uçotu baxımından mühafatların ödənilməsinin, dayanıqlı inkişaf risklərinin uçotunun, maliyyə məhsulları səviyyəsində dayanıqlı inkişafa təsir edən qeyri-əlverişli sahələrin, məlumatların müqavilədən əvvəl açıqlanmasında ekoloji və sosial gündəliyə dəstəyin, məlumatların müqavilədən əvvəl açıqlanmasında dayanıqlı investisiyanın, veb saytlarda ekoloji və sosial dəstəyin, dayanıqlı investisiyaların, dövri hesabatlarda ekoloji və sosial dəstəyin, dayanıqlı investisiyaların şəffaflığı. Ümumiyyətlə, ESG sferasında əsas standartlara aşağıda qeyd olunlar aid edilir:

a) Global Reporting Initiative (GRI) standartları şirkətlərin qeyri-maliyyə hesabatlarının tərtibi üçün aparıcı prinsiplər və standartlar dəstini özündə əks etdirir. Bu standartların işlənib hazırlanmasında məqsəd şirkətləri özlərinin dayanıqlığı və social məsuliyyyəti haqqında informasiyanın açıqlanmasına stimullaşdırmaqdır. GRI qeyri-maliyyə hesabatlarının hazırlanması sahəsində ən geniş yayılmış standartlardır.

b) Sustainability Accounting Standards Board (SASB) standartları dayanıqlıqla bağlı risk amillərinə və konkret sahələrə fokuslanan hesabat standartlarının işlənib hazırlanmasıdır. Bu standartlar onların sahələrinə uyğun olaraq dayanıqlığın mühüm amillərini müəyyən etməyə və onların öz hesabatlarına daxil etməyə kömək edir.

c) Task Force on Climate-related Financial Disclosures (TCFD) standartları iqlim riskləri və imkanları ilə bağlı hesabat standartlarının işlənib hazırlanmasıdır. Onlar şirkətlərə iqlim dəyişiklikləri ilə əlaqədar olaraq maliyyə, əməliyyat və strateji aspektləri qiymətləndirməyə və açıqlamağa kömək edir.

d) Carbon Disclosure Project (CDP) standartları iqlim risklərinin idarəedilməsi və istixana qazlarının tullantıları haqqında hesabatlar sistemi kimi çıxış edir. Şirkətlər CDP standartları vasitəsilə iqlim üzrə öz məlumatlarını könüllü açıqlaya bilər ki, bu da investorlara və maraqlı tərəflərə onların iqlim startegiyasını və məhsuldarlığını qiymətləndirməyə imkan verir [Борзаков Д. В. 2022].

## II Hissə. Dayanıqlı inkişafla bağlı maliyyə informasiyasının açıqlanması

ISSB (International Sustainability Standards Board) standartı dayanıqlılıq sahəsindəki GRI kimi müxtəlif standartları birləşdirən beynəlxalq standartdır. ISSB ESG amilləri də daxil olmaqla dayanıqlılıq hesabatları üçün vahid beynəlxalq standartları işləyib hazırlayır. O şirkətlərə özlərinin dayanıqlığı haqqında məlumatları yaxşı anlaçmağa, həmçinin beynəlxalq səviyyədə məlumatları müqayisə etməyi və dayanıqlığını qiymətləndirməyi asanlaşdırmağa kömək edən vahid və şəffaf çərçivə yaratmağa cəhd edir.

Qırx ildən artıqdır ki, BMT bütün dünyada şirkətlərin dayanıqlığı göstəricilərinin və maliyyə nəticələri haqqında hesabatların qlobal səviyyədə müqayisəliliyinin təmin edilməsi istiqamətinin gücləndirilməsinə öz töhfəsini verir. Uçot və hesabatın beynəlxalq standartları üzrə ekspertlərin Hökumətlərarası işçi qrupu dayanıqlılıq məsələləri, maliyyə hesabatlarına tələblər və standartlar, onların praktiki tətbiqi ilə bağlı yaranan problemlər baxmaq üçün qlobal forumdur. 2030-cu ilə qədər dayanıqlı inkişaf sahəsində gündəliyin qəbul olunmasından sonra ekspertlərin Hökumətlərarası işçi qrupu bu standartların və tələblərin uzlaşdırılmasında aparıcı rol oynamışdır [https://unctad.org/system/files/official-document/ciiisard109_ru.pdf].

Qeyd edək ki, ISSB ESG informasiyasının açıqlanmasının iki yeni qlobal standartları üçün taksa-nomiya işləyib hazırlamışdır. Həmin iki standart, yəni IFRS S1 (dayaniqli inkişafla bağli maliyyə in-formasiyasinin açiqlanmasina ümumi tələblər) və IFRS S2 (iqlimlə bağlı informasiyanın açıqlanması) 26 iyun 2023-cü ildə nəşr edilmişdir.

IFRS S1 standartı təşkilatdan qısa, orta və uzunmüddətli perspektivdə kapitalın dəyərinə yaxud maliyyələşdirməyə çıxışa, pul axınlarına təsir edə bilən dayanıqlı inkişafla bağlı risklər və imkanlar haqqında bütün informasiyanı açıqlamağı tələb edir. Bu standart dayanıqlı inkişafla bağlı maliyyə informasiyasının təqdim edilməsi qaydasını müəyyən edir.

IFRS S2 standartı təşkilatdan qısa, orta və uzunmüddətli perspektivdə kapitalın dəyərinə yaxud maliyyələşdirməyə çıxışa, pul axınlarına təsir edə bilən iqlimlə bağlı risklər və imkanlar haqqında bütün informasiyanı açıqlamağı tələb edir [https://ifrs.org/news and events].

Dayanıqlı inkişafla bağlı maliyyə informasiyasının açıqlanması üzrə ümumi tələblərə diqqət yetirsək görərik ki, IFRS S1 standartı təşkilatların dayanıqlı inkişafla bağlı maliyyə informasiyasının

hazırlanması və təqdim edilməsinin necə həyata keçirməsini təsvir edir. Bu standartın məqsədi dayanıqlı inkişafla bağlı risklər və imkanlar haqqında informasiyanın açıqlanmasını şirkətlərdən tələb etməkdir. Belə dəyərli informasiyalar təşkilatın pul vəsaitlərinin axınına, qısa, orta və uzunmüddətli dövrdə cəlb edilən kapital xərclərinə yaxud maliyyə əlçatanlığına əhəmiyyətli təsir göstərir [Комарова А. С. və Юдаев В. В. 2022].

Ümumiyyətlə, bu standarta görə təşkilatdan aşağıdakı informasiyanın açıqlanması tələb olunur:

-dayanıqlı inkişaf sahəsində imkanlar və risklər üzərində monitorinq, idarəetmə və nəzarət üçün təşkilatın istifadə etdiyi idarəetmə prosesləri, nəzarət vasitələri və prosedurları,

-dayanıqlı inkişaf sahəsində imkanların və risklərin idarəedilməsi üzrə təşkilatın strategiyası,

-dayanıqlı inkişaf sahəsində imkanların və risklərin monitorinqi, prioritetlərin müəyyən edilməsi və qiymətləndirilməsi üçün təşkilatın istifadə etdiyi proseslər,

-qanun və qaydalara uyğun olaraq təşkilatın müəyyən etdiyi məqsədlərə nail olmasında irəliləyiş də daxil olmaqla dayanıqlı inkişaf sahəsində risklər və imkanlar baxımından fəaliyyət nəticələri.

Bu baxımdan, davamlılıq hesabatına dair hərtərəfli təlimat dönüş nöqtəsidir. Hesab edilir ki, əksər təşkilatlar dayanıqlı inkişaf haqqında informasiyanı standartlara uyğun bəyan edəcəkdir ki, bu da həmin sahədə hesabatlılığın heyfiyyətini yüksəldəcəkdir. Dayanıqlı inkişaf sahəsində standartlara uyğun olaraq informasiyanı açıqlamaq üçün hansı sənədlərdə informasiyanın təqdim edilməsini də göstərmək lazımdır. ISSB üzrə Şura qeyd edir ki, zəruri informasiyanı açıqlamaq üçün bir neçə sənədlər mövcuddur. İnformasiya rəhbərliyin hesabatında yaxud təşkilatın ümumi təyinatlı maliyyə hesabatlarının bir hissəsi olan digər uyğun hesabatlarda açıqlana bilər. Eyni zamanda təşkilatlar dayanıqlı inkişafla bağlı maliyyə informasiyasını açıqlayarkən digər informasiyaların detalları ilə maskalanmamasını təmin etməlidir.

IFRS S2 standartı iqlim dəyişiklikləri ilə bağlı informasiyanın açıqlanmasına yönəlmişdir. Bu standart qısa, orta və uzunmüddətli dövrdə şirkətin perspektivlərinə təsir edə bilən iqlimlə bağlı riskləri və imkanları aşkar etməyi və açıqlamağı tələb edir. Standart göstərilən fəaliyyət növünə (necə deyərlər sahəvi tövsiyyə) uyğun olaraq iqlim dəyişikliyi ilə bağlı tərəflərin açıqlanması üzrə tövsiyyələri özündə əks etdirir. Təşkilatlar açıqlanan informasiyanın həcminə göstərilən sahələrə uyğun olaraq baxmalıdır. Bundan başqa IFRS S2 standartı kəmiyyət və keyfiyyət komponentlərini açıqlayarkən yeddi sahələrarası ölçüləri nəzərə alması tələb olunur. Ona görə ki, təşkilatlar iqlim dəyişiklikləri sahəsində aşkar etdiyi mövcud riskləri və imkanları idarəetmək və monirotinqini aparmaq, qiymətləndirmək üçün ölçülərdən və məqsədli göstəricilərdən istifadə edir. Sahəvi tövsiyyələrə uyğun olaraq təşkilatlar informasiyanın açıqlanmasını hazırlayarkən özünün əsas sahəvi təsnifatını müəyyən etməlidir. Bu zaman IFRS S2 sahəvi tövsiyyələr standartının hazırlanmasının əsasını təşkil edən Ekoloji baxımdan Dayanıqlı Sahələrin Təsnifatı Sisteminə (Sustainable Industry Classification System, SICS) müraciət edilməsində fayda vardır. Sahələrarası ölçülər özünə istixana qazlarının tullantıları, təşkilatın iqlim dəyişikliklərinə keçidi ilə bağlı riskləri, iqlimlə bağlı imkanlar, kapitalın yerləşdirilməsi və daxili karbon tullantılarının daxili qiymətləri və mükafatlar haqqında informasiyanın açıqlanmasını daxil edir. Bu standartda da IFRS S1 standartında sadaladığımız informasiyanın açıqlanması tələb olunur.

Dayanıqlığın beynəlxalq standartları üzrə Şuranın 2023-cü ilin iyununda dayanıqlılıq məsələləri üzrə informasiyanın açıqlanması istiqamətində nəşr etdirdiyi iki standart aşağıdakı əsas məsələlərə diqqətin yönəldilməsini zəruri etmişdir:

-2024-2025-cil illərdə işlər planının tərtibi üçün gündəliyin prioritetlərini müəyyən etmək,

-dayanıqlılıq məsələləri üzrə informasiyanın açıqlanmasının iki standartın tətbiq edilməsinə maraqlı tərəflərlə qarşılıqlı əlqədə dəstək göstərilmək,

-rəqəmsal dayanıqlığı taksanomiyasını işləyib hazırlamaq və buraxmaq,

- dayanıqlılıq məsələləri üzrə uçot standartlarının qlobal əlverişliliyini yüksəltmək,

- dayanıqlılıq məsələləri üzrə informasiyanın açıqlanmasının qeyd edilən iki standartının tələblərini mühasibat uçotu standartları ilə əlaqələndirilmək,

- bu iki standartla və dayanıqlı inkişafın digər standartları arasında qarşılıqlı fəaliyyəti təmin etmək.

**Nəticə**

Beləliklə uzlaşdırılmış taksanomiya ISSB - ə uyğun olaraq şirkətlərin dayanıqlı inkişafı haqqında struturlaşdırılmış hesabatlarının tərtibini asanlaşdırmağı nəzərdə tutur. ISSB taksanomiyası IFRS - in ( International Financial Reporting Standards) ümumi taksanomiyası ilə inteqrasiya edilmişdir ki, bu da maliyyə və qeyri-maliyyə hesabatlarının kompleks təqdim edilməsini təmin edir.

Dayanıqlı inkişafa sadiqlik bu sadəcə korporativ məsuliyyət deyildir. Bu həm təşkilatlarınhəm də bütövlükdə iqtisadiyyaın uzunğmürlülyünə və firavanlığına investisiyadır. Fikrimizcə, bu sənədlər investisiya qərarları qəbul edərkən zəruri olan dayanıqlı inkişaf haqqında müqayisəli, keyfiyyətli informasiyanın açıqlanmasına vahid qlobal yanaşmanın formalaşdırılması yolunda mühüm addım ola bilər. Qlobal dünyanın bir parcası olan ölkəmizdə fəaliyyət göstərən yerli və xarici təsərrüfat subyektləri üçün bu növbəti mərhələdə qlobal standartların istifadə edilməsi onlar üçün bir çağırışdır. Bu istiqamətdə bütün təşəbbüslər yaşıl iqtisadiyyatın inkişafına öz töhfəsini verəcəkdir.

Yaşıl iqtisadiyyat modelinin formallaşdırılması Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir. Təsadüfi deyil ki, dövlət başçısının müvafiq Sərəncamı ilə 2024-cü il ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib. Həmçinin, bu il Azərbaycan COP29 kimi mötəbər tədbirə ev sahibliyi edəcək. Ekoloji, sosial və korporativ idarəetmə (ESG) yanaşmasının əsas istiqamətlərindən biri də məhz ətraf mühit məsələləri ilə bağlıdır. ESG prinsiplərinin tətbiqi yaşıl iqtisadiyyata transformasiya prosesinə öz töhfəsini vermək imkanına malikdir. Ötən dövrdə ESG sahəsində sistemli fəaliyyətin təmin edilməsi məqsədilə ölkəmizdə ortamüddətli dövr üçün Strateji Baxış sənədi formalaşdırılıb, eyni zamanda, “Ekoloji, sosial və korporativ idarəetmə prinsiplərinin tətbiqinin stimullaşdırılması və təşviqi üzrə 2023 və 2024-cü illər üçün yol xəritələri təsdiq edilmişdir [https://vergiler.az/].

ESG konsepsiyasına keçidin baza prinsipləri eynidir, lakin hər bir təşkilatın fəaliyyətindən və məqsədindən asılı bu istiqamətdə işi fərqli ola bilər. Buna baxmayaraq dayanıqlı inkişaf məqsədlərinə nail olma yolunda mühüm addımları ayıraraq ESG prinsiplərinə keçidin universal yol xəritəsini tərtib etmək olar. Bu addımlara aid etmək olar: işə başlamaq və prioritetləri müəyyən etmək, planlaşdırma, riskləri və imkanları aşkar etmək, strateji variantlarının və prioritetlərin yaradılması və qiymətləndirilməsi, strategiyanın həyata keçirilməsi və nəhayət daxili və xarici monitorinq.

**Ədəbiyyat**

1.ESG: три буквы, которые меняют мир: докл. к XXIII Ясинской междунар. науч. конф. По проблемам развития экономики и общества, под ред. К. И. Головщинского - М.: Изд. дом ВШЭ, 2022, 138 с.

2.Борзаков Д. В. Эволюция руководств и стандартов Global Reporting Initiative по отчетности в области устойчивого развития // Регион: системы, экономика, управление, 2022, № 1 (56), стр. 85-92.
3.Гафаров М. М. Представление в нефинансовой отчетности российских организаций глобальной повестки ESG // Финансовые рынки и банки, 2023,№ 6, стр. 183-188.
4.Комарова А. С., Юдаев В. В. Теоретические аспекты политики устойчивого развития: ESG - от нефинансовых данных до корпоративной устойчивости // Politbook, 2022, № 2, стр. 67-88.
5.https://integrator.nota.media/blog/articles/.
6.https://journal. ecostandard. ru/esg.
7.https://www.gsi-alliance.org/.
8.https:// www. bloomberg. com/.
9.https://unctad.org/system/files/official-document/ciiisard109_ru.pdf.
10.https://ifrs.org/news and events
11.https://report.az/biznes-xeberleri
12. https://vergiler.az/

**Dayanıqlı inkişaf və ESG prinsiplərinin tətbiqinin bəzi məsələləri**

**Vüsalə Teymurova, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Riyaziyyat və statistika" kafedrasının dosenti,**
**vusala_teymurova@unec.edu.az**

***XÜLASƏ***

Son illərin hadisələri göstərir ki, praktiki olaraq bütün ölkələrdə ətraf mühitin qorunması və iqlim dəyişikliklərinin nəticələrinin aradan qaldırılması məsələlərinin əhəmiyyəti artır. Bu isə yaşıl texnologiyaların inkişafına xərclərin optimal səviyyəsinin müəyyən edilməsi və insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin azaldılması istiqamətində işlərin sürətləndirilməsini zəruri edir.

Dayanıqlı inkişaf konsepsiyası ilk növbədə iqtisadi və sosial sferanın inkişafına uzunmüddətli xarakter verilməsinə istiqamətlənmişdir ki, o da gələcək nəslin tələbatlarının ödənilməsi imkanlarının reallaşdırılmasına təhlükə yaratmadan, hazırki nəslin mövcud tələbatlarına cavab versin. Bu məsələlərin həlli məqsədilə ekoloji, sosial və korporativ idarəetmə aspektlərini nəzərə alan və dayanıqlı inkişafın ümumi prinsiplərini özündə əks etdirən ESG (Environmental, Social, Governance) konsepsiyası ortaya çıxmışdır.

Ölkəmizin xüsusiyyətləri nəzərə alınmaqla ictimai və iqtisadi həyatın müxtəlif sferalarında ESG prinsiplərinin tətbiqi dayanıqlı imkişafın təmin edilməsi vəzifələrinin uğurla həll edilməsinə, yeni iqtisadi modelin formalaşdırlımasına imkan verir və sözsüz ki, bu da Azərbaycanın dünya arenasında mövqeyinin daha da gücləndirməsinə öz töhvəsini verəcəkdir.

Məqalədə dayanıqlı inkişaf məqsədlərinin ortaya çıxması zəruriliyi və ESQ standrtlarının müasir konteksdə xüsusiyyətləri təsvir edilir, ölkənin özəllikləri nəzərə alınmaqla dayanıqlı inkişafın təmin

edilməsi vəzifələrinin həll edilməsi və yaşıl artıma yönəlik iqtisadi modelin formalaşdırılması əsaslandırılır. Eyni zamanda müəllif dünyada ESG-nin cari konyukturasında müşahidə edilən bir sıra meylləri ümumiləşdirir ki, bunların da dayanıqlı inkişafın milli startegiyasının təkmilləşdirilməsində mühüm əhəmiyyəti ola bilər.

*Acar sözlər:* dayanıqlı inkişaf məqsədləri, dayanıqlı inkişaf, ESG, yaşıl iqtisadiyyat, yaşıl taksanomiya.

**ABSTRACT**

Events in recent years show that the importance of environmental protection and the elimination of the consequences of climate change is growing in almost all countries. This makes it necessary to accelerate work towards determining the optimal level of expenditure on the development of green technologies and reducing the negative impact of human activity on the environment.

The concept of sustainable development is aimed, first of all, at giving a long-term character to the development of the economic and social sphere, so that it meets the current needs of the present generation, without jeopardizing the realization of the possibilities of meeting the needs of the future generation. To solve these issues, the concept of ESG (Environmental, Social, Governance) emerged, taking into account the environmental, social and corporate aspects of management and including the general principles of sustainable development.

Taking into account the peculiarities of our country, the application of ESG principles in various spheres of socio-economic life allows us to successfully solve the problems of ensuring sustainable development, form a new economic model and, of course, will contribute to further strengthening of Azerbaijan's position on the world stage.

The article describes the need for the emergence of sustainable development goals and the specifics of ESQ standards in modern conditions, solving the problems of ensuring sustainable development taking into account the characteristics of the country and justifying the formation of an economic model aimed at green growth. At the same time, the author summarizes a number of trends observed in the current ESG situation in the world, which may be important for improving the national strategy for sustainable development.

*Keywords:* Sustainable Development Goals, sustainable development, ESG, green economy, green taxonomy

JEL-classification: C01, C22, C51.

## 1. Giriş

Müasir dövrdə dayanıqlı inkişaf konsepsiyası yenidən dünya birliyinin, o cümlədən biznesdə **ESG** yanaşmasının tətbiqinin müzakirəsi kontekstində rifah axtarışı mənbəyinə çevrilmişdir. Mütəxəssislər ESG gündəliyinin nədən ibarət olduğunu və biznesin bunu öz proseslərində necə tətbiq edə biləcəyini fəal şəkildə müzakirə edirlər. Bununla belə, bu yanaşmanın mənbəyi dayanıqlı inkişaf konsepsiyası ilə müəyyən edilir.

Bu konsepsiya 1970-ci illərin sonlarında ortaya çıxmışdır. Konsepsiya əmtəə istehsalının daimi və hüdudsuz artmasının, həmçinin yer kürəsi əhalisi tərəfindən həmin malların istehlakının hüdudsuz artımı məhdud təbii ehtiyatlar səbəbindən mümkün olmadığı fərziyyəsini irəli sürür. Bununla yanaşı

istehsal gücləri ilə istehsal fəaliyyəti nəticəsində ətraf mühitə dəyən zərər artması arasında korrelyasiyanın olduğu haqqında nəzəriyyə də irəli sürülmüşdür. Dayanıqlı inkişaf anlayışı Brundtland hesabatında (1987) “gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki ehtiyaclara cavab verən inkişaf” kimi müəyyən edilmişdir [Казанцев В.П. və Гончарова К.С., 2024].

Tədqiqatın məqsədi - davamlı inkişafın əsas problemlərinin müəyyənləşdirilməsi ESG (Environmental, Social and Governance) amillərinin makroiqtisadi göstəricilərlə əlaqəsinin statistik qiymətləndirməkdir.

Tədqiqatın metodologiyası - tədqiqat zamanı ESG amillərin makroiqtisadi göstəricilərə təsiri ən kiçik kvadratlar metodu əsasında korrelyasiya-reqressiya, zaman sıralarının təhlili metodları üzrə həyata keçirilir.

Tədqiqatın tətbiqi əhəmiyyəti - ESG əsas problemləri (vahid metodologiya və vasitələrin olmaması, balanslaşdırılmış göstəricilər toplusuna ehtiyac, maliyyə göstəricilərinin qiymətləndirmə sisteminə daxil edilməsi zərurəti) formalaşdırılmışdır.

## 2. Ədəbiyyat icmalı

Minilliyin inkişaf məqsədləri ilə müqayisədə Dayanıqlı İnkişaf Konsepsiyası çərçivəsində ekiloji elementləri gücləndirən “yaşıl” məqamlar əhəmiyyətli şəkildə nəzərə çarpır: su ehtiyatlarının mövcudluğunun və səmərəli istifadəsinin, hər kəs üçün sanitariyanın təmin edilməsi (məqsəd 6), istehsalın və istehlakın səmərəli modellərinə keçidin təmin edilməsi (məqsəd 12), iqlim dəyişiklikləri və onun nəticələri ilə mübarizə üzrə təcili tədbirlərin həyata keçirilməsi (məqsəd 13), dayanıqlı inkişaf məqsədiləri üçün okean, dəniz və dəniz resurslarından səmərəli istifadə olunması və mühafizəsi (məqsəd 14), yerüstü ekosistemlərin qorunması və bərpası, onlardan səmərəli istifadə olunması, torpaq deqradasiyası və biomüxtəlifliyin itkisi prosesinin dayandırılması (məqsəd 15). Davamlı inkişafın komponentlərinin sistemli əlaqələri daha aydın ifadə olunmuşdur ki, bu da iqtisadi, sosial və ekoloji aspektlərin qarşılıqlı əlaqəsi üzrə məqsədlərin formalaşdırılmasında özünü göstərir: aclığa son qoymaq, ərzaq təhlükəsizliyini təmin etmək, qidalanmanı yaxşılaşdırmaq və kənd təsərrüfatının dayanıqlı inkişafına kömək etmək (məqsəd 2), hamının ucuz, etibarlı, dayanıqlı və müasir enerji mənbələrinə əlçatanlığını təmin etmək (məqsəd 7), mütərəqqi, əhatəli və dayanıqlı iqtisadi artıma, tam və məhsuldar məşğulluğa, hər kəs üçün layiqli əməyə kömək etmək (məqsəd 8), davamlı infrastrukturun yaradılması, əhatəli və davamlı sənayeləşmə və innovasiyaya kömək etmək (məqsəd 9), şəhərlərin və yaşayış məntəqələrinin açıqlığını, təhlükəsizliyini, həyata davamlılığını və ekoloji cəhətdən dayanıqlığını təmin etmək (məqsəd 11) [Соколова Н.А.və Теймуров Э.С. 2021].

Professor Qovarda Bouena 1953-cü ildə nəşr etdirdiyi “Biznesmenin sosial məsuliyyəti” monoqrafiyasında öz fəaliyyətində cəmiyyətin maraqlarını nəzərə almağa borclu olan biznes siyasəti kimi korporativ sosial məsuliyyət konsepsiyasını formalaşdırır [Bowen H.,1953]. 1977-ci ildə kompaniya səviyyəsində ilk korporativ sosial məsuliyyət məcəlləsi nəşr edilmişdir. 21- ci əsrin əvvəllərində korporativ sosial məsuliyyət məcəlləsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT, ing. Organisation for Economic Co-operation and Development, OECD) ölkələrinin əksər iri kompaniyaları tərəfindən qəbul edilmişdir. Lakin bu konsepsiya deklarativ olması və onun həyata keçirilməməsinə xarici nəzarətin olmaması kimi tənqidi fikirlərdən də yan keçməmişdir. 2010-cu illərin sonunda ESG-nin sürətlə məhşurlaşması mürəkkəb ekosistemi inkişaf etdirdi. Onda minimum dörd səviyyəni

konseptual, normativ, qiymətləndirmə, monitorinq və layihələndirmə səviyyəsi - ayırmaq olar (ESG 2.0).

Konseptual səviyyə yeni kapitalizm nəzəriyyəsini yaradır (neo-kommunitarizm və steykholder kapitalizmi). Steykholder kapitalizmin tərəfdarlarının nöqteyi-nəzərinincə, diqqət məhdud resurslar üzərində rəqabətə deyil, ictimai dəyərlər yaratmaq xətrinə steykholderlər arasında dayanıqlı münasibətlərin formalaşdırılması üçün könüllü əməkdaşlığa yönəldilməlidir. İqtisadiyyatda üstün olan qrupun deyil, bütün digər steykholderlərin hüquqları qorunmalıdır [ https://www.dp.ru/a/2021/03/17/V_DNK_biznesa_kak_stat].

Steykholder kapitalizmi aşağıdakı baza prindsiplərə əsaslanır:

- steykholderlərin kooperasiyası prinsipi, yəni bütün steykholderlərin cəlb edilməsi prinsipi,
- steykholderlərin məsuliyyəti prinsipi,
-kompleksklik prinsipi,
-qısamüddətli qazanc əldə etməyə cəhd deyil, uzunmüddətli yaradıcılıq prinsipi [Freeman R.E., Kirsten M. and Bidhan P. 2007.].

### 3. Davamlı İnkişaf və ESG: könüllülük və icranın məcburi hesabatı

Dayanıqlı inkişaf ideyası ən ümumi formada müxtəlif beynəlxalq sənədlərdə səslənmişdir. Daha çox, bu, dövlətlərin və digər iştirakçıların ətraf mühitin keyfiyyəti, iqtisadiyyatın vəziyyəti və sosial problemlərlə bağlı ən müxtəlif maraqların əsas balansını və optimal formasını tapmağa cəhd etməkdən ibarət idi. Nəticədə dövlətlər sektorlar üzrə problemləri aşkar edən inkişaf məqsədlərini formalaşdırdılar və müxtəlif istiqamətlərdə onların həllinə çağırdılar. Bu məqsədlə ilkin formada 2000-ci ildə Minilliyin İnkişaf Məqsədləri müəyyən edildi. Buna 8 məqsəd, 18 vəzifə, onlara nail olmanın 48-dən çox göstəricisi daxil edilmişdir və burada ilk növbədə iqtisadi problemlərin həll edilməsini nəzərdə tutan sosial tərəflərin üstünlüyü aydın görünürdü.

Altı məqsəd dayanıqlı inkişaf konsepsiyasının sosial elementini əks etdirir: ifrat yoxsulluğa və aclığa son qoymaq, universal ibtidai təhsilə nail olmaq, gender bərabərliyini təşviq etmək, uşaq ölümünün azaldılması, ana sağlamlığının yaxşılaşdırılması, HİV (insan immunçatımazlığı virusu)/AİDS (qazanılmış immunçatışmazlığı sindromu), malyariya və digər xəstəliklərlə mübarizə.

Minilliyin inkişaf məqsədlərində dayanıqlı inkişafın ekoloji komponentinə ən az diqqəti yetirilmişdir və üç vəzifəli “Ekoloji dayanıqlığın təmin edilməsi” məqsədi müəyyənləşdirilmişdir.

2015-ci ildə qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədləri birincisi, iqtisadi və sosial komponentləri vurğulayan inkişaf gündəliyindən uzaqlaşmağa, ikincisi, icra prosesində dövlətlər tərəfindən nəzərə alınmalı olan məsələlər və vəzifələr baxımından dayanıqlı inkişafın müxtəlif komponentləri arasında qarşılıqlı əlaqəni müəyyən etməyə yönəlmiş çox ciddi səydir. Bu mənada 2030-cu ilə qədər Dayanıqlı İnkişaf sahəsində qəbul edilmiş gündəlik beynəlxalq ictimaiyyət tərəfindən mühüm mütərəqqi addım kimi qiymətləndirilmişdir.

Dayanıqlı İnkişaf Məqsədləri mahiyyət etibarilə dayanıqlı inkişaf konsepsiyasının gücləndirməsinin çoxillik prosesinin kulminasiya nöqtəsidir və dayanıqlı inkişaf sahəsində problemlərin kompleks həllinin zəruriliyini və qarşılıqlı əlaqəliliyini tanımış və formalaşdırmışdır. 2030-cu ilə qədər dayanıqlı inkişaf sahəsində gündəlikdə qeyd edilir ki, onların səmərəli tənzimlənməsi yeni yanaşmanı tələb edir. Dayanıqlı inkişaf konsepsiyasında yoxsulluğun bütün forma və səviyyələrinə son qoyulması, ölkə

daxili və ölkələrarası qeyri-bərabərliklə mübarizə, planetin qorunması, mütərəqqi, əhatəli və dayanıqlı iqtisadi artımın təmin olunması, qarşılıqlı əlaqədə və asılılıqda sosial inteqrasiyaya kömək edilməsi bəyan edilir. Beləliklə, Dayanıqli İnkişaf Məqsədləri insanların və yer kürəsinin maraqları baxımından dünyamızın dəyişdirilməsi üzrə kompleks fəaliyyət proqramıdır. Bu sənəd 169 vəzifəni və 17 məqsədi özündə birləşdirir.

BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin Dayanıqlı İnkişaf Şöbəsinin rəsmi saytında qeyd edildiyi kimi, "bu məqsədlər yoxsulluq və digər məhrumiyyətlərlə mübarizə üzrə tədbirlərin səhiyyə və təhsilin yaxşılaşdırılması, bərabərsizliyin azaldılmasına yönəlmiş strategiyalarla və iqtisadi artımın stimullaşdırması ilə, bütün bunlar eyni zamanda iqlim dəyişikliyi ilə bağlı problemlərin həll edilməsi, okeanların və meşələrin mühafizəsi ilə bağlı işlərlə sıx əlaqələndirilməsini nümayiş etdirir".

BMT tərəfindən təklif edilən dayanıqlı inkişaf konsepsiyası lap əvvəldən məhdud resursları nəzərə almaqla müxtəlif ölkələrin əhalisinin cari və gələcək ehtiyacları arasında tarazlığın tapılmasına yönəlmişdi. Beləliklə, dayanıqlı inkişaf dedikdə milli iqtisadiyyatların və şirkətlərin gələcək nəsillərə zərər vermədən müasir dövrün ehtiyaclara cavab verən artımını və uzunmüddətli perspektivdə dəyər yaratmaq qabiliyyətini nəzərdə tutur. Ölkələrin, şirkətlərin, bölgələrin və yerli birliklərin dayanıqlığını qiymətləndirmək üçün üç inkişaf vektoruna - ətraf mühitə təsir, sosial vəzifələrin həlli üçün fəaliyyət və təşkilatın özünün səmərəli idarə olunması (ESG meyarları, ing. Environmental, Social, Governance) əsaslanan qiymətləndirmələrdən istifadə edilir.

## 4. ESG konsepsiyasının həyata keçirilməsi

ESG konsepsiyası (ətraf mühitə qayğıkeş münasibət, real sosial məsuliyyət, ədalətli korporativ idarəetmə) bütün dünyada aktualdır.İstehlak bazarının müasir tələbləri dayanıqlı inkişaf prinsiplərinə riayət etməyi diktə edir. Əgər dayanıqlı inkişaf məqsədləri dövlətin makrosəviyyəsinə təsir edirsə, onda ESG prinsipləri müasir korporativ idarəetmədə əsas amildir və onların yerinə yetirilməsi balanslaşdırılmış dayanıqlı makroiqtisadi tənzimləmə və inkişafı təmin edir.

ESG prinsipləri şirkətlərin fəaliyyətində ekoloji, sosial və idarəetmə aspektlərinin nəzərə alınmasına yönəlmiş əsas prinsiplər dəstidir, onların dayanıqlığının və ətraf mühitə, cəmiyyətə və idarəetmənin daxili strukturuna təsirinin qiymətləndirilməsidir. ESG prinsiplərinin məqsədi dayanıqlı inkişafa nail olmaq, şirkətin fəaliyyət nəticələrini yaxşılaşdırmaq, cəmiyyətə və ətraf mühitə müsbət təsir yaratmaqdır.

Onu da qeyd etmək lazımdır ki, ESG ekologiyaya, ətraf mühitə adekvat və diqqətli münasibət, şirkətin sosial məsuliyyətinin yüksək səviyyəsi və korporativ idarəetməyə məsuliyyətli yanaşma kimi prinsiplərə əsaslanan dayanıqlı inkişaf fəaliyyətini nəzərdə tutur.

ESG konsepsiyasının inkişaf tarixinin başlanğıcı 1960-cı illərə, yəni Amerika və Avropa investorlarının şirkətlərə yeni tələblər qoymağa başladığı dövrə təsadüf edir. İyirminci əsrin ikinci yarısında investorlar üçün maliyyə göstəriciləri ilə yanaşı, yeni məlumatlar - ESG prinsipləri də əhəmiyyətli olmuşdur. Maliyyə investisiyalarına yeni yanaşma "sosial-məsuliyyətli investisiya" adını almışdır.

Korporativ sosial məsuliyyət paradiqmasının yeni konseptual əsaslandırılmasının yaranması ESG gündəliyinin inkişafına təkan verən yeni təfəkkür üsulu olmuşdur. ESG gündəliyinin əsas mövzularına yaşıl taksanomiya, iqlim və ESG riskləri haqqında informasiyanın açıqlanması, məhsulların

standartlaşdırılması, “yaşıl” qiymətli kağızların buraxılması xüsusiyyətləri, “yaşıl” qiymətli kağızlar aid edilir.

Yaşıl taksanomiyada əsasən ekoloji istiqmətlər - iqlim dəyişikliyinin yumşaldılması, iqlim dəyişikliyinə uyğunlaşma, su və dəniz resurslarının davamlı istifadə edilməsi və müdafiəsi, sirkulyasiyalı iqtisadiyyata keçid, çirklənmiş ətraf mühitə nəzarət və onun aradan qaldırılması, ekosistemin və biomüxtəlifliyin bərpası və müdafiəsi- öz əksini tapır.

## 5. Tədqiqqatın Metodologiyası

Müasir anlamda dayanıqlı inkişaf dedikdə gələcək nəsillərin ehtiyaclarını ödəmək və iqtisadi artım imkanından məhrum etmədən indiki nəslin ehtiyaclarının ödənilməsini təmin edən iqtisadi artımdır. Bu konsepsiya cəmiyyətin, iqtisadiyyatın və ekologiyanın tarazlı inkişafı ideyasına əsaslanır. Başqa sözlə desək, ekoloji rifah, sosial tərəqqi və iqtisadi artım dayanıqlı inkişafın üç sütunudur, əsasıdır. Dayanıqlı inkişaf üç ideyaya əsaslanan bir fəlsəfədirsə, o zaman ESG (E - ətraf mühit, S - sosial, G - idarəetmə yaxud ekologiya, sosial siyasət və korporativ idarəetmə) abbreviaturası biznesin dayanıqlı inkişaf məqsədlərinə nail olmağa doğru nə qədər səmərəli hərəkət etdiyini daha konkret əks etdirmək üçün ortaya çıxmışdır [Диваева Э.,2022]. ESG-nin mühüm aspektləri 1 saylı cədvəldə əks etdirək (cədvəl 1).

**Cədvəl 1. ESG-nin aspektləri**

| Ekologiya | Sosial | Idarəetmə |
|---|---|---|
| Iqlim dəyişikliyi | Sağlamlığın və təhlükəsizliyin qorunması | Ali rəhbərliyin mkafatlandırılması |
| Istixana qazlarının tullantıları | Əmək şəraiti | Rüşvət və korrupsiya |
| Təbii ehtiyatların tükənməsi (o cümlədən içməli suyun çatışmazlığı) | Gender tərkibi | Siyasi lobbilər və ianələr |
| Tullantılar və çirklənmə | Yerli icmalar | Direktorlar şurasının strukturu və gender tərkibi |
| Meşələrin məhv edilməsi | - | Vergi strategiyası |

Dayanıqlı inkişafla ESG anlayışının müqayisəli xarakteristikası 2 saylı cədvəldə təsvir edilmişdir (cədvəl 2).

**Cədvəl 2. Dayanıqlı inkişaf və ESG anlayışının müqayisəsi**

| Dayanıqlı inkişaf | ESG |
|---|---|
| Ümumi məsələlərə baxan fəlsəfə | Biznesin inkişafı məsələlərini baxan qaydalar və yanaşmalar toplusu |
| Ölçülə bilməyən | Ölçülə bilən |
| Insan fəaliyyətinin bütün sferalarını əhatə edir | Maliyyə və sənaye sektorunu əhatə edir |
| Komponentlər: ekologiya, iqtisadiyyat və cəmiyyət | Komponentlər: ekoloji, sosial və idarəetmə aspektləri |

Beləliklə, qeyd edilənlərə əsalanaraq dünyada ESG-nin cari konyukturasında müşahidə edilən bir sıra meylləri belə xarakterizə etmək olar. Birincisi, enerji keçidində və ümumilikdə ESG gündəliyində mümkün yavaşlama. Akrivlərin idarəedilməsi üzrə State Street Global Advisors amerika kompaniyasının ekspertlərinin fikrincə qısamüddətli perspektivdə investorların əsas diqqəti ənənəvi yanacağdan (neft, daş kömür) istifadənin imkan verdiyi enerji təhlükəsizliyinə fokuslanacaqdır.

Qeyd etmək ki, bu meyl xarici ölkələrlə müqayisədə ölkəmiz üçün daha çox xarakterikdir.Azərbaycanda ESG bəzi indikatorlarının dinamikası aşağıdakı qrafikdə verilmişdir (qrafik1.)

**Qrafik 1. ESG-in bəzi indikatorlarının dinamikası**




Beləliklə, araşdırma göstərir ki, 2023-cü ildə Azərbaycanda ekoloji, sosial və korporativ idarəetmə (Ekoloji, Sosial və İdarəetmə - ESG) prinsiplərinin tətbiqi səviyyəsi 3,5% təşkil etmişdir. Bu il tədqiqat şirkətləri ilk dəfə olaraq Azərbaycanda ESG-nin cari vəziyyəti ilə bağlı irimiqyaslı sorğu həyata keçirib. Sorğu müxtəlif sənaye və regionlardan olan 300-ə yaxın respondenti əhatə edib. Onun nəticələrinə görə, Azərbaycanda ESG prinsiplərinin anlanılmsı səviyyəsi 7%, təchizatçı seçiminə və hesabatlılğa təsiri müvafiq olarq 2,5% və 1,4% təşkil etmişdir.

ESG amillərinin makroiqtisadi göstəricilərlə əlaqəsini əks etdirən empirik təhlili aparmaq üçün 2000-2023 – cü illərin məlumatları istifadə edilmişdir. Cədvəl 3-də korrelyasiya-reqressiya təhlili üçün istifadə edilmiş göstəricilərin siyahısı verilmişdir.

**Cədvəl 3. Korrelyasiya - reqressiya təhlilində istifadə edilən dəyişənlər**

| Dəyişənin adı | Dəyişənin ifadəsi |
|---|---|
| Atmosfer havasına atılan bütün çirkləndirici maddələr (min ton) (Y) | ATMCIRKMAD |
| Kimya sənayesi üzrə məhsulun dəyəri (mln.manat) (X1) | KİMYA |

| | |
|---|---|
| Sənayedə əsas kapitala yönələn xarici investisiyalar, mln.manat (X2) | EK |
| Emal sənayesi (mln.manat) (X3) | EMAL |
| Əhalinin hər nəfərinə düşən gəlirləri (manat) (X4) | EHALİGELİR |

Korrelyasiya matrisindən (cədvəl 4) məlum olur ki, izaholunan dəyişən bütün izahedici dəyişənlərlə sıx əlaqədədir, lakin bir sıra izahedici dəyişənlər arasında əhəmiyyətli və sıx əlaqənin olması multikolleniarlığın mövcudluğuna bir işarədir ki, bu da modelin əmsallarının keyfiyyətinin azalması riskinə gətirib çıxara bilər.

**Cədvəl 4. Korrelyasiya matrisi**

| | Y | X1 | X2 | X3 | X4 |
|---|---|---|---|---|---|
| Y | 1 | -0.079 | 0.57 | 0.19 | 0.37 |
| X1 | -0.079 | 1 | 0.48 | 0.91 | 0.76 |
| X2 | 0.57 | 0.48 | 1 | 0.75 | 0.86 |
| X3 | 0.19 | 0.91 | 0.75 | 1 | 0.96 |
| X4 | 0.37 | 0.76 | 0.86 | 0.96 | 1 |

Aparılan reqressiya təhlilində bəzi dəyişənlərin əmsallarının əhəmiyyətsiz olduğunu nəzərə alaraq, qurulan yeni modelin (cədvəl 5) nəticələrinin interpretasiyasını qeyd edək. Qurulan reqressiya modelinin $\widehat{ATMCIRKMAD} = 834.9642 + 0.046389EK - 0.01533EMAL$ əmsalları 5% əhəmiyyətliliklə əhəmiyyətlidir. Beləliklə, sənayedə əsas kapitala yönələn xarici investisiyalar 1 mln.manat artarsa, digər dəyişənlər sabit qaldıqda, atmosfer havasına atılan bütün çirkləndirici maddələr orta hesabla 0.046 min ton artar, emal sənayesi məhsulunun dəyəri 1 mln manat artarsa, digər dəyişənlər sabit qaldıqda, atmosfer havasına atılan bütün çirkləndirici maddələr orta hesabla 0.015 min ton azalar. Darbin-Watson statistikasının 1.828783 olması n=24, $d_L$=0.959, $d_U$=1,298 halında $1.828783 > 1.298$ olduğu üçün avtokorrelyasiyanın olmaması hipotezi qəbul edilir.

**Cədvəl 5. Reqressiya modelinin nəticələri**

Dependent Variable: ATMCIRKMAD
Method: Least Squares
Date: 11/13/24 Time: 15:50
Sample: 2000 2023
Included observations: 24

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|

| | | | | |
|---|---|---|---|---|
| EK | 0.046389 | 0.011312 | 4.100893 | 0.0005 |
| EMAL | -0.015330 | 0.006613 | -2.318020 | 0.0306 |
| C | 834.9642 | 48.32752 | 17.27720 | 0.0000 |
| R-squared | 0.464293 | Mean dependent var | | 991.4167 |
| Adjusted R-squared | 0.413274 | S.D. dependent var | | 134.8503 |
| S.E. of regression | 103.2927 | Akaike info criterion | | 12.22948 |
| Sum squared resid | 224057.1 | Schwarz criterion | | 12.37674 |
| Log likelihood | -143.7538 | Hannan-Quinn criter. | | 12.26855 |
| F-statistic | 9.100279 | Durbin-Watson stat | | 1.828783 |
| Prob(F-statistic) | 0.001425 | | | |

Aparılan tədqiqatda White -testi, Glejser-testi, Breusch-Pagan -testinə əsasən deyə bilərik ki, heteroskedastiklik mövcud deyil, yəni modelin qalıqları hər iki dəyişənlərdən asılı deyil, bu o deməkdir ki, sıfır hipotezi qəbul olunur.

## 6. Nəticə

Aparılmış tədqiqatın sonunda aşağıdakı nəticələr əldə edilmişdir:

- ESG prinsipləri davamlı inkişafın təmin edilməsinə, beynəlxalq maliyyə resurslarına və bazarlarına əlçatanlığın genişləndirilməsinə, risklərə dayanıqlığın artırılmasına, həmçinin biznesin ümumi idarə edilməsinin optimallaşdırılmasına kömək edir.
- Dünyada baş verən çiddi dəyişikliklər ESG gündəliyinin sürətləndirilməsini stimullaşdırır. Belə ki, iqlim və ətraf mühitə mənfi təsirlərin azaldılması məqsədilə alternativ enerji mənbələrindən geniş miqyasda istifadəni zəruri edir.
- İstehlak modelinin dəyişməsi, yəni əhali tərəfindən bərpa olunan enerji mənbələrindən istifadəyə tələb artmışdır.
- Ekoloji komponentə diqqət yetirilməsi. ESG paradiqmasının mövcudluğunun bütün dövründə E-faktorun (iqlim və ətraf mühit) hesabatlarda, hədəflərin müəyyən edilməsində və informasiya gündəliyində yayılması davam edəcək və hətta güclənəcəkdir.
- ESG sferasında məlumatların etibarlılığı üzərində kompaniyaların məsuliyyəti artır.

- Aparılan reqressiya analizi nəticəsində belə qənaətə gəlmək olar ki, iqtisadiyyatın modernləşdirilməsi davam etməlidir və mədən sənayesi sektorundan asılılıq azalmalıdır. Tullantıların təkrar emalının iqtisadi faydaları müxtəlif təsərrüfat subyektləri üçün əhəmiyyətli faydalar verib, xərclərin azaldılmasına səbəb olur, nəticədə, ÜDM-in artmasına və yeni iş yerlərinin yaradılmasına töhfə verən ayrıca bir iqtisadiyyat sahəsi yarana bilər.

**7. Ədəbiyyat**


1. Ануфриев, В. П. Устойчивое развитие. Энергоэффективность. Зеленая экономика : монография / Москва: ИНФРА-М, 2022. - 201 с.
2. Bowen H. Social Responsibilities of the Businessman. New York: Harper and Row,1953
3. Диваева Э.А Условия трансформации ESG-принципов: экономические и социальные аспекты «Инновации и инвестиции». №1. 2022, стр. 65-70
4. Казанцев В.П., Гончарова К.С. Эволюция принципов esg в контексте стратегии устойчивого развития: основные этапы и направления, Вестник тогу. 2024.№2 (73), стр. 109-118
5. Соколова Н.А., Теймуров Э.С., Соотношение Целей устойчивого развития и ESG-принципов, Вестник Университета имен Кутафина (МГЮА), №2, 2021, стр.171-183
6. Freeman R.E., Kirsten M., Bidhan P. Stakeholder Capitalism // Journal of Business Ethics. 2007. No. 74. p. 303-314.
7. https://www.dp.ru/a/2021/03/17/V_DNK_biznesa_kak_stat
8. https://azertag.az/ru/xeber/chto_takoe_cop_i_chto_dast_azerbaidzhanu_provedenie_cop29-2875741
9. https://azerbaijan.un.org/az/sdgs
10. https://report.az/ru/biznes/ocenen-uroven-primeneniya-principov-esg-v-azerbajdzhane/
11. https://xalqqazeti.az/uploads/pdf-files/66440/xalqqazeti-23.02.2024
12. https://www.stat.gov.az


## 62. Dayanıqlı İnkişafın Statistik Qiymətləndirilməsi


**Muradova Xalidə Firdovsi qızı**

***Azərbaycan Dövlət İqtisad Univeristeti,***

**xali-77@mail.ru**



**Xülasə:** Bu məqalə, dayanıqlı inkişafın və yaşıl iqtisadiyyatın statistik qiymətləndirilməsini araşdırır. Dayanıqlı inkişaf, ekoloji, sosial və iqtisadi amillərin balanslaşdırılmasını tələb edir. Statistik göstəricilər, ekoloji tarazlığı, sosial ədaləti və iqtisadi artımı ölçmək üçün vacibdir. Ekoloji göstəricilər arasında karbon izi və tullantıların həcmi, sosial göstəricilər arasında iqtisadi bərabərlik və iş imkanları, iqtisadi göstəricilər arasında isə yaşıl texnologiyalara sərmayələr və davamlı istehsal önəmlidir.


Dayanıqlı inkişafın qiymətləndirilməsi iqtisadi, sosial və ekoloji sahələrdəki mövcud vəziyyətin və əldə edilmiş nəticələrin müəyyənləşdirilməsi üçün əsas vasitədir. Bu proses dayanıqlı inkişaf məqsədlərinə nə dərəcədə nail olunduğunu ölçmək və bu istiqamətdə daha təsirli siyasətlər hazırlamaq üçün lazımi məlumatları təmin edir. İqtisadi sahədə bu, resurslardan səmərəli istifadə, iqtisadi artım və

iş yerlərinin yaradılması kimi aspektləri əhatə edir. Sosial sahədə isə bərabərlik, təhsil, səhiyyə və insan hüquqlarının təmin olunması qiymətləndirmənin əsas komponentlərindəndir.

Ekoloji sahədə qiymətləndirmə ətraf mühitin qorunması, təbii sərvətlərin dayanıqlı istifadəsi və iqlim dəyişikliyinin təsirlərinin azaldılması kimi məsələləri əhatə edir. Bütün bu sahələrin inteqrasiyası və əlaqələndirilməsi dayanıqlı inkişafın dərinləşdirilməsi üçün mühüm addımdır. Həmçinin bu qiymətləndirmə, müxtəlif ölkələr və regionlar arasında müqayisə aparmaq və daha yaxşı təcrübələri müəyyən etmək üçün mühüm alət kimi çıxış edir.

Müasir dünyada dayanıqlı inkişafın qiymətləndirilməsi bir çox çətinliklərlə qarşılaşır. Məlumatların əldə edilməsi və keyfiyyəti, indikatorların seçilməsi, müxtəlif ölkələrin iqtisadi və sosial xüsusiyyətlərinin fərqli olması kimi problemlər bu prosesin mürəkkəbliyini artırır. Buna baxmayaraq, beynəlxalq təşkilatlar və milli hökumətlər bu sahədə ardıcıl səylər göstərərək dayanıqlı inkişaf məqsədlərinə çatmağa çalışırlar.

Bu yazının davamında dayanıqlı inkişafın əsas indikatorları, qiymətləndirmə metodları və beynəlxalq təcrübələr təhlil ediləcək, həmçinin bu istiqamətdə qarşıda duran problemlər və onların həlli yolları araşdırılacaqdır.

**JEL kodu: C01, C22, C51**

***Açar Sözlər:*** dayanıqlı inkişaf,  yaşıl iqtisadiyyat,statistik qiymətləndirmə,ekoloji göstəricilər

**Statistical Assessment of Sustainable Development**

**Abstract:** This article examines the statistical assessment of sustainable development and the green economy. Sustainable development requires balancing environmental, social and economic factors. Statistical indicators are essential for measuring ecological balance, social justice and economic growth. Among the environmental indicators, carbon footprint and emissions are important, among the social indicators, economic equity and job opportunities, and among the economic indicators, investments in green technologies and sustainable production are important.

Sustainable development assessment is a key tool for determining the current situation and the results achieved in the economic, social and environmental fields. This process provides the necessary information to measure the extent to which the sustainable development goals have been achieved and to develop more effective policies in this direction. In the economic field, this includes aspects such as efficient use of resources, economic growth and job creation. In the social field, equality, education, health and the provision of human rights are key components of the assessment.

In the environmental field, assessment covers issues such as environmental protection, sustainable use of natural resources and mitigation of the effects of climate change. The integration and coordination of all these areas is an important step towards deepening sustainable development. This assessment also serves as an important tool for making comparisons between different countries and regions and identifying better practices.

In the modern world, the assessment of sustainable development faces many challenges. Problems such as obtaining and quality of data, selecting indicators, and the different economic and social characteristics of different countries increase the complexity of this process. Nevertheless, international organizations and national governments are making consistent efforts in this area and are trying to achieve sustainable development goals.

In the remainder of this article, the main indicators of sustainable development, assessment methods and international practices will be analyzed, as well as the challenges facing this direction and ways to solve them will be examined.

***Key words:*** sustainable development, green economy, statistical assessment, environmental indicators

**Giriş**

Dayanıqlı inkişaf, ekoloji tarazlığın qorunması, sosial bərabərliyin təşviqi və iqtisadi tərəqqinin təmin edilməsi prinsiplərinə əsaslanır. Bu anlayış, resursların gələcək nəsillərin ehtiyaclarını təmin etmək məqsədilə səmərəli istifadəsini vurğulayır. Statistika, dayanıqlı inkişafın qiymətləndirilməsi üçün əvəzsiz bir alətdir, çünki bu, müasir cəmiyyətlərin inkişafını ətraflı analiz etməyə və strategiyaların təsirini ölçməyə imkan verir.

Dayanıqlı inkişafın statistik qiymətləndirilməsi, müasir dövrdə cəmiyyətlərin ekoloji, sosial və iqtisadi cəhətdən inkişafını təmin etmək üçün əsas bir vasitədir. Bu proses, ölkələrin inkişaf strategiyalarını müəyyən etməyə və müvafiq siyasətlərin həyata keçirilməsində qərar qəbuletməyə kömək edir. Gələcək nəsillərin ehtiyaclarını qarşılamaq üçün dayanıqlı inkişafın əsas prinsiplərinə uyğun olaraq müvafiq statistik göstəricilərin təhlili və qiymətləndirilməsi vacibdir. Bu, daha sağlam və davamlı bir gələcəyin təmin olunmasında əvəzsiz rol oynayır.

**Ekoloji Göstəricilər**

Ekoloji göstəricilər dayanıqlı inkişafın təməlini təşkil edir. Bu göstəricilər aşağıdakıları əhatə edir:

1. **Karbon İzi**: İstehsal və istehlak fəaliyyətlərinin nəticəsində yaranan karbon dioksid emissiyaları, iqlim dəyişikliyi ilə mübarizədə vacib rol oynayır. Statistik məlumatlar, ölkələrin karbon izinin zamanla necə dəyişdiyini göstərir.
2. **Tullantıların Həcmi**: İstehsalat prosesində yaranan tullantıların miqdarı, resursların səmərəli istifadəsi və tullantıların idarə edilməsi üçün statistik təhlil edilməlidir. Bu, yaşıl iqtisadiyyatın inkişafına təkan verə bilər.
3. **Su və Enerji İstehlakı**: Su və enerji resurslarının istifadəsi, iqtisadiyyatın dayanıqlılığını ölçmək üçün mühüm göstəricilərdir. Yenilənə bilən enerji mənbələrinin artması, ekoloji dostu istehsal metodlarının tətbiqini göstərir.

**Sosial Göstəricilər**

Sosial ədalət və bərabərlik, dayanıqlı inkişafın vacib aspektləridir. Sosial göstəricilər arasında aşağıdakılar yer alır:

1. **İqtisadi Bərabərlik**: Gəlir bölgüsü, cəmiyyətin sosial tarazlığını müəyyən edir. Statistika, müxtəlif sosial qruplar arasında gəlir fərqlərini analiz etməyə imkan verir.
2. **İş İmkanları**: Yaşıl iqtisadiyyatın yaradılması, yeni iş yerlərinin açılmasına səbəb olur. Bu göstərici, işsizlik səviyyələrinin azaldılması ilə bağlı məlumatları əhatə edir.

3. **İctimai Sağlamlıq**: Ekoloji şəraitin insan sağlamlığına təsiri, statistik məlumatlarla qiymətləndirilə bilər. Tullantıların azaldılması və ekoloji balansın qorunması, insanların sağlamlığını müsbət yöndə təsir edə bilər.

**İqtisadi Göstəricilər**

İqtisadi göstəricilər, dayanıqlı inkişafın iqtisadi təsirini qiymətləndirmək üçün əhəmiyyətlidir:

1. **Yaşıl Texnologiyalara Sərmayələr**: Yenilənə bilən enerji və ekoloji dostu texnologiyalara yatırılan sərmayələr, iqtisadi inkişafın göstəricisidir. Bu, statistik olaraq analitik təhlillərlə izlənilə bilər.
2. **İqtisadi Artım**: Yaşıl iqtisadiyyatın ÜDM-dəki rolu, statistik məlumatlarla dəstəklənir. İqtisadi artım, ekoloji və sosial tarazlığı təmin etməklə yanaşı, dayanıqlı inkişafı da təşviq edir.
3. **Davamlı İstehsal**: Ekologiyaya uyğun istehsal metodlarının tətbiqi, resursların səmərəli istifadəsini göstərir. Bu, statistik analiz vasitəsilə izlənilə bilər.

Dayanıqlı inkişafın statistik qiymətləndirilməsi, ekoloji, sosial və iqtisadi göstəricilərin bir araya gəlməsini tələb edir. Bu, ölkələrin və regionların dayanıqlı inkişaf məqsədlərinə çatmasını təmin etmək üçün əhəmiyyətli məlumatlar təqdim edir. Statistik məlumatların toplanması, analizi və qiymətləndirilməsi, dayanıqlı inkişaf strategiyalarının səmərəli tətbiqini mümkün edir. Nəticədə, dayanıqlı inkişaf, gələcək nəsillərin ehtiyaclarını təmin etməyə yönəlmiş bir yol xəritəsi təqdim edir.

**Siyasət və Strategiyaların Rolu**

Dayanıqlı inkişafın statistik qiymətləndirilməsi yalnız göstəricilərin toplanması ilə məhdudlaşmır; həmçinin, bu göstəricilərin təhlili nəticəsində ortaya çıxan məlumatların siyasət və strategiyaların formalaşmasına təsiri vardır. Aşağıdakı sahələrdə əhəmiyyətli addımlar atılmalıdır:

1. **Davamlı İnkişaf Məqsədləri**: BMT-nin 2030 Gündəliyi çərçivəsində qoyulan 17 məqsəd, dayanıqlı inkişafın əsas prinsiplərini əks etdirir. Statistik qiymətləndirmələr, bu məqsədlərə nail olmaq üçün müvafiq tədbirlərin həyata keçirilməsində önəmli rol oynayır.
2. **Ekoloji Qanunvericilik**: Dövlətlərin ekoloji qanunvericiliyinin gücləndirilməsi, dayanıqlı inkişafın təmin olunmasında vacibdir. Statistika, bu qanunların effektivliyini ölçmək üçün istifadə olunur və tətbiq olunan strategiyaların nəticələrini qiymətləndirməkdə kömək edir.
3. **Təhsil və İctimai Maarifləndirmə**: Cəmiyyətin ekoloji mövzularda maarifləndirilməsi, dayanıqlı inkişafın təşviqinə yönəlmiş siyasətlərin müvəffəqiyyətini artırır. Statistika, təhsil və maarifləndirmə proqramlarının effektivliyini ölçmək üçün istifadə oluna bilər.

**Beynəlxalq Əməkdaşlıq**

Dayanıqlı inkişafın statistik qiymətləndirilməsi, beynəlxalq əməkdaşlıq və məlumat mübadiləsi tələb edir. Beynəlxalq təşkilatlar və dövlətlər arasında informasiya mübadiləsi, dayanıqlı inkişaf göstəricilərinin standartlaşdırılmasına və global səviyyədə müvafiq tədbirlərin həyata keçirilməsinə kömək edir.

1. **Məlumatların Standartlaşdırılması**: Göstəricilərin beynəlxalq standartlara uyğun olaraq toplanması, müqayisə edilə bilən və etibarlı məlumatların əldə edilməsinə imkan tanıyır.

2. **Təcrübə Mübadiləsi**: Müxtəlif ölkələrin dayanıqlı inkişaf strategiyalarının mübadiləsi, ən yaxşı təcrübələrin öyrənilməsinə və tətbiqinə şərait yaradır. Bu, statistik qiymətləndirmələrin daha səmərəli olmasını təmin edir.

Dayanıqlı inkişafın statistik qiymətləndirilməsi, bir sıra nəticələr və tövsiyələr ortaya çıxarır:

1. **Məlumatların İnteqrasiyası**: Ekoloji, sosial və iqtisadi məlumatların inteqrasiya olunması, daha geniş və əhatəli analizlərə imkan tanıyır. Göstəricilər arasında qarşılıqlı əlaqələrin anlaşılması, daha dəqiq siyasətlərin formalaşmasına kömək edir.
2. **Davamlı Monitorinq**: Davamlı monitorinq sistemlərinin yaradılması, dayanıqlı inkişaf göstəricilərinin real vaxtda izlənilməsini təmin edir. Bu, mümkün dəyişikliklərə çevik reaksiya verməyə imkan tanıyır.
3. **İctimai İştirak**: İctimai iştirakın artırılması, statistik qiymətləndirmələrin daha əhatəli və cəmiyyətin ehtiyaclarını əks etdirən olmasını təmin edir. Cəmiyyətin müxtəlif təbəqələrinin fikirlərinin nəzərə alınması, dayanıqlı inkişafın daha geniş dəstəklənməsinə səbəb ola bilər.

Yaşıl iqtisadiyyat, ekoloji davamlılığı, iqtisadi artımı və sosial ədaləti bir araya gətirən müasir bir yanaşmadır. Bu model, ətraf mühitin mühafizəsi, resursların dayanıqlı istifadəsi və insan kapitalının inkişafı ilə bağlıdır. Yaşıl iqtisadiyyatın statistik qiymətləndirilməsi, bu sahənin effektivliyini, inkişafını və strateji hədəflərə nail olma səviyyəsini müəyyən etmək üçün vacibdir.

Yaşıl iqtisadiyyatın qiymətləndirilməsi üçün bir sıra statistik göstəricilər mövcuddur:

1. **Karbon Emissiyaları:** İqtisadi fəaliyyətlərin ətraf mühitə təsirini ölçmək üçün $CO_2$ emissiyalarının miqdarı əsas göstəricidir. Bu göstərici, müxtəlif sektorlarda (enerji, nəqliyyat, istehsal) emissiyaların azaldılmasını izləməyə imkan tanıyır.
2. **Yenilənə Bilən Enerji İstifadəsi:** Yenilənə bilən enerji mənbələrinin (günəş, külək, bioenerji) iqtisadiyyatdakı payı, yaşıl iqtisadiyyatın inkişafını əks etdirir. Bu göstəricinin artması, karbon izinin azaldılmasına birbaşa təsir edir.
3. **Təbii Resursların İdarə Edilməsi:** Su, torpaq və digər təbii resursların istifadəsi üzrə göstəricilər, ekosistemlərin sağlamlığını və dayanıqlı inkişafı təmin etmək üçün əhəmiyyətlidir. Resursların istehlak nisbəti və bərpa edilə bilən resursların istifadəsi burada önəmlidir.
4. **İş Yerləri və İqtisadi Aktivlik:** Yaşıl iqtisadiyyatda yaradılan yeni iş yerləri və bu sahəyə investisiyaların artması, iqtisadiyyatın davamlılığını göstərir. Yaşıl sektorda işsizliyin azaldılması sosial və iqtisadi fayda gətirir.

**Statistik Metodologiyalar**

Yaşıl iqtisadiyyatın qiymətləndirilməsi üçün bir neçə statistik metodologiya istifadə olunur:

- **Məlumat Toplama:** Məlumatların toplanması, sahə üzrə tədqiqatlar, sorğular və dövlət statistikaları vasitəsilə həyata keçirilir.
- **Statistik Analiz:** İqtisadi və ekoloji göstəricilərin analizi üçün statistik alətlərdən (regressiya analizi, zaman seriyaları analizi) istifadə edilir.
- **Modelleme:** İqtisadi proqnozlar və simulyasiyalar üçün iqtisadi modellər yaradılır, bu da yaşıl iqtisadiyyatın potensialını qiymətləndirməyə imkan verir.

**Nəticələr və Təsirlər**

Yaşıl iqtisadiyyatın statistik qiymətləndirilməsi, dövlətlərin və təşkilatların ekoloji siyasətlərini formalaşdırmağa kömək edir. Bu qiymətləndirmələr nəticəsində, yaşıl

investisiyaların artırılması, yeni texnologiyaların tətbiqi və təbii resursların mühafizəsi üçün strateji planlar hazırlanır.

**Nəticə**

Yaşıl iqtisadiyyatın statistik qiymətləndirilməsi, ekoloji balansı qorumaq, sosial ədaləti təmin etmək və iqtisadi inkişafı sürətləndirmək məqsədilə vacibdir. Gələcəkdə daha dəqiq və etibarlı statistika ilə bu sahənin inkişafını dəstəkləmək üçün müasir metodların tətbiqi əhəmiyyətini artırır. Bu, yalnız iqtisadiyyat üçün deyil, eyni zamanda planetin davamlılığı üçün də həyati önəmə malikdir.

Yaşıl iqtisadiyyat, ekoloji davamlılığı, iqtisadi artımı və sosial ədaləti bir araya gətirən müasir bir yanaşmadır. Bu model, ətraf mühitin mühafizəsi, resursların dayanıqlı istifadəsi və insan kapitalının inkişafı ilə bağlıdır. Yaşıl iqtisadiyyatın statistik qiymətləndirilməsi, bu sahənin effektivliyini, inkişafını və strateji hədəflərə nail olma səviyyəsini müəyyən etmək üçün vacibdir.

**Yaşıl İqtisadiyyatın Göstəriciləri**

Yaşıl iqtisadiyyatın qiymətləndirilməsi üçün bir sıra statistik göstəricilər mövcuddur:

1. **Karbon Emissiyaları:** İqtisadi fəaliyyətlərin ətraf mühitə təsirini ölçmək üçün $CO_2$ emissiyalarının miqdarı əsas göstəricidir. Bu göstərici, müxtəlif sektorlarda (enerji, nəqliyyat, istehsal) emissiyaların azaldılmasını izləməyə imkan tanıyır.
2. **Yenilənə Bilən Enerji İstifadəsi:** Yenilənə bilən enerji mənbələrinin (günəş, külək, bioenerji) iqtisadiyyatdakı payı, yaşıl iqtisadiyyatın inkişafını əks etdirir. Bu göstəricinin artması, karbon izinin azaldılmasına birbaşa təsir edir.
3. **Təbii Resursların İdarə Edilməsi:** Su, torpaq və digər təbii resursların istifadəsi üzrə göstəricilər, ekosistemlərin sağlamlığını və dayanıqlı inkişafı təmin etmək üçün əhəmiyyətlidir. Resursların istehlak nisbəti və bərpa edilə bilən resursların istifadəsi burada önəmlidir.
4. **İş Yerləri və İqtisadi Aktivlik:** Yaşıl iqtisadiyyatda yaradılan yeni iş yerləri və bu sahəyə investisiyaların artması, iqtisadiyyatın davamlılığını göstərir. Yaşıl sektorda işsizliyin azaldılması sosial və iqtisadi fayda gətirir.

**Statistik Metodologiyalar**

Yaşıl iqtisadiyyatın qiymətləndirilməsi üçün bir neçə statistik metodologiya istifadə olunur:

- **Məlumat Toplama:** Məlumatların toplanması, sahə üzrə tədqiqatlar, sorğular və dövlət statistikaları vasitəsilə həyata keçirilir.
- **Statistik Analiz:** İqtisadi və ekoloji göstəricilərin analizi üçün statistik alətlərdən (regressiya analizi, zaman seriyaları analizi) istifadə edilir.
- **Modelleme:** İqtisadi proqnozlar və simulyasiyalar üçün iqtisadi modellər yaradılır, bu da yaşıl iqtisadiyyatın potensialını qiymətləndirməyə imkan verir.

Yaşıl iqtisadiyyatın statistik qiymətləndirilməsi, dövlətlərin və təşkilatların ekoloji siyasətlərini formalaşdırmağa kömək edir. Bu qiymətləndirmələr nəticəsində, yaşıl investisiyaların artırılması, yeni texnologiyaların tətbiqi və təbii resursların mühafizəsi üçün strateji planlar hazırlanır. Yaşıl iqtisadiyyatın statistik qiymətləndirilməsi, ekoloji balansı qorumaq, sosial ədaləti təmin etmək və iqtisadi inkişafı sürətləndirmək məqsədilə vacibdir. Gələcəkdə daha dəqiq və etibarlı statistika ilə bu sahənin inkişafını dəstəkləmək üçün müasir metodların tətbiqi əhəmiyyətini artırır. Bu, yalnız iqtisadiyyat üçün deyil, eyni zamanda planetin davamlılığı üçün də həyati önəmə malikdir.

**İstifadə olunmuş ədəbiyyat**

1. World Commission on Environment and Development (1987). *Our Common Future*. Oxford University Press.
2. United Nations (2015). *Transforming our World: The 2030 Agenda for Sustainable Development*. United Nations.
3. Daly, H. E., & Farley, J. (2010). *Ecological Economics: Principles and Applications*. Island Press.
4. Sachs, J. D. (2015). *The Age of Sustainable Development*. Columbia University Press.
5. OECD (2020). *Greening Economic Growth in Korea*. OECD Publishing.
6. IPCC (2021). *Climate Change 2021: The Physical Science Basis*. Cambridge University Press.
7. WBCSD (2010). *Vision 2050: The New Agenda for Business*. World Business Council for Sustainable Development.

# EMAL SƏNAYESİNDƏ İNVESTİSİYA-İNNOVASİYA AMİLİ
# INVESTMENT-INNOVATION FACTOR IN PROCESSING INDUSTRY

**Ilham Hüseynli**

**Associate professor of the "Mathematics and Statistics" department of the Azerbaijan State University of Economics(UNEC)**

i. huseynli@unec.edu.az, ihuseinli65@gmail.com

**XÜLASƏ:**

Milli iqtisadiyyatın mühüm və aparıcı həlqələrindən biri emal sənayesidir. Emal sektoru hər bir ölkənin iqtisadi inkişafında, əhalinin sosial təminatında əsas ağırlıq mərkəzidir. Yəni ölkə əhalisinin artan sosial tələbatının təmin edilməsi və soaial rifahının yüksəldilməsi də,əsasən, emal sənayesinin payına düşür.

Onu da nəzərə alsaq ki, ölkə əhalisini keyfiyyətli, ekoloji cəhətdən təmiz ərzaq məhsulları və çox istifadə olunan istehlak malları ilə təminatı da,bir qayda olaraq, emal sənayesinin üzərinə düşür. Bu isə,sözsüz ki, dövlətin sosial və strateji maraqları baxımdan milli iqtisadiyyatda emal sənayesinin daha da inkişaf etdirilməsini zəruri edir.

Əlbəttə ki, emal sənayesinin inkişafı da, demək olar ki, aqrar-sənaye kompleksinin(ASK) davamlı və dinamik inkişafından birbaşa aslıdır.

Müasir dövrdə emal müəssisələri əhalinin istehlakı və sair tələblərinə adekvat ola biləcək keyfiyyətli və rəqabət qabiliyyətli məhsullar istehsal etməli, nəticədə,ölkənin ixrac potensialının daha da gücləndirilməsi, valyuta ehtiyyatlarının artırılmasında önəmli rola və yerə sahib olmalıdır.

Bu vəzifələrin yüksək səviyyədə həyata keçirilməsi,ilk növbədə, emal sənayesinin, o cümlədən, aqrar-sənaye kompleks müəssisələrinin investisiya-innovasiya cəlbediciliyinə nail olunması ilə bağlıdır və bu indiki qloballaşma dövründə milli iqtisadiyyatların əsas qayğılarından sayılmalıdır.

**Açar sözlər:** milli iqtisadiyyat,emal sənayesi, investisiya-innovasiya cəlbediciliyi, aqrar-sənaye kompleksi,ixrac potensialı.

**SUMMARY:**

One of the important and leading links of the national economy is the manufacturing industry. The processing industry is the main center of attraction for economic development and social security of the population of each country. In other words, satisfying the growing social needs of the country's population and increasing its social welfare mainly falls to the share of the processing industry.

Taking into account the fact that providing the country's population with high-quality, environmentally friendly food products is usually the responsibility of the processing industry. And this, undoubtedly, requires further development of the processing industry in the national economy from the point of view of the social and strategic interests of the state.

Of course, the development of the processing industry almost directly depends on the continuous and dynamic development of the agro-industrial complex.

In modern times, processing enterprises must produce high-quality and competitive products that can satisfy the food and other consumer needs of the population, and as a result, they should have an important role and place in strengthening the country's export potential and increasing foreign exchange reserves.

The implementation of these tasks at a high level is associated, first of all, with achieving investment and innovation attractiveness of the processing industry, including agricultural enterprises, and this should be considered one of the main tasks of national economies in the modern period of globalization.

**Key words:** national economy, processing industry, investment and innovation attractiveness, agro-industrial complex, export potential.

Hazırki dünya iqtisadi sistemində əhəmiyyətli yer tutan mühüm sektorlardan biri, kənd təsərrüfatı ilə sənaye sahəsinin ortaq xüsusiyyətləri və rolunu özündə birləşdirən, ölkə əhalisinin birbaşa tələbat və istehlak maraqlarının təminatçısı olan emal sənayesi,o cümlədən, aqrar-sənaye kompleksidir(ASK). Müasir dövrdə dünyanın mütləq əksəriyyət inkişaf etmiş ölkələrində emal sənayesi,daha çox,innovasiyalı inkişaf modelinə keçidlə xarakterizə olunur ki, bunun da əsasını elmi-texniki tərəqqi, rəqəmsal və digər üstün texnologiyaların, daha səmərələşdirici ideyaların əsasını təşkil edən biliyə söykənən innovativ təşəbbüslər,yeniliklər təşkil edir. Əlbəttə ki, burada əsas məqsəd, biliyə və informasiyaya əsaslanan innovasiyaların tətbiqi nəticəsində daha mükəmməl və çevik idarəetmə sistemi yaradaraq, istehsalda daha yeni texnologiya və səmərələşdirici ideyaların tətbiqi nəticəsində əmək sərfini azatmaqla rəqabətqabiliyyətli və keyfiyyətli məhsul istehsalına, yəni, əmək məhsuldarlığının ciddi artımına nail olmaqdır.

Kənd təsərrüfatında əmək məhsuldarlığının artması imkan verir ki, əmək resursları, həmçinin, innovasiya yüklü ideyalar emal sənayesinə və daha sonra xidmət sferasına transformasiya etsin. Milli iqtisadiyyatda innovasiyalı proseslərin kənd təsərrüfatından emal sənayesinə, emal sənayesindən isə xidmətlər sferasına transformasiya edilməsi iqtisadi inkişafın mühüm və labüd mərhələ ardıcıllığı hesab edilir. İndiki mərhələdə,bu müşahidə edilən mərhələ ardıcıllığının nəticəsində emal sənayesinin,həmçinin,ASK-ların inkişafı,qeyd etdiyimiz kimi, onların mexanikləşdirmə və texnoloji səviyyəsinin yüksəldilməsi ilə birbaşa əlaqəlidir ki,bu da gəlirlərin artımı hesabına sənaye məhsullarına

olan tələbin artımı və kənd təsərrüfatında əmək məhsuldarlığının yüksəlməsinə əhəmiyyətli təsir göstərir[1].

Çağdaş bazar iqtisadiyyatı şəraitində innovasiyalar kənd təsərrüfatının inkişafı, nəinki iqtisadi sistemdə rəqabətqabiliyyətli sahəyə çevrilməsi, həmçinin, daxili bazarı keyfiyyətli ərzaq və digər zəruri istehlak malları ilə təmin edilməsi və nəticədə, ölkənin etibarlı və dayanıqlı ərzaq təminatı siyasətinin uğurla həyata keçirilməsinin əsası olaraq qəbul edilir. Əlbəttə ki, məhz, kənd təsərrüfatı sferasında tətbiq edilən innovasiya fəaliyyətləri, nəticə etibarilə, bu sahəyə yaxın olan digər vacib sahələrin dinamik inkişafına da ciddi təsir göstərir ki, bir çox səbəblərdən, bunları hazırki iqtisadi şəraitdə dövlət aqrar siyasətinin əsas vəzifələrinə aid etmək olar. Qeyd etdiyimiz kimi, kənd təsərrüfatı ölkə əhalisinin əsas ərzaq təminatçısıdır. Lakin bu sektorda çox sahələrdən fərqli olaraq, bu sektorda həyata keçirilən geniş miqyaslı yeniliklər hər zaman pozitiv nəticələrlə müşahidə edilməyə bilir,yəni, kənd təsərrüfatında həyata keçirilən aqrotexniki tədbirlərlə məhsuldarlıq arasında birbaşa funksional bağlılıq olmur. Həmçinin,onu da demək olar ki, hətta bu günün özündə, dövlət aqrar siyasətinin həyata keçirilməsində kəndlərə və bütövlükdə kəndlilərə münasibətdə doğru olmayan yanaşmalar da mövcuddur.

Bu şərtlər və kənd təsərrüfatı məhsullarının istehsalının təbii çətinlikləri səbəbindən,əhalinin ərzaq və həyati vacib istehlak malları ilə təminatının davamlı inkişaf problemi həm ölkə, həm də ayrı-ayrı regionlar üçün çox aktual olaraq qalır.

Ölkə miqyasında son dərəcə aktual hesab edilən bu problemin həlli üçün aqrar və sənaye sahələrinin birlik modeli olan və bu sahələrin bir-sıra mühüm cəhətlərini özündə birləşdirən emal sənayesinin, o cümlədən, aqrar-sənaye komplekslərin inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən sayılır. Bu istiqamət üzrə dövlətin əsas hədəfi emal sənayesi və ASK müəssisələrinin investisiya-innovasiya cəlbediciliyinin və nəticə etibarı ilə onların istehsal imkanlarının artırılmasıdır.

Bu məqsədə çatmaq üçün, ilk növbədə, emal sənayesinin inkişafının olkənin daxili bazarı və əhalinin artan təlabatının həcminə, həmçinin, müasir dövrün artan tələblərinə uyğun təmin olunmalı və ölkənin iqtisadi inkişafı ilə adekvat səviyyədə ixrac yönümlü və rəqabətqabiliyyətli məhsul istehsalının mümkün həcminin düzgün dəyərləndirilməsi həyata keçirilməlidir.[2]

Ümumiyyətlə, digər iqtisadiyyat sahələrində olduğu kimi, emal sənayesində də,innovasiya fəaliyyəti - innovasiya layihələrin həyata keçirilməsinə, habelə yenilikçi infrastrukturun və təhlükəsizliyin yaradılmasına yönəlmiş fəaliyyətləri(elmi, texnoloji, təşkilati, maliyyə və kommersiya daxil olmaqla) özündə birləşdirir. Texnoloji yenilik, bazara çıxarılmış olan yeni və ya təkmilləşdirilmiş məhsul yaxud xidmət şəklində yeniliyin son nəticəsidir, yeni və ya təkmilləşdirilmiş bir proses və ya istehsal (transfer) metodudur. Texnoloji yeniliklər eyni təşkilat tərəfindən inkişaf etdirilə bilər, investisiya şəklində alına və ya başqa bir qurumdan borc olaraq icarəyə götürülə bilər. ASK-ların emal sənaeyesindəki müstəsna rolu, xüsusilə, əhalinin keyfiyyətli qida məhsulları ilə təminatında daha üstün çəkiyə malik olur. Məhz, bu baxımdan emal sənayesinin inkişafında ASK-in investisiya-innovasiya cəlbediciliyi mühüm əhəmiyyət daşıyır və əlbəttə ki, bu istiqamətdə dövlətin müstəsna rolu xüsusi qeyd edilməlidir. Yəni dövlət həm daxili bazarı keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək, həm də, ölkəyə daha böyük həcmdə valyuta cəlb etmək üçün ixrac yönlü,eləcə də, əhalinin daha çox istehlak etdiyi məhsulların istehsalında xüsusi maraqlı olmalıdır.

Real baxdıqda, həm aqrar sektor, həm də emal sənayesi üçün investisiya cəlbediciliiyi yalnız iqtisadi kateqoriya sayıla bilməz. Bu həm də sosial-iqtisadi kateqoriya sayılmalıdır.Çünki, həm kənd təsərrüfatı

coğrafiyasında, həm də onunla bağlı olaraq emal sektorunda meydana çıxan bir sıra problemləri ciddi kapital yatırımları olmadan həll etmək asan deyil. Bəzi ekspertlər kənd təsərrüfatının qeyri-dövlət sərmayəçiləri üçün daha az cəlbedici sahə olduğunu hesab edirlər. Onlar hesab edirlər ki, aqro-sənaye kompleksinə qoyulan investisiyalar ehtiyaclara görə son dərəcə qeyri-mütənasib şəkildə böyüyür ki, bu da istehsalın riskli olması və investorlar üçün nəzərəçarpan güzəştlərin olmaması ilə əlaqəlidir [3].

Araşdırmalar göstərir ki, iqtisadiyyatın, o cümlədən, emal sənayesinin investisiya mənbələri içərisində dövlət maliyyələşdirilməsi ilə yanaşı özünümaliyyələşdirmə də üstün çəkiyə malikdir. Yəni azad bazarın prinsiplərinə uyğun olaraq zaman keçdikcə iqtisadi proseslərin davamlı və dayanıqlı xarakter almasında dövlətin rolu azalır, dövlət büdcəsindən müəssisələrin inkişafı ilə bağlı maliyyələşmə səviyyəsi azalır. Yalnız bu prosesdə dövlətin vergi, ssuda, amortizasiya və s. iqtisadi alətlərin vasitəsilə dəstəyi arzu edilən hesab edilir. Müəssisələr üçün, xüsusilə, ASK üçün əhəmiyyətli və əsas investisiya mənbəyi kimi şəxsi vəsaitləri,ilk növbədə, mənfəətləri çıxış edir. Mənfəətin investisiya qərarlarının qəbulundakı rolu,xeyli dərəcədə, onun növündən aslıdır. İlk növbdə, qısamüddətli gözlənilən mənfəətdən investisiya olaraq istifadə edilməsi daha məqbul hesab edilir ki, bu da tez bir zamanda investisiyalanmanı həyata keçirməyə yardım etmiş olur. Yəni bu məqam üçün deyə bilərik ki, mənfəət-investisiyaların yönəldiyi obyektlər üzrə səmərəlliliyin nəticəsi, investisiya qərarları üçün isə əsas olaraq dəyərləndirilir.

Müəssisələrinin, innovasiya fəallığı onun potensial bazar imkanları və investorlar üçün cəlbediciliyi ilə müəyyən edildiyi halda, onların mənfəət artımı yeni və rəqabətqabiliyyətli məhsul istehsalı, yeni və daha münasib xammal təminatı, yeni bazarların araşdırılaraq məyyən edilməsi ilə birbaşa əlaqəlidir. İnkişaf etmiş ölkələrdə investisiya fəaliyyəti bazar şərtlərinin imkanları, eləcə də, investisiyaların mənbələri və həcmindən xeyli dərəcədə aslıdır[4].

Ölkə əhalisinin artan istehlak tələbatını təmin etmək məqsədilə, son dövrlərdə, emal sənayesini daha da inkişaf etdirmək üçün bu sahəyə yönəldilmiş kapital qoyuluşu, cəlb edilmiş investisiyalar, istehsal edilmiş məhsulun səviyyəsi, fəaliyyət növləri,innovasiyaların tipləri və maliyyə mənbələri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, habelə, bu müəssisələrdə investisiya-innovasiya fəaliyyətinə mane olan bəzi amillərin dəyərləndirilməsi vacibdir.

Beləliklə, ilk olaraq, son 7 ildə sənayedə əsas kapitala yönəldilmiş investisiyaların və innovasiyalara ayrılmış vəsaitlərin həcminə diqqət edək.

**Cədvəl 1. Sənayedə əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manat.**

| Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **10610.1** | **8497.2** | **9258.0** | **9065.3** | **7507.3** | **7172.1** | **8405.7** |
| **Mədənçıxarma sənayesi** | **8428.9** | **5702.3** | **5670.5** | **5613.8** | **4817.1** | **4983.8** | **6135.5** |
| **Emal sənayesi** | **652.6** | **1431.9** | **2466.4** | **2610.5** | **2018.0** | **1202.2** | **916.8** |
| **xarici investisiyalar** | **32.0** | **5.6** | **798.0** | **19.9** | **13.0** | **52.9** | **-** |
| **daxili investisiyalar** | **620.6** | **1406.3** | **1668.4** | **2590.6** | **2005.0** | **1149.3** | **916.8** |
| Qida məhsullarının istehsalı | 125.5 | 196.6 | 140.4 | 225.1 | 197.8 | 206.5 | 132.2 |
| xarici investisiyalar | 32.0 | 16.5 | 13.0 | 18.8 | - | - | - |
| daxili investisiyalar | 93.5 | 180.1 | 127.4 | 206.3 | 197.8 | 206.5 | 132.2 |
| İçki istehsalı | 26.9 | 39.3 | 21.3 | 39.4 | 39.1 | 45.4 | 16.7 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| xarici investisiyalar | - | - | - | - | - | 3.7 | - |
| daxili investisiyalar | 26.9 | 39.3 | 21.3 | 39.4 | 39.1 | 41.7 | 16.7 |
| Tütün məmulatlarının istehsalı | 0.4 | 60.7 | 35.1 | 4.3 | 2.2 | 1.1 | 2.6 |
| daxili investisiyalar | 0.4 | 60.7 | 35.1 | 4.3 | 2.2 | 1.1 | 2.6 |
| Toxuculuq sənayesi | 5.9 | 42.9 | 88.3 | 15.4 | 25.3 | 23.3 | 26.0 |
| daxili investisiyalar | 5.9 | 42.9 | 88.3 | 15.4 | 25.3 | 23.3 | 26.0 |
| Geyim istehsalı | 15.3 | 23.7 | 20.0 | 26.5 | 26.9 | 25.5 | 0.8 |
| daxili investisiyalar | 15.3 | 23.7 | 20.0 | 26.5 | 26.9 | 25.5 | 0.8 |

Dövlət Statistika Komitəsinin Cədvəl 1-də verilən rəsmi rəqəmlərindən məlum olur ki, son 7 ildə sənayeyə yönəldilmiş investisiyaların əhəmiyyətli hissəsi mədənçıxarma sektoruna xərclənmişdir. Məslən, son 3 ildə (2021,2022,2023) sənayeyə yönəldilmiş investisiyalarda bu sektora ayrılmış investisiyaların xüsusi çəkisi müvafiq olaraq 64,2%, 69,4%, 73,0% olduğu halda, emal sənayesi üzrə bu rəqəmlər 26,9%, 16,8% və 10,9% olmuşdur.

Rəsmi rəqəm və hesablamalardan görünür ki, emal sənayesinə ayrılmış investisiyaların həcminin mədənçıxarma sektoruna ayrılmış vəsaitlərə nisbətən əhəmiyyətli dərəcədə az olması ilə yanaşı, onların xüsusi çəkisində də ciddi azalmalar müşahidə olunmuşdur. Yəni, onu deyə bilərik ki, son illər emal sənayesinin ümumi iqtisadiyyatda, o cümlədən, sənayedəki prioritetliyi azalmışdır.

Həqiqətən son 7 ilin məlumatlarından görsənir ki, emal sənayesinə yönəldilmiş investisiyaların dinamikasında 2020-ci ilə qədər ardıcıl artımlar müşahidə edilsə də,2020-ci ildən sonra ciddi azalmalar baş vermişdir. Emal sənayesinə ayrılmış investisiyaların həcmində baş verən bu kəskin dəyişiklik Şəkil 1-də özünü daha aydın şəkildə göstərmişdir.




**Şəkil 1.Emal səanyesinə yönəldilmiş ümumi investisiyaların dinamikası.**

Onu da qeyd edək ki, Cədvəl 1-dən görünür ki, emal sənayesinə yönəldilmiş investisiyalarda daxili investisiyaların payı yüksəkdir, yəni dominant üstnlüyə malikdir. Əlbəttə, normal iqtisadi proseslər baxımdan götürsək bu nəticə qənaətbəxs hesab oluna bilər. Lakin, daxili bazarın keyfiyyətli ərzaq və gündəlik malları ilə yetərli səviyyədə təmin olmadığı hal üçün ölkənin emal sektoru, xüsusilə, ASK

müəssisələrinin investisiya-innovasiya cəlbediciliyinin artırılması üçün dövlət gərəkən tədbirlət həyata keçirməli, həm daxili, həm də xarici investisiyaların daha böyük həcmdə və artan dinamika ilə bu sahəyə yönəldilməsini stimullaşdırmalıdır.

Aparılmış araşdırmalar həm də onu göstərir ki, bütövlükdə iqtisadiyyata, o cümlədən emal sənayesinə yönəldilmiş investisiyalar nə qədər innovasiya ağırlıqlı olarsa səmərəllilik bir o qədər yüksək olar, məhsuldarlıq həm keyfiyyət,həm də kəmiyyət baxımdan ciddi şəkildə artar və nəticə etibarı ilə, rəqabətqabiliyyətli məhsul istehsalına daha tez nail olunar. Çədvəl 2-nin rəqəmlərinə baxdıqda ölkəmizdə 2017-2019-ci illər üzrə emal sənayesinə yönəldilmiş innovasiyalara çəkilən xərclərin həcmində,əsasən artım müşaidə edilsə də, növbəti illərdə yenidən azalmalar qeydə alınmış və bu rəqəm 2023-cu ildə 2019-cu ilin səviyyəsi(47,7 milyon manat)ilə müqayisədə 23,3% (11,8 mln.manat) səviyyəsinə enmişdir. Əlbəttə, bu rəqəmin 2019-cu ilin faktiki səviyyəsi ilə müqayisədə az olduğuna baxmayaraq, 2023-cü ilin ümumi sənaye üzrə texnoloji innovasiyalara ayrılmış xərclərdəki payı yüksək olmuşdur.Belə ki, 2023-cü ildə emal sənayesinə yönəldilmiş texnoloji innovasiya xərcləri bütün sənaye üzrə müvafiq xərclərin 92.3%-ni təşkil etmişdir.

Ümumiyyətlə,onu deyə bilərik emal sənayesi və bütün sənaye üzrə yönəldilmiş texnoloji innovasiya xərcləri arasındakı nisbət(xüsusi çəki) araşdırmanın aparıldığı son yeddi ildə mədənçıxarma sahəsi ilə müqayisədə emal sənayesinin xeyrinə yüksək olmuşdur. Belə ki, 2017-ci ildə emal sənayesinə yönəldilmiş texnoloji innovasiya xərcləri bütün sənayeyə ayrılmış eyni adlı xərclərdəki payı xeyli yüksək-99,8 %, 2018-ci ildə 96% təşkil etmiş, qalan digər illərdə isə oxşar mənzərə az fərqlə gözlənilmişdir.Bu isə son illərdə emal sənayesinə innovasiya yönlü xərclərin qoyuluşunun prioritet təşkil etdiyini göstərmiş olur.

**Cədvəl 2. Fəaliyyət növləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **16135.7** | **34353.6** | **48037.1** | **35919.8** | **5848.3** | **22540.4** |
| **ondan müəssisələrin öz vəsaiti hesabına** | **16076.0** | **34278.0** | **47319.7** | **17631.9** | **4807.1** | **184.8** |
| **Mədənçıxarma sənayesi** | **31.7** | **1386.0** | **378.6** | **1001.1** | **529.8** | **19.3** |
| **ondan müəssisələrin öz vəsaiti hesabına** | **31.7** | **1386.0** | **320.2** | **626.2** | **10.5** | **13.6** |
| **Emal sənayesi** | **16104.0** | **32967.6** | **47658.5** | **34918.7** | **5318.5** | **22521.1** |
| **ondan müəssisələrin öz vəsaiti hesabına** | **16044.3** | **32892.0** | **46999.5** | **17005.7** | **4796.6** | **171.2** |
| qida məhsullarının istehsalı | 81.5 | 338.0 | 208.7 | 8667.0 | 98.1 | 195.1 |
| ondan müəssisələrin öz vəsaiti hesabına | 81.5 | 338.0 | 208.7 | - | 96.6 | 127.2 |
| içki istehsalı | 151.0 | - | 642.0 | - | - | 1754.0 |
| ondan müəssisələrin öz vəsaiti hesabına | 151.0 | - | - | - | - | - |
| tütün məmulatlarının istehsalı | - | - | 26994.1 | - | - | - |
| ondan müəssisələrin öz vəsaiti hesabına | - | - | 26994.1 | - | - | - |

Statistika komitəsinin məlumatlarından həm də o aydın olur ki, son illər ərzində emal sənayesinə yönəldilmiş innovasiyalrın əhəmiyyətli hissəsi bu sahənin təmsilçilərinin öz vəsaitləri hesabına maliyələşdirilmişdir. Şəkil 2-dən göründüyü kimi,2017-ci ildən 2019-cu ilədək emal müəssisələrin öz vəsaitləri hesabına həyata keçirdikləri maliyyələşdirmənin cəmi innovasiya xərclərindəki xüsusi çəkisi 90 %-dən yuxarı olduğu halda 2020-ci ildən başlayaraq bəzi istisnalar olmaq şərtilə bu tendensiya kəskin dəyişmişdir. Belə ki, bu göstərici 2022-ci ildə 0,8%, 2023-cü ildə isə 6.3% olmuşdur. Yəni,hesablanmış rəqəmlərdən görünür ki, son illər, digər mənbələr üzrə maliyyələşdirmə müəssələrin öz hesabına maliyyələşməsinin kəskin üstələmişdir. Bu fakt isə, hesabat dövründə emal sənayesinin investisiya-innovasiya fəallağının, cəlbediciliyinin tədricən yüksəldiyini göstərmiş olur.

Əlbəttə ki, iqtisadiyyatın investisiyalaşdırılması prosesində səmərəlilik və davamlılığı təmin etmək üçün maliyyələşdirilmənin müəssisələrin öz vəsaitləri hesabına həyata keçirilməsi daha məqsədəuyğundur. Lakin dövlət öz əhalisinin etibarlı ərzaq təminatı və qida təhlükəsizliyi, habelə,yerli istehsal hesabına digər zəruri istehlak malları ilə də təmin olunmasını hədəfləyirsə, bu halda emal sənayesinə xüsusi diqqət göstərməli və bu məqsədlə dövlət büdcəsindən, digər büdcədən kənar fondlardan, habelə, xarici mənbələrdən də emal müəssisələrinin investisiyalaşdırılmasına yardım etməlidir.

Emal müəssilərinin investisiya-innovasiya fəaliyyətinin səmərəliliyi daha çox cəlb edilmiş innovasiyaların tətbiqi istiqaməti ilə bağlıdır. Texnoloji innovasiyalar tətbiqi istiqamətləri üzrə daha çox aşağıdakı istiqamətlər üzrə təsnifatlaşdırılır: yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi, texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması, yeni texnologiyaların alınması, proqram vəsaitlərinin alınması, yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi, innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı və s. Əlbəttə ki, innovasiyaların qeyd olunan bu tətbiq istiqamətlərinin seçilməsi bazarın tələb və təklifinə uyğun olaraq emal müəssisələri, o cümlədən ASK-in həmin andakı mövcud vəziyyəti, bazarı əhalinin, daha dəqiq desək, istehlakşıların müasir dövrün tələblərinə adekvat olaraq seçməli, həmçinin, dövlətin ixrac potensialının strateji hədəflərinə uyğun olaraq məyyənləşdirilməlidir.

Cədvəl 3-də Son yeddi ildə Azərbaycanın emal sənayesinə yönəldilmiş innovasiyaların tətbiqi istiqamətləri üzrə quruluş tərkibi və uyğun olaraq xərclərin səviyyəsi təqdim edilmişdir.

**Cədvəl 2. Tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclər, min manat**

| Göstəricilər | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|
| **Emal sənayesi** | **16104.0** | **32967.6** | **47658.5** | **34918.7** | **5318.5** | **22521.1** | **11084.1** |
| yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi | 7879.1 | 11119.0 | 9600.0 | 7000.0 | 3262.1 | 3462.4 | |
| texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması | 501.9 | 3899.2 | 32070.0 | 14666.5 | 330.3 | 1855.5 | 1619.7 |
| yeni texnologiyaların alınması | 158.7 | 185.2 | 71.5 | 1754.5 | 38.6 | 16078.0 | 1391.9 |
| proqram vəsaitlərinin alınması | 685.3 | 402.7 | 5.0 | 8497.7 | 61.5 | 923.7 | 214.9 |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi | 5300.0 | 6200.0 | 5900.0 | 3000.0 | 1500.0 | 1.5 | 201.7 |
| innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı | - | - | 12.0 | - | - | 200.0 | 1.0 |
| yeni marketinq tədqiqatları | 151.0 | - | - | - | - | - | - |
| elmi-tədqiqatı və işləmələr | 12.5 | 9944.5 | - | - | - | - | |
| kənar təşkilatların xidmətlərinin ödənilməsinə çəkilən xərclər | 0.5 | 1.0 | - | - | 126.0 | - | |
| texnoloji innovasiyalara çəkilən digər xərclər | 1415.0 | 1216.0 | - | - | - | - | |

Cədvəl 3-dən o məlum olur ki, bu illər üzrə texnoloji innovasiyalara yönəldilmiş xərclərdə ən cox paya malik olan istiqamətlər yeni məhsulların, xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi, texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması, eləcə də, yeni məhsulların buraxılışı üçün istehsal layihələşdirilməsi, digər istehsala hazırlıq növləri və ya onların istehsalı üzrə yeni xidmətlərin və ya metodların tətbiqi istiqamətləridir.Cədvəldən məlum olur ki, son 7 ildə texnoloji innovasiyalara çəkilən xərclərin ən yüksək həddi 2019-cu ildə müşahidə edilib. 2019-cu ildə bu istiqamətlərə yönəldilmiş innovasiya vəsaitlərinin ümumi innovasiya xərclərindəki payı, müvafiq olaraq, 20,1 %, 67,29% və 8,7 % , üst-üstə 96,1 % olmuşdur[5]. Lakin sonrakı illərdə isə ümumən texnoloji innovasiyalara çəkilən xərclərin mütləq həcmindəki dinamika azalan istiqamətdə olmuş və 2023-cü ildə bu rəqəm 11,1 milyon səviyyəsində olmuşdur ki, bu da 2019-cu ilin səviyyəsi ilə müqayisədə 23.3% təşkil etmişdir.

Bu isə onu göstərir ki, son illər emal sənayesi üzrə yeni sahələrin açılması, infrastrukturların və yenilikçi təşəbbüslərin genişləndirilməsi istiqamətində həyata keçirilən işlər bir o qədər nəzərəçarpan səviyyədə deyil.

Bir məqamı da qeyd edək ki, texnoloji innovasilara çəkilən xərclər içərisində ən yüksək çəkiyə malik olan 2 istiqamət- yeni məhsulların, xidmətlərin, yeni məhsulların,xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi, həmçinin, texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması üzrə xərclərin son 5 il üzrə Şəkil 2-də təsvir edilən dağılım qrafikinə nəzər salanda maraqlı mənzərənin şahidi olarıq. Belə ki, son 5 illiyin ilk iki ilində(2019 və 2020-ci illər) yüksək çəkiyə malik olan birinci istiqamət üzrə xərc elementi(yeni məhsulların,xidmətlərin, yeni proseslərin tətbiqi və işlənməsi, həmçinin, texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması üzrə xərclərin) sonraki illərdə kəskin azalmışdır. Lakin ikinci istiqamət- texnoloji innovasiyalar ilə əlaqədar maşın və avadanlığın alınması üzrə xərclərin illər üzrə paylanması üzrə variasiya daha aşağı olmuşdur.




**Şəkil 2. Bəzi tətbiqi istiqamətləri üzrə texnoloji innovasiyalara çəkilən xərclərin dağılım qrafiki (min manat)**

Yeri gəlmişkən, onu da qeyd etmək lazımdır ki, texnoloji innovasiyalar üzrə xərclərin 2022-ci il üzrə struktur qurluşunda ən çox çəkiyə malik istiqamət yeni texnologiyaların alınması olmuşdur. Belə ki, 2022-ci ildə bu istiqamət üzrə xərc(16,078 mln.) cəmi xərclərin 71,4%-nə bərabər olmuşdur ki, bu da texnoloji innovasiyaların tətbiqi məqsədləri baxımından müsbət hal olaraq qəbul edilməlidir.

Ümumiyyətlə, müasir dövrdə insanların günü-gündən artan tələb və istəklərinə cevik və adekvat reaksiya vermək gücündə olan innovasiyalı iqtisadiyatın qarşısında duran əsas vəzifə rəqabətqabiliyyətli, aşağı əmək tutumlu məhsul istehsal etmək, ölkənin ixrac potensialını gücləndirmək və daxili bazara daha çox investisiya, valyuta cəlb etməkdir. Bu şəraitdə,əlbəttə ki, innovasiyaların strukturunda digər istiqamətlər üzrə xərclər də əhəmiyyətli çəkiyə malik olmalıdır. Bura, ilk növbədə, innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı, marketinq tədqiqatları, habelə, elmi-tədqiqt və işləmələr üzrə xərcləri aid edə bilərik.

Cədvəl məlumatlarından görünür ki, bu istiqamətlər üzrə ayrılan innovasiya xərclərinin ümumi innovasiya xərclərindəki cəmi payı olduqca cüzi olmuşdur.Məsələn, son iki il-2022 və 2023-cü illərdə innovasiya ilə əlaqədar işçilərin öyrədilməsi və hazırlığı, marketinq tədqiqatları, habelə, elmi-tədqiqt və işləmələr üzrə xərclər emal sənayesi üzrə ayrılmış cəmi texnoloji xərclərin 1.2%-nə bərabər olmuşdur. Bu rəqəm isə, indiki bilik əsaslı iqtisadiyyat şərtləri və tələblərinə heç də adekvat deyil.

Aparılan araşdırmalardan çıxan nəticələr olaraq deyə bilərik ki, emal sənayesinin, o cümlədən, aqrar-sənaye komleks müəssələrin inkişafı ölkənin sosial-iqtisadi inkişaf strategiyasının ən mühüm istiqamətlərindən biri olaraq qəbul edilməlidir. Bu sektorun inkişafı, ilk növbədə,əhalinin sağlıqlı və keyfiyyətli ərzaq məhsulları ilə təminatını,habelə,digər gündəlik təlabatlarının ödənilməsində zəruri olan mal və məhsullarla təminatını şərtləndirir. Emal sənayesinin inkişafı, paralel olaraq,birbaşa bağlı olduğu aqrar sektor və sənayenin inkişafını da şərtləndirir.

Emal sənayesinin inkişafını təmin etmək üçün bu sektorun investisiya-innovasiya cəlbediciliyinə nail olamaq üçün həm xarici , həm daxili, investisiyaların artan dinamikasına nail olmaq lazımdır. Yeni emal sənayesinin yaradılması zamanı region əhalisinin təlabatını və aqrar sahədəki tarixi

ənənələrini öyrənmək, həmçinin loqistika məsələlərini nəzərə almaq vacib məsələlərdən hesab edilməlidir.

Son illər emal sənayesinə cəlb edilmiş investisiyaların, digər sektorlardan, xüsusilə, mədənçıxarma sektoruna yönəldilmiş investisiyaları kəskin üstələməsi bu sahənin inkişafı baxımdan müsbət hal olaraq dəyərləndirilməlidir. Eyni zamanda, emal sənayesinə yönəldilmiş texnoloji innovasiya xərclərinin son illər üzrə həcmi qənaətbəxş deyil. Çünki, texnoloji innovasiya xərcləri, bu sahənin ümumi inkişafına mütanasib olaraq tətbiq edilən yeniliklərə uyğun artmalıdır. Yeniliklərin, innovasiyaların tətbiqi daimi və dinamik proses olduğu üçün ayrılmış texnoloji innovasiya xərcləri də bu tendensiyaya mütənasib olaraq dəyişməlidir. Bir məqamı da qeyd etmək zəruridir ki, texnoloji innovasiyalara ayrılan xərclər tətbiqi istiqamətlər üzrə bölgüsü rasional olmalı,xüsusilə, digər istiqamətlərlə yanaşı, işçilərin öyrədilməsi və hazırlığı, marketinq tədqiqatları, habelə, elmi-tədqiqt və işləmələr üzrə xərclərin emal sənayesi üzrə ayrılmış cəmi texnoloji xərclərdəki çəkisi əhəmiyyətli şəkildə artırılmalıdır.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1. Tağıyev A.H. Aslanzadə İ.A.,İnnovasiya menecmenti, dərs vəsaiti, II hissə,Bakı-2017
2. Hüseynli İ.Q.,” Aqrar-sənaye kompleks müəssisələrinin investisiya-innovasiya fəaliyyətlərinin bəzi məsələləri”, Tikintinin iqtisadiyyatı və menecment” ( Construction economycs and menecment ) 2020-ci il. № 4(13)
3. Hüseynli İ.Q., EMAL SƏNAYESİNİN İNKİŞAFINDA İNVESTİSİYA-İNNOVASİYA CƏLBEDİCİLİYİ AMİLİ,Komfrat/ Moldova-2021
4. Svitlana Gutkevych, INVESTMENT ATTRACTIVENESS OF INDUSTRIES: FEATURES AND TRENDS, Baltic Journal of Economic Studies , Vol. 5, No. 3, 2019
5. Н. М. Абдикеев, Ю. С. Богачев, С. Р. Бекулова , Инвестиционный потенциал обрабатывающей промышленности, журнал «Финансы: теория и практика», ISSN 2587-7089 (Online),
6. Маковеев В.Н., Факторный анализ и оценка развития инновационной деятельности в обрабатывающей промышленности,12(2016) 143-153
7. Санду И.С., Морозова Н.Б. Инновационное развитие АПК: экономические аспекты реализации инновационных проектов, “ИННОВАЦИОННОЕ РАЗВИТИЕ АПК: МЕХАНИЗМЫ И ПРИОРИТЕТЫ” Сборник материалов международной научно-практической конференции ,Moskva-2015
8. https://www.stat.gov.az/source/industry/


## İnsan kapitalının dövlətin sosial-iqtisadi inkişafına təsiri


**“İqtisadiyyat və statistika” kafedrasının**
**dosenti, i.f.d. Sevinc Rzayeva**

**Azərbaycan Texniki Universiteti**
**sevinc.rzayeva@aztu.edu.az**

**Giriş:**

Azərbaycan Respublikasının iqtisadiyyatının uğurlu inkişafı XXI əsrin tələblərinə uyğun təhsil sisteminin olmasını, yaradıcı və innovativ cəmiyyətin varlığını, məşğulluğun sosial-iqtisadi problemlərinin həllini tələb edir.

Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsində deyilir: "Hər bir vətəndaşın təhsil alma hüququ var." Təhsil alma müasir insanın əsas haqlarından biridir. Təhsil bəşəriyyətin inkişafı üçün vacib şərtlərdən sayılır. İnsanlara öz problemlərini həll etmək yollarını tapmağa kömək edir. Təhsil insanlara əmək bazarında daha uğurlu şərtlərlə iş axtarmağa şərait yaradır. İnsan kapitalı vətəndaşların öz potensiallarını reallaşdırmağa imkan verən, ömür boyu sərmayə qoyduqları və topladıqları bilik və bacarıqlarıdır. Ən adi ehtiyaclarımızdan qida, keyfiyyətli təhsil, sağlamlıq, təhlükəsizlik, işlə təmin olmaq, yoxsulluğa son qoymaq və sosial cəhətdən daha uyğun bir cəmiyyət qurmaq üçün vacib şərt insan kapitalının inkişafıdır.

Tədqiqatın mövzusunun məqsədi dünyada artan rəqabətə hazır olmaq üçün ölkədə insan kapitalınının formalaşmasına nail olmaq üçün mövcud vəziyyəti analiz etməkdən ibarətdir. Bunun üçün müasir təsil, innovasiyaları inkişaf etdirən şəraitin olması və insanların sağlamlığı əsas şərtdir:

- müasir təhsil sistemi;
- yaradıcı və innovativ cəmiyyət;
- sağlam həyat tərzi;

**Açar sözlər: İqtisadi inkişaf, insan kapitalı, fasiləsiz təhsil, innovasiya.**

**Summary:**

One of the main tasks facing socio-economic policy implemented in our country is to ensure that the results of the achieved economic development are directed to social development. The main goal of socio-economic development is to satisfy the material and moral needs of people, who are the real wealth of the people. As a result, people lead valuable and creative lives. The development of human life is a prerequisite for having important indicators such as a long and healthy life, having knowledge and providing the resources required for a decent life. This research work is about such a goal - ways to solve the problems affecting the formation of human capital and its development, as well as the role of continuous education in human life. The innovative economy requires the development of approaches to the field of human capital management, and requires the development of a new mechanism of human capital management in accordance with the modern requirements of the knowledge economy.

**Keywords: Economic development, human capital, continuous education, innovation.**

JEL kodu: E22; R42

***Müasir təhsil sistemi.***

İqtisadiyyatın elmi biliklərə söykənərək inkişaf etdirilməsi son onilliklərdəki qlobal dəyişikliklərin başlıca xüsusiyyətlərindən biridir. Əlbəttə ki, təhsil, ixtiralar, elmi biliklərin genişlənməsi bütün tarix boyu dünyanın tərəqqisinə xidmət edən mühüm amillər olmuşdur.

Bir çox ölkələrdə ömür boyu öyrənmə zərurət kimi qəbul olunur. Ömür boyu öyrənmə insanın bütün həyatı ərzində aldığı hər hansı təhsili və təlimi özündə əks etdirir: formal (təhsil müəssisəsində), qeyri-formal iş yerində və qeyri-formal ictimai həyatda. Dünya iqtisadiyyatında rəqabət gücünü artırmağa can atan ölkələr üçün ömür boyu öyrənmə imkanları get-gedə daha çox əhəmiyyət kəsb edir.

İnkişaf etmiş ölkələrdə fasiləsiz təhsil müxtəlif maarifləndirici, sosial və iqtisadi funksiyaları yerinə yetirməklə aşağıdakıları təmin edir: millətin insan kapitalının daim inkişaf etməsi; əhalinin təhsilə olan ehtiyacının ödənilməsi; işçilərin əmək bazarı və texnoloji şəraitin dəyişməkdə olan tələblərinə çevikliklə köklənməsi; iqtisadi və sosial sferanın innovasiyalı inkişafı üçün kadr potensialının yaradılması; işləyənlərin bir çoxunun müntəzəm olaraq təhsil sferasına cəlb edilməsi yolu ilə işsizliyin yüngülləşdirilməsi; maarifləndirici fəaliyyətin miqyaslarının kəskin şəkildə artırılması hesabına təhsil sisteminə əlavə vəsaitlərin kütləvi axını; yeni texnoloji və təşkilati mədəniyyətin formalaşması.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2004-cü ildə ali təhsil müəssisələrinin sayı 47 ikən, 2024-cü ildə bu say 51 olmuşdur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2024).

- Azərbaycanda ali təhsil alan tələbələrin sayı da son illərdə artmaqdadır. 2004-ci ildə 127248 tələbə olduğu halda, 2024-cü ildə bu say 231437 nəfərə çatmışdır. (ARDSK, 2024).
- Əhalinin hər 10000 nəfərinə tələbələrin sayı 2004-cü ildə 153 nəfər idisə, 2024-cü ildə bu rəqəm 227 nəfər olmuşdur. (ARDSK, 2024).
- 2021-ci ilin yanvar-avqust ayları arasında Azərbaycanın xarici ticarət dövriyyəsi 19,4 milyon dollar təşkil edib. 2024-cü ilin eyni dövründə bu rəqəm 30,9 milyon dollar olmuşdur. (Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi, 2024).

Fasiləsiz təhsil aşağıda göstərilən bütün sahələri əhatə etməlidir: məktəbəqədərki təhsil müəssisələri, əyani, axşam və qiyabi məktəblər, peşə-texniki təhsili üzrə müxtəlif məktəblər, əyani, axşam və qiyabi orta və ali ixtisas məktəbləri, magistratura, aspirantura, doktorantura, akademiyalar, institutlar, fakültələr və ixtisasın artırılması kursları, mühazirə kursları və əhalinin hər hansı bir sosial-demoqrafik və peşə qruplarına bilik və bacarıqların öyrədilməsi;

İnsan kapitalı dedikdə insanın özünü tam realizə etmək və cəmiyyətin imkanlarından tam istifadə etmək üçün öz biliyinin, bacarığının, əlaqələrinin, peşəkarlığının bi arada cəmləməsi başa düşülür. Bu sağlamlıq, təhsil, bilik, intellekt, keyfiyyətli əməklə bağlı həyat şəraitidir.

İnsan kapitalını inkişaf etdirmədən ölkədə davamlı, inklüziv iqtisadi artıma nail olmaq, gələcəkdə ixtisalı iş yerlərini doldurmaq, hazır işçi qüvvəsinin inkişaf etdirə bilmək kimi problemlərin həlli çətinlik törədər. Prezident İlham Əliyev ölkəmizə rəhbərliyinin ilk illərindən Azərbaycanın mövcud təbii resurslarının insan kapitalına çevrilməsi zərurətini əsas prioritetlərdən biri kimi irəli sürüb. Prezident çıxışında qeyd edib : " Biz öz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı və bilikləri onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir. Neft, qaz Allahın bizə bəxş etdiyi sərvətdir. Biz uğurla və bacarıqla ondan istifadə edirik. Lakin gec-tez bu təbii ehtiyatlar tükənəcəkdir, o zaman ölkəmizin gələcəkdə uzun dövr ərzində sabit inkişafını bilik və ağıl təmin edə bilər. İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər saldıqda görünür ki, bu ölkələrin inkişafında başlıca rolu neft, qaz deyil, elmi-texniki tərəqqi, yeni texnologiyalar oynayır." Müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir.

Əmək bazarında tələb olunan bacarıqların səviyyəsi durmadan dəyişir. Bu müasir dövrdə elmi-texniki tərəqqinin inkişafı, yeni texnika və innovasiyaların yenilənməsi ilə əlaqədardır. Belə ki, hər bir ölkənin davamlı iqtisadi yüksəlişinin təmin edilməsi ilk növbədə həmin ölkədə elmin və təhsilin müasir tələblərə uyğun inkişaf etdirilməsidir.

Əmək bazarında iş qüvvəsinə tələb və təklif arasında tarazlığın yaranması üçün dövlət bir sıra tədbirlər həyata keçirə bilər. İş qüvvəsinə olan tələbin formalaşması iş axtaran işçilərin marağı və təklifinə tabe olmalıdır. İş qüvvəsinə olan tələbin formalaşması üçün dövlət bir neçə əsas istiqamətdə təsir göstərə bilər:

– sahibkarlığın inkişafına yardım; eləcə də kiçik biznesin stimullaşdırılmasına kömək;
– fəaliyyət göstərən müəssisələrdə iş yerlərinin qorunub saxlanması və modernləşdirilməsi;
– ictimai işlərin təşkili;
– sosial müdafiə ehtiyacları olan insanlar üçün iş yerlərinin yaradılması;

İş qüvvəsinin təklifinin formalaşması müəssisənin rəqabətə davamlılığını və gəlirliyini əldə etməyə çalışan işə götürənlərin maraq dairəsindədir. İş qüvvəsinin təklifinin formalaşması bir neçə istiqamətdə aparıla bilər:

– işçilərin təhsil və yenidən təhsil alması;
– özünü məşğulluğun inkişafı;
– iş vaxtının davamlılığının tənzimlənməsi;
– miqrasiya proseslərinin tənzimlənməsi;

Məşğulluğun yüksəldilməsi və işsizliyin azaldılmasında mühüm əhəmiyyəti olan məsələlərdən biri də sahibkarlığın inkişaf etdirilməsi, orta və kiçik biznesin genişləndirilməsi yolu ilə yeni iş yerlərinin yaradılmasından ibarətdir. İnkişaf etmiş ölkələrdə kiçik müəssisələrin inkişafı əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində və işlə təmin edilməsində mühüm rol oynayır. Kiçik və orta biznesin inkişafı asudə vaxtlarında sahibkarlıqla məşğul olmaq arzusunda olan tələbələr üçün iş yerləri ilə təmin olunması deməkdir.

Təhsil sistemi ilə əmək bazarı arasında əlaqələndirici mexanizmin yaradılmasına xüsusilə böyük ehtiyac duyulur. Bu problem təcrübə və internatura proqramlarının yaradılması vasitəsilə həll edilməlidir. Bu proqramlar gələcək diplomlu mütəxəssislərə müasir əmək bazarında zəruri bilik və iş təcrübəsi əldə etmək imkanı verməlidir. Təhsil müəssisələrində istifadə olunan tədris planı, dərsliklər, metodoloji materiallar əmək bazarının hazırkı tələblərinə uyğun olaraq dəyişdirilməlidir. O cümlədən nəzərə alınmalıdır ki, hal-hazırda məşğulluq özəl sektorda, xidmət sferasında, kənd təsərrüfatında təsərrüfatında üstünlük təşkil edir və qeyri-tipik, mövsümi və kontrakt əsaslı iş növlərinin çoxluğu ilə xarakterizə olunur. Faktların yadda saxlanılmasına köklənən təhsildən, alınan biliklərin təcrübədə istifadəsinə keçilməsinə çalışılmalıdır. Bundan başqa əmək bazarı daim və hərtərəfli müşahidə edilməlidir ki, onun tələbatları müəyyən edilsin və bunun əsasında yeni və modifikasiya olunmuş uyğun tədris proqramları yaradılsın.

Təhsil alma müasir insanın əsas hüquqlarından biridir və bir çox ölkələrdə ömür boyu öyrənmə zərurət kimi qəbul olunur. Bununla yanaşı ali təhsilin inkişafına hələ də mane olan bir sıra problemlər mövcuddur: bəzi hallarda kadr hazırlığı əmək bazarının tələbatı ilə uzlaşmır, kadr potensialı ixtisas səviyyəsi müasir tələblərə cavab vermir, elektron kitabxana və dərsliklər üzrə işlər ağır gedir.

Bununla yanaşı ixtisasların yeni siyahısının təsdiqi ali məktəblər qarşısında ciddi vəzifələr qoyur. Belə ki, ali məktəblərdə kadrların hazırlanması sistemində, yeni standartların hazırlanmasında, kafedraların sayının optimallaşdırılmasında, bəzi fakültələrin birləşdirilməsi və ya bağlanması, məktəblərdə strukturun dəyişdirilməsi və onların idarə edilməsində uyğun dəyişikliklərin aparılması

üzrə sistematik olaraq işlərin aparılması tələb olunur. Bu siyahının təsdiq edilməsi ilə ayrı-ayrı ixtisaslar üzrə yeni dövlət standartlarının işlənib hazırlanmasına ehtiyac yaranmışdır.

Son illər ölkəmizdə ali təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi və genişləndirilməsi üzrə böyük işlər görülmüş, tədris prosesinə yeni texnologiyanın tətbiqi üçün şərait yaradılmış, Avropa ali təhsil məkanına inteqrasiyaya təkan verən müəyyən tədbirlər görülmüş, təhsilin keyfiyyəti üzərində yeni nəzarət mexanizmlərinin tətbiqinə başlamış, müasir tələblər səviyyəsində normativ-hüquqi baza formalaşdırılmış, dövlət başçısının qərarına uyğun olaraq ali təhsil müəssisələrinin işçilərinin maaşları xeyli qaldırılmışdır. Bununla yanaşı ali təhsilin inkişafına hələ də mane olan bir sıra problemlər mövcuddur. Belə ki, ali məktəblərin idarə strukturunun təkmilləşdirilməsinə ehtiyac vardır, bəzi hallarda kadr hazırlığı strukturu əmək bazarının tələbatı ilə uzlaşmır, elmi-tədqiqat işlərinin tədris prosesi ilə inteqrasiyası zəifdir, mövcud maliyyələşdirmə sistemi qeyri-mükəmməldir, kadr potensialı və müəllimlərin ixtisasının artırılması müasir tələblərə cavab vermir, bir sıra ixtisaslar üzrə dərsliklərin çatışmadığı hallar mövcuddur, yeni pedaqoji texnologiyanın tədris prosesinə tətbiqi zəif gedir, ali məktəblərdə kadrların hazırlanması prosesində informasiya-rabitə texnologiyasından və interaktiv tədris metodlarından zəif istifadə olunur, bəzi ali məktəblərin maddi-texniki bazası (tədris və elmi-tədqiqat laboratoriyalarının təchizatı, tədris prosesinin lazımi cihazlarla və avadanlıqlarla təmin edilməsi) müasir tələblərə cavab vermir, elektron kitabxana və dərsliklər üzrə işlər ağır gedir, ali məktəblərlə kadr istehlakçıları arasında əlaqələr zəifdir və s. Ali təhsilin inkişafına müsbət təsir göstərəcək amillər aşağıdakı proseslər ola bilər:

- Ali təhsilin keyfiyyətinin təmin edilməsi;
- Ali təhsil sistemi üçün kadrların hazırlanması;
- Ali məktəblərdə müasir tələblər səviyyəsində elmi-tədqiqat işlərinin aparılması;
- Müasir tələblər baxımından ali təhsil müəssisələrinin idarəetmə strukturunun və bütövlükdə idarə sisteminin təkmilləşdirilməsi;
- Ali təhsilin məzmununun və tədris texnologiyalarının təkmilləşdirilməsi;
- Ali təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblər səviyyəsində qurulması;
- Ali məktəblərdə müasir tələblər səviyyəsində elmi-tədqiqat işlərinin aparılması;
- Ali təhsil iqtisadiyyatının yeni mexanizmlərinin yaradılması və tətbiqi.

***Yaradıcı və innovativ cəmiyyət***

Qlobal iqtisadiyyatın biliklərə əsaslanaraq formalaşması bütün dünyada təhsil prosesinin özünün də olduqca aktuallaşmasına səbəb olmuşdur. İqtisadi yüksəlişin və inkişafın mənbələri kimi yeni texnologiyaların tətbiqi ilə yanaşı ideyalar və nou-haular insanların necə təhsil almasına və ömür boyu öyrəndikləri bilikləri tətbiq etmələrinə güclü təsir göstərir.

İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir. İstehsalatda ETT-nin nəaliyyətləri innovasiyalar formasında yayılır. İnnovasiya proseslərin səmərəliliyinin artırılması və bazarın tələb etdiyi məhsulların keyfiyyətinin yüksəldilməsini təmin edən yenilikdir.

Müasir cəmiyyət çoxsaylı yeniliklərlə səciyyələnən dəyişikliklərə məruz qalır. Elmin, texnikanın sürətli inkişafı ilə yeniliklərin tətbiqi bütün sahələrdə olduğu kimi təhsildə də özünü göstərir. Bu isə təhsil müəssisələrində innovativ fəaliyyətin məzmununda və təşkilində dəyişikliklərin edilməsinə

zərurət yaradır. Təhsil davamlı inkişaf etdirilməli və yenilənməlidir. Bu baxımdan sadalanan amillər təhsilin inkişafına və yenilənməsinə müsbət təkan verə bilər:

- ölkənin iqtisadi inkişafında elmin rolunu artırmaq;
- elm və texnika sahəsində idarəetmə sistemini təkmilləşdirmək;
- elmin və təhsilin inteqrasiyasını təmin etmək;
- elmi-texniki infrastrukturu modernləşdirmək;
- innovasiya siyasətinin səmərəsini artırmaq;
- müasir texnologiyaların mənimsənilməsi;
- texnoparklar, texnoloji mərkəzlər, biznes inkubatorları şəbəkəsinin genişləndirilməsi;
- innovasiya fəaliyyətinə dövlətin maliyyə dəstəyi;
- istehsal və təhsil müəssisələri arasında əlaqələrin genişləndirilməsi;

Bolonya sisteminə uyğun olaraq ali təhsil müəssisələri dərs saatlarını öz istədikləri kimi təşkil etmək hüquqları var. Dərs saatlarının, imtahanların formatını universitetlər müstəqil müəyyən edir. Lakin bir çox universitetlər bu hüquqdan tam istifadə etmirlər. Bu bir sıra səbələrlə əlaqələndirilir. Ali təhsil ocaqları dərs saatlarının standart qrafiklərə uyğun keçirmələrini üstün tuturlar. Buna səbəb olaraq isə universitetlərdə tədrisin üç növbədə həyata keçirilməsi göstərilir. Dərs saatını səhər saat 09.00-dan 08.30-a keçirən universitetlər də vardır. Paytaxtda tıxac olduğuna görə səhər və axşam yollarda yüklənmə olur. Dərslər başqa saatlarda təşkil olunsa şəhərdə tıxac problemi də aradan qaldırılar. Bolonya sistemi ali təhsil müəssisələrində dərs saatları ilə bağlı səlahiyyətlər versədə, universitetlərin bu hüquqdan necə və nə dərəcədə istifadə etməsi hələ də müzakirə mövzusudur.

Ali təhsil müəssisələrində bəzi fənnlərin distant keçirilməsinin bir sıra üstünlükləri var. Əvvəla tələbə yola sərf etdiyi vaxtı daha səmərəli istifadə edə bilər. Bu vaxtın xarici dillər öyrənilməsinə və ya digər biliklərə yiyələnməsinə sərf edə bilər. Yola xərclədiyi gediş haqqı tələbənin cibində qala bilər. Yuxarıda qeyd etdiyimiz kimi, paytaxta tıxac probleminin olduğunu nəzərə alsaq, bəzi fənnlərin distant keçirilməsi də bu problemin qarşısını ala bilər.

Cəmiyyətin inkişafdan ləngiməməsi üçün insanlar təhsil almalıdırlar, iş qabiliyyətlərini inkişaf etdirməlidirlər. Təhsil ilə yoxsulluq riski arasında əlaqə vardır. Yəni təhsil səviyyəsi daha yüksək olduqda, peşəkarlığına tələbat artır, beynəlxalq əmək bazarında kadrların rəqabət qabiliyyətinin artırılması, iş qüvvəsinə olan tələblə təklif arasında keyfiyyət narazılığına nail olunması məqsədilə kadrlar hazırlanması və yenidən hazırlanması vacibliyini obyektiv zərurətə çevirir. Bu cəhətdən də təhsil proqramları məşğulluq proqramları ilə koordinasiyada işlənib hazırlanmalı və bütün təhsil növlərini əhatə etməlidir.

***Nəticə.***

Azərbaycanda fasiləsiz peşə təhsilinin infrastrukturunun orta müddətli perspektivdə inkişafını təmin etmək üçün aşağıda göstərilən tədbirlərin həyata keçirilməsi zəruridir:

bütün səviyyələrdə təhsilin keyfiyyətinin qiymətləndirilməsi üçün ümummilli sistemin yaradılması, o cümlədən ixtisasın artırılması, peşənin təkmilləşdirilməsi, peşə fəaliyyətinin forma və sahələrinin dəyişdirilməsini təmin edən müxtəlif təhsil proqramları üzrə;

- fasiləsiz peşə təhsili üzrə təhsil proqramlarını (ilk növbədə ixtisasın artırılması və kadrların təkmilləşdirilməsi üzrə) həyata keçirən təşkilatların sayının çoxaldılması, bu isə əsasən şirkətdaxili

tədris çərçivəsində müxtəlif əlavə peşə proqramlarını həyata keçirmək üçün resursları olan qeyri-təhsil təşkilatlarının bu sferaya cəlb olunması hesabına edilməlidir;

- işəgötürənlərin geniş nümayəndəliyinə malik olan ictimai-peşə təşkilatlarının inkişaf etdirilməsi, onların fəaliyyətinin aşağıdakı istiqamətlərə yönəldilməsi: əmək bazarının ehtiyaclarına uyğun olaraq mütəxəssislərin hazırlanması səviyyəsi üzrə ixtisaslaşdırma tələblərinin formalaşdırılması, yeni təhsil texnologiyalarının seçimi, eləcə də təhsil proqramlarının keyfiyyətinin qiymətləndirilməsi (attestasiya və akkreditləşdirilmə);
- fasiləsiz peşə təhsil proqramlarının qurulmasında təhsilin mobilliyinin yüksəlməsini, təhsil sisteminin elastiklik və çeviklik səviyyəsinin artmasını, onun əmək bazarının və təhsil alanların fərdi tələbatlarına oriyentasiyanı təmin etməyə imkan verəcəkdir;
Ekoloji dayanıqlıqla iqtisadi inkişafın əlaqəsi çox vacibdir. Dayanıqlı iqtisadiyyat, ekoloji resursların təbii sərhədlərinə hörmət edərək inkişaf etməlidir. "Yaşıl iqtisadiyyat" və "yaşıl texnologiya" sahələri, ətraf mühitə az təsir edən və enerji səmərəli metodlarla fəaliyyət göstərən iqtisadi modellərdir. Bu, həm təbii ehtiyatların qorunmasını təmin edir, həm də yeni iş yerləri yaradır. Ekoloji dayanıqlıq yalnız inkişaf etmiş ölkələr üçün deyil, həm də inkişaf etməkdə olan ölkələr üçün vacibdir. Bu ölkələr, dayanıqlı inkişaf prinsiplərini qəbul edərək iqtisadi artım və ətraf mühitin qorunması arasında tarazlıq qura bilərlər. Həmçinin, ekoloji dayanıqlıq, yerli iqtisadiyyatların gücləndirilməsi və gələcəkdəki resurs çatışmazlıqlarına qarşı qabaqlayıcı tədbirlər görmək baxımından mühüm əhəmiyyət kəsb edir ( Daly və Farley , 2011).

**Ekoloji dayanıqlığın təmin edilməsi üçün bir neçə əsas addım atılmalıdır:**

- **Qlobal Əməkdaşlıq:** Ekoloji məsələlər, sərhəd tanımır. İqlim dəyişikliyi, biyodiversity itkisi və çirklilik kimi məsələlər, beynəlxalq əməkdaşlıq tələb edir. Dövlətlər, beynəlxalq razılaşmalar və sazişlər vasitəsilə qlobal ekoloji problemlərin həllinə yönəlmiş tədbirlər görməlidirlər.
- **Texnoloji İnnovasiyalar:** Bərpa olunan enerji mənbələrindən istifadə, ekoloji təmiz istehsal texnologiyalarının inkişafı və tullantıların azaldılması üçün yeni texnologiyalar ekoloji dayanıqlığın təmin edilməsində mühüm rol oynayır.
- **Maarifləndirmə və İctimai Təşviq:** Ekoloji dayanıqlıq yalnız dövlət və müəssisələrin məsuliyyəti deyil, həm də hər bir fərdin məsuliyyətidir. İnsanları ekoloji problemlər və dayanıqlı həyat tərzi haqqında maarifləndirmək, daha çox davamlı istehlak vərdişlərinin yaranmasına kömək edir.

Ekoloji dayanıqlıq, təbii sərvətlərin və ekosistemlərin qorunmasını təmin edərək gələcək nəsillər üçün daha yaxşı həyat şəraiti yaratmağa xidmət edir. İnsan cəmiyyətləri və təbiət arasındakı qarşılıqlı əlaqənin davamlı olması üçün ekoloji dayanıqlı inkişaf prinsiplərinin qəbul edilməsi vacibdir. Bu, həm ətraf mühitin qorunmasına, həm də iqtisadi və sosial inkişafın dayanıqlı olmasına imkan verir. Ekoloji dayanıqlığın təmin edilməsi, qlobal miqyasda əməkdaşlıq, innovasiyalar və fərdi yanaşmaların birləşməsi ilə mümkün olacaq.

Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafı sahəsində mövcud olan bəzi problemlər də qeyd edilməlidir. Bu problemlər əsasən maliyyə, texnoloji və sosial məsələlərlə bağlıdır. Bərpa olunan enerji layihələrinin ilkin investisiya xərcləri yüksəkdir. Xarici investisiyaların cəlb edilməsi bu sahədə irəliləyişləri sürətləndirsə də, hələ də yerli maliyyə bazarının tam inkişaf etməməsi bəzi layihələrin həyata keçirilməsini çətinləşdirir. Texnoloji cəhətdən bəzi bərpa olunan enerji mənbələrinin tam inkişaf etdirilməsi hələ də çətinliklərlə üzləşir. Xüsusilə enerji saxlanılması texnologiyalarının inkişafı və bu sahədə infrastrukturun təkmilləşdirilməsi vacibdir. Azərbaycan cəmiyyətində bərpa olunan enerji mənbələrinin qəbulu məsələsi də vacibdir. Xüsusən də kənd ərazilərində əhalinin məlumatlandırılması və bu sahədə maarifləndirici tədbirlərin həyata keçirilməsi bərpa olunan enerji texnologiyalarının geniş tətbiqini təşviq edə bilər.

Nəticə

Bərpa olunan enerji mənbələri və ekoloji dayanıqlıq mövzusu müasir dünyada ən aktual məsələlərdən biridir. Bu mənbələrin inkişafı, iqlim dəyişikliyi, ekosistemlərin qorunması və təbii resursların davamlı istifadəsi baxımından qlobal əhəmiyyət daşıyır. Lakin bərpa olunan enerji mənbələrinin geniş miqyaslı tətbiqi üçün texnoloji, iqtisadi və sosial problemlərin həlli vacibdir. Bu sahədə həm dövlətlərin, həm də beynəlxalq təşkilatların rolu böyükdür və gələcəkdə bərpa olunan enerji mənbələrinin tətbiqi prosesinin

daha da sürətlənməsi gözlənilir. Ekoloji dayanıqlıq, gələcək nəsillər üçün təbii sərvətlərin qorunması və ətraf mühitin bərpası baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın bərpa olunan enerji potensialı böyükdür və bu sahədə atılan addımlar ekoloji dayanıqlığın təmin olunmasına, iqlim dəyişikliyi ilə mübarizəyə və enerji təhlükəsizliyinə töhfə verir. Ölkənin coğrafi və təbii imkanları bərpa olunan enerji mənbələrinin geniş inkişafı üçün əlverişlidir, lakin bu sahədə mövcud olan maliyyə, texnoloji və sosial problemlərin həlli üçün daha çox işlər görülməlidir. Bugünkü dünyada ekoloji dayanıqlığın təmin edilməsi, insan həyatının keyfiyyətini qorumaq və gələcək nəsillər üçün sağlam bir planet buraxmaq üçün kritikdir. İqlim dəyişikliyi, meşələrin kəsilməsi, su ehtiyatlarının tükənməsi, biyodiversity itkiləri və hava çirkliliyi kimi qlobal ekoloji problemlər, dayanıqlı inkişafı təhdid edən ən böyük faktorlardır. Bu səbəbdən, ekoloji dayanıqlıq yalnız ekosistemlər üçün deyil, həm də iqtisadi və sosial sistemlər üçün həyati əhəmiyyət daşıyır. Ekoloji dayanıqlıq, ekosistemlərin və təbii resursların uzunmüddətli qorunmasını və bərpasını təmin etmək məqsədilə insan fəaliyyətlərinin təbiətə olan təsirinin azaldılmasına yönələn yanaşmadır. Bu, yalnız təbii mühitin qorunmasına deyil, həm də insan cəmiyyətlərinin və iqtisadiyyatların gələcəkdə davamlı şəkildə inkişaf etməsinə zəmin yaradır. Ekoloji dayanıqlıq, təbiət və insan arasındakı qarşılıqlı əlaqənin davamlı və tarazlı olmasını təmin edən əsas prinsiplərdən biridir. Bu məqalədə, ekoloji dayanıqlığın əhəmiyyəti, prinsipləri və gələcəkdə tətbiq oluna biləcək yanaşmalar və bərpa olunan enerjinin mahiyyəti müzakirə edilmişdir.Azərbaycanın uzunmüddətli enerji siyasətində bərpa olunan enerji mənbələrinin rolunun artması, ölkənin davamlı inkişafına və ətraf mühitin qorunmasına böyük töhfə verəcəkdir.

**Ədəbiyyat siyahısı:**


1. Azərbaycan Respublikası Energetika Nazirliyi. "Bərpa Olunan Enerji Mənbələri Haqqında Qanun". Bakı: Azərbaycan Respublikası.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. "Azərbaycanın Enerji Sektoru üzrə Statistika". Bakı: Dövlət Statistika Komitəsi.
3. Azərbaycan Respublikası Nazirlər Kabineti. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər". Bakı: Azərbaycan Respublikası Nazirlər Kabineti.
4. Khalilov, A., & Shafiyeva, A. "Bərpa Olunan Enerji Mənbələrinin İnkişafı və Perspektivləri". *Azərbaycan Texniki Universiteti Jurnalı*, 6(1), 45-52.
5. Hüseynov, R. Ə., və Məmmədov, F. H. Bərpa olunan enerji mənbələri və onların Azərbaycanda tətbiqi imkanları. Bakı: Təhsil Nəşriyyatı, 2020.
6. Qarayev, E. M. Ekoloji dayanıqlılıq və enerji təhlükəsizliyi: Azərbaycan təcrübəsi. Bakı: Elm və Təhsil, 2018.
7. Məmmədov, T. Ş. və Əhmədov, S. Ə. Azərbaycanda külək və günəş enerjisi: mövcud vəziyyət və inkişaf imkanları. Bakı: Mütərcim Nəşriyyatı, 2021.
8. Azərbaycan Respublikası Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi (ABOEMDA).


**Bərpa Olunan Enerji Mənbələrinin İnkişaf Perspektivləri.**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**“İctimai idarəetmə və sosial innovasiyalar” kafedrasının müəllimi**
**i.f.d. Fidan Qurbanova**
**fidan.gurbanova@unec.edu.az**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**İqtisadiyyat və idarəetmə fakültəsi,III kurs, Ekologiya**
**Xasməmmədli Arifə**
**ari.xas1804@gmail.com**

**XÜLASƏ**

Məqalədə bərpa olunan enerji mənbələri ayrı-ayrılıqda xarakterizə olunur. Bərpa olunan enerjinin inkişafı cəmiyyətin ekoloji, sosial və iqtisadi aspektlərinə müsbət təsir göstərmək üçün əhəmiyyətli potensiala malikdir. Bununla belə, bu inkişaf yolunda yarana biləcək problem və çağırışları nəzərə almaq və bütün maraqlı tərəflərin maraqlarını nəzərə almaqla onların həllinə çalışmaq vacibdir.

Bununla belə, bərpa olunan enerji mənbələrinin dəyəri hələ də ənənəvi olanlardan yüksəkdir və bəzən onların istifadəsi resurslarının mövcudluğu ilə məhdudlaşa bilər. Bundan əlavə, bərpa olunan enerji mənbələri ənənəvi mənbələrdən daha az etibarlı ola bilər, çünki onlar hava şəraitinə və digər xarici amillərə məruz qalırlar.

Bərpa olunan enerji ilə ənənəvi enerji mənbələri arasında seçim hər bir ölkənin spesifik şərtlərindən, eləcə də onun ekoloji və iqtisadi məqsəd və prioritetlərindən asılıdır.

Bərpa olunan enerji mənbələri, adətən, ənənəvi enerji mənbələrindən daha kiçik karbon izinə malikdir. Bu o deməkdir ki, bərpa olunan enerjidən istifadə daha təmiz ola bilər və iqlim dəyişikliyi ilə mübarizə aparmağa kömək edə bilər.

**JEL kodu: Q2**

**Açar sözlər:** bərpa olunan enerji mənbələri, iqlim dəyişikliyi, təbii ehtiyatlar, ətraf mühit.

**SUMMARY**

Renewable energy sources are characterized separately in the article. The development of renewable energy has significant potential to positively impact the environmental, social and economic aspects of society. However, it is important to consider the problems and challenges that may arise on this development path and try to solve them, taking into account the interests of all stakeholders.

However, the cost of renewable energy sources is still higher than conventional ones, and sometimes their use can be limited by the availability of resources. In addition, renewable energy sources can be less reliable than conventional sources because they are subject to weather and other external factors.

The choice between renewable energy and conventional energy sources depends on the specific conditions of each country, as well as its environmental and economic goals and priorities.

Renewable energy sources typically have a smaller carbon footprint than conventional energy sources. This means that using renewable energy can be cleaner and help fight climate change.

**Keywords:** renewable energy sources, climate change, natural resources, environment.

### *1. Bərpa Olunan Enerji və Ondan İstifadə.*

Dünyada bərpa olunan enerjinin inkişafı sürətlə davam edir. Bərpa olunan enerjidən istifadə planetimizi qorumaq və onun bütün sakinləri üçün davamlı gələcəyi təmin etmək üçün zəruri addımdır.

Artan qlobal problemlər və çağırışlar fonunda ənənəvi, hələ də üstünlük təşkil edən enerji mənbələrindən uzaqlaşaraq bərpa olunan mənbələrə keçid getdikcə daha çox zərurətə çevrilir.

Bərpa olunan enerji ekoloji cəhətdən təmiz şəkildə yenilənən mənbələrdən enerji istehsalı prosesidir. Bərpa olunan enerjinin müxtəlif növlərinə günəş, külək, hidro, biokütlə və geotermal daxildir.

Bərpa olunan enerjidən istifadənin bir neçə faydası var. Birincisi, ekoloji cəhətdən təmizdir və ətraf mühiti çirkləndirmir. Bu, iqlim dəyişikliyi, havanın çirklənməsi və azalan su ehtiyatları və təbii ehtiyatlar kimi artan ekoloji problemlər qarşısında xüsusilə vacibdir.

Bundan əlavə, bərpa olunan enerji qənaətlidir. Ənənəvi enerjinin (məsələn, neft və qaz) istehsalı ilə bağlı risklər artdıqca, onun dəyəri azalır və investorlar üçün istifadənin cəlbediciliyi artır ( Cəfərov,2013).

| **Bərpa olunan enerjidən istifadənin** | |
|---|---|
| **ekoloji faydaları** | **iqtisadi faydaları** |
| İqlim dəyişikliyi ilə mübarizəyə və havanın keyfiyyətini yaxşılaşdırmağa kömək edən istixana qazları emissiyalarının və havanın çirklənməsinin azaldılması; | Ənənəvi yanacağa çıxışı məhdud olan ölkələr üçün xüsusilə faydalı ola biləcək enerji idxalından asılılığın azaldılması; |
| Planetimizin təbii sərvətlərinin qorunmasına kömək edən neft və qaz kimi təbii ehtiyatların istehlakının azaldılması; | Bərpa olunan enerji sistemlərinin istehsalı, quraşdırılması və texniki xidməti sahələrində yeni iş yerlərinin yaradılması; |
| Nüvə enerjisindən istifadə ilə bağlı radioaktiv tullantıların və digər təhlükəli tullantıların olmaması. | Bərpa olunan enerji mənbələri daha əlçatan və sərfəli olduğundan enerji istehsalı xərclərini azaldır. |

Bərpa olunan enerji təbiətdən əldə edilən enerjidir və istehlak edildiyindən daha yüksək sürətlə doldurulur. Məsələn, günəş işığı və külək daim özünü yeniləyən mənbələrdir. Bərpa olunan enerji mənbələri çoxdur və ətrafımızdadır.

Qalıq yanacaqlar - kömür, neft və qaz - digər tərəfdən bərpa olunmayan mənbələrdir və meydana gəlməsi yüz milyonlarla ildir. Mineral yanacaqlar, enerji istehsal etmək üçün yandırıldıqda, karbondioksid kimi zərərli istixana qazları emissiyalarına səbəb olur.

Bərpa olunan enerjinin istehsalı qalıq yanacaqların yandırılmasından qat-qat aşağı qaz yaradır. Hazırda emissiyaların əsas hissəsini təşkil edən mineral yanacaqlardan bərpa olunan enerjiyə keçid iqlim böhranının həlli üçün açardır.

Bərpa olunan mənbələr indi əksər ölkələrdə daha ucuzdur və qalıq yanacaqlardan üç dəfə çox iş yeri yaradır (V.Qasımlı və b.,2014).

Enerji iqlim probleminin mərkəzində durur və həllin açarıdır.

Yer üzünü örtən və günəşin istiliyini saxlayan istixana qazlarının böyük bir hissəsi elektrik və istilik yaratmaq üçün qalıq yanacaqların yandırılması ilə enerji istehsalı ilə əmələ gəlir.

Kömür, neft və qaz kimi qalıq yanacaqlar qlobal iqlim dəyişikliyinə ən böyük töhfə verənlərdir və qlobal istixana qazı emissiyalarının 75 faizindən çoxunu və bütün karbon qazı emissiyalarının təxminən 90 faizini təşkil edir.

Elm aydındır: iqlim dəyişikliyinin ən pis təsirlərindən qaçmaq üçün emissiyalar 2030-cu ilə qədər demək olar ki, yarıya qədər azaldılmalı və 2050-ci ilə qədər xalis sıfıra çatdırılmalıdır.

Buna nail olmaq üçün biz qalıq yanacaqlardan asılılığımıza son qoymalı və təmiz, əlçatan, əlverişli, davamlı və etibarlı alternativ enerji mənbələrinə sərmayə qoymalıyıq.

Günəş, külək, su, tullantılar və Yerdən gələn istiliklə təmin edilən, ətrafımızda bolca mövcud olan bərpa olunan enerji mənbələri təbiət tərəfindən doldurulur və havaya az miqdarda istixana qazları və ya çirkləndiricilər buraxmır .

Qalıq yanacaqlar hələ də qlobal enerji istehsalının 80 faizindən çoxunu təşkil edir , lakin daha təmiz enerji mənbələri yer qazanır. Hazırda elektrik enerjisinin təxminən 29 faizi bərpa olunan mənbələrdən əldə edilir.

***2. Bərpa olunan enerjinin mənbələri.***

Bərpa olunan enerjinin bir çox istifadə mənbələri bunlardır:

Günəş enerjisi

Günəş enerjisi bütün enerji resurslarının ən çoxdur və hətta buludlu havalarda da istifadə edilə bilər.

Günəş panellərinin istehsalının dəyəri son on ildə kəskin şəkildə aşağı düşüb və bu, onları həm sərfəli, həm də çox vaxt ən ucuz elektrik enerjisinə çevirib. Günəş panellərinin ömrü təxqribən 30 ildir və istehsalda istifadə olunan materialın növündən asılı olaraq müxtəlif çalarlarda olur.

Külək enerjisi

Külək enerjisi quruda (quruda) və ya dənizdə və ya şirin suda (dənizdə) yerləşən iri külək turbinlərindən istifadə etməklə hərəkət edən havanın kinetik enerjisindən istifadə edir.

Dünyanın bir çox yerlərində güclü külək sürəti var, lakin külək enerjisi yaratmaq üçün ən əlverişli yerlər bəzən uzaq yerlərdir. Dəniz külək enerjisi böyük potensial təklif edir .

Geotermal enerji

Geotermal enerji Yerin daxili qatlarından əldə edilə bilən istilik enerjisindən istifadə edir. İstilik quyulardan və ya digər vasitələrdən istifadə etməklə geotermal rezervuarlardan çıxarılır.

Səthə çıxdıqdan sonra fərqli temperaturlu mayelər elektrik enerjisi yaratmaq üçün istifadə edilə bilər. Hidrotermal rezervuarlardan elektrik enerjisi istehsalı texnologiyası yetkin və etibarlıdır və 100 ildən çoxdur ki, fəaliyyət göstərir .

Hidrolik

Hidroenergetika hündürlükdən aşağıya doğru hərəkət edən suyun enerjisindən istifadə edir. Su anbarlarından və çaylardan yarana bilər. Su anbarı su elektrik stansiyaları su anbarında yığılmış suya güvənir, çaydan çıxan su elektrik stansiyaları isə çayın mövcud sürətindən enerji alır.

Hidroenergetika yaratmaq üçün lazım olan infrastruktur da ekosistemlərə mənfi təsir göstərə bilər. Bu səbəbdən çoxları kiçik miqyaslı hidrotexniki qurğuları daha ekoloji cəhətdən təmiz bir seçim hesab edir və xüsusilə uzaq yerlərdə yaşayan icmalar üçün uyğundur.

Bioenerji

Bioenerji istilik və enerji istehsalı üçün ağac, kömür, peyin və digər peyin kimi biokütlə adlanan müxtəlif üzvi materiallardan və maye bioyanacaq üçün kənd təsərrüfatında istifadə edilən bitkilərdən istehsal olunur. Əksər biokütlə kənd yerlərində yemək bişirmək, işıqlandırmaq və məkanı isitmək üçün, ümumiyyətlə inkişaf etməkdə olan ölkələrdə kasıb əhali tərəfindən istifadə olunur.

Biokütlənin yandırılması nəticəsində yaranan enerji istixana qazı emissiyaları yaradır, lakin kömür, neft və ya qaz kimi mineral yanacaqların yandırılmasından daha aşağı səviyyədədir. Bununla belə, meşə və bioenerji plantasiyalarında geniş miqyaslı artımlar və nəticədə meşələrin qırılması və torpaqdan istifadənin dəyişməsi ilə bağlı ətraf mühitə potensial pis təsirləri nəzərə alaraq bioenerji yalnız məhdud tətbiqlərdə istifadə edilməlidir (Юдаев И. В., Даус Ю. В., Гамага В. В., 2020).

Təmiz enerjiyə keçidin sürətləndirilməsinin bu gün və gələcək nəsillər üçün **sağlam, yaşana bilən planetə aparan yol olmasının beş səbəbi** budur .

***3. Bərpa olunan enerji mənbələri ətrafımızdadır.***

Dünya əhalisinin təqribən 80 faiz qalıq yanacaqların xalis idxalçıları olan ölkələrdə yaşayır - bu, digər ölkələrin qalıq yanacaqlarından asılı olan təxminən 6 milyard insandır ki, bu da onları geosiyasi şoklara və böhranlara qarşı həssas edir.

Bunun əksinə olaraq, bərpa olunan enerji mənbələri bütün ölkələrdə mövcuddur və onların potensialından hələ tam istifadə edilməmişdir. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) hesab edir ki, dünnya elektirik enerjisinin 90 faizi 2050-ci ilə qədər bərpa olunan enerjidən əldə edilə bilər və olmalıdır.

Bərpa olunan mənbələr idxaldan asılılıqdan çıxış yolu təklif edir, ölkələrə iqtisadiyyatlarını diversifikasiya etməyə və onları qalıq yanacaqların gözlənilməz qiymət dəyişikliklərindən qorumağa imkan verir, eyni zamanda inklüziv iqtisadi artımı, yeni iş yerlərini və yoxsulluğun azaldılmasını təmin edir.

***4. Bərpa olunan enerji daha ucuzdur.***

Bərpa olunan enerji əslində bu gün dünyanın əksər yerlərində ən ucuz variantdır . Bərpa olunan enerji texnologiyalarının qiymətləri sürətlə aşağı düşür. Günəş enerjisindən əldə edilən elektrik enerjisinin dəyəri 2010-2020-ci illər arasında 85 faiz azalıb. Quruda və dənizdə külək enerjisinin xərcləri müvafiq olaraq 56 faiz və 48 faiz ucuzlaşıb.

Düşən qiymətlər bərpa olunan enerjini hər yerdə daha cəlbedici edir – o cümlədən yeni elektrik enerjisinə əlavə tələbatın çoxunun yaranacağı aşağı və orta gəlirli ölkələr üçün. Xərclərin aşağı düşməsi ilə yaxın illərdə yeni enerji təchizatının böyük hissəsinin aşağı karbonlu mənbələr hesabına təmin edilməsi üçün real imkan yaranır.

Bərpa olunan mənbələrdən əldə edilən ucuz elektrik enerjisi 2030-cu ilə qədər dünyanın ümumi elektrik enerjisi təchizatının 65 faizini təmin edə bilər. O, 2050-ci ilə qədər enerji sektorunun 90 faizini karbonsuzlaşdıra, karbon emissiyalarını kütləvi şəkildə azalda və iqlim dəyişikliyinin azaldılmasına kömək edə bilər.

Beynəlxalq Enerji Agentliyi bildirir ki , 2022 və 2023-cü illərdə günəş və külək enerjisi xərclərinin ümumi yüksəlmiş əmtəə və yük qiymətləri səbəbindən pandemiyadan əvvəlki səviyyələrdən daha yüksək qalacağı gözlənilir, lakin onların rəqabət qabiliyyəti qaz və kömür qiymətlərindəki daha kəskin artımlar səbəbindən əslində yaxşılaşır.

***5. Bərpa olunan enerji daha sağlamdır.***

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatına görə, dünyada insanlarin təqribi 99 faizi havanın keyfiyyət həddini aşan və onların sağlamlıqlarına təhlükə yaradan hava ilə nəfəs alır və hər il dünyada 13 milyondan çox insanın ölümü qarşısı alına bilən ekoloji səbəblər, o cümlədən hava ilə bağlıdır. çirklənmə.

İncə hissəciklərin və azot dioksidin qeyri-sağlam səviyyələri əsasən qalıq yanacaqların yandırılması nəticəsində yaranır. 2018-ci ildə qalıq yanacaqlardan havanın çirklənməsi 2,9 trilyon dollar sağlamlıq və iqtisadi xərclərə səbəb olub ki , bu da gündə təxminən 8 milyard dollardır.

Beləliklə, külək və günəş kimi təmiz enerji mənbələrinə keçid təkcə iqlim dəyişikliyinə deyil, həm də havanın çirklənməsinə və sağlamlığın qorunmasına kömək edir ( И. В. Юдаев, Ю. В. Даус,2021).

***6. Bərpa olunan enerji iş yerləri yaradır.***

Bərpa olunan enerji mənbələrinə yatırılan hər dollar mədən yanacaq sənayesindən 3 dəfə çox iş yeri yaradır. IEA hesab edir ki, xalis sıfır emissiyaya keçid enerji sektorunda yeni iş yerlərinin artmasına səbəb olacaq : 2030-cu ilə qədər qalıq yanacaq istehsalında təxminən 5 milyon iş yeri itirilə bilər, təmiz enerjidə isə təxminən 14 milyon yeni iş yeri yaradılacaq. nəticədə 9 milyon iş yeri ilə xalis qazanc əldə edilmişdir.

Bundan əlavə, enerji ilə əlaqəli sənayelər daha 16 milyon işçi tələb edəcək, məsələn, elektrikli nəqliyyat vasitələrinin və yüksək səmərəli cihazların istehsalında və ya hidrogen kimi innovativ texnologiyalarda yeni rollar almaq üçün. Bu o deməkdir ki, 2030-cu ilə qədər təmiz enerji, səmərəlilik və aşağı emissiyalı texnologiyalar sahəsində ümumilikdə 30 milyondan çox iş yeri yaradıla bilər.

Düzgün keçidi təmin etmək , insanların ehtiyaclarını və hüquqlarını enerji keçidinin mərkəzində yerləşdirmək, heç kimin geridə qalmamasına əmin olmaq üçün əsas olacaq.

***7. Bərpa olunan enerji iqtisadi məna daşıyır.***

2022-ci ildə qalıq yanacaq sənayesinin subsidiyalaşdırılmasına, o cümlədən açıq subsidiyalar, vergi güzəştləri və qalıq yanacaqların qiymətinə daxil edilməyən sağlamlığa və ətraf mühitə dəyən zərərlər hesabına təxminən 7 tilyon dolar xərclənib.

Müqayisə üçün, 2050-ci ilə qədər emissiyaları xalis sıfıra çatdırmaq üçün texnologiya və infrastruktura investisiyalar da daxil olmaqla, 2030-cu ilə qədər bərpa olunan enerjiyə ildə təxminən 4.5 trilyon dolar sərmayə qoyulmalıdır.

İlkin xərclər məhdud resursları olan bir çox ölkələr üçün qorxulu ola bilər və bir çoxunun keçidi həyata keçirmək üçün maliyyə və texniki dəstəyə ehtiyacı olacaq. Amma bərpa olunan enerjiyə investisiyalar öz bəhrəsini verəcək. Təkcə çirklənmənin və iqlim təsirlərinin azaldılması 2030-cu ilə qədər dünyaya ildə 4.2 trilyon dolara qədər qənaıt edı bilər.

Bundan əlavə, səmərəli, etibarlı bərpa olunan texnologiyalar bazar şoklarına daha az meylli bir sistem yarada və enerji təchizatı variantlarını diversifikasiya etməklə davamlılığı və enerji təhlükəsizliyini yaxşılaşdıra bilər.

Bərpa olunan enerji çoxlu iqtisadi, ekoloji və sosial üstünlüklər təklif edir.

Bərpa olunan enerji ABŞ-ın bütün elektrik enerjisinin 20%-dən çoxunu istehsal edir və bu faiz artmaqda davam edir. Aşağıdakı qrafik 2022-ci ildə bərpa olunan enerji növləri arasında ümumi elektrik enerjisi istehsalının paylarını bölür:




2022-ci ildə ABŞ-ın Ümumi Elektrik İstehsalında Bərpa Olunan Enerji Payı. 10,3% külək, 6,0% su enerjisi, 3,4% günəş, 1,2% biokütlə, 0,4% geotermal.

2022-ci ildə ABŞ-da illik bərpa olunan enerji istehsalı tarixdə ilk dəfə olaraq kömürü ötüb. 2025-ci ilə qədər yerli günəş enerjisi istehsalının 75%, küləyin isə 11% artacağı gözlənilir.

Birləşmiş Ştatlar amerikalıların hər il istifadə etdiyi elektrik enerjisindən 100 dəfə çox istehsal etmək üçün kifayət qədər bərpa olunan enerji resurslarına malik olan resursla zəngin bir ölkədir. ABŞ-da bərpa olunan enerji potensialı haqqında daha çox məlumat əldə edin (Ottmar Edenhofer, Ramón Pichs-Madruga,2011).

Stressli və ya əlaqəsiz olduğumuz zaman bir çoxumuz instinktiv olaraq gəzintiyə çıxırıq. Təbiətlə bağlı daha rahat hiss etmək üçün meşələr, parklar, çimərliklər və kənd yolları axtarırıq. Bu faktı nəzərə alsaq, insanın rifahının ətraf mühitin sağlamlığı ilə mahiyyətcə bağlı olması təəccüblü deyil. Qlobal insan ölümlərinin təqribən 24%-i birbaşa və ya dolayısı ilə qarşısı alına bilən ətraf mühit faktorları nəticəsində baş verir. Uzun və sağlam yaşamaq üçün nəfəs almaq üçün çirklənməmiş havaya, içmək üçün təmiz suya və zəhərli maddələrin olmadığı yerlərdə yaşamağa ehtiyacımız var və buna layiqik.

**ƏDƏBİYYATLAR.**

1. Cəfərov T.D. Bərpa Olunan Enerji Mənbələrinin Energetika Sisteminə inteqrasiyasında Hidroakkumulyasiya Elektrik Stansiyalarının rolu. Bakı -2013.

2. V.Qasımlı və b. – Yaşıl İnkişaf. Enerji səmərəliliyi və alternativ mənbələr. Bakı 2014.

3.T.Bəhərçi, V.Mehdiyeva və b. – Təbii resurslar və davamlı inkişaf. Bakı 2008.

4.M.F. Cəlilov. Alternativ regenerativ enerji sistemləri. Dərslik Bakı – 2009.

5.Юдаев И. В., Даус Ю. В., Гамага В. В. Возобновляемые источники энергии: учебник. Издательство "Лань" 2020.

6.И. В. Юдаев, Ю. В. Даус Возобновляемые источники энергии. Издательство ЛАНЬ 2021.

7. Alberto Gemelli , Adriano Mancini .GIS to Support Cost-effective Decisions on Renewable Sources: Applications for low temperature geothermal energy (SpringerBriefs in Applied Sciences and Technology) ,2013.

8. Ottmar Edenhofer, Ramón Pichs-Madruga. Renewable Energy Sources and Climate Change Mitigation: Special Report of the Intergovernmental Panel on Climate Change.2011.

# Bərpa olunan enerji: Ətraf Mühitin Davamlılığına nail olmağın mühim amilidir.

**i.f.d.Fidan Səfərova**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
Fidan_Safarova@unec.edu.az
**Tələbə 130 qrup. Əsli Hüseynova**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
Huseynova.Asli.Nasimi.2023@unec.edu.az

**Xülasə**

Yaşıl iqtisadiyyat, ekoloji davamlılıq və sosial rifahı təmin etməyə yönəlmiş iqtisadi modeldir. Bu yanaşma, iqtisadi inkişafı ekoloji zərərlərin və karbon izlərinin azaldılması ilə əlaqələndirir və təbii sərvətlərdən səmərəli istifadəni dəstəkləyir. Yaşıl iqtisadiyyat konsepsiyasında məqsəd, iqtisadi böyümənin təbiətə zərər vermədən həyata keçirilməsidir Bərpa olunan enerji (yəni, təbii mənbələrdən alınan və təkrar istifadəsi mümkün olan enerji növləri) və ekoloji dayanıqlılıq mövzuları müasir dünyada çox önəmli məsələlərdəndir. Bu iki anlayış bir-biri ilə sıx əlaqəli olub, qlobal istiləşmə, ətraf mühitin çirklənməsi və təbii resursların tükənməsi kimi qlobal problemlərə cavab axtarışında mühüm rol oynayır.

Ekoloji dayanıqlılıq, təbiətin resurslarını qoruyaraq və ətraf mühitə minimal zərər vuraraq gələcək nəsillərin ehtiyaclarını təmin edə biləcək bir dünyanı yaratmağı hədəfləyən bir konsepsiyadır. Bu konsepsiya, ekosistemlərin özlərini təbii yollarla yeniləməsi və balansda saxlaması üçün zəruri olan resursların idarə edilməsini vurğulayır. Ekoloji dayanıqlılıq həm təbii mühitin, həm də insanların rifahını təmin etmək üçün zəruridir. Ekoloji dayanıqlılıq insanların yaşayış səviyyəsini artıraraq təbiətə uyğun bir iqtisadi və sosial inkişaf modelini hədəfləyir.

**JEL kod: Q56**

**Açar sözlər:**yaşıl iqtisadiyyat ,ekoloji dayanıqlıq,davamlı inkişaf

**Summary**

Green economy is an economic model aimed at ensuring environmental sustainability and social welfare. This approach links economic development to the reduction of environmental damage and carbon footprints and supports the efficient use of natural resources. In the concept of green economy, the goal is to realize economic growth without harming nature. Renewable energy (that is, types of energy obtained from natural sources and which can be reused) and environmental sustainability are very important issues in the modern world. These two concepts are closely related to each other and play an important role in finding answers to global problems such as global warming, environmental pollution and depletion of natural resources.

This concept emphasizes the management of resources necessary for ecosystems to renew and balance themselves in natural ways. Environmental sustainability is necessary to ensure the well-being of both the natural environment and people. Environmental sustainability aims at an economic and social development model that is compatible with nature by increasing people's standard of living.

**Keywords:** green economy, environmental stability, sustainable development

***Yaşıl Dünya naminə Həmrəylik İli.***

Yaşıl iqtisadiyyat (Green Economy), iqtisadiyyat elmində XX əsrin ortalarında meydana çıxıb. O, iqtisad elminin ətraf mühitin iqtisadiyyatı və ekologiya iqtisadiyyatı ilə əlaqəlidir. "Yaşıl iqtisadiyyat" ətraf mühit risklərini azaldır, ekoloji problemləri aradan qaldırır, biomüxtəlifliyin və ekosistem xidmətlərinin itirilməsinin qarşısını alır. Yaşıl iqtisadiyyat ətraf mühiti pisləşdirmədən davamlı inkişafı hədəfləyən iqtisadiyyatdır. O, resursdan səmərəli istifadə edən, aşağı karbonlu, sosial cəhətdən inklüziv olaraq müəyyən edilir.

Azərbaycanda 2024-cü il "Yaşıl Dünya naminə Həmrəylik İli" olaraq edilib. Azərbaycan bərpa olunan enerji sahəsində irəliləmək üçün zəngin günəş və külək potensialından istifadə edir.

Birləşmiş Millətlər Təşkilatını İqlim Dəyişikliyi Konfransları hər il iqlim dəyişikliyi ilə bağlı mübarizədə qazanılmış tərəqqini qiymətləndirmək üçün görüşlər keçirir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Sazişinin Tərəflər Konfransının (COP) 29-cu Sessiyası Azərbaycanda keçiriləcək. COP29 qlobal iqlim məqsədlərinə çatılması baxımından mühüm bir mərhələnin başlanğıcı olacaq. COP29-un Bakıda keçirilməsi BMT səviyyəsində ölkədə siyasi və iqtisadi sabitliyin tanınmasından xəbər verir.

Yaşıl iqtisadiyyat və dayanıqlı inkişafın olması üçün bərpa olunan alternativlərdən istifadə əsas şərtdir. Çünki bərpa olunan alternativ enerjilər ekoloji cəhətdən təmiz olurlar və onlar tükənmədiyi üçün gələcək nəsillərin inkişafı üçün təhlükə yaratmır.

**Bərpa Olunan Enerji (Renewable Energy)**

Günəş, külək, su, dalğa, geotermal enerji və s. bərpa olunan mənbələrdən alınan enerjiyə bərpa olunan enerji deyilir. Bu mənbələr insan istifadəsi nəticəsində tükənə bilmir və ətraf mühitin mühafizəsi üçün vacibdir. Əgər bir ölkənin ərazisində alternativ enerji mövcuddursa, həmin ölkənin neftdən və onun qiymətindən asılılığı azalır. Həmçinin sənayenin sürətli inkişafı ətraf mühitin çirklənməsini artırır. Bu isə həm iqlim dəyişikliyinə, həm də insan sağlamlığına ziyan vurur. Bu səbəblərə görə dünyada alternativ yəni bərpa olunan enerji mənbələrindən istifadə sürətlə artır.

Hal-hazırda dünyada istehsal olunan enerjinin 15 faizini bərpaolunan, alternativ enerji təşkil edir. Məsələn, Danimarka, İslandiya və ABŞ-nin bəzi ştatlarında alternativ enerjidən istifadədə üstünlük geotermal mənbələrə verilib. Norveç isə kiçik gücə malik hidroenergetik qurğulardan istifadə edir. Gələcəkdə neft, kömür və təbii qaz kimi yanacaqları sağlam ətraf mühit üçün alternativ enerjilər əvəz edəcək. Dünyanın bir çox ölkələrində nəhəng külək stansiyaları, günəş elektrik stansiyaları layihələri artıb. Bu da təmiz gələcəyin əvvəlkindən daha yaxın olduğunu göstərir.

**Alternativ Enerji Mənbələrinin Növləri**

Alternativ enerji mənbələrindən biri Günəş Enerjisidir. Bu günəş radiasiyasından, işığından, istiliyindən istifadə edərək əldə olunur. Günəşin gücündən qədim dövrdən bəri istifadə olunmasına baxmayaraq, yalnız son onillikdə günəş işığından təmiz istilik və elektrik

yaratmaq üçün istifadə olunur. Günəş enerjisindən aktiv günəş enerjisi və passiv günəş enerjisi şəklində istifadə edə bilərik. Əgər biz günəş enerjisini günəş bateriyası kimi texnologiyadan istifadə edərək toplayıb, təmiz elektrik istehsal ediriksə, bu günəş enerjisini aktiv şəkildə istifadə etdiyimizi göstərir. Passiv şəkildə istifadə isə tikintidə, günəş istiliyinin və işığının evin hər tərəfinə bərabər yayılmasında istifadə olunur. Hal-hazırda günəş enerjisi pulsuz istilik və elektrik mənbəyinə çevrilmişdir. Günəş enerjisindən istifədənin üstünlüyünün çoxluğu onun gələcəkdə də insanların geniş istifadə edəcəyi enerji mənbəyi olacaq.

Küləyin yaranmasına səbəb olan hava axınının sahib olduğu kinetik enerjisi külək enerjisidir. Küləyin kinetik enerjisini mexaniki enerjiyə çevirən və fırlanan mexanizm isə külək turbinidir. Əgər o, mexanik enerjini elektrik enerjisinə çevirərsə aeorogenerator adlanır. Külək turbininin gücü zaman keçdikcə artmışdır. Küləkdən əldə edilən gücün miqdarı turbinin ölçüsündən və qanadların uzunluğundan asılıdır. Əgər küləyin sürəti iki dəfə artarsa külək enerjisi potensialı səkkiz dəfə artar. Külək enerjisi digər alternativ enerji mənbələrinin arasında ekoloji təmizliyinə, maya dəyərinə və tükənməzliyinə görə ən sərfəlisidir. Buna görə də külək enerjisindən dünyada geniş istifadə olunur. Azərbaycanda isə Bakı, Sumqayıt, Abşeron, Binə və Maştağa külək enerjisindən istifadədə məqsədə uyğun hesab edilir.

Sürətlə hərəkət edən suyun gücü hidroenergetika adlanır. XIX əsrin sonlarında hidroenergetika elektrik enerjisi istehsalçısı olaraq tanındı. 1879-cu ildə ilk kommersiya su elektrik stansiyası Niaqara şəlaləsində tikilmişdir. Generatorlar vasitəsilə sürətlə hərəkət edən suyun kinetik enerjisi mexaniki enerjiyə çevrilir və bu mexaniki enerjidən elektrik enerjisi istehsal edilir. Hidroenergetika təmiz enerji mənbəyidir və bərpa olunandır.

Yaşıl enerji mənbəyi olan biokütlə enerjisi bərpa olunan enerji mənbəyi hesab olunur. Biokütlə həm də etanol və biodizel kimi bioyanacaq, həm də metan qazı istehsal etmək üçün istifadə olunur. Yanan biokütlə enerjisi karbon emissiyaları buraxır, amma planetdə tullantı materiallarının istehsalının davamlı olması səbəbindən bərpa olunan enerji hesab edilir. Kömür elektrik stansiyaları arasında biokütlə məşhurlaşdı. Kömür yandırmaqla müqayisədə yanan biokütlə atmosferə daha az miqdarda karbon emissiyası buraxır.

İstilik enerjisi və ya geotermal enerji yerin nüvəsi tərəfindən istehsal olunur. O, səthə çıxan alternativ enerji mənbəyidir. Yeraltı istiliyin mənbəyi ərinmiş maqmadır. Geotermal enerji yeraltı istilikdən istifadə edərək qaynar su ilə istehsal olunur. Geotermal enerji dünyanın, demək olar ki, hər yerində mövcuddur və bərpa olunan alternativ enerji hesab edilir.

Bərpa olunan enerjilərin bir növü də qabarma və çəkilmə enerjisidir. O, qabarma və çəkilmə nəticəsində suyun hərəkət enerjisini elektrik enerjisinə çevirən hidroenergetika formasıdır. Hal-hazırda qabarma və çəkilmənin gücündən çox kiçik miqyasda istifadə olunur. Amma qabarma və çəkilmənin gücündən gələcəkdə istifadəsi artacaq və o, vacib alternativ enerji mənbəyinə çevriləcək. O, okeanların qabarması və çəkilməsi səbəbindən yarandığı üçün bərpa olunan enerji mənbəyi hesab edilir. Qabarma və çəkilmə əsasən ayın cazibə qüvvəsindən yaranır, lakin bəzi kiçik yerlərdə günəşin cazibə qüvvəsindən də yarana bilər. Əslində qabarmalar və çəkilmələr günəş və ayın qravitasiya cazibə qüvvəsinin yerin cazibə qüvvəsi qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Son zamanlar texnologiyanın inkişafı nəticəsində qabarma və çəkilmə enerjesindən istifadə keçmişə nisbətən daha yüksəkdir.

Suyun üzərində hərəkət edən dalğalardan əldə edilən alternativ enerjiyə dalğa enerjisi deyilir. O, elektrik generatorlarından istifadə edərək toplanır. Dalğanın hündürlüyü, sürəti, uzunluğu enerjinin miqdarını müəyyən edir. Dalğa enerjisi də digər alternativ enerji növləri kimi bərpa olunan, təmiz və ətraf mühit üçün zərərsizdir.

Atomların parçalanması nəticəsində yaranan istiliklə yaranan alternativ enerjinin bir növü nüvə enerjisidir. Enerji ilkin parçalanmada yaranır və zəncirvari reaksiyaya səbəb olur. Parçalanma nəticəsində buxar yaranır və bu turbini fırlanmasına səbəb olur. Nəticədə elektrik enerjisi yaranır.

Ətraf üzərində mənfi təsiri olmayan, təmiz yanan yanacaq kimi istifadə olunan, alternativ bərpa olunan enerjinin bir növü də hidrogen enerjisidir. Hidrogen enerjisi elektrik mühərriklərini enerji ilə təmin etməkdə istifadə olunur.

***Bərpa olunan enerjilərin faydaları və mənfi cəhətləri***

Bərpa olunan enerjilərin faydaları onların heç vaxt tükənməməsi, ətraf mühitə dost olmasıdır. Bərpa olunan alternativ enerjilərin faydalarının çox olmasına baxmayaraq, onun bəzi mənfi cəhətləri də mövcuddur. Alternativ enerji mənbələrindən istifadənin xərcinin çox olması onun mənfi cəhətlərindəndir. Bu gün yaşıl texnologiya əksər əhali üçün bahadır. Bərpa olunan enerji mənbələrinin digər bir mənfi cəhəti onların əsasən hava şəraitindən asılı olmasıdır. Məsəslən, günəş panellərindən istifadə gecə saatlarında mümkünsüzdür və ya külək turbinləri ancaq küləkli havada enerji istehsal edəcək. Bərpa olunan enerji mənbələri bütün şəhəri və ya ölkəni tamamilə enerji ilə təmin edə bilmir. Bu da onun mənfi cəhətlərində biri hesab olunur. Amma əgər gündəlik istifadə olunan cihazların səmərəliliyi təkmişləşdirilərsə ətraf mühitdə enerji istehlakı azalacaq və nəticədə bərpa olunan enerji daha səmərəli olacaq (4).

***Azərbaycanda bərpa olunan enerji***

Azərbaycan da digər ölkələr kimi ətraf mühitin çirklənməsinin qarşısını almaq üçün alternativ enerji mənbələrindən istifadə edir. Bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələr arasında olması Azərbaycanın bu sahədə inkişaf etməsinə kömək olur. Son tədqiqatlara görə Azərbaycanda 27,5 min meqavat həcmində bərpa olunan enerji potensialı mövcuddur. Ümumilikdə, Azərbaycanda ümumi enerji istehsalının 17,3 faizini bərpa olunan enerji təşkil edir. Bu sahədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bir sıra tədbirlər görüb. Onun 2020-ci il 22 sentyabr tarixli, 1159 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyin Əsasnaməsi təsdiq edilib. Həmçinin, bərpa olunan enerji istehsal istehsal edən və ətraf mühitin sağlamlaşdırılmasını həyata keçirən sahibkarlıq subyektlərinə vergi güzəşti tətbiq edilməsi planlaşdırılıb.

***Ekoloji Dayanıqlılıq***

Dayanıqlı inkişaf (sustainable development), iqtisadi artımın yeni növünün formalaşmasının əsaslanmasını təşkil etməlidir. Bu elə bir inkişaf üsuludur ki, hazırkı dövrün tələblərini ödəyər, ancaq gələcək nəsillərin öz şəxsi tələbatlarını ödəməyi təhlükə altında qoymur. Onun tələbatlar və məhdudiyyətlər anlayışları mövcuddur. Tələbatlar anlayışı kasıb əhali təbəqəsinin var olması üçün vacib olan təlabatlardır. Məhdudiyyətlər anlayışı isə texnologiyanın təşkili və cəmiyyətin təşkili ilə şərtlənir. BMT və onun tərəfdaşları

Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq istiqamətində çalışır. “2030-cu ilədək Dayanıqlı İnkişaf sahəsində Gündəlik”də əks olunan Dayanıqlı İnkişaf Məqsədləri BMT-nin 2015-ci ilin sentyabr ayında keçirilən tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilmiş və 1 yanvar 2016-ci ildə rəsmi şəkildə qüvvəyə minmişdir. Bu universal xarakter daşıyıb və qarşıdakı on beş il ərzində “heç kəsi kənarda qoymamaq” prinsipini rəhbər tutub. Dünya ölkələri 2030-cu ilə qədər davamlı inkişafla bağlı bəzi məqsədləri həyata keçirməyi planlaşdırır. İnsan sağlamlığının təmin olunması, dünyada qida çatışmazlığına son qoyulması, yoxsulluğun aradan qaldırılması, iqlimdə baş verən dəyişikliklərin qarşısının alınması, torpaq və dəniz ekosistemlərinin mühafizəsi və s. bu kimi məqsədlər bunlara aiddir.

Dayanıqlı inkişaf üçün əsas istiqamətlərdən biri ekoloji dayanıqlılıqdır. O, planeti gələcək nəsillər üçün qorumaq üçün təbii ehtiyatlarından məsuliyyətli və düzgün istifadə edilməsinə aiddir. Müasir dünyada iqlim dəyişikliyi, çirklənmə, biomüxtəlifliyin itirilməsi və s. ciddi problemlərlə mübarizədə ətraf mühitin dayanıqlılığı vacibdir. Ekoloji dayanıqlılığı təmin etməyin ən vacib tədbirlərindən biri karbon qazından istifadənin azaldılmasıdır. Bərpa olunan alternativ enerjilərdən istifadə bunun həlli yollarından biri hesab edilir. Müasir texnologiyadan istifadə də ekoloji dayanıqlılığa müsbət təsir göstərə bilər. Şəhərlərin ətraf mühitə mənfi təsirlərini azaltmaq üçün davamlı şəhər inkişafı artırılmalıdır. Bu sahədə yaşıl bina layihələri yaradılır və əksər şəhərlərdə yaşıl sahələr artırılır. Bununla ətraf mühitdə karbon qazının miqdarı azaldılır. Ekoloji dayanıqlılığın artırılması ilə davamlı və ekoloji təmiz gələcək yaradılması mümkündür (2).

***Azərbaycanda ekoloji dayanıqlılıq***

Azərbaycanda ekoloji dayanıqlı inkişaf üçün bir çox zəruri tədbirlər həyata keçirilmişdir. Bunların əksəriyyəti Ümummilli lider Heydər Əliyev tərəfindən keçirilmişdir. Azərbaycanın inkişafı üçün bir çox qərarlar qəbul edilmişdir. Bunlar yoxsulluğun azaldılmasına, davamlı insan inkişafına, Azərbaycanda ekoloji dayanıqlı sosial-iqtisadi inkişafa yönəldilmişdir.

***Nəticə***

Bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi və ekoloji dayanıqlılığın qorunması, həm iqtisadi, həm də ekoloji baxımdan böyük üstünlüklər təmin edir. Davamlı enerji istehsalı həm ətraf mühitin qorunmasına, həm də gələcək nəsillər üçün daha sağlam bir planetin təmin edilməsinə töhfə verir. Bərpa olunan enerji mənbələri ənənəvi yanacaqlara alternativ olaraq ətraf mühitin qorunmasında böyük əhəmiyyət kəsb edir. Onlar karbon qazı emissiyalarını azaltmağa və iqlim dəyişikliyinin təsirlərini minimuma endirməyə kömək edir. Bu sahədə innovasiyalar və texnoloji inkişaflar isə bərpa olunan enerji istifadəsini daha səmərəli və əlçatan edir.

**ƏDƏBİYYAT**


1. Alternative Energy Sources Today
2. Environmental Sustainability. A Path to a Greener Future | by Muniba. | Sep, 2024 | Medium
3. Why Alternative Energy Sources Are the Future?

4.Pachauri, R. K., Allen, M. R., Barros, V. R., Broome, J., Cramer, W., Christ, R., ... & van Ypserle, J. P. (2014). *Climate change 2014: synthesis report. Contribution of Working Groups I, II and III to the fifth assessment report of the Intergovernmental Panel on Climate Change* (p. 151). Ipcc.

5. Panzone, L. A., Ulph, A., Zizzo, D. J., Hilton, D., & Clear, A. (2021). The impact of environmental recall and carbon taxation on the carbon footprint of supermarket shopping. *Journal of Environmental Economics and Management*, *109*, 102137

## Karbon Ayaqizinin Mahiyyəti və İqtisadi Əhəmiyyəti

**Nihalə Fizuli Musazadə**
**İqtisadi Elmi Tədqiqat Insitutu**
**nihala.musazada@esri.gov.az**

**Xülasə**

"Karbon ayaqizi" termini son dövrlərdə çox populyarlaşıb və bir çox qurumlarda geniş istifadə olunmağa başlamışdır. Karbon ayaqizi, bir insanın və ya digər varlığın (bina, zavod, və s.) bütün fəaliyyətləri ilə bağlı olan karbon dioksid emissiyalarının miqdarıdır. Əsasən iqlim dəyişikliyinin siyasi və korporativ gündəmin ən üst sıralarında yer tutmasıyla birlikdə, karbon ayaqizi hesablamalarına olan tələbi artırır. Hesablamalardan tutmuş mürəkkəb həyat dövrü təhlilinə, sahələrarası balansa (giriş-çıxışa) əsaslanan metod və alətlərə qədər çoxsaylı yanaşmalarla hesablanır. Karbon ayaq izinin hər yerdə istifadə edilməsinə baxmayaraq, tam olaraq nə olmasıyla bağlı akademik təriflərdə açıq şəkildə göstərilməmişdir. “Karbon ayaqizi”ni ölçmək iddiasında olan enerji və ekoloji iqtisadiyyat sahəsində saysız-hesabsız tədqiqatların dərc olunmasına baxmayaraq, elmi ədəbiyyatda təəccüblü şəkildə olsa da dəqiq aydınlaşdırılmamışdır.

Tədqiqatın əsas istinad olunan mənbələri arasında IPCC, Wiedmann və Minx, Metcalf və Weisbach kimi nüfuzlu ədəbiyyat mövcuddur. Bu mənbələr, karbon emissiyaları və onunla bağlı strategiyaların inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Karbon ayaqizinin iqtisadi əhəmiyyətinin təhlili dayanıqlı inkişaf siyasətinin effektiv qərarlar verməsinə kömək edir.

**JEL kodları:** Q01, Q19, H23, O13, O44

**Açar sözlər:** karbon ayaqizi, iqlim dəyişikliyi, ekoloji ayaqizi, karbon vergisi

**Abstract**

The term "carbon footprint" has gained significant popularity in recent years and is widely used in various organizations. A carbon footprint refers to the amount of carbon dioxide emissions associated with all activities of a person or other entities (such as buildings, factories, etc.). With climate change increasingly occupying top positions on political and corporate agendas, there is a growing demand for carbon footprint calculations. These calculations can be approached through numerous methods and tools, ranging from basic computations to complex life cycle analyses and input-output-based assessments. Despite the widespread use of the term "carbon footprint," academic definitions have not clearly articulated what it precisely entails. Surprisingly, despite the publication of countless studies claiming to measure the carbon footprint in the fields of energy and ecological economics, it remains inadequately clarified in scientific literature.

Among the primary referenced sources for this research are authoritative literature such as IPCC, Wiedmann and Minx, and Metcalf and Weisbach. These sources are of great significance in the

development of carbon emissions and related strategies. The analysis of the economic significance of the carbon footprint helps in making effective decisions for sustainable development policies.

**Keywords:** carbon footprint, climate change, ecological footprint, carbon tax

***Giriş***

Hava çirkliliyi, dəniz səviyyəsinin yüksəlməsi və iqlim dəyişikliyi nəticəsində ortaya çıxan epidemiyaların yayılması kimi qlobal böhranlar, davamlı sosial-iqtisadi inkişaf prosesində olan ölkələr üçün əsas sınaqlara çevrilib. (Bağırzadə, 2024) İnsan fəaliyyəti əsasında meydana gələn böyük miqdarda karbon emissiyaları bu fenomenə təsir edir (IPCC, 2014). Genişmiqyaslı beynəlxalq əməkdaşlıq çərçivəsində bir çox ölkə karbon emissiyalarının azalmasına yönəlmiş tədbirləri əsas milli strategiya platforması olaraq qəbul etməyə başlayıb. Davamlı inkişafı təmin etmək üçün elmi və həyata keçirilə bilən bir karbon emissiyası ölçmə metodunu araşdırmaq çox vacibdir. Karbon ayaqizi insan fəaliyyətinin iqlim dəyişikliyinə təsirini canlı şəkildə göstərir və karbon emissiyalarının elmi cəhətdən ölçülməsi üçün effektiv bir vasitə təmin edir. Karbon ayaqizi əsasında aparılan kəmiyyət təhlili yalnız karbon emissiyalarının konsentrasiyası və intensivliyini araşdırmağa kömək etmir, həm də hədəf tədbirlərin və onların dövri nəzarətinin həyata keçirilməsi üçün əsas verir. Eyni zamanda, müxtəlif tədqiqat perspektivlərinin vahid bir mövzuya bağlı olması üçün alimlərə müxtəlif səviyyələrdə karbon istehlakını əlaqələndirməkdə kömək edir.

Tədqiqatın əsas məqsədi, karbon ayaqizinin insan fəaliyyətinin iqlim dəyişikliyinə təsirini və müvafiq tədbirləri müəyyən etməkdir. Tədqiqatın vəzifələri arasında karbon ayaqizinin analizini aparmaq, müxtəlif istehlak sahələrinin karbon istehlakını əlaqələndirmək və karbon vergilərinin istehlak davranışına təsirini araşdırmaq var.

Karbon izlərinin hesablanması tapşırığına metodoloji olaraq iki fərqli istiqamətdən yanaşmaq olar: Proseslərin Təhlili (Proses Analyse) əsasında aşağıdan yuxarıya və ya Ətraf Mühitin Giriş-Çıxış (Environmental Input-Output Analysis) təhlili əsasında yuxarıdan aşağıya. Burada onların əsas üstünlükləri və çatışmazlıqları haqqında yalnız qısa təəssürat vermək olar.

Ekoloji ayaqizi anlayışı ortaya atıldığından bəri insanın sosial-iqtisadi sistemlərinin daşıma qabiliyyəti və davamlılıq mexanizmləri diqqət çəkməyə başlayıb. Karbon ayaqizi onun ən vacib konseptual genişlənmələrindən biridir. Karbon ayaqizi, bir fəaliyyət tərəfindən birbaşa və dolayı yolla səbəb olan və ya bir məhsulun həyat mərhələləri boyunca toplanan ümumi karbon dioksid emissiyasının eksklüziv miqdarı kimi müəyyən edilir. Bu tərifə görə, karbon emissiyasının mənasından fərqli olaraq, karbon ayaqizi, istehlakçı məsuliyyəti perspektivindən məhsulların tam həyat dövründəki karbon emissiyalarına daha çox diqqət yetirir. Karbon ayaqizi üzrə tədqiqat iqlim dəyişikliyinin makro-kontekstində ümumiləşdirilmiş tədqiqat paradiqmasına doğru irəliləyir (Voll, Peters and Bardow, 2014).

Karbon vergiləri, istehlakla bağlı istixana qazı emissiyalarının xərclərini artıraraq qlobal istiləşməni azaltmaq üçün əsas bir vasitə olaraq qəbul edilir. Karbon vergiləri ilə bağlı əvvəlki tədqiqatlar, onların ev təsərrüfatlarının ümumi emissiyalarını 80%-ə qədər azalda biləcəyini göstərir, xüsusən enerji istehlakını azaldaraq. Qida siyasəti kontekstində, müdaxilələr, spirt, şəkər və ya yağ tərkibi kimi qida məhsullarının tərkibinə əsaslanan vergilərə fokuslanmışdır. Karbon vergisi, qida məhsullarının ekoloji deyil, sağlamlıqla bağlı olan tərkib hissələrini vergiləndirərək, qida ilə bağlı müdaxilələri əks etdirir. Lakin, onların istehlak üzərindəki təsiri ilə bağlı tədqiqatlar məhduddur (Kemper, 2015).

Tədqiqatın məhdudiyyətləri, müxtəlif sektorlarda karbon istehlakını tam şəkildə əhatə edə bilməməsi və fərqli coğrafi bölgələrdəki spesifik amilləri nəzərə almaması ilə bağlıdır. Məsələn, kənd

təsərrüfatı, sənaye və xidmət sektorları arasında karbon istehlakının müxtəlifliyi, tədqiqatın nəticələrinin universal tətbiqini çətinləşdirir. Hər bir sektorda istifadə olunan enerji mənbələri və istehsal prosesləri fərqli olduğu üçün, bu fərqliliklər nəticələrin dəqiqliyini və tətbiq oluna bilənliyi azaldır.

***Karbon Ayaqizi Anlayışı***

"Karbon ayaqizi" qlobal iqlim dəyişikliyi təhlükəsinə qarşı məsuliyyət və azalma tədbirləri ilə bağlı ictimai müzakirələrdə geniş istifadə olunan termin və anlayışa çevrilmişdir. Bu, son bir neçə ay və illərdə ictimai görünüşündə böyük bir artım əldə etdi və indi mediada, hökumətdə və iş dünyasında geniş istifadə olunan bir sözdür.

Karbon ayaqizi anlayışı, ekoloji ayaqizi adlı daha əvvəlki anlayışla əlaqəlidir. 1990-cı illərin əvvəllərində Kanadalı ekoloq William Rees və İsveçrə doğumlu regional planlaşdırıcı Mathis Wackernagel tərəfindən Britaniya Kolumbiya Universitetində irəli sürülmüşdür. Ekoloji ayaqizi, fəaliyyətin və ya populyasiyanın davamlılığını təmin etmək üçün lazım olan torpaq sahəsinin ümumi ölçüsüdür. Əksinə, karbon izi adətən çəki ölçüsü kimi, il ərzində tonlarla $CO_2$ və ya $CO_2$ ekvivalenti şəklində ifadə edilir. Karbon izi müvafiq emissiyaların azaldılması və yoxlanılmasına rəhbərlik etmək üçün bir vasitə kimi nəzərdə tutulub, buna görə də onun beynəlxalq səviyyədə standartlaşdırılması zəruridir. Karbon ayaq izinin necə ölçülməsi və ya bununla bağlı konsensus yoxdur. Təriflərin spektri birbaşa $CO_2$ emissiyalarından tam həyat dövrü istixana qazı emissiyalarına qədər dəyişir və hətta ölçü vahidləri aydın deyil (Wiedmann, Minx, 2007).

Dünyada orta insan hər il 4.8 t metrik karbon dioksid emissiyası istehsal edir. ABŞ-da bu rəqəm üç dəfədən çoxdur — 16.2 ton. Əslində, ABŞ-ın adam başına düşən karbon ayaqizi, Kanada (15.64 t), Rusiya (11.76 t), Almaniya (9.73 t), Yaponiya (9.45 t), Çin (6.98 t), Birləşmiş Krallıq (5.81 t), Fransa (5.48 t), Braziliya (2.27 t) və Hindistan (1.84 t) kimi bir çox ölkədən daha böyükdür (Şahin ve Avcıoğlu, 2016).

***Metodologiya üsulları***

Karbon qizinin hesablanması üçün bir neçə əsas metodologiya mövcuddur. Ən yaygın olanları aşağıdakılardır:

Ətraf mühitin mühafizəsi zəhərli materiallar, tullantılar, yanacaqlar və yağlar kimi çirkləndiricilərin yaratdığı ekoloji riskləri azaltmaq üçün təşəbbüsləri əhatə edir. Bu materiallarla düzgün işləmək üçün prosesləri qurmaq, saxlama qablarını və yerlərini qiymətləndirmək və profilaktik baxım prosedurlarını qurmaqla, bu proqramlar çirklənmənin qarşısının alınması və tənzimləmə qaydalarına uyğunluğu həll edir. Əslində ətraf mühitin mühafizəsi insanlara, ətraf mühitə və planetə fayda verməyə çalışan istənilən qurumu əhatə edir. Biofiziki mühit həddindən artıq istehlak, əhali və texnologiyanın təzyiqləri səbəbindən bəzən daimi olaraq məhv edilir. Bu etiraf edildi və hökumətlər ətraf mühiti pisləşdirən fəaliyyətlərə məhdudiyyətlər qoymağa başladılar.Ətraf mühitin mühafizəsinin

digər istiqaməti tullantıların istifadəyə yararlı məhsullara çevrilməsi yolu ilə təkrar emaldır. Ən böyük sərvətimiz olan Yer kürəsinin sağlamlığını qorumaq üçün nəzərdə tutulmuş istənilən mühafizə hər bir bitki, heyvan və insanı qorumağa xidmət edir. Ekoloji fövqəladə hallar planları da daxil edilir ki, bunlar dağılma və ya tullantı halında atılacaq addımları əks etdirir (Göyçaylı,2008).

Ətraf mühitin mühafizəsi istiqamətində görüləcək əsas iş ətraf mühitin davamlılığını təmin edilməsidir. Ümumiyyətlə, davamlılıq gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə xələl gətirmədən indiki nəsillərin ehtiyaclarını ödəməkdən ibarətdir.




Ətraf mühitin davamlılığı ekoloji tarazlığa aiddir. Təxminən iki minillikdir ki, insanlar qlobal iqlim dəyişikliyinə töhfə verən planetimizi karbonlaşdırırlar. Birləşmiş Millətlər Təşkilatının iqlim dəyişikliyi ilə bağlı elmi qiymətləndirən orqanı olan İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelə (IPCC) görə, insan hərəkətlərinin planetə təsir göstərdiyi, atmosferin, okeanın və qurunun istiləşməsi ilə nəticələndiyi danılmazdır.Birləşmiş Millətlər Təşkilatına görə, Paris Sazişi dünyanın demək olar ki, hər bir dövləti tərəfindən qəbul edilmiş hüquqi cəhətdən məcburi beynəlxalq müqavilədir və iqlim dəyişikliyi ilə mübarizə aparmağa çalışır. Razılaşmanın məqsədi karbon emissiyalarını kifayət qədər azaltmaq və qlobal temperatur artımı 1,5 dərəcədən aşağı saxlamaq məqsədi daşıyır (Naomi Klein,2014).

İqlim dəyişikliyinin mənfi təsirlərini görməyə davam etdikcə, getdikcə daha çox hökumətlər, təşkilatlar və fərdlər ekoloji davamlılığı qəbul edir və təşviq edir. Bu müxtəlif qruplar gələcək nəsillər naminə qlobal ekosistemlərimizi qorumaq üçün dünyamızı karbonsuzlaşdırmaq kimi yüksək məqsədə doğru çalışırlar.Ətraf mühitin davamlılığı gələcək nəsillər üçün ətraf mühitin qorunması ilə bağlıdır. Ekoloji cəhətdən davamlı təşkilatlar səmərəliliyi artırmaq, resurs istehlakını, tullantıları azaltmaq və bütün təchizat zəncirində karbon emissiyalarını ölçmək və izləmək üçün addımlar atır. Bu gün bir çox təşkilatlar ətraf mühitə təsirlərini izləməyə və azaltmağa imkan verən mürəkkəb texnologiyanı mənimsəməklə ətraf mühitin mühafizəsi üzrə səylərini gücləndirirlər (Ələkbərov,2017).

Bir təşkilatın ömrü boyu gəlirli qalmaq qabiliyyətinə yönəlmiş kimi görünsə də, iqtisadi davamlılıq təkcə pulla bağlı deyil. İqtisadi cəhətdən dayanıqlı bir təşkilat cəmiyyətə, ətraf mühitə və ya işçilərinin sağlamlığına və rifahına mənfi təsir göstərmədən gəlir əldə edə və uzunmüddətli biznes artımını təmin edə bilən təşkilatdır. İqtisadi davamlılıq cəmiyyətin sosial, ekoloji və mədəni komponentlərinə mənfi təsirləri minimuma endirməklə yanaşı, uzunmüddətli iqtisadi artımı təşviq edən siyasətlərə aiddir. Yer üzünə zərər verən bəzi hərəkətlərə qalıq yanacaqların yandırılması, qida tullantılarına səbəb olmaq, zərərli istehsal üsullarından istifadə etmək və iqlim dəyişikliyinə töhfə vermək daxildir. Davamlı seçimlər ətraf mühitə daha az zərər verən daha yaxşı biznes təcrübələrinə

imkan verir. Bundan əlavə, iqtisadi davamlılıq maliyyə xərclərini və faydalarını əhatə edir və cəmiyyəti və onun rifahını dəstəkləməyi hədəfləyir.İdeal, dayanıqlı iqtisadiyyat ən az resursdan istifadə etməklə və ətraf mühitə ən az zərər vurmaqla ümumi rifahın ən yüksək səviyyəsinə nail olur. İqtisadi cəhətdən tam dayanıqlı olmaq üçün təbii ehtiyatlara ümumi tələb təbiətdə mövcud olan bərpa olunan mənbələrdən daha az olmalıdır.

Müəssisələr iqtisadi artımı davam etdirmək üçün əhalinin eksponensial genişlənməsinə və təhlükəli ekoloji təcrübələrə etibar edə bilməzlər; bu düşüncə artıq dünyamızda fəlakətə səbəb olur. Həmişə ekoloji davamlılığa nail olmaq üçün biz ətraf mühitin və insanların sağlamlığını təşviq edən yeni iş üsulunu qəbul etməliyik.

Sosial davamlılıq insanları narahat edən davamlılığın aspektlərinə aiddir. Bu, cəmiyyətin bütün üzvlərinə öz potensiallarını reallaşdırmaq və dolanışıq qazanmaq üçün bərabər imkanların yaradılmasını nəzərdə tutur. O, həm də təbiətlə cəmiyyət arasındakı münasibəti, eləcə də həmin cəmiyyət daxilindəki insanlar arasındakı münasibəti təmsil edir.

Bütün planetdə insanlar və ekosistemlər iqlim dəyişikliyinin zərərli təsirlərindən əziyyət çəkdiyinə görə, dünya miqyasında bir çox fərdlər, qurumlar və təşkilatlar ekoloji dayanıqlığı qəbul edir və bu mühüm səbəbi prioritet hesab edirlər. Bu səylər bizə planetimizi karbonsizləşdirməyə və gələcək nəsillərin sağlamlığını və rifahını dəstəkləmək üçün təbii ehtiyatları qorumağa imkan verəcək.

Müəssisələr üçün ekoloji davamlılıq təkcə ətraf mühit üçün deyil, həm də biznes üçün yaxşıdır. Davamlılığı müdafiə etməklə və daha sağlam mühiti dəstəkləyən proqramları işə salmaqla bütün sənayelər üzrə müəssisələr brendə inam yarada, müştəri sədaqətini artıra və işçilərin məmnuniyyətini artıra bilər. Ətraf mühitin davamlılığı artıq müəssisələr üçün korporativ sosial məsuliyyətdir.

***2. Ekoloji davamlılılğın təmin olunması.***

Bütün dünyada təşkilatlar davamlılıq səylərini sürətləndirmək istəsələr də, çoxları haradan başlayacağını bilmir. Əgər biz müəssisəmizin ətraf mühitə təsirini azaltmağın yollarını axtarırıqsa, burada başlamanıza kömək edəcək bir neçə ekoloji davamlılıq nümunəsi və məsləhətləri təqdim edirik:

- Ətraf mühitdəki izlərini azaltmaq üçün bir çox təşkilat günəş, hidro, geotermal və külək kimi bərpa olunan enerji mənbələrinə keçir. Proqnozlar göstərir ki, 2035-ci ildən sonra ümumi elektrik istehsalının 50 faizi bərpa olunan mənbələrdən - əsasən külək, günəş və su elektrik enerjisindən olacaq.
- Hər il insanlar 100 milyard ton material istehlak edir və 2020-ci ildə bu materialların yalnız 8,6 faizi istifadə edildikdən sonra yenidən iqtisadiyyata qaytarılıb. Tullantıların azaldılmasına kömək etmək üçün bəzi təşkilatlar materialların idarə edilməsinə getdikcə daha çox dairəvi yanaşma tətbiq edirlər. Bu, təkcə təkrar emal edilmiş məzmunun istifadəsini artırmaq deyil, həm də əməliyyatlar, məhsullar və qablaşdırma üçün məsuliyyətlə materialların alınması deməkdir.
- İnnovativ ekoloji davamlılıq həlləri təşkilatlara tədarük zəncirində karbon emissiyalarını ölçməyə, qeyd etməyə və hesabat verməyə imkan verir. Bu, təşkilatlara təsirlərini azaltmağa, səmərəlilik əldə etməyə və davamlı dəyişikliklər etməyə imkan verir.
- Sağlam bir planet üçün sağlam ekosistemlər vacibdir. Birləşmiş Millətlər Təşkilatının araşdırmasına görə, dünya ekosistemlərinin sağlamlığı əvvəllər düşündüyümüzdən daha sürətlə pisləşir. Buna görə də ekoloji cəhətdən şüurlu təşkilatlar ekosistemlərə təsirlərini idarə etmək yollarını axtarır və iqlim-sabit gələcək üçün təbii ehtiyatların qorunmasına kömək etmək üçün addımlar atır.
- Ətraf mühitin davamlılığına sadiq olan bir çox təşkilat ümumi su istehlakını azaltmağa çalışır və bəziləri növbəti onillikdə suya müsbət təsir göstərməyi qarşısına məqsəd qoyub. Əhali artımı, iqtisadi

inkişaf və daim artan istehlak səbəbindən suya tələbatda qlobal artım var. Əgər tədbir görməsək, proqnozlar göstərir ki, 2030-cu ilə qədər su təchizatında tələbata nisbətən 56 faiz kəsir yaranacaq.

- Təşkilatların davamlılıq səylərini artıra bilməsinin başqa bir yolu, səbəbi dəstəkləyən siyasətləri müdafiə etməkdir. Buraya karbon emissiyalarını azaltmağa, sıfır karbon enerjisini inkişaf etdirməyə, ekosistemləri effektiv idarə etməyə və suya çıxışı, mövcudluğu və keyfiyyəti artırmağa kömək etmək üçün hazırlanmış siyasətlər daxildir. Cəmiyyətinizdə, ölkənizdə və dünyada daha böyük davamlılıq fəaliyyətinə təkan verməklə, təşkilatınız əhəmiyyətli fərq yarada bilər.

Qlobal əhali artdıqca və həddindən artıq enerji istifadəsinin və sənaye artımının uzunmüddətli nəticələrini yaşamağa başladıqda, biz gələcək zərərin qarşısını almalıyıq. Gələcək nəsillərimizin yaşamaq üçün sağlam yerlərə sahib olmasını təmin etmək və yerin biomüxtəlif ekosistemlərinə vurduğumuz zərəri minimuma endirmək bizim işimizdir. Bizneslər üçün davamlılıq davamlı təcrübələr vasitəsilə biznesin idarə edilməsi və ətraf mühitə çox zərər vurmadan gələcək inkişaf potensialının təmin edilməsi deməkdir.

Ətraf mühitin davamlılığı yerin dəstəkləyici ekosistemlərinə lazımsız gərginlik yaratmadan insan həyatının keyfiyyətini yaxşılaşdırmaq məqsədi daşıyır. Bu, istehlakçı insan mədəniyyəti ilə canlı dünya arasında tarazlıq yaratmaqdan gedir. Bunu təbii ehtiyatları israf etməyən və ya lazımsız yerə tükənməyən bir şəkildə yaşamaqla edə bilərik (Məmmədov,2005).

### *3. Ətraf mühitin davamlılığı müsbət təsirləri.*

Ətraf mühitin davamlılığı hər gün nə qədər enerji, qida və insan tərəfindən yaradılan resurslardan istifadə etdiyimizə görə vacibdir. Sürətli əhalinin artımı əkinçilik və istehsalın artması ilə nəticələnərək daha çox istixana qazı emissiyasına, qeyri-davamlı enerji istifadəsinə və meşələrin qırılmasına gətirib çıxardı.

Başqa sözlə, bizim əvvəlkindən daha çox enerji və materiallara ehtiyacımız var. Buna baxmayaraq, planetimiz tükənməyə başlamazdan əvvəl bu qədər resurs təmin edə bilər. Bu səbəbdən müəssisələr işə qarışmalı və üzərinə düşəni etməlidir. Onlar hər hansı bir qrup şəxsdən daha çox gücə malikdirlər və tullantıların azaldılması, kommersiya təmiz enerjidən istifadə və ədalətli əmək haqqının ödənilməsi kimi davamlı və məsuliyyətli təcrübələrə sərmayə qoymaqla yaşana bilən gələcəyi təmin etməyə kömək edə bilərlər (Косолаповой və Прокопенко,2023).

Ekoloji dayanıqlığın əldə edilməsinin iki əsas yolu var: fərdlər və korporasiyalar (dövlət orqanları) tərəfindən.

- Fərdlər olaraq, birdəfəlik plastikdən asılılığımızı azaltmaq üçün daha az su istifadə etmək, ət istehlakımızı azaltmaq və təkrar istifadə edilə bilən məhsullara keçmək kimi daha davamlı həyat tərzinə doğru kiçik, lakin təsirli addımlar ata bilərik.
- Korporasiyanın nöqteyi-nəzərindən, ekoloji davamlılıq anbarlarda, fabriklərdə və ofislərdə bərpa olunan enerjiyə keçidi və ya istehsalda birdəfəlik plastiklərin kəsilməsini əhatə edə bilər.

Hər birimiz ilk növbədə ətraf mühitlə tanış olmalıyıq. Bütün canlılar ətraf mühitin öz əlverişli zonalarında mövcuddur; buna görə də planetə təsirimizə məhəl qoymamaq çətindir. Ətraf mühit öz təbii vəziyyətində qala bilsə də, insanın iştirakı bir çox ekosistemi məhv etmişdir. Buna görə də, bu planetdə sağlam və təhlükəsiz mühitdə yaşamağa davam etmək üçün ətraf mühitimizi qorumağımız çox vacibdir.

ƏDƏBİYYATLAR:

1. Göyçaylı Şövqi Yusifziya oğlu. Ətraf mühiti mühafizə: dərs vəsaiti . Ş. Y. Göyçaylı, B. M. Əzizov.- Bakı: MBM, 2008.- 278 s.

2. Ələkbərov Urxan Kazım oğlu. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları: dərslik .U. K. Ələkbərov; red. A. Əlizadə.- Bakı: Təhsil, 2017.- 176 s.

3.Bayramov Kərəm Bayram oğlu. Təbiətdən istifadənin iqtisadi və ekoloji problemləri . K. B. Bayramov; elmi red. O. K. Alxasov.- Bakı: ADPU nəşriyyatı, 2012.- 120 s.

4.Ekologiya: dərslik . F. Q. Əliyev ; elmi red. B. Ə. Budaqov; red.: M. Ş. Babayev, N. Məmmədov, F. Mustafayev.- Bakı: Elm, 2012.- 828 s.

5.Ekologiya: dərs vəsaiti .Azərbaycan Dövlət İqtisad Universiteti; tərt. T. B. Hüseynov ; elmi red. V. Z. Mehdiyeva.- Bakı: İqtisad Universiteti nəşriyyatı, 2012.- 392 s.

6.Məmmədov, Qərib Şamil oğlu. Ekologiya və ətraf mühitin mühafizəsi . Q. Ş. Məmmədov, M. Y. Xəlilov.- Bakı: Elm, 2005.- 880 s.

7. Экологические основы природопользования. (СПО). Учебник.Нины Васильевны Косолаповой, Надежды Александровны Прокопенко «Экологические основы природопользования. (СПО). Учебник.» 16 декабря 2023.

8. Актуальные научно-технические и экологические проблемы сохранения среды обитания : сборник статей конференции, 6–8 апреля 2016 г., Брест : в 2 частях. — Часть 1. — Брест : БрГТУ, 2016. — 339 с.

9. Naomi Klein.This Changes Everything: Capitalism vs. The Climate (Hardcover). 2014.

10. John Grim. Ecology and Religion (Foundations of Contemporary Environmental Studies Series). 2012.

## İqlim Dəyişikliyində Karbon Qazının Rolu Və Azaldılmasının Həlli Yolları

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**“ictimai idarəetmə və sosial innovasiyalar” kafedrasının müəllimi,**
**i.f.d. Fidan Qurbanova**
**fidan.gurbanova@unec.edu.az**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),**
**İqtisadiyyat və idarəetmə fakültəsi,III kurs, Ekologiya**
**Ağayev Nadir Nazir**
**nadir.agayev2004@gmail.com**

**XÜLASƏ**

Məqalənin əsas aktuallığı və məqsədləri ondadır ki, iqlim dəyişikliyində karbon qazının əsas təsir dairəsini təyin etmək və bu təyin nəticəsində məqalənin sonunda verilən təkliflərin hansı sahələrdə tətbiq olunsa bu karbon emissiyasının təsiri azaldıla bilməsinin məqsədə uyğunluğudur. İqlim dəyişikliyi – 90% istixana qazları ($CO_2$, $CH_4$ və digər) təsiri nəticəsində təbiətin komponentlərinə mənfi təsirin olması və bu təsirlər nəticəsində ətraf mühitin komponentlərinin dəyişikliyə uğramasıdır. Həmçinin, meşələrin qeyri-qanuni qırılması, meşə yanğınları, bitki aləminin azalması, torpaq örtüyündə pozulmalar və ən əsası antropogen təsirlər və s. Dolayı və ya birbaşa olaraq iqlim dəyişikliyinə təsir göstərir. Belə ki, iqlimin pozulması burada bir çox fəsad və anomaliyalara səbəb olur. Misal olaraq səhralaşma problemləri, turşulu yağışların yağması, buzlaqların əriməsi, normadan artıq buxarlanma kimi mənfi nəticələr yaranır.

Son onilliklər ərzində iqlimlə əlaqədar göllərin və çayların istiləşməsi müşahidə olunub. Nəticədə şirin su ekosistemləri ilə yanaşı orqanizmlərin növ tərkibi, bolluğu, məhsuldarlığı və fenoloji dəyişikliklərə (əvvəlki miqrasiya daxil olmaqla) məruz qalmışdır. Həmçinin bir çoxlarında istiləşmə nəticəsində göllərdə daha uzun təbəqələşmə qida maddələrinin konsentrasiyasının azalması ilə səth qatı və daha uzun daha dərin təbəqələrdə oksigenin tükənməsi müşahidə edilmişdir.

**JEL kodu : Q 54**

**Açar sözlər:** karbon qazı, iqlim dəyişikliyi, texnologiya, alternativ enerji, emissiya

**Summary**

The main relevance and objectives of the article are to identify the primary impact areas of carbon dioxide in climate change, and to determine how the suggestions provided at the end of the article can effectively reduce carbon emissions in varius sectors. Climate change refers to the negative impact on the components of nature due to 90% of greenhouse gases (CO2, CH4 etc.), resulting in changes to enviromental components. Additionally, illegal logging,forest fires, reduction of vegetation, disruptions in soil cover, and primarily anthropogenic influences affect climate change both directly and indirectly. Consequently, climate disruption leads to various consequences and anomalies, such as desertification, acid rain, glacier melting, and excessive evaporation.

In recent decades, the warming of lakes and rivers related to climate has been observed. As a result, along with freshwater ecosystems, organisms have experienced changes in species composition, abundance, productivity, and phenological changes ( including earlier migration). Furthermore, in many cases, warming has led to longer startification in lakes, decreased concentrations of nutrients, and oxygen depletion in both surfance and deeper layers.

**Keywords**: carbon dioxide, climate change, technology, alternative energy, emission

***Karbon Qazının Təsirləri.***

İnsan fəaliyyəti nəticəsində sənaye sahələrinin səmərəsiz istismarı, kənd təsərüfatından intensiv istifadə, meşələrin qırılması və təbii landşaftların antropogenləşdirilməsi, nəqliyyatın artımı kimi bir çox böyük təsirlər havada karbon qazının miqdarını kütləvi şəkildə artırır.

Karbon qazı atmosferdə həddindən artıq olduqda burada temperatur fərqi yaradır. Bu artım nəticəsində buzlaqlarda ərimə baş verir və bu ərimnin təsiri nəticəsində okean səviyyəsi artır. İstixana effekti Arktika, Antarktida və Qrenlandiya ərazilərində getdikcə əriməni daha da sürətləndirir. Aparılan tədqiqatlar göstərir ki, İndiki vəziyyətdə Qrenlandiya adasında 2003-cü ilə nisbətən bu ərimə 4 dəfə daha intensiv gedir. Bu da dəniz səviyyəsinin hazırki qalxmasının 20%-ni əhatə edir.



Mənbə: NASA-nın peyk təsvirləri ilə Dünyanın 100-dən çox ölkəsində karbon emissiyası miqdarını vermişdir.

Yuxarıda NASA-nın OCO-2 peyk görüntü və ölçmələri ilə məlumatlandırılmış təxminlərdən istifadə edərək 2015-ci ildən 2020-ci ilə qədər orta (xalis) emissiya qazları və karbon emissiyalarının miqdarı göstərilmişdir. Görüntülərə əsasən sənaye ölkələrindən olan Çin, ABŞ və Rusiyanın şərq hissəsi karbon emissiyasında ən çox miqdarı göstərilən ölkələrdəndir. Azərbaycanda digər ölkələrdən nisbətən daha az olsa da hazırki vəziyyətin artımını nəzərə alaraq karbon emissiyası sürətlə artacağı göz önündədir.

Aşağıda verilən diaqramda ötən əsr ilə bu əsr arasındakı karbon emissiyasının fərqi göstərilmişdir. Bu da göstərir ki, əsasən sənaye inqlabından sonra əlavə olaraq nəqliyyatın artımının həddindən artıq olması və nisbətən mənfi təsir göstərən faktorlar artaraq karbon emissiyasının artımı yaranmışdır. Bu artım isə iqlim dəyişikliyindəki pozulmaların əsas təkan verici qüvvəsi sayılır.

***2. İqlim dəyişikliyi.***

Bütün bu baş verən proseslər dünya problemi olduğu üçün Azərbaycandan da bu iqlim dəyişikliyi yan keçmir. Azərbaycanda da mövcud olan ağır sənaye və dağ-mədən sənayelərinin mövcudluğu və bu sahələrin kortəbii yerləşdirilməsi, burada torpağın, suyun, biomüxtəlifliyin və ümumilikdə isə iqlimə mənfi təsirləri ilə qiymətləndirilir. İqlim dəyişikliyi qlobal xarakter daşıdığı üçün Azərbaycanda da problemlərə prioritet yanaşaraq həll prosesində addımlar atılır. Davamlı inkşafın məqsədlərinə və COP-29-a uyğun olaraq burada həmin sahələrdə "Yaşıl dünya naminə həmrəylik ili" şüarı altında bir çox işlər görülməyə başlamışdır.

Aşağıdakı cədvəldə Azərbaycanda ümümi 2020-ci ilə qədər atılan karbon qazı miqdarı göstərilmişdir. Bu statistika göstərir ki, Azərbaycanda sənaye sahələrinin karbon qazı tullantıları kifayət qədər çoxdur və bunun minimallaşdırılması olduqca önəmli xarakter daşıyır.




Mənbə:Dünya bankının 1990-2020 il aralığında Azərbaycan üçün verdiyi statistika

Bildiyimiz kimi Aran bölgəsində əsasən Kür-Araz ovalığında, Abşeron yarımadasında yarımsəhra və quru-çöl iqlimi formalaşmışdır. İqlimin dəyişməsi və bu dəyişmələr artdıqca burda yarımsəhradan səhraya çox sürətlə keçid olacaq. İqlimdə baş verən temperatur dəyişiklikləri və digər təsirlərdən olan səmərəsiz suvarma nəticəsində təxminən 333,6 373,4 min hektara çatmışdır. Bu da əkinə yararlı torpaqların getdikcə azalması deməkdir. Dolayı yolla isə Azərbaycanın əkin üzrə iqtisadi göstəricilərinə təsir göstərəcək.

Ağır sənaye və ümumilikdə istehsal sahələrini nəzərə alaraq 2022-ci ildə Azərbaycanda orta illik karbon emissiyası 38,06 milyon ton təşkil edir və bunun qarşısı alınmadıqda artım davam edəcək və dolayı yolla iqlim dəyişikliyindəki rolu böyüyücək (Mahmudov,İmanov və Hüseynov, 2018).




Mənbə: Climatewatch 2019 Azərbaycan üçün verdiyi proqnoz

Yuxarıda göstərilmiş diaqramda Azərbaycanın enerji kənd təsərüfatında çirklənmədə və sənaye sahələrində atılan karbon qazının havada miqdarı həddindən artıq olduğu göstərilmişdir. Bu da əsasən enerjinin alınmasında qalıq yanacaqların və məişət tullantılarının yandırılaraq enerji alınmasında nə qədər karbon qazı xaric olduğu da yuxarıdakı diaqramda öz əksini tapmışdır.

***İqlim dəyişikliyinin həlli yolları.***

Bütün bu həll yollarında alternativlərə keçid məsələn, təbii enerjilərdən istifadə edilən panellər v' qurğular sənaye komplekslərinin kompleks yerləşdirilməsi və ya sənaye tullantılarının qapalı emalı, ekoloji maarifləndirmə və s. tədbirlər əsasdır.

Əlavə olaraq aşağıda göstərilən texnologiyaya keçid iqlim dəyişikliyinin qarşısını almaqda mühüm rol oynayacaq. Sement, polad, enerji və ya kömür, təbii qazla işləyən elektrik satansiyalarında və s. Atılan karbon qazı bu texnologiya vasitəsilə digər qazlardan ayrılır və saxlanılır, daha sonra bu karbon qazı sıxılır və gəmi, boru kəmərləri vasitəsilə saxlanılan sahəyə daşınır. Daha sonra daimi saxlama üçün yerin dərinliklərində olan qaya birləşmələrinə vurulur. Bəs bu karbon qazı harda saxlanılır ? Duzlu sulu qatlar və ya tükənmiş neft, qaz anbarlarında olan sahələrdə saxlanılır.

Bu saxlama üsulunun avantajı ondadır ki, əgər buna ehtiyac olarsa həmin bu karbon qazını çıxararaq plastik, beton və ya bioyanacaq kimi istifadə etmək mümkündür.

Bu texnologiyanın tətbiq sahələri ; Bildiyimiz kimi karbon qazının çoxalmasında əsas rolu sənaye sahələri tutduğu üçün bir çox sənaye sahələrində bu texnologiyanın istifadə edilməsi həm ətrafa vurulan zərərin qarşısını alır həm də təkrar emalda rol oynayır. Əsas istiqamət və məqsəd isə bu emissiyaların azaldılmasıdır.Unutmayaq ki, dünya sadəcə bu gün bizə verilməyib. İllərdir gələcək nəsillərin qoruma səyləri nəticəsində günümüzə qədər gəlmişdir və bu ənənəni qoruyub saxlayaraq bizdən sonrakı nəsillərə saxlamaq hamımızın borcudur.

**ƏDƏBİYYATLAR:**

1.Rza Mahmudov, Fərda İmanov, Nazim Hüseynov. “Müasir iqlim dəyişmələri və təhlükəli hidrometeoroloji hadisələr” Bakı, 2018 (1ci müəllifin adını yaz bu qaydada yaz!!!)

2.Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı “ İqlim dəyişmələrinə dair termin və təriflər lüğəti”.

3. S. M. Semenov. "Методы оценки последствий изменения климата для физических и биологических систем" - Мoылва, 2012

4."Этический взгляд на изменение климата" – UNESCO 2019

5. Michael Mann "The New Climate War"-. America, 2021

6. Susan Inches "Advocating for the Environment: How to Gather Your Power and Take Action" , 2021

7 . Aykut Çoban "İklim Krizi Nasıl Çözülür? Kapitalist ve Ekososyalist Çözüm Stratejileri"-Türkiyə, 2022

8. Levent Kurnaz "Son Buzul Erimeden: İklim Değişikliği Hakkında Merak Ettiğiniz Her Şey. Türkiyə, 2019

https://www.ceicdata.com/en/azerbaijan/environmental-gas-emissions-and-air-pollution/az-co2-emissions

https://www.researchgate.net/figure/Azerbaijans-greenhouse-gas-emissions-in-total-and-by-sector-ClimateWatch-2019_fig2_342698902

https://climate.nasa.gov/vital-signs/carbon-dioxide/?intent=121

https://climate.nasa.gov/news/3251/nasa-space-mission-takes-stock-of-carbon-dioxide-emissions-by-countries/

https://www.nationalgrid.com/stories/energy-explained/what-is-ccs-how-does-it-work

## İqlim Dəyişikliyinin Azərbaycanda Elektrik Enerjisi İstehsalına Təsiri: Günəş və Hidroenerji İstehsalının Effektivliyinin Analizi

**Azərbaycan Texniki Universiteti**

**Vüsal Abbasov**

**avusal354@gmail.com**

**Xülasə**

İqlim dəyişikliyi atmosferdəki istixana qazlarının artması, dəniz səviyyəsinin yüksəlməsi, yağıntıların və çay axınlarının dəyişməsi və ekstremal hava şəraitləri ilə xarakterizə olunur. Bu araşdırma iqlim dəyişikliyinin Azərbaycanda elektrik enerji istehsalının effektivliyinə təsirini araşdırılmışdır. Müasir dövrdə iqlim dəyişikliyi enerji sektoru üçün vacib bir məsələdir və bu dəyişikliklərin bərpa olunan enerji texnologiyalarının fəaliyyətinə necə təsir etdiyini anlamaq, bu texnologiyaların uzunmüddətli davamlılığını təmin etmək baxımından kritik əhəmiyyət kəsb edir. Araşdırmada, günəş panelləri və hidroelektrik stansiyaların effektivliyinə temperatur və yağıntı dəyişikliklərinin təsiri hərtərəfli şəkildə qiymətləndirilmişdir. Bu təsirlərin dərk edilməsi, enerji istehsalının planlaşdırılması və idarə olunmasında vacib rol oynayır.

Azərbaycan hələ də özünün əhəmiyyətli bərpa olunan enerji və enerji səmərəliliyi potensialından istifadə etməyib, lakin 2021-ci ildə Parlament bu məqsədlə bir sıra qanunları təsdiqləyib. Bərpa olunan enerjinin istehsalı və enerji səmərəliliyinin artırılması üçün daha yüksək tədbirlər və daha çox səylər təbii qaz və neftə qənaət etməyə kömək edəcək. Uzunmüddətli perspektivdə enerji müstəqilliyinin təmin edilməsi Azərbaycanın enerji siyasətinin əsasını təşkil

etdiyinə görə, o, öz iqtisadiyyatını şaxələndirmənin, enerji səmərəliliyinin artırılmasının və emissiyalarının azaldılması proqramlarını dəstəkləməyin dəyərini dərk etmişdir.

**JEL kodu: Q4, Q54, Q42**

**Açar sözlər:** iqlim dəyişikliyi, günəş panelləri, hidroelektrik stansiya, tempratur dəyişikliyi, yağıntı miqdarı

**Summary**

Climate change is characterized by the increase of greenhouse gases in the atmosphere, rising sea levels, changes in precipitation and river flows, and extreme weather conditions. This study investigates the impact of climate change on the efficiency of electricity production in Azerbaijan. In modern times, climate change is a critical issue for the energy sector, and understanding how these changes affect renewable energy technologies is essential for ensuring the long-term sustainability of these technologies. The study comprehensively evaluates the impact of temperature and precipitation changes on the efficiency of solar panels and hydroelectric stations. Understanding these impacts plays a vital role in the planning and management of energy production.

Azerbaijan has not yet tapped its significant renewable energy and energy efficiency potential, but in 2021, Parliament approved a number of laws to this end. Higher measures and greater efforts to increase renewable energy production and energy efficiency will help save natural gas and oil. As ensuring energy independence in the long term is the cornerstone of Azerbaijan's energy policy, it has recognized the value of diversifying its economy, increasing energy efficiency, and supporting emission reduction programs.

**Keywords:** climate change, solar panels, hydroelectric power station, temperature changes, precipitation amounts

## İqlim Dəyişikliyi Və Sənayə

İqlim dəyişikliyinin əsas mühüm faktorlardan bir antropogen, yəni insan tərəfindən həyata keçirilən hadisələrlə əlaqədardır. Sənayenin sürətli inkişafı nəticəsində ətraf mühitə buraxılan zərərli qazların artması, təbiətin özünü tənzimləmə və istilik balansını pozur. Sənaye fəaliyyəti müəyyən bir həddən sonra əks təsir yaradır; yəni, iqlim dəyişikliyi də sənaye fəaliyyətlərinə mənfi təsir göstərir. İstilik elektrik stansiyalarından buraxılan milyonlarla ton zərərli maddə iqlim dəyişikliklərinə səbəb olmaqla yanaşı, zavodların fəaliyyətinə və məhsul tələbinə də mənfi təsir edir. Müxtəlif ölkələrdə baş verən təbii fəlakətlər yalnız sənaye fəaliyyətini iflic etmir, eyni zamanda insan həyatını da ciddi şəkildə təhlükəyə atır. İqlim dəyişikliyinin iqtisadi, ekoloji və sosial-iqtisadi təsirləri mütəmadi olaraq İqlim Dəyişmələri üzrə Dövlətlərarası Komissiya (İPCC) tərəfindən tədqiq edilir. İPCC, iqlim dəyişikliyinin ekoloji və sosial-iqtisadi təsirlərinin iqtisadiyyata dolayısı ilə təsir etdiyini təsdiqləyir (Intergovernmental Panel on Climate Change [IPCC], 2007).

Enerji sektoru iqlim dəyişikliyinin təsirlərinə qarşı çox həssasdır. Daşqınlar, ildırım vurması və quraqlıq kimi iqlim dəyişikləri nəticəsində yaranan hadisələri elektrik enerji şəbəkəsinin keyfiyyətinə mənfi təsir göstərə bilər (Intergovernmental Panel on Climate Change, 2023). İPCC-nin məlumatlarına görə, iqlim dəyişikliyi enerji tələbini dəyişdirə bilər; məsələn, isitmə üçün tələb olunan enerji azalaraq, soyutma üçün tələb artacaq. Şəhərlərdə hava keyfiyyətinin pisləşməsi və isti bölgələrdə həyat keyfiyyətinin aşağı düşməsi ehtimalı yüksəkdir. Artan daşqınlar əhalinin digər ərazilərə köçünə səbəb ola bilər, nəqliyyat sisteminə zərər vurula bilər (Tina & Nicolosi, 2021). İqlim

dəyişikliyi içməli suya olan tələbatı və sənaye sektoru üçün su ehtiyacını da problemlə qarşılaşdıra bilər. İqlim dəyişikliyinin sənaye sektoruna təsirləri arasında elektrik enerjisi sektorunun təsiri xüsusi əhəmiyyət kəsb edir. Belə ki, iqlim dəyişikliyi elektrik enerjisi tələbini dəyişə, istehsalda, ötürülmədə və paylanmada problemlər yarada bilə (Jakhar & Raj, 2023).

Azərbaycan, bərpa olunan enerji mənbələri üzrə yüksək potensiala malik ölkələrdən biridir. İqtisadi cəhətdən səmərəli və texniki baxımdan mümkün olan bərpa olunan enerji mənbələrinin potensialı ümumilikdə 27,000 MVt olaraq qiymətləndirilir. Bu potensiala daxil olan mənbələr arasında 3,000 MVt külək enerjisi, 23,000 MVt günəş enerjisi, 380 MVt bioenerji potensialı və 520 MVt dağ çaylarının enerji potensialı mövcuddur. İkinci Qarabağ müharibəsində əldə olunan qələbə, işğaldan azad edilmiş ərazilərin su ehtiyatlarının enerji məqsədilə istifadə olunması imkanını yaradıb. Tərtər çayı, Xəkəri çayı və onun qolları böyük hidroenergetika potensialına malikdir. İlkin müşahidələr, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonlarında günəş enerjisi layihələri üçün əlverişli potensialın mövcud olduğunu göstərir. Bu bölgələrdəki texniki potensial 7,200 MVt-dan çox qiymətləndirilir. Eyni zamanda, Laçın və Kəlbəcər rayonlarında külək enerjisinin texniki potensialı 2,000 MVt olaraq təxmin edilir (Azərbaycan Respublikasının Energetika Nazirliyi, 2023; Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi).

**Tempertura artımının təsriləri**

İqlim dəyişikliyi, temperatur artımına səbəb olaraq, Azərbaycanda ekosistemlərdə əhəmiyyətli dəyişikliklərə yol açır. Temperaturun yüksəlməsi, bitki örtüyünün dəyişməsinə və heyvan növlərinin yayılma sahələrinin dəyişməsinə səbəb olur. Bu, torpaq eroziyasını artırır və su resurslarının azalmasına yol açır. İqlim dəyişikliklərinin elektrik enerjisinin istehsalına təsirləri birbaşa və dolayısı ilə fərqlənə bilər. Məsələn, iqlim dəyişiklikləri su elektrik stansiyalarında (SES) suyun miqdarına, günəş elektrik stansiyalarında (GES) günəşli saatların sayına, və istilik elektrik stansiyalarında (İES) soyutma suyuna olan tələbin dəyişməsinə birbaşa təsir göstərə bilər. Bu birbaşa təsirlər arasında suyun miqdarının azalması və günəş işığının azlığı kimi faktörlər yer alır. Dolayısı ilə təsirlərə isə su ehtiyatlarının azalması ilə artan rəqabət nümunə göstərilə bilər.

Bu vəziyyət alternativ enerji mənbələrinə keçidin vacibliyini bir daha ortaya qoyur. Temperatur dəyişiklikləri bitki örtüyü və biomüxtəliflik üzərində təsir göstərə bilər. Temperatur artışını qiymətləndirmək üçün aşağıdakı formula istifadə edilir:

$$\Delta T = T_{1961-1990} - T_{2002-2023} \quad (1)$$

Burada, $T_{1961-1990}$ 1961-1990 illər, $T_{2002-2023}$ isə $2002-2023$ illər arasındakı orta temperaturu ifadə edir. Bu dəyişikliklərin biomüxtəliflik üzərindəki təsirini araşdırmaq məqsədilə əldə edilən nəticələr qiymətləndirilir.Yağış miqdarında dəyişikliklər biomüxtəlifliyi təsir edir. Yağış miqdarı dəyişikliklərini qiymətləndirmək üçün aşağıdakı formula istifadə olunur:

$$\Delta P = P_{1961-1990} - P_{2002-2023} \quad (2)$$

Burada, $P_{1961-1990}$ $1961-1990$ illər, $P_{2002-2023}$ $2002-2023$ illər arasındakı ortalama yağış miqdarını ifadə edir. Bu dəyişikliklər ekosistemlərin davamlılığına təsirini araşdırmaq üçün istifadə edilir.

Hidroelektrik stanstiyanin mövcud gücünü aşağıdakı düstürla təyin etməm mümkündür. Güc, hidravlik başlıq, volumetrik axın sürətindən və suyun sıxlığından asılıdır. Başlıq, suyun bir vahid çəkisi (və ya kütləsi) üçün enerji ölçüsüdür. Statik başlıq, suyun düşdüyü hündürlük fərqi ilə

proporsionaldır. Dinamik başlıq, hərəkət edən suyun sürəti ilə əlaqəlidir. Düşən sudan əldə olunan güc, axın sürəti və suyun sıxlığı, düşmə hündürlüyü və yerin cazibə qüvvəsi ilə hesablanır.

$$E = \rho\, gQH_{ver}\eta_T\eta_{EG} \tag{3}$$

Düsturda, $\rho$ = 1000 kq/m³ - suyun sıxlığı, $g$ = 9,8 m/s² - ağırlıq qüvvəsinin təcili, $Q$ - hidroturbindən keçən suyun sərfiyyatı, m³/s, $H_{ver}$ - hidroturbinə verilən suyun təzyiqi, m, $\eta_T$ - hidroturbinin f.i.ə., $\eta_{EG}$ -elektrik generatorunun f.i.ə.

Temperatur artımı və yağıntıların dəyişməsi bir çox tədqiqat da göstərilir ki, su elektrik stansiyaları resurslarının və ya elektrik istehsalına təsir göstərir (Soomro et al., 2024). Yeraltı su, səth suyuna nisbətən iqlim dəyişikliyindən daha az və daha yavaş təsirlənir. Bu, çayların daha qısa müddətlərdə yeniləndiyi və quraqlıqla sel hadisələrinin çay suyu səviyyələrində tez bir şəkildə görünməsiylə əlaqədardır. Suyun temperaturu hava temperaturu ilə sıx bağlıdır; hava istiliyi artdıqca, çay suyu da istilənir (Hammond və Pryce, 2007; Hassan et al., 1998).

İqlim dəyişikliyinin təsirlərinə dair aparılan hidroloji tədqiqatların əksəriyyəti, səth axındakı mümkün dəyişikliklərə yönəlmişdir. İqlim dəyişikliyi səbəbindən bir çox ekstremal hidroloji hadisələr, məsələn, sellər və quraqlıqlar baş vermiş, buna görə də hidroloji məlumatlarda yaranan riskli tendensiyalar üzərində araşdırmalar aparılmışdır. İllər üzrə baş verən axın dəyişikliklərinin, temperatur dəyişikliklərindən daha çox, yağışlardakı dəyişikliklərlə əlaqəli olduğu ortaya çıxmışdır (Küçükklavuz, 2009). Mohammad Mehedi Hasan və Guido Wyseure tərəfindən araşdırılmış elmi işdə əldə olunan nəticələr göstərir ki, iqlim dəyişikliyi Rio Jubones çayının axın rejimini əhəmiyyətli dərəcədə dəyişdirə bilər ki, bu da uzunmüddətli perspektivdə hidroenergetika potensialına təsir göstərə bilər. Yağışın 15% artması rütubətli mövsümdə axın axınının 13% artmasına, illik hidroenergetika istehsalının isə təxminən 8% yaxşılaşmasına səbəb olacaq. Bununla belə, temperaturun 2,9°C artması nəticəsində axın axını 17% azalacaq ki, bu da quraqlıq mövsümündə əhəmiyyətli dərəcədə güc azalmasına yol açacaq. Quru mövsümdə yağıntıların azalması və temperaturun yüksəlməsi enerji çatışmazlığı ilə əlaqəli ola bilər (Hasan & Wyseure, 2018).

**Cədvəl 1: Azərbaycan ərazisində yağıntı miqdarı**

www.stat.gov.

| | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1961-1990-ci illər üzrə orta çoxillik yağıntıların miqdarı** | | | | | | | | | | | | **479.5** | | | | | | | | | | |
| **Yağıntıların orta illik miqdarı** | 540.3 | 587.8 | 548.9 | 407.1 | 462.0 | 458.0 | 443.1 | 571.2 | 499.8 | 605.8 | 457.9 | 453.0 | 387.7 | 472.6 | 570.7 | 393.6 | 436.1 | 391.4 | 445.5 | 381.1 | 371.0 | 481.2 |
| **Orta illik yağıntıların orta çoxillikdən fərqi** | 60.8 | 108.3 | 69.4 | -72.4 | -17.5 | -21.5 | -36.4 | 91.7 | 20.3 | 126.3 | -21.6 | -26.3 | -91.8 | -6.9 | 91.2 | 85.9 | -43.4 | -88.1 | -43.4 | -98.4 | -108.5 | 1.7 |

az

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov. (24.07.2024)

Günəş panellərinin çıxış gücü, günəş şüalarının intensivliyi və panelin effektivliyinə bağlıdır və aşağıdakı formula ilə hesablana bilər:

$$P = G \cdot A \cdot \eta \tag{4}$$

burada P günəş panellərinin çıxış gücüdür (vat), G günəş radiasiyasının intensivliyi (W/m²), A günəş panellərinin sahəsi (m²), və η günəş panellərinin effektivliyidir. İqlim dəyişikliyi bu parametrlərə müxtəlif təsirlər göstərə bilər. Günəş radiasiyasının intensivliyi atmosferdəki bulud örtüyü səbəbi ilə dəyişə bilər. Ayrıca, temperatur artdıqca, günəş panellərinin effektivliyi azalır.

**Cədvəl 1: Azərbaycan ərazisində havanın tempraturu**

| | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1961-1990-ci illər üzrə orta çoxillik temperatur** | | | | | | | | | | | | **12.3** | | | | | | | | | | |
| **Orta illik temperatur** | 12.3 | 12.2 | 13.8 | 13.2 | 13.2 | 12.9 | 13.0 | 13.1 | 14.4 | 12.1 | 13.3 | 13.4 | 13.4 | 13.6 | 13.0 | 13.5 | 15.0 | 14.4 | 13.8 | 16.2 | 14.3 | 14.7 |
| **Orta illik temperaturun orta çoxillikdən fərqi** | 0.0 | -0.1 | 1.5 | 0.9 | 0.9 | 0.6 | 0.7 | 0.8 | 2.1 | 0.2 | 1.0 | 1.1 | 1.1 | 1.3 | 0.7 | 1.2 | 2.7 | 2.1 | 1.5 | 3.9 | 2.0 | 2.4 |
| **Ən yüksək (max) orta aylıq temperatur** | 26.2 | 24.7 | 25.4 | 24.9 | 26.9 | 25.5 | 25.4 | 24.5 | 26.2 | 26.7 | 27.0 | 25.7 | 28.5 | 24.7 | 24.7 | 26.6 | 28.4 | 25.4 | 25.4 | 25.8 | 25.2 | 24.8 |
| **Ən aşağı (min) orta aylıq temperatur** | 2.2 | 2.1 | 3.2 | 1.4 | 1.2 | 0.3 | -3.7 | 0.3 | 3.3 | 1.3 | 0.9 | 3.6 | 2.9 | 2.6 | 2.4 | 1.5 | 3.6 | 3.8 | 3.3 | 3.7 | 4.2 | 2.3 |

**Mənbə**: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, www.stat.gov.az (24.07.2024)

Kristal günəş panellərində nominal gücü 25 dərəcə Selsi şəraitində ölçülür, buna görə 25°C-dən yuxarı olan hər bir temperatur artımı üçün hər 2°C üçün 1% enerji itkisinə səbəb olur. Günəşli ölkələrdə isə quraşdırılmış günəş modulları adətən 25°C-dən yüksək temperaturda işləyir və bəzən 50°C və daha yüksək temperatur dəyərlərinə çatır (Sinovoltaics, 2016). Azərbaycan ərazisində 1961-1990-ci illər üzrə orta çoxillik temperatur 12.3° ilə 2002-2023 cü illər üzrə orta tempratur 13.6° olmuşdur və günəş panellərinin effektivliyə təsiri hesablasaq tempratur 1.3° artmışdır.

Hidroelektrik Stansiyalara 1961-1990-ci illər üzrə orta çoxillik yağıntıların miqdarı 479,5 mm, 2002 -2023 -ci illər üzrə orta çoxillik yağıntıların miqdarı 471,2 mm olmuşdur, 1961-1990-cı illərlə müqayisədə 2002-2023-cü illərdə yağıntıların miqdarı 8.3 mm azaldığı müşahidə olunur.

***Nəticə***

Bu araşdırmanın nəticələri göstərir ki, iqlim dəyişikliyi Azərbaycanda enerji sistemlərinə əhəmiyyətli təsirlər yaradır. İqlim dəyişikliyinin elektrik enerji istehsalına olan təsirləri, həm birbaşa, həm də dolayısı ilə, enerji istehsalını və bununla bağlı infrastrukturun səmərəliliyini təsir edir. Xüsusilə temperatur və yağıntı dəyişikliklərinin hidroelektrik stansiyalarının və günəş panellərinin effektivliyinə olan təsiri müzakirə olunmuşdur.

İlk öncə, hidroelektrik stansiyalarının istehsal gücü, suyun miqdarı ilə sıx bağlıdır. Araşdırmalar göstərir ki, 1961-1990-ci illərlə müqayisədə 2002-2023-cü illərdə yağıntıların miqdarı 8.3 mm azalmışdır. Bu, su resurslarının azalması ilə nəticələnə bilər ki, bu da elektrik istehsalına mənfi təsir göstərə bilər. Hasan və Wyseure (2018) tərəfindən irəli sürülən nəticələr də bu fikri dəstəkləyir; iqlim dəyişikliyi nəticəsində yaranan ekstremal hava hadisələri, məsələn, quraqlıq, enerji istehsalını əhəmiyyətli dərəcədə azaldır.

Lakin, günəş panelləri 25°C-dən yüksək temperaturda işlədikdə, enerji itkisi baş verir. Azərbaycanda uzunmüddətli temperatur artımını nəzərə alaraq, panelin işlədiyi şəraitin nə dərəcədə isti olduğu da vacibdir. Əgər mütəmadi olaraq 25°C-dən aşağı olsa, günəş panellərinin effektivliyi daha yüksək olacaq. Orta illik temperaturun 25°C-yə yaxınlaşması, günəş panellərinin performansına potensial olaraq təsir edə bilər. Kristal günəş panellərinin nominal gücü 25°C-də ölçüldüyü üçün, bu temperaturun üstündə olan şəraitlərdə enerji itkisi baş verir. Ən yüksək orta aylıq temperaturun 28.5°C-dən yuxarı olduğu illər, panellərin effektivliyinə mənfi təsir edə bilər. Hesablamalar göstərir ki, 1.3°C-lik temperatur artımı, enerji istehsalında mütənasibli 0.65% itkiyə səbəb ola bilər. Bununla yanaşı, 25°C-dən yuxarı olan temperaturun təsiri, günəş panellərinin səmərəliliyini daha da azalda bilər.

Nəticədə, enerji sektoru iqlim dəyişikliyinə adaptasiya olunmalı, müasir texnologiyalarla dəstəklənməlidir. Bu, eyni zamanda ekosistemlərin mühafizəsi və enerji təhlükəsizliyinin təmin olunması üçün də vacibdir. Azərbaycanın bərpa olunan enerji potensialının tam istifadəsi üçün iqlim dəyişikliyi ilə mübarizənin effektiv strategiyalarını inkişaf etdirmək lazımdır. Gələcək tədqiqatlar, iqlim dəyişikliyinin daha spesifik təsirlərini araşdırmaq və bərpa olunan enerji mənbələrinin effektivliyini artırmaq üçün uyğun yanaşmaların inkişafına yönəlməlidir. Eyni zamanda, iqlim dəyişikliyi ilə bağlı risklərin idarə olunması, enerji istehsalının optimallaşdırılması və dayanıqlı inkişaf üçün yeni strategiyalar tərtib edilməlidir.

Bu nəticələr, enerji istehsalında davamlılığın və effektivliyin təmin olunması üçün temperatur və yağıntı miqdarındakı dəyişikliklərin diqqətlə izlənməsini zəruri edir. Gələcəkdə enerji istehsalında mümkün olan təsirləri azaltmaq məqsədilə müasir texnologiyaların tətbiqi və adaptiv strategiyaların inkişaf etdirilməsi vacibdir. Bu tədbirlər enerji istehsalında daha sabit və etibarlı performansın təmin edilməsinə kömək edə bilər. Əgər bu dəyişikliklərin qarşısı alınmazsa, uzunmüddətli dövrdə daha böyük miqyasda effektivlik azalması və enerji istehsalında əhəmiyyətli çətinliklər yaşana bilər.

**ƏDƏBIYYATLAR**


1. Intergovernmental Panel on Climate Change (IPCC). (2007). *Climate change 2007: Synthesis report*. Valencia, pp. 12-15.
2. Intergovernmental Panel on Climate Change. (2023). *Reports*. Retrieved from https://www.ipcc.ch/reports/
3. Mukheibir, P. (2013). Potential consequences of projected climate change impacts on hydroelectricity generation. *Climatic Change, 121*(1), 67-78.
4. Tina, G. M., & Nicolosi, C. F. (2021). Assessment of the impacts of climate change on power systems: The Italian case study. *Applied Sciences, 11*(24), 11821. https://doi.org/10.3390/app112411821
5. Jakhar, R., & Raj, R. (2023). A review on the impacts of climate change on the power systems. *International Journal of Innovative Technology and Exploring Engineering, 12*(6), 56-61. https://doi.org/10.35940/ijitee.F9572.0512623
6. Azərbaycan Respublikasının Energetika Nazirliyi. (2023). *2023-cü ildə görülmüş işlərə dair hesabat*. Retrieved from https://minenergy.gov.az/az/hesabatlar/illik-hesabatlar
7. Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi. (2024). Retrieved from https://area.gov.az/az

8. Soomro, S.-h., Soomro, A. R., Batool, S., Guo, J., Li, Y., Bai, Y., Hu, C., Tayyab, M., Zeng, Z., Li, A., Zhen, Y., Rui, K., Hameed, A., & Wang, Y. (2024). How does climate change affect hydropower potential, freshwater fisheries, and the hydrological response of snow on water availability? *Applied Water Science*, 14, Article 65. https://doi.org/10.1007/s13201-024-00457-9

9. Küçükklavuz, E. (2009). Küresel Isınmanın Su Kaynakları Üzerine Etkileri: Türkiye Örneği (Yüksek Lisans Tezi), Harran Üniv., SBE İktisat Anabilim Dalı, 134 s. Şanlıurfa.

10. Hasan, M. M., & Wyseure, G. (2018). Impact of climate change on hydropower generation in Rio Jubones Basin, Ecuador. *Water Science and Engineering*, 11(2), 157-166. https://doi.org/10.1016/j.wse.2018.07.002

11. Anand, Sinovoltaics. (2016). *Measuring the temperature coefficient of a PV module*. Retrieved from https://sinovoltaics.com/solar-basics/measuring-the-temperature-coefficients-of-a-pv-module/

# İqlim Dəyişikliyinin Tənzimlənməsində Yaşıl İqtisadiyyatın Prinsip və Məqsədləri

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**"İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasının dosenti**
**c.f.d. Hacıyeva Afaq**
**afaq.adiu@mail.ru**
**Azərbaycan Dövlət İqtisad Universiteti ( UNEC)**
**magistr Fidan Qarayeva**
**e-mail: fidanqarayeva228@gmail.com**

**Xülasə.**

Bu gün planetimizi təşvişə salan iqlim dəyişikliyi bir sıra ekoloji problemlərin nəticəsində yaranmışdır. İqlim dəyişikliyi qaz emissiyalarının buraxılması və tutulması nəticəsində istixana effektinə səbəb olur və nəticədə atmosferin ətrafında günəşdən gələn istiliyi saxlayan bir təbəqə yaradaraq atmosferi bulud örtüyü yaradaraq, daha da isti edir. Kömür, neft və təbii qaz kimi qalıq yanacaqların yandırılması zamanı ətraf mühitə atılan istixana qazlarından əsas yeri karbon qazı, metan və azot oksidləri tutur. İstixana qazlarının miqdarının azaldıması, neft dağılmaları, meşələrin qırılması və yoxsulluq kimi ekoloji problemlərin həll yolları iqlim dəyişikliyinin də tənzimlənməsinə səbəb olur. İstər milli, istərsə də qlobal səviyyədə ətraf mühitin mühafizəsi və davamlı inkişaf üçün yaşıl iqtisadiyyat prinsipləri tətbiq edilir. Ekosistemlərin qorunması, ətraf mühitə minimum təsir göstərməklə təbii sərvətlərin istifadəsi və qorunması yaşıl iqtisadiyyatın prinsiplərinə daxildir.

Məqalədə əsasən iqlim dəyişikliyinə səbəb olan proseslərin araşdırılması, onların həll yollarının tapılmasında yaşıl iqtisadiyyatın vacibliyi və bu yolda müsbət nəticələr əldə etmək üçün görülən işlərin dəqiqliklə yerinə yetirilməsi məsələləri nəzərdən keçirilmişdir.

**JEL kod: 54**

**Açar sözlər:** iqlim dəyişikliyi, istixana qazları, yaşıl iqtisadiyyat, davamlı inkişaf.

**Abstract**

Climate change, which is the most pressing issue all over the world, has arisen as a result of a number of environmental problems. Climate change causes the greenhouses effect duet o the release and capture of greenhouse gases, which eventually creates a layer around the atmosphere that traps heat from the sun, making our atmosphere even hotter like a greenhouse. During the buing of fossil fuels such as coal, oil and natural gas, carbon dioxide, methane and nitrogen oxides are the main greenhouse gases released into the environment. Solutions to environmental problems such as reducing greenhouse gases, oil spills, deforestation and poverty also lead to climate change regulation. Green economy principles are applied for environmental protection and sustainable development both at the national and global level. Protection of ecosystems use and preservation of natural resources with minimal impact on the environment are included in the principles of green economy. The main purpose of writing this article is to investigate the processes that cause climate change to emphasize the importanceof the green economy in finding their solutions and to play a certain role in the accurate implementation of the work done to achieve positive results on this path.

**Key words:** Climate change, greenhouse gases, green economy, sustainable development.

***Yaşıl İqtisadiyyat Və Ekoloji Problemlər.***

Hazırda qloballaşan dünyanın bütün ölkələrində ən çox istifadə olunan termin yaşıl iqtisadiyatdır ki, bu terminin əsas məğzi iqlim dəyişikliyinin yaratdığı ekoloji riskləri və ekoloji çatışmazlılığı aradan qaldırmaq, eyni zamanda insanların rifah səviyyəsinin yüksəldilməsi və davamlılığın təmin olunmasıdır. Yaşıl iqtisadiyyat faktiki olaraq davamlı inkişafın alt təbəqəsi sayılır, çünki, davamlı inkişafın həyata keçirilməsi yaşıl iqtisadiyyatdan asılıdır. Yaşıl iqtisadiyyatı bu qədər aktuallaşdıran əsas səbəb sözsüz ki, hər gün müxtəlif sosial şəbəkələrdən, televizorlardan eşitdiyimiz iqlim dəyişikliyi ilə əlaqəlidir. Sənayeləşmə və urbanizasiya nəticəsində yaranan bir sıra ətraf mühit problemləri hər kəsi narahat edir. Hava və suyun çirklənməsi, torpaqların eroziyası, pestisidlərlə çirklənmə, biomüxtəlifliyin itirilməsi, meşələrin qırılması bütün dünyada sürətlə yayılmaqdadır. Ekoloji problemlər, xüsusilə insan tərəfindən törədilən iqlim dəyişikliyi beynəlxalq siyasət gündəmində mühüm yer tutur. Ətraf mühit problemləri ilə mübarizə iqtisadiyyatın da dəyişməsinə səbəb olur və nəticədə dünya ölkələri bu proseslərin qarşısını almaq üçün bir sıra tədbirlər görür. Yaşıl texnologiyadan istifadə, davamlı nəqliyyat, tullantıların idarə edilməsi, yaşıl iqtisadiyyata keçid kimi görülən işlər istər iqtisadiyyat, istərsə də planetimiz və insanlar üçün davamlı gələcək yaratmağa kömək edir. Lakin, bütün dünya ölkələri ekoloji problemlərin qarşısının alınması üçün bütün səylərini tam şəkildə ortaya qoymurlar. Bunun səbəbi qlobal səviyyədə verilən vədlər ilə milli səviyyədəki maraqların üst üstə düşməməsidir. Eyni zamanda ətraf mühitin yaxşılaşdırılması ilə əlaqəli keçirilən siyasətin gözlənilən uğurlu nəticə verməsi iqtisadi imkandan asılıdır. Yaşıl iqtisadiyyat kosnepsiyasının məqsədi ekoloji sağlamlığa ziyan vurmadan resursların səmərəliliyin artırılması, karbon emisiyasının azaldılması, sosial bərabərliyin təmin olunması ilə yanaşı, ölkənin iqtisadi imkanlarını da artırmaqdan ibarətdir. Bu baxımdan iqlim dəyişikliyi ilə mübarizənin əsas həll yolu kimi yaşıl iqtisadiyyat çıxış edir.

***İqlim dəyişikliyinin tənzimlənməsi və davamlı inkişaf üçün yaşıl iqtisadiyyatın əsas vəzifələri.***

***Karbon emissiyasının azaldılması.***

Hər il havaya atılan karbon dioksid qazının miqdarı artmaqdadır. Məsələn əgər XX əsrdə il ərzində havaya atılan karbon dioksidin miqdarı 2 milyard ton olsa da, 2023-cü ildə bu göstərici təqribən 37 milyard ton olmuşdur. Bütün dünya üzrə ətraf mühitə atılan karbon qazının miqdarına nəzər saldıqda görünür ki, enerji və sənaye sektorunda havanı istixana qazları ilə ən çox çirkləndirən ölkə Çindir

(2021- ci ildə 11 milyard 336 milyon ton). Sonrakı yerləri isə ABŞ (5 milyard 032 milyon), Rusiya (1 milyard 712 milyon ton) və Yaponiya (1 milyard 602 milyon) tutur. Göründüyü kimi ətraf mühitin yaxşılaşdırılması, təmiz ekoloji şəhərlərin salınması kimi layihələri həyata keçirən əsas ölkələr də elə ətraf mühitin daha çox çirklənməsinə səbəb olan inkişaf etmiş dövlətlərdir. Bütün dünyada olduğu kimi bu problem Azərbaycan Respublikasını da narahat edir. Belə ki, ölkəmizdə də metan konsentrasiyasında artım müşahidə olunur.

***Cədvəl 1: Azərbaycan Respublikasında metan qazının illər üzrə minimum və maksimum dəyəri***

| Metan konsentrasiyası | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|
| Max | 1884.7 | 1897.8 | 1905.2 | 1932 | 1909.5 |
| Min | 1840.2 | 1856.8 | 1869 | 1875.3 | 1888.8 |

***Mənbə: https://climatreport.az/***

Məhz bu səbəbdəndir ki, BMT- nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Konfransı (COP-29) ölkəmizdə keçiriləcək. Azərbaycanda ətraf mühitin mühafizəsi məqsədilə 2023-cü ildə dövlət büdcəsindən 360 milyon manatdan çox vəsait ayrılmışdır. Həmçinin ölkəmiz İqlim dəyişiklikləri ilə mübarizədə qatıldığı beynəlxalq konfransların tələblərinə ciddi şəkildə yerinə yetirir. Buna misal olaraq təbii resurslardan dayanıqlı və davamlı istifadənin təmin olunması, tullantıların səmərəli idarə olunması, ictimai-iaşə obyektlərinə təmizləyici qurğuların qoyulması və.s. göstərmək olar. Qlobal istiləşməyə əsas səbəb olan karbon qazının havada miqdarının artmasının qarşısını almağa özünə məqsəd qoyan bu konfransda Bakının da əsas vəzifəsi havadakı karbon qazının nisbətini 2005-ci illə müqayisədə 2025-ci ilə qədər 28%, 2030-cu ilə qədər isə 45% azaltmaqdır. 1990-cı illə müqayisədə deyə bilərik ki, Azərbaycan Respublikasının ərazisində karbon emissiyasının miqdarı azalmaqdadır. Bunu aşağıdakı cədvəldən də açıq şəkildə görə bilərik.

***Cədvəl 2: Azərbaycan Respublikası ərazisində müxtəlif dövrlər üzrə karbon emisiyasının miqdarı***

| İl | Miqdar |
|---|---|
| 1990 | 58 milyon ton |
| 1999 | 26 milyon ton |
| 2005 | 30 milyon ton |
| 2018 | 35 milyon ton |
| 2020 | 16457,5 min ton |

Qlobal iqlim dəyişikliyinin təsirinin azaldılmasında hazırlanan layihələr, texnologiyalar baha olsa da, hər bir vətəndaş özü də bu prosesin qarşısını almaq üçün müəyyən işlər görməlidir. İstixana qazı emissiyalarının azaldılması üçün qalıq yanacaqların istifadəsi əhəmiyyətli dərəcədə azaldılmalı və zamanla tamamilə dayandırılaraq yalnız bərpa olunan enerji mənbələrindən istifadə olunmalıdır. Günəş, külək, su, geotermal, biokütlə, hidrogen kimi yaşıl enerji mənbələrinin istifadəsi genişləndirilməlidir. Enerji effektivliyini artırmaq məqsədi ilə nəqliyyatda, sənayedə və binalarda enerjiyə qənaət edən texnologiyalar tətbiq edilməlidir.

***Dayanıqlı kənd təsərrüfatı.***

Davamlı kənd təsərrüfatının məqsədi ətraf mühitə mənfi təsirləri minimuma endirməklə, yerli icmalara kömək etmək və torpağın uzunmüddətli sağlamlığını və canlılığını qorumaqla yanaşı, ərzaq

və digər kənd təsərrüfatı məhsullarını yetişdirməkdir. Davamlı kənd təsərrüfatının əsas prinsiplərinə bunlar daxildir. Təbii ehtiyatların qorunub saxlanması, biomüxtəliflik və torpağın sağlamlığı. Davamlı kənd təsərrüfatı mədən yanacaqları və süni kimyəvi maddələr kimi bərpa olunmayan mənbələrdən istifadəni azaltmaq, eyni zamanda torpağın və suyun qorunmasını təşviq etmək məqsədi daşıyır. Biomüxtəliflik ekosistemin dayanıqlığını artırmaq üçün müxtəlif əkin dövriyyəsi və polikulturalardan istifadəni təşviq etməklə, davamlı əkinçilik üsulları yerli bitki və heyvan növlərinin qorunmasını dəstəkləyir. Torpağın sağlamlığı isə torpağın quruluşunu, münbitliyini və suyun saxlanmasını artırmaqla, əkin dövriyyəsi, minimum əkinçilik və örtük bitkiləri kimi davamlı kənd təsərrüfatı təcrübələri sağlam torpaq saxlamağa kömək edir. Kənd təsərrüfatı zamanı torpağın deqradasiyasını minimuma endirərək, metan və azot oksidi emissiyalarını azaltmaq üçün davamlı əkinçilik təcrübələri tətbiq edilməlidir.

***Tullantıların idarə edilməsi və dairəvi iqtisadiyyat.***

İnsan fəaliyyəti nəticəsində qalan tullantıların toplanması, daşınması, emalı, təkrar emalı və atılması tullantıların idarə edilməsi adlanır. Tullantıların idarə edilməsinin məqsədi tullantıların ətraf mühitə, əhalinin sağlamlığına və həyat səviyyəsinə vurduğu zərəri azaltmaqdır. Bunun əksinə olaraq, dairəvi iqtisadiyyat tullantıları minimuma endirməklə yanaşı, resursdan maksimum istifadə etməyə çalışan resurs idarəçiliyinə bərpaedici yanaşmadır. Dairəvi iqtisadiyyatda materiallar və məhsullar tullantı kimi atılmaq əvəzinə faydalı ömrünü uzatmaq üçün təkrar emal olunur, təkrar istifadə edilir və yenidən istifadə olunur. Bu üsul istehsal olunan tullantıların və ətraf mühitdən götürülən xammalın miqdarını azaltmaqla resursların daha davamlı və səmərəli istifadəsinə töhfə verir. Təkrar emal və təkrar istifadəni dəstəkləyən dairəvi iqtisadiyyat nəticəsində poliqondan istifadə azalaraq, istehsalla bağlı emissiyalar azalır.

***Yaşıl infrastruktur***

Yaşıl infrastruktur yağış sularını idarə etmək, biomüxtəlifliyi artırmaq və ekoloji fayda təmin etmək, eyni zamanda sosial və iqtisadi üstünlükləri təmin etmək məqsədi ilə nəzərdə tutulmuş təbii və yarı təbii sistemlər şəbəkəsinə aid olan bir konseptdir. Yaşıl infrastruktur konsepti adətən borular və beton kimi sərt mühəndislik həllərindən fərqli olaraq, ekoloji problemlərin həlli üçün təbii proseslərdən istifadəni vurğulayır. Yaşıl infrastrukturun əsas komponentlərinə aşağıdakılar daxildir.

- **Yaşıl Damlar:** Bura yağış sularını idarə etməyə kömək edən bitki örtüyü ilə əkilmiş damlar nəzərdə tutulur.
- **Yağış bağları:** Yağış sularının axıdılmasını tutan və süzən dayazlar və çökəkliklər yaradılır.
- **Keçirici səthlər:** Suyun keçməsinə imkan verən, axıntıları azaldan və yeraltı suların doldurulmasını təşviq edən səthlər salınır.
- **Şəhər Meşələri:** Havanın keyfiyyətini yaxşılaşdırmaq, kölgə salmaq və estetikanı artırmaq üçün əkilmiş ağaclar və bitki örtüyünün sayı artırılır.
- **Bataqlıqlar:** Yağış suyunu udan, süzən və canlıların yaşayış mühitini təmin edən təbii və ya tikilmiş bataqlıq ərazilər yaradılır.
- **Yaşıl yollar:** Biomüxtəlifliyi təşviq edən və nəqliyyat marşrutlarını təmin edən xətti parklar nəzərdə tutulur.

Yaşıl infrastrukturun həyata keçirilməsi nəticəsində daşqınlar azalır və suyun keyfiyyəti yaxşılaşır, vəhşi təbiətin yaşayış yerlərini dəstəkləyir və şəhər şəraitində genetik müxtəlifliyi təşviq edir. Həmçinin

isti dalğalar və güclü yağış kimi iqlim dəyişikliyinin təsirlərini yumşaltmağa kömək etməklə bitki örtüyü karbon dioksidi udur və hava keyfiyyətini yaxşılaşdırır, şəhər mühitini gözəlləşdirir və istirahət məkanları təmin edir. Dünya genişmiqyaslı yaşıl infrastruktur layihələrini həyata keçirir. Bu, siyasətə dəstək, ictimai maarifləndirmə kampaniyaları, maliyyələşdirmə və təşviqlər, əməkdaşlıq və tərəfdaşlıq, tədqiqat və innovasiya sahələrində görülür. Belə təşəbbüslərin davam etdirilməsi və yeniliklər olduqca vacibdir.

***Nəqliyyat İnnovasiyaları.***

Səs-küy, su və hava çirkliliyi kimi nəqliyyat vasitələrinin çirklənməsinin müxtəlif növləri var. Bu ciddi narahatlıq doğurur. Karbon monoksid (CO), azot oksidləri (NOx), hissəciklər, uçucu üzvi birləşmələr və karbohidrogenlər nəqliyyat vasitələri tərəfindən buraxılan çirkləndiricilərdən yalnız bir neçəsidir. Əsasən, qalıq yanacaqların yandırılması bu emissiyaları əmələ gətirir. Nəqliyyat vasitələri ilə əlaqəli havanın çirklənməsi vaxtından əvvəl ölüm hallarına, ürək problemlərinə və tənəffüs xəstəliklərinə səbəb olur. Turşu yağışları və iqlim dəyişikliyi kimi ekoloji problemlər də ondan təsirlənir. İqlim dəyişikliyinə səbəb olan istixana qazları emissiyalarının əsas mənbələrindən biri avtomobillərdir. Dünyadakı $CO_2$ emissiyalarının böyük bir hissəsi nəqliyyatla bağlıdır. $CO_2$-dən daha az miqdarda olsa da, metan ($CH_4$) və azot oksidi ($N_2O$) buraxılır. Bu qazlar $CO_2$-dən daha yüksək qlobal istiləşmə potensialına malikdir. Avtomobilin yaratdığı axıntı neft və ağır metallar daxil olmaqla avtomobillərdən çirkləndiriciləri su obyektlərinə daşıya bilər. Yollar və dayanacaqlar yağışlar zamanı bu çirkləndiriciləri çaylara və göllərə daşıya bilər. Sürtkü yağları və antifriz avtomobillərdən sızır, yeraltı suları və torpağı çirkləndirir. Səs-küyün yaratdığı çirklənmə də nəqliyyat vasitələri ilə əlaqəlidir. Şəhər əraziləri havanın yerdəyişməsi, təkərlərin sürtünməsi və mühərrikin işləmə səsi səbəbindən səs-küy çirklənməsinə həssasdır. Sıx yollara yaxın yaşayan sakinlər üçün yüksək səs-küyə uzun müddət məruz qalma stress, yuxu çətinliyi və eşitmə itkisi ilə nəticələnə bilir. Yollar və dayanacaqlar avtomobillər üçün tələb olunan iki infrastruktur-yaşayış mühitinin parçalanmasına və məhv olmasına səbəb olur. Bundan həm biomüxtəliflik, həm də əvvəllər mövcud olan ekosistemlər zərər görür və nəticədə yaşayış mühiti itirilərək, torpaqdan istifadə azalır. Bütün sadalanan ətraf mühitə zərər verən belə çirklənmələrin qarşısını almaq üçün hökumətlər nəqliyyat innovasiyaları stratgiasından istifadə edirlər. İlk növbədə egzoz borusundan emissiyaları buraxmayan elektrikli nəqliyyat vasitələrinə keçid havanın çirklənməsinə əhəmiyyətli dərəcədə azalda bilər. Həmçinin nəqliyyat vasitələrinin sayını azaltmaq üçün ictimai tranzit seçimlər genişləndirilməli və yanacağa qənaət edən nəqliyyat vasitələri təşviq edilməlidir. Bunun üçün də əsas məqsəd bərpa olunan enerji mənbələrindən istifadəni gücləndirərək elektrikli avtomobillərin sayı artırılmalıdır. Çoxsaylı problemlərə səbəb olan nəqliyyat vasitələri ilə çirklənməni aradan qaldırmaq üçün kompleks yanaşma da tələb olunur. Hazırda bir çox ölkələrdə bu proseslə əlaqəli bir sıra qanunvericilik və siyasət həyata keçirilir. Məsələn, aşağı emissiya zonaları, davamlı şəhər planlanması və.s kimi həyata keçirilən bir sıra siyasətlər nəticəsində avtomobillərdən istifadə azaldılır. Həmçinin əhəmiyyətli irəliləyiş əldə etmək üçün hökumətin fəaliyyəti nəticəsində cəmiyyətin məlumatlılığı olduqca vacibdir.

***Yaşıl işlərə invetsiya və dayanıqlı maliyyə.***

Ətraf mühitin davamlılığına və aşağı karbonlu iqtisadiyyata keçidə kömək edən iş imkanlarının yaradılması və təşviq edilməsi yaşıl işlərə investisiya kimi tanınır. Bu, bərpa olunan enerji, enerji səmərəliliyi, davamlı kənd təsərrüfatı, tullantıların idarə edilməsi və ətraf mühitin mühafizəsi də daxil olmaqla, geniş sektorları əhatə edə bilər. Hökumətlər yaşıl iş yerlərinin yaradılmasını dəstəkləyən

proqramlar yaradaraq, yaşıl texnologiyalar sahəsində təcrübələr həyata keçirən şirkətlərə və startaplara invetsiya yatırır. Bunlardan biri də icma invenstisiyasıdır ki, onun vasitəsi ilə regionlarda məşğulluğu atıraraq, davamlılığı təmin edir. Sosial bərabəliyi də gücləndirə biləcək belə investisiyalar imkansız icmalara da məşğulluq və təlim imkanları təqdim edir. İqlim dəyişiklikliyi üzrə mübarizədə yaşıl iqtisadiyyata keçid, bərpa olunan enerji mənbələrinin istifadəsinin genişləndirilməsi, insanlar üçün yaşıl texnologiya sahələrində yeni iş yerlərinin yaradılmasına kömək edir və nəticədə ölkə iqtisadiyyatı güclənir. Dayanıqlı investisiyalar istiqamətində sağlam ətraf mühitin yaradılmasında maliyyə bazarları da əsas rol oynayır. Davamlı gələcəyi dəstəkləmək üçün yaşıl işlərə sərmayə qoymaq əhəmiyyətlidir, çünki, müxtəlif sərmayə yollarını araşdırmaq iqtisadiyyatın güclənməsinə töhvə verir.

***Siyasət və tənzimləmə.***

Hökumətlər yaşıl iqtisadiyyatı təşviq etmək məqsədi ilə ətraf mühitilə bağlı tənzimləmələr kimi layihələr həyata keçirir. Bir sıra müəsisələr yaşıl iqtisadiyyata doğru geniş keçidə töhfə vermək üçün tullantıların və emissiyaların azaldılması da daxil olmaqla davamlılığa əsaslanan təcrübələri mənimsəyib, həyata keçirir və bu proses koporativ məsuliyyət adlanır.

***İctimai maarifləndirmə.***

Yaşıl iqtisadiyyata keçid üçün başlıca nüans ictimaiyyətin bu məsələlər haqqında kifayət qədər məlumatlı olmasıdır. Bunun üçün həm təhsil müəsisələri, həm də müxtəlif şirkət və təşkilatlar öz tələbələrini, işçilərini bu mövzu ətafında kifayət qədər məlumatlandırmalıdır. Müxtəlif kompaniyalar həyata keçirərək yaşıl iqtisadiyyatın əhəmiyyəti haqqında informasiyanı artırmaq olar. Məsələn, ətraf mühit elminə aid olan dərsliklər məktəb proqramına daxil edilə bilər. Yaşıl iqtisadiyyata keçiddə praktiki təcrübələr də vacibdir, məhz bu səbəbdən yerli müəsisələr ilə təhsil ocaqları əməkdaşlıq edə bilərlər. Müxtəlif seminarlar və onlayn platformalar vasiəsilə daha geniş kütlə asanlıqla yaşıl iqtisadiyyatla bağlı informasiyalar əldə edə bilər. İcmaların maarifləndirilməsi davamlılıq səylərində kütləvi iştiraka kömək edir.

***İqlim dəyişikliyinin tənzimlənməsində təklif olunan əsas həll yolları***

Çoxsaylı ekoloji problemlərin yaratdığı iqlim dəyişikliyini tənzimləmək üçün bir sıra həll yolları təklif edilir. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri belə ekoloji problemlərin həlli üçün mümkün olan ən yaxşı çərçivədir ki, bu əksər ölkələrin razılaşdığı 17 məqsəddən ibarətdir. Həmin məqsədlərə aşağıdakılar daxildir.

***Cədvəl 3: BMT-nin dayanıqlı inkişaf məqsədləri***

| | |
|---|---|
| ***1. Yoxsulluğa son*** | ***2. Sənaye, innovasiya və infrastruktur*** |
| ***3. Aclığa son*** | ***4. Davamlı şəhərlər və icmalar*** |
| ***5. Sağlamlıq və firavanlıq*** | ***6. Məsuliyyətli istehlak və istehsal*** |
| ***7. Keyfiyyətli təhsil*** | ***8. İqlim hərəkəti*** |
| ***9. Gender bərabərliyi*** | ***10. Su altında həyat*** |
| ***11. Təmiz su və kanalizasiya*** | ***12. Quruda həyat*** |
| ***13. Sərfəli və təmiz enerji*** | ***14. Sülh, ədalət*** |
| ***15. Layiqli iş və iqtisadi artım*** | ***16. Tərəfdaşlıqlar və məqsədlər*** |
| ***17. Bərabərsizliyin azaldılması*** | |

İqlim dəyişikliyini tənzimləmək, ekoloji problemləri aradan qaldırmaq üçün müxtəlif ölkələr enerji və tullantılardan istifadə üçün yeni texnologiyalar üzərində işləyirlər. Araşdırmalar zamanı görünür ki, hələlik yaşıl innovasiyalar, həmçinin qalıq yanacaqların istifadəsinin dayandırılaraq tamamilə alternativ enerji mənbələrinə keçid, xüsusilə biokütlədən daha çox istifadə, tullantıların azaldılması üçün təkrar emal, havanın tərkibindəki istixana qazlarının tutulması üçün istifadə edilən texnologiyalar ən yaxşı həll yolları hesab olunur. Son zamanlarda ən çox müzakirə edilən həll yollarından biri də geomühəndisliklə bağlıdır. Belə ki, bu həll yolunda əsas məqsəd illik milyonlarla ton sulfat aerozolunun aşağı stratosferə vurulmasıdır. Bu proses uğurlu olarsa yerin albedosu artırılacaq və orta qlobal temperatur bir neçə ay ərzində aşağı düşəcək.

İqlim dəyişmələri ilə mübarizədə yaşıl iqtisadiyyatın rolunun böyük olduğunu bildiyimiz kimi yaşıl iqtisadiyyata keçidin yaratdığı bəzi problemlər də vardır. Bu problemlər əsasən də inkişaf etməkdə olan ölkələr üçün bir sıra narahatlıqlar doğurur. Belə problemlərdən biri yaşıl iqtisadiyyata keçidin baha başa gəlməsidir, lakin ekoloqların fikrincə iqlim dəyişikliyinin azaldılması istiqamətində görülən işlərin uzunmüddətli müsbət təsirləri bu xərcləri üstələyə bilər. Digər əsas problemlərdən biri isə texnoloji maneələr ilə bağlıdır. Ətraf mühiti yaxşılaşdırmaq, iqlim dəyişikliyi ilə mübarizə aparmaq məqsədilə innovasiyalar işlənilib hazırlanmalı və geniş miqyasda tətbiq edilməlidir. Yaşıl iqtisadiyyat iqlim dəyişikliyini həll etmək üçün güclü bir çərçivədir. Davamlılığı iqtisadi planlaşdırma və qərar qəbul etmə prosesinə inteqrasiya etməklə cəmiyyətlər təkcə emissiyaların azaldılması istiqamətində işləyə bilməz, həm də inklüziv artımı və dayanıqlığı gücləndirə bilər. Bu keçidi qəbul etmək planetimizi gələcək nəsillər üçün qorumağa lazımdır.

## ƏDƏBIYYATLAR


1. Qurbanov Sadiq, Davamlı inkişaf konteksində ekoloji siyasətin prioritet istiqamətləri və yaşıl iqtisadiyyat. Bakı, 2023, "İzə" nəşriyyatı, 271səh.
2. Qasımlı Vüsal, Ramil Hüseyn, Rəşad Hüseynov, Rəşad Həsənov, Coşqun Cəfərov, Aminə Bayramova, Yaşıl iqtisadiyyat. Bakı, 2022, "Azprint" nəşriyyatı, 280 səh.
3. Qurbanzadə Ağazeynal, Ekologiya: Sosial-İqtisadi əsaslar. Bakı, 2010, "Elm" nəşriyyatı, 160 səh.
4. Sultanov Rauf, Sadıqova Nərminə, Ataşova Ülviyyə, Ümumi ekologiya. Bakı, 2010, "Bakı Universiteti" nəşriyyatı, 382 səh.
5. Arora, Naveen Kumar, Tahmish Fatima, Isha Mishra, Maya Verma, Jitendra Mishra and Vaibhav Mishra, Environmental sustainability: challenges and viable solutions. Environmental Sustainability 1, no. 4 (2018): 309-340.
6. Molly Scott, Green economics an introduction to theory, policy and practice. London, 2009, 224page.
7. İnternational İnstitute for Sustainable Development, Trade and green economy. Geneva, 2014, 145 page.
8. IPCC, 2023: Sections. In: Climate Change 2023: Synthesis Report. Contribution of Working Groups I, II and III to the Sixth Assesment Report of the Intergovernmental Panel on Climate Change [Core Writing Team, H.Lee and J.Romero (eds.)]. IPCC, Geneva, Switzerland, pp. 35-115

https://www.ipcc.ch/report/ar6/syr/downloads/report/IPCC_AR6_SYR

9. https://earthyb.com/blog/environmental-problems-solutions/
10. https://climatereport.az/

## İqlim Dəyişmələrinin Su Çatışmazlığına Təsiri

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**"İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasının dosenti**
**c.f.d. Hacıyeva Afaq**
**afaq.adiu@mail.ru**
**magistr Axundova Mədinə**
**maxundova2002@gmail.com**

**Xülasə**

XXI əsrdə insanın təsərrüfat fəaliyyəti yalnız ətraf mühitin çirklənməsinə deyil, həmçinin iqlim dəyişikliyinə də təsir etmişdir. Bu təsirlər su hövzələrində həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri yaratmışdır. Bizim tədqiqatımız iqlim dəyişmələrinin su hövzələrinə təsirindən bəhs edir. Uzun tarixi dövr ərzində iqlimdə Tədqiqat zamanı müxtəlif ölkələrdə baş verən iqlim dəyişikliyini təhlil etmişik. Bu dəyişikliklər nəticəsində müxtəlif ölkələrdə çay, göl, buzlaqlarda suyun səviyyəsinin azalması və ya buzlaqların əriməsi nəticəsində suyun səviyyəsinin artması və nəticədə ətraf yaşayış məntəqələrinin suyun altında qalması məlum olmuşdur. Bu isə müəyyən müddətdən sonra əhalinin ərzaq qıtlığı ilə üzləşəcəyini göstərir. Məqalədə müxtəlif ölkələrdə iqlim dəyişmələrinin su hövzələrində yaratdığı kəmiyyət və keyfiyyət dəyişiklikləri təhlil edilmişdir. Bu məsələnin həlli yolları təklif edilmişdir. Xüsusilə qəhvəyi iqtisadiyyatdan yaşıl iqtisadiyyata keçid əsas şərtlərdəndir. Alternativ enerji mənbələrindən istifadə edilməsi və ətraf mühiti çirkləndirən mənbələrdən istifadənin azaldılması XXI əsrdə əsas məqsədlərdəndir. Lakin alternativ enerji mənbəyi kimi su resurslarından istifadə də azalmalıdır. Bu su resurslarının qorunmasına kömək olacaq.

**JEL kod: Q5**

**Açar sözlər:** su çatışmazlığı, iqlim dəyişikliyi, şirin su, suyun keyfiyyəti

**Abstract**

In the 21st century, human economic activity has affected not only environmental pollution, but also climate change. These effects have created both quantitative and qualitative changes in water bodies. Our research deals with the impact of climate change on water bodies. We have analyzed the climate change that occurred in different countries during the research on climate over a long historical period. As a result of these changes, it was known that the water level in rivers, lakes, and glaciers in different countries decreased or the water level increased as a result of the melting of glaciers, and as a result, the surrounding settlements were under water. This shows that after a certain period of time, the population will face a food shortage. The article analyzes the quantitative and qualitative changes caused by climate changes in water bodies in different countries. Solutions to this issue have been proposed. In particular, the transition from the brown economy to the green economy is one of the main conditions. Using alternative energy sources and reducing the use of sources that pollute the

environment are among the main goals in the 21st century. However, the use of water resources as an alternative energy source should also be reduced. This will help to protect water resources.

**Keywords:** water scarcity, climate change, fresh water, water quality

***İqlim Dəyişmələri Və Su Hövzələri***

Bu gün dünyada təxminən iki milyard insanın təhlükəsiz içməli suya çıxışı yoxdur və dünya əhalisinin təxminən yarısı ilin ən azı bir hissəsində ciddi su qıtlığı yaşayır. Bu rəqəmlərin iqlim dəyişikliyi və əhalinin artımı ilə daha da artacağı gözlənilir. Bu baxımdan tədqiqat aktual mövzuya həsr edilmişdir. Tədqiqatımızın əsas məqsədi iqlim dəyişmələrinin su hövzələrinə təsiri öyrənməkdir. Bu zaman qarşıya bir sıra vəzifələr qoyulmuşdur:

- XX və XXI əsrlərdə iqlim dəyişmələrinin öyrənmək;

-İqlim dəyişmələri nəticəsində su hövzələrində baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini öyrənmək və s. Aparılan tədqiqatlara əsasən yerdəki suyun yalnız 0,5 faizi istifadəyə yararlı və şirin sudur, iqlim dəyişikliyi bu tədarükə təhlükəli şəkildə təsir edir. Son 20 il ərzində yerüstü su anbarı, o cümlədən torpaq rütubəti, qar və buz qatının qalınlığı ildə 1 sm sürətlə azalmışdır (Gosling, 2014)

Buzlaqlarda və qar örtüyündə saxlanılan su ehtiyatlarının əsr ərzində daha da azalması proqnozlaşdırılır, beləliklə, dünya əhalisinin 1/6-dən çoxunun yaşadığı böyük dağ silsilələrinin ərimiş suları ilə təmin olunan bölgələrdə isti və quraq dövrlərdə suyun mövcudluğu azalacaq (Pahl-Wostl & Jeffrey, 2011). Dəniz səviyyəsinin qalxmasının qrunt sularının şoranlaşmasını genişləndirməsi, sahilyanı ərazilərdə insanlar və ekosistemlər üçün şirin suyun əlçatanlığını azaltması proqnozlaşdırılır. Qlobal istiləşmənin 2°C ilə müqayisədə 1,5°C ilə məhdudlaşdırılması, regionlar arasında əhəmiyyətli dəyişkənlik olsa da dünya əhalisinin su qıtlığından əziyyət çəkəcəyi gözlənilən nisbətini təxminən iki dəfə azaldacaq.

Suyun keyfiyyətinə iqlim dəyişikliyi də təsir edir, çünki daha yüksək suyun temperaturu və daha tez-tez baş verən daşqınlar, quraqlıqlar suyun çirklənməsinin bir çox formalarını – çöküntülərdən patogenlərə və pestisidlərə qədər şiddətləndirəcəyi proqnozlaşdırılır (Mueller & Gray, 2014). İqlim dəyişikliyi, əhalinin artımı və artan su qıtlığı ərzaq təminatına təzyiq göstərəcək, çünki istifadə edilən şirin suyun böyük hissəsi, orta hesabla təxminən 70 faizi kənd təsərrüfatında istifadə olunur (Ahmed & Shahid, 2018). İqlim dəyişikliyi daşqınlar və quraqlıq kimi ekstremal hava hadisələrini daha çox və daha şiddətli edib. Qlobal temperaturun yüksəlməsi atmosferin saxlaya biləcəyi rütubəti artırır, nəticədə daha çox tufanlar və güclü yağışlar olur, lakin paradoksal olaraq qurudan daha çox su buxarlandıqda və qlobal hava şəraiti dəyişdikcə daha sıx quru dövrlər olur (Biemans, 2019).

Güclü yağıntı hadisələrinin tezliyi, çox güman ki, XXI əsrdə əksər ərazilərdə daha çox yağış nəticəsində yaranan daşqınlarla artacaq. Eyni zamanda, hər hansı bir zamanda və məkanda həddindən artıq quraq ərazidə olan torpaqların nisbətinin də artacağı proqnozlaşdırılır.

Su ilə bağlı fəlakətlər son 50 ildə fəlakətlər siyahısında üstünlük təşkil edir və təbii fəlakətlərlə bağlı bütün ölümlərin 70 faizini təşkil edir (Barnett & Hossell 2006).

***İqlim dəyişkiliyinin su hövzələrinə təsirinin təhlili***

Tədqiqat zamanı yerli və xarici ədəbiyyat materiallarından istifadə edərək iqlim dəyişikliyi və onun su hövzələrinə təsirini təhlil etmişik. Bu zaman müqayisə üsulundan istifadə etmişik.

2000-ci ildən bəri daşqınla bağlı fəlakətlər əvvəlki iki onilliklə müqayisədə 134 faiz artıb. Daşqınla bağlı ölümlərin və iqtisadi itkilərin əksəriyyəti Asiyada qeydə alınıb (Sarah, 2019). Eyni dövrdə quraqlıqların sayı və müddəti də 29 faiz artıb. Ən çox quraqlıqla bağlı ölümlər Afrikada baş verib.

Sağlam su ekosistemləri və təkmilləşdirilmiş su idarəçiliyi istixana qazı emissiyalarını azalda və iqlim təhlükələrindən qorunma təmin edə bilər.

Manqrovlar, dəniz bitkiləri, bataqlıqlar və digər ərazilər $CO_2$-ni udan və saxlayan yüksək effektiv karbon yuvalarıdır. Su-bataqlıqlar həm də ekstremal hava hadisələrinə qarşı mühüm rol oynayır. Onlar fırtına dalğalarına qarşı təbii bir qalxan təmin edir və artıq suyu və yağıntıları udur. Bitkilər və mikroorqanizmlər vasitəsilə bataqlıqlar həm də suyun saxlanmasını və təmizlənməsini təmin edir.

İqlim dəyişikliyinə tab gətirə bilən su təchizatı və kanalizasiya sistemləri hər il 360.000-dən çox körpənin həyatını xilas edə bilər. Damcı suvarma və sudan daha səmərəli istifadə üçün digər vasitələrdən istifadə edən iqlimə uyğun ağıllı kənd təsərrüfatı şirin su ehtiyatlarına tələbatı azaltmağa kömək edə bilər.

Şəkil 1-də suyun dövranı təsvir edilmişdir (Şəkil 1). Suyun dövranı zamanı müxtəlif təbəqələr arasında mübadilə baş verir.




Şəkil 1. Su dövranı

İsti hava soyuq havadan daha çox nəm saxlaya bilər. Nəticədə, daha isti dünyada hava okeanlardan, göllərdən, torpaqdan və bitkilərdən daha çox su israf edir. Bu havanın geridə qoyduğu daha quru şərait içməli su təchizatına və kənd təsərrüfatına mənfi təsir göstərə bilər. Digər tərəfdən, daha isti, daha rütubətli hava da insan həyatı üçün təhlükə yarada bilər.

İqlim dəyişikliyinin səth sularının keyfiyyətinə təsirləri iki əsas amilin (temperatur və yağıntılar) təsirlərini (quraqlıqlar və daşqınlar) nəzərə alan Şəkil 2-dəki kimi ümumiləşdirilə bilər. Bu təsirlər təbii və ya insan tərəfindən yaradılmış mühitdən asılıdır və nəticələr su obyektinin növünə (çaylar, göllər, bəndlər, gölməçələr, bataqlıqlar) və xüsusiyyətlərinə (suda qalma müddətləri, ölçüsü, forması, dərinliyi) görə fərqli ola bilər. Axınlar üçün təsirə məruz qalan əsas parametrlər qida maddələridir, patogenlər və siyanobakteriyalar/siyanotoksinlər daha çox göllərlə bağlıdır.




Şəkil 2. İqlim dəyişikliyinin su ehtiyatlarına və içməli suyun keyfiyyətinə təsiri

Qlobal iqlim dəyişikliyinin su ehtiyatları üçün mühüm təsirlərinə daha erkən və daha qısa axın mövsümləri, suyun temperaturunun artması və həm daxili, həm də sahillərdə suyun keyfiyyətinin azalması daxildir.

Buxarlanma sürətinin artmasının bir çox regionlarda su ehtiyatlarını azaldacağı gözlənilir. Ən böyük defisitlərin yayda baş verəcəyi gözlənilir ki, bu da torpağın rütubət səviyyəsinin azalmasına və daha tez-tez və şiddətli kənd təsərrüfatı quraqlığına gətirib çıxarır. İqlim dəyişikliyindən yaranan daha tez-tez və şiddətli quraqlıqlar su ehtiyatlarından istifadə edənlər üçün ciddi idarəetmə nəticələrinə malik olacaq.

İqlim dəyişikliyinin qlobal və lokal fəaliyyətdə birbaşa və dolayı təsirlər olaraq müşahidə edilir. İqlim parametrlərinə temperatur, rütiubət və digərlərini göstərə bilərik. Birbaşa təsirlər suda yaşayan növlərin təbii mühitinə olan təsirlər, növlərin psixologiyası, fenologiyası və digərləri, dolayı təsirlərə isə fotosintez, xəstəliklər və digərlərini aid edə bilərik. Bu təsirlər həm lokal, həm də qlobal xarakter daşıyır (Şəkil 3).




Şəkil 3. İqlim dəyişikliyinin qlobal və lokal fəaliyyətdə birbaşa və dolayı təsirləri

Dəniz səviyyəsinin yüksəlməsi sahilyanı ərazilərdə suyun keyfiyyətini və mövcudluğunu da azalda bilər. 21-ci əsrin sonunda dəniz səviyyəsinin qalxması ilə bağlı son proqnozlar 19 ilə 58 sm arasında dəyişmə ehtimalını göstərir. Qrenlandiya və ya Qərbi Antarktika buz təbəqəsinin tamamilə əriməsi

böyük bir yüksəlişə səbəb ola bilər. Dəniz səviyyəsinin yüksəlməsi birbaşa duzlu suyun daxil olması yolu ilə yeraltı suların keyfiyyətinə təsir göstərə bilər. Duzlu suyun müdaxiləsi nəticəsində sahilyanı ərazilərin şirin su hidrologiyasında köklü dəyişikliklər bir çox sahilyanı rayonların şirin su təchizatını təhdid edərdi. Dəniz səviyyəsinin yüksəlməsi həm də qrunt sulu təbəqələrində su səviyyələrinin yüksəlməsinə səbəb olaraq sahilyanı ərazilərdə suyun mövcudluğuna dolayı təsir göstərə bilər ki, bu da səth axınını artıra bilər. Su qıtlığı aylıq su ödənişləri, yeni evlər və bizneslər üçün birdəfəlik qoşulma haqları vasitəsilə suyun qiymətinin qalxmasına səbəb olacaq. Kifayət qədər böyük qiymət artımı müxtəlif ölkələrdə şəhər artımının miqyasına və modelinə təsir göstərə bilər. Duzsuzlaşdırma qurğuları, boru kəmərləri və bəndlər kimi bahalı su təchizatı layihələri də iqtisadi cəhətdən daha cəlbedici olacaqdır.

***Nəticə.***

Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, iqlim dəyişmələri sahil ərazilərdə yerləşən yaşayış məntəqələrində əhalinin sosial-iqtisadi vəziyyətinə mənfi təsir göstərmişdir. Qlobal istiləşmə daşqınlara səbəb olaraq ətrafda yerləşən yaşayış məntəqələrinin su altında qalmasına səbəb olmuşdur. Həmçinin daşqın və sellər əkin sahələrinin su altında qalmasına səbəb olmuşdur ki, bu da ərzaq çatışmazlığına səbəb olan amillərdən biridir.

İqlim dəyişmələrinin digər təsiri isə bir çox ərazilərdə quraqlığın baş verməsi, nəticədə burada yaşayan əhalinin şirin su çatışmazlığından əziyyət çəkməsinə səbəb olmuşdur.

**ƏDƏBIYYATLAR**


1. Ahmed, K., Shahid, S. (2018). Impacts of Climate Variability and Change on Seasonal Drought Characteristics of Pakistan. Atmospheric Research, 214, 364–374
2. Barnett, C., Hossell, J. (2006) A handbook of climate trends across Scotland. SNIFFER project CC03, Scotland & Northern Ireland Forum for Environmental Research, 62pp.
3. Biemans, H. (2019). Importance of Snow and Glacier Meltwater for Agriculture on the Indo-Gangetic Plain. Nature Sustainability, 2, 594–601
4. Gosling, R. (2014). Assessing the impact of projected climate change on drought vulnerability in Scotland. Hydrology Research, 45(6), 806–816
5. Mueller, V., Gray, C. (2014). Heat Stress Increases Long-term Human Migration in Rural Pakistan. Nature Climate Change, 4 (3), 182-185.
6. Pahl-Wostl, C., Jeffrey, P. (2011). Maturing the New Water Management Paradigm: Progressing from Aspiration to Practice, Water Resources Management, 25(3), 837-856
7. Sarah F. (2019). How Climate Change Impacts Our Water. September, 1, 18-23, https://news.climate.columbia.edu/2019/09/23/climate-change-impacts-water/


## Işğaldan Azad Edilmiş Ərazilərdə Ətraf Mühitin Qorunmasi İstiqamətləri


**Professor Hümbətov Yusif**

**Azərbaycan Texnologiya Universisetinin**

**Ələkbərov Tural Tahir oğlu**

**turalekbarov@gmail.com**


**Xülasə**

İnsanların sağlam həyat tərzinin təmin edilməsində ətraf mühitin qorunması və ondan səmərəli istifadə özünəməxsus rola malikdir. Respublikamızda mövcud təbii ehtiyatların nəzəri cəhətdən əsaslandırılması və praktiki əhəmiyyətinin müəyyən edilməsi öz aktuallığı ilə seçilir.

Azərbaycan Respublikasında 2030-cu il üçün "Təmiz ətraf mühit və yaşıl inkişaf ölkəsi" prioriteti çərçivəsində sosial-iqtisadi inkişaf strategiyası hazırlanır, iqlim dəyişikliyinin nəticəsi ilə mübarizə istiqamətində mühüm tədbirlər həyata keçirilir. Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan yaşıl enerji zonaları elan edilib, ekoloji dayanıqlılıq məqsədilə innovativ bərpa layihələri həyata keçirilir. Azərbaycanda qeyri-neft sektorunun inkişafını və ətraf mühitin mühafizəsini təmin etmək üçün qanunvericilik çərçivəsində ətraf mühitin monitorinqi aparılır və təsərrüfat fəaliyyətinin ekoloji təhlükəsizliyinə xüsusi diqqət yetirilir. Qarabağ bölgəsinin ekoturizm potensialı, təbii gözəllikləri və tarixi abidələri ilə birlikdə dayanıqlı kənd təsərrüfatının inkişafı üçün əlverişli zəmin yaradır. Dövlətin "Böyük Qayıdış" Proqramı regionda müasir infrastrukturun qurulması, turizmin və sosial-iqtisadi inteqrasiyanın inkişaf etdirilməsi məqsədi daşıyır. Azərbaycan beynəlxalq təcrübə nəzərə alınmaqla qlobal çağırışlara uyğunlaşdırılmış inkişaf strategiyalarının hazırlanmasına sadiqdir.

**JEL kod:** Q50

**Açar sözlər**: ətraf mühit, yaşıl artım, dayanıqlı enerji, innovativ yanaşmalar, ekosistem, ekoturizm.

**Summary**

Environmental protection and its efficient use have a unique role in ensuring a healthy lifestyle for people. Theoretical justification and determination of practical importance of existing natural resources in our republic is distinguished by its relevance.

As one of Azerbaijan's five national priorities for socio-economic development until 2030, it has been defined as a "country of clean environment and green growth". In accordance with that priority, work is being done to improve the environment, restore and increase greenery, and ensure efficient use of water resources and sustainable energy sources.

In the Republic of Azerbaijan, a socio-economic development strategy is being prepared within the framework of the "Clean environment and green development country" priority for 2030, and important measures are being implemented to combat the consequences of climate change. Karabakh, Eastern Zangezur and Nakhchivan have been declared green energy zones, and innovative restoration projects are being implemented for the purpose of environmental sustainability. In order to ensure the development of the non-oil sector and environmental protection in Azerbaijan, environmental monitoring is carried out within the framework of legislation, and special attention is paid to the environmental safety of economic activity. The ecotourism potential of the Karabakh region, together with its natural beauty and historical monuments, creates a favorable basis for the development of sustainable agriculture. The State's "Great Return" Program aims to build modern infrastructure in the region, develop tourism and socio-economic integration. Azerbaijan is committed to developing development strategies adapted to global challenges, taking into account international experience.

**Key words:** environment, green growth, sustainable energy, innovative approaches, ecosystem, ecotourism.

***“Ağıllı Şəhər”, “Ağıllı Kənd”***

Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi dünyada baş verən iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir.

Ölkəmizdə 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritet müəyyən edilmişdir. Prioritetlərdən biri də “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” olaraq müəyyən edilmişdir. Ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi məsələləri bu gün nəzərdə tutulan istiqamətindən hesab edilir.

Hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunmuşdur. Bu ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. prioritetdir. Ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. (Ağıllı şəhər və Ağıllı kənd konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2021)

2030-cu ilə qədər milli prioritetdən birinin məhz “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi qəbul edilməsi bütün sahələrdə mövcud potensialın qiymətləndirilməsi və ondan səmərəli istifadənin təmin edilməsi istiqamətində yeni layihələrin hazırlanmasını və ekoloji vəziyyətin yaxşılaşdırılmasını zəruri edir.

***Ətraf mühitə təsirin qiymətləndirilməsi***

Dünyanın ən dəyərli sərvəti olan insan sağlamlığı cəmiyyətin ən mühüm iqtisadi və sosial potensialı sayılır və əmək fəaliyyətinin davamlı olmasına təsir edən əsas amillərdən biri ətraf mühitdir. Müstəqillik əldə etdiyi dövrdən etibarən Azərbaycan dövləti ölkənin neft amilindən asılılığının azaldılmasını və qeyri-neft sektorunun inkişafının təmin edilməsi istiqamətində mühüm layihələr həyata keçirir. Coğrafi mövqeyinin əlverişli olması, zəngin təbii ehtiyatları, iqlim müxtəlifliyi bütün sahələrdə davamlı inkişafa əlverişli zəmin yaradır.

Ətraf mühitin və təbii ehtiyatların dövlət monitorinqinin aparılması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunmuş əsasnamə ilə müəyyən edilir. Ətraf mühitin müəssisə (istehsalat) üzrə də monitorinqi aparılır. Burada nəzərdə tutulur ki, hüquqi şəxslər (təbiətdən istifadəçilər) ətraf mühitin müəssisə (istehsalat) monitorinqini, onların həyata keçirdiyi ekoloji cəhətdən təhlükə törədə bilən təsərrüfat fəaliyyətinin ətraf mühitə təsirinin uçotunu və hesabatını aparmağa borcludurlar.

Həmçinin ətraf mühitin müəssisə (istehsalat) monitorinqində istifadə edilən ölçü vasitələri standartlaşdırmanın və meteorologiyanın tələblərinə uyğun olmalıdır. Müəssisə (istehsalat) monitorinqinin göstəriciləri barədə hesabat ətraf mühitin mühafizəsi sahəsində Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanlarına, onlarla razılaşdırılmış müddətlərdə təqdim edilir.

Ətraf mühitə təsirin qiymətləndirilməsi və ekoloji ekspertizanın əsas prinsipləri aşağıdakılardır:

- nəzərdə tutulan istənilən təsərrüfat fəaliyyətinin ekoloji təhlükəliliyi;
- obyektin həyata keçirilməsindən öncə ekoloji ekspertizanın məcburi aparılması;
- təsərrüfat fəaliyyətinin ətraf mühitə təsirinin kompleks qiymətləndirilməsi;
- ekoloji ekspertiza aparıldıqda ekoloji təhlükəsizliyi məcburi qaydada nəzərə alınması;

- məlumatların doğruluğu və həcmi;
- ekspertizanın sərbəstliyi;
- ekspert bağlantısının elmi əsaslandırılması, obyektivliyi və qanuniliyi;
- aşkarlıq, ictimaiyyətin rəyinin nəzərə alınması, ictimai təşkilatların iştirakı;
- ekspertiza iştirakçılarının onun aparılması və keyfiyyətinə məsuliyyətlə yanaşması.

***Qarabağın təbii gözəllikləri və mədəni zənginliklərindən istifadə istiqamətləri***

Azərbaycan Respublikasının şəhər və rayonlarının davamlı inkişafının təmin olunması məqsədilə qəbul edilmiş Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində şəhər, qəsəbə və kəndlər əsaslı şəkildə dəyişmiş, regionların iqtisadi potensialı artmış, infrastruktur təminatı, əhaliyə göstərilən xidmətlərin keyfiyyəti yaxşılaşmış, əhalinin rifah halı yüksəlmişdir.

Azərbaycanın inkişafı istiqamətində aparılan məqsədyönlü siyasi və iqtisadi fəaliyyətin, ordu quruculuğunun nəticəsi olaraq 30 ilə yaxın müddətdə Ermənistanın işğalı altında olan ərazilərimiz işğaldan azad olundu. Ali Baş Komandan cənab Ilham Əliyevin rəhbərliyi ilə ordumuz 44 günlük Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyev işğaldan azad olunmuş ərazilərimizin inkişafı və onların ölkə iqtisadiyyatına inteqrasiyası, həmçinin digər iqtisadi rayonlarda planlaşdırma işlərinin səmərəliliyinin artırılması məqsədilə 7 iyul 2021-ci il tarixli fərman imzalamışdır. Fərmana əsasən ölkədə yeni rayonlaşma aparılmış və 14 iqtisadi rayon ayrılmışdır: Bakı, Abşeron-Xızı, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Mil–Muğan, Mərkəzi Aran, Şirvan–Salyan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Qarabağ, Şərqi Zəngəzur, Lənkəran-Astara və Naxçıvan. (Azərbaycan Respublikasının Perzidentinin sərəncamı, 2021)

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev 16 noyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Dövlət Proqramında işğaldan azad edilmiş ərazilərdə aparılmış bərpa-quruculuq işləri və mövcud vəziyyət, nail olunması hədəflənən məqsədlər və onlara uyğun hədəf göstəriciləri, Dövlət Proqramının prioritet istiqamətləri, əhalinin doğma torpaqlarına geri qayıdışı məsələləri, gözlənilən nəticələr, ehtimal edilən risklərin idarə olunması, müvafiq vəzifələrin yerinə yetirilməsi üçün maliyyələşmə mənbələri və həyata keçiriləcək tədbirlər öz əksini tapmışdır. Dövlət Proqramının hazırlanmasında mütərəqqi beynəlxalq təcrübə, bu sahədə strateji inkişaf tendensiyaları, işğaldan azad edilmiş ərazilərin sosial-iqtisadi potensialı və dünya iqtisadiyyatının müasir çağırışları nəzərə alınmışdır (Azərbaycan Respublikasının Perzidentinin sərəncamı, 2022).

Prezident İlham Əliyevin 2022-ci ilin noyabrında başladığı "Böyük Qayıdış üzrə Birinci Dövlət Proqramı" Azərbaycanın işğaldan azad edilmiş rayonlarının bərpası və inkişafı üzrə 2022-ci ildən 2026-cı ilə qədər olan dövrü əhatə edən planını əks etdirir. Bu geniş proqram infrastrukturun yenidən qurulmasını, tarixi abidələrin bərpasını nəzərdə tutur. , və keçmiş sakinlərin bu ərazilərə qayıtmasını təşviq etmək. Əsas təşəbbüslərə nəqliyyat, enerji, su və qaz təchizatı infrastrukturu, eləcə də bu ərazilərin Azərbaycanın iqtisadi və sosial çərçivəsinə tam şəkildə inteqrasiyasını hədəfləyən əsas sosial layihələr daxildir.

Proqramın diqqətəlayiq cəhətlərindən biri bərpa olunan enerji layihələri və yenidənqurma səylərinə inteqrasiya olunmuş yaşıl tikinti təcrübələri ilə davamlılığa vurğu edilməsidir. Qarabağ və Şərqi Zəngəzur rayonlarında su elektrik stansiyaları və yarımstansiyalar, qaz xətləri və boru kəmərləri kimi yeni enerji obyektləri müxtəlif inkişaf mərhələlərindədir. Bu obyektlər iqtisadi inkişafın davam etdirilməsi və enerjiyə davamlı çıxışın təmin edilməsi üçün vacibdir, xüsusən də daha çox keçmiş sakinlər bölgəyə qayıtdıqda. (APA news, 2023)

Proqram həm də mühüm sosial infrastrukturun həllini nəzərdə tutur. Məsələn, hökumət geri qayıdan ailələri yerləşdirmək üçün məktəblərin, xəstəxanaların və yaşayış binalarının tikintisinə təşəbbüs göstərmişdir. Torpağı sakinlər və kənd təsərrüfatı üçün təhlükəsiz etmək üçün minalardan təmizləmə əməliyyatlarına əhəmiyyətli sərmayə qoyulub, indiyədək təxminən 100.000 hektar ərazi minalardan təmizlənib. Əlaqədarlığı dəstəkləmək üçün Füzuli və Zəngilanda beynəlxalq hava limanları tikilib, əlçatanlığı artırmaq üçün əlavə hava limanları və dəmir yolu xətləri nəzərdə tutulub.

"Böyük Qayıdış" bu torpaqların bərpası üçün çoxşaxəli səydir, mədəni və iqtisadi canlanmaya milli öhdəlik və münaqişədən sonrakı bərpanın beynəlxalq standartlarına uyğun gələn strateji baxışdan irəli gəlir. Proqramın təkcə işğaldan azad edilmiş ərazilərin sosial və iqtisadi canlılığını bərpa etmək deyil, həm də Azərbaycanın regional təsirinə və uzunmüddətli iqtisadi dayanıqlığına töhfə verəcəyi gözlənilir.

Bu bölgə mədəni, etnoqrafik, flora və fauna, arxeoloji və təbiət abidələrinin unikallığı ilə seçilir. Bu ərazilərdə Batumi Botanika bağında olduğu kimi dağ botanika bağının salınması, ərazinin inkişafına böyük töhvə verə bilər. Ərazinin özünəməxsus rənga-rəng bitki örtüyü, nadir bitkiləri, əsasən də meşə bitkiçiliyi vardır. Qeyd edilənlər ərazidə bir sıra ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalına nail olmaqla, burada dayanıqlı inkişafın əldə edilməsi üçün əlverişlidir (Bilalov, Əsgərov, Gülalıyev, Adiloğlu, 2011, s.56-58).

1990-cı illərin əvvəllərindən ermənilərin Azərbaycana qarşı mənfur niyyəti və işğalçılıq siyasəti nəticəsində bütün bu imkanlar məhv edildi. 30 ilə yaxın işğal dövründə Şuşa başda olmaqla, Dağlıq Qarabağ və ətraf rayonlar talan edildi. Tarixi, mədəni abidələr, eləcə də təbii resurslar tamamilə dağıdıldı. (Hümbətov, 2024)



Şəkil 1. Qarabağ iqtisadi rayonu

Qarabağ iqtisadi rayonunun sahəsi 8,99 min $km^2$, əhalisinin sayı 907,9 min nəfərdir (2022). Tərkibinə Ağcabədi, Ağdam, Bərdə, Xocalı, Xocavənd, Füzuli, Şuşa, Tərtər inzibati rayonları, Xankəndi və Şuşa şəhərləri daxildir. Qarabağ Şərqi Zəngəzur, Mil-Muğan və Mərkəzi Aran iqtisadi rayonları arasında yerləşir. Cənubda İran ilə dövlət sərhədi Araz çayı boyu keçir (Şəkil 1, Qarabağ iqtisadi rayonu). (ARPS, 2021; Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi 2022)

Nəhayət, düz 28 ildən sonra ilahi ədalət qalib gəldi – Azərbaycan Ordusu yağı düşməni "iti qovan kimi" Qarabağdan, eləcə də onun tacı olan Şuşadan qovdu. Artıq ölkəmizin ərazi bütövlüyü təmin olunub. Şuşa başda olmaqla, işğaldan azad olunan şəhər, rayon və kəndlərimizdə çox sürətlə tikinti-bərpa işləri aparılır. (ARPS, 2021)

İşğaldan azad olunan kimi Qarabağda dərhal bərpa və yenidənqurma işlərinin aparılmasına başlanılması onu göstərir ki, yaxın bir neçə il ərzində azad olunan torpaqlarımızda turizm inkişaf edəcək və bu sahə həmin ərazilərin dirçəlməsində əhəmiyyətli yerlərdən birini tutacaq. Ümumilikdə, 2025-ci ilə qədər işğaldan azad edilmiş ərazilərə bir milyona yaxın yerli və xarici turistin səfər edəcəyi proqnozlaşdırılıb. (Hümbətov, Kərimov, Qapaqov və Cavadzadə, 2021)

***Nəticə***

Azərbaycan Respublikasında ətraf mühitdən səmərəli istifadə edilməsi və ölkədə davamlı inkişafın təmin edilməsi baxımından mövcud təbii ehtiyatlardan istifadə ilə əlaqədar olan təsərrüfat fəaliyyəti qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilməlidir. (Hümbətov, 2024)

Hesab edirik ki, dünya ölkələri, o cümlədən Azərbaycan ətraf mühitin qorunması ilə bağlı qısa, orta və uzunmüddətli inkişaf strategiyalarının hazırlanması zamanı beynəlxalq təşkilatlar tərəfindən müəyyən edilmiş qeyd edilən bu çağırışlar fonunda müvafiq siyasət alətləri və mexanizmlərinin formalaşdırılmasına əhəmiyyət verməlidir. Həmçinin bu istiqamətdə beynəlxalq təhlillərin aparılması və qlobal çağırışların müəyyən edilməsi dövlətlər arasında əlaqələrin işlək olmasının təmin edilməsi, inkişaf ehtiyaclarının və tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyənləşdirilməsi baxımından böyük önəm kəsb edir.

Qarabağ, təbii gözəllikəri və ətrafındakı təbii sərvətləri ilə ekoturizm üçün böyük potensiala malikdir. Ekoturizm, təbii mədəniyyətin, bioloji çeşidin qorunması və onun istifadəsinin davamı prinsiplərindən əsaslanan bir turizm növüdür. Qarabağ İqtisadi Rayonunda, ekoloji turizm mərkəzləri, təbii yolları, təbiət qoruma sahələri, təbii görmə obyektləri, təbiəti qoruma və istifadə prinsiplərini nəzərə alaraq, turistlərə təbii gözəlliklərin keyfiyyətli təcrübəsi təklif edilməlidir.

Həmçinin ərazinin tarixi və mədəni zənginliklər, mədəni abidələr, milli parklar, memarlıq strukturları və digər infrastrukturlar əvvəlki vəziyyətinə qaytarılmalı və mövcud potensialdan yararlanaraq yeni müasir dünyəvi infrastruktur yaradılmalıdır.

**ƏDƏBIYYATLAR**

1."Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (19 aprel 2021) https://president.az/az/articles/view/51179

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2022) “2022-ci ildə iqtisadi rayonların əsas sosial-iqtisadi göstəriciləri” https://www.stat.gov.az/source/regions/
3. Azərbaycan Respublikasının Prezidenti cənab Ilham Əliyev 7 iyul 2021-ci il tarixli işğaldan azad olunmuş ərazilərimizin inkişafı və onların ölkə iqtisadiyyatına inteqrasiyası, həmçinin digər iqtisadi rayonlarda planlaşdırma işlərinin səmərəliliyinin artırılması haqqında fərmanı (2021)
4. Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev 16 noyabr 2022-ci il tarixində “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında sərəncamı (16 noyabr 2022) https://president.az/az/articles/view/57883
5. Bilalov B.Ə, Əsgərov Ə.T, Gülalıyev C.G Adiloğlu (2011) “Ekoloji turizm”
6. Hümbətov Y.Ə, Kərimov F.C, Qapaqov V.F, Cavadzadə X.N, (2021) Turizm sənayesinin təşkili, Dərs vəsaiti, Bakı
7. Hümbətov Y.Ə. (2024) “Turizm siyasəti və planlaşdırılması” Dərslik, Bakı
8. APA news (2023) //20 years pass since Ilham Aliyev's first election as President of Azerbaijan// https://en.apa.az/domestic-policy/20-years-pass-since-ilham-aliyev-was-elected-president-of-the-republic-of-azerbaijan-for-the-first-term-414210

## Qarabağ və Şərqi Zəngəzur Iqtisadi Rayonlarında “Yaşıl Iqtisadiyyat”ın Perspektivləri və Hazırkı vəziyyəti

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**“İctimai idarəetmə və sosial innovasiyalar” kafedrasının dosenti**
**Afaq Hacıyeva**
**Afag_Hajiyeva@unec.edu.az**

**Xülasə**

Tədqiq olunan ərazi 30 ilə yaxın müddətdə işğal altında qalmış və demək olar ki, böyük miqyasda dağıntılara məruz qalmışdır. Qarabağ və Zəngəzur iqtisadi rayonlarında bu illər ərzində heç bir ciddi infrastruktur dəyişiklikləri edilməmiş, əksinə mövcud su və elektrik şəbəkələri dağıdılmış, torpağın strukturu səngərlər qazılaraq, minalar basdırılaraq və yandırılaraq pozulmuşdur. Yanacaq və digər məqsədlər üçün qırılan və istifadə olunan meşə masivvlərinin yerində pozulmuş landşaft sahələri yaranmış və maili ərazilərdə torpaq çökmələri formalaşmışdır.

Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamlarından sonra, tədqiqat ərazisində ciddi yenidənqurma işlərinə başlanmışdır. Burada yerli əhalinin yaşayışı, o cümlədən tarixi torpaqlarımıza gələn turistlərin qonaqlaması üçün estetik xüsusiyyətlərini qoruyan, lakin müasir təhcizatlı evlər, binalar və otellər inşa olunmuşdur. Eyni zamanda, Sərsəng və Suqovuşan su anbarlarının strukturunu daha da möhkəmləndirərək ərazinin normal su təminatı bərpa olunmuşdur. Ərazinin düzənlik hissələrində GES-lərin, dağətəyi sahələrdə KES-lərin və Şuşa və Kəlbəcər rayonları ərazisində GeoES-lərin, o cümlədən SES və KSES-lərin inşası tədqiqat rayonundakı “yaşıl enerji” ilə təminat üçün nəzərdə tutulmuşdur.

Məqalədə əsas məqsəd Qarabağ və Zəngəzur İR-nun infrastruktunun qurulmasında əsas rol oynayan “yaşıl enerji” mənbələrini araşdırmaq və görülən yenidənqurma işlərini təhlil etməkdir.

**JEL kodu: Q42**
**Açar sözlər:** Qarabağ, Şərqi Zəngəzur, yaşıl iqtisadiyyat, yaşıl enerji.
**Summary.**

The studied area was under occupation for nearly 30 years and was almost destroyed on a large scale. In Karabakh and Zangezur economic regions, no serious infrastructure changes were made during these years, on the contrary, the existing water and electricity networks were destroyed, the structure of the soil was disturbed by digging trenches, burying mines and burning them. In the place of forest massifs that were cut down and used for fuel and other purposes, disturbed landscape areas were created and landslides were formed in sloping areas.

After the relevant decrees of the President of the Republic of Azerbaijan, serious reconstruction works were started in the research area. Houses, buildings and hotels have been built here, preserving their aesthetic characteristics, but with modern equipment, for the living of the local population, as well as for the accommodation of tourists coming to our historical lands. At the same time, the normal water supply of the area was restored by further strengthening the structure of Sarsang and Sugovushan reservoirs. The construction of SolarES in the plain parts of the territory, WindES in the foothills and GeoES in the territory of Shusha and Kalbajar districts is envisaged in the provision of "green energy" in the research region.

The main goal of the article is to investigate the "green energy" sources that play a key role in the construction of the infrastructure of Karabakh and Zangezur IR and to analyze the reconstruction works.
**Keywords:** Karabakh, Eastern Zangezur, green economy, green energy.

***Qarabağ və Zəngəzur Iqtisadi Rayonlarında "Yaşıl Iqtisadiyyat"ın Inkişaf Perspektivləri və Hazırkı Vəziyyəti.***

Azərbaycan Respublikası işğaldan azad olunan ərazilərimizi "yaşıl enerji" zonasına çevirməyi hədəfləyir və bu istiqamətdə konkret addımlar *atılmaqdadır*. Son 1 ildə məhz Qarabağ və Zəngəzur iqtisadi rayonlarında gözlə görülə biləcək miqyasda yeniləmə işləri aparılmışdır. Bildiyimiz kimi, "yaşıl enerji" zonası ifadəsi təkcə bərpaolunan enerji mənbələrindən enerji istehsal edən yerlər barədə işlədilmir. Bu ifadənin əhatə dairəsi genişdir və özündə həm də ekoloji təmiz nəqliyyat vasitələrinin təşviqi, "yaşıl məşğulluğ"un təmini, resurslardan səmərəli istifadə kimi çoxşaxəli məsələləri birləşdirir. Onun üçün də işğaldan azad olunan ərazilərimizin "yaşıl enerji" zonasına çevrilməsi üçün kompleks tədbirlər görülür, "smartcity" ("ağıllı şəhər"), "smart-village" ("ağıllı kənd") konsepsiyası əsasında kəndlərin və şəhərlərin inşasına başlanılır, ərazidə yaradılacaq sənaye müəssisələrinin "yaşıl iqtisadiyyat"a töhfə verməsinə xüsusi diqqət yetirilir, günəş və külək enerjisindən istifadə imkanları araşdırılır və s.

Azərbaycanın işğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan enerji istehsalı üçün geniş imkanlar mövcuddur. Mütəxəssislərin hesablamalarına əsasən, sözügedən ərazilərdə 10 qiqavat həcmində günəş və külək enerjisi potensialı mövcuddur. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatına görə, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları texniki potensialı 7200 meqavatdan çox olan günəş enerjisindən istifadə üçün əlverişli şəraitə malikdir. Bununla yanaşı, ilkin proqnozlara görə, Laçın və Kəlbəcər rayonlarının dağlıq ərazilərində külək enerjisinin texniki potensialı 2 min meqavat həcmində qiymətləndirilir. Kəlbəcər və Şuşa rayonlarında isə geotermal enerji mənbələrindən "yaşıl enerji" kimi istifadə olunması imkanları daha çox diqqət çəkir. Hal-hazırda Laçın şəhərindəki bütün evlərin damlarında günəş

panelləri quraşdırılmışdır. Eyni zamanda şəhər və Zabux qəsəbəsi Həkəri və Zabux SES-lərindən əldə olunan enerji vasitəsilə təmin olunur.

Bütün təbii ehtiyat imkanlarını nəzərə alaraq, Qarabağ və Şərqi Zəngəzurun 10 min km$^2$-lik ərazisi "yaşıl enerji" zonası elan edilmişdir. Dövlət başçısı "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" 2021-ci il 3 may tarixli Sərəncam imzalamışdır. Sənədə əsasən, Nazirlər Kabineti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022–2026-cı illərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı Tədbirlər Planı" təsdiq edilmişdir.

Ötən müddətdə işğaldan azad edilən ərazilərdə bir neçə su elektrik stansiyası inşa edilərək istismara verilmişdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında günəş və külək elektrik stansiyalarının yaradılması ilə bağlı hazırlanan konsepsiyaya əsasən, həmin ərazilərdə istər əhalinin təminatında, istərsə də sənaye məqsədli istehlak ediləcək elektrik enerjisinin yalnız bərpaolunan enerji mənbələrindən alınacağı nəzərdə tutulmuşdur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının hidroenerji potensialının yenidən öyrənilməsi və istifadəsi barədə verilən qərarlara əsasən, "AzərEnerji" ASC tərəfindən işğal dövründə dağıdılan su elektrik stansiyalarından əlavə, ekoloji normalar daxilində yenilərinin tikintisi barədə hesabat hazırlanmışdır. Həmin hesabata əsasən, bölgədə ümumi gücü 467 MVt olan 72 kiçik su elektrik stansiyasının yaradılacağı nəzərdə tutulmuşdur.

Tədqiq olunan iqtisadi rayonların dayanıqlı elektrik təchizatı infrastrukturunun yaradılması, həmçinin hidroenerji ehtiyatlarından səmərəli istifadə edilməsi istiqamətində tapşırıqlara əsaslanılaraq, regionun sərt, keçilməz iqlim və relyef şəraitinə rəğmən, 3 ildən az bir müddətdə ümumi gücü 226 MVt olan 28 su elektrik stansiyası (SES) yenidən qurulmuş və ya yeni tikilmişdir.

Ümumi gücü 44 MVt olan dörd SES-də isə hazırda avadanlıqların quraşdırılması və sazlama işləri icra edilir. Nəticədə bütün region üzrə dayanıqlı elektrik təchizatı sxemi yaradılır və COP29 tədbirinin keçiriləcəyi, "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmiş 2024-cü ilin birinci yarısında ümumi gücü 270 MVt olan 32 SES-in istismara veriləcəyi nəzərdə tutulmuşdur. Bu stansiyalarda il ərzində 600 milyon kilovat/saatdan çox "yaşıl enerji"nin istehsal ediləcəyi planlaşdırılır. Bu da 160 milyon kubmetrdən artıq təbii qaza qənaət edilməsi, atmosferə atılan karbon qazının həcminin isə 330 min tondan çox azalması deməkdir. Bundan əlavə, ümumi gücü 37,5 MVt olan 6 kiçik su elektrik stansiyasının (KSES) 2025-ci ilin birinci yarısında istismara verilməsi gözlənilir.

Ölkənin enerji sistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının elektrik enerjisi tələbatı 100 faiz "yaşıl enerji" hesabına təmin edilir və tələbatdan artıq qalan həcm ölkə enerji sisteminə ötürülür. Perspektiv layihələr də nəzərə alınarsa, işğaldan azad olunan rayonların ərazisində icra edilmiş və icrası gözlənilən "yaşıl enerji" layihələri, ümumilikdə, 1100 MVt təşkil edir ki, bu da regionun mövcud enerji tələbatından 12-15 dəfə çoxdur. Bölgənin 2040-cı il üçün ümumi güc tələbatı 1000 MVt proqnozlaşdırılır ki, bu da icra olunacaq "yaşıl enerji" layihələrinin həcmi nəzərə alınmaqla 20 il sonra Qarabağ və Şərqi Zəngəzur İR-nun tam olaraq "yaşıl enerji" ilə təmin ediləcəyi deməkdir.

Hesabatlardan belə nəticəyə gəlmək olur ki, "Zabux" KSES-nin 2,8 MVt, "Qarıqışlaq" KSES-nin isə 4 MVt gücündə olduğu, il ərzində müvafiq olaraq 8-9 milyon, 11-12 milyon kilovat/saat "yaşıl enerji" istehsal ediləcəyi gözlənilir. Göstərilən hesabatlarda qeyd edilmişdir ki, həmin stansiyaların enerji sisteminə inteqrasiyası üçün yeni yarımstansiyalar tikilmiş, 35 kV-luq yeni elektrik verilişi xətti çəkilmişdir. Yeni optik kabel xətti çəkilməklə stansiyalar ölkə enerji sisteminin mərkəzləşmiş SCADA

sisteminə inteqrasiya edilmişdir. Nəticədə rəqəmsal qaydada açılıb-qoşulma, intellektual idarəetmə, operativ monitorinq və təhlil aparılması reallaşdırılmaqla yanaşı, stansiyalara Bakıdan nəzarətin əlçatanlığı təmin edilmişdir.

Həkəri çayının sağ qolu olan Zabux çayı üzərində tikilən “Zabux” KSES vahid ölkə enerji sisteminə inteqrasiya olunub və burada istehsal edilən elektrik enerjisi həm Laçın rayonunda enerji tələbatına istifadə olunacaq, artıq qalan enerji isə ölkə enerji sisteminə ötürüləcək.

“Qarıqışlaq” KSES də adıçəkilən çay üzərində inşa edilmişdir. Bu stansiya da ölkə enerji sisteminə inteqrasiya olunmuşdur. Həm “Zabux”, həm də “Qarıqışlaq” stansiyalarında quraşdırılan ekoturbinlər hesabına çayda, ümumilikdə, 1,4 dəfə daha artıq ekoloji axımın saxlanılmasına şərait yaradılır. Çay səviyyəsinin azalması halında isə avtomatik dayanması reallaşdırılır. Sözügedən stansiyaların tikintisi prosesində yeni balıqötürücü, həmçinin liltutucu qurğular inşa edilməklə ekoloji təsirlər minimuma endirilir. Daşqınlar zamanı baş verə biləcək fəsadların qarşısı alınır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında “yaşıl enerji” zonasının yaradılması ilə əlaqədar dağ-mədən layihələrinin icrasına başlanılmışdır. Burada mövcud olan faydalı qazıntı yataqları yeni texnologiyalar əsasında istismar olunaraq, mümkün qədər tullantısız istehsal prinsipləri əsasında emal olunacaqdır. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin “yaşıl enerji” zonasına çevrilməsi və ölkəmizin bərpaolunan enerji potensialının inkişafı məqsədi ilə AİŞ, SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şərkəti) və BP (Britiş Petrolium) şirkətləri ilə Cəbrayıl rayonunda 240 MVt gücündə günəş paneli stansiyasının tikintisini nəzərdə tutan, AİŞ-in “Şəfəq” (“Sunrise”) layihəsinə daxil olmaq niyyətini əks etdirən Qoşulma Sazişi imzalanmışdır. Layihənin əsas məqsədi “Səngəçal” terminalında qazdan alınan enerjini günəş enerjisi ilə əvəz etməkdir.

Respublikanın Energetika Nazirliyi aparıcı beynəlxalq şirkətlərlə birlikdə artıq Qarabağ və Şərqi Zəngəzur İR-da “yaşıl enerji” zonası üçün konseptual proqnoz hazırlamışdır. Şirkətlər artıq Qarabağ və Şərqi Zəngəzurda bərpa olunan mənbələrin potensialının beynəlxalq qiymətləndirməsini aparmışdır. Külək enerjisində potensial təxminən 7200 meqavat, günəş enerjisində potensial isə 2000 meqavatdan çoxdur. Neft-qaz sahəsində strateji tərəfdaş olan BP işğaldan azad edilmiş ərazilərdə, xüsusilə Cəbrayıl rayonunda işləməyə böyük maraq göstərir. Energetika Nazirliyi 200 meqavatdan çox gücə malik bərpa olunan enerji mənbəyinin tikintisi ilə bağlı BP ilə danışıqlar apararaq, razılığa gəlmişdir. Hazırda Energetika Nazirliyi bərpa olunan enerjiyə investisiyaların yatırılması ilə bağlı aparıcı beynəlxalq enerji şirkətləri ilə fəal danışıqlar mərhələsindədir. Bu, Azərbaycanda “yaşıl enerji”nin inkişafına dair ölkənin daxili strategiyasının bir hissəsi olmaqla yanaşı, ixracdan əldə olunan gəlirlər üçün əlavə mənbə ola bilər və enerji mənbələri idxal edən ölkələr üçün də faydalı olacaq.

2021-ci ildə, azad edilmiş ərazilərdə 20 meqavat gücündə dörd su elektrik stansiyası inşa edilmişdir. Bunlar 8 MVt gücə malik "Güləbird", ümumi gücü 7,8 MVt olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyaları və Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə “Kəlbəcər-1” Kiçik Su Elektrik Stansiyasıdır. Hazırda azad edilmiş ərazilərdə ümumi gücü 140 MVt-a qədər olan və dağıdılan 33 KSES-in bərpası istiqamətində də iş aparılır. 2022-ci ildə gücü 27 meqavata bərabər olan daha beş stansiya “Azərenerji” tərəfindən bərpa ediləcək. Burada yerli şirkətlərlə yanaşı, xarici şirkətlərində investisiya qoymaq imkanları vardır ki, artıq bu istiqamət geniş işlər görülməkdədir. Nəzərə alsaq ki, azad edilmiş bütün bölgələr bu gün Azərbaycanın digər bölgələri ilə elektrik xətləri ilə birləşdirilib, ona görə orada istehsal olunacaq enerji ümumi sistemə daxil ediləcəkdir.

"Yaşıl enerji” zonasının yaradılmasına töhfə verəcək digər bir layihə isə Kəlbəcər və Laçın rayonlarında külək elektrik stansiyalarının tikilməsi ilə bağlıdır. Artıq bu layihə bir çox xarici şirkətin marağına səbəb olmuşdur. İlkin hesablamalar göstərir ki, qeyd edilən ərazidə 100 MVt-dək gücdə külək elektrik stansiyasının tikilməsi perspektivli hesab edilir. Həmçinin "Xudafərin", "Qız Qalası" hidroqovşaqları və su elektrik stansiyaları layihələrinin icrası da uğurla davam etdirilir. Ümumi gücü 200 MVt olan "Xudafərin" və 80 MVt gücündə "Qız Qalası" su elektrik stansiyalarının inşasının 2024-cü ilədək tamamlanması planlaşdırılmışdı. Bu layihələrin reallaşması Azərbaycana illik 358 milyon kVt/st elektrik enerjisi istehsalına imkan yaradacaqdır. Qeyd edək ki, 2022-ci ildə “yaşıl enerji” strategiyasına uyğun olaraq Kəlbəcər rayonunun ərazisində ümumi gücü 27 meqavat olan 5 kiçik su elektrik stansiyası tikilir. “Azərenerji” ASC-nin hesablamaları göstərir ki, Kəlbəcərdə yeni tikilən elektrik stansiyalarında il ərzində ümumilikdə 100 milyon kilovat/saata yaxın ekoloji cəhətdən təmiz enerji istehsal olunacaq. Bu isə 50 milyon kubmetr təbii qaza qənaət edilməsi deməkdir (cədvəl 1).

**Cədvəl 1. Qarabağ və Şərqi Zəngəzur İR-da həcmi daha boyük olan SES və KSES-lər.**

| № | Rayon | SES-in adı | SES-in gücü |
|---|---|---|---|
| 1 | Laçın | Zabux | 2,8 MVt |
| 2 | Laçın | Qaraqışlaq | 4 MVt |
| 3 | Laçın | Güləbrid | 8 MVt |
| 4 | Tərtər | Suqovuşan-1<br>Suqovuşan-2 | 7,8 MVt |
| 5 | Kəlbəcər | Kəlbəcər-1 | 4,4 MVt |
| 6 | Cəbrayıl | Xudafərin | 200 MVt |
| 7 | Cəbrayıl | Qız qalası | 80 MVt |

***Tədqiqat ərazisində “ağıllı şəhər” və “ağıllı kənd” layihələrinin ekoloji mahiyyəti.***

Azərbaycan ərazisində "Ağıllı kənd" konsepsiyasının tətbiqi ölkə başçısının imzaladığı sərəncamla təsdiqlənən "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nda öz əksini tapıb. "Ağıllı kənd" konsepsiyası insanların həyatını asanlaşdırmaq, istehsal və xidmət sektorunda səmərəliliyi artırmaq üçün İKT-nin imkanlarından istifadəni nəzərdə tutur. Bu konsepsiyanın tətbiqi rəsmi qurumların yerli sakinlər, o cümlədən də infrastrukturla birbaşa əlaqə qurmağa, kənddə baş verənləri və kəndin necə inkişaf etdiyini izləməyə imkan verir. "Ağıllı kənd" konsepsiyasında İKT-nin imkanları kənddə xidmətlərin keyfiyyətini artırmaq, xərcləri və resurs istehlakını azaltmaq, vətəndaşlarla hökumət arasında təmasları artırmaq üçün istifadə olunur.

"Ağıllı kənd"lərdə tətbiq olunan elektron və texniki imkanlar məlumatların bir araya toplanmasını və analizini asanlaşdırır. Nəticədə, bu məlumatlar resursların səmərəli istifadəsinə yönəldilir. Məsələn, nəzarət kameraları, yaxud naqilsiz sensor şəbəkələri vasitəsilə kənd ərazisində çirklənməni elektron xəritə üzərindən müşahidə etmək mümkün olur və nəticədə, problemə vaxtında müdaxilə etmək imkanı yaranır. Texnoloji yeniliklər əsasında “Ağıllı kənd təsərrüfatı” konsepsiyasının reallaşdırılması isə mövcud əkinçilik sistemlərinin struktur zəifliklərini aradan qaldırmağa, məhsuldarlığı artırmağa,

xərcləri optimallaşdırmağa, rəqabətçi və davamlı nəticələr əldə etməyə imkan verəcək. Bu da gələcəkdə ölkəmizdə ərzaq təhlükəsizliyinin inkişafına böyük töhfədir. Ölkəmizdə ilk belə kənd Zəngilan rayonunun Ağalı kəndində salınıb. "Ağıllı kənd" və "Ağıllı şəhər" konsepsiyalarında "yaşıl iqtisadiyyat"ın tətbiq və təmin olunması üçün bütün ekoimkanlar nəzərə alınır. Digər belə "Ağıllı kənd" layıhələri Füzuli və Ağdam rayonlarında da həyata keçiriləcəkdir. Bu tip şəhər və kəndlərin salınması müasir tələblərə uyğun olaraq, ekoloji gərginliyin azalmasında ciddi rol oynayacaqdır. Burada bütün enerji təminatının bərpa olunan enerji hesabına həyata keçirilməsi "yaşıl iqtisadiyyat"ın əsas prioritet məsələlərindən biridir.

***Qarabağ iqtisadi rayonunda yaşıl iqtisadiyyatın tətbiqinin ekoloji aspektləri***

İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq, iqtisadi reinteqtasiya tədbirləri aparılmaqdadır və bu istiqamətdə nəzərdə tutulmuş strateji baxışlardan biri də bu ərazilərdə yaşıl enerji zonasının yaradılmasıdır. Yaşıl enerji zonası - enerji tələbatı yaşıl enerjidən (bərpa olunan enerji mənbələrindən) maksimum istifadə edilməklə təmin edilən və enerji dəyər zəncirində ekoloji təmiz və enerji baxımından səmərəli "yaşıl" texnologiyalardan istifadə edilən ərazidir.

Qeyd edilənlər Azərbaycanda gələcək iqtisadi inkişafın ekoloji təmiz texnologiyaların tətbiqi, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası sahəsində işlərin artırılması ilə sıx bağlı olacağını deməyə əsas verir. Belə ki, Şuşa şəhərini və ətraf kəndləri təmin edən elektrik stansiyası, o cümlədən də Füzuli şəhərinin enerji təminatını verən stansiyalar fəaliyyət göstərir. Şuşa şəhərində tullantıların toplanması və düzgün qaydada çeşidlənməsi məqsədilə xüsusi, yeraltı tullantı bunkerləri yerləşdirilmişdir. Hazırda Qarabağ İR-da aparılan quruculuq işlərində "yaşıl enerji" konsepsiyasına uyğun tədbirlər görülür.

Tədqiqat sahəsində "yaşıl şəhər" və "yaşıl turizm" in inkişafına uyğun olaraq, işğal dövründə qırılmış meşə sahələri salınır, tarixi obyeklər əvvəlki vəziyyətinə uyğun olaraq bərpa olunur. Təbii landşaftların bərpa olunmasında əsas rol oynayan təbii su mənbələri, kəhriz və bulaqlar yenidən inşa edilir.

Lakin "yaşıl iqtisadiyyat" kontekstində aparılan yenidən qurma işləri zamanı müəyyən ekoloji problemlər də özünü biruzə verir;

1. Su elektrik stansiyalarının inşası zamanı balıqların kütləvi məhvi və su balansının pozulması müşahidə olunur. Lakin yeni inşa edilən SES və KSES-lər ekoturbinlərlə təhciz olunur ki, bu zaman balıqötürücü qurğular işə düşür və heç bir canlı zərər görmür.
2. Günəş panelləri quraşdırılan zaman daha çox əraziyə ehtiyac duyulur. Bu səbəbdən də günəş panellərinin əsasən binaların və digər iaşə obyektlərinin damında quraşdırılması məqsədəuyğun hesab edilir, bu məsələlər aidiyyatı qrumlar tərəfindən nəzərə alınır.
3. Külək enerjisi ekoenerji növlərindən biridir. Lakin külək turbinlərinin fəaliyyəti zamanı yüksək səs desibeli yaranır, eyni zamanda da dəstə ilə uçan quşların kütləvi ölümü ilə nəticələnir. Buna görə də külək turbinləri daha çox yaşayış məntəqələrindən uzaqda quraşdırılır.

Hazırda Qarabağ iqtisadi rayonunda aparılan yenidənqurma işləri nəticəsində yeni yollar və tunellər inşa olunur. Qazıntı işləri zamanı maili ərazilərin strukturu pozulur və bəzi ərazilərdə torpaq çökmələrinə səbəb ola bilir. Bu səbəbdən də yol bərkitmə işlərinin aparılması və yolqoruyucu meşə zolaqlarının salınması olduqca vacibdir. Problemlərin həlli məqsədi ilə böyük sahələrdə, xüsusilə də Füzuli və Xocavənd rayonları ərazilərində yaşıllıq zolaqları, əsasən bağ massivləri salınmışdır.

Bütün görülən işləri nəzərə alaraq Milli Prioritetlərə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin ediləcəkdir.

## ƏDƏBIYYATLAR


1. "Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 oktyabr tarixli 462 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. http://e-qanun.az/framework/5796
2. Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial iqtisadi inkişafa dair milli proqram. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 18 fevral tarixli 1152 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. https://e-qanun.az/framework/1975
3. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 8 iyun 1999-cu il. https://e-qanun.az/framework/3852
4. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 9 iyul 2021-ci il. № 359-VIQ http://www.e-qanun.az/framework/48129
5. Vüsal Qasımlı, Ramil Hüseyn və başqaları, Yaşıl iqtisadiyyat. Bakı, 2022, "Azprint" nəşriyyatı, 280 səh.
6. Green Growth Index 2020. https://greengrowthindex.gggi.org/wp content/uploads/2021/01/2020-Green-Growth-Index.pdf
7. Green communities https://greencommunities.com/
8. Lawn, P. (2016). Resolving the Climate Change Crisis: The Ecological Economics of Climate Change. Publisher Springer Dordrecht https://doi.org/10.1007/978-94-017-7502-1
9. Timmons, D., Harris, J. M., & Roach, B. (2014). The economics of renewable energy. Global Development And Environment Institute, Tufts University, 52, 1-52
10. UNEP (2016), Green Finance for Developing Countries Report

**İnternet resursları:**

11. Statistical Review of World Energy, 2021, 70TH edition, BP
12. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmi veb saytı. www.eco.gov.az
13. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. www.stat.gov.az
14. Qlobal Ətraf Mühit Fondu www.thegef.org

https://www.xalqqazeti.az/az/iqtisadiyyat/179334-qarabag

# Üzvi Pambıqçılıq "Yaşıl" Iqtisadiyyata Keçidin Bir Hissəsi kimi

**Azərbaycan Dövlət İqtisad Univeristeti (UNEC)**
**Aqrar Tədqiqatlar Mərkəzinin dissertantı,**
**Tağıyeva Leyla**
Leyla_Tagiyeva@unec.edu.az

**Xülasə**

Məqalədə kənd təsərrüfatı istehsalının klassik istiqaməti ilə getdikcə daha çox rəqabət aparan və "yaşıl" iqtisadiyyata doğru addımlardan biri sayıla bilən.kənd təsərrüfatının alternativ növləri təhlil edilir, üzvi kənd təsərrüfatının həm ənənəvi kənd təsərrüfatına nisbətən ekoloji proseslərə, biomüxtəlifliyə və yerli şəraitə xas olan təbii dövriyyələrə söykənməsi, uzunmüddətli sabitlik, torpağın strukturunun yaxşılaşması, biomüxtəlifliyin artırılması, insan və heyvan sağlamlığı üçün təhlükəsizliyin təmin edilməsi və qida məhsullarının dad keyfiyyətlərinin yüksəldilməsi kimi üstünlükləri, həm də Azərbaycanda pambığın inkişafı yolunda pambıqçılığın inkişafını riskli edən suvarma suyu üçün su ehtiyatlarının olmaması və məhsuldarlığın aşağı olması kimi bir sıra mümkün məhdudiyyətləri araşdırılır, üzvi kənd təsərrüfatı məhsullarının istehsalı, o cümlədən ölkə iqtisadiyyatında mühüm əhəmiyyətə malik olan pambıqçılıq kompleksində «yaşıl» iqtisadiyyatı inkişaf etdirmək üçün mövcud imkanlar üzə çıxarılır, pambıqçılıqda «yaşıl» iqtisadiyyatı inkişaf etdirmək üçün atılmalı olan addımlar müəyyən edilib təkliflər verilir, üzvi kənd təsərrüfatı məhsullarının istehsalı, o cümlədən üzvi pambıq yetişdirilməsi ilə bağlı proseslərin nəzərə alınmasının və optimallaşdırılmasının "yaşıl" iqtisadiyyata keçidin bir hissəsinin ola biləcəyi əsaslandırılır.

**JEL kodu:Q1**

***Açar sözlər:*** "yaşıl" iqtisadiyyat, qeyri-neft sektoru, üzvi kənd təsərrüfatı, üzvi pambıqçılıq, bioloji müxtəliflik, bioloji dövriyyələr, ekosistem.

***Summary:*** The article examines alternate forms of agriculture, which are becoming more and more competitive with the traditional agricultural production path and can be viewed as a step toward a "green" economy, organic agriculture's dependence on local biodiversity, ecological processes, and natural cycles, as well as its long-term stability, enhanced soil structure, and increased biodiversity, safety for the health of people and animals, in contrast to traditional agriculture, and benefits such enhancing the flavor of food products, as well as several potential drawbacks, several potential drawbacks, a number of possible limitations on the development of cotton in Azerbaijan, such as the lack of water resources for irrigation and low productivity, which make the development of cotton growing risky, are examined. In the cotton producing complex, which is crucial to the country's economy, the production of organic agricultural products is explained, along with the prospects for strengthening the "green" economy. Considering and optimizing the processes associated with the production of organic agricultural products, including organic cotton cultivation, can be a part of the transition to the "green" economy, as suggested by the steps to be taken to develop the "green" economy in cotton growing.

***Key words:*** "green" economy, non-oil sector, organic agriculture, organic cotton growing, biological diversity, biological cycles, ecosystem.

***Kənd Təsərrüfatı***

Kənd təsərrüfatının hər bir ölkənin ümumi iqtisadiyyatında özünəməxsus yeri vardır. Ölkəmizin iqtisadiyyatının şaxələndirilməsi, xüsusən də qeyri-neft sektorunda aqrar sahənin sürətli inkişafının təmin edilməsi qarşıda duran prioritet məsələlərdən biridir. Son illərdə kənd təsərrüfatının alternativ növləri kənd təsərrüfatı istehsalının klassik istiqaməti ilə getdikcə daha çox rəqabət aparmağa başlamışdır. Ənənəvi kənd təsərrüfatı ilə müqayisədə üzvi kənd təsərrüfatı, o cümlədən üzvi pambıqçılıq məhsullarının xarici bazarlara ixracından daha çox gəlir əldə etmək mümkündür. Xarici ölkələrdə üzvi kənd təsərrüfatı üsulları geniş yayılmışdır ki, bu üsullara keçid də "yaşıl" iqtisadiyyata doğru addımlardan biri sayıla bilər. Bu səbəbdən üzvi kənd təsərrüfatı məhsullarının istehsalı, o cümlədən üzvi pambıqçılığın inkişafının aktual məsələləri və inkişafı hazırda diqqət çəkən əsas məqamlardan biri hesab olunur. Tədqiqatın **məqsədi** üzvi kənd təsərrüfatının ənənəvi kənd təsərrüfatına nisbətən bir sıra danılmaz üstünlüklərini təhlil etmək, ölkəmizdə üzvi pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı təkliflər verməkdir.

***"Yaşıl iqtisadiyyat" termininin təşəkkülü***

Məqalədə rəsmi statistik məlumatlardan, elmi ədəbiyyatlarda verilən məlumatlardan və tədqiqat mövzusu ilə bağlı normativ-hüquqi bazadan, digər məlumatlardan istifadə olunmuşdur. Pambıqçılıq kompleksinin inkişafında mövcud olan problemlərin açıqlanması üçün dərin təhlil və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Əldə edilmiş materiallar üzrə iqtisadi təhlillər və ümumiləşdirmələr aparılmışdır.

"Yaşıl iqtisadiyyat" termininə 2012-ci ildə BMT-nin Rio+20 konfransında xüsusi əhəmiyyət verilmişdir. Bu konsepsiya müasir ekoloji problemlərin davamlı inkişaf nəzəriyyəsi çərçivəsində həllinə ən mühüm nəzəri-praktiki yanaşmadır.

"Yaşıl" iqtisadiyyatın strateji məqsədləri Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) tərəfindən işlənib hazırlanmış tərifdə ümumiləşdirilmişdir. Burada "yaşıl" iqtisadiyyatın ekoloji riskləri və ətraf mühitə dəyən zərərləri əhəmiyyətli dərəcədə azaltmaqla insanların rifahını və sosial tarazlığı təşviq edən iqtisadi sistem olduğu vurğulanır. Başqa sözlə, "yaşıl" iqtisadiyyat resurslardan səmərəli istifadə edən, sosial cəhətdən balanslaşdırılmış, aşağı emissiyalı iqtisadiyyatdır.

Rio+20 Davamlı İnkişaf Konfransının qərarlarına uyğun olaraq "yaşıl" iqtisadiyyatın inkişafına ərzaq təhlükəsizliyi, qida və kənd təsərrüfatının ekosistem yanaşma əsasında təşkil edilməsi kömək etməlidir.

Qeyd etmək lazımdır ki, son vaxtlar bütün dünyada klassik sənayeləşmə sxemi üzrə inkişaf edən kənd təsərrüfatına alternativ olan kənd təsərrüfatı növləri artıq yaranıb və ya yaranmaqdadır. Onlardan biri üzvi kənd təsərrüfatıdır.

***Üzvi kənd təsərrüfatının üstünlükləri və mümkün məhdudiyyətləri***

Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) terminologiyasına görə, üzvi əkinçilik "bioloji müxtəliflik, bioloji dövriyyələr və torpağın bioloji aktivliyi də daxil olmaqla aqrar ekosistemin rifahını həvəsləndirən və gücləndirən kompleks istehsal idarəetmə sistemidir ki, buna da sistem daxilində spesifik funksiyaları yerinə yetirmək üçün sintetik materialların istifadəsindən fərqli olaraq bütün mümkün aqronomik, bioloji və mexaniki metodlardan istifadə

etməklə nail olunur" (А.И.Алтухов, В.И.Нечаев, Б.Н. Порфирьев; под ред. Б. Н. Порфирьева, 2013).

Beləliklə, üzvi kənd təsərrüfatı ekoloji proseslərə, biomüxtəlifliyə və yerli şəraitə xas olan təbii dövriyyələrə söykənərək neqativ təsirlərlə bağlı olan ehtiyatlardan istifadə etməməklə, ənənəvi kənd təsərrüfatına nisbətən bir sıra danılmaz üstünlüklərə malikdir. Bunlar: uzunmüddətli sabitlik, torpağın strukturunun yaxşılaşması, biomüxtəlifliyin artması, insan və heyvan sağlamlığı üçün təhlükəsizliyin təmin edilməsi və qida məhsullarının dad keyfiyyətlərinin artmasıdır. Eyni zamanda, üzvi sistemlər təbii stresslərə daha davamlıdır və daha az istehsal xərclərini tələb edir. Üzvi məhsulların yüksək qiymətlərini nəzərə alsaq, bu məhsulların istehsalçıları ümumi və xalis mənfəət göstəriciləri baxımından daha rəqabətli olurlar. Üzvi kənd təsərrüfatı ətraf mühiti yaxşılaşdırmaq, təbii ekosistemi qoruyub saxlamaq və cəlb olunan bütün insanlar üçün ədalətli münasibətləri inkişaf etdirmək üçün ənənə, innovasiya və elmi özündə birləşdirir. Üzvi kənd təsərrüfatı, eyni zamanda torpaqda çoxsaylı bitkilərin becərilməsinə üstünlük verilməsini, əkin tsikli, növbəli əkin sistemini və üzvi gübrələrdən istifadəni özündə ehtiva edir (Органическое сельское хозяйство и право. Рим: Продовольственная и сельскохозяйственная организация Объединенных Наций (ФАО), 2015.). Ənənəvi kənd təsərrüfatı sektorundan fərqli olaraq üzvi kənd təsərrüfatı məhsullarının xarici bazarlara ixracından daha çox gəlir əldə etmək mümkündür.

Təbii ki, üzvi kənd təsərrüfatının mövcud üstünlükləri ilə yanaşı, həm ümumən dünyada, həm də bizim ölkəmizdə bir sıra mümkün məhdudiyyətlərin olması faktı şübhə doğurmur. Araşdırmalarımız göstərir ki, bu məhsulun yüksək iqtisadi imkanlarına baxmayaraq Azərbaycanda pambığın inkişafı əsasən iki amillə məhdudlaşır: suvarma suyu üçün su ehtiyatlarının olmaması və məhsuldarlığın aşağı olması. Bu iki amil pambıqçılığın inkişafını riskli edir. Pambıq əkilən bütün aran rayonlarının torpaqları müəyyən dərəcədə şorlaşmış, şorəkətləşmişlər, qaysaq bağlayır, bataqlaşır və s. Qrunt sularının hansı dərinlikdə yerləşməsindən, onların tərkibindən və minerallaşmasından, torpağın fiziki-kimyəvi tərkibindən asılı olaraq, burada müxtəlif növ şorlaşma, yəni sodalı, xloridli, sulfatlı şorlaşmalar və onların komleksli kombinasiyaları əmələ gəlmişdir. Buna görə də ənənəvi təsərrüfatçılıq sistemindən istifadə etdikdən sonra üzvi metodların tətbiqi üçün torpağın bərpasına ən azı bir neçə il tələb olunur. Statistik məlumatların təhlili göstərir ki, ölkəmizdə pambıq əkin sahələri 2010 -cu ilə nisbətən 2017-ci ildə 4,5 dəfə artaraq 136,4 min hektar, məhsul istehsalı 207,5 min ton, məhsuldarlıq isə 15,3 sentner olmuşdur. İstehsal olunan məhsulun 94 % - i şəxsi təsərrüfatlarda istehsal olunmuşdur. Bir hektara çəkilən xərcin 650 – 800 manat həcmində olduğunu nəzərə aldıqda təsərrüfatların çox aşağı gəlir əldə etmələri müəyyən edilir ki, bu da istehsalçıların həyat səviyyəsinə ciddi şəkildə mənfi təsir edir. Üzvi təsərrüfatlarda məhsuldarlıq ənənəvi təsərrüfatlarla müqayisədə bir qədər aşağı ola bilər.

Bununla belə bu gün kənd təsərrüfatının üzvi ssenari üzrə inkişafının alternativi yoxdur.

Ölkəmizdə üzvi kənd təsərrüfatı məhsullarının istehsalı üçün geniş imkanlar var. Bunlara ölkəmizdə 11 iqlim tipindən 9-nun mövcudluğunu; günəşli günlərin sayının çox olmasını (Eyni zamanda Azərbaycanda günəşli günlərin sayına görə pambıqçılıq, məsələn, digər ölkələrdən geri qalır. Günəşli saatların sayı Kür-Araz ovalığında 2300 -2500 saat təşkil edir. Günəşli günlərin sayı ən çox iyun-avqust aylarında, ən az isə yanvar ayında olur); kənd təsərrüfatının ayrı-ayrı sahələrinin inkişafı ilə bağlı regionların ixtisaslaşmasını; əhalidə kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı vərdişlərin və tarixən formalaşmış ənənələrin mövcudluğunu; son zamanlar əhalinin kənd təsərrüfatı və ekoloji təmiz ərzaq məhsullarının istehlakına üstünlük verməsi ilə bağlı maariflənmə və istehlak mədəniyyətinin

yüksəlməsini aid etmək olar (Abbasov A., 2020). Məsələn, aparılan müşahidələr göstərir ki, fermerlərin bilik səviyyəsinin qənaətbəxş olması və aqrotexniki qaydalara düzgün əməl etməsi sahədən 30-35 sentner məhsul əldə etməyə imkan verir.

Kənd təsərrüfatı istehsalında üzvi metodlara keçid ölkəmizdə «yaşıl» iqtisadiyyata doğru atılan addımlardan biri ola bilər. Qeyd edək ki, ölkəmizdə üzvi kənd təsərrüfatı məhsullarının istehsalının inkişafı üçün geniş normativ-hüquqi baza mövcuddur. Azərbaycan hököməti dünya iqtisadiyyatında baş verən dəyişiliklər fonunda ölkə iqtisadiyyatının büdrəməməsi üçün qeyri-neft sektorunun inkişaf etdirilməsi və ölkədə rəqabətqabiliyyətli məhsullar istehsal edən və ixracata yönəldilmiş emal sənaye sahələrinin inkişaf etdirilməsi üçün fəal sosial-iqtisadi siyasət aparmaqdadır.

Belə ki, 13 iyun 2008-ci ildə "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu ("Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanunu, 13 iyun 2008-ci il.) qəbul edilmiş, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. "Strateji Yol Xəritəsi"nə uyğun olaraq kənd təsərrüfatının ənənəvi sahələrindən olan pambıqçılığın inkişafının sürətləndirilməsi, ölkədə pambıqçılıq məhsullarına olan tələbatın ödənilməsi, pambıq emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, pambıq məhsullarının ixracının artırılması, kənd əhalisinin pambıq istehsalına marağının yüksəldilməsi və dövlət dəstəyinin daha da genişlənməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir.

***Pambıqçılıq kompleksində «yaşıl» iqtisadiyyatın inkişaf etdirilməsi üçün imkanlar***

Etiraf etmək lazımdır ki, müasir iqtisadi şəraitdə ölkə iqtisadiyyatında mühüm əhəmiyyətə malik olan pambıqçılıq kompleksində də «yaşıl» iqtisadiyyatı inkişaf etdirmək üçün yeni imkanlar açılır. Pambıqçılıq və «yaşıl» iqtisadiyyat bir-biri ilə belə bağlıdır ki, pambıq istehsalı əhəmiyyətli enerji və su ehtiyatlarını tələb edir. Məsələn, Greenpeace-n hesablamalarına görə, bir köynəyin istehsalı üçün pambıq yetişdirmək 2,7 min litr su tələb edir.Hesab edirik ki, pambıqçılıq kompleksinin gələcək inkişafı və rəqabət qabiliyyətliliyi ölkənin «yaşıl» iqtisadi inkişafını asanlaşdıran modeli müəyyən edir.

Qeyd edək ki, Azərbaycan kənd təsərrüfatında pambıqçılığın inkişaf etdirilməsinə hər zaman xüsusi önəm verilmişdir və hazırda da diqqət mərkəzindədir. Pambıq istehsalçılarının stimullaşdırılması üçün dövlət tərəfindən mühüm addımlar atılmaqdadır. Belə ki, 11.05.2010-cu il tarixdə "Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir ("Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2010.). Bu Qanun Azərbaycan Respublikasında pambıqçılığın hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, xam pambıq və pambıq məhsullarının dövriyyəsi ilə əlaqədar münasibətləri tənzimləyir. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının məqsədi ölkədə pambıqçılıq məhsullarına tələbatın ödənilməsi, pambıq emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılması, emal sənayesinin inkişaf etdirilməsi, pambıq məhsullarının ixracının artırılması, kənd yerlərində əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi üçün pambıqçılığa dövlət dəstəyinin gücləndirilməsindən və bu sahənin inkişafının stimullaşdırılmasından ibarətdir Dövlət Proqramında pambıq istehsalçıları ilə emal müəssisələri arasında səmərəli iqtisadi əlaqələrin qurulması; pambıqçılıq məhsulları istehsalı ilə əlaqəli sahələrin inkişafının dəstəklənməsi; pambıqçılıqda kooperasiyanın inkişaf etdirilməsi kimi vəzifələr

qarşıya qoyulmuşdur ("Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli Sərəncamı.

Qanunda və Dövlət Proqramında nəzərdə tutulmuş normalarda aydın şəkildə müəyyən edilmişdir ki, görülən tədbirlər pambıq istehsalına çəkilən xərcləri aşağı salmaq üçün büdcə vəsaiti hesabına susbsidiyaların verilməsinə, eyni zamanda, mineral gübrələrdən istifadəni yaxşılaşdırmaq üçün gübrənin 70% güzəştlə satılmasına, meliorasiya və suvarma tədbirlərini vaxtında aparılmasına imkan yaradır.

Kənd təsərrüfatı Nazirliyinin 01.01.2018 ci il məlumatına görə respublikada 18 təsərrüfatda taxıl və pambıq toxumu istehsal olunmuşdur. Bu toxumların repreduksiyası aşağı olduğundan əldə edilən məhsuldarlıqda aşağı olmuşdur. Elit – toxumçuluq işi əlavə maliyyə xərcləri tələb edir və bu yüksək məhsuldarlıqlı xam pambıq istehsalı ilə kompensasiya oluna bilər.

***Pambıqçılıqda «yaşıl» iqtisadiyyatın inkişaf etdirilməsi yolları***

Pambıqçılıqda «yaşıl» iqtisadiyyatı inkişaf etdirmək üçün aşağıdakı addımları atmaq olar:

• Üzvi pambıqdan istifadə edilməsi. Üzvi pambıq ekoloji cəhətdən təmiz bir mühitdə yetişdirilən təbii lifdir. Üzvi pambıq kimyəvi maddələrdən - herbisidlərdən, insektisidlərdən və funqisidlərdən istifadə edilmədən yetişdirilir. Bu becərmə üsulu tamamilə hipoalergik parça əldə etməyə kömək edir. Bu yanaşma ilə su sərfiyyatı azalır. Hesabata əsasən, 2019-2020-ci illərdə. 21 ölkədə yerləşən 588 425 hektar sertifikatlaşdırılmış sahədə ümumilikdə 229 280 fermer 249 153 ton pambıq yetişdirib. Artım 4% təşkil etmiş və üzvi pambıq istehsalı dördüncü ildir ki, davamlı olaraq artır. Textile Exchange 2021 illik hesabatına əsasən, 2019-2020-ci illərdə dünyada rekord miqdarda üzvi pambıq yığılıb. Xüsusilə son dörd ildə üzvi pambığa tələbat durmadan artır. Bütün əlamətlər tələbin artdığını göstərir, çünki brendlər tekstil sənayesinin ətraf mühitə təsiri ilə bağlı narahatlıqlara və ekoloji təmiz həllər üçün istehlakçı tələbatına cavab olaraq istehsal xəttlərində lif istifadəsini artırırlar. Lakin ümumilikdə, dünya pambıq məhsulunun demək olar ki, 1%-ni üzvi pambıq təşkil edir.

Kimyəvi emalın olmaması ilə yanaşı, üzvi pambıq yetişdirilməsi bir sıra digər xüsusiyyətlərə malikdir:

• Alaq otlarının əl ilə təmizlənməsi. Zərərvericilərə qarşı mübarizə çili, sabun və sarımsağın aromatik qarışıqlarından istifadə edərək əkinləri cərgəarası alaq etmə əl ilə aparılır.

• Gübrə kimi bitkiləri lazımi miqdarda qida maddələri ilə təmin edən, torpağı və suyu çirkləndirməyən təbii materiallardan - kompost və peyindən istifadə olunur.

• GMO toxumlarının olmaması. Üzvi pambıq becərərkən təsərrüfatlar yalnız geni dəyişdirilməyən toxum materiallarından istifadə edirlər.

• Əl ilə yığma. Yetişməmiş qozaları vaxtından əvvəl qoparmamaq üçün məhsul xüsusi texnikanın köməyi olmadan əl ilə alınır.

• Əkin dövriyyəsinə əməl etmə. Bol və keyfiyyətli məhsul əldə etmək üçün bir sahədə növbə ilə müxtəlif növ bitkilər yetişdirilir ki, bu da torpağın bioloji xüsusiyyətlərini bərpa etməyə imkan verir.

• İqlim cəhətdən optimallaşdırılmış kənd təsərrüfatı metodlarının tətbiq edilməsi. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) həyata keçirdiyi layihə çərçivəsində Azərbaycanda tədqiqatçılar və fermerlər nüvə və əlaqəli texnologiyalar əsasında iqlim cəhətdən optimallaşdırılmış kənd təsərrüfatı metodlarını dirçəldirlər. Bu metodlar pambıqçılığın aşağıdakı müxtəlif aspektlərini əhatə edir: torpağın

hazırlanması, ən yaxşı pambıq sortlarının seçilməsi, qida maddələrinin daxil edilməsi, suvarma texnologiyalarından istifadə edilməsi və alaq otlarına, zərərvericilərə və xəstəliklərə qarşı mübarizə.

• "Yaşıl" iqtisadiyyat çərçivəsində təbii ehtiyatlardan rasional istifadə edilməsi və şüurlu istehlak. "Yaşıl" istehlakçılar olmadan yaşıl iqtisadiyyat da olmayacaq. Məsələn, üzvi pambıq məhsullarına üstünlük verilə bilər, lakin onlar o qədər də geniş yayılmamış və istehsal üçün daha çox resurs tələb edir.

**Nəticə**

Ölkəmizdə üzvi kənd təsərrüfatının, o cümlədən üzvi pambıqçılığın inkişafı üçün əlverişli təbii-iqlim şəraiti var. Amma hər hansı bir innovasiyanın hüdudları, habelə sosial və ətraf mühitə vura biləcəyi zərərlər əvvəlcədən bütün ölçülərdə və diqqətlə öyrənilmədikdə, onlar çox ziddiyyətli ola bilir. "Yaşıl" texnologiyaların təşviqinə gəldikdə, onların tətbiqinə diqqətlə nəzarət etmək və sual vermək lazımdır: onlar necə tətbiq olunur? Kim udur, kim uduzur? Nəticə yalnız rəqabət aparan texnoloji həllərin həyata keçirilməsinə imkan verəcək etibarlı hədəf dəhlizlərinin müəyyən edilməsindən ibarət olmamalıdır.

Istehsal və istehlak modellərimizi əsaslı surətdə şübhə altına almasaq, texnoloji innovasiyaların heç meydana gəlməməsi və ya xeyirdən daha çox zərər verə bilməsi riski ilə üzləşə bilərik. Həqiqi innovasiyalar texnoloji tərəqqidən daha çox şeyləri əhatə edir. Onlar həm də sosial və mədəni xarakter daşıyır. Buna görə də fundamental dəyişikliklərə səbəb olan innovasiyaların (məsələn, aqroekoloji tədqiqatların) təşviqinə və onlar üçün yaxşı siyasi və maliyyə çərçivələrinin yaradılmasına daha böyük diqqət yetirilməli, üzvi məhsullar bazarına dövlət dəstəyi gücləndirilməli, başqa ölkələrdə üzvi pambıqçılığın inkişaf istiqamətləri öyrənilməlidir.

Bir sözlə, üzvi kənd təsərrüfatı məhsullarının istehsalı, o cümlədən üzvi pambıq yetişdirilməsi ilə bağlı proseslər nəzərə alınarsa və optimallaşdırılarsa, bunlar"yaşıl" iqtisadiyyata keçidin bir hissəsi ola bilər.

## ƏDƏBIYYATLAR


1. Abbasov A. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalı və satış bazarları// Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 2 (32) Agricultural Economics. S.53-66.
2. "Pambıqçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2010.
3. "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017–2022-ci illər üçün Dövlət Proqramı". Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 iyul tarixli Sərəncamı.
4. "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanunu, 13 iyun 2008-ci il.
5. Алтухов А. И. «Зеленая» агроэкономика: монография / А. И. Алтухов, В. И. Нечаев, Б. Н. Порфирьев; под ред. Б. Н. Порфирьева. - М.: Издательство РГАУ - МСХА, 2013. - 247 с.
6. Органическое сельское хозяйство и право. Рим: Продовольственная и сельскохозяйственная организация Объединенных Наций (ФАО), 2015. — 237 с.

# Xəzər Dənizinin Ekoloji Problemləri Və Onların Həllində Geosiyasi Amillərin Rolu

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**Təranə Şirvanova**
teraneshirvanova@gmail.com
**Bakı Dövlət Universiteti**
**Afət Seyidzadə**
seyidova_afet@mail.ru

**Xülasə**

Hazırda Xəzər –Qara dəniz hövzəsi və Cənubi Qafqazın geostrateji əhəmiyyəti, beynəlxalq əlaqələrin və beynəlxalq təhlükəsizliyin təmin olunmasındakı yeri və rolu kimi geosiyasi məsələlərlə bağlı həm uzaq xarici ölkə alimləri, həm də postsovet məkanını təmsil edən alimlər, geostrateqlər arasında fərqli fikirlər və müxtəlif yanaşmalar mövcuddur. Geosiyasi cəhətdən xüsusi əhəmiyyət daşıyan bu məkanda qlobal, regional və milli maraqların uzlaşdırılması taktikası, geosiyasi aktorların fərqli maraqlarının üst-üstə düşən, kəsişən məqamlarının tədqiqi uzun müddətdir ki, mütəxəssislərin və aidyyati qurumların diqqət mərkəzində olan problemlərdəndir. Sovet İttifaqının süqutundan sonra bölgənin həm geosiyasi, həm də təhlükəsizlik mühitinin xarakteri və meylləri köklü surətdə dəyişdi. Müstəqillik əldə etmiş və beynəlxalq sistemin subyektinə çevrilmiş yeni dövlətlər bölgədə öz maraqları çərçivəsində alternativ geosiyasi meyllər nümayiş etdirməyə başladılar. Bütün bunlar, eyni zamanda, regionun geostrateji münasibətlərini mürəkkəbləşdirməklə yanaşı beynəlxalq əhəmiyyətini də artırır. Yeni beynəlxalq münasibətlər sistemində həll olunması mürəkkəb geosiyasi xarakter alan problemlərdən biri də Xəzərin ekoloji problemləridir. Belə ki, əvvəllər sadəcə SSRİ və İranın daxili su hövzəsi hesab olunan Xəzər hazırda beş müstəqil sahilyanı ölkənin geosiyasi və milli maraqlarının əsas obyektlərindən biridir. Bu vəziyyət Xəzər dənizinin çirklənməsinin qarşısının alınması, bütövlükdə, xilası üçün zəruri olan tədbirlərin həyata keçirilməsini hüquqi və geosiyasi baxımdan çətinləşdiriir.

**JEL kod: Q2, Q3, Q4, Q5**

**Açar sözlər:** Xəzər dənizinin çirklənməsi, Xəzərin geosiyasi əhəmiyyəti, ekoloji təhlükəsizlik

**Summary**

Currently, there are different opinions and different approaches among scientists from distant foreign countries, as well as scientists and geostrategists representing the post-Soviet space, regarding geopolitical issues such as the geostrategic importance of the Caspian-Black Sea basin and the South Caucasus, their place and role in ensuring international relations and international security. The tactics of reconciling global, regional and national interests in this space, which is of particular geopolitical importance, and the study of the overlapping and intersecting points of different interests of geopolitical actors, have long been among the problems that have been in the focus of attention of specialists and relevant institutions. After the collapse of the Soviet Union, the nature and trends of both the geopolitical and security environment of the region have changed radically. New states that have gained independence and become subjects of the international system have begun to demonstrate alternative geopolitical trends in the region within the framework of their interests. All this, at the same time, not only complicates the geostrategic relations of the region, but also increases its international importance. One of the problems whose solution in the new system of international relations takes on a complex geopolitical character is the ecological problems of the Caspian Sea. Thus, the Caspian, previously considered only as an internal water basin of the USSR and Iran, is now one of the main objects of geopolitical and national interests of five independent littoral

states. This situation complicates the implementation of measures necessary for the prevention of pollution of the Caspian Sea and, as a whole, for its salvation from a legal and geopolitical point of view.

**Keywords:** pollution of the Caspian Sea, geopolitical importance of the Caspian sea, ecological security

**Xəzər Dənizinin Ekoloji Problemləri Və Onların Səbəbləri.**

Bu məqalədə sevdiyimiz, hüsnünə şeirlər yazılan, nəğmələr bəstələnən, sahilində yaşayan bütün xalqlar üçün həyat mənbəyi olan Xəzər haqqında yazacağıq. Bəs biz Xəzərin qayğısına qala bilirikmi, onun insanlara bəxş etdiklərinin əvəzində insanlar onu hansı vəziyyətə salıb?! Xəzər dənizinin sahəsi hazırda təqribən 371.000 km², maksimal dərinliyi 1025 m-dir. Xəzər dənizi okean mənşəlidir - yatağı okean tipli qabıqdan ibarətdir, təxminən 10 milyon il əvvəl dünya okeanı ilə əlaqəni itirmiş qapalı Sarmat dənizi iki hissəyə - Xəzər dənizinə və Qara dənizə bölündüyü zaman yaranmışdır. Adını qədim at yetişdirən tayfaların - Xəzər dənizinin cənub-qərb sahilində eradan əvvəl yaşamış xəzərlərin şərəfinə almışdır. Xəzər dənizinin mövcud olduğu tarix boyu müxtəlif tayfalar və xalqlar arasında 70-ə yaxın adı olmuşdur. Coğrafi mövqeyinə görə Xəzər dənizi Avrasiya qitəsinin iki hissəsinin - Avropa və Asiyanın qovşağında yerləşir.Müasir elmin məlumatına görə, son 3 min il ərzində Xəzər dənizinin su səviyyəsində dəyişikliklərin amplitudası 15 metr təşkil edib. Xəzər dənizinin səviyyəsinin instrumental ölçülməsi və onun tərəddüdlərinin sistemli müşahidələri 1837-ci ildən aparılır, bu müddət ərzində suyun ən yüksək səviyyəsi 1882-ci ildə (-25,2 m), ən aşağı səviyyəsi isə 1977-ci ildə (-29,0 m) qeydə alınıb. 1978-ci ildə suyun səviyyəsi yüksəldi və 1995-ci ildə -26,7 m-ə çatdı, 1996-cı ildən etibarən yenidən azalma tendensiyası yarandı. Alimlər Xəzər dənizinin su səviyyəsinin dəyişməsinin səbəblərini iqlim, geoloji və antropogen amillərlə əlaqələndirirlər. İlk dəfə Xəzər dənizinin elmi tədqiqinə Rusiya çarı Birinci Pyotrun göstərişi ilə 1714-1715-ci illərdə A.Bekoviç-Çerkasskinin rəhbərliyi ilə ekspedisiya təşkil olunduğu zaman başlanmışdır. Qeyd edim ki, məhz Xəzər dənizinin elmi xəritəsini hazırlatdığına görə Birinci Pyotr 1716-cı ildə Paris Elmlər Akademiyasına üzv seçilmişdir.

Məqalədə Xəzər dənizinin müxtəlif problemlərini tədqiq etmiş yerli və xarici ölkə alimlərinin əsərlərindən, rəsmi qurumların statistik məlumatlarından istifadə olunmuşdur.

Son illər nadir təbiət obyekti olan Xəzər dənizinin ekoloji sağlamlığının qorunması problemi son dərəcə kəskinləşib. Xəzər unikal su hövzəsidir, onun karbohidrogen ehtiyatları və bioloji zənginliyinin dünyada analoqu yoxdur. Xəzər dənizi dünyanın ən qədim neft hasil edən hövzəsidir. Azərbaycanda, Abşeron yarımadasında neft hasilatı 150 ildən çox əvvəl başlanmış və neft hasilatına ilk dəfə olaraq xarici investisiyalar oraya yönəldilmişdir. Şelfdə neft sənayesinin inkişafı 1924-cü ildə başlayıb. Sovet dövründə Xəzər məsələsinin siyasi tərəfi o idi ki, Xəzər regionuna daha çox bütün SSRİ üçün strateji ehtiyat kimi baxılırdı və əsas diqqət Qərbi Sibirdə yataqların işlənməsinə yönəldilirdi (Həsənov,2010). SSRİ-nin dağılmasından sonra əsaslı şəkildə fərqli vəziyyət yarandı. “Strateji ehtiyatlar” yeni müstəqil dövlətlərin mülkiyyətinə çevrildi və dərhal beynəlxalq neft-qaz korporasiyaları ilə sövdələşmə obyektinə çevrildi. Və eyni zamanda digər problemlər də prioritet olaraq ortaya çıxdı: Xəzər dənizinin statusu, mümkün enerji nəqli marşrutları, regionda neft və qaz ehtiyatlarının işlənməsinə investisiyalar və təbii ki, Xəzər dənizinin ekoloji problemləri. Xəzər regionu Xəzər dənizinin perimetri boyunca yerləşən beş ölkəyə aiddir; bunlar Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistandır. Xəzər dənizi problemi bu gün çox aktualdır, lakin Xəzərin beynəlxalq hüquqi statusu və neft ehtiyatlarının Xəzəryanı dövlətlər arasında bölüşdürülməsi məsələsinin necə həll olunmasından asılı olmayaraq, Xəzər regionun ümumi ekoloji obyekti olaraq qalır. Belə ki, onun hər hansı bir hissəsindəki böhran ümumi ekoloji fəlakətlə nəticələnəcək

ki, bu da son nəticədə hər bir dövlətin şəxsi planlarına və onun inkişaf perspektivlərinə təsir edəcək. Beləliklə, Xəzər dənizinin əsas ekoloji problemlərinə nəzər salaq.

***Dənizin çirklənməsi***

Təbii ki, Xəzərin əsas çirkləndiricisi həm də onun ən böyük sərvəti olan Neftdir. Neftlə çirklənmə Xəzər dənizinin mavi-yaşıl rənglərdə dəniz yosunlarının inkişafına maneə törədir.və onlar oksigen istehsalını azaldır. Çirklənmənin artması su səthi ilə atmosfer arasında istilik, qaz və nəm mübadiləsinə də mənfi təsir göstərir. Neft təbəqəsinin geniş ərazilərə yayılması səbəbindən buxarlanma sürəti bir neçə dəfə azalır. Xəzər dənizinin çirklənməsi çoxlu sayda nadir balıqların və digər canlı orqanizmlərin ölümünə səbəb olur. Neftlə çirklənmənin təsiri su quşlarında daha aydın görünür. Nərə balıqlarının ehtiyatları durmadan azalır. Neft xammalı başqa xammalla əvəz oluna bilər, lakin nərə balığını heç nə ilə əvəz etmək olmaz və heç bir yerdə neft dollarına almaq olmaz. Dənizin çirklənməsi dənizdəki canlı orqanizmlərin xəstələnməsinə səbəb olur. Xarici orqanizmlərin nüfuz etməsi də problemdir. Yaxın keçmişə qədər yad növlərin təhlükəsi ciddi hesab edilmirdi. Əksinə, Xəzər dənizi hövzənin balıq məhsuldarlığını artırmaq üçün nəzərdə tutulmuş yeni növlərin introduksiyası üçün sınaq meydançası kimi istifadə edilmişdir. Başqa dənizlərdən və göllərdən gələn yad orqanizmlər Xəzər dənizini işğal etməyə başlayanda hadisələr dramatik şəkildə dəyişdi. Məsələn, Xəzər dənizi üçün əsl fəlakət Ktenofor adlı yad orqanizmin gəmilərin ballast suları ilə gələrək kütləvi şəkildə çoxalması oldu. Bu orqanizm ilk dəfə Azov dənizində təxminən on il əvvəl meydana çıxmışdı və 1985-1990-cı illərdə Azov və Qara dənizləri sözün əsl mənasında viran etmişdi(Dobayev,2018). Bu yad orqanizm çox güman ki, Şimali Amerika sahillərindən gəmilərdə ballast suyu ilə birlikdə regiona gətirilmişdi. O əsasən zooplanktonla qidalanır, gündəlik öz çəkisinin təxminən 40%-nədək qida istehlak edir və bununla da Xəzər balıqlarının qida bazasını məhv edir. Sürətli çoxalma və təbii düşmənin olmaması planktonun digər istehlakçıları ilə rəqabətdən kənarlaşdırır. Ktenofor nərə balığı kimi ən qiymətli balıqlar üçün də təhlükə yaradır. İqtisadi qiymətli balıq növlərinə təsir təkcə dolayı yolla, qida ehtiyatının azalması ilə deyil, həm də onların birbaşa məhv edilməsi ilə özünü göstərir. Xəzər dənizində vəziyyət Azov və Qara dənizlərdə olduğu kimi inkişaf edərsə, o zaman dənizin balıqçılıq dəyərinin tamamilə itirilməsi çox da uzaqda deyil.

***Həddindən artıq balıq ovu və brakonyerlik.***

Согласно нормативно-правовой основе к предполагаемым критериям оценивания соответствия инвестиционного проекта относятся экспортоориентированность и конкурентоспособность продукции (работ, услуг), а также положительное влияние на окружающую среду. Исходя из этого, считаем процесс инициирования ЭП в качестве логических результатов и продвижений этих мероприятий, в связи с чем и соответствие принципу модернизации существующих ПП вмешательством государства или ГЧП.

Оба парка будут применять ВИЭ. К примеру, в освещённости Агдамского ПП внедряются солнечные панели. Предполагается направление ПП «Экономическая Зона Аразская Доли-на» и на вторичную переработку промышленных и сельскохозяйственных продукций.

К защите природной среды относятся эконалоги. Государственной Налоговой Службой при Министерстве Экономики страны предполагается подготовка предложений в направлении реформ, поощряющих применение эконалогов и экоустойчивой экономики. Во-обще, к налогооблагаемым объектам относятся дозволенные сбросы загрязнённых веществ, дозволенные выведения сточных вод, содержание и закопка производственных отбросов.

**Выводы**

*Новые результаты исследования:* Итак, в результате кейс-стади нами выявлено, что в регионе Гарабах не сформированы первичные предпосылки для этого преобразования, а лишь наличен её признак по Агдамскому ПП. Кроме того, определена роль государства в формировании рыночной конъюнктуры посредством продвижения функционирования ПП – выдвижения критериев, способствующих приобретению резидентами ПП сертификатов.

Потенциал региона Гарабах позволяет ему стать флагманом для продвижения трансформации ПП в ЭП по стране – поспособствовать разработке экономических мер, к примеру, заложить базис разработки нормативно-правовой основы будущего функционирования ПП.

Азербайджанской Республике, будучи вошедшей из-за доли доходов от нефти в ряд государств со средним доходом, с региональной рамки предлагаем учесть параметры, упущенные странами низкого и среднего уровней доходов.

В ракурсе фискального поощрения экокомпонентов ПП предлагаем применение следующих мер экономической поддержки:

- вхождение страны в ВТО в будущем заставит азербайджанские, в т.ч. гарабахские компании принять к сведению международные стандарты. Обязывание обладать сертификатом может носить сдерживающий характер с точки зрения вовлечения инвесторов. Однако отметим, что их приобретение имеет добровольный характер. Предполагаем, что, с другой сторо-ны, эконалоги могут быть факторами, из-за которых перспективные резиденты будут тормозить свои стремления в азербайджанские ПП. В связи с этим для стимулирования про-цесса приобретения сертификатов предлагаем рассмотреть вопрос разработки льготной сис-темы применительно к эконалогу для предприятий, обладающих подобным сертификатом;

- для компаний, инвестировавшим в природоохранные действия и уменьшающим выбросы, также можно предложить понижение суммы эконалога. Образуются стимулы во вложении в экомодернизацию. У частного сектора должны быть гарантии того, что при вложении в экопроекты от государства он приобретёт льготные налоги;

- возможно и обеспечения государственной субсидией резидентов для оборудований альтернативной энергетики, предоставления льгот применяющим ВИЭ резидентам.

В ракурсе цифровизационного поощрения предлагаем интегрировать ПП в кон-цептуальные рамки «умного города», в связи с этим управляющая организация ПП может:

- содействовать резидентам в сооружении и внедрении вариаций умных заводов с целью роста производительности труда и охраны природной среды. Умные заводы являются генеральным принципом Индустрии 4.0. Количество работающих уменьшается на долю: они необходимы для мониторинга деятельности, техобслуживания. Трансформация в этот принцип займёт 7-15 лет;

- в рамках устойчивого продвижения ПП внедрить приложения информационных технологий в приоритетах совершенствования комплекса менеджмента всем ПП.

*Сходство с предыдущими исследованиями:* исследование сходно с точки зрения учёта принципов устойчивого продвижения, нормативных дополнений, критерия института продвижения ЭП в контексте управляющей организации, отражения роли государства в трансформационном процессе. Отличительная черта – применение критерия приобретения сертификатов другого международного института продвижения.

*Перспектива для дальнейших исследований:* считаем целесообразным продолжить исследование, касающееся мониторинга сведений о наличии соответствующих сертификатов у резидентов ПП региона Гарабах для установления уровня перехода к экоустойчивой деятельности, т.е. определения признаков, предпосылок, либо в случае полного удовлетворения требования уже начального этапа трансформации ПП региона Гарабах в ЭП.

***P. S.*** Предлагаем управляющим организациям ПП страны внести в официальные сайты наряду с информацией о сфере деятельности резидентов и данных о наличии у них сертификата.

Потому, что эта информация может непосредственным образом отражать экостатус функционирующих парков, а также заинтересовать партнёров.

*Н. И.*

**Литература**


1. İqtisadi Zonaların İnkişafı Agentliyi (30.09.2024). https://economiczones.gov.az/iqtisadi-zonalar/senaye-parklari

2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbacyan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı. https://president.az/az/articles/view/50474

3. Azərbaycan Respublikasının işqaldan azad edilmiş ərazilərində 2022-20260-cı illərdə "yaşıl enerji" zonasınıı yaradılması üzrə Tədbirlər Planı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 iyun tarixli 357s nömrəli Sərəncamı. https://nk.gov.az/az/senedler/serencamlar/"azarbaycan-respublikasinin-isgaldan-azad-edilmis-arazilarinda-2022-2026-ci-illarda-"yasil-enerji"-z-6209

4. Арутюнова, Г. И. (2022). Неоиндустриализация, её сущность и что делать России? Морские Порты, № 5. https://morvesti.ru/analitika/1691/97524/

5. Волосникова, Г. А., и Дахова, Е. В. (2017). Анализ экономической эффективности альтернативных технологий. Наилучшие доступные технологии в охране окружающей среды (164). Хабаровск. Издательство ТОГУ, 196 стр.

6. Всероссийский Экологический портал (2021, 7 сентября). Загрязнение окружающей среду отходами производств и потребления. https://ecoportal.su/public/zagryazn/view/1485.html

7. Миронов, Д. С. (2020). Индустриальные парки как результат эволюции форм производственной организации. «Теоретическая и Прикладная Экономика», № 2, 9-27. https://nbpublish.com/library_read_article.php?id=32718

8. Сычев, Я. В. (2012). Экологическая безопасность при организации деятельности индустриального парка. Пожары и Чрезвычайные Ситуации: Предотвращение, Ликвидация, № 4, 47-51.

9. Фоменко, Г. А., и Шоронина, Н. Е. (2018, 19 февраля). Эко-промышленные парки – важный элемент новой экономики. Научно-технический центр «Ресурсы и консалтинг». https://ntc-rik.ru/opinions/k-chemu-privedet-novoe-reshenie-suda-po-etomu-voprosu/

10. Google (30.09.2024). Поисковая система. https://www.google.com/

11. Kaplan, Y. (June 2023). Analysing the Role of the State in the Transformation of Industrial Parks to Eco-industrial Parks. Kent Akademisi Dregisi, *16 (3)*: 1781-1795. https://doi.org/10.35674/kent.1225675

12. Kim, H.-W., Dong, L., Jung, S., & Park, H-S. (2018). The Role of the Eco-Industrial Park (EIP) at the National Economy: An Input-Output Analyses on Korea. Sustainability. 10, 4545, 19 p. https://doi.org/10.3390/su10124545

13. Melnychenko, A., Shevchuk, N., Babiy, I., Blyznyuk, T., & Akimova, O. (2022, January). Transformation of Insudtrial Parks in the Direction of Providing of the Purposes Achievement of Sustainable Development. IJCSNS International Journal of Computer Science and Network Security. VOL.22, No.1, 7-14.

14. Mozaleva, N., Ivanova, M., & Kulkaev, G. (29 Dec 2023). Model of state support for industrial parks as a tool for sustainable development. IJtech Vol 14, № 8. https://doi.org/10.14716/ijtech.v14i8.6834

15. Negesa D., Geme T., Nijman-Ross E. & Ntawuhiganayo EB. (2023). Eco-industrial transformation in Uganda: performance evaluation of industrial park using the international EIP framework. Front. Sustain, 4:1286611. doi: 10.3389/frsus.2023.1286611.

16. Pereiera, R. and dos Santos, N. (July 2023). Neoindustrialization-Reflections on a New Paradigmatic Approach for the Industry: A Scoping Review on Industry 5.0. Logistics, 7, 43. https://doi.org/10.3390/logistics7030043

17. Shevchuk, N., Tulchynska, S., Severyn-Mrachkovska, L., Pidlisna, O., & Kryshtopa, I. (2021, December). Conceptual Principles of the Transformation of Industrial Parks into Eco-Industrial Ones in the Conditions of Sustainable Development. IJCSNS International Journal of Computer Science and Network Security. VOL.21, No.12, 349-355.

18. United Nations Insustrial Development Organization (2018). Leveraging a New Generation of Industrial Parks and Zones for Inclusive and Sustainable Development. Strategic Framework. Vienna, 71 p. https://ipp.unido.org/knowledge/documents/leveraging-new-generation-industrial-parks-and-zones-inclusive-and-sustainable

19. World Bank Group (2021). Circular economy in industrial parks: technologies for competitiveness. 152 p. https://documents1.worldbank.org/curated/en/486571617995781752/pdf/Circular-Economy-in-Industrial-Parks-Technologies-for-Competitiveness.pdf

## "Yaşıl iqtisadiyyata" transformasiyanın məşğulluq aspekti

**i.f.d., b/m, Esmira Abdullayeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
esmira_abdullayeva@mail.ru

**Giriş.**

Son onilliklərdə qlobal miqyas üzrə artımın əsas mənbəsi hesab edilən qənaətin gerçəklikdə çox yüksək olmaması – ekoloji faktorlar, daha doğrusu, itkilər hesabına yetərincə azalması iddia olunurdu və DB-nın hesabatlarına görə 2006-cı ildə qlobal məcmu qənaət milli gəlirin 22,7% - nə bərabıər olmuşdu. Ancaq təbii enerji qaynaqlarının, mineral və meşə resurslarının itkisi, CO2 və.s. ekoloji zərərlərə görə təshih edilmiş qənaət milli gəlirin 13,9 %-nə bərabərləşmişdi.( The Little Green Data Book, 2009). 2013-cü ildə qlobal meyl dəyişməmişdi və məcmu qənaət milli gəlirin 26,4, təshih edilmiş qənaət isə 11,7% -i həddində olmuşdu.( The Little Green Data Book,2009). Ümumiyyətlə, son illər insanlığın artım və rifah hududlarına yaxınlaşması və ardıcıl olaraq, qlobal ekoloji fəlakətlə şərtlənən iqtisadi fəlakətlə üzləşə bilməsi təhlükəsi artıq tədqiqatlarda mübahisə predmeti deyil. Artıq ekoloji və iqtisadi böhranların əlaqəliliyi(Norouzi,2021) təkcə tədqiqatlarla aşkarlanmır və təbii fəlakətlərin – qlobal iqlim dəyişmələrindən irəli gələn fəlakətlərin dəhşətli nəticələrinin həm də son əsrlərdəki təsərrüfat fəaliyyəti ilə bağlılığı öz – özlüyündə şübhə doğurmur. Məlumdur ki, iqtisadiyyatın və rifahın artımının davamlılığı baxımından çıxış yolu SG (dayanıqlı inkişaf) konsepsiyasının ardıcıl tamamlanması və gerçəkləşmə mexanizmlərindən biri sayıla bilən "yaşıl iqtisadiyyat" - GE yanaşması hesab edilir. Belə ki, GE konsepsiyası formalaşma anında – 1989 –cu ildə xalqın iqtisadi baxımdan müvəffəqiyyətli, sosial və ekoloji cəhətdən "sağlam" olması yolunu iqtisadi və ekoloji mənafelərin

balanslaşdırılmasında deyil, ekoloji vəziyyəti yaxşılaşdıran iqtisadi artım vektoru qurulmasında görmüşdü.( David Pearce, Anil Markandya and Edward B. Barbier,1989 ) İqtisadi dayanıqlı, ekolloji təhlükəsiz, sosial məsuliyyətli bu modelin (Кузнецов М. Е.,2023 ) çoxölçülülüyü – iqtisadi, siyasi, hüquqi və s. sistemin ən müxtəlif tərəflərinə təsiri də şübhə doğurmur.

**"Yaşıl iqtisadiyyat" və məşğulluq: nəzəri yanaşmalar**

"İqtisadiyyatda yaşıllaşmanın" ən ciddi təsirlərindən birinin məşğulluqla bağlılığı da şübhəsizdir və araşdırmalarda da göstərilir ki, iqlim siyasətinin (GE siyasətinin) məcmu effekti ekoloji baxımdan pozitiv, məşğulluq baxımından neytral və ya iş yerlərinin itirilməsi baxımından neqativ ola bilər.( Francesco Vona,2018 ) Doğrudur, GE siyasəti təkcə iş yerlərinin itirilməsini deyil, həm də iş yerlərinin yaranmasını şərtləndirir və 2000-2021-ci illərdə AB-nin "ətraf mühit" iqtisadiyyatında məşğulluq artımı 163% olub.( Environmental economy – statistics on employment and growth,2021) Ümumiyyətlə, GE siyasəti məşğulluq müstəvisində iki məsələnin – çox vaxt ziddiyyətli olan iş yelərinin ekolojiləşdirilməsi və yüksək məşğulluq səviyyəsinin qorunması məsələlərinin həllinə yönəlir. Qlobal, milli , local GE siyasətilə gerçəkləşdirilməsi nəzərdə tutulan "yaşıl" məşgulluğun artımı məsələnin başqa bir ziddiyyətli məqamı "yaşıl" iş yeri anlayışının şərhindəki ziddiyyətlərlə bağlıdır. Məsələn, BƏT istər ənənəvi, istərsə də bərpa olunan enerji mənbələri kimi "yaşıl" sektorlardakı layiqli iş yerlərini - ətraf mühiti qoruyan və bərpa edən iş yerlərini "yaşıl" hesab edir( GGEG,2021). Avrostatın da şərhi oxşar sayıla bilər və bu qurum hava, su, torpaq səthinə və s.-ə ziyan verməyən, həmçinin belə ziyanları minimallaşdıran "daha təmiz" texnologiyalı sferaları ekoloji iqtisadiyyata aid edir. Deməli, bu sektordakı məşğulluq da "yaşıl" kimi xarakterizə oluna bilər. "Yaşıl məşğulluğun" sadalanan şərhləri istehsal və proses yanaşmalarına əsaslanır(Eurostat,2009). Bu şərhlər qismən qüsurlu hesab olunmalıdır və özlüyündə aydndır ki, xalis ekolozasiyalı sahələr belə - məsələn, külək enerjisi sektoru da xalis "yaşıllıqla" fərqlənmir. Belə ki, bu sektorun avadanlıqları mineral resurslardan istifadə ilə hazırlanır. Yaxud xalis ekoloji əmtəələrdən hesab edilən elektromobil istehsalında mis, nikel, litium, sink, manqan, kobalt və s. nadir metallardan istifadə olunur(Samuel Jones, 2023). "Ekoloji məşğulluğun" iş vəzifələri və vərdişləri ilə müəyyən olunduğunu hesab edən yanaşmalar da var və bəzi tədqiqatçılar "yaşıl işi" vəzifələrin ekolojilik səviyyəsinə görə fərqləndirməyi, "yaşıl" terminınə binar xarakteristika müstəvisində deyil, fasiləsizlik müstəvisində baxmağı – yəni iş yerlərinin yasıl və qeyri–yaşıl bölgüsünü ekoloji zərərsizlik səviyyəsinə görə bölgü ilə əvəzləməyi məqsədəuyğun sayırlar. Onların fikrincə dolayı "yaşıl" işə keçid birbaşa keçiddən – yəni istehsalın ləğvi əvəzinə istehsal texnologiyasının ekoloji təshih edilməsi daha asandır və bu halda işdən ayrılmadan lazımi vərdişlərə yiyələnmək olar (Bowen, A., Kuralbayeva, K. and Tipoe, E.L,2018). "Yaşıl məşğulluğun" izahını iqtisadi müstəvidən sırf sosial müstəviyə keçirməyə cəhd edən sistem yanaşmasına görə kapitalizm təbii harmoniyanı dağldır. Bu radikal yanaşma ekoloji iş və işçini mövcud iqtisadi paradiqmalar çərçivəsindən – istehsalın əsas məqsədini mənfəət almaqda görən paradiqmalardan kənarda aydınlaşdırmağı doğru sayır. İş yerinin sosial zərurətinin önəmli hesab edən "işdən sonra" sistemi bir çox fəaliyyət növlərinin sosial faydasını şübhəli hesab etsə də, çoxlu ödənişsiz fəaliyyətləri – məsələn, uşaqlara ana qayğısını, evdar qadının ailə işlərini və s. sosial əhəmiyyətli sayır. "İşdən sonra" sisteminə görə ekoloji iş yeri təbii resurs istismar etməyən, kütləvi istehlak artımına yönəlməyən fəaliyyətlə əlaqəlidir (Stefanie Gerold, Maja Hoffmann, Ernest Aigner, 2022). Cəmiyyətdə sosial dayanıqlığın nüvəsini təşkil edən elementlərdən biri hesab edilən məşğulluğa münasibətdəki bu radikalizm məqbul hesab edilməsə də, anlaşılandır. Belə ki, iqlim şokları artıq bütövlükdə insanlığı

taleyi üçün təhlükəyə çevrilir və doğrudan da bu gün aşağı səviyyəli iqlim məsuliyyəti sosial tərəqqinin məhvə apara bilər. Doğrudan da, "ölü planetdə iş yerləri olmur"( John Evans, 2015).

Bu tədqiqatlar və sənədlərdəki şərhlərin kiçik fərqlərini və mahiyyətcə oxşarlığını nəzərə alsaq, "yaşıl iş yeri" və "yaşıl yaxalıqlı peşələri" UNEP –in şərhinə müvafiq - kənd təsərrüfatı, inzibati fəaliyyət, tədqiqat sferası, istehsal, xidmət sferası və s.-də ətraf mühitin qorunma və bərpasına tövhə verən peşələr kimi xarakterizə oluna bilər. "Yaşıl yaxalıqlı" peşələr siyahısında isə tədqiqatlara və beynəlxalq qurumların sənədlərinə görə həm köhnə - aqrar sferanın, tikintinin, ictimai menecmentin, kimya sənayesinin və s.-in ekoloji yönlü mütəxəssisləri, ekoloqlar, ətraf mühit mütəxəsssisləri və s.-lə birgə yeni peşələr – ekorəssamlar, landşaft dizaynerləri, ekoloji buna dizaynerləri, ekoloji tikinti mütəxəssisləri, "yaşıl" mühəndislər və məsləhətçilər və s.-də vardır(14,2024). Elmi – metodiki mənbələrə əsasən ümumiləşdirmələr aparsaq, "yaşıl təsərrüfatçılıq" qurulması mərhələsində məşğulluğu ekoloji sektorda və ekoloji proseslərdəki ("yaşıl" sektora "dost" hesab edilən sektor) işçi sayı və köhnə sektorun işçi sayı, bu sektorun transformasiyasından yaranan iş yerləri müəyən edir. Hesab olunur ki, ənənəvi iqtisadiyyatdan "yaşıla" transformasiya prosesində "qeyri – yaşıl" sektorda istehsalın ekoloji yükünün artması ilə birgə həmçinin məşğulluğun da transformasiyası –"yaşıllaşması" baş verir və bütün bu proseslər iş yerilərinin mahiyyətcə zənginləşməsinə - layiqli iş yerlərinin formalaşmasına gətirir və gətirməlidir. Məlumdur ki, BƏT azad, bərabər, təhlükəsiz və insan ləyaqətinin qorunması şərtləri daxilindəki əməyi layiqli iş yerinінin şərti sayıb(Patricia Urban, Vasileios Rizos, Alexandre Ounnas, Amin Kassab, Hayk Kalantaryan.,2023). Məsələnin bu tərəfinə - layiqli iş yeri xüsusiyyətinə sadəcə bir şüar kimi baxılmamalıdır. Qaynaqlarda birmənalı göstərilir ki, xalis "yaşıl" sferalardan birində - tullantıların emalı sferasında belə iş yeri yalnız sağlamlıq və təhlükəsizlik mühafizə olunanda, sosial müdafiə gerçəkləşəndə "yaşıl" sayılır. BƏT –in məşhur sxeminə uyğun olaraq(İLO,2022) "yaşıl təsərrüfatçılıq " etapının ümumiyyətlə məşğulluğu belə təsvir etmək mümkündür.

**Qrafik 1. "Yaşıl təsərrüfatçılıq " mərhələsində məşğulluq**




***Mənbə:*** *15., p 12*

Məşğulluqdakı "yaşılllaşma" prosesinin istehsaldakı ekolozasiyadan irəli gəlməsi öz – özlüyündə aydındır, ancaq iş yerlərinin ekoloji mahiyyətinin güclənməsi öz-özünə baş vermir. İstər "yaşıl" sektor və proseslərdəki məşğulluq və ya ənənəvi sektorun "yaşıl" istiqamətdə transformasiyasına müvafiq

olaraq bu sferada məşğulluğun transformasiyası ən azından işçilərin yeni bilgilər əldə etməsini, yeni bacarıq və vərdişlərə yiyələnməsini tələb edir. “Yaşıl” məşğulluğun mahiyyət xüsusiyyətlərini - yeni bilik tələbləri ilə birgə yeni sosial – mədəni münasibətlər formalaşması zərurətini nəzərə alan araşdırmalarda məşğulluğun “yaşıllaşdırılması” baxımından 8 strateji istiqamət üzrə dıəyişikliklər - müəssisələrin “yaşıl” yöndə yenidən qurulması, əmək qanunvericiliyinin ekoloji baxımdan təshihi, iqlim dekommodifikasiyası (fərdlərin iqlim dəyişikliklərini şərtlndirən məşğulluqdan asılılığının azaldılması), ixtisas təhsili və yenidən ixtisaslaşma, iş vaxtının bölgüsü, məşğulluqda sosial – ekoloji təminatlar, alternativ gəlir mənbələrinin yaradılması və gəlirlərin bərabərlşdirilməsi üzrə dəyişikliklər önəmli sayılır( Katharina Bohnenberger,2022). Araşdırmalardan məlum olan digər bir cəhət də dəyişmələrin fundamental xarakterdə ola bilməsidir. Məsələn, müəssisələrin “yaşıllaşdırılması” prosesində enerji məsrəfli avadanlıqların işinin mümkün hallarda əl əməyi ilə əvəzlənməsi, taxıl mənşəli süd emalı kimi əsaslı dəyişmələr müzakirə olunur. Yaxud qanunvericilik üzrə isçilərə ekoloji zərərli işlərin icrasından imtina etmək hüquqlarının verilməsi təıklif edilir. Dekommodifikasiya üçün baza gəlirlərinin müəyyənləşməsi təklifi də əsaslı bir dəyişiklik nümunəsidir. İş vaxtının “yaşıl” tələblərə uyğunlaşdırılmasında əmək məhsuldarlığı artımına proporsional olaraq iş vaxtının qısaldılması təklifi də prinsipial təkmilləşdirmələrlə cəhd nümunəsi hesab edilməlidir( Katharina Bohnenberger, 2022). Bu diqqətə çatdırılan məsələlərdən bəlli olur ki, “yaşıl iqtisadiyyatın” məşğulluğa təsiri təkcə iş yerlərin ləgv və yaranması ilə, işçilərin yenidən hazırlanması ilə başa çatmır və “yaşıl məşğulluq” texnoloji yeniləşmələrlə bahəm hüquqi, sosial, mədəni, ekoloji dəyərlər sistemində köklü təkmilləşdirmələri tələb edən çoxtərəfli transformasiya prosesi nəticəsində gerçəkləşir. Aydındır ki, “yaşıl məşğulluqla” bağlı bu nəzəri məsələlərin dürüst şərhi təşəkkül tapan ekoloji iqtisadiyyatın effektiv inkişaf məcrasına yönəlməsi baxımından önəmlidir və dürüst şərhlər və ekoloji məşğulluğun mövcud tendensiyaları əsasında perspektivə aid müəyyən ssenariləri irəli sürmək mümkündür. “Yaşıl iqtisadiyyatın” da, ardıcıl olaraq məşğulluğun da təşəkkül prosesinin ağırlıq mərkəzinin AB –nin təşkil etməsi məlumdur və bu regiondakı məşğulluq tendensiyalarının öyrənilməsi başqa ölkələrdəki məşğulluq transformasiyası proseslərinin məsrəflərini minimallaşdırmaq baxımından əhəmiyyətlidir.

**AB–də “yaşıl məşğulluq” tendensiyaları**

AB üzrə 2011-2019-cu illərdə “yaşıl məşğulluq” tendensiyalarından sezilən ilk cəhət budur ki, məşğulluğun “ekoloji” strukturunda bu müddətdə nəinki inqilabi dəyişiklik baş verməmiş, hətta struktur əsasən sabit qalmışdır. ”Yaşıl” işlərlə yüksək ekoloji zərərli işlərin məcmu məşğulluqdakı payının müqayisəsində söylənilən mülahizə təsdiqlənir.

**Qrafik 2.AB –nin bəzi ölkələri üzrə “yaşıl” və ekoloji zərərli məşğulluq(məcmuya %-lə) 2011-2019**




***Mənbə:*** *19, figure 1*

Qrafik göstəricilərdən sezilir ki, AB-nin bəzi ölkələrində müəyyən tərəddüdlərlə birgə ekoloji məşğulluq artımı tendensiyası stabildir. Çexiya, Norveç, Finlandiyada belə bir meyllərin mövcudluğu şübhəsizdir. Ancaq Slovakiya, İspaniyada iş yerlərinin yaşıllaşması tendensiyası əvəzinə iş yerlərinin ekoloji dayanıqsızlığı tendensiyası sezilir. Qeyd edilməlidir ki, istər qlobal pandemiya, istərsə də son illərin geosiyasi situasiyası, xüsusilə Avropanı bərpa olunan enerjidən üstün istifadəyə sövq edən tendensiya yəqin ki, ekoloji iqtisadiyyat və məşğulluğun artımı üçün əlavə motivlər yaradıb və bu cəhətləri nəzərə alan araşdırmalara görə AB -27 üzrə 2020 -2030 –cü illərdə məşğulluq – ekoloji istiqamətli məşğulluq ümumiyyətlə optimist nəticələr vəd edir. Bəzi sektorlarda məşğulluğun kəskin azalması bir sıra sferalarda – iqtisadi tərəqqi və ictimai rifah baxımdan daha əhəmiyyətli sferalardakı artımla kompensasiya olunması və bütövlükdə məşğulluq artımının gerçəkləşməsi gözlənilir. Yəni, yeniliyin yaratdığı tərəddüdlərin son nəticəsinin effektivliyi güman edilir. AB -27 üzrə ən kəskin azalma və artım olan sahələrə diqqət yetirməklə mümkün məşğulluq ssenarisi aşağıdakı kimidir.

**Qrafik 3. AB -27 üzrə məşğulluq tendensiyaları. 2020 -2030 –cu illər**




*__Mənbə:__ 17, table A 1*

Beləliklə, yaşıl iqtisadi sistemə keçidin yarada biləcəyi məşğulluq tərəddüdləri zəif deyil və əlbəttə belə bir keçid sosial müdafiə, təhsil və peşə hazırlığı sferasında ciddi təkmilləşdirmələri şərtləndirir. Qeyd edilənlər məşğulluqda gözlənilən və hər bir ölkəni əhatə edəcək köklü dəyişmələrin sosial, iqtisadi, mənəvi itkilərini minimallaşdırmaq baxımından önəmli olan bəzi nəticələri aşkarlamağa əsas yaradır:

- Qlobal iqlim dəyişmələrinin bütövlükdə təsərrüfatçılılıq sisteminə baxışları dəyişməsi ənənəvi iqtisadiyyatdan yaşıl iqtisadiyata – istehsalın önəmli hədəflərindən birinin ekoloji dayanıqlılığı qorumaq olan iqtisadiyyata keçidi labüd edib;
- Çoxtərəfli bir proses olan “yaşıl iqtisadiyyata” keçid sosial–iqtisadi sistemin bütün tərəflırinə, o cümlədən məşğulluğa da nüfüz edir və bu təsirin perspektivli güclənəcəyi gözləniləndir;
- “Yaşıl məşğulluq” ekoloji istehsal və proseslərdə çalışanların sayı və eyni zamanda ekoloji zərərli istehsallarda baş verən texnoloji dəyişmələrlə – yaşıl texnologiyalara keçidlə məşğulluq transformasiyasında yaranan dəyişmələrlə müəyyənləşir;
- Ekoloji iqtisadiyyata keçidin məşğulluqda yaratdığı şoklar – təbii resurs istismarı üzrə təşəkkül tapan iatehsallarda məşgulluğun ixtisarı və ekoloji yönümlü sahələrdə artımı müvəqqəti bir tendensiya deyil, uzunmüddətli bir meyldir.
- Ekoloji iqtisadiyyata keçid məşğulluqda peşələrin ləğvi və ya yaranması ilə birgə köklü sosial-mədəni yeniləşmələri – layiqli iş yerlərinin formalaşmasına yönələn yeniləşmələri zəruri edir.
- “Yaşıl məşğulluğa” keçidin məsrəflərinin minimallaşdırılması peşə və mütəxəssis hazırlığı prosesinin olduğca çevikləşməsini də tələb edir;

**Xülasə**

Məqalədə qlobal ekoloji fəsadların qarşısının alınmasına yönələn “yaşı iqtisadiyyatın” məşğulluğa təsiri araşdırılır. “Yaşıl məşğulluğa” aid müxtəlif nəzəri yanaşmaların təhlili ilə göstərilir ki, “yaşıl iqtisadiyyatın” formalaşması nəticəsində ekoloji istehsal və proseslərdə çalışanlar və ənənəvi sektordakı “yaşıl texnoloji dəyişmələr”lə ekoloji məşğulluğa transformasiya edənlər “yaşıl məşğulluğu” təşkil edirlər. Məqalədə bu baxışlara istinadən ekoloji məşğulluğun formalaşmasının müəyyən iş yerlərinin ləğvi və yeni iş yerlərinin yaranması ilə müşaiyət olunduğu göstərilir və həmçinin qeyd edilir ki, məşğulluğun “yaşıllaşdırılması” prosesi təkcə yeni peşə və ixtisaslara yiyələnmə zərurətini şərtləndirmir. Bu proses məşğulluğa münasibətdə yeni sosial-mədəni dəyərlər sisteminin –

sosial müdafiəni gücləndirən, gəlrlər qeyri – bərabərliyini azaldan, iş vaxtının məhsuldarlıq templərinə müvafiq ixtisarını nəzərdə tutan, işçiyə ekoloji zərərli işlərin yerinə yetirilməsindən imtina hüququ tanıyan sistemin qurulmasını labüd edir.Məqalədə AB nümunəsində "yaşıl məşğulluğun" mövcud tendensiyalarının öyrənilməsinə və perspektiv proqnozların dəyərləndirilməsinə cəhd edilir. AB –də 2011-2019-cu illərdə "yaşıl məşğulluqda" dinamika müşahidə edilməməsi ilə birgə regionun ayrı –ayrı ölkələrində ekoloji məşğulluğun ümumi artımının gerçəkləşməsi göstərilir. 2020-2030-cu illərdə AB–də hasilat, kimya sənayesi və s. sahələrdə məşğulluğun kəskin *azalmasının, ancaq ekoloji məşğulluqdakı müsbət tendensiya hesabına məcmu məşğulluqda artım olacağı* diqqətə çatdırılır.

***Açar sözlər:*** yaşıl iqtisadiyyat, yaşıl məşğulluq, dayanıqlılıq, məşğulluqda transformasiya

**Abstract**

The article examines the impact of the "green economy" - an economy aimed at preventing global environmental impacts on employment. As a result of analyses of various theoretical approaches, it is shown that "green employment" includes those who work in environmental industries and processes and the transformation of traditional jobs into environmental employment through "green technological changes" in the traditional sector. The article, with reference to these views, indicates that the formation of ecological employment is accompanied by the elimination of certain jobs and the creation of new jobs, and also notes that the process of "greening" employment determines not only the need to master new professions and specialties. This process marks the establishment of a new system of socio–cultural values in relation to employment - a system that strengthens social protection, reduces income inequality, provides for a corresponding reduction in working hours in terms of productivity, recognizes the employee's right to refuse to perform environmentally harmful work. The article attempts to study the current trends of "green employment" on the example of the EU and assess long-term forecasts. In combination with the lack of dynamics of "green employment" in the EU in 2011-2019. It is planned to implement the overall growth of environmental employment in individual countries of the region.In 2020-2030 it is indicated that in the EU there will be a sharp decrease in the employment of mining, chemical industry, etc., but due to the positive trend in environmental employment there will be an increase in total employment.

***Keywords:*** green economy, green employment, sustainability, employment transformation

**Ədəbiyyat:**


1. .The Little Green Data Book .2009. https://books.google.com.tr/books?id=_LLu8ApD2fMC&printsec=frontcover&hl=id&source=gbs_ge_summary_r&cad=0#v=onepage&q&f=false

2. The Little Green Data Book . 2017. https://openknowledge.worldbank.org/server/api/core/bitstreams/43e6a32e-69dd-5d1b-aaa3-7b74e3394daf/content

3. Article | Open Access | 10.31586/ujfe.2021.108.Green Economy: A Necessary Decision to be Taken.Nima Norouzi.Department of Energy Engineering and Physics, Amirkabir University of Technology (Tehran Polytechnic), 424 Hafez Avenue, PO. Box 15875-4413, Tehran, Iran. https://www.scipublications.com/journal/index.php/ujfe/article/view/108

4. Blueprint for a Green Economy. David Pearce, Anil Markandya and Edward B. Barbier. Earthscan, London.1989.file:///C:/Users/ User/Downloads/Blueprint_for_a_Green_Economy %20(1).pdf

5. Кузнецов М. Е. Возможности и риски развития зеленой экономики. Мир новой экономики. 2023;17(3):6-17. https://vostokgosplan.ru/wp-content/uploads/399-718-1-sm.pdf

6. Francesco Vona.Job losses and political acceptability of climate policies: why the 'job-killing' argument is so persistent and how to overturn it Article · Climate Policy ISSN: 1469-3062 (Print) 1752-7457 (Online) Journal October 2018 DOI: 10.1080 /14693062.2018.1532871.file:///C:/Users/User/Downloads/VonaClimatePolicy%20(1).pdf

7.Environmental economy – statistics on employment and growth. https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Environmental_economy_–_statistics_on_employment_and_growth

8. Global Guidance for Education on Green Jobs Connecting Higher Education and Green Opportunities for Planetary Health 2021 https://wedocs.unep.org/bitstream/handle/20.500.11822/35070/GGEGJ.pdf

9. The environmental goods and services sector. Methodologiesand Working papers.Eurostat.2009. https://ec.europa.eu/eurostat/documents/3859598/5910217/KS-RA-09-012-EN.PDF

10. Bowen, A., Kuralbayeva, K. and Tipoe, E.L. (2018), 'Characterising green employment: The impacts of 'greening' on workforce composition', Energy Economics, Vol. 72, pp. 263- 275.

11. Towards a critical appraisal of work in ecological economics: A moral economy perspective Stefanie Gerold , Maja Hoffmann , Ernest Aigner. Institute of Philosophy and Social Sciences, Brandenburg University of Technology Cottbus - Senftenberg, Erich-Weinert-Straße , Cottbus, Germany. Department of Socioeconomics, Vienna University of Economics and Business, Welthandelsplatz 1/D4, Vienna, Austria.2022. file:///C:/Users/User/Downloads/ssrn-4196768.pdf

12. There are no jobs on a dead planet.**Dec 7, 2015.**John Evans, General Secretary, Trade Union Advisory Committee to the OECD (TUAC). https://medium.com/@OECD/there-are-no-jobs-on-a-dead-planet-42f633585933

**13.** Green jobs, skills and enterprises. Reaserch, documentation, approaches and recommendations.Samuel Jones.2023. **https://www.vsointernational.org/sites/default/files/_2023-12/Green%20Jobs%20Skills%20and%20Enterprises.pdf**

14. What are Green Jobs? Guide to Green Careers for 2024. https://www.construction placements.com/what-are-green-jobs-guide-to-green-careers/

15. İLO. Green Jobs, Green Economy, and Just Transition Concepts and Definitions: The UN-ILO perspective Thursday, 17th February 2022 1 st meeting of the G7 ETF under German Presidency,Berlin. **https://www.ilo.org/sites/default/files/wcmsp5/groups/public/@dgreports/@dcomm/documents/presentation/wcms_842327.pdf**

16.Patricia Urban, Vasileios Rizos, Alexandre Ounnas, Amin Kassab, Hayk Kalantaryan. JOBS FOR THE GREEN TRANSITION.Definitions, classifications and emerging trends. September, 2023 – 12 **https://circulareconomy.europa.eu/platform/sites/default/files/2023-09/CEPS-In-depth-analysis-2023-12_Jobs-for-the-green-transition-1.pdf**

17. THE GREEN EMPLOYMENT AND SKILLS TRANSFORMATION. Insights from a European Green Deal skills forecast scenario. Luxembourg: Publications Office of the European Union, 2021. https://www.cedefop.europa.eu/files/4206_en.pdf

18. Greening work: labor market policies for the environment Katharina Bohnenberger. Empirica .2022. file:///C:/Users/User/Downloads/s10663-021-09530-9.pdf

19. OECD Economics Department Working Papers No. 1803 Labour markets transitions in the greening economy: Structural drivers and the role of policies Orsetta Causa, Emilia Soldani, Maxime Nguyen, Tomomi Tanaka.2024

## “Yaşıl” iqtisadiyyat və onun əsas transformasiya alətləri

**Dosent, Qəhrəman Saleh oğlu Bayramov**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**qehreman.bayramli@bk.ru**
**baş müəllim, Nərgiz Əmiraslan qızı Əliyeva**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**qarabagli.111@mail.ru**

**Xülasə**

Tədqiqatın məqsədi yaşıl iqtisadiyyatın xüsusiyyətlərini və onun sosial yönlü sistemə transformasiya vasitələrini müəyyən etməkdir. Qarşıya qoyulan məqsədə nail olmaq aşağıdakı əsas vəzifələrin yerinə yetirilməsini zəruri etdi: 1) “yaşıl” və ənənəvi iqtisadiyyatlar arasında əsas fərqlərin müəyyən edilməsi; 2) “yaşıl” iqtisadiyyat konsepsiyasının müxtəlif istiqamətlərinin nəzərdən keçirilməsi; 3) “yaşıl” iqtisadiyyat sahəsində transformasiyanın əsas alətlərinin seçilməsi.

Məqalədə əvvəlcə, yaşıl iqtisadiyyat konsepsiyasının müxtəlif sahələrinin müqayisəsi aparılmış, ənənəvi və yaşıl iqtisadiyyatın müqayisəsi aspektləri araşdırılmış, ənənəvi və yaşıl iqtisadiyyata münasibətdə “üç dairə modeli“nin şərhi verilmişdir. Daha sonra “yaşıl” iqtisadiyyatın tənzimlənməsi alətlərinin xarakterik cəhətləri və əhəmiyyətləri izah edilərək onların səmərəliliyinə aydınlıq gətirilmişdir. Müəllif tərəfindən həmçinin müəssisənin ətraf mühitə təsirinin tənzimlənməsi alətləri kimi ssenari planlaşdırılması və ekoloji auditin sosial yönlü sistemə transformasiyasındakı rolu vurğulanmışdır.

Məqalənin sonunda verilən nəticələrdə “yaşıl” iqtisadiyyatın alətlərinin və ənənəvi iqtisadi modeldən fərqlərinin tədqiqi əsasında belə qənaətə gəlinir ki, “yaşıl” iqtisadiyyat bazarı sürətlə böyüyür və onun fəaliyyət növləri genişlənir, təklif olunur ki, yaşıl iqtisadiyyatın əsas prinsiplərinin həyata keçirilməsinin səmərəliliyini artırmaq üçün üç əsas alət qrupundan: iqtisadi, marketinq və korporativ vasitələrdən istifadə edilsin, birmənalı olaraq vurğulanır ki, müasir həyat qabiliyyətli iqtisadiyyatın əsas inkişafı məhz “yaşıl” iqtisadiyyatın tənzimlənməsində effektiv vasitələrin tətbiqindən, bunun üçün isə dövlət və ekoloji cəhətdən şüurlu cəmiyyətin dəstəyindən keçir.

**Açar sözlər:** yaşıl iqtisadiyyat, transformasiya alətləri, tənzimlənmə alətləri, ssenari planlaşdırılması, ekoloji audit.

**Summary**

The purpose of the study is to determine the characteristics of the green economy and the means of its transformation into a socially oriented system. Achieving the set goal made it necessary to fulfill the following main tasks: 1) defining the main differences between "green" and traditional economies; 2) review of various aspects of the "green" economy concept; 3) selection of the main tools of transformation in the field of "green" economy.

First, the article compares different areas of the concept of green economy, examines the aspects of comparison of traditional and green economy, gives an interpretation of the "three circle model" in relation to traditional and green economy. Later, the characteristics and importance of "green" economy regulation tools were explained and their efficiency was clarified. The author also emphasized the role of scenario planning and environmental audit in the transformation of a socially oriented system as tools for regulating the enterprise's impact on the environment.

In the results given at the end of the article, on the basis of the study of the tools of the "green" economy and their differences from the traditional economic model, it is concluded that the green economy market is growing rapidly and its types of activities are expanding, it is suggested that three main groups of tools should be used to increase the efficiency of the implementation of the main principles of the green economy: economic, marketing and corporate means should be used, it is unequivocally emphasized that the main development of a modern viable economy is through the application of effective means in the regulation of the "green" economy, and for this, the support of the state and ecologically conscious society.

**Keywords:** green economy, transformation tools, regulatory tools, scenario planning, environmental audit.

## GİRİŞ

Azərbaycanda qeyri-sabit sosial-iqtisadi vəziyyət şəraitində insan və təbiət arasında məsuliyyətli münasibətlər problemi sosial əhəmiyyət kəsb edir. Bu gün A.Piqunun (Pigou, 1943) qeyd etdiyi kimi, öz mənfəətini istənilən yolla maksimuma çatdırmağa çalışan iqtisadiyyatın müxtəlif sahələrinə aid müəssisələr öz fəaliyyətlərinin nəticələrini belə düşünmədən təbiətdən məhdud resurslar alır, ətraf mühiti çirkləndirirlər. Ekoloji normalara və təbiət qanunlarına etinasızlıq Azərbaycanın davamlı inkişafını və onun Avropa İttifaqına daxil olmasını mümkünsüz edir. Axı ölkəmiz dünya bazarında bərabərhüquqlu və hörmətli tərəfdaşa çevrilmək üçün biznesin aparılmasının hamılıqla qəbul edilmiş mənəvi prinsiplərinə əməl etməlidir.

“Yaşıl iqtisadiyyat” adlı siyasətin köməyi ilə sosial yönümlü iqtisadiyyata keçid yüksək resurs tutumlu iqtisadiyyatın mövcud tendensiyaları şəraitində aktualdır ki, bu da ekoloji böhrandan çıxmağa,

əhalinin rəqabət qabiliyyətini artırmağa imkan verəcəkdir. Azərbaycan iqtisadiyyatına və mövcud əmək bazarına əhəmiyyətli dərəcədə təsir göstərir.

Yaşıl iqtisadiyyat siyasətinin nəzəri və praktiki aspektlərini tədqiq etmişlər: R.M.Əliquliyev, Ə.Q.Əliyev (Əliquliyev və Əliyev, 2016) V. Qasımlı, R.Huseyn, R. Huseynov, R.Həsənov, C. Cəfərov, A.Bayramova (Qasımlı vd, 2022), F.Abbaszadə, A.Satıcı (Abbaszadə və Satıcı 2023), S.R. Hümbətova (Hümbətova, 2024), S. Hüseynov (Hüseynov, 2022), M.Xeyirxəbərli (Xeyirxəbərli, 2023) və başqaları. Bununla belə, "yaşıl" iqtisadiyyatla mövcud iqtisadi model arasındakı fərqləri, eləcə də onun əsas tənzimləmə alətlərini vurğulamağa ehtiyac var.

Ümumilikdə bəşəriyyətin həyat səviyyəsinin yüksəlməsinə baxmayaraq, "qəhvəyi iqtisadiyyat"ın dominant modeli bu gün əhəmiyyətli mənfi nəticələrə gətirib çıxarır: iqlim dəyişikliyi, biomüxtəlifliyin itirilməsi, təbii ehtiyatların tükənməsi, ətraf mühitin çirklənməsi, insanların və ölkələrin bərabərsizliyi. Bu iqtisadi model həm indiki, həm də gələcək nəsillər üçün təhlükə yaradır.

## 1. Yaşıl iqtisadiyyat konsepsiyasının müxtəlif sahələrinin müqayisəsi

Bu gün bəşəriyyətin mövcudluğu planetimizin imkanlarından kənara çıxan o qədər resurs tələb edir. Əsrin son rübündə qlobal ümumi daxili məhsulda 4 dəfə artım olsa da, iqtisadi artım əsasən təbii ehtiyatların istehlakı hesabına əldə edilir. Təbii ehtiyatlara olan tələblərimiz indiki templə artmaqda davam edərsə, 2030-cu ildə insan həyatını dəstəkləmək üçün indiki iki planetin ekvivalentinə, 2050-ci ildə isə 2,8 planetə ehtiyac olacaq. Aydındır ki, sosial, maliyyə, yanacaq və iqlim problemlərini kompleks şəkildə həll etməyə imkan verəcək inkişaf konsepsiyasına keçid, prinsipial olaraq yeni addımlar atılmalıdır. (UNEC, 2024)

İqtisadiyyatın iqtisadi, ekoloji və sosial modernləşdirilməsinə təcili ehtiyac 1992-ci ildə Rio-de-Janeyroda keçirilən Yer Sammitindən sonra bəşəriyyətin gələcək inkişafını təmin etmək üçün həyati əhəmiyyət kəsb edən elan edilmiş "yaşıl" iqtisadiyyat konsepsiyasının yaradılmasına səbəb olmuşdur. UNEM (Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı) tərifinə görə (ЮНЕП, 2011)., "yaşıl" iqtisadiyyat insanların rifahının yüksəlməsinə və sosial ədalətin möhkəmlənməsinə gətirib çıxaran, eyni zamanda ətraf mühit üçün riskləri və ekoloji resursların qıtlığını əhəmiyyətli dərəcədə azaldan iqtisadiyyatdır.

Yaşıl iqtisadiyyat anlayışı həmçinin iqtisad elmində və fəlsəfədə ekoloji iqtisadiyyat, ətraf mühit iqtisadiyyatı, sosialist və feminist iqtisadiyyat kimi bir çox başqa istiqamətlərin ideyalarını ehtiva edir (cədvəl).

**Cədvəl**

**Yaşıl iqtisadiyyat konsepsiyasının müxtəlif sahələrinin müqayisəsi**

| İqtisadiyyat növü | Xarakterik cəhətləri |
|---|---|
| **Ətraf mühit iqtisadiyyatı** | **O, ənənəvi iqtisadi paradiqmaya əsaslanır: ölçmə və ədədi yanaşmaya üstünlük vermək; az əhəmiyyətli dəyərlər** |
| **Ekoloji iqtisadiyyat** | **Ekologiya və iqtisadiyyatın fənlərini birləşdirməyə cəhd; mənəvi ölçü daha az əhəmiyyət kəsb edir** |
| **Sosial iqtisadiyyatı** | **Bərabərliyi vurğulayır, lakin materializmi və antroposentrizmi müdafiə edir** |

| | |
|---|---|
| **Feminist iqtisadiyyat** | **Prinsipləri və dəyərləri bölüşür, lakin daha məhdud sahəni əhatə edir; əsasən nəzəri xarakter daşıyır** |

Mənbə: Müəlliflər tərəfindən (Molly Scott Cato, 2009) mənbəyi əsasında hazırlanıb

Bu gün yaşıl iqtisadiyyat bazarı sürətlə inkişaf edir və müxtəlif fəaliyyət növləri ilə təmsil olunur. Əsərdən (Кузьмін, 2011) belə çıxır ki, "yaşıl" iqtisadiyyat günəş və külək enerjisi, geotermal mənbələr, bioyanacaq istehsalı, bərk məişət tullantıları və s. əsaslanan innovativ "yaşıl" texnologiyaların istifadəsi ilə sıx bağlıdır.

**2. Ənənəvi və yaşıl iqtisadiyyatın müqayisəsi aspektləri. Üç dairə modeli.**

Biz yaşıl iqtisadiyyatı bugünkü dominant iqtisadi paradiqmadan aşağıdakı əsas aspektlərdə fərqləndirməyi təklif edirik:

1. Orientasiya fərqi. Ənənəvi iqtisadi model əsasən mənfəətin maksimumlaşdırılmasına yönəlib. Əvəzində "yaşıl" iqtisadiyyat dayanıqlı dəyərlərə (iqtisadiyyat, cəmiyyət və ekologiyanın qarşılıqlı asılılığının tanınması; təbii sistemlərin bütövlüyünə hörmət; təbiət qanunlarının tanınması və onlara riayət edilməsi; ədalət prinsipi gələcək nəsillərin mənafeyinə riayət edilməsi) söykənib.

2. İqtisadiyyat və sosial ədalət arasında əlaqə. Əgər ənənəvi iqtisadiyyat üçün sosial ədalət yalnız periferik hesab edilən üstqurum, əhəmiyyətsiz bir hissədirsə, "yaşıllar" üçün bərabərlik və ədalət prinsipi diqqət mərkəzindədir. (United Nations Conference on the Human Environment, 1972).

3. Baş vermə mənbəyinə görə. Ənənəvi iqtisadiyyatdan fərqli olaraq, "yaşıl" iqtisadiyyat mücərrəd nəzəriyyələrdən deyil, ekoloqların və "yaşıl" siyasi partiyaların praktik fəaliyyətindən yaranmışdır. M. E. Stadnikin qeyd etdiyi kimi (Стадник, 2013), "yaşıl iqtisadiyyat" anlayışı UNEM-in Yaşıl İqtisadiyyat Təşəbbüsü (Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı), OECD-nin (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) Yaşıl İnkişaf Strategiyası kimi Böyük 20 liderlərinin müxtəlif hökumətlərarası forumları sayəsində yaranıb və müzakirələr zamanı məlum olub.

4. İnnovativ aspekt. Ənənəvi iqtisadiyyat müxtəlif tipli məktəblərdə və ali təhsil müəssisələrində tədris olunan akademik bir fəndir. İqtisadi fikrin "yaşıl" istiqaməti nisbətən yenidir, korporativ sosial məsuliyyət hesabatları, beynəlxalq və milli tövsiyələr, planlar ilə təmsil olunur və bütün dünyada elmi müzakirələr sahəsindədir. Məsələn, BMT-nin çoxsaylı nəşrləri, o cümlədən UNEP, UNDESA (İqtisadi və Sosial Məsələlər Departamenti), UNCTAD (Ticarət və İnkişaf Konfransı), UNKSD (Dayanıqlı İnkişaf Konfransı) "yaşıl" iqtisadiyyat anlayışını, onun əsas prinsiplərini, üstünlükləri, riskləri və bu sahədə beynəlxalq təcrübəni ümumiləşdirir. Son zamanlar çoxsaylı qeyri-hökumət təşkilatları da "yaşıl" iqtisadiyyat konsepsiyasının yayılmasına kömək etmək üçün çoxlu səylər göstərirlər (Чмир, 2013).

5. Kəmiyyət və keyfiyyət aspekti. Ənənəvi iqtisadiyyat yalnız kəmiyyətə diqqət yetirir, "yaşıl" iqtisadçılar isə daha çox insan həyatının keyfiyyəti ilə maraqlanırlar. Bu kontekstdə "yaşıl" iqtisadiyyatla ənənəvi iqtisadiyyat arasında daha bir əhəmiyyətli fərqi, yəni "yaşıl" iqtisadiyyatın iqtisadi artıma vurğudan ayrılaraq "iqtisadiyyatın sabit vəziyyəti"nə uzunmüddətli üstünlük verməsini görmək olar. Stabil dövlət iqtisadiyyatlarında Yer kürəsini ən qıt resurs hesab edərək planetar sərhədlərə hörmət edilir. Bu o deməkdir ki, biz təsərrüfat fəaliyyəti subyektləri olaraq bu resursdan istifadə səviyyəsini azaltmaqla yanaşı, onun məhsuldarlığını artırmalıyıq. Ona görə də kəmiyyətə yox, keyfiyyətə daha çox diqqət yetirilməlidir.

İqtisadiyyatın sabit vəziyyətinə nail olmaq üçün aşağıdakılar lazımdır:

- Yer resurslarını mübadilə edən insanların sayına və onların istehlak səviyyəsinə diqqət yetirmək;
- planetin regenerativ qabiliyyəti haqqında məlumat almaq;
- bərpa olunmayan təbii sərvətlərin tükənməsi ilə müqayisədə ehtiyatların daha sürətli yenilənmə qabiliyyətini təmin etmək, habelə ətraf mühitə tullantıların və emissiyaların səviyyəsini məhdudlaşdırmaq.

6. İqtisadiyyat, cəmiyyət və ekologiyanın qarşılıqlı asılılığının fərqi. Bunu M. S. Katonun təklif etdiyi "üç dairə" modelindən istifadə etməklə göstərmək olar (şəkil). Konvensional görünüşdə (şəkildə solda) iqtisadiyyat, ekologiya və cəmiyyət qarşılıqlı əlaqədədir, lakin bir-birindən asılı deyildir. Buna baxmayaraq, modelin hər bir elementi eyni dərəcədə vacibdir (dairələrin bərabər ölçüsü ilə sübut olunur), lakin reallıqda qərarlar qəbul edərkən iqtisadiyyat daha çox təsir göstərir. Nəticədə kifayət qədər yüksək qiymət qoyulmuş nəticələrin aradan qaldırılması üçün cəmiyyət və ətraf mühit itkilərə məruz qalır.

Yaşıl iqtisadiyyat konsepsiyasının "üç dairə" modeli (şəkildə sağda) cəmiyyətin ətraf mühitin içərisində olduğunu, iqtisadiyyatın isə cəmiyyətin bir hissəsi olduğunu göstərir. Bu kontekstdə həm cəmiyyət, həm də iqtisadiyyat ətraf mühitdən asılıdır. Bu, artıq qeyd edildiyi kimi, davamlı dəyərlər adlanan iqtisadiyyatın "yaşıl" istiqamətinin subyektləri tərəfindən müşahidə edilməli olan dəyərlərdə özünü göstərir.




**Şəkil. Ənənəvi və yaşıl iqtisadiyyata münasibətdə "üç dairə" modelinin müqayisəsi Mənbə:** (Molly Scott Cato, 2009)

**3. "Yaşıl" iqtisadiyyatın tənzimlənməsi alətləri və onların səmərəliliyi**

"Yaşıl iqtisadiyyat" konsepsiyasının həyata keçirilməsi və inkişafının məqsəd, prinsip və vəzifələrini formalaşdırmaq üçün iqtisadiyyatın "yaşıl" istiqamətinin effektiv tənzimlənməsi sisteminin qurulması zəruridir. Fikrimizcə, "yaşıl" iqtisadiyyatın tənzimlənməsi alətlərinin üç əsas qrupunu ayırmaq olar: iqtisadi, marketinq və korporativ.

Alimlər "yaşıl" prinsiplərə keçid üçün bir çox iqtisadi alətlər müəyyən edirlər.

iqtisadiyyat, yəni (Molly Scott Cato, 2009; Захарова, 2024):

- ekoloji vergilər və vergi güzəştləri;
- "yaşıl" sahibkarlığa dövlət və özəl investisiyalar;

- ekoloji istehsala subsidiyaların tətbiqi və resurs tutumlu istehsallar üçün müvafiq olaraq ləğv edilməsi;

- mal və xidmətlər üçün ticarət maneələrinin aradan qaldırılması.

Məsələn, hələ 1990-cı ildə Avropa İttifaqı hökumətinin təklifinə əsasən, İsveç, Finlandiya, Norveç, Hollandiya və Danimarka kimi ölkələr karbon emissiyalarına vergi tətbiq ediblər. Nəticədə, məsələn, İsveçdə CO2 emissiyalarının səviyyəsinin və müəssisələr tərəfindən elektrik enerjisindən istifadə səviyyəsinin müvafiq olaraq 7% və 10% azalmasına nail olunmuşdur (Molly Scott Cato, 2009).

Bir çox ölkələrdə ekoloji məqsəd daşıyan vergi güzəştləri və subsidiyalar mövcuddur və onların alıcıları bələdiyyələr (ABŞ-da dövlət çirkab sularının təmizlənməsi proqramı 75% federal fondlar tərəfindən maliyyələşdirilir) və ya ayrı-ayrı vətəndaşlar (Böyük Britaniyada, alıcılar aşağı gəlirli ailələrdir və subsidiyalar binaların izolyasiyası üçün nəzərdə tutulub, Almaniya və ABŞ-da enerjiyə qənaət edən tikinti texnologiyalarına sərmayə qoyan özəl və hüquqi şəxslər üçün vergi güzəştləri mövcuddur).

Ekoloji problemlərə artan diqqət insan sağlamlığına və ətraf mühitə zərər verməyən məhsulların (xidmətlərin) istehsalına, satışına və istehlakına yönəlmiş marketinq vasitələrinin inkişafına kömək etdi. İstehlakçının şüurunda məhsul və ya xidmətin ekoloji faydalılığını onun ayrılmaz və əhəmiyyətli xüsusiyyəti kimi gücləndirmək üçün şirkətlər öz əmtəə nişanlarını yarada və ya müxtəlif neytral institutlar və çoxsaylı ətraf mühitin mühafizəsi assosiasiyaları tərəfindən verilmiş ekoloji markalardan (sertifikatlardan) istifadə edə bilərlər.

Yaşıl iqtisadiyyat sahəsində marketinqin inkişafı üçün qlobal tədbirlər Cenevrədəki Beynəlxalq Standartlaşdırma Təşkilatı tərəfindən hazırlanmışdır, onlar ISO 14000 təşəbbüsündə təcəssüm olunur, hansıları əhatə edir:

1) ISO 14001: Ətraf Mühitin İdarəetmə Sistemləri - istifadə üçün spesifikasiyalar və təlimatlar;

2) ISO 14004: Ətraf Mühitin İdarəetmə Sistemləri – prinsiplər, sistemlər və tətbiq üsulları üzrə ümumi təlimat;

3) ISO 14010-14015: Ətraf mühitin auditi;

4) ISO 14024: Ətraf mühitin etiketlənməsi;

5) ISO 14031: Ətraf Mühitin İdarə Edilməsi. Ekoloji xüsusiyyətlərin qiymətləndirilməsi üçün təlimatlar;

6) ISO 14040-14044: Məhsulun həyat dövrünün təhlili;

7) ISO 14050: Sözlük;

8) ISO 14060: Məhsul standartlarında ekoloji aspektlərin uçotu üçün təlimatlar.

Ətraf mühitin etiketlənməsi məhsul və ya xidmətlərin həyat dövrünün bütün mərhələlərində ətraf mühitə təsirini xarakterizə edən başqa bir marketinq vasitəsidir. Markalanma məhsulun və ya qabın üzərində işarə, qrafik təsvir şəklində ola bilər, mətn sənədi, texniki bülleten, reklam şəklində təqdim edilə bilər. Ekoloji etiketləmənin məqsədi bircins məhsullar qrupu arasında həyat dövrünün bütün mərhələlərində ətraf mühitə daha az təsir göstərən məhsulları müvafiq işarə ilə ayırmaqdır.

Marketinq alətlərinə həmçinin, ilk növbədə cəmiyyətin ekoloji maarifləndirmə səviyyəsinin yüksəldilməsinə yönəlmiş müxtəlif növ reklamlar, bannerlər, elanlar daxil ola bilər.

### 4. Müəssisənin ətraf mühitə təsirinin tənzimlənməsi alətləri: ssenari planlaşdırılması və ekoloji audit

